AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M.FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 8

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2013

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik Ağamusa Axundov, akademik Vasim Məmmədəliyev, akademik İsa Həbibbəyli, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Tofiq Hacıyev, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Teymur Kərimli, AMEA-nın müxbir üzvü, f.e.d., prof. Əbülfəz Quliyev, f.e.d., prof. Fəxrəddin Veysəlov, f.e.d., prof. Vilayət Əliyev, f.e.d., prof. Qəzənfər Kazımov, f.e.d., prof. Rüfət Rüstəmov, f.e.d., prof. Məsud Mahmudov, f.e.d., prof. Mübariz Yusifov, f.e.d., prof. Qəzənfər Paşayev, f.e.d., prof. Əbülfəz Rəcəbli, f.e.d., prof. Nizami Xudiyev, f.e.d., prof. Cəlil Nağıyev, f.e.d., prof. Nadir Məmmədli, fil.ü.e.d. Paşa Kərimov, f.e.d., prof. Kamilə Vəliyeva, f.e.d. prof. Azadə Musayeva, f.e.d. Möhsün Nağısoylu, fil.ü.f.d. Nəzakət Məmmədli.

Buraxılışa məsul: filologiya üzrə elmlər doktoru Paşa Kərimov
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2013, № 8

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2013

www.filolologiyameseleleri.com

DİLÇİLİK

QƏZƏNFƏR KAZIMOV
Filologiya elmləri doktoru, professor
AMEA Dilçilik İnstitutu

ERKƏN ORTA ƏSRLƏRDƏ AZƏRBAYCAN XALQININ VƏ ÜMUMXALQ AZƏRBAYCAN DİLİNİN TƏŞƏKKÜLÜ

Bir sıra alimlərin fikrinə görə, türkün beşiyi Altay olmuş, eramızın əvvəllərindən başlayaraq, onlar şərqə, qərbə, şimala və cənuba oradan yayılmışlar. Bu cür alimlərin tipik nümayəndəsi kimi, Murad Aci yazır: ... Gün gəldi ki, Altayda sıxlıq yarandı: hədsiz əhali yaşayırdı orda, torpaq hamını yedirdə bilmirdi. Uzaqlara nəzər salmağı tələb edən çətin anlar başladı.

Altaydan yol dünyanın dörd tərəfinə aparırdı. Hansı ilə getmək? Hansını seçmək?

Altay I əsrdə əcdadlar üçün bütöv bir dünya idi. Bu həm Vətən idi, həm Cənubi Sibir dağları idi, həm də Baykal (Bay-kul)... Altayı həm də "Tenqri-tau (türkcə "Tanrı dağı), yaxud "Edem ("Ululaın torpağı) adlandırırdılar. Türklər buradan dünyaya ilk addımlarını atdılar, buradan bizim coğrafiyanın axın nöqtəsi başlandı. (1; 19)

Bu fikir müəyyən bir cəhətə görə doğru olsa da, bütövlükdə son dərəcə bəsit və ibtidai olub, bəşərin inkişaf yolunu nəzərə almır.

Murad Acinin dediklərindən belə çıxır ki, türklər eramızın I əsrinə qədər bir toplum kimi Altayda yuva salmış, onların ilkin beşiyi Altay olmuşdur. Tədricən burada artıb-çoxalmış və öz beşiklərinin dar olduğunu, beşiklərinə sığmadıqlarını hiss edərək eramızın I əsrindən buradan Yer üzünə yayılmışlar.

"Adətən, türk dillərinin Ural-Altay dil ailəsinə, yəni uqor-fin və monqol-mancur kök dillərinə yaxın olduğunu söyləyirdilər. Sonra türk dillərini Altay dil ailəsinə aid edib türkləri Altaydan çıxma hesab etdilər. Lakin tədqiqatçılar türk-Altay dil qohumluğunu sübuta yetirməmiş, oxşar leksikanın ünsiyyət vasitəsilə mənimsənildiyini söyləmişlər.(2; 232)

Türk və Altay dillərində oxşar leksikanın kontakt yolu ilə mənimsənilməsi fikri elmi baxımdan yanlış olsa da, mövcud mülahizənin - "Altaydan çıxma konsepsiyasının düzgün olmadığını göstərdi.

Bu sonrakı mənbədə yenə oxuyuruq: "Prototürklərin bir qismi e.ə. IV minilliyin sonu -III minilliyin əvvəlində şumerlərlə yaxın ünsiyyətə girmiş və şumer dilinə təsir göstərmişdir. İlk şumerlər Azərbaycan əhalisi (Aratta "dağ sözünü işlədən etnoslar) ilə siyasi, iqtisadi və mədəni əlaqələr yaratmışlar. E.ə.III-II minilliklər ən qədim türk tayfalarının geniş ərazidə yayılması dövrü hesab oluna bilər. E.ə.III-I minilliklərdə Azərbaycanda artıq türk etnosları yaşayırdı. Bu dövrdə Azərbaycan ərazisində türk etnoslarının dilinə məxsus toponimlər (yer adları) və şəxs adları meydana gəlmişdi. Bu onu göstərir ki, qədim Azərbaycanda prototürk etnosları yaşamış və ümumtürk leksikası əsasında antroponim və toponimlər meydana gəlmişdir. (2; 232) Türk etnoslarının Azərbaycan ərazisində – şumerlərin qonşuluğunda

yaşaması zəngin toponim və antroponimlər əsasında bir fakt kimi təsdiq olunur. Lakin onların dili ilə şumerlərin dili arasındakı yaxınlığın kontaktla əlaqələndirilməsi fikri dilçilik tədqiqatının indiki mərhələsində artıq öz əhəmiyyətini itirmişdir: fonetik, leksik və qrammatik faktorlar göstərir ki, bunlar (şumer və türk əlaqələri) kontakt nəticəsi deyil, qohumluq əlaqələridir. Türk etnoslarının hindavropalılarla kontakt-ünsiyyətdə olmaları əsasında türk leksikasının həmin dillərdə iz buraxmasına gəldikdə, bu məsələ daha əsaslı şəkildə başqa cür izah olunur. Təbii ki, bu dillər arasında kontakt nəticəsində meydana çıxan sözlər də vardı, lakin bunlar sistem şəklində kök dildən, ulu dildən gələn və dünya dillərinin mənşə birliyindən doğan vasitələr olmuşdur.

Türklərin Azərbaycan ərazisində - Şumerlərin qonşuluğunda yaşaması, e.ə.-III-II minilliklərdə Azərbaycan ərazisində toponim, etnonim və antroponimlərdə geniş iz qoyması "Altaydan çıxma nəzəriyyəsini əsaslı şəkildə təkzib edir. Hələ hunlardan çox əvvəl türk tayfalarının Azərbaycan ərazilərinə axını olmuşdur (e.ə.VIII-VII əsrlər). Şərqdən qərbə qeydə alınmış ilk böyük türk axını kimmer-skit-sak tayfalarının axınıdır. Türkləri Azərbaycan ərazisində şumerlərin yaşıdı sayanlar çoxdur. Bizim fikrimiz isə başqadır: insandan türk qolu Ön Asiyada ayrılmışdır. Bunlar "Altaydan çıxma nəzəriyyəsinin heç bir əsası olmadığını göstərir.

Manna və Madanın türk mənşəli aborigen əhalisi haqqında söhbət daha əsaslı və daha maraqlıdır. Altayda hələ şərqə, qərbə miqrasiya başlamamış, şumerlərin qonşuluğunda bu türklər haradandır? Eradan əvvəl İtaliyanın şimalında minillik çarlıq yaratmış etrusklar - tursakalar o yerlərə haradan gəlmişlər? Üzdən baxanda bunlar çox müəmmalıdır. Lakin tarixi öyrənib, tarixin hifz etdiyi materialları düzgün və qərəzsiz nəzərdən keçirdikdə həqiqəti anlamaq heç bir çətinlik törətmir.

Strabon bir sıra qədim türk tayfaları, o cümlədən qarqarlar haqqında yazır: "...amazonkalar Qafqaz dağlarının Keravi adlanan şimal ətəklərində qarqarlarla qonşuluqda yaşayırlar. (3; 19) Strabonun bu məlumatı göstərir ki, qarqarlar Aranın qədim tayfalarındandır. Ctrabon kimi, Böyük Plini də (4; 79) qədim Azərbaycan ərazisində yaşayan türklər haqqında məlumat vermişdir. Herodotda ***yirk*** - və ***türreket*** (Strabonda ***ürk***) adlanan etnoslar Plinidə və Pomponi Melada (e.ə. I əsr) *türklər* (*Turcae*) kimi (***c*** = ***k***) yad edilir.(5; 86,121) Bu məlumat Dionisi Periegetin aşağıdakı sözləri ilə aydın şəkildə səsləşir: "Kaspi dənizi mənsəbinə yaxın skiflər, sonra hunlar, onlardan sonra kaspilər, daha sonra isə döyüşkən albanlar və -kadusilər... yerləşmişdir.(6; 185-186) Burada qeyd edilən tayfaların hamısı türkdilli olmuşdur. Bunlar hamısı Altayda qeyd edilən "sıxlıqdan çox-çox əvvəl Ön Asiyadadır.

Yer üzündəki ilk kök dilin müxtəlif ləhcələrə, dialektlərə parçalanmasını, indiki dil ailələri üçün protodillərin yaranmasını alimlər 14 min il əvvələ (e.ə.XII – minilliyə) aid edirlər. Heç şübhəsiz, insanın harada meydana çıxdığını, ulu dilin harada təşəkkül tapdığını və harada dialekt parçalanmalarının baş verdiyini – protodillərin yarandığını nəzərə almadan bir sıra problemləri, o cümlədən türklərin ilkin beşiyi və ilkin miqrasiyalarının istiqaməti problemlərini düzgün həll etmək qeyri-mümkündür. Tədqiqatçılar ona görə yanlış mülahizələr söyləmişlər ki, daim əvvəldən yox, ortadan başlamışlar. Buna görə də Altayda türklər artıb-çoxalıb böyük Mərkəzi Asiyanı bürüdüyü dövrdən neçə min il əvvəl Ön Asiyanın artıq türk məskəni olduğunu nəzərə almamışlar.

Son məqamda müasir insan tipinin təşəkkül məkanı bütöv Yer kürəsi və ya Yer kürəsinin əksər əraziləri deyil, konkret bir ərazidir: Avropanın cənubu, Asiyanın cənub-qərbi, Afrikanın şimalı. (31,9-18) Ümumiləşmiş şəkildə desək, Ön Asi-

ya. Ulu dilin təşəkkülü və ilkin dialekt parçalanması da bu ərazilərə məxsusdur. Bütün ilkin miqrasiyalar buradan başlamışdır. Miqrasiyaların mezolitdə (e.ə.VIII-VII minilliklər) daha geniş vüsət aldığı da məlumdur. Bunlar - elmi şəkildə sübut olunmuş bu müddəalar göstərir ki, türklərin Altayda artıb-çoxalıb qərbə hərəkət etməsi çox sonrakı hadisələrdəndir və Altay türklərin ilkin beşiyi deyil, sonrakı əlverişli beşiklərindən biridir. Bütün dil ailələrinin ilkin strukturu Ön Asiyada təşəkkül tapmışdır.

Bu müddəa bir sıra prinsipial məsələlərə aydınlıq gətirir. Deməli, Azərbaycan ərazisi əksər tarixçi və dilçilərimizin cəsarət edib dediyi e.ə.III minillikdən deyil, daha qədim dövrlərdən türklərin beşiyidir. İlk və böyük sivilizasiyanın müəllifləri olan şumerlər VI minilliyin ortalarında Azərbaycan ərazisindən İkiçayarasına enmiş və daim Azərbaycanla əlaqə saxlamışlar. Deməli, hindavropalıların qısqanclığına baxmayaraq, etiraf edilməlidir ki, şumerlər ilkin türklərdəndir və şumer-türk əlaqələri kontakt yox, protodil birliyinə əsaslanan qohumluqdur. Akkadların sıxışdırmasından sonra şumerlərin mühüm bir qisminin yenidən öz dağ ərazilərinə – Azərbaycan torpaqlarına qayıtması ilə şərtlənən varislikdir.

İnsanın ilkin beşiyini, ulu dilin təşəkkül məkanını və dialekt parçalanmasını nəzərə almayan bir çox alimlər də tarixdən aldıqları sövqi-təbii təəssürat əsasında düzgün fikir söyləmişlər. Məsələn, MEA-nın müxbir üzvü M.İsmayıl göstərir ki, "...türkdilli soyların ulu nəsillərinin ilk məskəni Ön Asiya olmuş, orada, onun qərb torpaqlarında məskun olan şumerlərlə qonşu olmuşlar. ...Sonrakı yüzilliklərdə Ön Asiyada yaşamış bir çox soylar, xüsusən türkdillilər şərqə, Orta Asiya torpaqlarına hərəkət etmiş, bir neçə yüzillikdən sonra isə onların əks miqrasiya prosesi başlamış, onlar yenidən Yaxın və Ön Asiyaya, həmçinin Azərbaycan torpaqlarına gəlmişlər. (7; 72-73) Bu fikrin doğruluğu üçün "yüzillikləri "minilliklərlə əvəz etmək kifayətdir.

Beləliklə, çox qədim dövrlərdən Azərbaycanın yerli əhalisi türklərdən ibarət olmuşdur. Qərbdən (Ön Asiyadan) şərqə ən qədim miqrasiyalar unudulmuş, yaxın minilliklərdə türklərin şərqdən qərbə bir neçə axını qeydə alınmış və daha qədim dövrlərə nəzər salınmadığı üçün yanlış nəticələr çıxarılmışdır.

"Xalqların böyük köçünə səbəb olmuş Hunların şərqdən qərbə axını tarixdə çox sonrakı hadisədir və elə güclü iz buraxmışdır ki, bir çox alimlər xalqların Yer üzünün müəyyən ərazilərində əbədi məskunlaşmasını hunların həmin axını ilə əlaqələndirmişlər.

Şübhəsiz, hunların qərbə hərəkəti güclü türk dalğalarından biri olmuşdur. Lakin onun da tarixini eramızın əvvəlindən başlamaqla məhdudlaşdırmış olurlar. Qaynaqlarda hələ eradan dörd əsr əvvəl İskəndərin ağ hunları qarqarlarla birlikdə Albaniya ərazisinə köçürməsi barədə rəvayətlər qalmışdır. Y.B.Yusifovun fikrincə, türklərin Yer üzərində geniş yayılma dövrü çox qədimdir və e.ə. III-II minilliklərə aiddir: "E.ə.III-II minilliklər ən qədim türk tayfalarının geniş ərazidə yayılması dövrü hesab oluna bilər. (2; 232) Ola bilər ki, arxeoloji materiallar burada göstərilən dövrə aid miqrasiyaları təsdiq edir, lakin bu, mezolit miqrasiyalarını inkar edə bilməz. Yer üzündə müasir insan tipinin yayılması 14 min il əvvəldən başladığı üçün güclü qol olan türklərin hərəkatını 4-5 min il əvvələ aid etməklə məhdudlaşdırmaq olmaz. Lakin Y.B.Yusifovun həmin qeydləri də Azərbaycan ərazisində türklərin tarixini ən azı hunlardan üç min il əvvələ aparır və bir sıra nəticələrə gəlməyə səbəb olur:

1) türklərin ən qədim (ilkin) məskənləri Altay deyil, Ön Asiyadır;

2) ilk miqrasiyalar şərqdən qərbə deyil, qərbdən şərqə olmuşdur;

3) türklər Azərbaycanın ən qədim və əzəli sakinləri olmuşlar.

Beləliklə, Azərbaycan ərazisində yaşayan aborigen əhalinin dili ən qədim dövrlərdən iltisaqi türk dil quruluşu istiqamətində inkişaf prosesi keçirmişdir. E.ə.VIII-VII əsrlərdə kimmer-skit-sak tayfalarının gəlişi qohum əhalini daha da gücləndirmişdir. Böyük və güclü bir dalğa isə hunlarla bağlıdır. Lakin hun tayfalarının gəlişi konkret bir zamanla bağlı olmayıb, eradan əvvəl başlamış, V əsrin sonlarınadək güclü olmuş, sonralar da davam etmişdir.

Bu cür düşüncələrlə Azərbaycan ərazisində qədim türk varlığını gəlmələri də nəzərə almaqla aşağıdakı kimi ümumiləşdirmək olar:

1.Kuti, lullubi, turukki, su, kas, uti, mağ, alban, qarqar və başqa türk etnoslarının cəmləşdiyi Manna, Maday, Atropatena və Albaniyanın qədim yerli tayfaları;

2.E.ə.VIII-VII əsrlərdə geri qayıdan kimmer, skif, sak tayfaları;

3.E.ə. I minilliyin sonu, e.I minilliyində (daha çox I yarısı) Qafqazın şimalından və qismən İranın şərqindən keçib gələn hunlar, kanqarlar, peçeneqlər, qıpçaqlar, bolqarlar, savarlar, oranlar, çollar, qərbi türk xaqanlığı tayfaları, xəzərlər və başqaları;

4.XI-XIII əsrlərdə şərqdən gələn səlcuq oğuzları, şimaldan gələn qıpçaqlar.

Bu qeydlərdən sonra bizi daha çox maraqlandıran Azərbaycan xalqının və ümumxalq Azərbaycan dilinin təşəkkülü məsələlərinə keçək.

Etnogenez və dilimizin mənşəyi məsələsi hazırkı dövrdə mürtəce konsepsiyanın üstün mövqeyi, həqiqi elmi konsepsiyanın küncə qısılmış vəziyyəti ilə son dərəcə mürəkkəbləşdirilmişdir. Xalqın etnik tarixi yanlış və zərərli bir konsepsiya əsasında izah edilir. Bu konsepsiya artıq özünün qeyri-elmiliyi, mürtəceliyi ilə tədqiqatçıların diqqətini çəkməkdədir. (bax: 8)

Mürtəce konsepsiyanın yaradıcılarından İqrar Əliyevin qənaəti bu idi ki, Cənubi Azərbaycan ərazisində (Atropatenada) müxtəlif etnoslar birləşərək Mada-Atropatena xalqının təşəkkülünə səbəb olmuşdur və bu xalqın dili Şimal-qərbi İran dillərindən biri olub, talış və Avesta dillərinə yaxın imiş. Burada danılmaz cəhət təsvir edilən dövrdə Atropatena ərazisində xalqın və ümumxalq dilinin təşəkkül tapmaqda olmasıdır və başqa tarixçilərimizin də təsdiq etdiyi kimi, bu dövrdə Azərbaycan (Atropatena–Adərbayqan) xalqı və onun vahid dili təşəkkül tapmaqda idi. Lakin təşəkkül prosesinin başlanması başqa şeydir, təşəkkül başqa. Ümumxalq Azərbaycan dilinin təşəkkülü ilkin feodalizm dövründə – eramızın III–V əsrlərində başa çatmışdır. Lakin bu prosesdə İ.H.Əliyevin qeyd etdiyi «yerli etnosların öz milli simalarını itirməsi və iranlaşması» prosesi heç bir elmi-tarixi əsası olmayan söhbətdir. Uzaq keçmişdən aborigen əhali kimi yaşamaqda davam edən türk etnoslarının heç birində iranlaşma baş verməmiş, əksinə, isgit, sak, massaget, kimmer-türk tayfalarının gəlişi ilə türklər Azərbaycan ərazilərində daim üstünlük qazanmışlar. Y.Yusifov Atropatena ərazisində qeyd edilən tayfaların türk və ya İran mənşəli olması barədə fikirləri və həmin dillərə məxsus izləri nəzərdən keçirərək yazmışdır: «...Azərbaycanda türk etnoslarının iranlaşması baş verməmiş, bir sıra hallarda ünsiyyət nəticəsində qarşılıqlı leksik mənimsəmələr şəraitində türk etnosları öz dilini saxlamış və Azərbaycan türk dilinin yetkinləşməsi prosesi baş vermişdir». (2;133) Akademik tarixin müəllifi ona görə yerli etnosları iranlılaşdırır ki, «iranlılaşmış» əhalini eramızın birinci minilliyinin sonunda gələn səlcuq-oğuzların təsiri ilə birdən-birə yenidən türkləşdirə bilsin. Lakin tarix göstərir ki, heç bir iranlılaşma baş verməmiş, türklərin qədim etnosları güclü olmuş və yeni gələnlər onları daim gücləndirmişdir. (32, 285-286)

Son vaxtlar başqa dilçilərimiz də İ.Əliyevin araşdırmalardan çıxardığı nəticənin doğru olmadığını görə bilmişlər. N.Cəfərov konkret bir nümunə gətirərək İ.Əliyevin və həmfikirlərinin arxasında durduğukonsepsiyanı ustalıqla ifşa etmişdir. Müəllif akademik "Azərbaycan tarixinin 1-ci cildində (1998) Azərbaycan xalqının etnik tərkibi, dilinin mənşəyi və inkişaf yolu barədə –çoxsaylı yazılarımızda tənqidi şəkildə nəzərdən keçirdiyimiz bir fikrin mürtəce mahiyyətini düzgün duymuşdur.

İ.Əliyevin ümumiləşdirib verdiyi nəticə belədir: "Azərbaycan xalqının təşəkkülündə Manna, Atropatena və Qafqaz Albaniyasında məskunlaşmış müxtəlif, *o cümlədən Qafqaz və İran dillərində danışan* (fərqləndirmə bizimdir – *Q.K.*) qədim dövr və orta əsrlərin tayfa və xalqları - mannalılar, kaspilər, Atropatena madalıları, albanlar, azərilər və bir sıra digərləri əsas rol oynamışlar. Azərbaycan xalqının, dilinin formalaşması etnogenezin son mərhələsində - orta əsrlərdə davam etmişdir. (9; 34)

Bu sitatda İ.Əliyev Manna, Atropatena, Qafqaz Albaniyası əhalisinin müxtəlif dillərdə danışdığını göstərir, həmin dillər içərisində əsas əhalinin Qafqaz və İrandillilərdən ibarət olduğunu xüsusi qeyd edir. Azərbaycan xalqının və xalq dilinin təşəkkülünün nə vaxtsa başa çatdığını deyil, orta əsrlərdə davam etdiyini söyləyir. Orta əsrlər kapitalizmə qədərki dövrdür və bu ideyanın tərəfdarlarının fikrincə, «orta əsrlər» XIX əsrin sonlarına qədər davam etmişdir. Müəllif, heç olmasa, ilkin orta əsrlər də demir, ümumən orta əsrlərdən danışır. Burada türk görüntüsü yoxdur, çünki XI əsrdə «Səluq oğuzları gələcək». Və belə çıxır ki, ümumxalq Azərbaycan dili bu yaxınlarda dünən, srağagün təşəkkül tapıb. (31, 151-152)

N.Cəfərov da sonralar bu saxta fikri tutmuş və həmin sitatı verərək yazmışdır: "Göründüyü kimi, bu "konsepsiya Azərbaycan xalqının mənşəyi barədə hər cür volyuntarist nəzəriyyənin ortaya çıxması üçün münbit metodoloji şərait yaradır. Və bu "konsepsiya yalnız səhv deyil, həm də mürtəcedir, xalqa öz keçmişini, etnik mənşəyini unutdurmaq "ehtiyacından irəli gəlmişdir. (13; 16) Akademik nəşrin tənqidinə həsr etdiyimiz silsilə məqalələrdə Azərbaycan etnogenezinə bu cür yanlış və qeyri-elmi, zərərli münasibətin hələ 2001-ci ildə kəskin tənqidini vermişik. (bax: 8) N.Cəfərovun münasibətində bizə xoş gələn odur ki, reallıq getdikcə dərk olunmaqdadır. Çünki bu, son dərəcə ciddi məsələdir - "Xalqa öz tarixini unutdurmaq ehtiyacı başqa şəkildə deyilmiş olsa, əslində, düşmənçilikdir. Çünki söhbət etnogenezdən gedir. "Tarixçi adlananın əksinə olaraq, dilçialim yazır:

"III-V əsrlərdə Azərbaycan dili formalaşır, - bu proses türk tayfa dillərinin (birinci növbədə folklor dilinin) mərkəzləşməsi hesabına gedir; VII, XI əsrlərdə Azərbaycana gələn türk tayfaları artıq müxtəlif tayfalarla (yaxud tayfa birlikləri ilə) deyil, müəyyənləşmiş xalq mövcudluğu (və onun dili) ilə qarşılaşır - gəlmə mədəniyyətin qohum yerli mədəniyyətlə ehtivası tədricən gedir. (13; 16-17)

Burada da fikir aydın söylənmişdir: III-V əsrlərdə Azərbaycan xalqı və ümumxalq Azərbaycan dili formalaşmışdır[*]. Və yenə çox aydın deyilmişdir: bu dövrdən, yəni V əsrdən sonra gələn türklər Azərbaycan ərazisində tayfalarla və ya tayfa dilləri ilə deyil, hazır xalqla və onun artıq təşəkkül tapmış dili ilə qarşılaşmışlar. Və buradan o da hasil olur ki, XI-XIII əsrlərdə gələn səlcuq oğuzları Azərbaycanda Azərbaycan dili formalaşdırmayıb. Onlar gələndə artıq bu xalq və onun dili vardı. Onlar yalnız bu hazıra havadar ola bilərdilər. Və bəlkə buna heç ehtiyac

[*] Nədənsə, N.Cəfərov son vaxtlar bu cür doğru fikrindən tam şəkildə daşınaraq, internet səhifələrinə daxil etdiyi yazılarında Azərbaycan dilinin XVI-XVII əsrlərdə formalaşdığını iddia edir.

da yox idi. Beləliklə, bu fikir XI-XIII əsrlərdə gələn səlcuqlar tərəfindən Azərbaycan dilinin formalaşdırılması barədə kökündən yanlış olan zərərli konsepsiyanı rədd edir.

60-cılar hərəkatının nümayəndələri daim bu cür düşünmüş və bu cür yazmışlar. Biz də daim bu fikirdə olmuşuq. (11,155; 12, 298; 8 və s.) Şübhəsiz, tədricən həqiqət öz yerini tapmaqdadır.

Lakin bu nöqtədə başqa çox mühüm bir məsələ də vardır. Məsələ burasındadır ki, bir qədər uzağa gedən dilçilərimiz Azərbaycanda türklərin görünməsini hunlarla (və ya hunlardan qabaq nəzəri cəlb etməyən türk tayfaları ilə) - I-V əsrlərdə hunların gəlişi ilə əlaqələndirir və III-V əsrlər arasında türk mənşəli ümumxalq dilinin təşəkkülünü qeyd edirlər. Təşəkkül dövrü doğrudur, lakin təbii ki, iki-üç əsrin müddətində gəlmə türklər aborigenləri türkləşdirib yeni dil yarada bilməzdilər. Əgər hun-qıpçaqların gəlişini I əsrdən deyil, lap e.ə.III-II əsrlərdən götürsək belə, bu, mümkün deyildi. Bu, bir də onunla ağla batmır ki, dilimizdə substrat əlamətləri də yoxdur. Bütün bunlar məntiqi şəkildə göstərir ki, türk mənşəli ümumxalq Azərbaycan dili gəlmə hun-qıpçaqların məhsulu deyil, çox qədimdən bu ərazidə sakin olan yerli türk tayfalarının hesabınadır və hun-qıpçaqlar onlara yalnız qüvvə vermişlər. Bunun izahı üçün mətləbdən kənara çıxmaq lazım gəlmir. Çünki başqa yazılarımızda bu prosesin geniş izahı verilmişdir. (31, 150-428) İndi təsəvvür üçün bir qədər də aborigen türklərə gələn yeni qüvvələri nəzərdən keçirməliyik. Bu prosesdə yenə əks konsepsiyanın bəsit düşüncələri ilə qarşılaşmalı olacağıq.

Amerika alimi P.Qolden 1980-ci ildə Vaşinqtonda çap etdirdiyi "Türk xalqları və Qafqaz məqaləsində hun tayfalarının 363, 370, 395-ci illərdə Azərbaycana gəldiyini qeyd etmişdir. Ə.S.Sumbatzadə bunu Azərbaycana türklərin ümumən ilk gəlişi kimi qiymətləndirərək qeyd edir ki, bu, "...tarix elmində türkdilli qəbilələrin Azərbaycana ilk gəlişi barədə qəbul edilmiş fikrə bütövlükdə uyğundur.(13; 81) Bu konsepsiyanın tərəfdarları Azərbaycanda aborigen türk təsəvvür etmir, türklərin Azərbaycanda ilk görünmə tarixini isə bu vaxtdan qəbul edirlər. Yuxarıdakı sözləri bəlkə də təsadüfi saymaq olardı, lakin müəllif bir qədər sonra fikrini bir az da qətiləşdirərək yazmışdır: "Belə hesab etmək tam təbiidir ki, Azərbaycana şimaldan daxil olmuş ilk türkdilli tayfalar olan hunlar eyni zamanda burada türk dilinin əsasını qoymuş ilk etnoslar idilər. (13; 82) Bu cür fikirlərlə tanış olduqca tarixçinin öz xalqının tarixinə nə qədər bəsit yanaşdığına, faktları təhrif edərək düşmən dəyirmanını nə qədər sürətlə işlətdiyinə təəccüb etməmək olmur. Biz köklü qədim tayfaları, e.ə.VIII-VII əsrlərdə gələn kimmer, skif, sak tayfalarını nəzərə almadan hunların özlərinin də bu göstərilən tarixdən çox-çox əvvəl Azərbaycanda olduğunu qeyd etmişik. Hunların Albaniya ərazisində olması haqqında ilk məlumatı Perieget (II əsr) və Ptolomey (II əsr) vermişdir. Bəzi tarixçilər onların daha əvvəllər gəlmiş olduqlarını söyləmişlər. İndi onları bir daha təkrar etmədən irəli getmək istərdik.

452-ci ildə Roma şəhəri hun imperatoru Attiladan asılı vəziyyətə düşür. Hunların tərkibində oğuzların Azərbaycana kütləvi axını da bu dövrə aiddir. V əsr erməni qaynaqlarının məlumatına görə, bu vaxt kəngərlər Naxçıvan və Ermənistan zonasında böyük bir ərazini tutaraq "Kəngərlər vilayəti (qavarn Kanqaras) yaratmışdılar. (14; 19)

Suriya tarixçisi Zaxariya Mitilenskinin məlumatına görə, 490-515-ci illərdə Dərbənd yaxınlığında savarlar, avarlar, xəzərlər, bulqarlar və başqalarından ibarət 13 türk tayfası yerləşmişdi və bunların bir çoxu hunların ardınca Azərbaycana daxil olur, orada məskən salırdılar. (15; 16) Bizans tarixçiləri və gürcü salnamələri xəbər verir ki, 576-cı ildə Gəncə vilayətində böyük hun-sabir kütləsi yerləşdirilmiş və

beləliklə, Arazla Kür arası hun ölkəsinə çevrilmişdi. Ərəb müəllifləri bunları 'tarxanlar' adlandırırdılar. V əsrdə *türk* adı ilə böyük bir hun tayfası Muğanda yerləşmişdi.

VII əsrə qədər *hun* adı ilə Azərbaycana gələnlər savar, onoqur, bulqar, abar/avar, xəzər, siruqur, baqrasik, kulas, abdel, eftalit və b.-dan ibarət idi.(10; 87) İbn Asam əl-Kufinin məlumatına görə, Araz vadisində, Beyləqan və Varsana zonalarında türk dili geniş yayılmışdı. (16; 179-181) Əvvəllər türkləşmə prosesinə mane olmağa çalışan ərəblər sonralar özləri türklərin arasında assimilyasiyaya uğrayır. Bütün bu cür faktları nəzərə alaraq Z.Bünyadov yazmışdır: "Beləliklə, Azərbaycanın və Aranın türkləşməsi ərəblərin siyasi arenaya çıxmasından çox-çox əvvəl Sasani imperiyası tərkibində başlamışdı. Ərəblərin Azərbaycanda görünməsi və müstəmləkəçiliyi əvvəllər bu prosesi ləngidirdi, lakin tezliklə ərəblərin türklər tərəfindən assimilyasiyaya uğradılması onu sürətləndirdi və hər hansı yüz ildən sonra o, geniş vüsət aldı. (16; 182) Z.Bünyadov yenə yazır: "Bir sıra tədqiqatçıların etdiyi kimi, türkləşmənin XI-XII əsrlərdə baş verdiyini qəbul etmək səhv olardı. Azərbaycan ərazisinə türkləri gəlmə, yad xalq hesab etmək də inandırıcı deyil, çünki bu halda böyük kompakt yerli türk tayfa təşkilatları inkar edilmiş olur. (16; 179)

Z.Bünyadov VII-IX əsrlərlə məşğul olmuş və həqiqət naminə türk tayfalarının Azərbaycanda bu dövrdən çox-çox əvvəl geniş vüsət aldığını etiraf etmişdir. Lakin aborigen qədim türk tayfalarının varlığını qəbul etsə də, şumerlərin yaşıdı olan daha qədim aborigen türkləri görə bilməmişdir.

Erkən orta əsrlərdə türk tayfaları ümumi "hun adı ilə tanınmışlar. VI əsrin ortalarından "türk adı ümumiləşdirici ad-etnonim kimi işlənməyə başlamışdır: Göytürk xaqanlığı "türk sözünü ilk dəfə rəsmi dövlət adı olaraq qəbul etmiş, boy və başçılarının adı ilə anılan bütün türklərə, bütün bir millətə ad vermə şərəfini qazanmışdır.

Göytürk dövləti tezliklə öz sərhədlərini genişləndirmişdir. "Sasanilər "böyük ipək yolunun türklərin əlində olmasını istəmirdilər. İstəmi xaqan Bizansla Sasanilərə qarşı müqavilə bağlayır, türklər şərqdən, Bizans qərbdən Sasanilərin üzərinə hücuma keçir. İstəmi xaqan Xarəzmi və digər on bölgəni tutaraq Azərbaycan torpaqlarına girir". (17; 93) 701-ci ildə II Göytürk imperatorluğunun orduları yenidən Dəmir qapıya qədər gəlmişdilər.

Bu dövrdə Azərbaycan türk dili son dərəcə genişlənərək qonşu xalqların dillərini də öz təsiri altına almışdır. Azərbaycan türk dili qonşu xalqların dillərinə yalnız alınmalar verməklə məhdudlaşmamış, həmin dillərin strukturuna da təsir göstərmişdir. Türk dili erməni dilini şəkilçili dilə çevirmişdir. Bunu ilk dəfə XIX əsrin 70-ci illərində doktor Mordman anlamış və erməni dilinə həsr etdiyi məqalədə yazmışdır: "Məlumdur ki, ermənilər Hind-Avropa mənşəli xalqdır, amma onların dili Turan (türk – Q.K.) dilinin güclü təsirinə məruz qalmışdır. Mən həmin ifadə ilə heç də çoxəsrlik kontakt nəticəsində osmanlı türkcəsindən alınmış sözləri nəzərdə tutmuram. Söhbət IV, V, VI və VII əsrlərdə erməni ədəbi dilinə keçmiş Turan elementlərindən gedir. Bu elə bir dövr idi ki, dünyada hələ nə səlcuqlar, nə osmanlılar... var idi.(14; 80)

Hunların Azərbaycana bu axınlarından danışmamaq da olardı. Çünki qeyd etdiyimiz kimi, Azərbaycanın əsas yerli əhalisi türklərdən ibarət olmuşdur. Qohum tayfaların Azərbaycana axını ümumxalq Azərbaycan (türk) dilinin təşəkkülü işinə maneələri aradan qaldırmış, boşluqları doldurmuşdur. Artıq ilkin feodalizm dövründə ümumxalq dilinin təşəkkülü üçün hər cür zəmin var idi. Bunu böyük tarixi duyumla hələ vaxtilə Ə.Dəmirçizadəgörmüşdür. Şumer-türk münasibətləri in-

sanları təzəcə düşündürməyə başladığı, aborigen türklərin çox qədim tarixi nəzərə alınmadığı dövrdə ümumxalq Azərbaycan dilinin VI-VIII əsrlərdə təşəkkül tapdığını qeyd etməyin özü də böyük cəsarətin nəticəsi sayıla bilərdi. Ədəbi dilimizin tarixinin misilsiz tədqiqatçısı prof.Ə.Dəmirçizadə məhz belə düşünmüş və beləcə də yazmışdır: "Məlum olduğu üzrə, VI-VIII əsrlərdə vahid Azərbaycan xalqı formalaşdığı kimi, bu xalqın hamısının ünsiyyət vasitəsi vahid ümumxalq Azərbaycan dili də artıq mövcud idi və geniş dairədə işlənirdi.(18; 71)

Azərbaycan tarixçi, dilçi və etnoqraflarının əldə etdiyi yeni materiallar əsasında ümumxalq Azərbaycan dilinin VI-VIII əsrlərdə deyil, III-V əsrlərdə tam təşəkkül tapmış olduğu söylənmişdir. Artıq bu zaman, yəni "...V yüzilliyin sonları, VI yüzilliyin əvvəllərində Azərbaycanın, demək olar ki, hər yerində dilləri bizim Azərbaycan dilinin kökündə dayanan soylar yaşayırdılar... Gətirdiyimiz külli miqdar materiallar və mülahizələr göstərir ki, ilk orta yüzilliklərdə islam dininin bu ərazidə yayılmasından qabaq, ola bilsin ki, daha çox qabaq Azərbaycan ərazisi əhalisinin böyük əksəriyyəti artıq türkdilli idi.(7; 95-96)

Bu fikri yalnız ekstralinqvistik amillərin tədqiqi deyil, toponim, etnonim, antroponim, hidronim, oronim və s.-in, elmi əsərlərə yol tapmış, həmin əsərlərdə mühafizə olunmuş leksikanın araşdırılması əsasında digər alimlərin gəldiyi nəticələr də təsdiq edir. Bu dövr Azərbaycan ərazisində savirlərin, kəngərlərin, xəzərlərin, bulqarların, oğuzların, qıpçaqların və başqa hun tayfalarının kütləvi şəkildə məskunlaşdığı dövr idi. Bu dövr Azərbaycan xalqının və ümumxalq Azərbaycan dilinin formalaşmasının başa çatdığı dövr idi. Doktor Mordmanın dediyi kimi, bu elə bir dövr idi ki, hələ nə səlcuqlar var idi, nə də osmanlılar.

Azərbaycan xalqının və onun dilinin təşəkkülünün V əsrdə başa çatdığını şərtləndirən bir sıra amillər olmuşdur.

Ümumxalq Azərbaycan dilinin təşəkkülünü göstərən mühüm dəlillərdən biri V əsrdə vahid Alban yazısının olması və həmin yazının yenidən təkmilləşdirilməsidir.

Azərbaycan ərazisində yaşayan aparıcı tayfalar 5 min il əvvəl də öz zamanında mövcud olan yazı formasından (qayalar, daşlar, gil lövhələr, baş daşları, annallar üzərində mixi yazılar) istifadə etmişlər. Hansı ərazidə daha çox yazılıbsa, hansı dövlət daha əzəmətli abidələr qoyubsa, təsadüflər nəyi qoruyubsa, onlar da qalıb. Bu o demək deyildir ki, məsələn, şumer və akkadları məğlub etmiş, onların üzərində 125 il hökmranlıq etmiş kutilərin - qədim türkdilli babalarımızın abidələri, yazıları olmamışdır. Bu o demək deyildir ki, mannalıların, madayların, atropatenlərin yazı mədəniyyəti olmamışdır. Yüz illərlə hökm sürmüş, tarixdə böyük izlər buraxmış dövlətlər, şübhəsiz, xüsusi yazı mədəniyyətinə də malik olmuşlar. Biz Aratta dövründən eramızın X əsrinə qədərki 4000 illik yolun mədəni, elmi inkişafını ardıcıl izləyə bilməsək də, mənbələrin azlığı buna imkan verməsə də, daim torpaqlarımızın aborigen əhalisinin böyük mədəniyyət sahibi olduğunu tarixi izlərdən öyrənə bilmişik. Xalqın, ümumxalq dilinin təşəkkül tapdığı dövrdə (V əsr) onun yazısının təkmilləşdirilməsi barədə tarixin qoruyub saxladığı məlumat mərhələli inkişafın yüksək pillələrindən birinin təbii yadigarıdır.(bax: 19; 100-116)

Şimallı-cənublu Azərbaycanın bir xalq kimi təşəkkül tapması hər iki ərazidə aborigen qədim türk tayfalarının zamanın gedişində tədricən zəruri şəkildə bir xalq kimi təmərküzləşməsi yolu ilə baş vermişdir. Qədim türk tayfaları Azərbaycan ərazisində məskunlaşmaqla eradan əvvəlki bir neçə minillik ərzində etnodil ümumiliyi çərçivəsində yerli keyfiyyətlərin, ərazi toponimlərinin təşəkkülü ənənəsini davam etdirmişlər. Ölkəmizin ərazisinə qohum türk tayfalarının mərhələli axını və

onların dillərinin yerli etnosların dilləri ilə konsolidasiyası da böyük gücə malik olmuşdur. Bir sıra türk tayfalarının (kutilərin, utilərin, albanların, kaspilərin və s.) yayılma arealının geniş olması, ölkənin həm şimal, həm də cənub bölgələrində məskunlaşmaları türk tayfa dillərinin ümumiləşməsi işini asanlaşdırmışdır.

Qeyd etməliyik ki, eramızın əvvəllərində şərqi və qərbi türk dilləri az-çox fərqlənsə də, indiki qədər əsaslı dil fərqləri yaranmamışdı. Fərqlər şivə fərqləri səviyyəsində idi, ona görə də ümumünsiyyət vahidinin təşəkkülü qarşısında heç bir maneə yarada bilmirdi. Yerli tayfalar bir-birinə qohum olduğu kimi, gəlmə hesab olunanlar da vaxtilə bu yerlərdən ayrılanlar idi. Şimalla cənub arasında möhkəm sərhədlərin olmaması, eyni tayfa daşıyıcılarının müxtəlif ərazilərdə məskunlaşa bilmə imkanları da tayfa dillərinin xalq dili kimi ümumiləşməsi xeyrinə idi.

Tayfa dillərinin ümumxalq dili şəklində formalaşmasında ekstralinqvistik amillərin rolu böyük idi. Tarix elə gətirmişdi ki, Azərbaycanın şimal və cənub əraziləri eradan əvvəlki son yüzilliklərdə və eramızın əvvəllərində - ilkin orta əsrlərdə daim birlikdə olmuşdur.

E.ə. IV əsrin II yarısından Makedoniyalı İskəndərin yaratdığı imperiya daxilində şimalın və cənubun əlaqələri artmışdı. Tarixi faktlar göstərir ki, hələ İskəndərin işğalından əvvəl də şimalla cənub birlikdə olmuşdur. Atropatın rəhbərliyi ilə albanların İran qoşunları tərkibində İskəndərə qarşı müharibəsi də bunu təsdiq edir. İskəndərə qarşı vuruşan orduda midiyalılarla yanaşı, albanlar, sakasinlər, kadusilər də iştirak edirdilər. (2; 136) Atropatın sülaləsi, təbii ki, bu birliyi xeyli müddət davam etdirmişdir.

Sonrakı dövrdə Parfiya dövləti (e.ə.250 - e.226) tərkibində Azərbaycan və Albaniyanın bir canişinlikdə birləşdirilməsi vahid Azərbaycan xalqının təşəkkülünü sürətləndirmişdir. Sasanilər imperiyası dövründə də (III-VII əsrlər) şimal ilə cənub vahid canişinlikdə birləşdirilmiş, sonralar ərəblər də bu strukturu saxlamış, pozmamışlar. Sasani imperiyasının süqutu dövründə - Xilafətin meydana çıxdığı ərəfədə vahid Azərbaycan xalqının və vahid Azərbaycan dilinin təşəkkülü artıq başa çatmışdı. Bunu e.ə.II - eramızın VI əsrlərində yenidən işlənmiş, VI-VIII əsrlərdə cilalanmış "Kitabi-Dədə Qorqud dastanları və bu dastanların misilsiz dil materialı da təsdiq edir.

Azərbaycanda hər tərəfi bürüyən türk coşğunluğunu görmək əvəzinə, Atropatena ərazisində yaşayan əhalinin dilinin Əhəmənilər dövründən iranlılaşdırılmış olduğunu iddia edənlər də vardır. (9;259-271) Bu məqamda Ə.S.Sumbatzadə həqiqətə sadiq qalaraq, Atropatena dövrü Azərbaycan əhalisinin etnik tərkibi və dili haqqında araşdırmaların çətinliyini qeyd etsə də, Parfiya asılılığı dövründə yerli əhalinin dilinin iranlılaşdırılmadığını xüsusi nəzərə çarpdırır: "Atropatena əhalisinin dilinin xarakteri və mənsubiyyəti barədə suala cavab vermək olduqca çətindir. Heç bir şübhə yoxdur ki, İran Parfiya dövlətindən asılı vəziyyətə salınmış Atropatenada da ölkə əhalisinin tərkibinin və dilinin iranlılaşma prosesinə qarşı yenidən güc toplaması qaçılmaz olmuşdur. Lakin tayfa qruplarının və kiçik xalqların etnik müxtəlifliyinin təsviri Parfiya hakimiyyəti dövründə Atropatena əhalisinin tərkibinin və dilinin iranlılaşdırıldığını düşünməyə əsas vermir. (10; 47) Müəllif bunu da əlavə etmişdir ki, parfiyalılar yalnız hakimlərin təyini ilə məşğul olmuş və Atropatena ərazisinə irandilli əhali köçürməmişlər. Ə.S.Sumbatzadə çox mühüm bir məsələyə də toxunaraq yazır: Beləliklə, təbii coğrafi faktor - Araz çayı o uzaq dövrdə də bu çaydan cənubda olduğu kimi, şimalda da yaşayan Azərbaycan əhalisinin etnik yekcinsliyini poza bilməmişdir... (13; 47) Bu cəhət mühüm bir faktor olmaqla, e.ə. IV əsrdən başlayaraq, Atropatena və Albaniya əhalisinin dilinin xalq

dili kimi ümumiləşməsi prosesinin sürətlənməsi üçün zəruri şərtlərdən olmuşdur. Bəzi tarixçilər yerli əhalinin iranlılaşdırılmasını o qədər asan bir proses kimi təsəvvür etmiş və yazmışlar ki, müəllif bunu da əlavə etməli olmuşdur ki, hətta güclü Sasanilər imperiyası dövründə də yerli dilləri iranlılaşdırmaq mümkün olmamışdır.(13; 58)

Köhnə eranın başa çatdığı, yeni eranın başlandığı dövrdə "xalqların böyük köçünə səbəb olan hunların qərbə hərəkəti şimallı-cənublu Azərbaycanın birdəfəlik Yer kürəsində türk yurdu, türk vətəni kimi bərqərar olmasına zəmin yaratmışdır. Başqa sözlə, o ərazilərdə ki türk tayfaları yerləşmişdilər, qohum tayfalar gələndə onlar yerlərini dəyişməli olmamış, yalnız yeni gələnlərlə sıxlaşmış, zənginləşmişlər. İran və qafqazdillilər bu ərazilərdə geniş yayıla blməmişlər.

Türk tayfalarının hun ittifaqı Azərbaycanın şimalı ilə cənubu arasında əlaqələri daha da sıxlaşdırdı: əvvəllər Adərbayqan (Atropatena) ölkə adı cənubi, Albaniya isə Şimali Azərbaycana şamil edilirdi. Artıq "... erkən orta əsrlərdə Şimali Azərbaycanın da ərazisi Adərbayqan (Aturpatakan) anlayışı altında birləşdirilirdi. (2; 136, 215) Ərazi birliyi, etnik birlik, dil birliyi, ictimai-siyasi və iqtisadi həyat birliyi xalqın və xalq dilinin təşəkkülü üçün əsas olmuşdur.

Təbii ki, oxucunu bir məsələ daha çox düşündürür: Azərbaycan ərazisində qədimdən bəri lullular, kutilər, turukkilər, kaslar, kaspilər, mağlar (mannalılar, madaylar), albanlar, qarqarlar, e.ə.VIII-VII əsrlərdə geri qayıdan kimmerlər, skiflər, saklar, hun dövründə savarlar, peçeneqlər, qıpçaqlar, bir qədər sonra xəzərlər və s. saysız türk tayfaları əsasında oğuz qrupu türk dillərinə daxil olan ümumxalq Azərbaycan dili necə formalaşdı, necə təşəkkül tapdı? Bu qədər tayfa içərisində koyne nədən ibarət olmuşdur?

Əvvələn, hazırkı dövrdə Azərbaycan dilinin cənub, qərb və şimal-şərq ləhcələrinə ayrılması tayfa dillərinə deyil, məhəlli prinsiplərə əsaslansa da (20; 282-295), bu bölgü tayfa dil əlamətlərini də mühafizə edir. Azərbaycan dilinin keçid şivələri ilə yanaşı, rəngarəng və bir-birindən kifayət qədər fərqlənən şivələri də vardır. Kərkükdən Dərbəndə qədər geniş ərazilərdə məskunlaşmış 50 milyonluq Azərbaycan türklərini tam təsəvvür etmək lazımdır. Bunlar göstərir ki, müxtəlif tayfa dilləri izsiz yox olmamışdır. İndi tarixi dialektologiyanın əsas vəzifəsi məhz qədim Azərbaycan ərazilərindəki tayfa dillərinin mümkün abidələr, dil materialları əsasında dialekt faktlarını həmin faktların bir vaxtkı daşıyıcıları olan tayfa dillərinə doğru tədqiq edib öyrənməkdir. Nəzərə alınmalı başqa çox mühüm bir məsələ də Azərbaycan dilinin gəlmə türk tayfa dilləri əsasında deyil, qədim aborigen türklərin dili əsasında təşəkkülüdür. Bu məqamda həm də nəzərə alınmalıdır ki, əvvələn, Azərbaycana gələn türk tayfaları mühafizə olunmuş faktlardan göründüyü üzrə, vaxtilə bu ərazilərdən getmiş qohum tayfalardan ibarət olmuşdur, digər tərəfdən, hətta az-çox fərqli xüsusiyyətləri ilə seçilən tayfalar gəlmişsə belə, onlar da yerli tayfalarla asanlıqla çarpazlaşa bilmişlər. Hər iki halda yerli tayfa dilləri üstünlüyü saxlamışdır. Belə bir cəhəti də qeyd etməliyik ki, bu gün türk dillərini dil deyil, ləhcə adlandıranlar bu dillərin bir-birinə çox yaxın olduğunu əsas götürürlər. Miladdan əvvəlki minilliyin sonlarında isə artıq çoxdan şərq və qərb qollarına ayrılmış olsa da, türk dilləri arasındakı leksik, fonetik və qrammatik fərq bugünkündən müqayisə edilməz dərəcədə az olmuşdur.

Bütün bunlarla yanaşı, hansısa daha köklü bir tayfa dilinin üstünlüyü olmamış deyildir və tədqiqatçıların araşdırmaları ona yönəlmişdir ki, daim ümumxalq Azərbaycan dili oğuz qrupu dillərindən hesab olunur. Fakt belədir ki, dilçilər oğuz və qıpçaq tayfa dilləri üzərində daha möhkəm dayanmışlar. Ə.Dəmirçizadə Azərba-

ycan dilində "oğuz və qıpçaq lisani ünsürlərinin tədqiqi ilə məşğul olmuşdur. (3;3-14) Əgər Azərbaycan dili oğuz və qıpçaq tayfa dilləri əsasında təşəkkül tapmışsa, onda "lisani ünsürlər nə deməkdir? "Lisani ünsür dilin mahiyyətini əhatə etmir, onun üzdə olan çox nazik qatlarına işarə edir: deməli, bu dil kök etibarilə başqadır, lakin onun üst qatında oğuz və qıpçaq tayfa dillərinə məxsus ünsürlər qabarıqdır. Bizcə, professor düz düşünüb - bu dil mahiyyət etibarilə türk dilidir, lakin onun ümumi fonunda oğuz və qıpçaq tayfa dillərinə məxsus çalarlar daha aydın seçilir. Belə olduqda burada iki variant görünür: ya oğuzlar çox qədim (hun dövrü yox, daha qədim) dövrün tayfalarıdır, yaxud da qədim (e.ə.III-II minilliklərin) türk dilinə oğuz və sonralar müəyyən dərəcə qıpçaq elementləri çöküb. Bizim fikrimizcə, oğuzların özləri Ön Asiyanın ən qədim tayfalarındandır və onların bir sıra bölümləri Ön Asiyadan ayrılaraq haraları dolansa da, sonralar yenə Ön Asiya yurdlarına qayıtmışlar.

Oğuzların Ön Asiyanın çox qədim tayfaları olduğuna tarix kitablarında aydın qeydlər də vardır. E.ə.III minillikdə Ön Asiyadan ayrılıb Mərkəzi Asiyaya hərəkət edən toxarların bir bölümü türkdilli oğuzlar hesab olunur (T.Qamkrelidze, V.İvanov): "Eyni zamanda *tükər/toxar* adı qədim oğuz etnik bölümlərini də bildirirdi. Adı çəkilən tədqiqatçılar toxarlara şamil edilmiş türk mənşəli *tukri* adını Diyala çayının yuxarı axarında yerləşdirilən *Tukriş* ölkə adı ilə eyniləşdirirdilər. Buna oxşar *Tikriş* şəhər adı Mannanın ərazisində də yad edilmişdir. E.ə.III minilliyin sonunda Tukrişdə Arisen adlı hökmdar hakimiyyətdə olmuşdur. Türk dilləri baxımından Arisen "cəsur adam, yaxud "nəcib adam mənasını verir.(2; 81-82)

Diqqətlə araşdırmalar apardıqda hadisələr məntiqi şəkildə əlaqələnir. Ə.Dəmirçizadə Azərbaycan dilinin mahiyyətində nə ayrıca oğuz, nə də qıpçaq görür, ümumiləşmiş şəkildə "türk görür. Türk sözü e.ə. III minillikdən özünü göstərməkdədir, "Tükər sözü şübhəlidirsə, "Turukki sözü var. Bütün türk xalqları arasında yeganə Azərbaycan dili bizim zəmanəmizə qədər "türk dili adını qoruyub saxlayıb. Oğuzlar Mərkəzi Asiyaya buradan yayılıb. Gələnlər yenə bura gəlib. Adları *aşquzay, işquzay* şəklində, *skuz, skif, skolot* şəkillərində tələffüz edilən türk tayfalarının oğuzlar olduğu artıq tədqiqatçılar tərəfindən üzə çıxarılmışdır: Z.Həsənov Azərbaycanda çarlıq yaratmış skifləri ətraflı tədqiq edərək yazmışdır: "*Skif* etnonimi "oğuz şəklində etimologiyalaşdırıla bilər.(21; 54) Ətraflı və səmərəli tədqiqatdan belə bir qənaətə gələn müəllif yenə yazır: "Qeyd edək ki, quz-oğuz etnik anlayışını indi türk dillərinin oğuz qrupuna daxil olan türklərin əcdadı təsəvvürü ilə qəti şəkildə eyniləşdirmək olmaz. Qədim dövrün quzları-oğuzları (Herodot və Rəşid-əd Dinin təsvir etdikləri) bərabər şəkildə bütün müasir türklərin əcdadı olmuşlar. Tarixi məlumata əsasən, Oğuz xanın tayfa ittifaqının tərkibində qıpçaqlar, karluklar, uyğurlar və başqa türk etnosları birləşmişdi. (21,117) V.V.Bartold qeyd edir ki, geniş Qıpçaq çölü X əsrdə Quz çölü adlanırdı. (22; 87)

N.A.Baskakov göstərir ki, M.Kaşğari daim öz lüğətində qıpçaqlarla oğuzları yaxınlaşdırmış, onları uyğurlara qarşı qoymuşdur. Məsələn, M.Kaşğarinin qeydlərindən aydın olur ki, oğuz və qıpçaqlarda söz başında "y səsi uyğurlarda düşür: *yılığ suv* (oğuz, qıpçaq) - *ılığ suğ* (uyğur). Oğuz və qıpçaqlarda "m səsi uyğurlarda "b səsinə keçir: *men berdim* (oğuz, qıpçaq) - *ben berdim* (uyğur) və s. Müəllif fikrini ümumiləşdirərək yazır: "Mahmud Kaşğarinin oğuz və qıpçaq dillərini uyğur dili ilə qarşılaşdırması göstərir ki, keçmiş dövrlərdə, məhz Hun dövründə bu dillər (oğuz və qıpçaq dilləri - Q.K.) hələ diferensiasiyaya uğramamışdı və vahid oğuz-karluk-qıpçaq ünsiyyətini təşkil etmişdir ki, o da sonralar bir tərəfdən, karluk (uyğur), di-

gər tərəfdən, oğuz-qıpçaq dillərinə parçalanmış, sonrakılar isə oğuz və qıpçaq dilləri kimi ikiləşmişdir. (23; 156-157)

Beləliklə, türk tayfaları zaman keçdikcə qaynayıb-qarışmış, Azərbaycan xalqının, Azərbaycan dilinin təşəkkülünə gətirib çıxarmışdır. Bir sıra şivə fərqlərinə baxmayaraq, erkən orta əsrlərdə Azərbaycanda yerli və gəlmə türk etnoslarının vahid xalq kimi birləşməsi prosesi başa çatmışdır.

İlkin feodalizm dövründə ümumxalq Azərbaycan dilinin təşəkkülü ilə qədim Azərbaycan dili mərhələsi sona yetir və y e n i A z ə r b a y c a n d i l i mərhələsi başlayır. Bu son mərhələ iki böyük dövrə ayrılır:

1.Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında təşəkkülü və inkişafı dövrü (V-XV əsrlər);

2.Azərbaycan milli ədəbi dilinin təşəkkülü və inkişafı dövru (XVI-XXI əsrlər).

Birinci dövrün özü də üç dövrə ayrılır: a) şifahi ədəbi dilin təşəkkülü dövrü (VI-VIII əsrlər); b) yazılı ədəbi dilin təşəkkülü dövrü (IX-XI əsrlər); c) yazılı ədəbi dilin inkişafı dövrü (XII-XV əsrlər).

Şifahi ədəbi dilin təşəkkülü dövrünün əzəmətli abidəsi «Kitabi-Dədə Qorqud»dur.

Yazılı ədəbi dilin təşəkkülü dövrünün dil materialları nisbətən azdır. Ərəblərin və ermənilərin həsəd hissi, qərəzi, bu gün olduğu kimi, tarix boyu yerli əhali içərisində satqınlıq və türkə düşmənçilik hissləri dilabidələrinin məhv olmasına, gizlədilməsinə səbəb olmuşdur. Lakin ekstralinqvistiq – amillər, bir sıra fakt və işarələr qeyd edilən dövrdə yazılı ədəbi dilin təşəkkülünə şübhə doğurmur.

2003-cü ildə çap etdirdiyimiz «Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər)» aldı kitabda (31,554) yazmışdıq: «Əminik ki, bir vaxt belə yazılı mənbələr (ədəbi dili Mizin daha qədim təşəkküldövrünü əks etdirən materiallar – Q.K.) haradansa tapılacaq və Azərbaycan dilinin qədim dövrünə daha aydın işıq saçacaqdır; ola bilməz ki, 1000 illik bir dövrün[**] türk yazılı abidələri yalnız "Dədə Qorqudla məhdudlaşsın».

IX əsrin Albaniya hökmdarı Qriqor Hammamın «Alban dilinin qrammatikası » əsərindən alban-Azərbaycan dilində qalmış bir parça yazı bu cür düşüncələrin tam məntiqi olduğunu sübut edir.

IX ƏSRİN ANADİLLİ ALBAN ABİDƏSİ VƏ ONUN DİLİ HAQQINDA

Qeyd etdiyimiz kimi, Azərbaycan xalqının və ümumxalq Azərbaycan dilinin təşəkkülü ilkin feodalizm dövrünün məhsuludur. «Kitabi-Dədə Qorqud»un son formalaşması bundan sonrakı dövrə - VI-VIII əsrlərə aiddir. Bu zəngin abidə Azərbaycan şifahi ədəbi dilinin misilsiz nümunəsidir. XII əsrdən bu tərəfə ədəbi dilimizin inkişaf yolunu əks etdirən materiallar çox zəngindir. Arada olan boşluğu doldurmaq üçün illərdən bəri aparılan axtarışlar tədricən nəticə verməkdədir. Doktor Bəxtiyar Tuncayın axtarışları nəticəsində IX əsr Azərbaycan-alban dilinin maraqlı bir nümunəsi əldə edilmişdir. Bu, abidənin qorunub saxlanmış bir fraqmenti olsa da, dövrün dil xüsusiyyətlərini araşdırmaq üçün xeyli material verir.

[**] Kalankatukluda da, son mənbələrdə də bu ad müxtəlif şəkildə – *Qriqor Hammam, Qriqori Hamama* və s. formada yazılır.

Tarixi sənədlərdə Səhl ibn Sumbatın adına rast gəldikcə daim məndə nifrət hissi oyanıb. Babəki ələ verməsə idi, Babək Bizansdan kömək alıb ərəbləri Azərbaycandan geri oturtsa idi, bizim taleyimiz tamam başqa cür olardı. Ən azı abidələrimiz qorunub saxlanmış olardı və biz 1-ci minilliyə dair ana dili – Azərbaycan türk dili ilə bağlı bu qədər məlumat qıtlığı ilə üzləşməzdik. Amma Sumbatın nəvəsi Qriqor Hammam xeyirxah işlər görüb - Frakiyalı Dionisinin qrammatikasını ana dilinə tərcümə edib, «Suallar və Cavablar» adlı traktat yazıb (856-865). Qriqorun adının qeyd edildiyi iki abidə tapılmışdır. B.Tuncay yazır: «Arranın böyük bir hissəsini özünə tabe edən Qriqor, özündən əvvəlki Xaçın knyazlarından fərqli olaraq, Kambisenanı da idarə edirdi. O, qısa müddətə olsa da, ləğv edilmiş Alban dövlətini bərpa etmişdi». (24) Bu barədə Kalankatuklu Moisey aydın məlumat vermişdir. Moiseyin kitabında oxuyuruq: «Bundan sonra mömin knyaz Hammam tənəzzül etmiş Albaniya çarlığını bərpa etdi, necə ki Aşot Baqratuni bunu Ermənistanda etmişdi. Bu iki hadisə eyni vaxtda olmuşdu. Həmin Hammam… bütün kasıb və ehtiyacı olanlar üçün böyük işlər görürdü». (25,213)

B.Tuncay yazır: «…tarixi mənbələrdən məlum olduğu kimi, 866-cı ildə Albaniyanın ilk hökmdarlar sülaləsi hesab edilən Aranşahlar nəslinə mənsub Qriqori Hamama [***]adlı xristian bir bəy ərəblər tərəfindən vaxtilə babası Səhl ibn Sumbata hədiyyə edilmiş torpaqlarda (Şəki ətrafındakı geniş ərazilər) özünü Arran, yəni Albaniya xanı elan etmiş və dərhal da öz xanlığında xristian albanlar üçün məktəblər açdırmış və özü də həmin məktəblərdə uşaqlara tədris edilmək üçün alban dilinin qrammatikasına aid bir kitab da yazmışdır». (24) B.Tuncay qeyd edir ki, A.S.Sumbatzadə və R.Göyüşovun təsdiq etdiyi kimi, «Frakiyalı Dionisinin «Qrammatika»sına bənzədilməklə, Aristotel və Platon ruhunda – qrammatika, ilahiyyat, fəlsəfə və təbiətşünaslıq biliklərini özündə əks etdirən lakonik sual-cavab formasında qələmə alınmış bu əsərin sonralar erməni «dilçi»ləri üçün həsəd və ilham mənbəyinə çevrildiyini, nəhayət, XVII əsrdə həmin əsərin əsasında, erməni dilinə tərcümə edilməklə, hay dilinin ilk qrammatika kitabının yazıldığını erməni müəlliflərinin özləri etiraf edirlər».(24) B.Tuncayın heyrətlə yazdığı kimi, həmin əsərin bir fraqmenti həm erməni dilində, həm də orijinalda – alban dilində bir möcüzə kimi dövrümüzə qədər gəlib çatmışdır. Söhbət Matenadaranda saxlanılan 3522 №-li əlyazmadan gedir. Mətn A.N. Qarkavetsin 2 cildlik «Qıpçaq yazılı irsi» (2002, 2007) kitablarının 2-ci cildindən götürülmüşdür. (24; 26; 27)

Əlyazma XVII əsrdə Lvovda alban əlifbası ilə yazılmışdır. B.Tuncay o dövrdə əlyazmanın üzünü köçürən şəxsin Avedik adlı bir alban olduğu qənaətindədir. (24) Güman edilir ki, əlyazmanı erməni dilinə çevirən də, ona ön söz yazan da həmin bu Avedik olmuşdur.

B.Tuncayın qeydlərindən aydın olur ki, albandilli abidənin (Qriqor Hamamın «Qrammatika» əsərindən dövrümüzə qədər qalmış fraqmentin) üzərində nə vaxtsa (ya Avedik, ya da ondan əvvəlki katiblər tərəfindən) əməliyyat aparılmış, yəni əlavələr edilmişdir. Lakin həmin əlavələri ayırd etmək, fərqləndirmək mümkündür. B.Tuncay fraqmenti internet saytına daxil edərkən əlavələri qara şriftlə fərqləndirmişdir.

Beləliklə, indi əlimizdə 9-cu əsrə aid alban dilində orijinal mətn var. Mətn dialoq şəklində qurulmuşdur və dialoq replikalarının sayı 300-ə qədərdir. Replikalar əksərən bir sadə cümlədən, bəzən bir kəlmədən ibarətdir. Lakin həcm

[***] Şəki-Qızılcıq əraziləri. Şəki-Qızılcıq əraziləri

etibarilə iri - 10 sətirlik replikalar da var. Redaktə zamanı edilmiş əlavələr ümumi mətnin az bir hissəsini - 20-25 faizə qədərini əhatə edir. Əsər dövrün dil xüsusiyyətləri, elmi-fəlsəfi, təbii və dini görüşləri barədə kifayət qədər təsəvavür qazanmağa imkan verir.

Əsərin dili və məzmunu ilə bağlı hörmətli oxucuların təsəvvür qazanmaları üçün bir sıra dialoqları nəzərdən keçirək.

Fraqment aşağıdakı dialoqla başlanır:
-Ne ata aytmax bilə belgilidir?
-Ki, oğlu bar.
-Kiminq neməsisen sen?
-Atanınq.
-Kiminq neməsimen?
-Atanınq.
-Kiminq neməsidir ol?
-Atanınq.
-Kiminq neməsidir bu?
-Atanınq.
-Kiminq neməsidir bular?
-Atanınq.
-Kiminq nemələridirlər alar?
Atanınq.
-Xayda ettinq sen?
-Tenqridə.
-Kimgə umsandınq sen?
-Tenqrigə.
-Kiminq bilə yeberdinq sen?
-Tenqri bile yeberdim men.
-Kim bilə yeberdi bu?
-Tenqri bilə yeberdi bu, ol.
-Kim bile yeberirsen?
-Tenqri bilə yeberi men, ya ata bilə.

Dediyimiz kimi, əsər elmi, dini, fəlsəfi və təbiətşünaslıq bilikləri vermək zəminində qurulmuş qrammatika kitabıdır və müəllifin əsas məqsədi sual-cavab əsasında dilin qrammatik quruluşunu öyrətməkdir. Odur ki müəllif ən asan yolu seçmiş, qrammatik quruluşun dialoq şəklində öyrədilməsi prinsipini əsas götürmüş, əsəri dialoq şəklində tərtib etmişdir. Mətnə diqqət edilsə, aydın olar ki, burada əsas məqsəd fikrin ayrı-ayrı şəxslər üzrə necə ifadə edildiyini öyrətməkdir. Müasir dilimizdən ciddi şəkildə fərqlənə biləcək quruluş sxemi yoxdur.

a) Verbs with prepositions and nouns. English prepositions and postpositions are the same in form but diffrent in function. Some prepositions are not used as postpositions, e.g. "at, for, from, into, onto, of, with". Some postpositions are not used as prepositions, e.g. "ahead, apart, aside, away, back, forward". But some of them can function as prepositions or postpositions depending on the structure in which they are used, e.g. "about, across, along, around, behind, by, down, in, off, on, out, through, under, up". It is necessary to understand the difference between them. A preposition is used with a noun or its substitute, stands before it, and is not stressed. A preposition is part of a prepositional noun phrase, which means that a preposition always needs a noun. A postposition is used with a verb, stands after it, usually forms an idiom with this verb (it changes the meaning of the verb) and is always stressed. A postposition is part of the predicate, which means that a postposition always needs a verb. Some linguists call them adverbs, adverbial particles or

preposition-adverbs, because postpositions are adverbial in character. Compare these sentences: “How did he get in? – How did he get in the house / into the house?” In the first sentence, the postposition “in” is part of the phrasal verb “get in”, is stressed, and in this sentence receives falling intonation. In the second sentence, the preposition “in” or “into” belongs to the noun “the house” and is not stressed. For exampe: “to ask for it – напрашиваться на неприятность, to try one’s hand at something – взяться, приняться за что-либо”;

b) Verbs with postpositions. In the structure “verb + preposition + noun”, the verb dictates the choice of a specific preposition, which means that you need to learn these phrases by heart. A suitable noun or its substitute (e.g. a pronoun, a gerund) is always used in this structure and stands after its preposition. In the lists of phrasal verbs in this section, the words “something, someone” show where the noun stands in this structure, for example: “to agree on something, to agree with someone”. A suitable noun is chosen by the speaker according to the situation, for example: “We agreed on the price of 50 $. We agreed on going to Rome in the spring. We agreed on it. I agree with you.”

Note: In a number of cases, another object may be used between the verb and the preposition with noun in this structure, e.g. “I congratulate you on your new job. She blames Mike for the loss of her bag”.

There are two key elements in this structure: the verb and the postposition. Phrasal verbs of this kind present the most difficulty as they are highly idiomatic, i.e. their meaning is not predictable from the meanings of their components, and they usually have several idiomatic meanings. Many verbs can be used as phrasal verbs with postpositions, but the most important and the most productive are the verbs of motion, e.g. “break, bring, call, check, close, come, cut, do, drop, fall, get, give, go, look, make, move, pick, pull, push, put, run, set, show, take, tear, turn” and some others. And the verb “be” – the biggest verb of English.

The meaning of a phrasal verb with a postposition is usually idiomatic, that is, different from the literal meanings of its components, for example: “This question is too difficult, I give up. Watch out! The bus is coming!”. The phrasal verb “give up” is idiomatic, because it means “stop trying to do something”, not the sum of the literal meanings of the words “give” and “up”. The phrasal verb “watch out” is idiomatic, because it means “be careful”, not the sum of the literal meanings of the words “watch” and “out”.

A verb with a postposition may be used without any object after it, or may be followed by a direct object or prepositional object, for example: “They broke in. They broke in the door. They broke in through the window”.

If a personal pronoun is used instead of a noun – direct object, the pronoun usually stands between the verb and the postposition. Compare: “They brought up their three sons in Italy. They brought them up in Italy. Fill out the form. Fill it out”.

In spoken English, a direct object in the form of a short noun or someone’s name may also stand between the verb and the postposition. Compare: “Put on your coat. Put your cot on. Let in Anna Blake. Let Anna Blake in”.

But the postposition shouldn’t be placed too far from the verb or separated from it by intonation, bacause they create the meaning of the phrasal verb together.

Note: Many verbs with postpositions, especially the verbs of motion, are also used in the literal meaning of the phrasal verb. Compare these sentences: "Put your boots out. I'll clean them. Don't forget to put out the light before you leave. Look up the new words. He stopped reading and looked up."

The phrasal verb "put out" in the first sentence literally means "put outside" and is the sum of the meanings of "put" and "out". The phrasal verb "put out" in the second sentence is idiomatic, because it means "extinguish the light, fire of cigarette" and not the sum of the literal meanings of "put" and "out".

The phrasal verb "look up" in the first sentence is idiomatic, because it means "find in a reference book" and is not the sum of the literal meanings of "look" and "up". The phrasal verb "look up" in the second sentence literally means "look up" and is the sum of the meanings of "look" and "up".

The literal meanings of verbs with postpositions present no difficulty for understanding. The literal meanings of the postpositions in such phrasal verbs often correspond to the meaning of prefixes in Russian verbs, for example: "come in, go out, run out, give away, turn away". But verbs with postpositions very rarely "if ever" have only the literal meaning or only one meaning. Verbs with postpositions are verbs with several idiomatic meanings, and this means that they can be used in different situations instead of more specific verbs. For example: "to get it down to a fine art – достичь совершенства в чём-либо, to be glad to see somebody's back – радоваться избавлению от кого-либо, to come down a peg or two – сбавить тон, поубавить спеси, заговорить по-иному, to put in hand – приступить к делу, начать работать, to put into somebody's hands – отдать себя в чьи-либо руки, to go round with the hat – собирать пожертвования".

Verbs with postpositions are mostly used in simple tenses. Verbs with postpositions are usually less formal than their own-word synonym and are widely used in conversational English. Note: There is a variation or combination of the two basic constructions described above, in which a verb with a postposition takes a preposition and a suitable noun after it, e.g.: "I'm looking forward to your letter. She walked out on him. He is through with the report".

In the XXI century intercultural communication is greatly increasing and as a result of it western culture has influenced to eastern culture and vice versa. In multicultural world translation, as it is known, is a means of intercultural communication, and alsoit is a kind of moral, cultural and spiritual wealth and activity of human. Translation plays a great role, especially the right interpretation of the idiomatic set-expressions.

It is well-known that an idiom is a phrase which means something different from the meanings of the separate words that are a part of it. Usually it cannot be understood by the literal interpretation of the words that make up expression. Used together the words convey a meaning that is often unrelated to the individual words in the idiom. Some idioms have become so well worn that they are also clichés: overused or commonplace expressions. Some idioms are slang and although they might be used in everyday conversation and informal writing, as a rule, they would not be used in formal or literary speech or writing. They may be used to create an effect such as shock, irreverence or exaggeration. The expression which fall into this category are marked with an asterisk "before and after" the main entry.

Some expressions may have an alternative for one word without changing the meaning of the expression. An example is “sleep like a log / rock”. In this expression the word “rock” is a common alternative for the word “log” and can be substituted for it without changing the meaning of the expression. In such cases the alternatives are separated by a slash.

However, some expressions take an object that is different from the subject, e.g. “I gave him a rain check”. In this case, the object pronoun in the idiom entry is “someone”: “to give someone a rain check”. In other expressions, the object is always the same as the subject, as in “I’m keeping my fingers crossed”. Here, the object pronoun in the idiom entry is one: “to keep one’s fingers crossed”.

An idiom is a turn of phrase which may seem incomprehensible to someone who is not familiar with the language in which it is spoken. As a general rule, idioms are also very difficult to translate, except in a very roundabout way. Idioms are extremely difficult to learn, and many language learners cite them as one of the more challenging parts of thoroughly understanding language and culture. As idioms are used so frequently and extensively, several companies make idiom dictionaries which list idioms and their proper usage for language learners.

References

1. Adams P., Heaton B. & Howarth P. Socio-cultural issues in English for academic purposes. London: Macmillan, 1991.
2. Archer C. M. Culture bump and beyond. In J. M Valdes (Ed.), Culture bound (pp. 170-178). Cambridge: Cambridge University Press, 1986.
3. Garret P. Meanings of “globalization”: East and West. In N. Coupland (ed.). The Handbook of Language and Globalization. Chichester, UK: John Wiley & Sons, pp. 447-474, 2010.
4. Gudykunst William B. Cross-cultural and intercultural communication, p.167–190, Thousand Oaks, CA: Sage, 2003.
5. Heyward Mark. From international to intercultural. Journal of Research in International Education 1(1), 9-32, 2002.
6. Ismailova D.A. Teaching English as a foreign language. Baku, 2011.
7. LeBaron Michelle. Cross-Cultural Communication. Beyond Intractability.Eds. Guy Burgess and Heidi Burgess.Conflict Information Consortium, University of Colorado, Boulder. Posted: July,2003.http://www.beyondintractability.org/bi-essay/cross-cultural-communication

Nigar Vəliyeva

Mədəniyyətlərarası ünsiyyət şəraitində xarici dil tədrisi zamanı müasir ingilis dilinin materialı əsasında frazeoloji vahidlərinin xüsusiyyətlərinin təhlili

Xülasə

Müasir dünyada milli Azərbaycan mədəniyyəti qlobal mədəniyyətə surətlə inteqrasiya edir və mədəniyyətlərarası ünsiyyət prosesinin inkişafına müsbət təsir edir. Bununla əlaqədar mədəniyyətin və dilin beynəlmiləl münasibətlərinin inkişafında rolu böyükdür.Dil mədəniyyətlə sıx əlaqədardır ona görə ki, mədəniyyətin for-

malaşmasında, inkişafında və qorunub saxlanılmasında dil əsas vasitədir.Hər mədəniyyət dildə yaşayır və inkişaf edir.Lakin, eyni zamanda, dil mədəniyyətdə inkişaf edir.Beləliklə, dil ilə mədəniyyət sıx əlaqədədir.Diqqətinizə təqdim olunmuş məqalə tədris prosesində ingilis dilinin frazeoloji vahidlərinin spesifik xüsusiyyətlərinin tədqiqinə həsr olunub.

Нигяр Велиева

Анализ особенностей фразеологических единиц и их роль в процессе обучения иностранному языку в условиях межкультурного общения на материале современного английского языка

Резюме

В современном мире азербайджанская национальная культура интегрирует в сферу глобальной культуры позитивно влияя также на развитие межкультурного общения. Соответственно, роль культуры и языка в процессе развития межнациональных отношений велика. Язык, как известно, тесно связан с культурой, так как является средством формирования, развития и сохранения культуры. Каждая культура существует и развивается в языке. Но, в то же время язык развивается посредством культуры. Таким образом, язык и культура тесно взаимосвязаны. Статья, предложенная вашему вниманию, посвящена исследованию специфических особенностей фразеологизмов английского языка в процессе его преподавания.

Rəyçi: Nizami Cəfərov
AMEA-nın müxbir üzvü, professor

AQŞİN MƏMMƏDOV
AMEA Dilçilik İnstitutunun dissertantı
aqshin-m@rambler.ru

DİLÇİLİKDƏ ƏDƏBİ DİL ANLAYIŞI: NORMA VƏ ÜSLUBLAR

Açar sözlər: dil tarixi, ədəbi dil, şifahi və yazılı ədəbi dil, norma, üslub və s.
Key words: language history, literal language, oral and written literal language, norms and styles etc.
Ключевые слова: история языка, литературный язык, устный и письменный литературные языки, нормы и стили и так далее.

Milli varlığın ən mühüm göstəricilərindən biri olan dil əməli fəaliyyət prosesində yaranmışdır. Dilin gücü təkcə onun strukturunda, formasında, quruluşunun mükəmməl olmasında, leksik zənginliyində, sözlərin çoxluğu və ya azlığında deyil. S.Xəlilovun qeyd etdiyi kimi, dilin gücü daha çox dərəcədə sözlərin məna yükündə, onların sərhədlərinin aydınlığında, demarkasiya prinsipinin təmin olunmasındadır (5, s.638). F.Bekon müxtəlif filosofların bu məsələdə baxışlarını müqayisə edərək yazırdı ki, antik dövrün materialistləri "zəkanı şeylərin təbiətindən asılı hesab edirdisə, Platon dünyanı fikrə, Aristotel isə fikri sözə tabe edirdi (9, s.306). V.Humboldta görə, dil ruhun fəaliyyətidir; dilin öz strukturunda dünyaya müəyyən bir baxış yerləşmişdir. Struktur və məzmun arasında daxili rabitə, bir əks əlaqə münasibəti vardır. O, dili təfəkkürün də əsası kimi götürdüyündən, ondan əvvəl hesab etdiyindən, daxili, ideal varlıq olaraq məhz dili götürür: "Dil daxili varlığın orqanıdır, hətta bu varlığın özüdür" (12, c. 42).

Məlumdur ki, dil tarixinin mühüm tərkib hissələrindən biri də ədəbi dillərin tarixidir. Ədəbi dilin tarixi çoxdandır ki, linqvistika elminin konkret bir bölməsinə çevrilmiş, müstəqil inkişaf yoluna qədəm qoymuşdur. Onu da qeyd edək ki, dilçiliyin digər sahələri ilə müqayisədə ədəbi dil məsələləri az öyrənilmişdir. Bəzən ədəbi dil süni dil adlandırılmış, bəzən də dilin öyrənilməsi zəruri sayılıb, nitq ikinci dərəcəli fakt kimi qiymətləndirilərək diqqətdən kənarda qalmışdır. Bu sahəyə 1950-ci illərdən xüsisi fikir verilməyə başlanılmışdır: sovet və Praqa dilçilik məktəbləri bu müddətdə xeyli təcrübi iş görmüş, bir sıra faydalı nəzəri nəticələr əldə etmişlər (6, s.35)

Dünya dilçiliyində ədəbi dil istilahını adlandırmaq üçün müxtəlif terminlərdən istifadə edilir. Bu da ilk növbədə bu anlayışın məzmununun dərk edilməsində fikir vahidliyinin olmamasından qaynaqlanır. Sovet dövrü rus dilçiliyində və Azərbaycan dilçiliyində bu anlayış "ədəbi dil" adlandırılmışdır (6, s.22). Fransız və italyan dilçiliyində də həmin termindən istifadə olunur. İngilis və amerikan elmi mənbələrində həmin anlayışı ifadə etmək üçün "dil standartı", "standart dil", alman dilçiliyində "yazılı dil" (bu termin Türkiyə və çex dilçiliyində də işlədilir. Məsələn, Ankara Universitetinin professoru Zeynəb Qorxmazın Türkiyədə keçirilən Millətlərarası qurultayda etdiyi məruzə belə adlanırdı: "Türk dünyası və ortaq yazı dili" (2, s.53), "ümumi dil", "vahid dil", polyak dilçiliyində "mədəniyyət dili" və ya "mədəni dil" terminlərindən istifadə olunur (15, s.503). T.Hacıyev qeyd edir ki, lakin həmin anlayışın məzmununa münasibət terminoloji müxtəliflik dərəcəsində pərakəndə

deyildir: "Bu kateqoriya altında, ümumən, fonetik, orfoqrafik, leksik və qrammatik cəhətdən normalaşdırılmış nitq bütövlüyü nəzərdə tutulur" (6, s.22-23).

Ədəbi dil və onun tarixi inkişafı xalqın tarixi inkişafı ilə qırılmaz tellərlə bağlı bir hadisədir (1, s.112). Bu səbəbdən ədəbi dil həm də tarixi mədəni hadisədir (11). Başqa sözlə, ədəbi dil tarixi kateqoriyadır. O, həmişə, hətta xalq dilinin təşəkkülündən əvvəllərdə mövcud olmuşdur. T.Hacıyevin qeyd etdiyi kimi, tayfa dili – dialekt dili dövrünün ədəbi dili olmuşdur: "Hələ ibtidai başlanğıc dövründə kollektivin ümumməişət əlaqə-ünsiyyət vasitəsinin müqabilində estetik-emosional ifadə vasitəsi kimi əmək və mərasim nəğmələri fəaliyyət göstərir… Getdikcə bu əmək və mərasim nəğmələrinin dil nümunəsi xalq yaradıcılığı materiallarının dili kimi dolğunlaşır və differensial xüsusiyyətlər artır... Xalqın ictimai-tarixi kateqoriya kimi formalaşması, tayfa və başqa etnik qruplardan təşəkkülü ilə mövcud olan şifahi qolun müqabilində ədəbi dilin ikinci – yazılı qolu meydana gəlir" (6, s.23-24). Beləliklə, müxtəlif ictimai-tarixi inkişaf mərhələlərində ədəbi dil eyni keyfiyətdə, eyni məzmunda qala bilməz və qalmır. Onun hər tarixi şəraitə uyğun əlamətləri və vəzifələri olur.

Ə.Dəmirçizadənin fikrincə, ədəbi dil seçmə və əvəzetmə əməliyyatı aparılmaqla normaya salınmış dildir (7). T.Hacıyev bu fikri bir az da inkişaf etdirərək qeyd edir ki, ədəbi dil xalq dili əsasında seçmə və əvəzetmə əməliyyatı ilə meydana çıxan, təşkil olunan nitq təzahürüdür. Xalq dilinin danışıq və ədəbi təzahürləri vardır (6, s.20). Başqa sözlə desək, ümumxalq dilinin müəyyən normaya tabe edilən, normativ tələblər çərçivəsində fəaliyyət göstərən qolu ədəbi dildir. Ədəbi dildə ayrı-ayrı yaruslara məxsus dil faktlarının işlənməsinə müəyyən nəzarət qoyulur (6, s.21).

Ədəbi dil anlayışının tarixinə dilçilik ədəbiyyatında münasibət də müxtəlifdir. Bəziləri bu ictimai ünsiyyət formasını daha qədimlərə aid etdikləri halda, bəziləri onu yalnız milli dilin yaranması dövründən etiraf edirlər. Bu cəhət ədəbi dilin hansı əlamətlərə malik olması, hansı vəzifəni yerinə yetirməsi məsələsini müxtəlif şəkildə başa düşməklə bağlıdır (6, s.23). Məsələn, A.B.İsaçenko ədəbi dilin aşağıdakı xüsusiyyətlərinin olmasını qeyd edir: "1. Çoxvalentlilik. Yəni ədəbi dil milli həyatın bütün sahələrində istifadə olunmalıdır; 2. Normalılıq; 3. Milli kollektivin bütün üzvləri üçün məcburi ünsiyyət vasitəsi olmaq (dialekt variantına qəti yol verilməməlidir); 4. Üslubi differensiallığa malik olmaq" (14, s.151-152). T.Hacıyev İsaçenkonun bu qeydlərinə münasibət bildirərkən yazır ki, əvvələn burada birinci və üçüncü əlamətlər uyğundur. İkinci tərəfdən, bu vəzifələri ədəbi dil yalnız milli dilin ən yüksək mərhələsində yerinə yetirə bilər. Buna görə də həmin müəllif ən yüksək ədəbi dil anlayışını məhz millətin yaranması, milli dilin formalaşmasından qəbul edir. Milli inkişaf səviyəsinə qədərki dövrdə mövcud olan nümunəni isə "yazılı dil" adlandırır (6, s.23).

S.Mehdiyeva qeyd edir ki, ədəbi dil xalqın intellekti ilə bilavasitə bağlıdır. Xalqın intellektual potensialı ədəbi dilin yaranmasını təmin edən başlıca amildir (4, s.5).

Ədəbi dilin mahiyyətini təşkil edən keyfiyyətlərdən biri variantlılıqdır. Yəni ədəbi dilin özündə də bir məna üçün bir neçə ifadəçi-vasitə olur ki, bunlar müxtəlif üslublar tərəfindən seçilir.

Ədəbi dilin digər müəyyənləşdirici xüsusiyyəti normadır. R.Budaqovun təbiri ilə desək, norma ədəbi dilin iliyinə işləyir (10, s.30). T.Hacıyevin qənaətinə görə isə norma konkret tarixi dövrdə kollektiv tərəfindən qəbul və etiraf olunan, üslublar arasında müvafiq şəkildə paylanan və onları təmin edən dil faktlarının müəyyən qa-

nun dairəsində cəmləşən təzahürüdür... Norma geniş mənada xalq dilində, yəni bütövlükdə dilin özündə mövcuddur. Bunsuz ünsiyyət saxlamaq, kollektiv üzvlərinin bir-birini başa düşməsi mümkün olmazdı. Dilin normalılığı onun sistem xarakterində, dil işarələrinin iyerarxiyasında, bir-birindən asılı və bir-biri üçün şərt olmasındadır (6, s.25).

Norma özü sistemlərən təşkil olunur. T.Hacıyevin fikrincə, ədəbi dil normasının iki tərəfi (komponenti) vardır, iki sistemdən ibarətdir. Birinci, struktur-forma tərəfi. Bu, seçmə fonetik, leksik, qrammatik faktların sistemidir (fonetik, leksik, qrammatik yaruslardan hər biri mikrosistem kimi çıxış edir). Ədəbi dilin orfoqrafik norması da bir mikrosistem kimi buraya daxildir. İkinci, funksional-məzmun tərəfi. Burada mövcud üslubların sistemi nəzərdə tutulur. Birinci yarımsistem ikinci üçün istehsal materialı və fəaliyyət mənbəyidir. Eyni zamanda ikinci tərəf birincini təşkil və təqdim edir. Beləliklə də, ədəbi dil üslubların fəaliyyəti kimi də meydana çıxır (6, s.29).

Başqa sözlə, ədəbi dilin mənzərəsi üslublarda təzahür tapır və üslubların ifadə zənginliyi, dolğunluğu ədəbi dilin vəziyyətindən asılıdır. K.S.Aksakovun qeyd etdiyi kimi, "ədəbi dilin öz tarixi üslubun tarixi ilə birləşir" və ya "ədəbi dil üslubların mürəkkəb sistemidir" (13, s.8).

V.V.Vinoqradovun bu fikri üslubları müəyyənləşdirmək üçün bir növ qaydadır: "Üslub bu və ya digər ictimai, ümumxalq dili mühitində ictimai dərk olunmuş, funksional şərtlənmiş, nitq ünsiyyəti vasitələrinin işlənmə, seçmə və əlaqələnməsinin daxilən birləşmiş elə məcmusudur ki, başqa bu cür ifadə üsullarına münasibətdə həmin xalqın ictimai nitq təcrübəsi zamanı ayrı məqsədə xidmət edir, özgə vəzifələr yerinə yetirir" (11, s.73).

Onu da qeyd edək ki, üslubların hamısı ədəbi dilin inkişaf perspektivləri ilə eyni dərəcədə bağlanmır. Yaxud mövcud üslublardan hər biri dövrün ümumi dil mənzərəsini eyni dərəcədə əks etdirmir: "Xüsusilə milli dilin təşəkkülünə qədərki mərhələlər üçün belə bir xüsusiyyət səciyyəvidir ki, üslublardan biri daha fəal olur, qabağa çıxır və dövrünü bütövlükdə təmsil etmək qüdrətində olur. Buna aparıcı üslub deyilir" (6, s.31). Azərbaycan ədəbi dili tarixində bədii üslub Azərbaycan xalqının təşəkkülü dövründən (doğrudur, ilk dövrlərdə bu üslubun daşıyıcısı xalqın şifahi ədəbiyyat nümunələri – folklor janrları olmuşdur) XIX əsrin birinci yarısına qədər Azərbaycan ədəbi dilinin aparıcı üslubu olmuşdur (4, s.6). "İstər tarixən qədimliyi, istərsə də müasir mərhələdəki inkişafı baxımından bədii üslub ədəbi dilin digər funksional üslublarından seçilir. Azərbaycan yazılı ədəbi dilinin təxminən min illik tarixi müəyyən mənada bədii üslubun inkişaf tarixi deməkdir. Belə bir fakt inkaredilməzdir ki, Azərbaycan ədəbi dilinin XIX əsrin ikinci yarısına qədərki tarixi əslində bədii üslubun tarixi olmuşdur" (3, s.253). Başqa sözlə desək, bu tarixədək "elə dövrlər olur ki, ədəbi dil öz həcminə, tutumuna görə bədii üsluba bərabər çıxış edir, ədəbi dilin başqa üslublarının (*elmi, rəsmi-epistolyar, publisistik və s.* – **A.M.**) törəməsi üçün bədii üslub nümunə və baza rolunu oynayır (6, s.32).

Ədəbi dilin inkişafı ədəbi janrların dil xüsusiyyətləri ilə də bağlıdır. Dilimizin tarixində bunun aşkar izləri vardır. Ədəbi dil tarixi frazeologiyaya da xüsusi diqqət yetirir: "Frazeologiya insan şüurunun hazırladığı ilk bədii məhsuldur... Təfəkkürün ilk bədii əsərləri kimi yaranan frazeoloji vahidlər sonralar bədii əsərlərin tikinti materialına çevrilir (6, s.18)

Azərbaycan mədəniyyətinin tərkib hissəsini təşkil edən Azərbaycan ədəbi dili tarixi "ümumtürk mədəniyyətinin regional təzahürü" (4, s.5), Türkiyə türkcəsi və özbək dili ilə birlikdə qədim tarixi və yazısı olan türk dillərindən biridir (2, s.365). İ.Kazımov haqlı olaraq qeyd edir ki, "bu gün azərbaycanşünaslığın metodoloji təməllərindən birini də ədəbi türkcələrin tarixi inkişaf problemləri təşkil edir. Bu problem, əlbəttə, türk xalqlarının tarixindən ayrılmazdır. Türk xalqlarının tarixini düzgün yöntəmdə, düzgün prinsiplər əsasında öyrəndikcə onların dillərinin tarixi də türkçülüyün, eləcə də azərbaycanşünaslığın nəinki metodoloji əsasına, həmçinin də kontekstinə çevrilir... Azərbaycan ədəbi dili tarixi xalqımızın mədəni-intellektual səviyyəsi və hər bir dövrün ictimai-tarixi hadisələri ilə bağlı olaraq inkişaf yolu keçmiş, zənginləşmiş və cilalanmışdır. Azərbaycan ədəbi dilinin dinamikası təkcə onun əhatə etdiyi dövr və mərhələlərin forma və məzmunu, norma və janr-üslub rəngarəngliyi ilə deyil, eləcə də onun tədqiqat balansı üzrə də müəyyənləşir. Bu baxımdan dilçiliyimizdə həmin sahədə xeyli işlər görülmüşdür" (8).

T.Hacıyev yazır: "Azərbaycan ədəbi dilinin meydana gəlməsi xalq dilinin yaranması ilə bağlıdır. Şübhəsiz, ilk mərhələdə bu ədəbi dilin şifahi qolu fəaliyyət göstərir. Müxtəlif tayfaların siyasi-iqtisadi cəhətdən birləşməsi, onların təfəkkür məhsulu olan bədii-zehni yaradıcılıq məhsullarının da cəmlənməsini şərtləndirir" (4, s.56). Yazılı ədəbi dildən çox-çox əvvəl xalqın dilinin ilk təşəkkülü dövründə yaradılmış dialektfövqü xarakterli şifahi ədəbiyyatda öz əksini tapan şifahi ədəbi dil yazılı ədəbi dilə təsir etmiş, yazılı ədəbi dil təşəkkül tapdıqdan sonra bir neçə əsr hər iki dil yanaşı inkişaf etmiş, XVII əsrdən başlayaraq şifahi ədəbi dil aparıcı rol oynamış, XVIII əsrdən – dil demokratikləşməyə qədəm qoyduğu dövrdən yazılı ədəbi dil tam şəkildə şifahi ədəbi dilin bünövrəsi üzərində cilalanmış və çiçəklənmişdir (4, s. 27)

İ.Kazımovun qeyd etdiyi kimi, Azərbaycan ədəbi dili tarixi yarandığı zamandan indiyə kimi təbii hadisələri, münasibətləri, tədii dil proseslərini tarixin içində aşkar etmiş, cəmiyyətin inkişafının bütün fazalarında xalqın dili və tarixi arasında öz varlığını qoruyub saxlamış, "dərin uçurumlar"ı yox etmişdir: "Ədəbi dilimizin lüğət tərkibi, qrammatik quruluşu, onun funksional üslubları bütün tarixi hadisələri, prosesləri aydın və dəqiq əks etdirmiş, xalq həyatının təkrar mərhələlərini təyin etmişdir" (8).

Heç şübhəsiz, böyük dil o dil sayılır ki, onun qoynunda bütün peşəkar fəaliyyət sahələri sərbəst inkişaf edə bilsin. S.Xəlilovun qeyd etdiyi kimi, bizim dilimiz əsrlərin sınağından çıxaraq bir sıra istiqamətlərdə peşəkar dil üslublarını ehtiva edə bilmişdir. Ədəbi dilimizin böyük daxili potensialı və zəngin söz ehtiyatı, habelə tarixin ayrı-ayrı dövrlərindəki dövlətçilik ənənəmiz bu gün bizim heç bir başqa dilə müraciət etmədən bütün fəaliyyət sahələrini əhatə edən mükəmməl milli dil səviyyəsinə qalxmağımıza imkan verir: "Azərbaycan dilinin müasir mərhələdəki inkişaf yolu milli-elmi fəlsəfi dil üslubunun formalaşmasından keçir" (5, s. 637).

Ədəbiyyat

1. Axundov A.A. Ümumi dilçilik. Bakı, 1979.
2. Axundov A.A. Dil və ədəbiyyat. 2 cilddə, I cild. Bakı: "Gənclik", 2003.
3. Azərbaycan ədəbi dili tarixi. Bakı: "Elm", 1991.

4. Azərbaycan ədəbi dili tarixi. 4 cilddə (Redaktoru və ön sözün müəllifi S.Mehdiyeva), I cild, Bakı: "Şərq Qərb", 2007.
5. Xəlilov S. Elm haqqında elm. Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 2011.
6. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. 2 cilddə, I cild. Bakı: "Elm", 2012.
7. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. Bakı, 1979.
8. Kazımov İ. Ədəbi türkcəmizin tarixi problemi Tofiq Hacıyevin konsepsiyasında// "Kredo" qəzeti, Bakı, 20 aprel 2012-ci il.
9. Бекон Ф. Сочинение в 2-х томах. Том 2. М., 1972.
10. Будагов Р.А. Литературные языки и языковые стили. М., 1967.
11. Виноградов В.В. Итоги обсуждения вопросов стилистики.//"Вопросы языкознания", № 1, 1955.
12. Гумбольдт В. Избранные труды по языкознанию. М.: "Прогресс", 1984.
13. Ефимов А.И. История русского литературного языка. М., 1955.
14. Исаченко А.В. К вопросу о периодизации истории русского литературного языка.// Сб. "Вопросы теории и истории языка", с. 151-152.
15. Общее языкознание. М., 1970.

Agshin Mammadov

The concept of literal language in linguistics: the norms and styles

Summary

One of the important integral part of the language history is the history of literal languages. There has been given detailed information about the concept of literal language and its determining characteristics in the world literature (variation, norms, stylistic scenery) in the article. An approach to the concept of history of literal language in the linguistic literature has been investigated. At the same time, the development dynamics of the Azerbaijani literal language was at the center of attention, the formation of traditions of oral and written literal language has been reviewed.

Агшин Мамедов

Понятие литературного языка в лингвистике: нормы и стили

Резюме

Одной из важных частей истории языка является история литературных языков. В этой статье была представлена подробная информация о понятии литературного языка, его характеристике определения в мировой лингвистике (вариации, нормы, стилистические представления и т.д.). Были исследованы подход к концепции истории литературного языка в лингвистической литературе. В то же время, динамика развития азербайджанского литературного языка была в центре внимания, формирование традиций устной и письменной речи было рассмотрено.

Rəyçi: S.Mehdiyeva
filologiya elmləri doktoru, professor

СВЕТЛАНА КУЛИЕВА
БГУ

ЗАМЕНА ПРЕДИКАТИВНОЙ КОНСТРУКЦИИ МАСДАРОМ

Açar sözlər: Məsdər, felin müxtəlif formaları
Ключевые слова: отглагольное имя, различные формы глагола.
Key words: Verbal name, various forms of the verb

Известно, что масдар – отглагольное имя, является универсальным средством передачи в именной форме синтаксического и лексического аспекта глагольного действия. В современном арабском литературном языке получил широкое распространение способ замены личной формы глагола масдаром в абсолютном глагольном значении: действие передается масдаром, субъект действия зависящим от него (масдара) именем в родительном падеже; объект действия находится или в винительном падеже, или в родительном падеже с предлогом, которым управляет глагол. Время чаще всего определяется содержанием всего предложения.

Такая замена в языке одной конструкции другой конструкцией называется генитивной, когда формы одного объекта рассматриваются в форме другого объекта. Например:

قرأت الكتاب.
- Я читаю книгу.
قراءة الكتاب.
- Чтение книги.

Наиболее часто встречается замена глагола в сослагательном наклонении в придаточных предложениях с союзом "أنّ", выступающего в данном случае, в качестве подчинительного союза.

Взаимозаменяемость масдара – подлежащего и придаточного подлежащного предложения.

Важно, чтобы мы знали цель.
- من المهمّ أن نعرف الهدف.
Важно знать цель.
- من المهمّ معرفة الهدف.

Надо, чтобы мы переписали текст.
- يجب أن نستنسخ النصّ.
Надо нам переписать текст.
- يجب علينا استنساخ النصّ.

Как видно из примеров, чаще всего это явление наблюдается в безличномодальных конструкциях, как одной из разновидностей сложных предложений с придаточным подлежащным.

В структуру предложения с модальным глаголом в качестве обязательных составляющих в следующей последовательности входят: модальный глагол, подлежащее- субъект модальности, которому надлежит, необходимо, нельзя и т.д. совершить действие и полнозначный, основной глагол в сослагательном наклонении, который может замещаться масдаром в определённом состоянии.

Например:

يجب أن يعمل или يجب العمل

- необходимо работать

ينبغي أن يشير или ينبغي الاشارة

- следует указать

يمكن أن يقول или يمكن القول

- можно сказать

لا يجوز أن يدخّن или لا يجوز التدحين

- нельзя курить

Глагол "ينبغي" употребляется реже других глаголов как "وجب" и "لزم" и имеет только одну временную форму настоящего времени. Употребляясь с масдаром полнозначного глагола в определённом состоянии, данный модальный глагол может не согласоваться с последним в роде.

Вместо модальных глаголов могут употребляться масдары и причастия, образуя предикативные модальные обороты типа:

- возможно - من الممكن
- вероятно - من الواجب

- он может - في وسعه
- он может - في امكانه

- необходимо, обязательно, нужно - لا بدّ من

لا بدّ من التقيّد بحدود معينة.

- Необходимо ограничение определенными рамками.

- неизбежно, необходимо - لا مفرّ من

لا مفرّ من الاعتراف بتفوّق أسلوبنا.

- Необходимо признать превосходство нашего метода

В высказываниях, выражающих волю, желание, намерение, действие чаще всего в русском языке передаётся инфинитивной формой глагола, который отсутствует в арабском языке. Масдар являясь неличной и вневременной формой в арабском языке может выполнять функцию инфинитива при этом масдар в предложении является дополнением и управляется глаголом. Например:

افضّل القراءة.
- Я предпочитаю чтение.

Масдар, образованный от переходного глагола, управляет объектом как первый член идафы. Например:

افضّل قراءة الكتب.
- Я предпочитаю чтение книг.

Масдар, образованный от косвенно-переходного глагола, управляет объектом с помощью того же предлога. Масдар находится при этом в определённом состоянии. Например:

يجب العودة إلى مناقشة هذا الموضوع.
-Следует вернуться к обсуждению этой темы.

Взаимозаменяемость масдара – дополнения и придаточного дополнительного.

Он желает познакомить меня со своими товарищами.
- انه يريد أن يعرّفني على رفاقه.
Он желает познакомить меня со своими товарищами.
- انه يريد تعريفي على رفاقه.

Они просили нас, чтобы мы помогли им.
- طلبوا منّا أن نساعدهم.
Они просили нас помочь им.
- طلبوا منّا مساعدتهم.

Пришло время, чтобы я задал вопросы.
- حان الوقت لي أن القي الأسئلة.
Пришло время, чтобы я задал вопросы.
- حان الوقت لالقاء الأسئلة.

Взаимозаменяемость масдара – предикатива и придаточного предикативного.

Их целью было привлечь молодежь.
- كان هدفهم أن يجتذبوا الشباب.
Их целью было привлечь молодежь.
- كان هدفهم اجتذاب الشباب.

Наша задача, чтобы построить новую плотину.
- مهمّتنا أن ننشئ السدّ الجديد.
Наша задача – построение новой плотины.
- مهمّتنا انشاء السدّ الجديد.

Взаимозаменяемость масдара – обстоятельства и придаточного времени.

Мы слышали о нем, до того, как познакомились с ним.
- سمعنا عنه قبل أن نتعرّف عليه.
Мы слышали о нем до нашего знакомства с ним.
- سمعنا قبل تعرّفنا عليه.

Он был арестован, после того, как был разоблачен.
- القى القبض عليه بعد أن افتضح امره.
Он был арестован после его разоблачения.
- القى القبض عليه بعد افتضاح امره.

Генитивной масдарной конструкцией может быть заменен и основной глагол при глаголах начинания действия, продолжения действия и прекращения действия, при условии употребления предлогов "عن، من، في، ب", с помощью которых эти глаголы управляют масдаром, а также после глаголов "узнать", "упомянуть", "сообщить".

Например:

بدأ ينفّذ المهمّة. или بدأ بتنفيذ المهمّة.
- Он начал выполнять задачу.

أخذت في القراءة. или أخذت تقرأ.
- Она начала читать.

سننتهي نعمل بعد اليومين. или سننتهي من العمل بعد اليومين.
- Мы завершим работу через два дня.

توقّفت تقرأ. или توقّفت عن القراءة.
- Она перестала читать.

Т.В.Преображенская находит наличие в семантической структуре масдара семантического элемента, который позволяет ему функционировать наравне со словами, обозначающими признаки (прилагательными и причастиями).(3,3)

Атрибутивная конструкция :

голубые глаза - عينان زرقوان

может преобразоваться в адъективную конструкцию, -
голубой глазами - أزرق العينين

которая может преобразоваться в масдарную генитивную конструкцию -
голубизна глаз - زرقة العينين

Естественно, что эта особенность арабского синтаксиса обращает на себя внимание не только своей легкостью трансформации при замене предикативной формы масдарной, т.е. безличной и безвременной формой выражения семантики глагола, но и некоторыми потерями, а именно: отсутствие при оформлении смыслового содержания предложения отнесенности действия к определенному времени, лицу и залогу, хотя тот или иной залог может быть выявлен определенным масдаром переходного / непереходного, возвратного / невозвратного глагола. Например:

تكثيف جهود

- наращивание усилий (усилия наращивают)

تكثّف جهود

- наращивание усилий (усилия наращиваются)

Использование масдара вместо предикативной конструкции часто лишает нас необходимой точности при переводе, так как не всегда время определяется содержанием самого предложения.

Например:

أعلن الرئيس معارضة بلاده مبدأ استخدام القوة وسيلة لتسوية المنازعات.

- Заявил президент противодействие своей страны принципу использования силы средством для улаживания конфликтов.(буквальный перевод)

- Президент заявил, что его страна выступает против использования сил, как средства решения конфликтов.(2,243)

Б.М.Гранде, ссылаясь на авторов старых грамматик, полагал, что употребление этого типа масдарной конструкции вместо оборота со спрягаемой формой глагола, выносится уже за рамки грамматики и относится к вопросам литературного стиля, так как в результате любое сообщение приобретает краткий, лаконичный характер, в отличие от стиля исторического рассказа, где последовательность событий передается посредством серии глаголов, соединенных союзом «и».(1,191)

Литература

1. Б.М.Гранде "Курс арабской грамматики в сравнительно-историческом освещении" М., 1998г.
2. Н.Д.Финкельберг "Теория и технология перевода" М., 2004г.
3. Т.В.Преображенская "Масдарная генитивная конструкция и её специфика в процессе изучения закономерностей лексической сочетаемости в литературном арабском языке" Кафедра арабской филологии ИСАА при МГУ

S.Quliyeva

İsmi xəbərin məsdərlə quraşdırılma əvəzlənməsi

Xülasə

Məlumdur ki, məsdər feli hərəkətləri sintaktik və leksik aspektləri nominal şəklində ötürülməsi üçün universal qeydi vasitədir. Müasir ərəb dilində felin müxtəlif formaları mütləq feli mənalarda məsdərlə əvəzləşə bilər, hərəkət bu zaman məsdər vasitəsi ilə ötürülür, hərəkətin subyekti – yiyəlik halında, hərəkətin obyekti – təsirlik halında və ya yiyəlik halında önlük şəklində feli idarə edən kimi hallanır.

S.Guliyeva

Replacement predictive construction of verbal

Summary

Known that the verbal name in Arabic is a universal means of transmission in nominal form of syntactic and lexical aspects of verbal action. In modern Arabic various forms of the verb can be replaced by the verbal name in absolute verbal meanings and thereof the effect is transmitted through the verbal name and the subject of the action - beyond its name in the genitive case, the object of the action - either in the accusative or the genitive with a preposition run by a verb.

Rəyçi: K.Məmmədova
filologiya üzrə fəlsəfə doktoru

ÜLVİYYƏ HACIYEVA
ADPU

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ ATALAR SÖZLƏRİNİN FRAZEOLOGİYA DAXİLİNDƏ TƏDQİQATI

Açar sözlər: Frazeologiya, atalar sözləri, idiomlar, ədəbi sitatlar, tədqiqat.
Key words: Phraseology, proverbs, idioms, literary quotation, investigation.
Ключевые слово: Фразеология, пословицы, идиомы, литературные цитаты, исследования.

Bildiyimiz kimi, müasir dövrdə frazeologiya dil haqqında elmin sahələrindən biri olub özünün hərtərəfli inkişaf mərhələsini keçir. Frazeologiyanın yaxın dövrlərdə elmi fənn kimi yaranmasına və dilçiliyin nisbətən gənc bölməsi olmasına baxmayaraq, onun tədqiqatı uzun illər alimlərin diqqət mərkəzində olmuşdur.

Dilçilikdə frazeologiya iki hissəyə bölünür: 1) ümumi frazeologiya; 2) xüsusi frazeologiya.

Ümumi frazeologiyada bir sıra inkişaf etmiş dillərin frazeoloji materialının ümumi məsələləri müəyyənləşdirilir. Xüsusi frazeologiyada isə hər bir konkret dilin faktları əsasında həmin dilin frazeolji sistemi struktur cəhətdən təsvir edilir.

Qeyd etmək lazımdır ki, Qərbi Avropa və Amerika dilçilik ədəbiyyatında frazeologiya nəzəriyyəsinə həsr olunmuş heç bir xüsusi tədqiqat əsərinə rast gəlmək olmur. Buna baxmayaraq külli miqdarda olan lüğətlərdən, məlumat kitabçalarından frazeologiyaya aid istənilən qədər materiallar toplamaq mümkündür.

Ancaq rus-sovet dilçiliyində frazeologiya çox geniş şəkildə öyrənilmiş, onun nəzəri əsasları müəyyənləşdirilmiş və dilçiliyin müstəqil bir sahəsi səvisyyəsinə qaldırılmışdır.

XX əsrin əvvəllərində frazeologiya məsələləri ilə ilk dəfə ətraflı şəkildə Ş.Balli məşğul olmuşdur. O, bu sahənin banisi hesab olunur. Ş.Balli dilçilik tarixində birinci olaraq frazeologiyanı leksikologiyanın müstəqil şöbəsi kimi müəyyənləşdirmişdir. O, nitqdə iki növ söz birləşməsi olduğunu müşahidə etmiş, bunlardan sabit birləşmələrinin sirli xarakteri onun xüsusi olaraq maraqlandırmışdır. Ş.Balli bu növ birləşmələri frazeoloji qrup adlandıraraq onları sinxronik planda şərh etməyə çalışmışdır.O, qeyd edir ki, "Bir sıra sözlər başqa sözlərə nisbətən bir-biri ilə daha sıx bağlılığa meyl edirlər... Dildə sabirləşən birləşmər "frazeoloji ifadə" adlanır. Biz bunlardan nisbi müstəqilliyini saxlayan sözlərin iştirakı ilə düzələnləri "frazeoloji qrup", elementləri tamamilə bir-biri ilə əlaqədar olanları "frazeolji birləşmə" adlandırırıq" [1, 80].

Rus dilçilərindən A.Bulaxovski frazeologiyaya hazır şəkildə sitat materialı kimi baxaraq, ümumiyyətlə, fikir mübadiləsi zamanı istifadə edilən sabit söz birləşmələrinin hamısını frazeologiyanın tədqiqat obyekti hesab edib, ona belə tərif vermişdir: "Frazeologiya, adətən, dildə məna cəhətdən parçalanmayan, lakin işlək sitat materialı kimi möhkəmlənən atalar sözü, məsəllər, "yazıçıların qanadlı sözləri" şəklinə düşmüş ifadələr və buna görə də müəyyən bütövlük təşkil edən söz birləşmələridir" [2, 33].

Frezologiyanın leksikologiya çərçivəsindən çıxıb tam müstəqil şöbə kimi formalaşmasında akademik V.V.Vinoqradovun xidmətləri çox böyükdür. O, rus dilinin materialı əsasında frazeoloji vahidləri "frazeoloji birləşmələr", "frazeoloji birliklər", "frazeoloji vahidlər" adı ilə üç semantik qrupa bölür, bunların hər birinin özünəməxsus əlamətini göstərir [3, 22]. O, frazeoloji birliklərdən bəhs edərkən yazir ki, bunların ümumi mənası ilə komponentlərinin mənası arasında heç bir yaxınlıq, əlaqə, hətta potensial əlaqə belə yoxdur.

N.Amasova yazır ki, V.Vinoqradovun frazeologiya ilə əlaqədar olan məqalələrində frazeologiyanın bir sıra ümumi məsələləri, o cümlədən frazeoloji vahidin daxilən ayrılıqda formalaşması problemi, frazeoloji vahidlərin tərkib hissələrinin müxtəlif tiplərinin müəyyənləşdirilməsi kimi məsələlər nəzərə alınmışdır. Daha sonra, o, qeyd edir ki, V.Vinoqradovun "frazeoloji birləşmələrinin mənası onun komponentlərinin mənasl ilə bağlı deyildir" fikri inandırıcı deyil [4, 8].

Əgər biz nitq prosesində frazeoloji vahidin mənasını başa düşürüksə, deməli, burada həlledici onun komponentlərinin mənası ilə əlaqədar olaraq dərk edilməsi deyil, konteksdən və situasiyadan irəli gələn cəhətdir.

Frazeologiyanın mübahisəli məsələlərindən biri onun tədqiqat obyekti dairəsinin dəqiqləşdirilməsidir. Frazeologiyanın obyektinə nələr daxildir? Bu suala dilçilər müxtəlif cavablar verirlər. Bunlardan diqqəti daha çox cəlb edən rus dilçisi S.Ojeqovun fikridir. O, frazeologiyanı iki mənada a) geniş və b) dar mənada təsəvvür edir. Ojeqova görə "geniş" mənada frazeologiya dedikdə, buraya hər cür sabit birləşmələr, atalar sözləri, məsəllər, idiomlar, ibarələr, hikmətli sözlər və s. daxildir. Lakin "dar" mənada frazeologiyaya isə ancaq sözün ekvivalenti olan frazeoloji vahidlərin məcmusu daxildir. O, hikmətli sözləri və zərb məsəlləri, nağıl formalarını, aforizmləri, ədəbi sitatları və s. frazeoloji vahidlərin növü kimi götürərək göstərirdi ki, onlar öz elementlərinə parçalandıqdan və janr əlaməti strukturunu dağıtdıqdan sonra dilin frazeoloji sisteminin sərvətinə çevrilir [5, 38-40].

Frazeologiya problemi Azərbaycan dilçiliyində də tədqiqatçıların diqqətini cəlb etmişdir. Bu sahənin tədqiqində S.Cəfərovun, S.Murtuzayevin, A.Qurbanovun, M.Paşayevin, H.Bayramovun və s. zəhmətini qeyd etməyi vacib hesab edirik. Azərbaycan dilçiliyində S.Cəfərov, S.Murtuzayev, M.Adilov, Ə.Dəmiçizadə və bir çox başqaları frazeologiyanı "geniş" mənada qəbul edirlər.

S.Cəfərov atalar sözlərini, idiomatik ifadələri, zərb məsəlləri, hikmətli sözləri də buraya daxil edir [6, 95-125].

A.Qurbanov da frazeologiyanı "geniş" mənada qəbul edərək, onun frazeoloji söz birləşməsi və frazeoloji ifadə və ibarələr şəklində öyrənilməsini təklif edir. O, yazır: "Frazeoloji vahidlərin sırasına atalar sözü, məsəllər, aforizmlər, həmçinin bəzi rəvayətlər, ifadələr, sitat və klişe adlanan ifadələr və s. daxildir [7, 33].

M.Tağıyev frazeologiyanın tədqiqat obyektinə "dar" mənada yanaşaraq, frazeologiyanı geniş mənada tutanlarla razılaşmır. O, yazır ki, müasir filologiyada elə vəziyyət yaranmışdır ki, bunun nəticəsində frazeologiya anlayışı hədsiz dərəcədə genişləndirilir, buraya sözlər, idiomlar və tərkibi terminlər, sabir sintaktik konstruksiyaların bütün növləri, atalar sözləri, məsəllər, hikmətli sözlər, çoxlu miqdarda şifahi və yazılı nitqdə yazılı sitatlar daxil edilir. Frazeologiyanın obyektindən bəhs edərək yazır: "Dilçiliyin sahələrindən biri olmaq etibarilə frazeologiyanın vəzifəsi yalnız dil struktutuna aid olan söz birləşmələrini tədqiq etməkdir [8, 5-6].

Azərbaycan dilçiliyində H.Bayramov frazeologiya anlayışını "dar" mənada göstərsə də atalar sözləri və zərbi-məsəlləri frazeologiyanı zənginləşdirən mənbələrdən biri hesab etmiş və onları frazeoloji cümlə kimi araşdırmışdır. O, frazeoloji vahidə bu tərifi verir: "Fikrin ifadəsində nitqin bilavasitə tərkib hissəsini təşkil edən iki və daha çox tammənalı sözün tarixən birləşməsindən ibarət olan, komponentləri sintaktik və semantik cəhətdən parçalanmayan, quruluşca sərbəst söz birləşməsinə və ya cümləyə oxşayan, mənaca isə söz birləşməsinə və cümləyə ekvivalent olan, dildə hazır şəkildə mövcud olub ənənəyə görə ya bir formada, ya da qrammatik cəhətdən dəyişdirilərək işlədilən konstruksiyalara frazeoloji vahid deyilir" [9, 17-34].

Bizim əsas məqsədimiz frazeoloji vahidləri ümumilikdə deyil, frazeologiyanın tərkibində işlədilən atalar sözlərini tədqiq etmək olduğundan əsasən diqqəti atalar sözlərinə yönəltməyə və atalar sözləri, zərb məsəllər, aforizmlər, idiomlar və s. bəhs etməyi daha məqsədəuyğun hesab edirik.

Azərbaycan dili frazeologiyasını tədqiq edən H.Bayramov qeyd edir ki, atalar sözü və məsəllər şihafi xalq ədəbiyyatının qədim janrlarındandır. Azərbaycan atalar sözü və məsəllərin leksik tərkibi, əsasən, daimidir, dəyişməzdir. Məsələn, "Saman sənin deyil, samanlıq ki, sənindir", "Qızım sənə deyirəm, gəlinim sən eşit".

Lakin atalar sözü və məsəllərin bir qisminin komponentlərinin sırası və leksik tərkibi fərqli şəkildə də işlədilir. Məsələn, "Ara xəlvət, tülkü bəy", "Kabab iyinə gəlmişdi, gördü eşşək dağlayırlar".

Bu kimi fərqlər atalar sözü və məsəllərin predikativ söz birləşməsi səciyyəsi daşımasından irəli gəlir. Belə folklor materiallarının bir qisminin komponentlərinin sinonimləri və ya başqa sözlərlə əvəz edilməsi geniş xalq yaradıclığı səciyyəsi daşıdığından bir tərəfdən bunlarda ifadə edilən fikrin məzmunca dəyişdirilməsi, digər tərəfdən isə müxtəlif dialekt xüsusiyyətləri ilə bağlıdır.

Atalar sözü və məsəllərin heç də hamısının komponentlərinin sırası sabit deyildir. Eləcə də bunlar leksik tərkibcə, obrazlığa və məcazi məna daşımasına görə də ikihəcmli əlamətə malikdir. Bütün bunlara baxmayaraq, atalar sözü və məsəllər şifahi xalq ədəbiyyatının tərkib hissəsi olduğundan, əsasən folklorşünaslığın tədqiqat obyektidir [9, 37].

Azərbaycan dili atalar sözü və məsəllərinin bu dilin frazeologiyasına münasibəti üzərində aparılan müşahidələrdən aydın olur ki, atalar sözü aşağıdakı hallarda işlədilir:

1. Bunlar dildə yalnız atalar sözü və məsəllər kimi mövcuddur. Bu vəziyyətdə atalar sözü və məsəllər keçmiş nəsillərin yadigarı, insanların müxtəlif dövrlərdə, müxtəlif şərait, vəziyyət, çoxcəhətli əlaqə və münasibətləri ilə bağlı olaraq onların həyat təcrübəsinin yığcam, bir sıra hallarda lakonik, obrazlı ifadəsi kimi özünü göstərir. Bu halda atalar sözü və məsəllərin frazeoloji vahidlərlə əlaqəsi yoxdur.

2. Atalar sözü və məsəllər müəllifin nitqi ilə yanaşı işlədilir. Atalar sözü və məsəllər məhz ona görə yaranır və yayılır ki, geniş xalq kütləsi öz ünsiyyət əlaqəsində bunlardan istifadə etsin. Əgər qarşıda belə bir məqsəd olmasaydı, bunlar şifahi xalq yaradıcılığının bir qolu kimi yaşamaz, aradan çıxardı. Məhz buna görə də, atalar sözü və məsəllər müəllifin nitqi ilə yanaşı işlədilərək məzmunca onunla ümumi planda əlaqələndirilir. Müəllif bunları daha inandırıcı, əsaslandırıcı, istinaedici mənbə kimi öz nitqinə daxil edir.

İngilis dilinin frazeoloji tərkibi özünün məzmunu və statistik çalarlarına görə çox rəngarəngdir. Frazeologiya xalqın yumorunu, onun mənəvi idealını və ictimal təcrübəsini saflaşdıraraq müxtəlif dövrlərin izlərini əks etdirir. Frazeologiya həm danışıq dilinin, həm də ədəbi dilin funksional üslublarına xas olan saysız ifadə və birləşmələrini özündə birləşdirir.Dilin inkişaf səviyyəsi bir qayda olaraq, həm də frazeologiyanın zənginlik dərəcəsini müəyyənləşdirir. İngilis dilində də bunun şahidi ola bilərik.

Frazeologiyanın əsasını atalar sözləri, məsəllər, professional ifadələr, aforizmlər, məcazlar, obrazlı ifadələr təşkil edir.

Atalar sözləri mübahisəli məsələlərdən olub dilçilik ədəbiyyatında o qədər də geniş işıqlandırılmayıb. Bununla belə, atalar sözü dilçilər üçün böyük maraq kəsb edir. Belə ki, leksika, qrammatika, fonetika, dil tarixi sahələrində bir sıra xarakterik dil hadisələrini, atalar sözlərinin materialı əsasında izah etmək olar.

Atalar sözlərinin öyrənilməsinin nəzəri marağı ilə yanaşı, həm də praktik əhəmiyyəti var. Atalar sözləri dilin bütün aspektləri üzrə bütün praktik sahələrdə istifadə oluna bilər. Atalar sözləri həm də xalqın məişətini, onun milli xüsusiyyətlərini, həmçinin də dilin xüsusiyyətlərini əks etdirir.

Atalar sözləri və məsəllər frazeologizmlərin xüsusi bir növü olub, frazeoloji materialdaır. Başqa frazeoloji birləşmələrdən atalar sözlərinin fərqi budur ki, bunlar cümləyə onun bir üzvü kimi daxil olan birləşmələr olmayıb, sadə və ya mürəkkəb ola bilən bütöv bir cümlədir.

Frazeologizm kimi atalar sözləri və məsəllər özlərinin sabit xarakteri ilə fərqlənir. Uzaq keçmişdə yaranmış atalar sözləri, əksər hallarda qədim dövrdə daşıdıqları mənada işlənirlər. Dildən-dilə, nəsildən-nəsilə keçə-keçə onlar sözlərdəki sərbəst əlaqəni itirmiş, qeyri-sərbəst, bölünməz olmuş, uzun müddət dildə özlərinin semantik xüsusiyyətlərini saxlayaraq qalmışlar.

Atalar sözlərinin sabitliyini ilk növbədə onların semantik xüsusiyyətləri sübut edir. Müəyyən tarixi dövrdə yaranmış və yüzilliklər boyunca dəyişməz qalaraq atalar sözləri öz mənası ilə xalqın uzaq tarixi keçmişinin ən müxtəlif sahələrini əks etdirir. Məsələn, "A cheerful wife is the joy of life" (Şən arvad həyatın yaraşığıdır), "Truth will conquer" (Haqq yerini tapar), Wash your dirty linen at home" (Evin sirrini çölə vermə).

İngilis dilində atalar sözləri ilə yanaşı idiomlar da tədqiq olunur. Bu zaman onların oxşar və fərqli cəhətləri nəzərə çarpır. İdiom özünəməxsus mənası ilə frəqlənən frazeoloji vahiddir. İdioma daxil olan ayrı-ayrı sözlərin köməkliyi ilə onun mənasını anlamaq çətindir.

Atalar sözləri və məsəllərin bir qrupu, aforizmlər, qanadlı sözlər və sitatlar frazeoloji ibarələr sinfinə daxil edilir. Bu vahidlərin əsas əlamətdar xüsusiyyəti onların cümlə şəklində qurulması, hansısa başqa bir cümlənin deyil, bütövlükdə mətnin və ya mətn parçasının daxilində obrazlılığı və emosionallıq çalarını artırmaq üçün işlədilməsi ilə bağlıdır. Nümunədəki, atalar sözləri cümlə üzvü ola bilmir, ayrıca tam cümlə kimi mətnin təşkilində iştirak edir: Many hands make light work – El gücü-sel gücü, No fence against a fail – Olacağa çarə yoxdur, Wealth is nothing without health – Neynərəm qızıl teşti ki, içinə qan qusum.

Atalar sözləri şifahi olaraq nəsildən-nəsilə keçərək, hələ yazı meydana gəlməmişdən belə xalq müdrikliyinin göstəricisi olmuşlar. Bundan başqa ingilis monastır-

ları çox böyük maraqla latın və yunan yazıçılarının əsərlərini toplayıb öyrənirdirlər və xarici mənşəli atalar sözü və məsəllər ingilis dilinə tərcümə edilərək, milli əsərlərin çap olunduğu kitabların səhifələrində meydana çıxırdı.

Atalar sözlərindən saysız idiomlar, frazeoloji birləşmələr əmələ gəlimişdir və müasir dövrdə onlar atalar sözlərindən kənarda işlədilmir. Eyni zamanda, bu fakt həm də atalar sözlərinin dilin frazeoloji fondunun zənginləşməsində mühüm rol oynadığını sübut edir. Atalar sözləri bir tərəfdən frazeologiyanın bir qolu olaraq, onun tədqiqat obyektinə daxil olur, digər tərəfdən isə bir çox sabit söz birləşmələri atalar sözləri tərkibindən ayrılaraq sərbəst işlənilib dilin frazeoloji tərkibini zənginləşdirir.

Dil hadisəsi olan atalar sözləri frazeolji tərkibə daxildir və xüsusi qrupda tədqiq olunur. Atalar sözləri eyni zamanda müxtəlif nöqteyi-nəzərdən həm dilçinin, həm də ədəbiyyatşünasın tədqiqat obyekti ola bilər. Belə ki, atalar sözlərinin eyni zamanda həm folkloristika, həm dilçilik, həm də stilistika nöqteyi-nəzərindən tədqiq olunması atalar sözləri haqqında təsəvvürləri genişləndirir və onların spesifik xüsusiyyətlərinin açılmasına təkan verir.

Sonralar atalar sözlərinin işlədilməsinin yüksək cəmiyyətdə pis tərbiyənin əlaməti hesab edilməsi ilə əlaqədar, onlara maraq azalmış və atalar sözləri yaxşı tərbiyə olunmuş və təhsil almış adamların nitqində öz yerini tapmamışdır.

İndiki dövrdə ingilis-amerikan ədəbiyyatında atalar sözlərinə xüsusi olaraq həsr edilmiş işlər çox azdır: alimlərin atalar sözlərinə dair fikirlərinə yalnız idiomatik lüğətlərin və ya atalar sözləri məcmuələrinin giriş hissələrində rast gəlmək mümkündür. A.S.Hornbi yazır: "Atalar sözləri fikir və hisslərini öz sözləri ilə ifadə edə bilməyib, atalar sözlərindən istifadə etməyə məcbur qalan ağılsız adamlar tərəfindən işlədilən ifadələrdir" [10, 134].

Atalar sözləri şablon, çeynənmiş frazalar, öz fikirlərini aydın, dəqiq və səmimi ifadə etmək istəyən adamlar üçün qaçılması zəruri olan ifadələrdir.

Çox tez-tez atalar sözlərinə idiomlar məcmuəsində rast gəlmək olar. Bu fakt qeyd olunduğu kimi, xarici tədqiqatçılar tərəfindən "idiom" termininin geniş şərh olunması ilə bağlıdır. Belə məcmuələrdən birində aşağıdakı tərifə rast gəlmək olar: "İdiom məlum atalar sözü olub, özündə nəsihət, ibrət əks etdirir və standart formada şəxsdə və zamanda minimal dəyişikliklə ifadə olunur".

Atalar sözləri və idiom bir-birindən asılı olmayan, hərəsinin öz tərifi, xarakterik əlamətləri və bütün frazeoloji vahidlərə xas xuüxuxiyyətləri olan frazeoloji qrupun vahidləridir. Atalar sözü və idiom eyniləşdirilməmişdir, belə ki, onlar dilin frazeoloji tərkibinin ayrı-ayrı qruplarını təşkil edirlər, idiom nominativ vahid olduğu halda, atalar sözləri kommunikativ frazeoloji vahiddir.

Maraqlıdır ki, idiomların çoxu etimoloji cəhətdən bu və ya digər atalar sözü ilə bağlıdır, daha doğrusu, hər bir dildə atalar sözləri və məsəllərdən törənmiş nəzərə çarpacaq sayda idiomlar mövcuddur.

F.Vizitelli idiomun tərifini verərkən onun mənasının, komponentlərinin mənalarına əsasən müəyyən edilməsini qeyri-mümkün hesab edir [11, 67]. Lakin bir çox atalar sözlərini nəzərdən keçirərkən onun mənasının elə komponentlərinin mənasından alındığını görə bilərik: All that glitters is not gold – Hər parıldayan qızıl deyil.

Məlum olur ki, verilən bu atalar sözlərinin mənası onu təşkil edən sözlərin mənasından alınır. Buna görə də atalar sözlərinin böyük qismi F.Vizitellinin idioma verdiyi tərifə uyğun gəlmir.

Başqa dildə danışan şəxsə atalar sözünün həqiqi mənası ilə onu təşkil edən sözlərin mənaları arasında hər hansı bir əlaqənin olduğunu təsəvvür etmək çətin olur. Məsələn, Back may trust, but belly won't və ya Dəlidən doğru xəbər.

Göründüyü kimi, atalar sözlərinin elə bir hissəsi vardır ki, onların mənasını onu təşkil edən komponentlərin mənasından başa düşmək olmur.

Bizim üçün öz əlamətlərinə görə idiomlara uyğun gələn atalar sözlərini göstərmək mühümdür. İdioma əks olan atlar sözünün mənası bir qayda olaraq, onu təşkil edən sözlərin mənasından asanlıaqla başa düşülür. Lakin bəzi hallarda, xüsusilə də atalar sözü hər hansı tarixi faktla, qədim rəvayət və təmsillərlə bağlı olanda və yaxud müasir dövrdə unudulubsa, onun mənasını anlamaq da çətindir.

Atalar sözü dildə hazır yaradıcılıq materialı kimi istifadə olunur, bununla da, o, söz birləşməsi ilə oxşardır. Söz birləşməsi də əksər hallarda cümlə üçün hazır material olur. Atalar sözü həmişə bitmiş bir cümlədir və ona görə də tam, bütöv situasiyalar yaradılmasında işlədilir. Çox nadir hallarda atalar sözü ayrı bir cümlə üzvü olur.

Məhz buna görə də atalar sözü dildə hazır yaradıcılıq materialı kimi istifadə olunur, onlara tez-tez iri lüğətlərdə idiomatik ifadələr sırasında, həm də lüğət adlanan xüsusi atalar sözləri məcmuəsində rast gəlinir.

Bir qayda olaraq birbaşa atalar sözlərinə həsr edilmiş az sayda məqalələr atalar sözləri məcmuələrinin ön sözüdür. Bu baxımdan ədəbi xüsusiyyətlərdən daha çox, atalar sözlərinin linqvistik xüsusiyyətlərinə, həmçinin onların mənşəyinə həsr edilmiş D. İsraelinin yazdığı məqalə istisna təşkil edir. O, atalar sözlərinə hər hansı bir tərif verməyin əleyhinə çıxır, belə ki, o deyir: "Atalar sözləri xaraktercə müxtəlif olduğundan, onlar haqqında dəqiq tərif verilməsi istisna edilir" [12, 115].

Lakin buna baxmayaraq atalar sözlərinin tərifini vermək və ya onların xarakterik xüsusiyyətlərini müəyyənləşdirmək üçün cəhdlər edilmişdir. V.Harlit yazır: "... o, müəyyən dərəcədə qısa, sözsüz aydın, qədim mənşəli, kifayət qədər həqiqi və nəzərə çarpacaq dərəcədə ümumxalq olmalıdır" [13, 7].

Şübhəsiz ki, atalar sözlərinin böyük qismi hamıya məlum, aydın bir həqiqiliyi əks etdirir. Məsələn, A friend in need is a friend indeed – Dost dar gündə tanınar, East or West, home is best – Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı və s. bu kimi atalar sözlərinin doğruluğuna heç bir şübhə yoxdur.

Lakin başqa növ atalar sözləri də var ki, bunların həqiqiliyi mübahisə doğurur. Məsələn, Charity begins at home – Qarın qardaşdan irəlidir, Better to reign in hell, than serve in heaven – Cənnətdə qul olmaqdansa, cəhənnəmdə ağalıq etmək yaxşıdır.

Misallardan görünür ki, bəzi atalar sözləri bir qrup adamlar üçün həqiqi ola bildiyi halda, digər qrup üçün tam qəbul edilməzdir. Beləkilə, atalar sözündə əks olunan həqiqilik əxlaqi nöqteyi-nəzərdən adamlar tərəfindən müxtəlif cür qəbul edilə bilər. Deməli, atalar sözlərində olunan əxlaq, öyüd-nəsihət nisbidir. Eyni bir atalar sözü bir dövr üçün həqiqi olduğu halda, başqa bir dövr üçün köhnəlmiş ola bilər.

Bir çox atalar sözlərini nəzərdən keçirərək bu mövqeyin düzgünlüyünə əmin olmaq mümkündür. Hər bir atalar sözü bəşəriyyətin təcrübəsinin yekunu, nəticəsi-

dir. Atalar sözü bəşəriyyətə qədim dövrlərdən məlum olan xəbərləri çatdıraraq öyrədir. Özündə hər hansı bir nəsihət əks etdirməyən atalar sözünü təsəvvür etmək çətindir. Atalar sözü bütün hallarda yalnız nəsihət xarakterli olanda deyil, həm də ümumi həqiqiliyi əks etdirəndə nə isə öyrədir. Atalar sözləri və məsəllərin yaranması, yayılması və işlənməsi prosesi bu gün də davam edir. Bir sıra alim, yazıçı, politoloq və müdrik insanlara məxsus cümlələr, ifadələr indi də atalar sözlərinə çevrilərək xalq arasında işlənməkdədir.

Ədəbiyyat

1. Bally. Sh. Traite de Stylistigue Francaise. Heidelberg, 1920
2. Булаховский. А. Введения в языкознания. Москва, 1954
3. Виноградов В.В. Об основанных типах фразеологических единиц в русском языке. М., 1947
4. Амасова Н.Н. Основы английской фразеологии. Ленинград, 1963
5. Ожегов С.И. О структуре фразеологии (в связи о проектов фразеологического словаря русского языка. М., 1961
6. Cəfərov S.A. Müasir azərbaycan dili (leksika). Bakı: Maarif, 1970
7. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. I cild, Bakı, 2003, 438 s.
8. Тагиев М.Т. Глагольная фразеология современного русского языка. Авт. докт. дисс. Баку, 1966
9. Bayramov H. Azərbaycan dili frazeologiyasının ısasları. Bakı, 1978
10. Hornby A.S. The Advanced Learner's Dictionary of Current English. London, 1974
11. Vizitelly F.H. A Desk Book of Idioms and Idiomatic Phrases. New York, 1926
12. Israeli D. Curiosities of Literature. London, 1823
13. Harlitt W. English Proverbs and Proverbial Phrases. London, 1882

У.Гаджиева

Исследование пословиц внутри фразеологических сочетании
в азербайджанском и английском языках

Резюме

Статья посвящена исследованию пословиц внутри фразеологических сочетании в азербайджанском и английском языках. Во время исследования выявлено, что в обеих языков, пословицы имеют очень богатую историю и в большинстве случаях со своей правдивостью послужили развитию культурно-исторического наследия. В статье также подвергается исследованию и классифицируется схожие и различительные черты между всех пословиц и идиомов, характеризуется и разбирается работы азербайджанских и мировых языковедов.

U. Hajiyeva

The Investigation of Proverbs within the Phraseology in the Azerbaijan and English Languages

Summary

The article was devoted to the investigation of proverbs within the phraseology in the Azerbaijan and English languages. While investigating the problem the historical value of proverbs, the reflection of truth in them, their contribution to the development of the historical heritage were elucidated. The classifications and investigations of Azerbaijan linguists and the linguists from all over the world were also represented in the article. Almost all the similar and distinct features between proverbs and idioms were analyzed.

Rəyçi: Balaxan Hüseynov
filologiya elmləri doktoru, professor

PƏRVANƏ MÖVSÜMOVA
Gəncə Dövlət Universiteti

DIFFERENCES IN TRANSLATION OF ENGLISH IDIOMS

Açar sözlər: frazeoloji vahidlər, söz birləşmələri, tərcümə etmək, dəqiq məna, atalar sözləri, idiomlar, spesifik cəhətlər,tarix, mənşə.
Key words: phraseological units, word combinations, to translate, exact meaning, proverbs, idioms, phrase, specific features, history, source.
Ключевые слова: фразеологические единицы, переводить, точное значение, пословицы, идиомы, специфические свойства языка, происхождения, история.

Idioms are frequently used in language. As the carrier of language, they show the beautiful and attractive aspects of a language, but it is not easy to have a good command of them. It is difficult to give a unique definition to "idiom", because they are so varied that most definitions are dissatisfactory. As an essential part of language, many scholars have defined "idiom" in different dictionaries. Oxford dictionary gives such a definition : Phrase or sentence whose meaning is not clear from the meaning of its individual words and which must be learnt as a whole unit. Idioms, on a broad sense, include set phrases, colloquialisms, proverbs and slang expressions, etc. The following will list four main forms to expound:

Idiomatic Expressions

Idioms have long played an important role in the English language. In fact, the use of idioms is so widespread that understanding these expressions is essential to successful communication, whether in listening, speaking, reading or writing. We may learn grammar, acquire adequate vocabulary, but without a working knowledge of such idioms as *above all, to get along, on the whole, to look up,* and so on, even the best speech will remain awkward and ordinary.

An idiom is an expression with the following features:

1. It is fixed and recognized by native speakers. You cannot make up your own!
2. It uses language in a non-literal – metaphorical way.

Why are metaphors and idioms so important? Firstly, they are important because they are very common. All native speaker`s English is idiomatic. Every newspaper is full of metaphorical language. You cannot avoid it or leave it till later.

Can you translate idioms? The simplest answer to this question is NO. Never translate an idiom word for word. You must translate the whole expression. One of these reasons idiomatic language is difficult to translate is because it is the area of language closest to culture.

I`m *up to my eyes in* work at the moment- *to be busy*

I was *over the moon* when I heard she had twins! – *extremely happy about something*

Set phrases constitute a large part of English idioms. Their internal structures are comparatively tight. Any element in a set phrase is not supposed to be changed because the replacement of one element by another will affect the meaning of the

whole. Also, the meaning of the whole unit is not the sum of the meaning of its components, but may be perceived through the metaphoric meaning of the whole unit. Besides, they are marked by a high degree of stability of the lexical components. For instance, "to Dutch" does not mean "to go to Holland", but it means "to share expenses"; "a cat-and—dog" means" "to quarrel frequently", and it has nothing to do with the life of the cat and the dog.

Idioms with colloquial colorings are called colloquialisms, which are quite popular and easy to understand. Generally speaking, most idioms are colloquialisms, and are usually used in informal language. For instance, "can of worms" has the meaning of "a complex problem, or complicated situation"; "to make waves" means "create a disturbance, a sensation"; "to get off with" means "to start a relationship with ; "to serve someone right" means "to be a good punishment for someone"; "tongue — in — cheek" means "not serious", as in "I really don't mean to tease Sophia. 1 was just making a tongue-in — cheek remark when I said that it was too elaborate for a girl of her young, tender age."

Different language mirrors different cultural information while "a nation's cultural features and its national psychology, aesthetic perspectives and values are certainly reflected in its language. The national cultural features of a language refer to not only the connotations of 'culture' but also the extension of the concept of 'culture'— the nation's history, geographical conditions, economy, social system, religion and customs reflected and recorded in its language" .Therefore, a nation's cultural elements can be definitely found in idioms since idioms are of great importance in a language. The following aspects are some of the cultural differences between English and other countries idioms.

1 Differences of geographical conditions

Geographical environment plays an important role in shaping one nation's culture and human beings have no choices to change the geographical conditions. Geographic characteristics not only influence the material life of a nation but also the culture and language.

Britain is an island country located in west Europe, which does not share land border with any other countries except the Republic of Ireland, with Atlantic Ocean to the west and north, the English Channel to the south and the North Sea to the east. The special location of Britain poses a great impact on the formation of idioms, which the ones relating to navigation and fishing account for a large proportion.

e.g. (1) tower one's sail : be willing to be inferior to: (2)plain sailing : a course of action that is free from difficulties: (3)a big fish : an important and influential person: (4)a fresh fish : a new prisoner

On the other hand, Azerbaijan, since time immemorial, has been a continental country, and the most part of Azerbaijan are inland place where people cannot live without earth, only with seas to its east coast. So Azerbaijanian culture is chiefly based on agriculture, which means that we belong to agrarian society that places agricultural production at the top of the national agenda, regarding industry and commerce as the non-essentials. During the long farming culture, the Azerbaijanian language has accumulated large numbers of farmers' idioms which derived from agriculture production.

Different geographical conditions cause different living environment. Azerbaijan is rich in mountain and forest, so bamboo is wide grown there. In Azerbaijan people say (spring up like bamboo shoot after a spring rain), but in English, people often say "spring up like mushrooms" to express the same meaning. The reason of the difference is British people are much familiar with mushroom instead of bamboo. And that is because it often rains in England and the wet condition is suitable for the growth of mushrooms. Also English people say "save money for a rainy day" (a time of need; especially, a time when you really need money)- but in Azerbaijan we say that "qara gün üçün pul yığmaq; qənaət etmək". For example: I'm not going to spend the money I've got. I'm going to save it for a rainy day. And another example "be like two peas in a pod" (*closely similar; almost exactly alike)* - iki alma kimi bir-birinə oxşamaq; çox oxşar olmaq. They've got two sons and they look just the same. They're like two peas in a pod.

It is easy to find the influence of geographic conditions in language, which reflects on the pronunciation, vocabulary, grammar and so on. It has all important function on playing up the nation's language and culture when we want to translate the sense of reality in those geographic characteristics.

2 Differences of customs

One nation's custom is formed through a long history and firmly rooted in people's mind. In different countries and nations customs drastically differ in various aspects. Due to that, a lot of idioms turn out with varied dresses. Certain general knowledge of the customs of the original culture will be good for our translation undertaking.

Take food habit for example, cake has been a common food in English for a long history, so it is understandable that they use "a piece of cake" denoting an easy — done task. However, in Azerbaijan cake (shakarbura) cannot be seen until the last one hundred years. When we don `t see anybody or along time we say "Haralardasan, lap şekerburaya dönübsen". So it is impossible for the same idiom to appear in Azerbaijanis. Another example is related to the habitual way of working in the field. Azerbaijanis people were habituated to use the bull to plough the field before modernized agriculture was developed, while English did with a horse. Consequently, ``as strong as a bull"to describe someone with great strength while English do "as strong as a horse" in alternation.

Due to different living customs, different nations have distinctive cultural differences in the concept of value and aesthetic criteria. For instance, in Azerbaijan, the world "old" is the honorific title to the experienced. For long history, family always plays an important and stable part in our life. Whether the old is in family or in society, they are always revered and respected. In Azerbaijan culture, "agsaqqal" was the symbol of wisdom. So it is not surprising that in t Azerbaijan here exist such idioms as But American culture, "old" means the end of youth, the decline of vigor. Therefore, most Americans mentally resist the idea of becoming old and try to remain young. And the idiomatic expression such as "you don't look your age" is welcomed in western society.

"The living custom is the way of life for people living in a special region, including a variety of things that related to all aspects of social life. It is restricted to the nation's politics, economy, religion, literature and arts and which in rum affect

it. Language, as a special part of the nation's culture, definitely reflects the living customs of the nation, and idioms are even greatly related to the living customs. "

3 Differences of religions

"Religion is all important part of culture and has greatly influenced all the human languages and imposed great impact on all aspect of our society. Numerous idioms were generated from the fountain of religion. Religion has greatly influenced idioms and become a rich source for the generation of idioms. Some differences of idioms between Azerbaijanian and English can be traced back to the origin of religion. They are represented by their different scriptures, and follow a certain kind of doctrine and thinking pattern. The following part is to explain the influence of religions on idioms.

Religion has played an important role in western society especially before capitalization. The majority of the western people believe in Christianity and regard the Bible as one of the most important classical works in their life. Countless idioms are originated from the Bible, for example, "to put new wine in old bottles" referring to the unwise act of forcing the extremely conservative person to accept new conceptions; "to make one's hair stand on end" describing thrilling horror caused by something, a wolf in sheep's clothing "qoyun dərisi geymiş canavar"; forbidden fruit "haram"; can the leopard change his spots "qozbelə qəbr düzəldər"; a little bird (whispered to) me "yerin də qulağı var" etc.

Bibliography

1. A Book of English Idioms – Vere Henry Collins
2.Essential Idioms in Use – Felicity O'Dell. Michael McCarthy
3. Fun With Idioms - John Smithback
4. Essential Idioms in English, New Edition by Robert J. Dixson, 1994.
5. 100 English Idioms – Jon Wright
6. Idioms Organiser - Jon Wright
7.en.wikipedia.org/wiki/Category:English_idioms
8.www.eslcafe.com › Bookstore
9.idioms.thefreedictionary.com

Pərvanə Mövsümova

İngilis dilindəki idiomların tərcüməsindəki fərqlər

Xülasə

Frazeoloji birləşmələr hər bir xalqın milli kaloritini, adət-ənənəsini, dil və din sistemindəki özünəməxsus leksik-qrammatik formalarını əks etdirir. Onların yanlış tərcüməsinin əsas və ilkin səbəblərindən biri onların verilmiş mətndən düzgün seçilməməsi, sərbəst söz birləşmələri ilə qarışdırılmasıdır. Digər bir səbəb isə tərcüməçinin seçilmiş bu frazeologizmləri yalnış dərk etməsidir ki, bu da çox zaman mətnin təhrifinə gətirib çıxarır.

Парвана Мовсумова

Разница в переводе идиомов в Английском языке

Резюме

Фразеологизмы отражают колорит, традиции, специфические лексико-грамматические формы языка и языковой системы каждого народа. Первая и самая главная причина неправильного перевода фразеологических оборотов является ошибочный выбор фразеологизмов в данном тексте и путанее их со свободными словосочетаниями. Другой причиной является непонимание переводчиком выбранного фразеологического оборота и это часто приводит к искажению текста.

Rəyçi: Mehdi Rəhimov
filologiya üzrə fəlsəfə doktoru, dosent

SƏİDƏ ORUCOVA
ADU
o.sayka@mail.ru

İNGİLİS DİLİNİN AMERİKA VARİANTININ YARANMASI MƏNBƏLƏRİ

Açar sözlər: dil, alınma sözlər, amerika variantı, koloniya, immiqrantlar
Key words: language, borrowings, american variant, colony, immigrants
Ключевые слава: язык, колония, иммигранты, заимственные слова

İngilislərin Şimali Amerikada məskunlaşmasından əvvəl burada yerli hinduların iki böyük dil ailəsi – alqonkinlər və irokezlər yaşayırdılar. Onların ümumi sayı təxminən 200 minə çatırdı. Onlar gələcəkdə on üç Amerika koloniyasının yaranacağı ərazilərdə məskunlaşmışdılar.

Mədəni səviyyələrinə görə onlar paleolit mərhələsində idilər. Ovçuluq, balıqçılıq, əkinçilik ilə məşğul olurdular. Onların əhliləşdirdiyi yeganə heyvan it idi.

Amerika Birləşmiş Ştatlarının Atlantik okeanı sahillərinin çay, göl və körfəzlərinin, eləcə də bir çox ştatlarının adları alqonkin hindularının dilindədir. Misal üçün Mississippi (çay və ştat), İllinois (çay və ştat), Chicago, Milwaee (şəhərlər), Massachusetts, Connecticut, Wisconsin, Delaware (ştatlar), Manhattan (ada).

1607-ci ildə burada Ceymztaun adlı ilk böyük yaşayış məskəni yaranır. Daha sonra dini baxışlarına görə Britaniyada izlənilən qaçqınlar qrupu Massachusetsdə başqa bir iri koloniya yaratdılar. Qitənin torpaqlarını tədricən mənimsəyən ingilis kolonistləri fransız və ispan kolonistləri ilə münaqişələrə girirdilər.

Şimali Amerikanın koloniyalarında artıq yeni Amerika millətinin əsası qoyulurdu. Britaniya asılılığından xilas olan on üç Amerika koloniyası müstəqil Amerika Birləşmiş ştatlarını yaratdılar. Amerika dövlətinin əsasını ingilislər və İrlandiya və Şotlandiyadan gəlmiş əhali təşkil edirdi. Lakin eyni zamanda Amerika millətinin yaranmasında əhəmiyyətli rolu Qərbi Avropa, XIX əsrin sonundan isə Şərqi Avropa ölkələrindən gəlmiş immiqrantlar təşkil edirdilər. Beləliklə, immiqrasiya Amerika millətinin etnik formalaşmasında əsas mexanizm oldu. Birləşmiş Ştatların bütün tarixi boyu müxtəlif millətlərdən olan gəlmələr ölkə əhalisinin tərkibinə daxil olur, qaynayıb qovuşurdu. Bütün bu xalqların fiziki və mədəni assimilyasiyası Amerika millətinin yaranmasına səbəb oldu. Avropalıların ölkəyə axını, Amerika millətinin konsolidasiyası nəticəsində yerli hindular öz torpaqlarından sıxışdırılırdı.

Koloniyallaşmanın ikinci yüzilliyində ölkə əhalisinin etnik tərkibi artıq ciddi dəyişməyə uğramışdı.

XIX əsrdə yeni dövlətin ərazisi daha da genişləndi. 1819-cu ildə Floridanın, 1845-ci ildə Texasın, 1846-1848-ci il müharibəsindən sonra meksika ərazilərinin işğalı həm ölkənin siyasi sərhədini genişləndirmiş, həm də ölkənin əhalisinin sayını artırmışdı. Artıq XIX əsrin ortasına yaxın Atlantik okeandan Sakit Okean sahillərinədək bütün ərazilər Amerika Birləşmiş ştatlarına məxsus idi.

Bu dövrdə Amerika Birləşmiş ştatları əhalisinin etnik tərkibi əsasən immiqratların etnik tərkibi hesabına dəyişirdi. 1820-ci ilədək onların sayı haqqında dəqiq məlumat olmasa da, onların böyük əksəriyyətinin ingilisdilli ölkələrdən – Böyük Britaniya və İrlandiyadan gəldiyi məlum idi. Həmin dövrdə başqa ölkələrdən də immiqrasiya artmaqda idi. 1820-ci illərdə ən çox immiqrant Fransa, Almaniya və İsveçrədən gəlmişdi. Skandinaviya ölkələrindən, eləcə də, o vaxtadək immiqrantların gəlmədiyi İtaliyadan da axın başlamışdı. Hətta Çin və Yaponiyadan da insan axını başlayırdı.

İmmiqrantların gəlişi ilə iki cür proses baş verirdi. Bir tərəfdən onlar öz icmalarını yaratmağa meyl edirdilər. Məsələn, almanların daha çox məskunlaşdığı ərazilərdə alman dili işlək idi. Bu dildə qəzetlər buraxılır, məktəblər açılırdı. Hətta ayrıca alman ştatının yaradılması haqda söhbətlər gedirdi.

Bütün bunlar almanların, eləcə də başqa millətlərə məxsus icmaların dillərinin qorunmasına şərait yaradır və nəsildən nəslə bu belə də davam edirdi. Başqa bir tərəfdən isə assimilyasiya prosesi də paralel olaraq davam edirdi. Assimilyasiya prosesində onlar Amerika millətinin mədəniyyət və məişətinə öz paylarını verir və bu isə ingilis dilinin lüğət tərkibində öz əksini tapırdı. Buna görə də immiqrant qruplarını irlandların, almanların və başqa Avropa millətlərinin adicə milli azlığı hesab etmək olmazdı. Bu qruplar ötəri xarakter daşıyırdı və özlərinin yaratdıqları ümumi Amerika mədəniyyəti və həyatı daxilində əriməyə meylli idilər .

XIX əsrin 80-ci illərindən Amerika immiqrantlarının tərkibi sürətlə dəyişirdi. Əvvəllər immiqrasiyanın müşahidə olunmadığı Cənubi və Şərqi Avropa, İtaliya, Avstriya-Macarıstan, Rusiyadan immiqrantlar axını başlamışdı. Amerika ədəbiyyatında həmin dövrün gəlmələrini «yeni» immiqrantlar adlandırırlar.

Beləliklə, etnik baxımdan rəngarəng Amerika millətinin inkişafı eyni şəkildə XIX və XX əsrlərdə də davam edirdi. Amerika milləti ilk gündən müxtəlif etnik komponentlərdən təşkil olunmuşdu və yüz illərlə belə də davam etmişdi. Bu prosesin izləri ingilis dilinin Amerika variantının yaranmasında özünü göstərmişdi.

Vaşinqtondakı demoqrafik büronun məlumatlarına əsasən Amerika elə bir «çoxmədəniyyətli cəmiyyətə çevrilir ki, orada ingilis dili əsas yer tutmaqla bərabər başqa dillər də tanınır və qəbul olunur. Lakin Amerika Birləşmiş Ştatları çoxmillətli dövlətə çevrilmədi. Ayrı-ayrı etnik və irqi elementlər milli birliklərin yaranmasına səbəb olmadı.

Son zamanlarda isə etnik qruplar əsaslı assimilyasiyaya məruz qalaraq, dillərini itirmişdir. Onların milli dilləri ingilis dili ilə əvəz olunur. immiqrant dillərinin dəyişməyə məruz qalmasında bir sıra meyllər aydın gbrünür. İmimqrant qruplarından heç birinin dili ingilisləşmək prosesindən kənarda qala bilməmişdir. Onların dillərinə kütləvi şəkildə yeni əşya və məfhumları bildirən ingilis sözləri daxil olur. Kütləvi informasiya vasitələrinin bu prosesdə xüsusi rolu olur. Misal üçün, kinl müxtəlif etnik qrupların teatrının meydandan çıxmasına səbəb olmuşdur. Əvvəllər, miqrant dillərində radio proqramları olsa da, hazırda bu da ingilisdilli radio tərəfindən sıxışdırılmışdır.

İngilis dilinin təsiri altında immiqrantların dillərində özünəməxsus hibrid sözlər formalaşmışdır. Misal üçün, ingilis leksemlərinin fin dilinə uyğunlaşdığı fin immiqrantlarının dilini bildirən Fingilish sözü buna misaldır. Bu kimi hibrid

dillərin adlarına nəzər salaq: Finglish (fin immiqrantlarının amerikalaşmış dili), Spanglish «ispandilli əhalinin dili», Tex-Mex (Texasda yaşayan meksikalıların dili), wop (italiyan immiqrantlarının dili).

İngilis dilinin aparıcı rolunu onun ictimai-kommunikativ funksiyasında da görmək olur. İmmiqrant dillərindən fərqli olaraq, ingilis dili həmçinin ayrı-ayrı emmiqrant qrupları arasında ünsiyyət vasitəsi kimi çıxış edir. Müxtəlif etnik qrupları birləşdirir. Bu da öz növbəsində immiqrant dillərinin tədricən istifadədən çıxmasını şərtləndirir.

Amerika Birləşmiş Ştatlarında qeyri-ingilis dilləri arasında bilinqvizm başlıca olaraq birinci və ikinci nəsildən olan immiqrantlar arasında işlənir. Onlar aparıcı həyat tərzinə, aparıcı mədəniyyət və dilə tabe olmağa məcburdurlar.

Bu nəticəyə gəlmək olar ki, ABŞ-da immiqrant dillərinin istifadədən çıxması Amerika cəmiyyətində ümumi bir tendensiyaya çevrilmişdir.

Amerikada işlənən ingilis dilinin qarışıq bir dil olması haqqında nöqteyinəzər bir sıra tədqiqatçılar arasında yayılmışdır. Belə mülahizə, misal üçün, C.Dillard tərəfindən irəli sürülür. O yazır ki, yerli əhalinin daimi dil əlaqələri Amerikan variantının əmələ gəlməsində, qarışıq bir dilə çevrilməsində xüsusi rol oynamışdır.

C.Dillard Amerika Birləşmiş Ştatlarında dillərin əlaqəsi tarixini tədqiq edərək, ölkənin peşə jarqonlarına və spesifik leksikanın başqa təbəqələrinə müraciət etmişdir. O belə bir fikir irəli sürmüşdür ki, ilk kolonistlər Britaniyadan Amerikaya gələrkən hansısa özünəməxsus vasitəçi dilə malik olmalı idilər. Onlar həmin vasitəçi dilin köməyi ilə ingilis dilini bilməyən hindularla, Massaçusets, Konnektikut Nyu-Yorkdakı Afrika qulları ilə, holland, alman və fransızlarla ünsiyyət saxlamalı olurdular. Əgər XVII-XVIII əsrlərdə əvvəlcə hindularla picin dil vasitəsi ilə ünsiyyət saxlanılırdısa, XIX əsrin əvvəllərində vəziyyət dəyişmişdi, kolonistlər hindu picinindən istifadə etməli olurdular. Bu picinin əsasını ingilis sözləri təşkil edirdi. Hindu picininin bir çox sözləri sonralar Amerika ingiliscəsinə daxil olmuşdu .

İlk immiqrantların dialekt fərqləri tezliklə aradan qalxdı.

Bir sıra dilçilərin immiqrantların dillərinin Amerika ingiliscəsinə təsirinin rolunu həddən artıq şişirtməsinə baxmayaraq, bu təsir müəyyən hüdud daxilində vardı. Amerika Birləşmiş ştatlarında dil əlaqələrinin mövcudluğuna və ingilis dilinə yad dillərin təsirinə xeyli tədqiqatlar həsr olunmuşdur. Bununla belə həmin problem öz dərin və ətraflı təhlilini gözləyir.

Yuxarıda qeyd olunduğu kimi, Amerikada ingilis dili qızğın dil əlaqələri fonunda inkişaf etmişdir. Bizim Şimali Amerkanın ingilisdilli əhalisinin əlaqədə olduğu mənbələr haqqında təfərrüatı ilə danışmağımız lazım gəlir. Amerikalılar aşağıdakı xalqların nümayəndələri ilə sıx əlaqədə olmuşlar: 1. Şimali Amerikanın yerli əhalisi ilə; 2. Başqa colonial ölkələr (İspaniya, Fransa, Hollandiya) ilə; Bunun nəticəsində xeyli sayda leksemlər Amerika ingiliscəsinə daxil olmuşdur. 1. hindu dillərindən, 2. ispan dilindən, 3 fransız dilindən, 4. fransız dilinin Kanada variantından, 5 Luizianada danışılan fransız dilindən, 6. niderland dilindən, Pensilvaniya ştatındakı alman icmalarının dilindən.

A.Şveytser yad sözlərin Amerika ingiliscəsinə daxil olmasını iki əsas dövrə bölür: erkən dövr (XVII əsrin əvvəllərindən XVIII əsrin sonunadək). Bu dövr ingilis dilinin Amerika dialektlərinin formalaşması ilə səciyyələnir; sonrakı dövr (XIX əsrin sonu və XX əsr) ingilis dilinin Amerika variantının ədəbi dilinin

meydana çıxması ilə səciyyələnir. Həmin dövrlər zamanca demək olar ki, bərabər olsa da, öz əhəmiyyətinə görə bərabər deyildir. Birinci dövrdə ingilis dilinin Amerika variantının əsas xarakterik xüsusiyyətləri formalaşmışdır. Məhz bu dövrdə Amerika ingiliscəsinə çoxsaylı alınma sözlər daxil olmuşdur.

XVII-XVIII əsrlərdə xeyli miqdarda neologizmlər Amerikada ilk ingilis kolonistlərinin yeni həyat şəraitini əks etdirirdi.

Şimali Amerikadakı ingilis dilində ispan alınmaları mənaca dörd əsas qrupa bölünür.Birinci qrupa aid olan sözlər təbii-coğrafi obyektləri bildirir: lajuna – «dənizdən ayrılmış kiçik göl», norther (ispanca norte) «Amerika Birləşmiş Ştatlarının cənubunda əsən şimal küləyi», sierra «dağ silsiləsi». İkinci qrupa ölkənin flora və faunasını bildirən sözlər daxildir: ajo «zanbaq», alcran «əqrəb», bosque «meşə», frijol «bobya».

Üçüncü qrup sözlər təsərrüfat fəaliyyətinə aiddir: agreaqado – «firmada işləyən meksikalı muzdlu işçi», batea «qızılın yuyulması üçün nov», cabestro «noxta», rinkon «yazlıq əkin sahəsi».

Dördüncü qrupa dövlət və ictimai fəaliyyət bildirən alınma sözlər daxildir: alguazil «şerif», calabosse «türmə», emperesario «koloniya qubernatoru» padre «katolik ruhani».

Alınma sözlərin sonrakı talehi də müxtəlif olmuşdur. Belə ki, XVIII əsrin əvvəlində alınmış bəzi sözlər XIX əsrin sonu və XX əsrin əvvəlində istifadədən çıxmışdır. Misal üçün, alacran «əqrəb», alguazil «şerif» encina «virginiya palıdı» bu qəbildəndir. Bəzi hallarda isə alınma sözün fəal istifadədən çıxdığı vaxt dəqiq deyildir: adobe «çiy kərpic».

Fransız dilindən xeyli söz XIX əsrə aiddir. XVII-XVIII əsrlərdə fransız dili Şimali Amerikada səyahətçilərin, ovçuların, xəz dəri alverçilərinin və missionerlərin dili kimi işlənirdi. Fransız alınmalar da dörd əsas məna qrupuna bölünür. Birinci qrupa daxil olan sözlər təbii-coğrafi obyektləri bildirir: batture «çayın ləpədöyəni», cote «yamac», «dağ döşü», pouderie «qar dənəciyi».

İkinci qrupa flora və fauna bildirən alınmalar daxildir:

bois d'arc «apelsin», cassie «çovdar bitkisinin növü», chereuil «maral».

Üçüncü qrupa təsərrüfat fəaliyyəti ilə bağlı olan sözlər daxildir: bourceois «işgüzar şərik», coureur de bois «ovçu» embarras «körpücük», pose «keçid», «bərə».

Dördüncü qrupa Amerikanın həyat tərzini və mədəniyyətini bildirən sözlər daxildir: automobile «avtomobil», chowder «balıq və tərəvəz» bişirilən qatı yemək», quantiers «ayaqqabı növü».

Alınma sözlərin bir çoxu assimilyasiyaya uğramışdır. Misal üçün, aşağıdakı sözlərin yazılış forması dəyişmişdir: cayak (fransız kaic) «xuliqan», depance (fransız depense) «ərzağın saxlandığı yer» gopher (fransız qaufre) «sümbülqıran» (gəmirici siçan).

Tələffüzdə dəyişiklik əsasən vurğu yerinin dəyişməsi ilə bağlı olmuşdur:

Coulee «vadi», «qurumuş çay yatağı», bereau «büro», depot «anbar».

Əvvəllər «yüngül nəqliyyat vasitəsi mənasını daşıyan fransız sözü carriola xalq etimologiyası nəticəsində «geniş, örtülü nəqliyyat vasitəsi» bildirən **carryall** sözünə çevrilmişdir.

Bu alınmaların səciyyəvi cəhəti budur ki, onlar əsasən XVII əsrdə Amerikan ingiliscəsinə daxil olmuş və hələ də istifadədədirlər.

Ədəbiyyat

1. Koonin A. English Lexicology. Moscow, 2007.
2. Nestfield J. Historical English and Derivation. London, 2001.
3. Smith R. – The English Language. New-York, 2002.
4. Stewart R. – American Place Names. New-York, 1970.
5. Stern G. – Meaning and Change of Meaning. Getteborg, 1999.

S.Orujova

Sources of Formation American variant of English Language

Summary

The article deals with the formation of American variant of English language. As we mentioned, the development of American English on the American continent has a comparatively short history. The conditions under which it developed were peculiar quite unlike those under which the English language developed in Great Britain. It is generally assumed that American English, in its spoken form, is essentially Southern English Standard of the seventeenth and eighteenth centuries as modified locally in the course of the last century or two.

Some dialect features come to be considered non-standard in their new environment. If a dialect is different from the new regional standard and if those who use that feature are not members of the upper and middle class, any differences in their speech are interpreted as non-standard.

С.Оруджева

Источники формирования Американского варианта Английского языка

Резюме

В данной статье повествуется о формирования Амерканского варианта Английского языка. Американский английский сформировался на Американском континенте за короткий срок. Условия для его формирования были благоприятными в отличии от тех условий, в которых сформировался Английский язык в Великовритании. Разговорный Американский Английский является Южным Английским стандартом XVII-XVIII веков, так как он установился локально в течении последних одного или двух веков.

Некоторые особенности диалекта считаются нестандартными в новой атмосфере. Если диалект отличается от нового регионального стандарта и если те, кто использует те особенности, не являются членами высшего или среднего класса, любые отличия в их речи считаются нестандартными.

Rəyçi: Kamələ Cəfərova
filologiya elmləri namizədi

SEVİNC BAĞIROVA
ADİU
sevinc@mail.ru

ŞƏXS ADLARININ İNGİLİS AZƏRBAYCAN DİLLƏRİNDƏ LEKSİK VƏ SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: onomastika, toponim, transliterasiya.
Key words: onomastics, toponymy, transliterstion.
Ключевые слова: ономастика, топонимика, транслитерация.

Nitqin yaranması və tədricən inkişafı ilə əlaqədar olaraq xüsusi adların yaranması zərurəti meydana çıxmışdır. Xüsusi adlar xalqın tarixini, milli adət-ənənələrini, dünyagörüşünü, həyat tərzini və s. Izah edir, aydınlaşdırır.

Dilçiliyin ən böyük şöbələrindən biri olan onomalogiya dilimizdı mövcud olan bütün xüsusi adların yaranmasını,inişafını,dəyişməsini,leksik və qrammatik qurluşunu,üslubi imkanlarını və s. öyrənir.Onomastika bütövlükdə xüsusi adları toplusudur.Xüsusi adlar ümumi adlardan yarandığı kimi, xüsusi adlardan da ümumi adlar yaranır.Bunlar "apelyativ" adlanır.Ümumi adlardan və ya apelyativlərdən xüsusi adlar əmələ gəlir. Məsələn, "qızılgül" sözü həm ingilis dilində, həm də Azərbaycan dilində eyni mənaya malikdir:

a) şəxs adları, soyadları, təxəllüs və ləqəblər
b) coğrafi adlar
c) səma cisimlərinə verilən adlar
ç) qəzet və jurnallara verilən adlar
d) heyvanlara verilən xüsusi adlar

Xüsusi ismləri ümumiləşdirərək belə adlandırmaq olar:

İnsan adları-antroponimlər, coğrafi adlar-toponimlər, tayfa və millət adları etnonimlər, çay, dəniz, göl adları-hidronimlər, heyvan adları-zoonimlər. Kosmik adlar-kosmonimlər, səcdəgah adları-teonimlər,əşyalara və müəssisələrə verilən adlar-ktermatonimlər.

Antroponomika onomastikanın ən geniş yayılmış sahələrindəndir. Antroponomiya-yunan mənşəli olub-anthropos (insan.adam, şəxs) və onoma (ad) sözlərindən ibarətdir. Antroponomiya insan adlarını öyrənən sahədir. Azəəərbaycan dilçiliyində bu termin insan adları (Xurman, Sevda, Elşad, Samir və s.), ingilis dilində isə "Personal names" (Tom, Elizabeht, Hamlet, Laura və s.) kimi ifadə olunur. Antroponimlər ünsiyyətlə bağlı meydana gəlmişdir.Qədim latınlar insanın adını özünə bərabər tutmuş "Homen nomen" demişlər. Ada belə bir münasibə elə bizim də bir sıra xalq ifdələrində təzahür edir: "İgid ölər,adı alar", "Adın çıxmaqdansa, canın çıxsa yaxşıdır", və s. Ad həmişə san, nüfuz, reputasiya hasab olunmuşdur. Tanınmış adama "adlı-sanlı" , pis əməl edənə isə "heç adına-sanına yaraşmır" deyilməsi təsadüfi deyildir. Adlar ilk insan qrupları, ailə yaranandan meydana gəlmişdir. Tayfa, nəsil, yaxud ailə içində adamların sayı artdıqca onların fərqləndirmək, fərdiləşdirmək lazım gəlirdi. Adlar məhz bu zəruri tələbdən törənmişdir.

Tədqiqatçı alimlərimizdən A.Axundov, A. Qurbanov, M. Adilov, A.Əliyev, Ə.-Cavadov və başqaları antroponomikaya aid məqalələr, elmi işlərlə çıxış etmişlər.

Xarici dilçilərdən onomologiyanın tədqiqində C.S.Mill, X.Cozef, B.Rassel, M.Breal, A.V.Nikonov, A.V.Superanskaya, S.Syorensen və başqalarının xidməti böyük olmuşdur.

Dahi azərbaycan mütəfəkkiri A.bakıxanov ilk dəfə olaraq "Gülüstani – İrəm "əsərində antroponimlərin tədqiqinə geniş yer vermişdir. Əsərdə Xaqani Şirvani, Nizami Gəncəvi, Seyid Həsən Şirvani, Əbülüla Gəncəvi, Məhsəti gəncəvi və başqa görkəmli şəxsiyyətlərin həm tərcümeyi – hallarını. Həm də adlarının izahını vermişdir. Həmçinin o, "Adlar və titullar haqqında" əsərini yazmış və bir çox titulların leksik mənalarını vermişdir. Tarixi şəxsiyyətlər – hökmdarlar, şahlar. Fatehlər, yazıçılar, şairlər və s. xalq arasında öz ləqəbləri ilə tanınmışdır.

M.F.Axundovun "Aldanmış kəvakib" povestində on yeddi obraz göstərilir. "Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəlalüddövləyə yazdığı məktub" adlı fəlsəfi əsərində saysız-hesabsız onomastik vahidlər-antroponimlər, toponimlər, hidronimlər, ideonimlər və s. işlədilmişdir. Əsərdə 150-dən çox antroponim qeydə alınmışdır. Bütövlükdə antroponimlər əsərin ideyasına. Süjet xəttinə xidmət edir.

Dilimizdə çoxlu ərəb və fars mənşəli adlar vardır. Bu adlar 7ci əsr və sonrakı dövrlərdə ərəblərin Azərbaycanı istila etməsi ilə bağlıdır. M .F.Axundov yaşadığı dövr, yəni 19 cu əsr üçün həmin adlar xarakterikdir.

Tarixi abidələrimizdən olan "Kitabi – Dədə Qorqud" dastanı Oğuz xalqının həyat və mübarizə tarixindın bəhz edir. Dastanda xeyli şəxs adları çəkilir. İ.Şıxıyevanın hesablamalarına görə dastanda 77 şəxs adı çəkilir. Bu adlardan biri də "din sərvəri məhəmməd" peyğəmbərdir. Məhəmməd peyğəmbərin adı dastanın ayrı-ayrı boylarında təqdim olunmuşdur. Məsələn, "adı görklü Məhəmmədə salavat gətirdilər". " Gorklü Məhəmməd" deyəndə "görkəmli , yaraşıqlı Məhəmməd" nəzərdə tutulur. Dastanın əksər boyları "günahlarını adı görklü Məhəmməd Mustafaya bağışlasın" cümləsi ilə tamamlanır. Dastanda İslam dinin müqəddəs şəxslərdən Əli, Həsən, Osman, Hüseyn, Ayişə, Fatimə və başqalarının adı çəkilir. "Kitabi – Dədə Qorqud" dastanında salur Qazan adı demək olar ki, bütün boylarda şəkilir. Digər qəhrəmanlardan bayandır xan, şölkü Məlik, Aruz Qoca, Banu Çiçək və başqalarının adları da çəkilir.

Mahmud Kaşğarlarının " Divani lüğət – it – türk" əsəri əvəzsiz tarixi xəzinələrdən biridir. B lüğətdə türk xalqlarının dili, mədəniyyəti, etnoqrafiyası, folkloru, adətləri öz əksini tapmışdır. " Divan"da onomastika məsələləri xüsusi yer tutur. Mahmud Kaşğarlı əsərdə toponimik adları – qədim şəhər, göl, çay adlarını xəritəyə köçürmüşdür. Qaraxanlılr dövrünün toponimik sistemini ətraflı əks etdirmişdir. "- Divan" da dünya xəritəsinin ərazi toponimləri əks etdirlmişdir. Bu, ilk türk xəritəsi və orta əsrlərin ən dəqiq xəritələrindəndir. Xəritədə Azərbaycanın adı "ərzi – Azərabadqan" kimi çəkilir. Azərbaycanın coğrafi mövqeyi və qonşu ölkələr göstərilir. " Divan"da həmçinin 110 şəxs adı çəkilir. Kişi adları çoxluq təşil edir: Atış, Burslan, Barman, Əfrasiyab və s. Qadın adlarından Altun, Tarım, Sürəyya və s. göstərilir. Mahmud Kaşğarlı dövründə ürklər iki qola ayrılırdı: Şimali qrupu (qıpçaq) şəxs adları (Azak, İnal, Kay, Səlcuk və s.); Cənub qrupu şəxs adları (Çuğlan, Çağrı, Bəğ. Boğra kara xan, Yağan Təqin və s.) Lüğətdə 70% türk. 20% ərəb və 10% fars mənşəli şəxs adları işlədilmişdir.

M.Kaşğarlının "Divan"inda 180-ə qədər toponimdən istifadə olunmuşdur. Divanda türk mənşəli yer adlarından - Altun xan, İşık göl, Tərin dəniz, Suvar və s; ərəb və fars mənşəli yer adlarından – fərqanə, Buxara, Sayram. Yemən və s; tayfa adlarından – Türk, Kumuk, Bulğar. Tankut və s; şəxs adlarından – Şu, Kəşmir, Nişabur, Barsğan və s. adları bunlardır: Sitkün, Suğnak, Karnak, Karaçuk, Sepren (Sabran).

Onomastik vahidlər xalq təfəkkürünün məhsuludur.Onomastika elmində toponimlər də xüsusi yer tutur. Toponimya – yunanca topos (yer) və onoma (ad sözlərindən ibarətdir. Toponimləər – tarixi-coğrafi yurdların aydınlaşdırılması baxımından mühüm mənbədir. Toponimlər tarixi qaynaqların, ictimai – siyasi formasiyaların daşşıyıcısıdır. Tarixi – coğrafi toponimləri məna baxımından aşağıdakı kimi quruplaşdırmaq olar:

1. Tayfa, el – oba adları: Oğuz eli, Abxaz eli, alpanlar, abxazlar.
2. Dağ, dərə, dəniz, çay, yer. Yurd, meşə adları: Xəzər dənizi, Qara dəniz, Şimal dənizi, Şah dağ, Babadağ, Alp dağları, Göy – göl, kür çayı, Temza şayı və s.
3. Dövlət, şəhər, qala, qəsr adlrı: Azərbaycan, Fransa, London, Gəncə, Əlincə qalası, Qız qalası və s.

Azərbaycan dilçiliyində ilk dəfə Afət Abbasova ingilis və Azərbaycan antroponimlərini müqayisəli şəkildə tədqiq etmişdir. Belə ki.alim ingilis və Azərbaycan şəxs adlarının struktur və semantik xüsusiyyətlərini müqayisəli şəkildə öyrənmiş, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmişdir.

Qeyd etdiyimiz kimi ad insanlara, coğrafi obyektlərə ona görə verilir ki, onları bir – birindən fərqləndirmək olsun. Məsələn. Arif, Elşən, Nərgiz, Günay və digər şəxs adları deyiəndə bilirik ki, bunlar azərbaycanlılara məxsus adlardır; Nadejda, Olya, İvan, Aleksandr adları rus şəxs adlarıdır: Tom, Bella, Herbert, Cek, Flora, Elizabet və s. adlar deyiləndə bilirik ki, bunlar xarici şəxs adlarıdır.

Həmçinin də coğfi adlardan Bakı, Bərdə, Qazax deyiləndə Azərbaycan respublikasının şəhərləri. London, Vaşiqton, Moskva, Berlin, Paris və s. deyiləndə xarici ölkələrin şəhərləri başa düşülür.

Azərbaycan dilinə german dillərindən keşmiç bir çox şəxs adları vardır. Məsələn: Kişi adları: elmar, Elvin, David və s. Qadın adları: Ofelya, Elmira, Flora, Raya və s. Azərbaycan şəxs adlarında variantlılıq səs əvəzlənməsi və artım yolu ilə əmələ gəlir. Məsələn: Soltan-Sultan, Rəşid-Rəşad, Almaz-Almas və s.İngilis şəxs adlarında bir adın neçə variantı olur. Məsələn: Bell. Bella,Belle, Rob, Robbie, Robin.

Artıq dünyada ünsiyyət vasitəsi kimi ingilis dilinin rolu böyükdür. Azərbaycan dili ölkəmizin dövlət dili,ingilis dili isə beynəlxalq əlaqələr kimi aparıcı rola malikdir.Azərbaycan xüsusi adlarının, toponimik. Hidronimik və ktematonimik adların ingilis dilinə tərcüməsi dilinə tərcüməsi çox önəmlidir.Bunların transliterasiasında çox variantlılıq hökm sürməkdədir.Məsələn. bir sıra Azərbaycan xüsusi adları müxtəlif variantlarda verilir: Bakı-Baki\Baku. Abşeron – Abşeron\Apsheron, Füzuli – Fizuli\Fizuly, Hüseyn – Hussein\Huseyn, Sevinc – Sevinj\Sevindj və s.

Xüsusi adların bir dilə çox variantlı deyil, birvariantlı transliterasiya olunması məqsədəuyğundur: Bakı, Abşeron, Fizuli, David, Teymur və s.

Azərbaycan dilində bir sıra fonemlər vardır ki, onlar ingilis dili üçün səciyyəvi deyildir. Həmçinində ingilis dilində olan bir sıra fonemlər Azərbaycan dilinin

səs tərkibində yoxdu. Bu fərqlərdə azərbaycan xüsusi adlarının ingilis dilində bir neçə variantda transliterasiya olunmasına səbəb olmuşdur. Məsələn: Azərbaycan – Azerbayjan\ Azerbaijan, Qazax – gazakh \ Gazak. Gencə - Ganja \ Gandja, Üzeyir – uzeir \ Uzeyr, və s.

Xüsusi düzgün transliterasiya bir-birinə uyğun adların eyni cür oxunmasına səbəb ola bilər. Bu isə elmi araşdırmalarda. Ictimai işlərdə böyük qarışıqlıq yarada bilər. Bunun üçün Azərbaycan xüsusi adlarının ingilis dilinə itransliterasiya olunmasının, vahid və sabit orfoqrafik normalarının hazırlanması və vahid meyyarın müəyyən edilməsi vacibdir. Bütün kitablarda, jurnallarda, qəzetlərdə və digər mətbuu məhsullarda adların və sözlərin orfoqrafik baxımdan düzgün yazılmasına hamı riayət etməlidir. Odur ki, dilin orfoqrafiya qanunlarını hec kəs pozmamalı. Çoxvariantlılığa yol verməməlidir. Adların dəqiq, mənbədə olduöu kimi öyrənilməsi çox vacibdir, zəruridir. Buna görə də qədim dil mənbələri, məxəzlər, abidələr olduqca dəyərlidir.

Ədəbiyyat

1. Abdulla B. “Kitabi – Dədə qorqud” un poetikası. B. 2008
2. Ə.N.Mikayılova. Onomastik vahidlərin üslubi imkanları. B.2008
3. A.Qurbanov və onun onmastika məktəbi, Bakı. Maarif, 1999
4. C.İ.Kazımov. Mahmud Kaşğarlının “Divanü Lüğat – it – Türk” əsərində onomastik leksika. Bakı – 2009.
5. Лексикология современного английского языка. Автор: Арнольд. И.В.Издательство: Высшая шшкола. Год издания : 1986 Страниц 295
6. Galperin L. R. An essay in stylistic analysys. Moscow : Higher School Publishing House 1968.64 г.
7. Internet news : Azerbaijani – studies.com

S.Bagirova

The analysys of proper names in Englis and Azerbaijani languages

Summary

This work is devoted to proper names, to their analysys on English and Azerbaijani languages. It is analysed their own names, development, change, a lexical and grammatical from and the possibilities of style.It is proved that proper names are a product of thinking of the people and explain history of the people, its tradition, outlook and life. Especially a great place is given to antroponomics, one of the main divisons of onomastics.İn the article the speech also goes about the correct transliteration of proper names.

С.Багирова

Анализ собственных имен в Азербайджанском и Английском языках

Резюме

Данная работа посвящена именам собственным их анализу по английском и азербайджанском языках. Анализируется собственные имена, их образование, развитие, изменение, лексико – грамматиская форма и возможности стила. Доказывается, что имена собственные являются продуктом мышлеения народа и объесняют историю народа, её традиции, мировоззрения и жизни. Особенна большое место в работе уделяются антропономике, одному из гланых отделов ономастики. В статье так же речь идёт о правильной транслитерации собственных имён.

Rəyçi: Rəfiq Cəfərov
filologiya üzrə fəlsəfə doktoru

LAYƏ MUSTAFAYEVA
ADU
laye_mustafayeva@mail.ru

MORFOLOJİ VƏ LEKSİK TƏKRARLAR VƏ ONLARIN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: affiks təkrarlar, kök təkrarlar, sinonim təkrarlar
Key words: affixal-repetition, root-repetition, synonym repetition
Ключевые слова: аффиксальный повтор, корневой повтор, синонимичный повтор

Sözlərin düzəlməsində oynadıqları roldan asılı olaraq, morfemlər kök və şəkilçilərə bölünürlər; müvafiq şəkildə morfemlərin mətndə təkrarı iki yerə bölünə bilər:
1.Affiks təkrarlar:

The brownshirts dragged a screaming, kicking, Clawing, Elpis from her husband. Yichiel crawled to his feet and staggered for the door. (L. Uris. p.215)

2.Kök təkrarlar:

But he and Marjorie remained the way they were. Why? The whys ran like insects with fire-feet through his brain when he tried to think about it. Until he stopped thinking about it altogether and let it die long before Marjorie died. (R.J. Waller. p.105).

Hər hansı bir affiks (şəkilçi və ya önşəkilçilər) leksik mənanın ən ümumi semantik komponentini yaradır. Təkrar affikslərin semantik aspektlərini göstərir və onları təşkil edən sözlərin leksik mənaları arasında əlaqə yaradır. Affiks təkrar, belə sözlərin leksik, qrammatik müəyyənliklərini qoruyub saxlayır (onlar eyni nitq hissəsinə aiddirlər), fonem və sema səviyyələrində paralelizm yaradır. Məsələn:

"Mr. Wolfson," I said, "this has nothing to do with the stamps, and if you feel I am prying unnecessarily, please tell me, but are you retired?" "Semi," he said. "I was **somewhat** of a bookman. Had a sweet little shop on the Square. I am also **somewhat** of a bibliophile, and **somewhat** of an antiquarian. I have been **a somewhat** all my life, Mr. McNally, and have done very well at it, I might add…" (L.Sanders. p.63)

Leksik təkrarlar cümlə və ya abzas daxilində yerinə görə təsnif oluna bilər:

1. Yanaşı təkrarlar.

Faster-faster-faster-the brush ripped their
Clothes and tore into their skins-faster-faster-away
From the flashlights-the barking dogs-the commands… (L. Uris, p. 113)

2. Aralı təkrarlar.

Aralı təkrar seqmentləri oxucuya öncə gələn mətnin geniş hissəsini yadda saxlamağa və müəllifin fikrinə nüfuz etməyə kömək edir. Bu nöqteyi-nəzərdən Cou MakQinnesin əsərindən götürülmüş aşağıdakı misallar maraq doğurur. Səhifə 55-də oxuyuruq:

"Why did she tell you all this ?" "Because she loved you, Rob. And she was afraid ***she was loosing you***. And she wanted me to try to help her save her marria-

ge." Rob stood up, too. "This was none of your business", he said, almost indignantly. "Maria had no right to discuss any of this with you". "Rob, every time she tried to bring it up with you, you told her ***she was loosing her mind,*** you told her she should get psychiatric help, you told her ***she was having a nervous breakdown.***" (J. McGinnis. p.55)

Daha sonra, səhifə 57-də həmin fikir təkrarlanır:

"This is preposterous!" Rob said. "***The woman was having a nervous breakdown."***

"She said she was finally ready to confront you but she was afraid to it alone. She asked me to be with her and I agreed. I was planning to come over Monday morning, Rob. Maria and I were going to sit down with you and she was going to tell you everything she knew."

"Then I was going to remind you of all you'd be losing if you kept on the way you were going. Your reputation, Rob, which seems to concern you so much. That civic status that's such a big deal to you. Your precious country club. If Maria divorced you, or if you left her because of Felice, they'd either throw you out or laugh you out and it wouldn't really matter which." "Not to mention, of course, your three sons. I was going to remind you of how much their happiness and well-being depended upon you and what you did." (J. McGinniss, p.57-58)

Söz, ifadə və ya cümlə geniş ədəbi əsərin bütün mətni və ya əhəmiyyətli hissəsi boyu təkrar oluna bilər. Bu cür təkrar olunan seqmentlər quruluş cəhətdən xüsusi əhəmiyyətə malikdirlər və belə seqmentlərə başlıqda rast gəlinirsə, onların əsərin ideyasını başa düşməyə xidmət etdiyini aydın şəkildə görmək olar:

Thanassis interrupted: "As much as I love and respect you, father, I must agree with Michalis. Passive resistance has proved fruitless. The cities and the hills are angry and our people will flight."

"And do you agree with them, Dr.Thackery?"

The bony - faced man remained silent for many moments. "I do not choose sides," he finally said. "It is nor my affair. We know that the British will establish a mission here when they receive the Stergiou list. It means that we must organize and act on information about arms shipments, train schedules, troop movements, submarines… It means the British will ship in arms to help us to carry out missions. We know, too, that the Germans will destroy villages and cities and kill your citizens for every act we commit against them. What is our gain? If we become strong-if we can place enough pressure on the Germans, they will be forced to keep their troops here and will not be able to release them for fighting on the main fronts. Neither you nor I can stop the Greek people from striking back. Truly, Papa - Panos, the hills are angry". (L. Uris. P.205)

Təkrar olunan isimlərin qarşısında artiklin kontrastlı işlədilməsində daha çox ekspressivlik vardır. Kontekstdən, xüsusilə, ismin təyin semantikasından asılı olaraq, belə priyom obrazın emfatik şəkildə nəzərə çarpdırılmasını gücləndirir, söyləmə bir əyanilik verir:

The river was withering; the dusk seemed held in the tress, waiting to spread and fly into a sky just drained of the sunset. …Not a breath! And then, all at once - no swallows flying, no starlings; a chalky hue over river, over sky! The lights sprang up in the house. A night flying beetle passed him, booming. The dew was falling

he felt it; must go in and as he turned, quickly, dusk softened the trees, the sky, the river. (J. Galsworthy)

Üslubi nöqteyi - nəzərdən təkrar edilən isimlər üçün müəyyən və ya qeyri-müəyyən artiklin seçilməsini bir çox hallarda mövcud kontekstlə ismin mənası arasındakı xüsusi assosiativ əlaqələr diktə edir. Misallara müraciət edək:

1. Foggartism had a definite solution of **England's troubles** to work towards-an independent, balanced Empire; an **England** safe in the air, and free from unemployment-with Town and Country once more in some sort of due proportion. (J. Galsworthy)
2. There was **a Clanton before** the killings, and there was **a Clanton after** the killings, and it would be months before **the two** resembled each other. … There was no clear verdict from the man on the street. (J. Grisham. p.91)
3.…It had been the **old England,** when they lived down yet here- **the England** of packhorses and very little smoke, of peat and wood fires, and wives who never left you, because they couldn't, probably. **A static England that** dug and wove; where your parish was your World, and you were a churchwarden if you didn't take care. (J. Galsworthy)

Təkrardan yalnız üslubi məqsədlər üçün deyil, həmçinin ifadəyə aydınlıq gətirmək, qeyri - aydın fikirlərdən qaçmaq üçün istifadə edilə bilər:

The darts game finished and the players came over to the bar to replenish their glasses. The man with the red face turned to Wycliffe.

"Was she murdered or wasn't she?"

"It seems very likely that she was."

The red-faced man opened his mouth to say something but Charlie Martin cut in. "Will you be making an arrest?"

Wycliffe shook his head. "It's far too early to be talking about an arrest. To do that we need evidence-evidence pointing to a single person."

(W.J. Burley. p.56)

Təkrarların başqa növü də vardır ki, bu növ də sinonim sözlər və ifadələr təkrar olunmaqla, eyni ideya təkrarlanır ki, bu da mənaya bir balaca müxtəlif nüanslıq əlavə olunmaqla cümlənin təsiri gücləndirir. (2., səh.215) Məsələn:

"Nine o'clock. Got to buy something?"

"Nah. Just thought I'd had around the fountain out there and see if some interestin' young people come by. Talk with'em for a while, pick up a little arcade wisdom, try to expand my knowledge of our country's future scientists and business leaders." (R.J.Waller, p.126)

Bəzən sinonim təkrarlar məntiqi vasitələrlə ifadə olunan fikri təkrarlayan yaradıcı vasitələrlə həyata keçirilir. Xüsusilə, publisistik üslub - şifahi nitqdə istifadə edilən sinonim təkrarlar müxtəlifdir. Onlar bu halda təkcə bədii emosionallıq deyil, həmçinin köməkçi funksiya daşıyırlar. Onlar hekayəni ləngidir və bununla, fikirlərin və arqument sisteminin inkişafını diqqətlə izləməyə imkan verirlər:

"I suppose the truth is I am last broken in to the idea of death. Once it terrified me and once I hated it. But now it only annoys me…

What embitters me is the humiliation of having to die…

To think that the women I have loved will be continue on their way and forget I ever hated will continue ignominy of being dead!"(W.J. Burley. p.123)

Sinonim təkrarlar eyni fikri ifadə edərək bu və ya digər əlavələr etməyə, cümlənin başlıca tərkibini detallaşdırmaq, genişləndirmək imkanı yaradır. Belə bir halı aşağıdakı misalda görmək olar:

But Barbellion had been untroubled by guilt.

Resentment, bitterness and frustration, but not guilt. Recently he had been conscious of growing sense of guilt, something which had not troubled him since adolescence. He supposed that it might be a morbid effect of complaint but that did not help. He had reason to feel guilty.(W.J. Burley. p.123)

Beləliklə, morfoloji və leksik təkrarların xüsusiyyətlərini araşdıraraq belə bir nəticəyə gəlirik ki, onların növləri müxtəlifdir və işlənmə xüsusiyyətləri genişdir. Belə ki, fikri gücləndirmək, ona üslubi çalarlıq və rənglər vermək, qüvvətləndirməkdə morfoloji və leksik təkrarın rolu doğrudan da böyükdür.

Ədəbiyyat

1. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1970.
2. Galperin I.R. Stylistics. M., 1981.
3. Maltzev V.A. Essays on English Stylistics. Minsk, 1984.
4. Знаменская Т.А. Стилистика английского языка. Основы курса. Едиториал УРСС, 2005
5. Никитина С.Е. Семантический анализ языка науки. М., 1987.
6. Uris L. The Angry Hills. Bantam Books. 1981.
7. Waller R.J. Border Music. New York, Warner Books. 1995.
8. Lawrence Sanders. McNally's Secret. Berkley Books, New York, 1993.
9. Joe McGinnis. Blind Faith. A signet Book. New America library, New York, 1989.
10. John Grisham. A Time to Kill. Island Books. New York, 1989
11. Burley W.J. Wycliffe and Death in Salubrious Place. Gordy Books. 1997.

Лая Мустафаева

Морфологические и лексические типы повтора и их характерные черты

Резюме

Статья посвящена изучению морфологических и лексических типов повтора и их характерных черт. Среди морфологических типов повтора в статье выделены аффиксальный и корневой повторы на примерах из современной английской литературы. Их лексических повторов в статье представлены близко-и дальне-расположенные повторы.

В статье также изучается синонимичный вид повтора, более используемый в публицистическом стиле (ораторские речи, очерки, статьи).

Laye Mustafayeva

Morphological and lexical types of repetition and their characteristic properties

Summary

The article deals with the study of the morphological and lexical types of repetition and their characteristic features. Among morphological types of repetition affixal and root repetitions are analyzed and provided with examples from modern English literature. As for lexical types of repetition, close and detached repetitions are presented and studied in the article.

Also, synonymic repetitions are touched upon which are mostly used in the publicistic style (speeches, essays and articles)

Rəyçi: Leyla Cəfərova
filologiya üzrə fəlsəfə doktoru, dosent

TÜNZALƏ BAXŞIYEVA
AMEA
tunzale-111@mail.ru

AZƏRBAYCANIN QƏDİM TOPONİMLƏRİ

Açar sözlər: toponim, coğrafi ad, söz, qədim toponimlər, Azərbaycan, türk dilləri.
Ключевые слова: топоним, географическое имя, слова, древние топонимы, Азербайджан, тюркских языках.
Key words: toponyms, geographical name, word, Azerbaijani, Turkish languages.

Dilin ən qədim leksik vahidlərindən olan toponimlər xalqın tarixini, mədəniyyətini, iqtisadi, sosial vəziyyətini, dil xüsusiyyətlərini özündə əks etdirir, uzaq keçmişdə baş vermiş hadisələrdən xəbər verir. Ölkənin,xalqın tarixini öyrənmək üçün yazılı mənbələr, daş kitabələrlə yanaşı toponimlərin də araşdırılması faydalıdır. Bəzən hər hansı bir yazılı mənbənin verə bilmədiyi məlumatı coğrafi adlardan əldə etmək mümkündür. Uzaq keçmişdə baş vermiş etnik proseslər, hadisələr qabarıq şəkildə öz izlərini toponimlərdə də qoymuşdur. Toponimlərin mühüm olması onun makrotoponim, yaxud mikrotoponim olmasından asılı deyil. Azərbaycan toponimlərinin yaranmasında, formalaşmasında yerli və gəlmə etnoslar iştirak etmişdir. Bu adlarda qədim türk qəbilə, tayfa dillərinə, eləcə də sonrakı dövrlərdə onlar əsasında formalaşmış türk dillərinə aid çoxlu leksik vahidlərə təsadüf olunur. Əsrlərdən xəbər verən toponimlər xalqımızın tarixini, dilini, yaşadığı ərazinin coğrafi durumunu əks etdirən. ən qiymətli sərvətlərdəndir. Tayfa, qəbilə və xalqların bir yerdən başqa yerə köçməsi, qovuşması, əhalinin iqtisadi həyatı, peşə və sənət məşğulluğu və s. öz əksini coğrafi adlarda tapmışdır. Qafqazın toponimiyasında Azərbaycan dili baxımından arxaikləşmiş sözlər çoxdur. Onlar oykonimlərin, oronimlərin, hidronimlərin tərkibində mühafizə olunmuşdur. Azərbaycan dili baxımından arxaik hesab olunan toponimlərin tərkibində işlənən sözlərə yazılı mənbələrdə, müasir türk dillərində, dialekt və şivələrində az və çox dərəcədə rast gəlinir. Belə coğrafi adların araşdırılması xüsusi maraq doğurur . Qafqazda bəzi coğrafi adlar vardır ki , onların yaşını müəyyən etmək mümkün deyil. Tərkibində qədim türk sözlərini mühafizə etmiş Azərbaycanın qədim toponimlərdən bəzilərinə diqqət yetirək.

Azərbaycanın Şamaxı rayonunda Sunqurdağ oronimi [1, s.475] vardır. XİX əsrdə İrəvan quberniyasının Aleksandropol qəzasında Sonqurlu yaşayış məntəqə adları qeydə alınmışdır. «Qədim türk lüğəti»ndə şahın quş mənasında sunqur, sunqar, sonqur işlənmişdir [2, s.514, 525, 508].

«Kitabi-Dədə Qorqud» dastanında sunqur sözünə təsadüf olunur: ağ sunqur quşu erkəgində bir kökum var [3, s.162]. Müasir türk dillərində bu quş adı müxtəlif fonetik variantlarda işlənir: uyğur, türkmən dillərində şunkar, tatar dillərində şonkar, özbək dilində şunkor, türk dilində sunqur [4, s.54]. XİX əsrdə Qafqazda Ter vilayətinin Veden dairəsində Oysunqur oykonimi mövcud olmuşdur.

Bay sözü qədim türk dillərində "varlı, zəngin" mənasını bildirmişdir.Bu sözə XIX əsrdə İrəvan quberniyasının Naxçıvan qəzasında Baysal , Bakı quberniyasının Quba qəzasında Bayoba, Tiflis quberniyasının Borçalı qəzasında Bayburt, Duşet qəzasında Baydərə toponimlərinə rast gəlinir. Yelizavetpol quberniyasının Cavanşir

qəzasında qeydə alınmış Kevuk kənd adı «dağ keçisi»,«cüyür» mənasında işlənən keyik sözü əsasında formalaşmışdır.Bu leksik vahid «Kitabi-Dədə Qorqud» dastanında işlənəmişdir: Getdikcə yerin otlaqların keyik bilür.[3, s.32].

Qart/kart/xart sözü ilə bağlı İrəvan quberniyasının Yeni Bayazid qəzasında Xartlıq toponiminə rast gəlinir. Quba rayonunda böyük bir ərazidə Qart dərəsi yerləşir. Qart dərə «qoca dərə» - «qədim dərə» mənasını verir [5, s.129]. Qart sözü qədim türk dillərində «qoca» mənasında işlənmişdir [2, s.429]. Dağıstan vilayətinin Samur dairəsində Kart maxi, Ter vilayətinin Kara Noqay dairəsində Kart oykonimlərinin tərkibində qart/kart/xart qədim türk arxaizmi müxafizə olunmuşdur. F.Qan XIX yüzillikdə Qafqazda mövcud olmuş Kart yurt yaşayış məntəqəsini «köhnə yurd» kimi izah edir [6, s.73]. Azərbaycan dilində işlənən qartımaq (qocalmaq) felinin əsasında qart leksik vahidi durur.

Bakı quberniyasının Şamaxı qəzasında yerləşən Qəşəd yaşayış məntəqə adı türk dillərində işlənən kajat sözü əsasında formalaşmışdır. Türk dillərində «dağın döşü, dağın yalı, təpə, yüksəklik, yoxuş, dağ silsiləsi, sıra dağlar» mənasında kajat sözü işlənmişdir [7, s.399]. Qəşəd kəndi Azərbaycanda Ağsu rayonunda, Ləngəbiz silsiləsinin ətəyində yerləşir Kəndin adı coğrafi mövqeyi ilə əlaqədar verilmişdir. XIX əsrdə Ter vilayətinin Narzan dairəsində Koşet yaşayış məntəqəsi qeydə alınmışdır. V.Ş.Psyançin Basqırdıstan ərazisindəki Kajat toponimini «hündür sahil, yüksəklik» mənasını ifadə edən kajat ümumtürk sözü ilə bağlı hesab edir [8,s.278]

Tiflis quberniyasının Axalkalaki qəzasında Marqastan oykonimi qohum türk dillərində işlənən marqa sözünə -stan şəkilçisini əlavə etməklə yaranmışdır. Marqa leksik vahidi tuva dilində «yovşan» mənasında işlənir.[9,s. 289] Bu sözlə bağlı yaranan toponimlərə türk xalqları yaşayan başqa ərazilərdə də rast gəlinir. Dağlıq Altay ərazisində Marqaalı coğrafi adı mövcuddur. Marqastan fitooykonimdir. Azərbaycanda Ağdərə (keçmiş Mardakert) rayonunda 1954-cü ilə qədər Marquşevan kəndi olmuşdur.

XIX əsrdə Yelizavetpol quberniyasının Yelizavetpol qəzasında Sarpsu oykonimi qeydə alınmışdır.Qədim türk dillərində «çətin» mənasında işlənən sarp sözünə [2, s.489] su sözünü əlavə etməklə yaranmışdır. «Kitabi-Dədə Qorqud» dastanında sarp sözü işlənmişdir: «Sərp yerlərdə yapılmış kafir şəhəri». Azərbaycan dilinin Qazax dialektində sarp sözü «sel yumuş yerdə əmələ gələn uçurum» mənasında işlənir [10, s.355]. Beləliklə, Sarpsu «keçilməz, çətin keçilən su» və ya «çətin, keçilməz yerlərdən axan su» anlamını daşıyır. Azərbaycan ərazisində Şəki rayonunda Sarpdaş, Yardımlı rayonunda Sarpdağ oronimləri mövcuddur

K~x səs əvəzlənməsinə Yeıizavetpol quberniyasının Ərəs qəzasında yerləşən Xırxatala və Dağıstan vilayətinin Kirka oykonimlərində rast gəlinir. Bəzi tədqiqatçılar Xırxatala oykoniminin etimologiyasını bu cür izah edirlər: «Yerli məlumata görə, toponim xırxa/xırxıra (yerli dialektlərdə çayin iki dağ arasından çıxıb düzənliyə axdığı yer) və tala (meşədə açıq sahə) sözlərindən ibarət olub, Qul çayı oradan axdığı üçün bu cür adlanmışdır. Bəzilərinə görə isə, kəndin adı Xirqətala olmuş və guya kəndin salındığı tala Xirqəyə (dərvişlərin, zahidlərin geyimi) oxşadığına görə belə adlandırılmışdır» [11,s.506] .

Bu etimoloji izahlarda yanlışlıq vardır. V.V. Radlov kırka sözünün «dağlıq tərəf » mənasında işləndiyini göstərir [1,s.747]. E.Murzayev türk dillərində kirka leksik vahidinin « şaxələnmiş dağ beli», «bərk suxurlardan ibarət yüksəklik» anlamını

bildirdiyini qeyd edir [12,s.329]. Fikrimizcə, Xıraxatala oykonimi kirka sözü əsasında yaranmışdır. Kənd yerləşdiyi coğrafi mövqeyə uyğun adlandırılıb.

Ermənistan ərazisində Nairi rayonunda İnallı kəndi mövcud olmuşdur. 1918-ci ildə əhalisi qovulduqdan sonra kənd dağılmışdır [13, s.268]. «Qədim türk lüğəti»ndə inal sözü iki mənada işlənmişdir: 1. Xan nəslindən olan oğlan. 2. Titul [2, s.209] . V.V.Radlov inal sözünün «xan» mənasında işləndiyini və qırğızların iki xanın Orus inal adlandığını göstərmişdir [15, s.1441]. İnal sözü əsasında formalaşan toponimlərin etnonim əsasında yarandığını ehtimal etmək olar. XIII əsrdə Suriyada (Şamda) yaşayaş türk tayfalarından biri inallı adlanırdı. F.Sumer yazır: «Boz oxlar Hələb ətrafında və Amik obasında yaşayırdılar. Boz oxlardan digər bir ailə İnal oğullarıdır. Bu ailənin başındakı təşəkkül İnallı adını daşıyır. Həmin təşəkkül ağqoyunluların fəaliyyətində iştirak etmiş bir oymağı şamlu boyu arasında İrana getmiş, bəzi qolları Amasya, Samsun və Çankırı tərəflərdə yurd salmışdı [16, s.175]. T.İbrahimov inallıları həm əfşar tayfalarına, həm də şahsevən tayfalarına aid edir [17, s.175]. Müəllif yazır ki, Fars əyalətinin Xəmsə elində birləşən beş tayfadan biri – inallı tayfası şahsevənlərə mənsubdur. Bu tayfa Səfəvilər dövründə hökumətin qoşun sıralarına müəyyən miqdar daimi əsgər verər və şahsevən adlanırdı [17, s.91]..

Cəlilabad rayonu ərazisindəki Albalan yaşayış məntəqə adı fitonim əsasında yaranmışdır. Tədqiqatlarda Albalan kənd adının ikinci komponentinin türk dillərində balan/bələn (alçaq dağda, təpədə aşırım) sözü ilə bağlı olması barədə fikirlərə rast gəlinir. [4, s.33]. Fikrimizcə, balan leksik vahidi relyef bildirmir. Başqırd, tatar, altay, uyğur dillərində «başınağacı» mənasında balan leksik vahidi işlənir [9, s.109]. Azərbaycanda başınağacının üç növü bitir: adi gərməşov, adi başınağacı, şərq başınağacı. Məlumdur ki, dilimizdə al sözü qırmızı mənasını ifadə edir. Başınağacının meyvəsi qırmızı rəngdə olur. Albalan oykonimi «qırmızı başınağacı» mənasındadır. Bu sözlə bağlı toponimlərin yayılma arealı genişdir. Dağlıq Altay ərazisində Balan, Balanak coğrafi adları mövcuddur. Başqırdıstan ərazisindəki Balanlıtau dağ adı vardır.

Tiflis quberniyasının Borçalı qəzasında Quzan oykonimi mövcud olmuşdur. Yaşayış məntəqə adının tərkibində quz leksik vahidi mühafizə olunmuşdur. Qədim türk dillərində quz sözü «dağın gün düşməyən hissəsi» deməkdir [2, s.475]. Müasir Azərbaycan dilində işlənən quzey sözünün kökündə qədim quz sözü durur. Quzey sözü Azərbaycan dilində «dağın, evin və s.-nin gün dəyməyən, günəş görməyən yeri, həmişə kölgə yer», «şimal» mənasında işlənir.

Qədim türk dillərinə məxsus sözlə ifadə olunmuş yaşayış məntəqə adlarından biri də Toğana kənd adıdır. E.Əzizov qədim türk abidələrində şahin quşunun adının beş sözlə ifadə olunduğunu (şunkar, laçın, toqan, çaqrı, kekuk) göstərir [17, s.251]. Fikrimizcə, Toğana kənd adı quş adı mənasında işlənən toqan sözü əsasında yaranmasıdır. Toğana kəndinin yerləşdiyi Xanlar rayonunda Toğanalı adlı çay vardır. XIX əsrdə mənbələrdə Toğana kimi qeyd olunan kənd adı müasir dövrdə Toğanalı formasında Azərbaycan ərazi-inzibati bölgüsündə işlənilir.

Ədəbiyyat

1. Гейбуллаев Г. К этногенезу азербайджанцев. т.I, Баку: Элм, 1991, 552 с.
2.. Древнетюркский словарь. Л.: Наука, 1969, 676 с
3. «Kitabi-Dədə Qorqud» un izahlı lüğəti. Bakı: Elm, 1999, 203 s.
4. Türk dillərinin tarixi-müqayisəli leksikologiyası məsələləri. I c., Bakı: Kitab aləmi, 2004, 331 s.
5. Abbasova M.Ə, Bəndəliyev N.S, Məmmədov X.H. Böyük Qafqazın cənub-şərq hissəsinin toponimiyası. Bakı: Elm, 1993, 196 s.
6. Ган К.Ф. Опыт объяснения Кавказских географических названий. СМОМПК, вып.40, Тифлис, 1909, с.1-164
7. Радлов В.В. Опыт словарья тюкрских наречий. т.,II, ч.1,ч.2, СПб, 1899, с.1052.с.1814
8. Псянчин В.Ш. Словообразовательные модели оронимов Башкирии // Ономастика Поволжья. Уфа: 1973, с.277-281
9. Тувинско-русский словарь, Москва,1968.
10. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, 1964, 480 s.
11. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı, Azərbaycan Ensiklopediyası, 1999, 588 s.
12. Мурзаев Э.М. Словарь народных географических терминов. М: Мысль, 1984, 653 с.
13. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Gürcüstanda türk mənşəli toponimlərin izahlı lüğəti. Bakı: İsmayıl, 2002, s.320
14. Радлов В.В. Опыт словарья тюкрских наречий. т., I, ч.2, СПб, 1893, с.1914
15. Faruq Sümər . Oğuzlar. Bakı: Yazıçı, 1992, s.432
16. İbrahimov (Şahin) T.Ə Qaşqaylar. Bakı: Elm, 1988, 212 s
17 .Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı: 1999, 354 s

Тунзала Бахшиева

Древние топонимы Азербайджана

Резюме

В статье исследуется азербайджанские топонимы, встречающиеся в топонимике Кавказа. Архаичные для азербайджанского языка слова в составе топонимов, встречаются в письменных памятниках, современных тюркских языках или же в диалектах и говорах.

Топонимы как вестники веков, отображающие в себе историю, язык и географическое положение народа, являются бесценным достоянием . Такие географические названия вызывают особый интерес.

Tunzale Bakhshiyeva

The ancient toponyms of Azerbaijan

Summary

Azerbaijani toponyms that can be found in Caucasus are studied in this article. Words used in the composition of toponyms that are considered archaic in terms of Azerbaijani language can be found to a greater or lesser extent in written sources, modern Turkish languages, dialects and accents.

Toponyms showing centuries are precious resources reflecting the history of our people, language and the geographical position of the area of residence. Investigation of such geographical names is of special interest.

Rəyçi: Qara Məşədiyev
filologiya elmləri doktoru, professor

MƏLEYKƏ ASLANOVA
GDU
gsu.ffl_info@yahoo.com
SAMİRƏ QASIMOVA
GDU
samiragasimova@yandex.ru

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ DİALEKTİK VAHİDLƏR

Açar sözlər: leksik ekvivalentlər, mətn, dialektik vahidlər, dil
Ключевые слова: лексические эквиваленты, текст, диалектические единицы, язык
Key words: lexical equivalents, text, dialectic units, language

Hər bir ümumxalq dilinin müəyyən ərazi ilə hüdudlanmış yerli dialekt və şivə ilə bağlı olan budağıda mövcuddur. Dialektlər ictimai həyatın müəyyən real şəraitində əmələ gəlmiş ictimai tarixi yaranmadır. Müasir Azərbaycan dilinin lüğət tərkibinə, ədəbi dilə məxsus sözlərdən başqa, bu dilin bütün şivələrinə məxsus olan sözlərdə daxildir. Müasir dilin lüğət tərkibinə daxil olan şivələrinə məxsus belə sözlər dialekt leksikası adlanır. Bu və ya digər dialekt sözünün ədəbi dilin sözlərinə uyğun gəlib-gəlməməsindən asılı olaraq dialekt leksikasında bir neçə söz tiplərini qeyd etmək olar. Bu baxımdan alimlər Azərbaycan dilində dialektizimləri bir neçə qrupa bölürlər.

H. Həsənova görə dialektizimləri a) fonetik dialektizimlər, b) morfoloji dilaektizimlər, c) leksik dialektizimlər, ç) semantik dialektizimlər və d) leksik-semantik dialektizimlər kimi növlərə bölmək olar (4,175). B. Xəlilova görə, dialektizmlər; a) qrammatik dialektizimlər və b) lüğəvi dialektizimlərə, sonuncu isə öz növbəsində leksik, leksik-semantik və semantik dialektizimlərə bölünür (5,97). T. Əfəndiyevaya görə dialektizimlər: a) fonetik dialektizimlər; b) qrammatik dialektizimlər və c) lüğəvi dialektizmlər, sonuncu isə leksik, etnoqrafik, semantik, frazeoloji olmaqla bölünür (3, 151). Fonetik dialektizimlər ədəbi dildən yalnız fonetik xüsusiyyətlərinə görə fərqlənir. Dialekt və ləhcələrə xas olan ayrı –ayrı səslərin və fonetik hadisələrin əvəzlənməsidir. Məsələn: ərəbə-araba, qərdeş-qardaş, dəyil-deyil, bajı-bacı, öy-ev, əyib-eyib, indijə-indicə, qəşimək-qaşmaq, sana-sənə, taxsır-təqsir, əgri-əyri, və s. Fonetik dialektizimlər bəzən səs artımı, səs düşümü və ya səs yerdəyişməsi nəticəsində də yaranır. Məsələn: hasand-asan, heylə-elə, haçar-açar, səkisanki, sora-sonra, kətdi-kəndli, küflət-külfət, kirpik-kirpik, və.s.Morfoloji dialektizimlər ədəbi dildən mofoloji strukturuna görə fərqlənir. Bu əsasən assimilyasiya hadisəsi ilə müşahidə olunur. Məsələn: *annamaq-anlamaq, cannar-canlar, sənnən-səndən, ananan-anandan, qızzar-qızlar, oddar-odlar,* və s. Leksik dialektizimlər o dialektizimlər hesab olunur ki, onların ədəbi dildə qarşılığı var və ədəbi dil sözlərinə mənaca uyğun gəlir, lakin onlardan səslənməsinə və fonetik tərkibinə görə fərqlənir. Məsələn: *cələfsiz-araq, çinqoy-əsəbi, zağar-qısaboy. Zərdə-yerkökü, yava-pis, kora-mıx, zir-nəlbəki, yalaq-yaltaq,* və.s. Ədəbi dildə olan söz dialektlərdə bu və ya digər mənalarda işlədilən zaman o söz dialektlərdə bu və ya digər mə-

nalarda işlədilən zaman o söz semantik dialektizm olmaq hüququ qazanır. Məsələn: qara sözü ədəbi dildə rəng mənası daşıdığı halda, dialektdə *ey* və ya *12 ədəd* mənasını daşıyır; *qaynar* sözü çay kənarında paltar yumaq üçün ocaq qalayib qazanda su qızdırmaq mənasında işlədilir. Leksik-semantik dialektizimlər bir dialekt və ya şivədə danışanların yaşayış tərzini, onların əmək fəaliyyətini, məişət adlarını əks etdirir. Onların ədəbi dildə sinonimi yoxdur. Məsələn: *teşi-əl iyi, heş-xış, yaxdan-sandıq, curcənəq-yapıncı, maca-dişi qatır, şülək-hissə, qəmə-bıçaq, lələ-böyük, həncəri-necə, gecdən-səhər və s.*

Dialektlər tədricən ədəbi dilin içərisində əriyir. Onların ərimə prosesi iki şəkildə olur; sözlər dialektlərdən ədəbi dilə keçir; sözlər ədəbi dildən dialektlərə keçir. Dialekt leksikasına aid olan sözlər ədəbi dilə daxil olaraq onun lüğət tərkibini zənginləşdirir. Dialektizm məfhumu dəyişkəndir. O, uzun müddət işlədilmə prosesi nəticəsində ədəbi məişətə möhkəm daxil ola bilər. Ədəbi dildə möhkəmlənən dialektizimlər onun yeni sinonimlərlə zənginləşməsinə səbəb olur. Onlar ədəbi dilin lüğət tərkibində neytral element kimi çıxış edir. Bədii əsərlərin dilində dialekt sözlərin işlədilməsi müəyyən leksik sistemli xüsusiyyət kimi özünü göstərir. Bu qəbildən olan sözlərə aşağıdakıları misal göstərmək olar:-mahal, *beccə*-balaca, *bıdıx*-körpə buzov, *qut*-tumurcuq, vəs. İngilis dilində isə *marras*-mates (dostlar), *maggy life*-hard life (çətin həyat), *setting*-sitting oturma), *use*-to live (yaşamaq), *tec*-detective (detektiv) vəs. göstərmək olar.

Bəzi yazıçılar isə bu sözləri çox ehtiyyatla işlədərək ingilis dilli oxucunun onu başa düşəcəyi dildə və ya ingilis dilinin lüğətini qorumaq məqsədi daşımaqla təqdim edirlər. Hər bir ingilis tərəfindən asanlıqla başa düşülən dialekt sözlərə misallar göstərək*: maister*- master (usta, sahib), *weil*-well (yaxşı), *eneugh*-enough (kifayət), *laird*-landlord (sahibkar), *noething*-nothing (heç nə) və s.

Yuxarıda qeyd etdiyimiz kimi, dialekt və şivə sözləri bədii ədəbiyyata yazıçılar vasitəsilə yol tapır, bununla da ədəbi dillə dialekt və şivələr arasında əlaqə yaranır. Dialekt və şivə sözlərindən daha çox nəsr əsərlərində istifadə olunur. Ona görə ki, bu əsərlərdə obrazların nitqində dialekt və şivə sözlərinə çox ehtiyac vardır. Poeziyada isə qarşılığı olan dialekt və şivə sözlərinin işlənməsinə ehtiyac yoxdur. Məsələn, poeziyada işlənmiş aşağıdakı dialekt və şivə sözləri poeziya üçün münasib olmayan, şairin nitqinin, poetik "məni"nin başa düşülməsini çətinləşdirən sözlərdir: *omaşımaq, qovzamaq, şalğam, tünük, hörülmüş,tulazdamaq* və s. [5, 100]. Dialekt sözləri daha çox nəsr əsərlərində obrazların nitqini fərdiləşdirmək, üslub rəngarəngliyi və xarakterləri yaratmaq, yerli kolariti, xalqın məişətini, həyat tərzini vermək üçün üslubi vasitələrdən birinə çevrilir. Bu mənada görkəmli yazıçılarımızın ədəbi dilimizə gətirmiş olduqları dialekt sözlərə misal göstərmək yerinə düşərdi: *ilğım, pələ, pələçi, yaylaqçı, üzgörməsi, ilanyalı, ağırlıq, aranlıq, bişirim, küsənmək, sayrışan, güvənmək, hayqırmaq, və s.*Yazıçıların öz əsərlərində dialektizmləri yerliyerində işlətməsi, canlı xalq dili elementlərinə xüsusi yer verməsi onun əsərlərinin dilinin oynaqlığını, şirinliyini artırır. M. Qorki xalq yaradıcılığını bilməyən, öyrənməyən yazıçını pis yazıçı hesab edir, hər bir yazıçını bu zənginliyi mənimsəməyə və ondan istifadə etməyə çağırırdı. [4].Digər tərəfdən isə belə bir fikir var ki, Azərbaycan dilində yazan hər bir yazıçı və şair bu və ya digər dialektə yox Azərbaycan ədəbi dilinə əsaslanmalıdır. Bu barədə C.Cabbarlı yazırdı: "Bəzi yoldaşlar aydın dil yaratmaq əvəzinə digər bir ifrata varırlar, onlar ədəbi dilimizə hər cür

məhəlləçilik daxil etmək istəyirlər. Aydındır bu da ərəbçilik və arxaizm kimi zərərli bir meyildir. Bizə ümumi Azərbaycan dilində yazmaq lazımdır. Çünki ümumi Azərbaycan xalq dili vardır"

Dialekt sözlər eyni zamanda özünün köhnəlik və iddiasızlıq xüsusiyyəti ilə də spesifikdir. Standart lüğətdə artıq çoxdan obselet (köhnə) sözlərə çevrilən sözlər, burada hələ də öz işləkliyini qorumuşdur. Məsələn: to and-envy-OE andian (qısqanmaq); barqe-piğ-OE berq (donuz); byusen-blind-OE bisene (kor) və s.

O.Yesperson dialekt sözlər haqqında çox önəmli bir fikir söyləmişdir. "Hər hansı bir sözün köhnə variantı, hər hansı bir səsin keçmiş cizgisi lüğətdən çıxarılmasına baxmayaraq, o elementlər bu gün də insanlar tərəfindən yüksək ruh yüksəkliyi və həvəslə qarşılanır. Baxmayaraq ki, yüksək elitanın nümayəndələri həmişə köhnəlikdən və bayağılıqdan qaçmağa səy göstırmişlər, bu sözlər yenə də öz güçlü təbiətləri etibarilə mövcuddurlar və hələ uzun müddət insan övladının xatirəsində yaşayacaqlar." [10,68]. Bədii dildə dialektizimlər işlənmə dərəcəsi və sahəsinə görə də fərqlənir. Həmin cəhət dialektizimləri aşağıdakı növlərə ayırmağa imkan verir: 1) mədud dialektizmlər; 2) ümumişlək dialektizmlər; 3) şərti dialektizmlər [13]

Məhdud dialektizmlər bir və ya iki-üç dialektə məxsus olur.Bu cür dialektizmlər ayrı-ayrı yazıçılar tərəfindən istifadə edilir. Məsələn, Qarabağ şivələrinə məxsus dilazar-dilavər, qaçalov-dava-dalaş, yel hayı-zilbik; Qazax dialektinə məxsus anadil-gözəl səsli quş, qaynar-asmaq, dumru-yumru və s. kimi dialektizmləri yeri gəldikcə işlənməsi halına rast gəlirik.Və ya ingilis dilində yazılan əsərlərdə rast gəldiyimiz Şotland dialektlərindən lass – a girl or a beloved girl (sevimli qız və ya qız) lad-a boy or a young man (oğlan və ya gənc oğlan), daft-silly (axmaq) fash-trouble cares (çətinliklər); və ya Şimal dialektlərindən keçən hinny- honey (bal), tittie-sister (bacı),cutty-naughty girl (şıltaq qız); cənub dialekti olan Somersetşayədən keçən və fonetik xarakter daşıyan volf-folklore (folklor), vound-found (tapmaq), zee-see (görmək), zinking-singing (oxumaq) və s. sözlər heç də həmişə oxucuya aydın olmur və izahata ehtiyac duyulur. Ümumişlək dialektizmlər müəyyən qrup dialekt və şivələrdə işləndiyi üçün anlaşıqlı olur. Buna görə onlar bəzən personajların nitqində, bəzən isə yazıçının təhkiyə dilində işlənə bilirlər. Bu sözlərə misal olaraq dədə, qağa, qılığ, qırım, dıxız, sinov, ayazımaq; və ya ingilis dilində cop (polis), tec (detektiv), eneugh (kifayət), havena forgot (unudulmamış), couldna (bacara bilməmək) və s. göstərmək olar. Şərti dialektizmlər artıq ədəbi dilə keçib orada sabitləşmiş dialektizmlərdir. Məsələn: "sayrışan, ərk, ürkək, totuq, ilqar, qayıq, şütümək" ingilis dilində isə whit-what (nə) away fra'the shore-away from the shore (sahildən uzaq), wi'yu-with you (sənlə) və s. Dialektizmlər müxtəlif regionlarda müxtəlif mənalarda iştirak edı bilər. Ona görə də belə sözlər ümumi dilimizə daxil olub, ümumi mənalar qəbul etmədiyindən bədii əsərlərimizin dilini ağırlaşdırır. Belə sözləri bədii əsərlərdə kortəbii bir yolla işlətmək yaxşı nəticə verməz. Odur ki, bədii dildə hər cür dialektizmdən yox, hamıya aydın, anlaşıqlı olan dialekt sözlərdən istifadə edilməlidir. Yazıçı bir neçə dialektə xas, mənasına görı aydın olan sözü bədii dilə gətirə bilər. [8,116]. Daha bir şərt də ondan ibarətdir ki, hər hansı bir məhəlli sözü bədii dilə gətirərkən heç olmasa, cümlə daxilində onların başa düşülməsi prinsipi cüzi də olsa gözlənilməlidir [2,140].Bir sıra dilçilər isə dialektizmlərin ədəbi dilə gətirilməsinin tamamilə əleyhinə olmuşlar. Akademik M.Şirəliyevə görə, onların burada istifadəsi sadəcə bədii dilin ifadəlilik

imkanlarını zəiflədə, əsərin bədii-estetik təsirini azalda bilər [9,14-15]. C Xəndan da dialektizmlərin bədii əsərlərdə yalnız zəruri üslubi məqsədlərlə əlaqədar işlənməsini məqsədəuyğun hesab edir [6,171]. Qeyd etmək istərdim ki, bir sıra rus ədəbiyyatşünasları dialektizmləri az mədəni, geridə qalmış, az savadlı kütlənin nitq vasitəsilə hesab edirlər [12,165]. Amma şübhəsiz ki, yazıçı müəyyən üslubi məqamlarla əlaqədar dialektizmlərdən də istifadə etməlidir. Bəzi hallarda dialektizmin istifadəsi zamanı anlaşılmazlığın qarşısını almaq məqsədi ilə yazıçı dialekt sözünü ədəbi dildəki sinonimi ilə yanaşı işlədir. Bu priyom da semantik-üslubi cəhətdən özünü doğruldur. Məsələn: Ocaqqulu nüfuzedici bir nəzərlə Fərzəliyə baxıb təkid etməyə başladı. Başıpozuqluq, hərkinəlik bizə çox ağır, həm də çox baha oturar yoldaş; Səhər ertə qarğışlı, hay-küylü olan Turaclı indi elə sakit idi ki...We'll show Levenford what my clever lass, my dear daughter can do. I'm looking ahead, and I can see it. When we've made ye the head scholar of Academy, then you'll see what your father means to do wi' you. But ye must stick in to your lessons, you must stick in hard.

Bu cür misallar ədəbiyyatda istənilən qədərdir. Lakin hər iki dilə aid misallar açıq şəkildə göstərir ki, yerli koloritin səciyyələnməsi üçün hər cür dialekt sözdən və hər cür şəraitdə istifadə etmək olmaz. Çünki yerli kloriti yaratmaq məqsədi ilə yazıçı ona doğma, oxucuya isə yad olan sözləri bədii üsluba çoxlu və ehtiyac olmadan daxil etsə, ədəbi-bədii dilin ayrılığı, təmizliyi prinsipi pozular, bədii dilin səlisliyi, gözəlliyi bayağılaşa bilər.

Ədəbiyyat

1. Adilov V.Süleyman Rəhimovun bədii üslubi və "Şamo"nun dili haqqında, Bakı, 1965
2. Cahangirov Muradxan, Azərbaycan sovet şerində məhəlli və arxaik sözlər. Azərbaycan jurnalı №3,1955
3. Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı."Elm" nəş. Bakı.1980
4. Həsənov H.Ə.Müasir Azərbaycan dilinin leksikası."Marif nəşriyyatı" Bakı,-1988.
5. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikilogiyası. Bakı,2008
6. Xəndan C. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1950
7. Məmmədov M. Filoloji düşüncələr. Bakı, 2005
8. Məhərrəmova R. Azərbaycan sovet nəsrində bədii dil və stil məsələləri. Azərbaycan jurnal №6, 1953
9. Şirəliyev M. Sovet dövrü Azərbaycan ədəbi dilinin inkişafı. "Azərbaycan dili və ədəbiyyatı tədrisi", VI buraxılış, Bakı, 1957
10. Jesperson Otto.Language, its nature, development and Origin. London, 1949
11. Wyld Cecil. A History of Modern Colloquiel English.
12. Abramoviç Q.M. Vvedenie v literaturovedenie. M.,1959.
13. Qluşkova M.V. Prinüipı ispolğzovaniə dialektizmov v əzike sovetskix romanov i povestey na kolxoznuö temu. Avtoref. kand. Diss., Saratov, 1954
14. Qorğkiy M. Nesobrannie literaturno-kritiçeskie statği. M.,1941
15. Murasakuliev V.R. Dialektizmı v azerbaydjanskix sovetsix romanax. Avtoref. kand. Diss., Baku, 1969

16. Ossaveükiy İ.A. Dialektnaə leksika v proizvedenix sovetskoy xudojestvennoy literature 50-60-x qodov. V sb. “Voprosı əzıka sovremennoy russkoy literaturı”, M.,1971.

Малейке Асланова
Самира Касумова

Диалектические единицы в Азербайджанском и английском языках

Резюме

В статье показывается классификация диалектизмов в азербайджанском и англий-ском языках, которая дается со стораны различных ученых. Даются причины вхождения диалектизмов в словарный состав, их использование в литературной и разгаворный речах и т.д.

Отмечается также имеющиеся несколька виды в обеих языках. Даются образ гипотез ученых-языковедов по поводу употребления или неупотребления етих групп слов в художественной литературе. Отмечено, что диалектизмы в художественном языке по сфере и степени употребления также делятся на виды. Указаны примеры, связанные с употреблением диалектизмов, как разговорном, также и в художественном языках.

Maleyke Aslanova
Samira Gasimova

Dialectic units in the Azerbaijani and English languages

Summary

In the article it was shown the series of classifications of dialectal words given by different scholars. The reason of their appearance in the vocabulary, the ways of their usage both in the literary and colloquial language and etc. were given. It was noted that there are different types of dialectal words in both investigated languages.

Different scientific view points of linguists about to use or not to use this vocabulary layer in the belles-letters, and as the result of this investigation the reason of their appearance just in the belles-letters style was also interpreted. It also was noted that they are divided into different types according to their use in belles-lettres. There also were shown samples to all the types of dialectal words both in colloquial and literary languages.

Rəyçi: Rasim Adilov
filologiya elmləri namizədi, dosent

ŞƏBNƏM MƏMMƏDOVA
Gəncə Dövlət Universiteti
shabnam_mammadova@ymail.com

THE ROLE OF BODY LANGUAGE IN COMMUNICATION

Açar sözlər: bədən dili, ünsiyyət, tərəf müqabili, jest, xarici görünüş
Key words: body language, communication, interlocutor, gesture, physical appearance
Ключевые слова: языка тела, общение, собеседник, жест, внешность

While communicating people make use of not only linguistics means, but also different conscious and unconscious techniques. Some researchers put the level of nonverbal communication as high as 80 percent of all communication when others state that the figures could be at or around 50-65 percent. Different studies have found differing amounts, with some studies showing that facial communication is believed 4.3 times more often than verbal meaning, and another finding that verbal communication in a flat tone is 4 times more likely to be understood than a pure facial expression. As it's common knowledge body language is a form of mental and physical ability of human non-verbal communication which consists of body posture, gestures, facial expressions, and eye movements. Such signals are sent and interpreted almost entirely subconsciously. Body language can show feelings to other people, which work in return for other people. People who show their body language can reveal their feelings and meanings.

Since the 1960s, there has been a great deal of interest in studying human behavioral clues that could be useful for developing an interactive and adaptive human-machine system. Some unintentional human gestures such as making an eye rub, a chin rest, a lip touch, a nose itch, a head scratch, an ear scratch, crossing arms, and a finger lock have been found to convey some useful information in certain contexts. Some researchers have tended to extract such gestures in a specific context for educational and scientific applications. Let's start with analysing one of the most important factors of body language – a gesture. A gesture is a form of nonverbal communication in which visible bodily actions communicate particular messages, either in place of speech or together and in parallel with words. Gestures include movement of the hands, face, or other parts of the body. Gestures allow individuals to communicate a variety of feelings and thoughts, from contempt and hostility to approval and affection, often together with body language in addition to words when they speak.Here we should note another important factor that gesture processing takes place in areas of the brain such as Broca's and Wernicke's areas, which are used by speech and sign language. So we can suppose that gesturing is probably universal as there has been no report of a community that does not possesss gesture. Gestures are a crucial part of everyday conversation such as chatting, describing a route, negotiating prices on a market; they are ubiquitous. Gestures have been documented in the arts such as in Greek vase paintings, Indian Miniatures or European paintings.

There is also a huge interest in learning to avoid any unintentional gesture that might leave a negative impression on the onlookers. A large number of people are starting to attend special sessions on learning controlled body behaviour and taking advice from expert sociologists. Nowadays, learning good body-language, such as living styles of foreign people, is important during interaction in any sort of global community. Other physical expressions like waving, pointing, touching and slouching are all forms of nonverbal communication. The study of body movement and expression is known as *kinesics*. Humans move their bodies when communicating because it helps "ease the mental effort when communication is difficult." Physical expressions reveal many things about the person using them. For example, gestures can emphasize a point or relay a message, posture can reveal boredom or great interest, and touch can convey encouragement or caution.

Consistent eye contact can indicate that a person is thinking positively of what the speaker is saying. It can also mean that the other person doesn't trust the speaker enough to "take their eyes off" the speaker. Lack of eye contact can indicate negativity. On the other hand, individuals with anxiety disorders are often unable to make eye contact without discomfort. Eye contact can also be a secondary and misleading gesture because cultural norms about it vary widely. If a person is looking at you, but is making the arms-across-chest signal, the eye contact could be indicative that something is bothering the person, and that he wants to talk about it.

And now we're going to speak about the study of measurable distances between people which is termed as proxemics. It occurs as people interact with one another. The distance between people in a social situation often discloses information about the type of relationship between the people involved. Proximity may also reveal the type of social setting taking place. As it's obvious in humans, one of the means of communication is the posture of the body, in addition to facial expressions, personal distances, gestures and body movements. Posture conveys information about:

- Interpersonal relations
- Personality traits
- Social standing
- Current emotional states
- Characteristics of temperament

In humans, posture can provide a significant amount of important information on *non-verbal communication* and emotional cues. Psychological studies have shown the effects of body posture on emotions. This research can be traced back to *Charles Darwin* when he studied emotion and movement in man and animals.

Currently, many studies have shown that certain patterns of body movements are indicative of specific emotions. Researchers studied sign language and found that even non-sign language users can determine emotions from only hand movements. Another example is the fact that anger is characterized by forward whole body movement. The theories that guide research in this field are the self-validation or perception theory and the embodied emotion theory.

There exists an idea that mental events can be represented by states of the body. In a study showing embodied emotion, participants were primed with concepts of pride and disappointment by a word generation task. Researchers hypothesized

there would be an observable change in participants' posture based on the word they were primed with. This hypothesis was confirmed for the diassapointment because participants were more likely to decrease in their vertical height or show slumping behavior. Physical posture and emotion have been studied using two similar techniques. The first method involves the participant viewing videotaped actors performing certain actions and the second method involves having the participant sit in a certain posture and then self-reporting their emotions.

In the first method, actors portray and record certain body movements. Participants must view the video and decipher the emotion they believe that is being portrayed. In the second method, participants are told to assume a certain body posture and then must complete a survey on their current affective state. Other methods include using neuroscience techniques to determine how posture and emotions expressions can affect brain imaging. Another method that is growing in use involves using dancers as 'actors' and having participants observe and determine the emotion the dancer is conveying.So we can say in this case that posture can signal both the enduring characteristics of a person, and his or her current emotions and attitudes. Therefore, posture can be considered in the context of a given situation, and independently of it. Posture as information about the current state of a person's emotions and attitudes should be analyzed in the context of other messages, both verbal and non-verbal as well as that person's cultural and *social norms*.

• **Inclination of the body**. During conversation, a person may lean slightly toward another person or tilt slightly away from him or her. This behavior is usually unconscious. An inclination towards can be an expression of sympathy and acceptance. Inclining away can signal dislike, disapproval, or a desire to end the conversation. Different inclinations of the head may carry similar meanings.

• **Similarity.** During the conversation, people have an unconscious tendency to imitate others' behavior. This happens when the conversation runs seamlessly and is enjoyable for both parties. This approximation of attitudes, gestures, and body movements can indicate the emergence of a bond and sympathy.

• **Orientation of the body**. Usually people talk directed toward each other, but not squarely face to face, which can be indicative of a confrontational stance. In conversation, the participants' bodies are usually turned toward each other at an angle. When a person ignores someone else, they tend to ignore or avoid contact by showing the other person their side or back. Posture can also signal an individual's position in social hierarchy.If two people of different social standings talk to each other, the person with a higher position usually takes a more relaxed attitude. Their posture may be unbalanced, relaxed, and may appear to be nonchalant. A person with a lower position often maintains symmetrical posture by placing both hands on their lap or at their sides. Typically, a person with higher status sits down and talks while sitting. A person of lower status may stand or they may remain standing until they are asked to sit. The other important factor i.e. mood influences muscle tone, energy level, and one's internal sense of well-being. Thus, body posture can reveal a person's current state of mind. Anger, sadness, and disgust are by far the most recognized body postures that are indicative of emotions. **Stress** can affect posture subconsciously; a person under stress will often have a greater amount of muscle tension, and may also have shallow, clavicular breathing.**Well-being** affects posture

by giving it a sense of energy and balance. A person's spine will be straight and the head raised.**Confidence** affects posture by the uprightness (or not) of one's body. As we stated above, the study of postures can give a vast amount of information about emotions and self-perceptions. The study of posture has also proven beneficial in other fields. Professional counselors, who were the participants, had to view recorded interactions of counselors and clients and determine the emotions of the client. Researchers found that relying only on verbal communication to determine the emotions of the client resulted in an accuracy of only 66%. High levels of empathy could be misconstrued without the matching positive nonverbal communication. In similar studies it was noted that the arms and legs were the most important bodily factors in signaling low levels of empathy. Further, researchers suggested that counselors should not only be trained in verbal communication but also in non-verbal communication. *Dress codes* are written and, more often,- unwritten rules with regard to clothing. Clothing like other aspects of human physical appearance has a social significance, with different rules and expectations being valid depending on circumstance and occasion. Even within a single day an individual may need to navigate between two or more dress codes, at a minimum these are those that apply at their place of work and those at home, usually this ability is a result of cultural acclimatization. Different societies and cultures will have different dress norms although Western styles are commonly accepted as valid. The dress code has built in rules or signals indicating the message being given by a person's clothing and how it is worn. This message may include indications of the person's gender, income, occupation and social class, political, ethnic and religious affiliation, attitude and attitude towards comfort, fashion, traditions, gender expression, marital status, sexual availability and sexual orientation, etc. Clothes convey other social messages including the stating or claiming personal or cultural identity, the establishing, maintaining, or defying social group norms, and appreciating comfort and functionality.

The rate of change of fashion varies, and so modifies the style in wearing clothes and its accessories within months or days, especially in small social groups or in communications media-influenced modern societies. More extensive changes, requiring more time, money, and effort to effect, may span generations. When fashion changes, the messages communicated by clothing change. In the Middle Ages the European nobility used a dress code to differentiate themselves from the other classes. In many societies, particular clothing may indicate social status, reserved or affordable to people of high rank. For example, in Ancient Rome only senators were permitted to wear garments dyed with Tyrian purple; and in traditional Hawaiian society, only high-ranking chiefs could wear feather cloaks and palaoa or carved whale teeth. In China before the establishment of the republic, only the emperor could wear yellow.TIPS So, although that often quoted statistic is technically incorrect, it doesn’t mean that body language and gestures aren’t a very important part of communication. And interestingly, language and gestures light up the same areas of the brain. As we stated before, the study of body lnguage can give a vast amount of information about emotions and self-perceptions. Its study has also proven beneficial in other fields. Professional counselors, who were the participants, had to view recorded interactions of

counselors and clients and determine the emotions of the client. Researchers found that relying only on verbal communication to determine the emotions of the client resulted in an accuracy of only 66%. High levels of empathy could be misconstrued without the matching positive nonverbal communication. In similar studies it was noted that the arms and legs were the most important bodily factors in signaling low levels of empathy. So, as researchers suggested, we should emphasize that people should not only be trained in verbal communication but also in non-verbal communication for better understanding.

References

1. Harris S. Discourse analysis. «Language», vol. 28, № 1, 1952;
2. Brooks N. Language and language learning. London, 1985.
3. Щерба П.В. Языковая система и речевая деятельность.Л.,1974.
4. А.Н.Щевалдышев «Методика выработки автоматизированных навыков в процессе обучения устной речи», М. 1982г., изд. «Наука».

Ş.Məmmədova

Bədən dilinin ünsiyyətdə rolu

Xülasə

Təqdim olunan məqalə "Bədən dilinin ünsiyyətdə rolu" adlanır. Şifahi ünsiyyət zamanı insanlar yalnız dilçilik vasitələrindən deyil, həm də bədən dili kimi qeyri-şüurlu üsullardan istifadə edir. Bədən dilinə daxil olan ünsürlər məqalədə əhatəli şəkildə təhlil edilir. Məqalədə göstərilir ki, bədən dili ötürülən informasiyanın qavranılması üçün əsas şərtlərdən biridir və insan ünsiyyətinin 93%-i məhz bu cür üsullarla qavranılır. Məqalədə həmçinin dil və qeyri-dil ünsürlərinin qarşılıqlı təsirindən bəhs olunur.

Ш.Мамедова

Роль языка тела при общении

Резюме

Представленная тема называется "Роль языка тела при общении". Вовремя уст-ного общение люди пользуются не только языковыми средствами, но и методами не подсознания языка тела. В статье подробно описываются элементы языка тела. В статье показано, что языка тела является одним из основных условии передачи и воспринимаемой информации, и 93% человеческого общения воспринимается этими методами. В статье также описывается взаимодействие между языковыми и неязыковыми методами.

Rəyçi: Sevda Kazımova
filologiya üzrə fəlsəfə doktoru

SEVDA KAZIMOVA
filologiya üzrə fəlsəfə doktoru
Gəncə Dövlət Universiteti
sevda.kazimova@yahoo.com

НЕКОТОРЫЕ ЗАМЕТКИ ОБ ИСТОРИИ СИНХРОННОГО ПЕРЕВОДА

Açar sözlər: sinxron tərcümə, beynəlxalq konfrans, mənbə dil, tərcüməçi, mətn, danışıq nitqi, beynəlxalq ictimaiyyət
Ключевые слова: синхронный перевод, международная конференция, исходный язык, переводчик, текст, разговорная речь, международное сообщество
Key words: simultaneous translation, international conference, source language, interpreter, text, colloquial speech, international community

Такой вид перевода как синхронный (simultaneous translation) иногда называют высшим пилотажем переводческой профессии: в глазах непрофессионалов он представляется наиболее сложным и окружен неким ореолом загадочности и даже непостижимости. Это перевод, который осуществляется переводчиком одновременно с речью докладчика. Данный вид перевода требует от переводчика наличия специальных и уникальных навыков и умений, а также большого опыта работы. Синхронный перевод подразумевает предоставление текстовых материалов. Для успеха синхронного перевода нужно заранее как можно более глубоко изучить то, о чем пойдет речь, необходимость импровизации в этом случае должна быть сведена к минимуму, поскольку синхронный перевод не предполагает ни наличия времени у переводчика на обдумывание фраз, ни возможности на уточнение услышанного. Это и отличает синхронный перевод от последовательного перевода. С использованием технологий синхронного перевода могут быть организованы такие мероприятия, как, например, конференции, семинары, форумы, презентации. За кажущейся простотой тут скрывается долгий и сложный процесс подготовки, привлечение квалифицированных в разных областях науки и техники специалистов, начиная с инженеров и заканчивая копирайтерами и сценаристами. Огромное количество нюансов и многие другие обстоятельства требуют самого профессионального подхода и большого опыта проведения подобных мероприятий. Определенного рода небрежность может негативно повлиять на достижение поставленных задач.

Если современный синхронный перевод с микрофонами, наушниками и оборудованием для звукозаписи - явление относительно новое, то искусство перевода - столь же древнее, как и само человечество. Деятельность переводчиков издревле многообразна: они работали в качестве миссионеров, посланников, курьеров и посредников на переговорах. Во время Пунических войн переговоры часто велись переводчиками, а драгоманы XII века - официальные переводчики, назначенные местными властями, были специалистами в международных отношениях, которым часто доверялось проведение весьма деликат-

ных бесед. Действуя во всех этих ролях, переводчики переводили язык иностранцев также как их культуру и политику. Французские драгоманы, которые хорошо владели восточными языками, должны были не просто переводить, но и объяснять своим политическим деятелям смысл разных слов и выражений на иностранных языках, то есть, по сути, обеспечивать перевод с языка одной культуры на язык другой. Колумб отправил молодых индейцев из Нового Света в Испанию для обучения переводу, чтобы в дальнейшем они могли для него работать. В средневековой Европе латинский язык был средством общения всего континента, и до появления четко различающихся национальных разговорных языков острой нужды в переводчиках не было.

В Европе в XIX веке не было особой потребности в переводчиках на высшем уровне, так как французский был общим языком дипломатов и всех образованных людей. В нашем веке большая нужда в переводческой деятельности возникла в ходе серии международных и региональных конференций, где далеко не все делегаты были высокообразованными людьми, выходцами из аристократической элиты. Они являли собой многоязыковую аудиторию, уже не способную обойтись без лингвистических посредников. В 1919 году на Парижской мирной конференции впервые практиковался последовательный перевод, а первый опыт применения синхронного перевода в бывшем СССР имел место в 1928 году на 6 конгрессе Коминтерна. Первый патент на оборудование для синхронного перевода был выдан на имя радиоинженера и служащего американской фирмы IBM Гордона Финли, после чего микрофоны и наушники уже перестали быть экзотикой, и начали постепенно совершенствоваться. С 20-х годов синхронный перевод быстро развивался и в бывшем Советском Союзе. В 1935 году на XV Международном физиологическом конгрессе в Ленинграде вступительную речь академика И.П. Павлова можно было слушать на английском, французском и немецком языках. На XX Съезде коммунистической партии синхронный перевод осуществлялся на шести языках, а на XXI съезде уже на 184. Первым "крупномасштабным экспериментом", доказавшим реальность синхронного перевода, был Нюрнбергский процесс над нацистскими военными преступниками, начавшийся в 1945 году. Впервые синхронный перевод вызвал большой интерес международной общественности. Многие из переводчиков, работавших на этом процессе - эмигранты и беженцы из разных стран, владевшие в той или иной мере русским, французским и немецким, - после окончания процесса перешли в штат только что созданной Организации Объединенных Наций. В России синхронный перевод начали практиковать, начиная с конца XX века, что явилось некоторым завершением эпохи последовательного перевода. Новый способ приобрел колоссальную популярность, ввиду своей практичности и рациональности. Интеллектуальный и, как следствие, экономический прогресс сыграл немаловажную роль в становлении синхронного перевода, сделав возможным подготовку технологической базы - одной из основ грамотно организованного мероприятия с привлечением специалистов в данной области. Доступность и бесконечное множество других положительных характеристик синхронного перевода, способствовали, в числе прочих, бурному развитию международного бизнеса. Предопределив тем самым динамичное

развитие рынка как в пределах одного государства, так и во всем мире. Синхронный перевод, как символ респектабельности и ответственности прочно вошел в круговорот деловой активности. Это обеспечило переговорный процесс необходимой насыщенностью и сократило до минимума количество времени, затрачиваемого на подготовку и осуществление проектов во всех сферах бизнеса, не говоря уже о политике, представители которой первыми ощутили на себе удобство и практичность синхронного перевода. Синхронный перевод имеет свои преимущества и трудности, раскрытие которых является продолжением нашей работы. Что же делает возможным эту сложную деятельность? Обычно мы говорим о сочетании определенных способностей, знаний и навыков: свободное владение языками, эрудиция, хорошая реакция, способность быстро "выходить" на более или менее приемлемый вариант в сложных ситуациях - в общем, все это не отличается от того, чем должен обладать любой устный переводчик. Однако возможность одновременного перевода, когда во многих случаях переводчик не знает, чем закончится фраза, начало которой переводит, должна обеспечиваться неким механизмом. Удовлетворительный синхронный перевод становится возможным тогда, когда можно с достаточной степенью вероятности предположить, "куда клонит" оратор.

Итак, синхронный перевод во многом возможен и благодаря тому, что называется вероятностным прогнозированием, лежащим в основе многих видов человеческой деятельности.Для того чтобы степень вероятности в синхронном переводе была, возможно, более высокой, необходимо, прежде всего, хорошо представлять себе тему (предмет), которая обсуждается на данной конференции, семинаре или "круглом столе". Человек, "подкованный" в данной области, переводит неизмеримо лучше, чем дилетант. Поэтому изучение не только терминологии, но и сути дела является для синхрониста обязательным условием.Остановимся еще на одном преимуществе синхронного перевода. Синхронного переводчика для его эффективной работы требовалось изолировать от шума зала заседаний, а его речь сделать доступной каждому реципиенту (слушающему).

Переводчиков, поскольку их затворничество и речевое жонглирование двумя языками придавало им ореол исключительности и дарило известную независимость. К сказанному нельзя не присовокупить то действительно сложное, что существует в профессии синхронного переводчика. Во-первых, работа переводчика в режиме синхронности требует постоянной мобилизации внимания и непрерывного говорения. А это приводит к тому, что через 20-30 минут перевода у синхрониста появляется усталость артикулярного аппарата, язык становится "ватным", снижается самоконтроль и в тексте перевода возникают серьезные ошибки. Именно по этой причине режим работы синхронных переводчиков предполагает, как минимум сорокаминутный отдых после двадцати минут работы, а, следовательно, и создание групп или команд в составе 3-4 человек для каждой кабины. Вторая трудность синхронного перевода связана с реакцией переводчика, а точнее, с его реактивностью. Синхронист вынужден ежесекундно мгновенно реагировать на воспринимаемые на слух слова, а точнее, словосочетания. Именно поэтому синхронный перевод отпугивает медлительных людей, хотя и превосходно владеющих иностран-

ным языком. Хорошее знание двух или нескольких языков не является непременным условием успехов синхронного переводчика. Таким условием, скорее, является наличие у него непременного запаса эквивалентных пар лексических единиц, связанных между собой знаковой связью, позволяющих переводить не через анализ и синтез, а в плане модели "стимул - реакция", т.е. не через мышление, а через условные рефлексы.

Из всей проделанной работы можем сделать вывод, что уровень овладения иностранным языком зависит в первую очередь от способностей, опыта и знаний переводчика, не говоря уже о силе его характера - настойчивости и упорстве, с которыми он стремится к совершенству. Следует отметить, что выдающиеся переводчики-синхронисты вовсе не ограничиваются набором шаблонов на языке, переводимом ими и с которыми они, как правило, постоянно работают, а порой достигают такого высокого уровня лексического и стилистического выражения мысли, что их происхождение уже не обнаруживается ни в чем, кроме произношения и интонации. Ведь первоклассный специалист в области перевода, особенно синхронного - вечный студент, по крайней мере, в двух отношениях. Во-первых, синхронный перевод - не дежурный набор застывших приемов и правил, а живое искусство, в котором все элементы корректируются, видоизменяются и создаются заново. Во-вторых, языки больших культур - широкие реки, где все быстро течет и изменяется. В любом языке постоянно возникают новые слова и выражения, а их перевод, переправление в русло другого языка порой требует немалой лингвистической изобретательности.

Итак, имея дело с синхронным переводом, будущему специалисту необходимо осознавать природу своей деятельности, вникнуть в специфику жанра, в котором он работает, понять сущность переводческой деятельности, и, только в этих условиях переводческий труд будет доставлять истинное удовольствие и будет служить для профессионала предметом гордости.

Литература

1. Алексеева И.С. Профессиональный тренинг переводчика. М.: 2000, 271 с.
2. Бархударов Л.С. Язык и перевод, М.: 1975, 311 с.
3. Влахов С., Флорин С. Непереводимое в переводе. М.: 1980, 260с.
4. Виссон Л. Синхронный перевод, М., 1998, 276 с.
5. Казакова Т.А. Практические основы перевода. Спб.: 2001, 211 с.
6. Комиссаров В.Н. Теория перевода, М.: 1990, 250 с.
7. Крупнов В.Н. В творческой лаборатории переводчика. М., ВШ., 1976, 157 с.
8. Миньяр-Белоручев Р.К. Общая теория перевода и устный перевод. М.: 1980, 176 с.
9. Федоров А.В. Введение в теорию перевода. М.: 1953, 243 с.
10. Федоров А.В. Основы общей теории перевода. М.: 1983, 197 с.
11. Чернов Г.В. Теория и практика синхронного перевода. М.: 1987, 137 с.
12. Чужакин А.П., Палажченко П.Н. Мир перевода. М.: 2000, 138 с.
13. Швейцер А.Д. Теория перевода: статус, проблемы, аспекты. М.: 1988, 194 с.

14. Швейцер А.Д. Перевод и лингвистика. М.: 1973, 227 с.
15. Ширяев А.Ф. Синхронный перевод. М.: 1979, 175 с.

Sevda Kazımova

Sinxron tərcümənin tarixindən bəzi qeydlər

Xülasə

Məqalədə sinxron tərcümənin tarixindən bəhs olunur. Sinxron tərcümə danışanın nitqi ilə eyni zamanda aparılır və bu da dinləyicilərə nəzərə çarpacaq qədər çox vaxt qazandırır ki, yekunda dinləyicilər uzun-uzadı konfrans zallarında dəqiqələr və saatlar keçirmək məcburiyyətində qalmalı olmurlar. Məhz bu nöqteyi-nəzərdən nüfuzlu beynəlxalq konfranslarda sinxron tərcümə keçiriləcək konfransın olması gərəkən atributlarından biri kimi qəbul edilir. Sinxron tərcümə etmək tərcüməçidən xüsusi dözümlülük və səsdən anında istifadə etmək qabiliyyəti tələb edir. Sinxron tərcümə bir çoxlarının düşündüklərinin tam əksinə olaraq ana dilindən hədəf dilə daha rahat və yaxşı tərcümə edilir.

Sevda Kazimova

Some notes on history of simultaneous translation

Summary

The article deals with history of simultaneous translation beginning from its first appearance. Simultaneous translation is really carried out simultaneously with the speaker's speech, which gives a considerable gain of time and drives out of the halls of conferences minutes and hours of endless waiting, encompassing present awaiting translation of speech, uttered in an unknown language to them. That is why the simultaneous translation became mandatory attribute of reputable international conferences. To work in a synchronous translation requires a certain stamina and relevant training that can develop a voice -reactivity of an interpreter. Simultaneous translation is easier and better from the native language into a foreign language, and not vice versa, as many believe.

Rəyçi: Mehdi Rəhimov
filologiya üzrə fəlsəfə doktoru, dosent

SEVƏR ORUCOVA
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun doktorantı
seva_o@mail.ru

RUS DİLİNDƏ KONVERSİYA HADİSƏSİ

Açar sözlər: konversiya, keçid, nitq hissələri, sintaktik konversiya, isim.
Ключевые слова: конверсия, переход, части речи, синтаксическая конверсия, существительное.
Key words: conversion, transition, parts of speech, sintactycal conversion, noun.

Flektiv dil olan rus dilində konversiya hadisəsi ingilis dilində olduğu kimi geniş vüsət almışdır. Konversiya hadisəsi nəinki bu dilin söz yaradıcılığı sahəsində, həmçinin qrammatika və leksikasında da ətraflı tədqiq edilmişdir. Rus dilçiləri V.V.Vinoqradov, A.M.Peşkovski, E.S.Kubryakova, E.P.Kaleçis, T.P.Lomtev, E.T.Çerkasova, O.M.Kim və başqaları bu sahədə araşdırmalar aparmışlar. Rus dilçiliyində "konversiya" daha çox " nitq hissələrində keçid prosesi" kimi xarakterizə edilir. Nitq hissələri sahəsində keçid probleminin müasir rus dilində araşdırılması ilə bağlı E.R.Kaleçisin tədqiqatı böyük maraq doğurur (1,s7). S.Q.İlyenkonun fikrincə, qrammatik keçid hadisəsi, eləcə də substantivləşmənin müəyyənləşdirilməsi dil öyrənənlərə konversiyanı dinamik hadisə kimi qavramağa, dil kateqorialarına daha dərindən diqqət yetirməklə rus dilinin üslubi normalarını daha effektiv mənimsənilməsinə imkan yaradır(2,s30). A.M.Peşkovskinin fikrincə, nitq hissələri sahəsində keçid ona görə baş verir ki, ayrı-ayrı sözlər həm onların özlərində, həm də onlarla bağlı olan sözlərdə səs və məna dəyişmələri əsasında tədricən bir kateqoriyadan digərinə keçir. Verilmiş söz üçün keçidin bitdiyi, onun yeni bir kateqoriyaya keçdiyi hallarda da bu proses dil üçün daimidir (3,s142). Alimin fikrincə, bizim gözümüzün önündə keçid baş verərkən, biz sözü hansı nitq hissəsinə aid etməkdə çaşbaş qalırıq. Dilçilərdən bəziləri rus dilində əsasən adverbiallaşmanın (zərfləşmə) daha çox yayıldığını xüsusi qeyd edirlər (A.M.Peşkovski, V.V.Babaytseva). Müasir rus dilində bir nitq hissəsindən digərinə keçid zamanı nitqdə sözün funksiyası dəyişir, yeni qrammatik keyfiyyət qazanır. Bu zaman söz əvvəlki əlaqələrini itirərək, başqa sözlərlə yeni əlaqələr yaradır. Bu dildə əsasən semantik imkanlar nitq hissələrində keçidə şərait yaradır. Nitq hissələrində keçid yeni keyfiyyət elementlərinin daimi və davamlı toplanması yolu ilə baş verir. Eləcə də, bu zaman əvvəlki keyfiyyət elementləri tədricən yox olub gedir. Nitq hissələrində konversiyanı V.N.Miqirin transformasiya adlandırır. Sözdüzəltmə və nitq hissələrinin transformasiyasından istifadə baxımından müasir rus dilindəki nitq hissələrini müəllif üç hissəyə bölür :1) Yalnız sözdüzəltmə əsasında yaranan nitq hissələri (yeni formaların yaranması da daxil olmaqla fellər(məsdər, feli-sifət, feli bağlama, xüsusi formalar), 2) həm sözdüzəltmə, həm də transformasiya əsasında yaranan nitq hissələri: isimlər, sifətlər, zərflər 3) yalnız transformasiya əsasında yaranan nitq hissələri: saylar, əvəzlik, modal sözlər, nida, sözönü, bağlayıcı, ədat, köməkçi fel (4,s136). Eləcə də, dilçi alim müasir rus dilində nitq hissələrində keçid zamanı, elementar proseslərin baş verdiyini qeyd edir. Onun fikrincə, bu proseslər, nitq zəncirinin bir nöqtəsində baş verir, morfoloji səviyyədə ellipsis (əlamətin itməsi), elə həmin səviyyədə interpozisiya (

nitq hissələrinin müxtəlif əlamətlər kompleksinə yeni əlamətin daxil edilməsi), əvəz etmə (əlamətlərdən birinin digəri ilə əvəzi) şəklində reallaşır (4 , s147). Amma fikrimizcə, V.N.Miqirin tərəfindən bir dil səviyyəsində baş verən bu zəncirvari prosesləri elementar adlandırmaq düzgün deyil. Amma müəllifin bu bölgüdə adlarını çəkdiyi nitq hissələrinin yalnız transformasiya, yəni konversiya vasitəsilə yaranması fikrini qəbul etmək olar. E.F.Vorno,M.A.Koşeyeva,İ.A.Potapova və başqalarının fikrincə konversiya vasitəsilə yeni sözlərin yaranması ingilis dilinə xasdır. Rus dilində müvafiq sözdüzəltmə üsulu yoxdur.Yalnız bəzi hallarda məsdər formasında olan fellə adlıq halda olan ismin formalarının üst-üstə düşməsini misal gətirmək olar. Məsələn, rus dilində *"печь"(fel)-"печь"(isim), "мечь"(fel)-"мечь" (isim),-"сечь"(fel)-"сечь"(isim).* Rus dilində isimdən düzələn fellər qeyri-müəyyən formada həmişə morfoloji yolla yaranır: *радио-радировать, толпа-толпиться, экран-экранизировать* və s (5, s66). Müasir ingilis dilində olduğu kimi rus dilində də konversiya dedikdə mənbə sözlə törəmə sözün tamamilə üst-üstə düşməsi başa düşülür. E.P.Kaleçisin fikrincə nitq hissələrində keçid prosesində "konversiya" terminindən istifadə etmək olmaz. Rus dilində keçid hadisələri konversiya hadisəsi ilə eyniləşdirilməməlidir. Rus dilində keçid zamanı tamamilə başqa leksik-qrammatik kateqorialar formalaşır.. Onun fikrincə, ingilis dilində baş verən konversiya hadisəsi morfoloji-sintaktik sözdüzəltmə ilə oxşarlıq təşkil edir. A.İ.Smirnitskinin konversiyaya aid nəzəriyyəsini əsas götürərək (paradiqma müxtəlifliyi), rus dilində nitq hissələri sahəsində paradiqma müxtəlifliyinin qeyri-mümkün olduğunu göstərilir. Onun fikrincə, sifətlərin substantivləşməsi, eləcə də feli-sifətin adyektivləşməsi zamanı paradiqmalar təkrarlanır. Bəzi sözlər isə paradiqmaya malik deyillər. Buna o zərf və sözönüləri misal gətirmişdir. Eləcə də E.P.Kaleçis rus dilində nitq hissələri sahəsində keçidi iki qrupa ayırır:

I qrup keçid. Sözün bir nitq hissəsindən digərinə keçidi. Bura substantivləşmə, adyektivləşmə, adverbiallaşma, pronominallaşma, müstəqil mənalı sözlərin sözönünə keçidi, isimlərin bağlayıcıya keçidi daxildir.

II qrup keçid.Eyni nitq hissələri daxilində keçid hadisəsi.Bura sözlərin bir leksik-qrammatik sıradan digərinə keçidi aiddir (1, s12-13).

E.S.Kubryakova rus dilçiliyində *"золото-золотой, синий-синь,обед-обедать"* və s.kimi sözlər arasında əlaqələrin hələ də mübahisəli bir məsələ olduğunu yazırdı (6, s65). "Ensiklopedik dilçilik lüğəti"ndə müəllif sözdüzəltmədə konversiyanın izahını belə verirdi: "Dar mənada konversiya yalnız mənbə və törəmə sözün tam üst-üstə düşməsi, geniş mənada isə bu sözlərin yalnız əsaslarının üst-üstə düşməsi hadisəsi adlandırılır.(rus dilində *золот-о—золот-ой" və ya "соль—сол-ить")"(* 7,s235). Doğrudan da, rus dilində bir-biri ilə bağlı belə sözlərə nəzər yetirərkən, biz bəzi morfoloji göstəricilərə rast gəlirik. Amma ingilis dilindən fərqli olaraq bu dildə bəzi nitq hissələri müəyyən morfoloji göstəriciyə malik olsa da, onların tərkiblər eynidir. Belə göstəricilər bəzi alimlər tərəfindən "sıfır affiksləşmə"adlandırilir. Müəllif bütövlükdə müxtəlif növ morfem birləşmələrini təqdim edir (8 ,s9). Rus dilində belə halların ,yəni sadə sözlərin kök və morfoloji göstəricilərdən ibarət olması adi bir haldır. Akademik Ağamusa Axundov aqlütinativ dillərdən fərqli olaraq, rus dili kimi dillər üçün kök=söz bərabərliyinin doğru olmadığını göstərir (9,s50). Doğrudan da, bu dildə söz əksər hallarda kök və şəkilçinin birləşməsinə bərabərdir. Məsələn,*сил-а(güc,qüvvə), книг-а(kitab)* və s. V.V.Babaytseva

E.S.Kubryakovanın birinci, yəni mənbə sözlə törəmə sözün tam üst-üstə düşməsi ilə baş verən konversiya barədə fikirlərini müasir rus dilinin sinxron sisteminin müxtəlif mənşəli funksional omonimləri adlandırır. Daha doğrusu, müəllif bunu belə xarakterizə edirdi: "Belə omonimləri funksional hesab etməklə biz onlara yalnız səslənməsinə görə üst-üstə düşən ,başqa nitq hissələri ilə aid etimoloji qohum olan sözlər adlandırırıq (10 ,s14) .Göründüyü kimi, o belə keçid hallarını sözdüzəltmə vasitəsi hesab etmir.

E.S.Kubryakova şəkilçisiz sözdüzəltmə sxemindən çıxış edərək belə qənaətə gəlir ki, iki növ şəkilçisiz sözdüzəltmə üsulunu fərqləndirmək lazımdır:

1) tam şəkilçisiz sözdüzəltmə

2) morfoloji əsası olan şəkilçisiz sözdüzəltmə

Birinci növ sözdüzəltmə zamanı mənbə və törəmə sözlərin əsasları tamamilə eynidir. İkinci növə isə elə halı aid edilir ki, bu zaman törəmə sözdə yeni əsas, yaradıcı element mövcuddur. Məsələn, *золот-о→золот-и-ть*. Bütünlükdə vahidlərin transpozisiyası ilə bağlanan sözdüzəltmənin müxtəlif struktur növləri həm əsas, həm də törəmə sözlərin tərkibində xüsusi morfoloji göstəricilərin vacibliyi,qeyri-vacibliyi, həmçinin bu morfoloji göstəricilərinin funksional statusunun spesifikasından yaranır. Buna görə də, island və rus dili kimi dillərdə felin ad hissəsi adətən "tərkib+sıfır olmayan göstərici"ilə təqdim olunur, istənilən nitq hissələrindən fellərin yaradılması I və III struktur növlərinin reallaşdırılması ilə əlaqədardır (6, s65). V.V.Vinoqradov rus dilində feli-sifət→sifət, sifət→isim, isim→əvəzlik, sifət→əvəzlik, say→əvəzlik istiqamətində keçidin baş verdiyini yazır (11,s305-309).

Ümumiyyətlə rus dilində sözün bir leksik-qrammatik sinifdən digərinə keçməsinin iki növünü müəyyənləşdirmək olar: ayrı-ayrı formanın keçidi və bütün paradiqmanın keçidi. Ayrı-ayrı formanın keçidində onun tam leksikallaşması baş verir və söz yeni nitq hissəsinin bütün göstəricilərini alır. Məsələn, "войти *в пустую* комнату и стараться *впустую*". Bu cümlədə "пустую" sifəti leksikallaşaraq, cins, say və hal kimi sintaksis mənanı itirir, dəyişməz sözə çevrilir. Eyni zamanda bu vaxt o daha əşyanın keyfiyyətini bildirmir,felə qoşulub, tərzi-hərəkət bildirən zərfə çevrilir, sözönü ilə birlikdə eyni leksik vahid təşkil edir. Amma bütün paradiqmaların (burada,söz bütün formaları ilə birlikdə) yeni leksik-qrammatik sıraya keçidi zamanı onun qismən azalması, yeni nitq hissələrinin sözdəyişmə formalarını saxlayaraq ayrı-ayrı xüsusiyyətlər qazanması baş verir. Məsələn, sifətlər substantivləşərək daimi cins mənasını ,başqa sifətlərlə təyin olunmaq xüsusiyyəti qazanır: передовой *рабочий*,новая *столовая*, вкусное *мороженo* (12, s101-103). O.M.Kim rus dilçiliyində nitq hissələrinin transpozisiyası ilə bağlı məsələlərə "morfoloji-sintaktik sözdüzəltmə vasitəsi" çərçivəsində baxıldığını göstərir. V.V.Vinoqradov tərəfindən elmə daxil edilən bu termin, prinsip baxımından nitq hissələrinin transpozisiyasının mahiyyətini düzgün əks etdirir (11, s8) .Bura sözün həm morfoloji paradiqma, həm də sintaktik funksiyasının fərqliliyini müşayət edən kateqorial mənasının dəyişilməsini aid edilir. Müasir rus dilində isimlərin adverbiallaşma zamanı biz söz cütlüklərinin sonunda hal şəkilçilərinə rast gəlirik. Bu dildə adverbiallaşma zamanı başqa nitq hissələrinin qrammatik formaları zərflərin morfoloji göstəricilərinə çevrilir.V.V.Vinoqradov isə bu sözdüzəltmə üsulunu morfoloji sözdüzəltmə adlandırır. Onun fikrincə, müəyyən hal şəkilçili isimdən zərf yaranması prosesi çevrilmə ilə müşayiət olunur.Yəni, fleksiya şəkilçiylə dəyişilir, məsələn *авансом,*

рядом (рядком,рядышком) və s. Eləcə də, hal şəkilçili sözönlü isimlərdən zərflərin yaranması zamanı yalnız fleksiyanın şəkilçiyə deyil, eyni zamanda sözönünün ön şəkilçiyə çevrilməsi baş verir, məsələn, *до зарезу, ло отвала, в прикуску* və s (13,s3-4). Əgər isimlərin adverbiallaşması zamanı isimlərə malik morfoloji göstəricilər zərfin morfoloji göstəricilərinə çevrilirsə, deməli sözün qrammatik paradiqmalarında da dəyişiklik yaranır. Bu, konversiya deməkdir. Müasir rus dilində, eləcə də adlıq haldan başqa bütün hallarda olan, sözönülü keyfiyyət bildirən sifətlərin zərfə keçidi baş verir . Məsələn, *добела(tərtəmiz,ağarıncaya qədər), насухо (qupquru)* Müasir rus dilində istənilən nitq hissəsinə keçid baş verə bilərmi, yoxsa burada bir məhdudiyyət var? Dil materalının, nitq hissələrinin tərtibatının leksik istiqaməti, morfoloji formalarının sintaktik cərgədə aydın təyin olunması, bir nitq hissəsindən digərinə keçidin məhdud olduğunu göstərir. Məsələn, rus dilində başqa dillərdə olduğu kimi sifətlər asanlıqla substantivləşir .Buna görə də, onlarda yalnız cins,say,hal kateqorialarının morfoloji formalarını dəyişdirmək lazım gəlir. Eyni zamanda hal formasına subyekt və ya obyekt mənasını verilir. Rus dilində yalnız bəzi nitq hissələrinin müəyyən nitq hissələrinə keçidi özünü biruzə verir. Bunlardan ən çox yayılanları aşağıdakılarıdır:

1) sifətlərinn ismə keçidi (sifətlərin substantivləşməsi) ,məsələn :*хороший человек-хороший, спальная комната-спальная* və s.

2) feli-sifətlərin sifətə keçidi (feli-sifətlərin adyektivləşməsi), məsələn, *любимые песни, бывшие работники* və s.

3) müxtəlif nitq hissələrinin zərfə keçməsi (isim, sifət,felin adverbiallaşması), məsələn, *шагом, быстро, не спеша,молча* və s

Əksər dillərdə olduğu kimi, rus dilində də sözlərin morfoloji mənsubiyyətini təyin etməkdən ötrü onların cümlədə sintaktik funksiyasını müəyyən ertmək lazım gəlir. Sintaktik düzülüş fonunda sözün morfoloji quruluşu tam aydınlaşır. Məsələn, rus dilində sözün ismə keçidini (substantivləşməsini) ilk əvvəl bu sözlərin mübtəda, və ya tamamlıq kimi sintaktik funksiya daşıması və özündən əvvəl təyinlə işlənməsi qabiliyyəti ilə müəyyən etmək olar.

Müasir rus dilində sifət ismə keçərkən, artıq o sifətlə ifadə olunmuş təyin funksiyasını itirir və başqa sifətlərlə təyin əmələ gətirməyə başlayır. Cins əlamətləri ilə fərqlənən əvvəlki sifət, ismə keçid zamanı bu əlamətləri itirir, özü müəyyən cinsə məxsus söz sırasına daxil olur. Bu ya kişi *(портной, задчий),* ya qadın *(мостовая, запятая),* ya da ki, orta cinsdə *(насекомое,жаркое)* ola bilər. Həmçinin bu zaman, isimləşən sifətlər böyük qrammatik sərbəstlik qazanır. Bu cins kateqoriyasıdır.

A.İ.Smirnitski rus dilində ingilis dilində olmayan konversiya növlərinin olduğunu göstərir. Bu hal rus dilinin qrammatik quruluşunun xüsusiyyətləri ilə bağlıdır. Rus dilində konversiyaya görə eyni bir nitq hissəsinə malik sözlər əlaqələndirilir. Məsələn*,"внук"—"внука"(внучка),"супруг"—"супруга"(жена), "Александр"—"Александра" və* s. Burada konversiya qrammatik cinsdən asılı olaraq isimlərin paradiqmalarının müxtəlifliyi ilə bağlıdır. Bu ingilis dilində yox dərəcəsindədir.(14, s81). V.V.Passek də rus dilində belə sözləri konversiya ilə əlaqələndirir və onu paradiqmaların müxtəlifliyi ilə bağlayır (15, s147). Eləcə də, belə sözlər arasında leksik məna fərqi də var. "Leksik-semantik sözdüzəltmə slavyanşünaslıq üçün xüsusi maraq kəsb edir. Buna eyni nitq hissələri daxilində konversiya kimi baxmaq olar.

Bu zaman yeni sözün yaranmasının formal göstəricisi onun uyğunluğunun dəyişməsidir, yəni, leksemlərin paylanmasıdır ("paradiqmatik konversiya"nın vacib göstəricisi olan morfemin paylanmasından fərqli olaraq) (16,s46). Doğrudan da, biz əgər söz yaradıcılığında konversiya hadisəsinin əsas amillərindən birini paradiqmaların dəyişilməsi hesab ediriksə, onda bunu rus dilində konversiya adlandırmalıyıq. Müasir rus dilində isimlərin sifətə keçməsi, yəni adyektivləşməsi mübahisəli bir məsələdir. V.K.Radzixovskayanın fikrincə, əlavə funksiyasında isimlər öz əlamətlərini zəiflədir: студент *Иванов*, в городе *Москве.* Substantivləşmiş sifətlər morfoloji-sintaktik yolla(ismin sifətə sonrakı keçidi yoluyla) yenidən sifətlər formalaşdırır. Məsələn, *"животный мир*- burada sifət *"животное"* ismiylə motivləşdirilmişdir. Burada isim sonradan yenidən sifətə keçir"(17, s78). Müasir rus dilində həmçinin əsas nitq hissələrinin köməkçi nitq hissələrinə keçidi də mümkündür. Məsələn, "Отец шагает *впереди.*"(впереди-zərf), "*Впереди* армии шагает капитан."(впереди-sözönü) , "Верю *в силу* бога" (В силу-sözönlü isim), "Я так сделал *в силу* привычки"(в силу-sözönü) və s. E.T. Çerkasovanın fikrincə, bu və ya başqa tam mənalı sözlərin sözönülərə keçməsi bu sözlər üçün adi olan sintaktik əlaqələrinin xarakterinin dəyişilməsi ilə əlaqədardır. Məsələn isimlər qrupuna aid olan tam mənalı sözlər üçün adi hal, onların sintaktik əlaqələrinin birtərəfli xarakteridir. Bu da ya əvvəldə gələn, ya da sonra gələn sözlə olur(18,s18) .

L.İ.Raxmanova və V.N.Suzdalsevanın yazdıqlarına görə nitq hissələri qrammatik anlayış olduğundan , onları müəyyən edən prinsiplər də qrammatik olmalıdır. Onlar ilk əvvəl belə prinsiplərə sözün sintaktik xüsusiyyətlərinin, ikincisinin isə sözlərin morfoloji əlamətinin və kateqorial mənasının olduğunu aid edirlər (19, s 258). Rus dilində nitq hissələrində keçid prosesində birinci halda, yəni əsas sözlə törəmə sözün tamamilə üst-üstə düşməsi zamanı, məsələn *"мороженое"* sözü, nitq hissəsinə görə həm isim, həm də sifətdir. Onun isim olmasını sintaktik xüsusaiyyətlərinə görə müəyyən etmək olar. Bu söz cümlənin qrammatik tərkibinə daxildir, cümlədə baş üzv olan mübtəda funksiyasını daşıyır,morfoloji olaraq dəyişilməzdir. İsim olaraq onun qrammatik kateqoriyasını daşıyır:adlıq halda, orta cinsdədir, sifət və sayla da işlənə bilir. Sifət olaraq bu söz, cumlə üzvünə görə təyindir. Bütün bu deyilənlərdən belə başa düşmək olar ki, "*мороженое*" sözü həm isim, həm də sifət kimi təyin olunmalıdır. Amma müasir rus dilində belə söz cütlüklərinin bir-biri ilə diaxronik cəhətdən bağlı olması çox, keçidin hansı istiqamətdə baş verməsi az tədqiq olunmuşdur. "Morfoloji-sintaktik" sözdüzəltmə vasitəsi adlandırdığımız bu hadisə həm morfoloji paradiqmada, həm də sözün sintaktik funksiyasının dəyişilməsi ilə müşayiət olunur. Morfoloji-sintaktik vasitənin sözün bir nitq hissəsindən digərinə keçidi kimi izahı zamanı faktiki olaraq sözün yalnız forması, uyğun sintaktik funksiyası nəzərə alınır. Bu zaman törəmə sözlərin tam strukturu arxa planda qalır. Rus dilində nitq hissələrinin keçidi zamanı kateqorial mənanın dəyişilməsi əsas göstərici sayılır. Məsələn, V.V.Vinoqradov rus dilində sifətlərin feli-sifətlər hesabına yarandığını göstərirdi. Onun fikrincə, sifətə keçid zamanı feli sifət vaxt, şəkil, növ mənasını itirir və təmiz keyfiyyət mənasını qazanır. Ən çox "-*инн-,-енн-,-т-* şəkilçili bitmiş tərzdə olan fellərdən formalaşmış keçmiş zaman məchul növdə olan feli-sifətlərdən sifətlərin yaranması geniş yayılıb. Belə feli-sifətin sifətə keçidinin şərtləri bunlardır: a) vaxt mənasının itirilməsi b) bitmiş tərz mənasının itirilməsi və c) fellə idarə olunmaq qabiliyyətinin itməsi . Məsələn, "

путник, измученный долгой дорогой və *измученный вид.* Birinci halda zaman mənası(keçmiş zaman), tərz(bitmiş),felin idarəetmə qabiliyyəti (feli-sifət ismin birgəlik halını idarə edir) iştirak edir; ikinci halda *измученный* sözü təmiz keyfiyyət bildirən təyindir, burada hər üç göstərilən qrammatik məna itmişdir(11,s303). Göründüyü kimi, rus dilində nitq hissələrində keçid zamanı kateqorial mənada ciddi dəyişikliklər baş verir və bu zaman nitq hissələrində müxtəlif istiqamətdə keçid baş verir. Bu isim→zərf, isim→sözönü,isim→modal söz, sifət→isim, fel→ədat, fel→modal sözü,zərf→isim, və s. ola bilər. Müasir rus dilində keçidin ən əsas əlamətləri, fikrimizcə, kateqorial mənanın , leksik mənanın, morfoloji əlamətlərin, morfoloji tərkibin, qrammatik paradiqmanın, sözdüzəltmə imkanlarının, fonetik xüsusiyyətlərin dəyişilməsidir. V.N.Miqirin rus dilində nitq hissələrində keçid zamanı əsasən sözlərdə olan fonetik dəyişmələrə misal olaraq fonetik tərkibin ixtisarını *(молвит –мол)* və vurğunun yerinin dəyişilməsini *(бегом-бегом)* misal göstərir (20 ,s163). Müasir rus dilində nitq hissələrində keçid zamanı kateqorial və leksik mənaların dəyişməsi tez-tez rast gəlinir. Belə ki, keçid zamanı köhnə kateqorial mənanın yenisiylə yerdəyişimi baş verir. Məsələn, bu dildə zərfə keçid zamanı isim əşyavilik mənasını itirib, əlamət mənasını alır. Sifətə konversiya zamanı feli sifət əşyaları xarakterizə edən fəaliyyət mənasını itirib, daimi əlamət mənasını verir. Məsələn, *смеющийся человек(gülən insan)* və *смеющийся день (işıqlı gün).* Birinci misalda feli sifət insanı xarakterizə edən bir fəaliyyətdir, ikinci misalda isə o sadəcə günə aid daimi əlamət mənasını verir, burada heç bir fəaliyyət mənası yoxdur. Eləcə də biz burada leksik mənanın dəyişməsinə də rast gəlirik. Birinci misalda *смеющийся* sözü "gülmək" mənasını verirsə, ikinci misalda artıq sifətə keçən söz "işıqlı" mənasını verir. Eləcə də rus dilində törəmə bağlayıcı və bağlayıcı sözlər bəzi sözlərin ikili və ya üçlü funksiya daşımasına misal göstərilə bilər. Bu dildə elə sözlərə rast gəlmək olar ki, onlar tarixən əsas nitq hissəsi funksiyasını daşısa da, zaman keçdikcə bu sözlərin tam olaraq köməkçi nitq hissəsi olan sözönüyə keçidi baş vermişdir. Məsələn, *между(arasında),кроме(savayı)* və s. Müasir rus dilində baş verən adyektivləşmə hadisəsinin tarixi çox qədim olsa da, son zamanlar baş verən adyektivləşmənin nəticəsi olaraq bəzi sözləri misal gətirmək olar: *бреющий (полет), ведущий (специалист)* və s.

Müasir rus dilçiliyində qrammatika və leksikada konversiya hadisəsi, nitq hissələri sahəsində olan konversiya hadisəsindən daha çox rast gəlinir və dilçilər tərəfindən elə "konversiya" kimi xarakterizə olunur. L.N.Murzin tərəfindən sintaktik derivasiyanın bir forması hesab edilən konversiya(20, s33), Y.S.Stepanov tərəfindən sintaktik transformasiya adlandırılırdı (21,s 194). Daha dəqiq desək, alimin fikrincə sintaktik tranformasiyanın bir növü olan verballaşmaya məchullaşma və konversiya aid edilir. Alimin fikrincə, konversiya zamanı cümlədə söz sırası mühüm rol oynayır. Məsələn, *Иван брат Олегу.→Олег брат Ивану.* və s. Doğrudan da, bu halı sintaksisdə yer alan konversiya hadisəsi adlandıra bilərik. Belə ki, cümlədə üzvlərin yerdəyişimi baş verir, eləcə də burada mənbə və törəmə cümlələr müşahidə olunur . J.S.Stepanovun fikrincə yeni yaranmış cümlədə xəbərin forması da dəyişir: *В комнате холодно →Холодно в комнате*. Birinci cümlədə xəbər (*холодно)*, hal, vəziyyət bildirdiyi halda, ikinci cümlədə isə (*в комнате)* yer bildirir. Xəbərin bir kateqoriyasından digərinə keçidi, belə konversiyaya məxsus səciyyəvi xüsusiyyətidir (21, s200).

Rus dilində qrammatikada konversiya özünü ən çox məchul növdə göstərir və bir sözün formaları ilə ifadə olunur. Bu zaman konversiya cümlələrdəki subyekt-obyekt əlaqələrini ifadə edir. T.P.Lomtyev yazır: "Denotat statusuna malik olub və təbii dillərin cümlələri ilə ifadə olunan obyektlər arasındakı əlaqəni biz ekstensional əlaqə adlandırırıq"(22,s112). Qrammatika və eləcə də leksikada konversiya konversivlərlə ifadə olunur. Ən sadə qrammatik konversivlər məlum və məchul növdə olan olan fellərdir.Məsələn, rus dilində belə cümlə növlərinə diqqət yetirək: *Рабочие строит мост. Мост строится рабочими.* Birinci cümlə məlum növdədir. Cümlənin iki iştirakçısı var: " *строит"* hərəkətinin subyekti(*Рабочие)* və elə həmin hərəkətin obyekti (*"мост.")* Birinci cümlədə mübtəda " *Рабочие",* tamamlıq isə " *мост"* ismidir. İkinci cümlədə isə mübtəda və tamamlıq yerlərini dəyişib. Bu yalnız cümlədə yerdəyişimi deyil, həmçinin onun məntiqi strukturunda baş verən dəyişimədir. T.P.Lomtyevin fikrincə belə cümlələrdə konversiyaya uğramış əlaqə söyləmlərin hər iki cümlədə ifadə olunmuş məntiqi valentliyini dəyişmir (22,s114). Müasir rus dilində qrammatikada baş verən konversiya hadisəsini "sintaktik konversiya" adlandıran L.N.Murzin ilk, məlum növdə olan cümləni mənbə cümlə, məchul növdə olan cümləni isə törəmə cümlə adlandırır. Bu konversiya zamanı cümlə üzvlərinin sırası dəyişir .Alimin fikrincə rus dilində cümlədə tez-tez tamamlıq mövqeyində olan subyekt çıxarılır, nəticədə məlum və məchul konstruksiyaların əlaqəsi pozulur. Məsələn, *Мне грустно→Я грущу, Сказка рассказана→Старик рассказал сказку.* Belə proseslər dilçi tərəfindən" geri konversiya" adlandırılır (20,s35). Belə cümlələrdə tamamlıq olmadığından heç bir subyekt-obyekt əlaqəsindən danışmaq olmaz. Bu zaman geri konversiya konstruksiyanın forma və semantikası arasında ziddiyətə səbəb olur. Diqqət yetirsək, asanlıqla görmək olar ki, müasir rus dilində məlum konstruksiya məchula çevriləndə, bu cümlələr arasında əlaqələr, istiqamət istisna olmaqla, eynidir. Bu əlaqələr zamanı obyektlər bütün xüsusiyyətlərini saxlayır.Məsələn, *Это книга восхищает его (Bu kitab onu* valeh edir.)*→Он восхищается этой книгой. (O bu kitaba valehdir.)* Burada hər iki cümlədə heyran olan obyekt "o" dur. , "bu kitab" isə heyranlıq predmetidir.

Müasir rus dilində, leksik konversiya hadısəsi, sintaksisdə olduğu kimi geniş vüsət almışdır .L.A.Novikova görə leksik konversiya hələ kifayət qədər tədqiq olunmamış kateqorialar sırasına aiddir (23, s217). Fikrimizcə, tədqiq etdiyimiz dillərdən ən çox rus dilində bu sahə ətraflı tədqiq olunmuşdur. Leksik konversiya zamanı əvvəlkindən fərqli olaraq konversivlər eyni sözün müxtəlif formaları kimi yox, müxtəlif sözlər şəklində olur və bu sözlər bir çox hallarda sinonim olurlar. 60-cı illərdən sonra leksik sinonim kimi tanıdığımız sözlər daha sonra konversiv kimi tanındı. (Y.S.Apresyan, L.A.Novikov, Y.D.Lomtyev və başqaları) Buna səbəb kimi həmin illər ərzində nəzəri semantikanın inkişafını göstərmək olar. Müasir rus dilində cümlə daxilində mənasına görə uyğun olan sözlər aşağıdakı kimi çıxış edə bilər:

1. Özlərinin eyni olan əsas mənalarında (*отнять-отобрать)*
2. Özlərinin eyni olmayan əsas mənalarında (*взять-достать)*
3. Əsas olmayan məna səviyyəsində uyğunluq (*взять-купить)*(24,s 104)

Müasir rus dilində bir çox söz cütlükləri vardır ki, onlar leksik konversivlər hesab olunur. E.V.Kuznetsovanın yuxarıdakı bölgüsünə aid sözlər rus dilində leksik konversivlər kimi səciyyələndirilə bilər : *выйти (çıxmaq)-истратить (xərclə-*

mək),У нас вышли все денги.—Мы истратили все денги.; приобретать(əldə etmək)-появляться (meydana çıxmaq), Слово приобретает новое значение.— У слова появляется новое значение. Konversivlərin semantik təyini məntiqi vurğuda fərqi ötürməkdən ibarətdir.

Rus dilində isim konversivlərinə aşağıdakıları misal göstərmək olar: *муж(ər) — жена(arvad), изобретатель(ixtiraçı)—изобретение(ixtira)* və s. Eləcə də bu dildə sifət konversivlərə ən bariz nümunə bu cütlüklər ola bilər: *моложе(kiçik)-старше(böyük), дороже(baha)-дешевле(ucuz)*

Müasir rus dilində həm qrammatika və leksikada konversiya hadisəsi geniş müşahidə olunur. Bu hadisə konversivlərlə ifadə olunur. Konversivlər eyni hadisə və situasiyanı müxtəlif nöqteyi nəzərdən, bu hadisənin müxtəlif iştirakçıları tərəfindən təsvir edən dil formalarıdır. Konversivlər bəzən eyni yox, müxtəlif əlaqələri ifadə edir. Bu onunla sübut edilir ki, onlardan çoxu dildə antonimlərin yaranmasına gətirib çıxarır. Bunu sifət konversivlərin timsalında asanlıqla görmək olar. Eləcə də məlum-məchul əlaqəli fel (xəbər) cütlükləri də passiv konversivlərdir. Dilçilərdən A.İ.Moiseyev cins və qohumluq bildirən terminlərin konversivlərinin özəl xüsusiyyətlər daşıdığını göstərirdi. Bunu rus dilçisi onunla izah edirdi ki, bu terminlər müəyyən vəziyyətlərin iştirakçıları arasında əlaqəni müxtəlif tərəfdən, hər bir iştirakçı tərəfindən göstərir (25,s13). Öz növbəsində cümlələr daxilində iştirakçıların sayından asılı olaraq birtərəfli, ikitərəfli,üçtərəfli konversivlər ola bilər. Belə konversivlər cümlədə iki və ya artıq yeri olan xəbərlər ola bilər. Çünki hadisənin yalnız ən azı iki iştirakçısını konversiya etmək olar.

L.A.Novikovun fikrincə, müasir rus dilində "kvaziokonversiv" adlanan xüsusi növ konversivi fərqləndirmək olar. Bunu dilçi alim onunla izah edir ki, belə konversivlər öz mənalarına görə tamamilə üst-üstə düşmür. Məsələn, *Атака застала нас врасплох. (Hücum bizi pis vəziyyətə saldı.)—Мы не ожидали атаки. (Biz hücumu gözləmirdik.)* Bu cümlələrdə *застать(tutmaq,tapmaq)* və *не ожидать(gözləmək)* sözləri kvaziokonversivlərdir. Onlarda bəzi oxşar semantik xüsusiyyətlər olsa da, tamamilə üst-üstə düşmürlər. Amma bu konversiv də eyni hadisəni müxtəlif baxımdan izah edir, göstərir. Müasir ingilis dilindən fərqli olaraq rus dilindəki kvaziokonversivlər arasındakı tam oxşar semantik əlaqə haqqında danışmaq qeyri-mümkündür.

Müasir rus dilində cümlələrin sintaktik quruluşlarında da konversiya hadisəsinə rast gəlmək olar. Dilçilərdən L.M.Yefimovanın fikrincə rus dilində zaman və ya səbəb mənalı sözönlü və hal konstuksiyalı sadə cümlələrin zaman və ya səbəb budaq cümləli tabeli mürəkkəb cümləyə keçidi baş verir (26, s 205) . Göründüyü kimi, konversiya hadisəsi müasir rus dilində nitq hissələri sahəsində olduğu kimi, sintaksisdə və leksikada da geniş müşahidə olunur.

Ədəbiyyat

1. Калечиц Е.П. "Переходные явления в области частей речи". "Уральский государственный университет". Свердловск ,1977
2. Ильенко С.Г. "Явления переходности и их отражение при обучении русскому языку". "Семантика переходности" (сборник научных трудов). " "АГПИ. имени А.И.Герцена". Ленинград ,1977

3. Пешковский А.М. "Русский синтаксис в научном освещении". "Наука". Москва, 2001
4. Мигирин В.Н. "Очерки по теории переходности в русском языке ". Бельцы, 1971
5. Ворно Е.Ф. Кащаева. М.А . Машшевская. Е. В. Потапова И.А. "Лексикология английского языка". Ленинград ,1955
6. Кубрякова Е.С."Деривация, транспозиция, конверсия"."Вопросы языкознания". № 5. Москва, 1974
7. Ярцева В.Н. "Лингвистический энциклопедический словарь " ."Советская энциклопедия". Москва ,1990
8. Ким О.М."Транспозиция на уровне частей речи и явление омонимии в современном русском языке ". "Фан". Ташкент 1978
9. Axundov A."Ümumi dilçilik"."Şərq-Qərb". Bakı ,2006
10. Бабайцева В.В. " Переходные конструкции в синтаксисе". Воронеж , 1967
11. Виноградов В.В. "Грамматика русского языка". Том I (Фонетика и морфология). "Академия наук СССР". Москва, 1960
12. Хмелевская Е.С ."Современный русский язык"(Словообразование). "Вышэйщая школа". Минск ,1984
13. Виноградов В.В. "Вопросы современного русского словообразования". "Русский язык в школе". №2. 1951
14. Смирницкий А.И. "Лексикология английского языка"."Литературы на иностранных языках" Москва ,1956
15. Пассек В.В."Некоторые вопросы конверсии". "Вопросы языкознания". №1. 1957
16. Михневич А.Е. "Конверсия в славянских и германских языках"(Тезисы докладов). Минск ,1965
17. Радзиховская В.К. "Морфология современного русского языка". "Флинта". Москва ,2001
18. Черкасова Е.Т. "Переход полнозначных слов в предлоги". "Наука". "Москва , 1967
19. Рахманова.Л.И. Суздальцева В.И."Современный русский язык"."Аспект Пресс". Москва, 2007
20. .Мурзин Л.Н. "Основы дериватологии"."Пермский государственный университет". Пермь ,1984
21. Степанов Ю.С."Имена. Предикаты. Предложения. Семиологическая грамматика". "Наука". Москва, 1981
22. Ломтев Т.П."Предложение и его грамматические категории". Москва , 2004
23. Новиков Л.А."Семантика русского языка". "Высшая школа". Москва, 1982
24. Кузнецова Э.В."О лексической синономии в контексте предложения". "Проблемы структуры слова и предложения". Пермь , 1974
25. Моисеев А.И. "Термины родства и свойства как конверсивы". "Лексико-семантические группы современного русского языка"(сборник научных трудов). Новосибирск ,1985

26. Ефимова Л. Б. " Явления переходности в системе взаимодействие предложно-падежных сочетаний и придаточных предложений со значением времени и причины" ." Современный русский язык " (сборник трудов). Москва, 1975

Севар Оруджева

Конверсия в русском языке
Резюме

Данная статья посвящена к исследованию явление конверсии в русском языке. Исследование показывает что, в русском языке конверсия широко распространилась не только в области частей речи, но и в синтаксических и лексических уровнях языка. Но факты перехода слов одной части речи в другую отмечаются в русских языках больше чем синтаксических и лексических конверсиях. Синтаксическая конверсия специально отражает себя в грамматическом залоге. В результате лексической конверсии в русском языке сформируется ряд синонимов и антонимов.

Sevar Orujova

Conversion in Russian
Summary

The considered article is dedicated to the research of conversion in Russian. The research shows that conversion in Russian is widely spread not only in the field of the parts of speech and also in syntactical and lexical levels of language. But conversion of parts of speech is observed in English more than syntactical and lexical conversions. Syntactical conversion is specially reflects itself in grammatical voice. In the result of lexical conversion a group of synonyms and antonyms are formed in Russian.

Rəyçi: Professor Məsud Mahmudov

ЭЛЬМИРА АХМЕДОВА
Азербайджанский Государственный
Педагогический Университет
elmira shahbazova@ yandex

УПРАЖНЕНИЯ, ГОТОВЯЩИЕ К МОНОЛОГИЧЕСКОЙ УСТНОЙ РЕЧИ (САМОСТОЯТЕЛЬНОМУ ВЫСКАЗЫВАНИЮ)

Açar sözlər: dialoq, tapşırıq, şifahi, tələbə, fərdi, termin, monoloq, çavab, dil.
Ключевые слова: диалог, упражнения, устная, студент, самостоятельно, термин, монолог, ответ, язык.
Key words: dioloq, exercises, vral, student, individual, termin, monoloq, ansver, anguage

Задача рече – подготовительных упражнений – усвоение материала, поэтому эти упражнения могут иметь как форму связного высказывания (монологической речи), так и диалогов. Для речевых упражнений форма высказывания имеет решающее значение; от этого зависит, будут ли предлагаемые упражнения учить монологической или диалогической речи. Наши подготовительные упражнения содержат элементы (иногда весьма существенные), которые приближают их к речевым упражнениям; с другой стороны, как это будет видно из дальнейшего изложения, каждое речевое упражнение подготавливает последующее и является действенным фактором в закреплении языкового материала.

Возьмем, например, любое упражнение в самостоятельном высказывании с помощью или с обязательным включением ряда ключевых слов. Такое упражнение стоит на грани между подготовительным и речевым: поскольку внимание говорящего обращено на содержание выступления, на саму фабулу, описание действующих лиц и т.д., упражнение – речевое. Но одновременно перед студентом – список обязательных слов, и его внимание частично должно быть обращено на эти слова во время оформления высказывания, и поэтому такое упражнение следует отнести к подготовительным.

Таким образом, терминами «подготовительные» и «речевые» здесь определяются ведущие, главные, преобладающие задачи упражнений.

Эти термины не являются взаимоисключающими, так как в подготовительных упражнениях могут быть элементы речевого характера и, наоборот, в речевых упражнениях могут сохраняться элементы подготовительной работы, правда, они будут носить подчиненный характер.

Следует также различать термины «монологическая устная речь» применительно к данной работе и «монолог», как он обычно понимается при разборе художественного сценического произведения. Слово «монологическая» в нашем понимании характеризует речь, которая не предполагает ответной речевой реакции. Такая речь противопоставляется выступлению в диалоге; поэтому для рабочих целей даже это отрицательное определение характера речевой деятельности может считаться достаточным. Важно отметить, что в этом определении нет обязательных количественных показателей. Это значит, что

любое выступление студента, даже если оно состоит всего из одного предложения, будет рассматриваться как монологическая речь, если не предполагается устной ответной реакции слушающего. С другой стороны, любое выступление, даже если оно состоит из большого количества фраз и не прерывается, будет считаться элементом диалога, если оно рассчитано на устную ответную реакцию. Например, если на вопрос товарища:

How did you lake the book? –

студент отвечает:

l didn□t like it very much. The people in the book are very good or very bad. But the best writers show good people who have something bad in them, and bad people who have something good. And they are more interesting, because they are more real, это выступление следует считать частью диалога. С точки зрения задач учителя разница между монологической и диалогической речью состоит в том, что в случае диалога надо готовить студентов к ответной реакции и воспитывать в них осознание необходимости давать собеседнику стимул, на который тот будет реагировать. Однако нельзя не видеть, что такое выступление студента в диалоге может мало или совсем не отличаться своим содержанием и языковыми средствами выражения от самостоятельного монологического высказывания. Поэтому здесь и дальше следует понимать термин «монологическая речь» не как определение смыслового или языкового содержания выступления студентов; этот термин будет относиться к методике обучения данному речевому умению, к задачам, стоящим перед педагогом и студентом, которые необходимо выполнить, чтобы студенты приобрели умение логически выражать свои мысли. Таким образом, упражнения в монологической устной речи направлены на комбинирование известных студентам языковых элементов в самостоятельное логически оформленное высказывание по установленной педагогом и учебником теме. Само собой разумеется, что степень самостоятельности в подобных упражнениях, как и сложность содержания и богатство языковых средств, должны постепенно возрастать. Следовательно, наша задача здесь состоит в том, чтобы предложить такую серию приемов, которая бы обеспечила этот постоянный постепенный рост умений в экспрессивной устной речи.

Первая группа упражнений направлена на развитие умение употреблять разные речевые образцы при выступлении по заданной теме. Педагог говорит: Let□s speak about football. I□ ll begin a sentence and you will continue. Затем он устанавливает последовательность речевых образцов, по очереди вызывая студентов.

I like …

I can …

I often go …

All my friends …

On Sunday …

I want to learn …

Далее преподаватель говорит: Let□s speak about chess. I□ ll begin a sentence and you will continue- и снова дает обрацы:

I like …
I can …
My friend and I often „,
He comes …
Sometimes, my father …

После этого педагог предлагает поговорить, например, о студенческом дворе и дает следующие речевые образцы:

We have …
After school we often…
In summer…
In winter…
On Sundays we don□ t

Эти же или большинство из этих речевых образцов педагог может использовать, обучая выступлению на темы: «In the Park», «By the River», «In the forest».

Педагог учитывает не только необходимые речевые образцы необходимость разнообразить их речи, но и необходимые для данной темы грамматические явления. Например, когда речь идет о семье, очевидно потребуются фразы, включающие имена существительные в притяжательном падеже. Поэтому они должны быть включены в серию речевых образцов, которые предлагает педагог. Let□ s speak about your friend□s family – говорит педагог и дает серию образцов:

My friend□s family is …
He has …
Their flat is …
His mother□s room is …
My friend often asks me …
We do our homework …

Высказывания студентов будут короткими, как это видно из списков речевых образцов, представленных в упражнениях. Структура высказывания, т.е. последовательность образцов, должна быть ясна студентам, с тем чтобы они могли впоследствии использовать как сами образцы, так и схему (их очередность) при самостоятельном высказывании на аналогичную тему. Можно подготовить несколько высказываний по теме. Так, предложив студентам приведенные выше речевые образцы по теме «Семья», педагог вслед за этим может дать другую группу образцов по той же теме:

My friend□s family is …
He has …
They live …
His father works …
His mother …
My friend□s father gets up …
When he comes home …

Ясно, что многие из предложенных педагогом фраз могут быть закончены по-разному, и студентам надо дать возможность использовать все варианты, которые они могут придумать. Когда после проделанной подготовитель-

ной работы педагог предложит рассказать, например, о семье, высказывания будут так или иначе отличаться одно от другого. Именно в этом их достоинство, так как целью данного упражнения является не заучивание приготовленного педагогом сочинения, а составление собственного языковыми средствами, имеющимися в распоряжении студентов на данной ступени обучения. Чем больше различных вариантов предложат студентам, тем больше у них будет практики в использовании разученных ранее речевых образцов, в варьировании этих образцов в своем высказывании.

Опытный преподаватель сразу заметит разницу между описанным видом упражнений по теме и вопросоответными упражнениями по теме. Предлагая вниманию студентов вопросы, на которые они должны ответить, например:

Is your family large?

Have you a sister or a brother?

Where does your father work?

После первой серии упражнений на дополнение речевых образцов можно дать студентам задание: Give a sentence that is logically connected with my sentence – и одно из таких предложений:

I lake to play volley-ball.

We don□t play volley-ball in the school-yard on Sunday.

We can□t play volley-ball in the yard in winter.

My friend Ann plays volley-ball in the school team.

Volley-ball isn□t an easy game.

После каждого из этих студентов говорят свое предложение, которое логически продолжает сказанное педагогом. Так, после первого предложения I lake to play volley-ball студенты могут сказать:

I often play volley-ball in the school-yard.

I don□t play volley-ball very well.

I often play volley-ball with my friends after school.

За предложением педагога We don□t play volley-ball in the school-yard on Sunday могли бы последовать такие предложения:

We go to the park on Sunday.

We play in the yard at home.

I sometimes watch a volley-ball game on TV.

Это упражнение целесообразно выполнять применительно к каждой теме, указанной в программе. Педагог может составить такие предложения по теме «На уроке английского языка»:

We usually speak at the beginning of our lesson.

Sometimes the teacher asks us questions.

We don□t write on the blackboard very often.

We haven□t many pupils on our class.

We don□t have English lessons every day.

When the lesson is over, we all stand up.

По теме «Моя семья» можно использовать следующие предложения:

My father gets up very early.

My brother goes to work by tram.

We don□t have dinner together.

Sometimes we are all home in the evening.

I usually go to bed first.

Выполняя такое упражнение в первый раз, студенты не повторяют предложение, сказанное педагогом, так как все их внимание должно быть сосредоточено на смысловом содержании их собственных дополняющих предложений. При повторном предложении упражнения студентов можно просить вначале повторить предложение педагога, а затем тут же добавить свое. Такая работа поможет студентам впоследствии их высказывании по темам.

Педагог напоминает. Что студенты должны сказать не только два логически связанных между собой предложения, но и использовать для этого разные речевые образцы. Поэтому, если первое предложение, сказанное студентом, будет I see a window, то следующим не может быть I see flowers in front of it. Хотя второе предложение с точки зрения грамматики абсолютно правильно и в качестве рече-подготовительного упражнения было бы вполне допустимым, в данном случае, т.е. на ступени упражнений в речи, уже следует настаивать на том, чтобы второе предложение, следующее за предложением I see a window, не начиналось с тех же самых слов. Второе предложение должно быть связано со словом window, так как требуется сказать два логически связанных между собой предложения, чтобы в основу второго предложения был положен другой речевой образец. Возможны такие предложения:

The window is big and bright.

I don□t sit near the window.

There are flowers in front of it.

The teacher□s desk is at the window.

Мы говорили об обучении устной речи на основе речевых образцов без применения картинной наглядности. Мы пытались показать разницу между использованием образцов для достижения скоростной реакции и использованием различных образцов для умения составлять логически связанное высказывание по теме. В последнем случае стимул для высказывания был словесный: студентам предлагали рассказать о своей семье, о школе, о спорте и т.д. Такие указания являются одним из лучших известных в методике обучения иностранному языку способов создания речевой ситуации.

Литература

1. О.Д.Мешков, Словообразование современного английского языка. 1967
2. Р.Н.Разумовская, Н.Л.Гершевич, Е.М.Лебединская, Трудности изучения анлгийского языка, 1976
3. Г.М.Уайзер, А.Д.Климентенко, Развитие устной речи на аглийском языке, 1972

Elmira Əhmədova

Tələbələrin şifahi nitqinin monoloq şəklində hazırlayan tapşırıqlar
(individial ifadələr)

Xülasə

Hazırki məqalə, tələbələrin şifahi nitq bacarığını inkişaf etdirməyə hazırlayan tapşırıqlardan ibarətdir ki, o da nitqin məzmunu haqqında fikirləşməyə imkan yaradır.

Tapşırıqlar ingilis dilində monoloq və dialoq şəklində nitqin bərpasına imkan yaradır.Şübhəsiz, tapşırıqların müxtəlif formalarda verilməsi tələbələrə nitq bacarığının qavramasına kömək edir.

Elmira Ahmadova

Exercises, preparing to oral monolog speaking
(individual expression)

Summary

We considered article is dedicated to exercises which are developing oral skills, make keep maintenance in oral speech. Exercises will helps restore monolog and dialog speaking in English language.

Undoubtedly, variety of exercises helps students reach oral knowledge.

Rəyçi: Dosent Səkinə Vəliyeva

AYNURƏ ƏMİROVA
ADU
a.amirova@gmail.com

İNGİLİS DİLİNDƏ ZOONİMLƏRLƏ İŞLƏNƏN ATALAR SÖZLƏRİNİN TƏSİRLİ VASİTƏLƏRİ

Açar sözlər: zoonimlərlə işlənən atalar sözləri, təsirli vasitələr, leksik təsvir vasitələri, sözlərin məzmunu, sabit asılı komponentli atalar sözləri
Ключевые слова: пословицы с зоонимическим составом, эффективные средства, лексические средства описания, содержание слов, пословицы с устойчиво-зависимым компонентом
Key words: proverbs with zoonymy, effective means, lexical means of description, context of words, proverbs with fixed dependent component.

Zoonimlərlə işlənən atalar sözləri frazeologiyanın tərkibinə daxil olan mübahisəli məsələlərdən biridir və dilçilik ədəbiyyatında geniş işıqlandırılmayıb. Atalar sözləri cümləyə onun bir üzvü kimi daxil olan birləşmələr olmayıb, sadə və ya mürəkkəb olan bütöv cümlələrdir.

Məsələn: fine feathers make fine birds≅gözəllik ondur, doqquzu dondur

he must have iron nails that scratches a bear≅
xanla dost olanın darvazası gen gərək

Zoonimlərlə işlənən atalar sözlərinin təsirli vasitələri onların mənasını daha parlaq təqdim etməyə imkan yaradır.

Ən əsas leksik təsvir vasitələri təkrarlar və qarşılaşdırmalar (antonimlər) hesab olunur.

Təkrarlar gücləndirmə funksiyasını daşıyır. Təkrarlanan leksemlər adətən yanaşı durmur. Bunların müxtəlif növləri var – birinci, ikinci, üçüncü və dördüncü yerdə duran leksemlərin təkrarı.

Məsələn: love me, love my dog≅itə hörmət edərlər, yiyəsi xatirinə

if two men ride a horse, one must ride behind≅biri od olanda o biri su olar

Qarşılaşdırmanı iki qrupa ayırmaq olar:

Antonimik qarşılaşdırma – verilmiş atalar sözlərindən kənarda da antonim olan leksemlərin qarşılaşdırılmasıdır. Belə qarşılaşdırmalar müqayisəli atalar sözlərində daha geniş işlənir.

Məsələn: little pigeons can carry great messages≅
bambalaca boyu var, dam dolusu toyu var

a good horse cannot be of bad colour≅yaxşı at yerişindən bilinər

a black hen lays a white egg≅ağ ayranı itə tökərlər, qara kişmişi cibə

Atalar sözlərindən kənarda antonim olmayan leksemlərin qarşılaşdırılması da mümkündür.

Məsələn: a bird in the hand is worth two in the bush≅
sərçə olsun, əlimdə olsun, göydə uçan qazı neylərəm?!;
soğan olsun, nağd olsun

Belə qarşılaşdırmalara müqayisəli atalar sözlərində də rast gəlmək olar.

Məsələn: better an egg today than a hen tomorrow≅
bu günkü öfkə sabahkı quyruqdan yaxşıdır; soğan olsun nağd olsun

better to live one day as a lion than hundred years as a sheep≅
bir gün azad yaşamaq qırx il qul kimi yaşamaqdan yaxşıdır

better be the head of a dog than the tail of the lion≅
qardaşın kiçiyi olmaqdansa, donuzun boyuyu olmaq yaxşıdır

İngilis dilində heyvan adları ilə işlənən atalar sözlərinin işlənmə yolunu, təbiətini və məzmununu, həyatın və insan təcrübəsinin hansı tərəflərini əks etdirməsinin tədqiqi çox maraqlıdır. Bunların ingilis və ya xarici mənşəli olmasından asılı olmayaraq, onların böyük əksəriyyəti öz əvvəlini, kökünü xalq danışığından götürür. Onların daxili məzmunu insanların həyatını və onun təzahür formalarını əks etdirir. Atalar sözlərində insanlar arasında olan münasibətlər, bir-biri ilə maraqlanan insanların hissləri və onlar haqqında təsəvvürləri, dostluq, düşmənçilik və s. əks olunur.

İngilis atalar sözlərində yumor çox, romantika və gözəllik isə azdır. Belə ki, "one swallow does not make a summer" və bu kimi poetik ifadələr hələ də özündə xarici mənşə izlərini saxlayır. İngilis idiomlarının məzmununu real dünya hadisələri və sağlam düşüncə təşkil edir. Diqqət mərkəzində müvəffəqiyyət və pul durur.

Məsələn: money makes the mare go≅pul kəsəni qılınc da kəsməz

Atalar sözləri arasında ən çoxsaylı və ifadəli qrupu ingilislərin qətiyyət və inadkarlıq kimi milli xarakter xüsusiyyətlərini əks etdirən atalar sözləri təşkil edir.

Məsələn: that cock won't fight≅bu kələk baştutmaz; keçəl suya getməz

I will either win the saddle or lose the horse≅ya xələf olaram, ya tələf

Maraqlı məqamlardan biri odur ki, zoonimlərlə işlənən atalar sözlərinin əsas məzmununu insanları daha çox maraqlandıran – onların bir-birinə olan münasibəti təşkil edir.

Atalar sözlərinin çoxu dostluğa həsr olunub:

Məsələn: he that lies down with dogs must rise up with fleas≅
atı-atın yanına bağlasan, həmrəng olmasa da həmxasiyyət olar

he who scrubs every pig he sees will not long be clean himself≅
qarğaya qoşulan peyinə bulaşar; atı-atın yanına bağlasan,
həmrəng olmasa da həmxasiyyət olar

Xoş məram və hissləri ifadə edən atalar sözləri düşmənçilik, xainlik, paxıllıq ifadə edən atalar sözləri kimi ifadəli və təsirli deyil.

Məsələn: dog eats dog≅insan insanın qənimidir;
adam adamın rəhmanı, adam adamın şeytanı

"the grapes are sour" as the fox said when he could not reach them≅
pişiyin ağzı ətə çatmayanda, deyər: iy verir!

though thy enemy sees a mouse, yet watch him like a lion≅

düşmən qarışqa olsa da, sən onu şir say

Əsasən insanların iki xüsusiyyəti tənqidə və mühakiməyə tuş gəlir. Bunlardan birincisi-cahillik, nadanlıq, ikincisi isə lovğalıqdır.

Məsələn: never offer to teach fish to swim≅
bu ilki sərçə bildirkinə cik-cik öyrədir.

the crow thinks her own bird fairest≅
hər kəsin qarğası özünə bir qırğıdır

the cat shuts its eyes while it steals cream≅
qırqovul başını salıb kola, quyruğundan xəbəri yoxdur

İngilis atalar sözlərinə yumor və həyati müdriklik xasdır; onların çoxu inad-karlıq, məzəmmət, mühakimə, qəzəb ifadə etdiyi üçün ingilis atalar sözlərinin sərtli-yində milli xarakterin ifadə olunmasını hesab etmək düzgün olmazdı.

Atalar sözlərində həmçinin axmaq və səfeh adamlar ələ salınır.

Məsələn: it is a silly fish that is caught twice with the same bait≅
ağılsız o kəsdir ki, bir səhvə iki dəfə yol verir

all asses wag their ears≅səfeh həmişə özünü ağıllı göstərər

jest with an ass and he'll flap you in the face with his tail≅
dəliyə yer ver, əlinə bel ver;
dəliyə dəymə, başına daş yağdırar

Tənbəllər ələ salınır.

Məsələn: nothing falls into the mouth of a sleeping fox≅
yatan aparmaz, yetən aparar

one beats the bush and another catches the bird≅
biri işləyir, o biri dışləyir; kim qazanar, kim yeyər;
əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş

Atalar sözləri zəhmətkeşliyə çağırır.

Məsələn: the cat would eat fish and would not wet her feet≅
könlü balıq istəyənin quyruğu suda gərək

no bees, no honey, no work, no money≅işləməyən dişləməz

sitting on a camel you cannot mow grass≅
halva-halva deməklə ağız şirin olmaz

venture a small fish to catch a great one≅
bir buğda əkməsən, min buğda biçməzsən

Ağıl, əxlaq, müdriklik də öz əksini atalar sözlərində tapır.

Məsələn: a bird may known by its song≅aslan yatışından bilinər

never look a gift horse in the mouth≅
bəy verən atın dişinə baxmazlar

Həmçinin hiyləgərlik, yalançılıq və yaltaqlıq pislənir.

Məsələn: dumb dogs are dangerous ≅suyun lal axanı, adamın yerə baxanı

an old fox is not easily snared≅
qoca tülkü hələm-hələm tələyə düşməz

hares may pull dead lions by the beard≅
ölü pişiyin üstündən siçan da keçər; at ölüb, itlərin bayramıdır

İngilis atalar sözləri üçün tərkib hissələrinin asılılığının sabit və sabit-variativ tipi xarakterikdir. Atalar sözlərində sabit-dəyişkən asılılıq və sabit-variativ asılılığa rast gəlinmir.

Sabit asılı komponentli atalar sözləri daha geniş yayılmışdır. Bu tip atalar sözlərinə təmamilə yenidən mənalandırma xasdır. Belə atalar sözlərinə misal olaraq aşağıdakıları göstərmək olar:

Məsələn: if you run after two hares, you will catch neither≅
bir əldə iki qarpız tutmaq olmaz; çox istəyən azdan da olar

as the old cock crows, so doth the young≅
ana gəzən ağacı, bala budaq-budaq gəzər

the scalded cat fears cold water≅
ağzı süddə yanan, suyu da üfləyib içər;
ilan vuran ala çatıdan qorxar

Atalar sözlərinin xarakterik xüsusiyyəti onların birmənalılığıdır. İngilis dilində çoxmənalı atalar sözü yoxdur.

Sabit asılı komponentli atalar sözlərindən başqa variant olan atalar sözləri də var. Lakin, əmələ gələn variantlar getdikcə itmək xüsusiyyətinə malikdir.

Məsələn: fine (fair-köhnə) feathers make fine birds(fair fowls-köhnə)≅
gözəllik ondur, doqquzu dondur

Zoonimlərlə işlənən atalar sözlərində leksik, qrammatik, kvantitativ, leksik-kvantitativ və leksik-qrammatik variant tipləri mövcuddur.

Leksik variant misal olaraq aşağıdakı atalar sözlərini göstərmək olar:

Məsələn: rats desert (leave və ya forsake) a sinking ship≅
yıxılan ağaca balta vurmazlar

he that lies down(sleeps)with dogs must rise up with fleas≅
it ilə yatan, bit ilə qalxar; qarğaya qoşulan peyinə bulaşar

Kvantitativ variantlı atalar sözlərinin komponentləri qısaldılmış formada işlənir.

Məsələn: first catch your hare then cook it (=first catch your hare)≅
toxumu gətir, sonar yer axtar

a bird in the hand is worth two in the bush(=a bird in the bush)≅
sərçə olsun, əlimdə olsun, göydə uçan qazı neylərəm;
soğan olsun, nağd olsun

birds of feather flock together (=birds of feather)≅
su axar çuxurunu tapar

İngilis atalar sözlərində həmçinin birləşdirilmiş variantlığa rast gəlmək olar. Birləşdirilmiş variantlar da leksik-qrammatik və kvantitativ-leksik variantlara ayrılır. Leksik variantlar ən çox yayılmış variantlardır.

Birstrukturlu variantlar leksik-qrammatik variantın tərkib hissəsini təşkil edir.

Məsələn: crows do not pick crow's eyes out =

hawks will not pick hawk's eyes out≅
it itin quyruğunu basmaz

Müxtəlif strukturlu variantlar da leksik-qrammatik varianta daxildir.

Məsələn: it is a small flock that has not a black sheep(=there is a black sheep in every flock)≅meşə çaqqalsız olmaz
the early bird catches the worm
(= it's the early bird that catches the worm)≅
tez duranla tez evlənən uduzmaz
lock the barn after the horse is stolen
(=lock the stable door after the horse is stolen)≅
aş daşandan sonra qaşıq axtarma; sonrakı peşmançılıq fayda verməz

Yuxarıda göstərilmiş bütün misallarda leksik-sintaktik variantlıq müşahidə olunur.

Müxtəlif strukturlu variantlarda cümlənin tipinin dəyişməsi mümkündür.

what does the moon care if the dogs bark at her?
(= the moon does not heed the barking of dogs)≅it hürər, karvan keçər

İngilis dilində zoonimlərlə işlənən atalar sözlərinin komponentlərindən biri və ya bir neçəsi müxtəlif heyvan adları ilə ifadə olunur. Bunlardan isə ən çox istifadə olunan "dog" və "horse" sözləridir.

- beware a silent dog and still water≅
- suyun lal axanı, adamın yerə baxanı

- an old dog will learn no new tricks≅
- qoca öküzü öldürmək olar, öyrətmək olmaz

- every dog has his day≅
- bizim küçədə də bayram olar; hər aşığın öz dövranı var

- the dogs bark, but the caravan goes on≅it hürər, karvan keçər

- you can take the horse to the water, but you cannot make him drink≅
zorla məhəbbət, bəzənməklə gözəllik olmaz

- when two ride on one horse, one must sit behind≅
- biri od olanda, o biri su olmalıdır

Yuxarıda misal göstərilən atalar sözlərindən əlavə digər ev heyvanları – "cow", "cat", "sheep" və "pig, swine" sözləri ilə işlənən atalar sözləri də mövcuddur.

Tərkibində"cow" sözü olan atalar sözləri:

many a good cow has a bad calf≅oddan kül törəyər

- if your agree to carry a calf, they'll make you carry the cow≅üz verərsən, astar da istərlər

- the cow knows not what her tail is worth until she has lost it≅
pisi görməsən yaxşını qədrini bilməzsən

"Cat" sözü ilə işlənən atalar sözləri:

- a cat may look at a king≅göz baxmaq üçün verilib

- care killed a cat≅fikir insanı qocaldar

- a cat in gloves catches no mice≅işləməyən dişləməz; zəhmətsiz bar olmaz

"Sheep" sözü ilə işlənən atalar sözləri:

- one scabbed sheep infects the whole flock≅bir dana bir naxırı korlar

- the lone sheep is in danger of the wolf≅sürüdən ayrılan qoyunu qurd yeyər

"Pig" və "swine" sözləri ilə işlənən atalar sözləri:

- the worst pig often gets best pear≅armudun yaxşısını meşədə ayı yeyər

- what do you expect from a pig but a grunt≅eşşəkdən nə qanacaq umursan; abırlı abrından çəkinər, abırsız nədən çəkinər?

- little pigs have long ears≅uşağın yanında hər sözü danışma

- pearls are ill valued by hungry swine≅zər qədrini zərgər bilər; eşşək nə qanır "zəfəran" nədir?

Atalar sözlərində həmçinin "bird" sözü və müxtəlif quş adları işlənir:

- a little bird told me≅qulaq gündə bir söz eşitməsə kar olar

- the hungry hen dreams she is a barley barn≅ac toyuq yuxuda darı görər

- you haven't eaten the goose's meat, so you don't know how it tastes≅ yeməmisən qaz ətini, görməmisən ləzzətini

- an empty hand is no lure for a hawk≅boş tələyə ov düşməz;
- boş torba ilə at tutulmaz

Tərkibində "fish" sözü olan atalar sözləri də ingilis dilində çoxluq təşkil edir:

- all is fish that comes to his net≅balığın nə irisi, nə xırdası

- the great fish eat up a small≅gücsüzlər həmişə güclüyə yem olur

- never fry a fish till it's caught≅cücəni payızda sayarlar;
- ayını öldürməmiş dərisini satma.

Göstərilən misallarda heyvan adları ilə işlənən atalar sözlərinin öz məzmununa görə rəngarəng olması və xalqın həyatının bütün tərəflərini əhatə etməsi çox aydın nəzərə çarpır.

Ədəbiyyat

1. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. – Bakı, 1978
2.Кунин А.В. Англо–русский фразеологический словарь. - М.,1984
3. Амосова Н.Н. Основы английской фразеологии. - М.,1963
4. Смит Л.П. Фразеология английского языка. - М.,1959
5. Alekhina A. Idiomatic English .- M.,1982
6. http://www.ranez.ru/article/id/391
7. http://window.edu.ru/window_catalog/files/r59379/m07-36
8. http://www.phrasefinder.co.uk/sample-search/index.html
9. http://cogweb.ucla.edu/Discourse/Proverbs

A.Amirova

Effective means of proverbs with zoonymy in English

Summary

This article is about the effective means of proverbs with zoonymy in English. Here is spoken about the lexical means of description of such proverbs and given the corresponding examples to them. Furthermore, the author analyzes the fixed and fixed-varied type of components of proverbs and comes to conclusion that the proverbs with fixed dependable components are widely used in English and the characteristic feature of such kind of proverbs is giving the brand new meaning to them. Lexical, grammatical, quantitative, lexical-quantitative and lexical-grammatical variant types of proverbs with zoonymy are also mentioned in the article. In conclusion, it becomes obvious that the proverbs with zoonymy are various in their context and covers all spheres of life.

А.Амирова

Эффективные средства пословиц с зоонимическим составом в английском языке

Резюме

Эта статья посвящена изучению эффективных средств пословиц с зоонимическим составом в английском языке. В статье указаны лексические средства описания таких пословиц и приведены соответственные примеры к ним. Более того, автор анализирует в статье устойчивые и устойчиво-вариативные компоненты пословиц и приходит к выводу, что пословицы с устойчиво-зависимыми компонентами широко употребляются в английском языке и предоставление абсолютно нового значения характерно для них. В статье также обсуждаются типы лексических, грамматических, квантитативных, лексических квантитативных и лексических грамматических вариантов пословиц с зоонимическим составом. В результате выявлено, что эти пословицы имеют большое разнообразие содержания и охватывает все аспекты жизни людей.

Rəyçi: Salman Nuriyev
filologiya elmləri namizədi, dosent

GÜLYAZ ZEYNALLI
ADU
gulyaz.zeynallı@gmail.com

MÜASİR İNGİLİS DİLİNDƏ NƏTİCƏ ƏLAQƏLİ MÜRƏKKƏB CÜMLƏLƏR

Açar sözlər: kauzal, funksional-semantik kateqoriya, korelyativ cütlük.
Key words: causal, functional-semantic category, correlative pair.
Ключевые слова: каузальный, функционально-семантическая категория, коррелятивная пара.

Kauzallıq problemi Demokrit, Aristotel, Platon kimi antik filosofları hələ lap qədim zamanlardan maraqlandırmışdır.Bu filosoflar tərəfindən "səbəb" fəlsəfi kateqoriya olaraq obyektiv aləmdə hadisələrin inkişafında genetik əlaqə kimi xarakterizə edilir.Bu, o deməkdir ki, bir hadisə (səbəb) digər bir hadisəni (nəticə) doğurur.Səbəb və nəticə bir- birindən ayrılmazdır.Belə ki, hər bir səbəbin nəticəsi, hər bir nəticənin bir səbəbi vardır.Bu proses linqvistikada da özünü doğruldur.

Struktur- semantik yanaşma ilə həyata keçirilən linqvistik tədqiqat cümlənin semantikasından çox onun quruluşuna əsaslanır.Cümlə strukturunun öyrənilməsində N.S.Pospelovun səbəb-nəticə əlaqəli tabeli mürəkkəb cümlələrin baş və budaq cümləsi arasında əlaqəni tədqiq etməsi xüsusi maraq kəsb edir. O yazır: ".....həm səbəb budaq cümləli tabeli mürəkkəb cümlələr, həm də nəticə budaq cümləli tabeli mürəkkəb cümlələr məhz mürəkkəb cümlənin eyni struktur- semantik növünün korelyatlarıdır." Müəllif qeyd edir ki, səbəb və nəticə budaq cümləli tabeli mürəkkəb cümlələr aşağıdakı quruluşda ola bilər: 1) baş cümlə səbəb bildirərsə, budaq cümlə nəticə, baş cümlə nəticə bildirərsə, budaq cümlə səbəb mənasını ifadə edir.

He was praised, as he sang well.
He sang so well that he was praised.

Sinsematik budaq cümləli tabeli mürəkkəb cümlələrin əsas məqsədi rematik funksiya daşıyan budaq cümlədə nəticə bildirməkdir.Səbəb informasiyası daşıyan baş cümlə isə müvafiq şəkildə tematik yükü öz üzərinə götürür.

A.B. Bondarkonun sahələr nəzəriyyəsində deyilir: " ....xüsusi formalar sistemində morfoloji ifadəni əldə edərək, anlam kateqoriyası qrammatik kateqoriyaya çevrilir. O, məhz söhbətin həm məzmun, həm də ifadəyə əsaslanan dil hadisəsindən getdiyini vurğulamaq üçün funksional-semantik kateqoriya (FSK) adlı termindən istifadə edir. FSK digər səviyyə elementlərinin qrammatik kateqoriyalarla funksional əlaqəsini nəzərdə tutur. FSK ümumi kateqoriya daxilində mikrosahələrin əlaqəsindən yaranan sahəni xatırladır. Funksional semantik sahə (FSS) isə qrammatik kateqoriya olaraq nüvəni təşkil edir. Nəticə kateqoriyasının FSS nüvəsi nəticə budaq cümlələri olduğu halda, FSS –nin periferik sərhəddində nəticə mənalı müxtəlif tipli budaq cümlələr mövcuddur. Nəticə əlaqəli budaq cümlələrin ontologiyasına nəzər salaq. Əslində səbəb-nəticə əlaqəsi çox mürəkkəb əlaqə olaraq, məqsəd, güzəşt, şərt, zaman budaq cümlələrində də özünü biruzə verir. Səbəb və nəticə əlaqələri birbiri ilə sıx bağlı olduğuna görə səbəb əlaqəsi müəyyənləşdirildikdən sonra nəticə haqqında dəqiq bir fikir söylənilə bilər.Heç də bütün ontoloji mühakimələr eksplisit

olmaya da bilər. Belə ki, informasiyanın böyük həcmi implisit halda qalır, yəni danışanın şüurunda qalaraq presuppozisiya yaradır.İngilis dilinin akademik qrammatikasında əbəs yerə nəticə budaq cümləli tabeli mürəkkəb cümlələri *result clauses* və *effect clauses* adlanan iki qrupa ayırmırlar.Məsələ burasındadır ki, nəticə (result) hər hansı arzuedilən və ya gözlənilən hərəkətin (yəni subyektiv səbəbin) yekunu, nəticə (effect) isə təsadüfi hərəkətin və ya hadisənin (obyektiv səbəbin) yekunu kimi izah olunur.

Səbəb-nəticə əlaqəsi bildirən dil strukturunda fəlsəfi, məntiqi və dil kateqoriyalarının birləşdiyini əsas tutaraq kauzal kateqoriyanın presuppozisiyasının tərkibini aşağıdakı kimi görmək olar:

1. Kauzal korelyasiyanın komponentlərinin mühümlüyü. Səbəb və nəticə əlaqələrinin bir-birilə kauzal implikasiya vasitəsilə bağlanmasına baxmayaraq, onlar bir-birindən ayrı dil hadisəsi kimidir. Bu, kauzal kateqoriyanın korelyativ cütlüyü vasitəsilə ifadə olunur. (A ⊥ B)

(A) səbəb bildirdiyi halda (B) nəticə göstərir.

You were so strange the other day (A) *that I wondered if I did something to offend you*.(B) *(Fitzgerald,247)*

2. Genetiklik. Yəni nəticə səbəbin genetik hərəkətinin yekunu kimi verilir.Səbəb və nəticə əlaqələrinin genetik planda tədqiqi kauzal implikasiyada korelyatların (A ⊥ B) aşağıdakı semantik əlamətlərə xas olduğunu göstərir.

(A) Törədən hadisə (B) Törənmiş hadisə

He wanted to arrange a foursome,but there was no one available(A), *so I saw him only at meals.(*B) *(Fitzgerald, 133)*

3. Zaman baxımından bütün hallarda səbəb nəticəni qabaqlayır.

(A) Öncə gələn hadisə (B) Sonrakı hadisə

I had a few bad moments (B) *because she arrived almost two months ahead of schedule.(*A)

Səbəb-nəticə budaq cümləli tabeli mürəkkəb cümlələrin hər iki komponentində xəbər bir qayda olaraq felin xəbər şəkli ilə ifadə olunur. Araşdırmalar sübut edir ki, bu cümlələrdə ən çox keçmiş zaman istifadə olunur. Məsələn,

As she had no ideas of distance or steamboats, her notions were somewhat erroneous.(R.Kipling, 162)

Tabeli mürəkkəb cümlə daxilində həm baş, həm də budaq cümlənin xəbəri eyni zamanla ifadə olunsa da, əksər hallarda nəticə səbəbi izləyir.Tabeli mürəkkəb cümlə komponentlərində xəbər müxtəlif zaman formaları ilə ifadə olunduqda belə, səbəb və nəticə mənalarının ardıcıllığının şahidi oluruq. Məsələn,

He cannot give a definite answer, because they parted long ago.

4. Məna əlaqəsi. Səbəb-nəticə əlaqəsi məntiqi əlaqəyə əsaslanır, yəni əgər A varsa, onda B də var.

(A) Səbəb olan hadisə (B) Şərtləndirilən hadisə

I have certain things I wouldn't do (A), *because they wouldn't please my class, my family. (*B) *(Fitzgerald, 160)*

Kauzal korelyasiyanın komponentləri semantik planda B-ni differensial əlamətlərin kompleksi kimi qəbul edir.

B mütləqdir, törənmişdir, sonrakı və şərtləndirilmiş hadisədir. Mürəkkəb cümlələrin ierarxik quruluşu presuppozisiya əlaqələrinin ifadəsinə zəmin yaradır.

Belə ki, mürəkkəb cümlələrdə presuppozisiyanın ifadəsi üçün budaq cümlələrdən istifadə olunur. Səbəb presuppozisiyaları əsasında da nəticə əlaqələrinin paradiqması yaranır. Bu transformasiyanın hər birində səbəb-nəticə mənası qalır, transformasiya isə bağlayıcıların dəyişməsilə baş verir. T paradiqma:

1. T kauz (*because*)
2. T gen. (*consequently*)
3. T temp (*first...then*)
4. T şərt (*if*)

T paradiqmada transformasiyaların bu cür sıralanması B-nin semantik əlamətlərini differensiallaşdırmağa kömək edir.

Tədqiqat obyekti kimi kauzal korelyasiyanın eksplisit markerlərinin (*because, since, as, so that, such that, for, so, therefore, so that)* birinin və ya heç birinin iştirak etmədiyi lakin intuitiv olaraq kauzal korelyasiyanın hər iki komponentinin mövcud olduğu mürəkkəb cümlələri götürmüşük. Bu cümlələrə parataksisdə *and, or,else, otherwise* bağlayıcıları, hipotaksisdə isə *when,if, so that, though* bağlayıcıları ilə bağlanan mürəkkəb cümlələr aid etmişik.

T paradiqmaya görə cümlə dörd transformasiya işləmindən keçməlidir.

Tədqiqat obyekti kimi çoxmənalı *and* bağlayıcılı cümləni götürək.

1. *Then on an instant the lights went out, and she was in complete darkness. (F. Scott Fitzgerald)*

T kauz: (A ⊥ B) - (B *because* A)

T kauz B komponentinin törənmiş hadisə olduğunu göstərir.

She was in complete darkness (B) *because on an instant the lights went out* (A).

2. T gen: (A ⊥ B) --- (A *consequently* B)

Then on an instant the lights went out (A), *consequently she was in complete darkness.*

T gen B komponentinin törənmiş hadisə olduğunu göstərir.

3. T temp: (A ⊥ B) -----(*first* A, *then* B):

First on an instant the lights went out (A) , *then she was in complete darkness*.

T temp B komponentinin növbəti hadisə olduğunu göstərir.

4. T şərt (A ⊥ B) ---- (*if not* A, *not* B)

If on an instant the lights didn't go out (A), she wouldn't be in complete darkness.

T şərt B-nin bir başqa əlamətini, şərtləndirilmiş hadisəni göstərir.

Nəticənin diaqnostik transformasiya paradiqması bizə tabesiz mürəkkəb cümlədə nəticə əlaqəsinin (B) differensial əlamətlərinin kompleksini təyin etməyə kömək etdi. *And* bağlayıcısı ilə bağlanan tabesiz mürəkkəb cümlələr də səbəb-nəticə əlaqəsi bildirdiyindən, demək biz üç tabesiz mürəkkəb cümləni tədqiq edərək, onun T paradiqmasına baxmalıyıq.

1) Then on an instant the lights went out,(A) and she was in complete darkness.(B)

2) Then on an instant the lights went out,(A) so she was in complete darkness.(B)

3) Then on an instant the lights went out,(A) so that she was in complete darkness.(B)

Əgər birinci, ikinci və üçüncü cümlə semantik cəhətdən ekvivalentdirsə, onda onlar nə ilə fərqlənir? T.A.van Deyk mətn praqmatikasında bu sualı belə cavablandırır: " A ⊥ B ifadəsinin üst variantlarının seçimi məhz konkret danışıq kontekstindən yox, sırf ontoloji səviyyədə faktlar və obyektlər arasında əlaqədən yəni bilavasitə semantik fokusdan asılıdır. Bu fokusa tabesiz mürəkkəb cümlələrin komponentləri arasında olan əlaqə də aid edilir.(1,2,3)

And bağlayıcısının semantikası aşağıdakı kimidir. *And* bağlayıcılı tabesiz mürəkkəb cümlənin həqiqi olması üçün, onun hər iki komponentinin həqiqi olması lazımdır. Öz-özlüyündə birinci cümlədə bağlayıcı A və B arasında sıx əlaqəni göstərmir. Buna baxmayaraq o, A və B komponentlərinin bir- biri ilə əlaqələndirilməsinə, müəyyən dərəcədə onların fiziki, psixoloji, məntiqi mümkünlüyünə şərait yaradır. Beləliklə, birinci cümlədə *and* bağlayıcısının işlənməsi A və B komponentlərində verilən faktların şərtləndirilmiş münasibətini ifadə edir. Bu halda fokusda təsvir olunan hərəkətlərin ardıcıllığı durur.İkinci və üçüncü cümlələrdə, göründüyü kimi, semantik fokusda səbəb və səbəb əlaqəsi durur. Bu halda hər iki cümlədə B komponenti ya presuppozisiya, ya da ümumi kontekstdən yaranan təbii nəticədir. So, *so that* bağlayıcıları göstərir ki, onlardan sonra gələn B komponentləri A komponentlərində ifadə olunan fikirlərin mühakiməsidir.İkinci və üçüncü cümlələrin bənzərliyi onunla izah edilir ki, bu cümlələrin hər ikisində eyni ardıcıllıq öz əksini tapır: səbəb, səbəb əlaqəsi, motiv.

Bu cümlələr arasındakı fərq isə faktlarda yox, onlara olan münasibətdə özünü biruzə verir.Nəticədə onu deyə bilərik ki, birinci, ikinci və üçüncü cümlələr həm semantik planda, həm də praqmatikada fərqlənir. O halda birinci,ikinci və üçüncü cümlələrə bir daha nəzər salsaq, görərik ki, "uzaqda işıqların sönməsi" praqmatik qeyri relevantdır.Subyektin qaranlıqda qalması isə relevantdır.(Bəlkə də subyekt bunu istəmirdi.).

İkinci və üçüncü cümlələrdə praqmatik fokusda (A)komponeneti durur.Bu cümlələrdə"subyektin qaranlıqda qalması" hər hansı bir hərəkətin şərti ola bilər.

Beləliklə, nəticə əlaqəli cümlələrin semantik tədqiqi nəticəsində belə bir qənaətə gəldik ki, *so, so that* bağlayıcıları ilə bağlanan budaq cümlələrdə nəticə əlaqəsi öz ilkin funksiyasında olur, yəni adı çəkilən mürəkkəb cümlələr funksional- semantik sahənin nüvəsini təşkil etdiyi halda, *and* bağlayıcılı tabesiz mürəkkəb cümlələr öz ikinci dərəcəli funksiyalarını yerinə yetirərək nəticə əlaqələrinin FSS – nin periferiyasına daxil olur.

Analoji olaraq məqsəd, şərt və güzəşt budaq cümlələrində də nəticə əlaqələrini görə bilərik. Məsələn,

Mrs.Blackett sat down to write the letters at once so that Mrs. Dixon could sign them.

She finished the sewing herself, though she hated sewing.

If you are walking up Victoria Street, I'll come along with you.

A.P.Komarovun qeyd etdiyi kimi, kauzal əlaqə digər növ əlaqələrlə sıx münasibətdədir. Ünsiyyətdə səbəb və şərt, məqsəd, güzəşt mənalarının sərt bölgüsü mövcud deyildir.Yalnız dəqiq elmi, linqvistik araşdırmalardan sonra adi ünsiyyətdə "səbəb" mənasını verən komponent şərt, məqsəd, güzəşt budaq cümləsi də ola

bilər. Beləliklə, müasir ingilis dilində nəticə əlaqəsinin klassik yolla ifadəsi səbəb əlaqəsi bildirən *because, since, as, for*, nəticə əlaqəsi bildirən *so that, such….that, so ….that* bağlayıcıları və *so* dərəcə zərfi vasitəsilə mümkün olduğu halda, biz transformasiya metodu əsasında nəticə əlaqəsinin həmçinin müxtəlif yollarla da ifadəsinin şahidi olduq.

Ədəbiyyat

1. Семантико- синтаксические особенности предложения в романо- германских языках., Ярославль, 1978
2.http://www.dslib.net/germanskie-jazyki/kauzalnye-svjazi-v-anglijskom-slozhnopodchinennom-predlozhenii.html
3. Huddleston R., Pullum G., The Cambridge Grammar of the English Language, - Cambridge, 2003
4. Kipling R., Poems, Short stories, Moscow, 1983
5. F.Scott Fitzgerald, Selected short stories, Moscow, 1979

Gulyaz Zeynalli

The adverbial clauses of consequence in modern english

Summary

The article deals with the adverbial clauses of consequence and result in Modern English. It is also noted that cause stands in a converse relationship with result: if X caused Y, then Y resulted from X, and vice versa.

As a result of logical and semantic analysis of the components of causal correlations, we come into conclusion that in terms of semantics consequence (B) can be represented as a set of distinctive features, as compulsory, generated, conesquential, conditional.

Гюльяз Зейналлы

Сложные предложения выражающие следственные отношения в современном английском языке

Резюме

В статье рассматриваются придаточные предложения следствия. В результате логике-семантического анализа компонентов каузальной корреляции мы приходим к выводу, что в семантическом плане следствие (B) можно представить в виде комплекса дифференциальных признаков, как обязательное, порожденное, последующее, обусловленное событие.

Rəyçi: Elxan Yusifov
filologiya üzrə fəlsəfə doktoru

KƏMALƏ YUSİFOVA
ADU
kamala_kamal@mail.ru

MÜASIR İNGİLİS DİLİNDƏ ƏKS-SƏDA TƏLƏFFÜZÜNƏ DAİR

Açar sözlər: təkrarlayıcı əks-səda sualı, izahedici əks-səda sualı, invariant ayırıcı suallar
Key words: recapitulatory echo questions, explicatory echo questions, invariant tag questions
Ключевы слова: вопросы повторяющиеся, вопросы объяснительные, инвариантные разделительные вопросы

Müasir ingilis dilində əks-səda tələffüzü dedikdə, sual və nida cümlələrində danışanın söylədiyi cümlənin dinləyici tərəfindən tam, yaxud qismən təkrar olunması nəzərdə tutulur. Müasir ingilis dilində əks-səda tələffüzü haqqında dilçilərin fikirləri müxtəlifdir. Deyvid Kristal, Riçard Nordguist, Andru Radford, Jeoffrey Liiç və bir sıra dilçilər demək olar ki, bütün növ cümlələrin əks-səda tələffüzünün olmasını təsdiqləyirlər.Onlar belə hesab edirlər ki, əks-səda tələffüzü söylənilən nitq vahidinin ünsiyyətdəki məqsədinə müvafiq olaraq əks etdirilir. Andru Radford cümlənin ünsiyyətdəki məqsədinə görə heç də dörd deyil, beş növünü ayırd edir. Bu beşinci növ verilən sualı təsdiqləmək funksiyasına malik olan, danışan şəxsin fikrini aydınlaşdırmaq məqsədilə yalnız dialoqda işlənən əks-səda tələffüzüdür. Andru Radfordun fikrincə, söylənilən fikir nəqli cümlə kimi ifadə olunduğu halda onun əks-səda tələffüzü sual cümləsi kimi başlanarsa, bu, heç də əks-səda tələffüzü olmur. Jeoffrey Liiç bu fikirlə razılaşmır. Bizim fikrimizcə, Jeoffrey Liiç haqlıdır. Quruluşca fərqlilik olsa da, məna baxımından əks-səda tələffüzünə xas olan səciyyəvi xüsusiyyətlər cümlədə əks olunursa, onları əks-səda tələffüzü adlandırmaq fikrimizcə, heç də yalnış sayılmaz. Əks-səda ünsiyyətdəki məqsədə müvafiq dəyişə bildiyi üçün o, həm sual, həm də nida cümləsi ola bilər. Əks-səda sualları həm təkrarlayıcı, həm də izahedici olur.Təkrarlayıcı əks-səda sualları ifadə edilən fikrə həm bütövlükdə, həm də onun bir hissəsinə aid olur. Belə sualların ən sadə növü *yes* və ya *no* cavabını tələb edərək qalxan tonla təkrar olunan cümlələrdir.Məsələn,

A: Switch the light off, please. B: Switch the light off?
A: I didn't like that meal. B: You didn't like it?
A: The Browns are emigrating. B: Emigrating?

Danışanın fikrini daha da aydın etmək üçün *"Did you say...?"* cümləsini belə növ sualların əvvəlində işlətmək mümkündür.Bəzən invariant ayırıcı suallar da əlavə olunur: *Switch the light off, did you say?*

Danışanın fikrinin bir hissəsini eşitmədikdə, yaxud anlamadıqda *wh* suallarından istifadə edilir. Məsələn,

A: We're leaving him here. B: What are you doing with him?
A: It cost five dollars. B: How much did it cost?
A: He's a dermatologist. B: What is he?

Belə cümlələrdə *"...did you say?" wh* elementindən dərhal sonra işlənir: *How much did you say it cost?*

Yuxarıdakı cümlələrdən göründüyü kimi, *wh* əks-səda suallarının səciyyəvi intonasiya modeli vardır. *Wh* ilə başlanan sözün qalxan tonla nüvəsi olur. Həmin cümlələrdə *wh* elementi adi *wh* suallarındakı kimi cümlənin əvvəlində işlənir. İnversiya isə *wh* ilə başlanan suallar üçün səciyyəvi olan müntəzəm qaydaya müvafiq olaraq baş verir. *Wh* əks-səda suallarının başqa bir növündə isə nəqli cümlədəki söz sırası saxlanılır.Məsələn,

A: I saw Ted Dawson. B: You saw who?

A: I'll pay for it. B: You'll what?

Əmr cümlələrində də ifadə olunan fikrin bir hissəsinə aydınlıq gətirmək üçün *wh* suallarından istifadə edilir. Məsələn,

A: Switch the light off. B: Switch what off?

What və *who* sual əvəzlikləri əks-səda suallarında məhdudlaşdırılmır, onlar hər hansı bir isim və ya sifətə aid ola bilər. Məsələn,

A: She always wears a quizzical expression. B: She always wears a what expression?

A: His son is a macroengineer. B: His son is a what?

Belə sual növlərində *what* sual əvəzliyi hətta cəmlənərək *–s* şəkilçisini qəbul edə bilər. Məsələn,

A: Astronomers have discovered some more black holes. B: They've discovered some more whats?

What həmçinin cümlədəki felə də aid ola bilər. Məsələn,

A: She sat there and ratiocinated. B: She sat there and whatted?

Təkrarlayıcı əks-səda sualları fikrin təkrarı üçün xahiş kimi səslənsə də, onların istehza, skeptisizm, yaxud sadəcə olaraq danışıqdakı boşluğu doldurmaq üçün olan bir neçə funksiyalarına tez-tez rast gəlinir. Əgər belə cümlələr üzrxahlıqla müşahidə olunmasa, onlar nəzakətsizlik ifadə edir: *Sorry, what was his job?*

Ümumiləşdirilmiş təkrarlayıcı *wh* elementli *"What did you say?"* sualı bəzən yalnız *what* sual əvəzliyi ilə ifadə olunur. Belə halda *what* heç də nəzakətli səslənmir, amma dostlar arasında onun işlənməsi adi bir haldır.

What sual əvəzliyi isə bütövlükdə skeptisizm ifadə edə bilər. Məsələn,

A: I paid $ 2000 for that picture. B: What? You must be mad.

Əks-səda sualları söylənilən fikrə aid olduğundan, onların səciyyəvi xüsusiyyətləri sual haqqında verilən sualdır. Məsələn,

A: Have you borrowed my pen? B: (Have I) borrowed your pen?

Belə cümlələr ümumi suallara ümumi suallar verilməsi ilə səciyyələnir. Bundan başqa daha 3 növ sual mövcuddur:

1. *Wh* sualı haqqında *yes* yaxud *no* cavabını tələb edən suallar. Məsələn,

A: What do you think of the picture? B: What do I think of it? (Did you say what do I think of it?)

2. *Yes* yaxud *no* cavabını tələb edən suallar haqqında *wh* sualları. Məsələn,

A: Have you ever been to Valladolid? B: (Have I ever been) where?

3. *Wh* sualı haqqında *wh* sualı. Məsələn,

A: How did you enjoy the carnival? B: How did I enjoy what?

Əks-səda sualının ikinci əsas kateqoriyası izahedici əks-səda sualıdır. Belə növ suallar söylənilən cümlənin təkrarını deyil, aydınlaşdırılmasını xahiş etməklə,

həmişə *wh* elementi ilə başlanır və təkrarlayıcı *wh* sualına eyniyyət təşkil edir. Belə cümlələrdə *wh* ilə başlanan sözün vurğusu aşağı tonla tələffüz olunur. Məsələn,

A: Take a look at this! B: Take a look at what?

A: He's missed the bus again. B: Who's missed the bus?

A: Oh dear, I've lost the letter. B: Which letter have you lost?

Bu növ suallarda şəxs əvəzliyinin mənaya görə dəyişməsi təbii haldır. Məsələn,

A: Oh, dear, I've lost the letter. B: Which letter have you lost?

İzahedici əks-səda sualları da qısaldılmış formalarda işlənə bilər. *Look over there! Where?* Ümumi halda *what* sual əvəzliyindən izahedici əks-səda suallarında istifadə edilir. *What do you want?*

A: John! B: What?

İzahedici əks-səda sualı hətta natamam suala da aid ola bilər. Məsələn,

A: How did you enjoy the er er ...? B: How did I enjoy the what?

İngilis dilində əks-səda sualları kimi, əks-səda nidaları da danışan şəxsin fikrini ya bütövlükdə, yaxud da onun bir hissəsini təkrar edir. Semantikasına görə nidalar insanın daxili hisslərini, emosiyasını əks etdirir. Nidanın təkrarı hissin nisbətən daha qüvvətli olduğunu ifadə edir. Nidalar yalnız müvəqqəti olaraq substantivləşir. Onlar məcazi mənada işlənə bilməz.

Əks-səda nidalarını əks-səda suallarından fərqləndirən əsas cəhət onların qalxan tonla deyil, əksinə, qalxan-düşən tonla tələffüz olunmasıdır. Təkrar edilən fikir nəqli, sual, əmr, hətta nida cümləsi ola bilər. Məsələn,

A: I'm going to London for a holiday. B: To London? That's not my idea of a rest.

A: Have you been to Paris? B: Been to Paris? I'll say I have!

A: Open the door, please. B: Open the door! Do you take me for a doorman?

A: What a beautiful day! B: What a beautiful day! You must be joking!

A: He must be the only applicant! B: Must be the only applicant! That can't be true!

Cümlədə deyilmiş fikrə təəccüb ifadə edən belə nidalar şübhə bildirməklə əks-səda suallarına çox oxşardır. Həqiqətən də, yuxarıdakı cümlələrdə olan təkrarlar həm düşən tonla deyilən nida cümlələri, həm də qalxan tonla deyilən sual cümlələri ola bilər. Həm əks-səda sualında, həm də əks-səda nidalarında biz qarşı tərəfin söylədiyi cümləni fikrin tamamlanmasından asılı olaraq fərqli şəkildə təkrar edə bilərik. Belə ki, yuxarıdakı birinci misalda olan *To London!* cümləsini *You're going to London!, Going to London!* yaxud da sadəcə olaraq *London!* deməklə fikrimizi ifadə edə bilərik. Felin şəxsli formasının işlənmədiyi bəzi qaydasız mübtəda-xəbər tərkiblərinə aşağıdakı situasiyalarda təsadüf edilir. Məsələn,

A: I hear you're a linquist. B: I a linquist! (rəsmi) B: Me a linquist!

A: Ted's going to write the music. B: Ted write the music? What a splendid idea! Nida sualları quruluşca sual formasında olsa da nida təsdiqinin daha kəskin qüvvəsinə malikdir. Tipik olaraq bu, qalxan ton əvəzinə son düşən tonla tələffüz olunan inkar *yes-no* sualıdır.

Hasn't she grown! Wasn't it a marvellous concert!

Belə cümlələr dinləyicinin razılığını danışanın güclü hissləri olan hər hansı bir şeyə dəvət edir. Sözün yazılış formasının əksinə olaraq, məna əsaslı surətdə təsdiq-

də olur. Həmçinin düşən tonda olan təsdiq *yes-no* sualı təsdiq şəklində olan güclü inandırmanın digər bir ifadə vasitəsidir.

Am I hungry! Did he look annoyed! Has she grown!

Belə cümlələr adətən emfatik vurğu qəbul edir. İngilis dilinin yazılı formasında nida işarəsi, adətən hər iki növ nida sualı üçün cümlənin sonunda işlənir.

İnkar və təsdiq nida sualları üçün olan düşən tonun da eyni təsiri vardır, ancaq o, ayırıcı suallara nisbətən daha emfatikdir. Maraqlıdır ki, təsdiq-inkar polyarlığında zidd olan cümlələrin cütlüyünün təxminən eyni təsir gücü vardır: *Has she grown! Hasn't she grown!* Ancaq bu cümlələr arasında cüzi fərqlər vardır. İnkar sualın öz mənasının əlaməti olaraq dinləyicinin təsdiqi üçün müraciəti vardır. Digər tərəfdən isə təsdiq sual onu nəzərdə tutur ki, təsdiq cavab öz-özünə məlum olandır və dinləyicinin razılığı normal olaraq tələb olunmayan yerdə daha çox müvafiq olardı. *Am I hungry!* cümləsində olduğu kimi. Burada söylənilən fikrə əlbəttə ki, dinləyici tərəfindən zatən cavab gözlənilmir.

Wasn't it a marvellous concert! = 'What a marvellous concert it was!'

Has she grown! = 'She has grown!'

Nida cümləsi qüvvətli deyilməyən cümləsi özündə ehtiva etmir. *Hasn't she yet grown!* nida cümləsidir. İnkar nida sualları *not* inkar ədatının qısaldılmlş *n't* formasını qəbul etməlidir: *Has she not grown?* sorğu-sualdır, nida cümləsi deyil.

İngilis dilinin Amerika variantında nida sualı qalxan tonla tələffüz oluna bilər: *Wasn't the concert terrific?* Amma belə halda cavabın gözlənilməsi daha güclüdür.

Sual cümləsi öz yaranışı nöqteyi-nəzərindən başqasından cavab almaq məqsədi ilə işlədilmiş olsa da, zaman keçdikcə bu cümlələrdən başqa məqsədlər üçün də istifadə edilmişdir.Sual cümlələrinin bir sıra formaları işlənilməkdədir ki, onlar quruluşca sual formasında olsa da, heç bir cavab tələb etmir və cavab almaq məqsədi ilə də işlədilmir. Ədəbiyyatşünaslıqda belə cümlələrə bədii, ritorik suallar deyilir və onlar bədii ifadə vasitələrindən biri hesab olunur.Ritorik suallarda tam açıq şəkildə hökm ifadə edilir və onlar bu cəhətdən başqa cümlə növlərindən, məsələn, nəqli cümlələrdən fərqlənmir. Nəqli cümlələrdə olduğu kimi ritorik suallar da təsdiqlik və inkarlıq bildirir. Təsdiq ritorik sual güclü inkarlıq ifadə etdiyi kimi, inkar ritorik sual da güclü təsdiqlik bildirir.

Is that a reason for despair? = (Surely that is not a reason for despair.)

Can anyone doubt the wisdom of this action? = (Surely no one can doubt the wisdom of this action.)

Isn't the answer obvious ? = (Surely the answer is obvious.)

Haven't you got anything better to do? = (Surely you have something better to do.)

Nida suallarından fərqli olaraq, belə ritorik suallar *yes-no* cavabını tələb edən normal qalxan tona malikdir və əsasən ötürmə hərəkətinin diapozonu ilə ayırd edilir. İngilis dilində *wh* ilə başlanan ritorik suallar da mövcuddur. Təsdiqdə olan sual *wh* elementinin inkar elementlə əvəz olunduğu nəqli cümləyə ekvivalentlik təşkil edir.

Who knows cares? = (Nobody knows cares.)

What difference does it make? = (It makes no difference.)

How should I know? = (There is no reason why I should know.)

What should I say? = (There is nothing that I should say.)

What makes you think you can do better? = (Nothing should make you think you can do better.)

İnkar olan sual *wh* elementinin təsdiq elementlə əvəz olunduğu nəqli cümləyə ekvivalentlik təşkil edir.

Who doesn't know? = (Everybody knows.)

How couldn't you remember? = (You certainly should have remembered.)

Belə hallarda *wh* ilə başlanan ritorik suallar əsasən qalxan-düşən, çox nadir hallarda isə sadə düşən tonla tələffüz olunur.

Ritorik suallar verilmiş suallardan öncə işlədilə bilən suala cavab olaraq da səslənə bilər.

A: Do you want to eat? B: Do I look hungry?

Beləliklə, müasir ingilis dilində əks-səda tələffüzü dedikdə, əks-səda sual və nidalarının qarşı tərəfin söylədiyi cümləni fikrin tamamlanmasından asılı olaraq fərqli şəkildə təkrar etməsini nəzərdə tuturuq.

Ədəbiyyat siyahısı

1. Austin J.L., How to do things with words, Oxford, University Press, 1962
2. Bald W.D., Some Functions of *yes* and *no* in Conversation, Berlin, 1980
3. Cole P., Morgan J.L., Syntax and Semantics, New York, Academic Press, 1975
4. Crystal D., Rediscover Grammar, Pearson Longman, 2004
5. Kontra M., On English Negative Interrogatives, Columbia, 1980
6. Leech G., A Glossary of Grammar Terms, Edinburgh Univ. Press, 2006
7. Radford A., English Syntax: An Introduction, Cambridge Univ. Press,2004

Kamala Yusifova

On echo utterance in Modern English

Summary

In Modern English echo utterances are those which repeat as a whole or in part what has been said by another speaker. They may take the form of any utterance or partial utterance in the language, but in their discourse function they are either questions or exclamations. Echo questions are either recapitulatory or explicatory.

Кямаля Юсифова

Об эхо высказывании в современном английском языке

Резюме

В современном английском языке эхо высказывания являются высказываниями, которые повторяются в целом или частично, что было сказано другим говорящим. Они могут принимать форму любого высказывания или неполного фрагмента речи в языке, а в их дискурсной функции они являются либо вопросами, или восклицаниями. Эхо вопросы бывают или повторяющиеся или объяснительные.

Rəyçi: Elxan Yusifov
filologiya üzrə fəlsəfə doktoru

AYBƏNİZ RƏFİYEVA
ADU
aybanizr@yahoo.com

MÜASİR FRANSIZ VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SUAL CÜMLƏSİNİN OXŞAR VƏ FƏRQLİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: kommunikativ növ (funksiya), xüsusi suallar, ritorik suallar, alternativ suallar, intonasiya
Ключевые слова: коммуникативный тип (функции), частные вопросы, риторические вопросы, альтернативные вопросы, интонация
Key words: communicative type function, constituent questions, rhetorical questions, disjunctive questions, intonation

Məlum olduğu kimi, nitq vasitəsi ilə ünsiyyət zamanı ifadə edilən məqsəddən asılı olaraq, hər hansı dilə xas olan cümlələr əsasən: üç şəkildə təzahür edir: nəqli, sual, əmr.

Nəqli cümlələrdə obyektiv həqiqətlər haqqında müəyyən məlumat verilir. Sual cümləsində isə danışan ona məlum olmayan bir anlayışı alınacaq cavabla aydınlaşdırmaq istəyir. Əmr cümlələrində danışan şəxs öz müsahibini müəyyən bir işə təhrik edir.

Sual ilk növbədə məlum olmayanı öyrənmək, başqalarından cavab almaq məqsədi daşıyır.

Müasir Azərbaycan və fransız dilində sual cümlələri probleminə dair bir sıra məqalə, dərslik və monoqrafiyalarda indiyədək geniş şəkildə tədqiqat işləri aparılmışdır. Bu baxımdan təqdim etdiyim bu məqalə sual cümləsinin ümumiyyətlə sual-lıq kateqoriyasının, digər tərəfdən sual cümləsinin formal, sintaktik-semantik və intonasiya cəhətdən obyektiv təbiətinin aşkar edilməsinə dəlalət edir.

Sual cümləsinin sintaktik-morfoloji və intonasiya xüsusiyyətləri üzrə tədqiqindən sonra bu cümlələrin tərifinin aşağıdakı şəkildə verilməsini də bitkin və doğru hesab edirik:

Bu və ya digər dərəcədə sual intonasiyası olan, əsasən cavab almaq üçün, bəzən emosional tərzdə hökm ifadə etmək, bəzən də müsahibi müəyyən iş görülməsinə təhrik etmək məqsədi ilə işlədilən cümlələrə sual cümləsi deyilir.

Sual kateqoriyası dilçilikdə mübarizə doğuran bir sahədir. İndiyə qədər hələ sual cümlələrinin yaranması, növlərə ayrılması, təsnifat prinsipləri, onların intonasiya xüsusiyyətləri tam tədqiq edilməmişdir. Bu barədə müxtəlif mülahizələr, fikirlər, nöqteyi-nəzəriyyələr mövcuddur.

Sual cümlələri müəyyən cavab almaq üçün müəyyən informasiya əldə etmək məqsədi ilə işlədilir. Belə ki, sual ilk növbədə məlum olmayanı öyrənmək, başqalarından cavab almaq məqsədi daşıyır. Sual cümlələrinin işlədilməsində məqsəd həmişə kynidir: danışana məlum olmayan şey və hadisələri, hal, hərəkət, əlamətlər və s. müəyyən etmək. Demək, sual cümlələri bilmədiklərimizi öyrənmək və ya təxmini bildiklərimizi dəqiqləşdirmək məqsədi ilə işlədilir.

Sual cümlələrinin biri-digərindən həm qrammatik, həm də intonasiya, aksent-melodik struktur baxımından fərqlənir. sual cümləsinin yaranmasında intonasiya

çox üstünlüyə malikdir. Sual cümlələrinin özünəməxsus xüsusi sual intonasiyası olur. Bu intonasiya sual cümlələrini başqa cümlə növlərindən ayıran əsas vasitələrdəndir. Sözlər və qrammatik kateqoriyalar ünsiyyət vasitəsi üçün nitq prosesində fikir ifadə edən cümlənin ayrı-ayrı komponentlərindəndir.

Nitq prosesindəki cümlənin daimi və çox vacib komponentlərindən biri olan intonasiya, cümlədən ayrı müstəqil şəkildə mövcud deyildir. Dilçi alim F.Veysəlov «Alman dilinin fonetikası» kitabında intonasiyadan danışarkən bildirir ki, intonasiyasız cümlə olmadığı kimi, cümləsiz və intonasiya mövcud deyildir.

Cümlələrdə yürüdülən məqsəddən asılı olaraq cümlənin tələffüs xüsusiyyətləri, aksent-melodik strukturun, bütövlükdə onun intonasiyası da dəyişir.

Belə ki, hər bir cümlə məqsəddən asılı olaraq özünəməxsus intonasiyaya – deyiliş, xüsusiyyətinə, aksent-melodik qəlibə malikdir. Danışanın məqsədi və münasibəti intonasiyanın əsasıdır. İntonasiya isə, öz növbəsində, məqsədin, münasibətin, göstəricisi, müəyyənləşdiricisidir.

Danışan öz nitqindəki cümlələri hansı münasibətlə, məqsədlə dediyini dinləyiciyə çatdırmaq üçün cümləni müəyyən aksent-melodik modellə ifadə etməli olur. Əgər cümlələr arasında intonasiya, aksent-melodik baxımdan fərq olmasaydı, dinləyici müxtəlif məqsədlə deyilmiş eyni leksik quruluşlu «Yağış yağır?» cümləsi arasında heç bir fərq qoyu bilməzdi. Odur ki, cümlənin bu cəhətdən fərqlənməsində, onların kommunikativ növlərə ayrılmasında, eləcə də sual cümlələrinin özlərinin kommunikativ növlərə bölgüsündə intonasiyanın çox böyük rolu vardır. İntonasiya bir çox hallarda sual cümləsinin əmələ gəlməsində yeganə vasitə kimi çıxış edir.

Göründüyü kimi, sual cümlələri məzmunca zəngin, özünəməxsus intonasiya çaları olan kommunikativ bir növdür.

Fransız dilçi alimi Ş.Balli sual cümlələrinin kommunikativ funksiyasından danışarkən qeyd edirdi ki, sualı da kommunikasiya hesab etmək lazımdır, çünki o, danışanın fikrində olan müəyyən təsəvvürlərin əlaqəsini təşkil edən müşahidələrdən biridir. Danışan öz müsahiblərindən bu əlaqənin həqiqiliyi haqqında təsdiq və ya inkar cavab gözləyir.

Sual cümləsi insan təfəkkürünü genişləndirən üsullardan biridir. Bu cümlələrdə məqsəd odur ki, özünə yönəldilmiş nitqdə cavab almaq istəyir. Ünsiyyət prosesində qarşıya qoyulmuş məqsəd baxımından suallar müxtəlif olur. Sual bəzən ifadə edilən fikrə bütövlükdə, bəzən onun bir hissəsinə aid olur. Bir sıra hallarda sual iki fikirdən hansının həqiqətə uyğun olmasını müəyyənləşdirmək məqsədi ilə verilir. Bəzən isə sual cavab almaq üçün işlənir.

Müasir dilçilik ədəbiyyatında sual cümlələrinin bir-biri ilə sıx əlaqədar olaraq 3 əsas xüsusiyyətə görə təsnif etmək olar.

1. Sual cümlələrinin qrammatik cəhətdən quruluşuna görə;
2. Sual cümlələrinin ifadə məqsədinə görə;
3. Sual cümlələrinin ümumi xarakterinə görə.

I. Sual cümlələrinin qrammatik quruluşuna görə növləri. Sual cümlələrinin qrammatik quruluşu dedikdə, bir sual cümlənin əmələ gətirilməsində ilk növbədə elə qrammatik vasitələrə əsaslanmağı nəzərdə tuturuq ki, bunlarsız sual cümləsi qurmaq mümkün deyildir.

Azərbaycan dilində sual əmələ gətirən belə vasitələr bir qism sual cümlələrində sintaktik-morfoloji, bəzilərində isə yalnız sintaktik üsuldan ibarətdir.

Dilimizdə işlənən bütün sual cümlələri sintaktik cəhətdən quruluşuna görə ya əvəzlikli, ya da əvəzliksiz olur. Bu cəhətdən dilimizdə başqa növ sual cümlələri mövcud deyildir. Əvəzlikli sual cümlələrində cümlə üzvlərindən biri, bəzən də bir neçəsi məlum olmur. Sualı verən alınacaq cavabla naməlum üzvü müəyyənləşdirir.

Sualın mərkəzi belə cümlələrdə sual əvəzliyi və ya sual zərfi ilə ifadə olunmuş cümlə üzvündə özünü göstərir. Əvəzliksiz sual cümlələrində məntiqi vurğunun yeri sabit deyil, yəni hər dəfə konkret cümlənin ifadə məqsədindən asılı olaraq, o, istənilən cümlə üzvü üzərinə düşə bilər.

II. Sual cümlələrinin ifadə məqsədinə görə növləri: Sual cümlələrinin ifadə məqsədi dedikdə, sual cümləsi vasitəsilə danışanın kimdənsə cavab gözləyib, nəyi isə müəyyənləşdirməyi, emosional tərzdə hər hansı bir məlumatı təsdiq və inkar etməklə hökm verməyi, müsahibi bir iş görməyə təhrik etməyini nəzərdə tuturuq. Ifadə məqsədinə görə sual cümlələri dörd əsas yarımqrupa bölünür.

1) Ümumi suallar (Question totale)
2) Xüsusi suallır (Question partielle)
3) Alternativ suallar (Question alternative)
4) Ritorik suallar (Question ritorique)

1) Bütövlükdə cümləyə aid olan «bəli» (oui) və xeyir (non) cavabları tələb edən suallara ümumi suallar deyilir. Bu tip sual cümlələrində sual intonasiyası əsas vasitə kimi iştirak edir. Məsələn:

Siz bu adamı tanıyırsınız?

Fransız dilində bu növ sualların ifadə vasitəsi olan sual cümlələri, bir qayda olaraq köməkçi və ya yarımköməkçi fellə, ya da modal fellə başlayır. Məsələn:

- T'es-tu bien amusé hier ? (A.Daudet)
- Oui

Hər iki dildə bu növ sual cümlələrinə xas olan müstəsna xüsusiyyət ondan ibarətdir ki, istər müasir fransız dilində, istərsə də Azərbaycan dilində ümumi sual cümlələri cümlənin ümumi məzmununa aid olur və «bəli» və ya «xeyr» sözləri ilə cavab verilir.

2) Cümlənin hər hansı bir üzvünə aid olan suallara xüsusi suallar deyilir. Bu qəbildən olan sual cümlələri adətən ya 1) sual əvəzliyi, ya da 2) sual zərfi ilə başlanır. Hər iki dildə müşahidə edək:

Məsələn, fransız dilində:

Qui est-ce qui a pu vous raconter ça ?

Azərbaycan dilində:

Nə üçün mənə əvvəlcədən ac olduğunuzu demirdiniz?

3) Iki fikirdən birini müəyyənləşdirmək məqsədi ilə işlədilən suallar alternativ suallar deyilir. Alternativ sual öz bağlayıcısı ilə bir-birinə bağlanan iki və daha çox ümumi sualdan ibarət olur.

Məsələn, Azərbaycan dilində:

- Sən bu qərəzli mövqeyindən əl çəkəcəksən, ya yox? (S.Rəhimov)

Fransız dilində:

Vas-tu, oui ou non ?

Alternativ sualın quruluşu ümumi suallara oxşar olsa da, onlar da xüsusi suallar kimi tam cavab tələb edir.

Vas-tu, oui ou non ?

4) Cavab almaq üçün deyil, müraciət olunan şəxsi əmin etmək üçün işlədilən suallara ritorik suallar deyildir. Ən çox bədii ədəbiyyatda istifadə olunan sualın bu növünə müqayisə olunan hər iki dildə rast gəlirik.

Fransız dilində:

Méler l'argent aux sentiments n'est-ce pas horrible ?

Azərbaycan dilində:

Belə yerdə, belə vaxtda da yuxu gələr?

III. Sual cümləsinin ümumi xarakterinə görə növləri. Sual cümləsinin ümumi xarakteri dedikdə sualın ilk dəfə verilə bilməsi ilə yanaşı, təkrar şəkildə verilə bilməsi nəzərdə tutulur.

Təkrar sual cümlələri Azərbaycan dilində daha geniş yayılmışdır. C.Axundov «Azərbaycan dilində sual cümlələri» monoqrafiyasında təkrar sual, cümlələrini onlara xas olan xüsusiyyətlərinə görə üç növə ayırır.

1. Xüsusi təkrar sual (Danışan özü öz sualını təkrar edir).
2. Nidalı təkrar sual (Müsahib danışanın bayaq dediyini ona təkrar etdirir).
3. Təkrar sorğulu sual (Müsahib danışanın əvvəldə dediyini ona təkrar edir).

Qeyd etmək lazımdır ki, fransız dilində də təkrar sualların bir sıra maraqlı xüsusiyyətləri artıq öyrənilmişdir. Azərbaycan dilində isə zaqda C.Axundova qədər xüsusi tədqiqat işi aparılmışdır.

Beləliklə, söylədiklərimizi yekunlaşdıraraq belə qərara gəlirik ki, müqayisə olunan müasir fransız və Azərbaycan dillərində sual cümlələrinin bir çox oxşar xüsusiyyətləri vardır. Hər iki dildə bu növ sual cümllərinə xas olan başlıca xüsusiyyət ondan ibarətdir ki, onlar adətən iki ümumi sualdan ibarət olur. Bu sual cümlələri «yaxud» bağlayıcısı ilə əlaqələndirilir; birinci hissədə qalxan, ikinci hissədə isə düşən ton işlədilir.

Alternativ suallar həmişə müsahibdən tam cavab tələb edir. Bu sual cümlələrinin bəzilərinin xəbərləri eyni sözün iki dəfə təkrarından ibarət olur, bunlardan biri təsdiq, digəri isə inkarda işlənir.

İstər müasir fransız dilində, istərsə də Azərbaycan dilində bəzi hallarda sual cümlələri əsas məqsədindən – cavab almaq məqsədindən kənara çıxır. Hər iki dildə ritorik suallar forma xüsusiyyətlərinə görə sual cümlələrindən ibarətdirsə, lakin onlar məzmunca təsdiq və ya inkar hökmü bildirirlər. Belə sual cümlələrinə «cavab tələb etməyən sual» da deyilir.

Beləliklə, sual cümlələrinin təsnifatından aydın olur ki, bu cümlələr öz mahiyyətinə görə həqiqətən çoxcəhətli, olduqca əhatəli və dinamik kommunikativ növdür.

Məlum olduğu kimi, sual eyni bir kateqoriya olaraq bütün dillərdə mövcud olsa da, onun vasitələri hər dilin öz daxili inkişaf qanunlarına müvafiq olaraq müxtəlif olur.

Tədqiqat göstərir ki, Azərbaycan dilində də sual əmələ gətirən vasitələr müxtəlifdir. Dilimizdə elə cümlələr vardır ki, onlarda sual yalnız intonasiya ilə əmələ gəlir.

Belə sual cümlələrinə aşağıdakıları misal göstərmək olar.

1) Anaxanım bacı, daha ayrı, təzə bir şey yoxdur? (M.Süleymanov. «Fırtına»)

2) Sən mənə yol göstərirsən? (y.Şirvan «Şəfəq»)

3) Siz müəllimsiniz? (S.rəhman, «Seçilmiş əsərləri», 1-ci cild)

Yuxarıdakı sual cümlələri nəqli cümlələrdən yalnız intronasiya ilə fərqlənir ki, həmin cəhət də sual ifadə edilməsi ilə əlaqədardır. Əgəro o cümlələrin intonasiyasını dəyişsək, onlar asanlıqla nəqli cümlələrə çevrilə bilər. Yazıda isə onların axırında sual işarəsi deyil, nöqtə qoysaq, onlar nəqli cümlələr kimi oxunar. Həmin növ cümlələrdə sual kateqoriyasının yeganə vasitəsi sual intonasiyasıdır.

Azərbaycan dilçiliyində sual cümlələrindən bəhs edən müəlliflərin, demək olar ki, hamısı bu məsələ barəsində eyni fikir söyləyirlər.

Haqqında danışılan sual cümlələrinin başqa bir şəkli də vardır ki, onlar –mı (-mi, -mu, -mü) ilə işlənir. Bu növ sual cümlələrində sual kateqoriyasını ifadə edən vasitələrdən bir sıra elmi-tədqiqat işlərində, dərsliklərdə bəhs edilmişdir. Lakin müəlliflər bu məsələ barəsində müxtəlif fikirlər söyləmişlər. Sualla əlaqədar olan –mı (-mi, -mu, -mü) bu gün də dilçiliyimizdə mübahisə obyekti olaraq qalmaqdadır. Hər şeydən əvvəl mübahisə doğuran məsələ –mı (-mi, -mu, -mü)-nün bir qrammatik vasitə olaraq nədənq ibarət olmasıdır.

Z.X.Tağızadənin «Müasir Azərbaycan dilinin sintaksisi» əsərində, R.C.Məhərrəmova və M.P.Cahangirovun «Azərbaycan dilinin tarixi sintaksisinə dair materiallar» adlı kitabında, Nizami adına Ədəbiyyat və Dil Institutunun buraxdığı «Azərbaycan dilinin qrammatikası»nda və bir sıra başqa mənbələrdə mı, (-mi, -mu, -mü) sual şəkilçisi kimi qeyd edilmişdir. Azərbaycan dilinə aid yazılmış bir sıra başqa əsərlərdə isə –mı (-mi, -mu, -mü) sual şəkilçisi deyil, sual ədatı hesab edilir.

Buna misal olaraq Z.Budaqovanın «Müasir Azərbaycan ədəbi dilində sadə cümlə» əsərini, «Azərbaycan dilinin qrammatikası»nı (I hissə), M.Hüseynzadənin «Müasir Azərbaycan dili» əsərini və başqalarını göstərə bilərik.

Prof. M.Hüseynzadə -mı (-mi, -mu, -mü)-nü ədat adlandırmaqla yanaşı aşağıdakıları da qeyd edir:

Şəkli cəhətdən bunların (-mı, -mi, -mu, -mü – A.R.) şəkilçi olduğunu və sözə bitişik yazıldığını inkar etmək olmaz. Digər tərəfdən, bunlar yalnız bir nitq hissəsinə deyil, bütün əsas nitq hissələrinə bitişib onlarda sual yarada bildiyi üçün və cümləni bütövlükdə sual cümlələrinə çevirə bildiyi üçün bunları yalnız bir nitq hissəsinin (məsələn: felin) sual şəkilçisi kimi qəbul etmək də doğru deyildir.

Azərbaycan ədəbi dilində sual cümlələri ilə əlaqədar apardığımız tədqiqat zamanı bu cümlələrin intonasiya problemi ilə tez-tez üzləşirdik. Artıq məlumdur ki, sual cümlələrinin bir sıra tiplərini – neytral sualların bir qrupunu, ritorik sualların əksəriyyətini, təkrar sualların kommunikasiya zamanı anlaşılmasını təmin edən əsas əlamət yalnız intonasiyadır.

İntonasiyanın nitqindəki mürəkkəb xüsusiyyətlərinin nədən ibarət olduğunu müəyyənləşdirmək heç şübhəsiz ki, bu sahədə xüsusi tədqiqat işi aparılmasını tələb edirdi.

Sual cümlələrinin eksperimental üsul ilə tədqiqini aşağıda qeyd etdiyimiz məsələlər ilə əlaqədar aparmışıq.

1. «Oxuyursan?» şəkilli mı, mi, mu, mü ədatə olmadan işlənən əvəzliksiz suallar intonasiyadan asılı olaraq, həm həqiqi, həm ritorik, həm nidalı təkrar, həm də təkrar sorğulu sual kimi müsahibə çatdırıla bilər. Belə sual cümlələrinin intonasiyası arasında konkret fərqin müəyyən edilməsini və həmin fərqin nədən ibarət olmasını tədqiqatımız üçün zəruri hesab edirdik.

2. Digər tərəfdən sual cümlələrinin intonasiya xüsusiyyətlərinə aid bəzi dilçilərimizin bu tədqiqat işinə qədər müəyyən fikirləri mövcud idi. O fikirlər dinləmə üsulu ilə aparılmış müşahidələrdən alınan sırf subyektiv mahiyyətli mülahizələrdir. Deməliyik ki, o fikirlərin bəzilərinin tamamilə doğru olduğuna biz irəlicədən şübhə ilə yanaşırdıq. Ona görə də bu və ya digər məsələyə münasibətimizin obyektivliyi üçün eksperiment aparmağı zəruri hesab etdik.

3. Dilimizdə mövcud olan, leksik dilçiliyimizdə nəinki intonasiya, hətta sintaktik xüsusiyyətlərindən bəhs edilməyən təhrikedici və təkrar sualların öyrənilməsini də qarşımıza məqsəd qoymuşduq. Bu suallar haqqında intonasiyanı nəzərə almadan obyektiv mülahizələr irəli sürə bilməzdik. Sual cümlələrinin kommunikativ tiplərinin müəyyən edilməsində göstərdiklərimizdən başqa aşağıdakı suallara da eksperimental tədqiqi nəticələri ilə cavab vermək istəyirdik:

A) Sual cümləsinə xas olan intonasiya həmin cümlənin qrammatik quruluşu ilə nə dərəcədə əlaqədardır və sualın digər qrammatik və ya leksik vasitələrlə ifadəsi sual intonasiyasına təsir edirmi?

B) Intonasiya sual cümləsinin məna məzmunu ilə nə dərəcədə əlaqədardır?

C) Sual cümlələrində intonasiyanın komponentlərindən hansı daha çox fəal iştirak edir?

Ç) Sual cümləsi kommunikativ tiplərinin biri-birindən, habelə sual intonasiyasının nəqli və əmr cümlələrinin intonasiyasından əsasən, nə kimi xüsusiyyətlərlə fərqlənir?

Ədəbiyyat

1. Abdullayev Ə.L., Seyidov Y.M., Həsənov A.Q. Müasir Azərbaycan dili. B., 1998
2. Axundov C.M. Azərbaycan dilində sual cümlələri. B., 1999
3. Budaqova Z.I. Sual cümləsi. Müasir Azərbaycan dili. III cild. Sintaksis. B.: Elm nəşriyyatı, 1981
4. Seyidov İ.M. Sual cümləsi. Müasir Azərbaycan dili. Sintaksis, II kitab, Azərtədrisnəşr. B., 1962.
5. Dauzat A. La langue française d'aujourd'hui. P., 1908

Айбениз Рафиева

Схожие особенности вопросительного предложения современного французского и азербайджанского языков

Резюме

В данной научной статье проведен теоретический и практический анализ вопросительного предложения современного французского и азербайджанских языков, а также подробное описание их сходных и отличительных особенностей.

Предложения с той или иной степенью интонации, используемые в основном с целью получения ответа на вопрос, но и временами для повелительного выражения в эмоциональной форме или для побуждения собеседника к каким-либо действиям называются вопросительными предложениями.

Aybaniz Rafiyeva

Similar features of the interrogative sentence in Modern French and Azerbaijani languages

Summary

This scientific paper presents theoretical and practical study of the interrogative sentence of modern French and Azerbaijani languages along with detailed description of their similar and distinctive features.

The sentences with certain degree of intonation basically used to get the answer to the question and sometimes for the imperative expression in an emotional way or to induce an interlocutor for certain actions are called the interrogative sentences.

Rəyçi: Kamal Dadaşov
filologiya elmləri namizədi, professor

SAMİRƏ XUDİYEVA
ADPU
nura667@mail.ru

AZƏRBAYCAN DİLİNDƏ MƏNSUBİYYƏT KATEQORİYASININ FORMALAŞMASI VƏ BU PROSESDƏ ƏVƏZLİKLƏRİN ROLU

Açar sözlər: qrammatika, kateqoriya, mənsubiyyət, şəkilçi, əvəzlik.
Key words: grammar, category, possession, suffix, pronoun.
Ключевые слова: грамматика, категория, принадлежность, окончание, местоимение.

Dilin qrammatik quruluşunu öyrənən qrammatikanın bir hissəsi olan morfologiyanın əsas anlayışlarından biri nitq hissələri hesab olunur. Azərbaycan dilinin lüğət tərkibini təşkil edən bütün sözlər leksik mənasına və qrammatik əlamətlərinə görə müxtəlif leksik-qrammatik qruplarda birləşir. Sözlərin bu şəkildə qruplaşması nitq hissələri adlanır. Türk dillərində sözlər nitq hissələrinə görə təsnif edilərkən üç əsas xüsusiyyət nəzərə alınır:

1) Sözün ümumi leksik mənası;
2) Sözün morfoloji səciyyəsi;
3) Sözün cümlədəki sintaktik vəzifəsi (1.10).

Bu xüsusiyyətlərin hər üçü əsasdır. Lakin bununla yanaşı, söz qrupunun səciyyəsindən asılı olaraq bəzən həmin xüsusiyyətlərdən biri, yaxud ikisi həlledici əhəmiyyət daşıyır. Məsələn, sifət və zərf müxtəlif nitq hissələri olmaqla, yalnız cümlədəki sintaktik vəzifələrinə görə seçilir. Eyni leksik mənalı, hətta tamamilə eyni formalı söz *(qəşəng, yağlı, maraqlı)* isimləri təyin etdikdə zərf olur. Deməli, konkret vəziyyət üçün zərf və sifətləri ayıran əlamət əsasən sintaktik vəzifədir.

Azərbaycan dilində morfoloji forma etibarilə zəngin olan nitq hissələri isim və feldir. İstər isimlər, istərsə də fellər bir-birindən, həm də qalan nitq hissələrindən əsaslı surətdə seçilir. Əgər zərf, say və əvəzlikdə sözyaratma formalarından başqa heç bir diferensial qrammatik ünsür yoxdursa, isimlərdə hal, mənsubiyyət, kəmiyyət, xəbərlik, fellərdə zaman, şəxs, şəkil, tərz, təsirlilik kimi sırf qrammatik kateqoriyalar vardır. Buraya isim və felin zəngin sözdüzəldici şəkilçilərini də əlavə etsək, bu iki nitq hissəsinin dilin morfoloji sistemində yeri aydın olar.

Azərbaycan dilçiliyində nitq hissələri yuxarıda qeyd etdiyimiz əlamətlərə əsasən, bir qayda olaraq, iki yerə bölünür:

1.Əsas nitq hissələri;
2.Köməkçi nitq hissələri;
3.Xüsusi nitq hissələri.

Əsas nitq hissələri müəyyən lüğəti məna daşıyır, morfoloji formaya (sözdüzəldici, sözdəyişdirici) malik olur, cümlədə konkret sintaktik vəzifə daşıyır. Əsas nitq hissələrinə **isim, sifət, say, əvəzlik, fel** və **zərf** daxildir. Bu nitq hissələrinin hər biri müstəqil işlənir, mənaya malik olur, suala cavab verir və cümlə üzvü vəzifəsini yerinə yetirir.

Köməkçi nitq hissələri lüğəti mənadan məhrumdur, dəyişmir, yalnız abstrakt qrammatik mənaya malikdir. Onlar ya cümlədə sözlər arasında əlaqə yaratmağa xidmət edir, yaxud da ifadə olunan ümumi məzmuna müəyyən məna çalarlıqları əlavə edir. Köməkçi nitq hissələrinə **qoşma, bağlayıcı** və **ədat** daxildir.

Xüsusi nitq hissələri əsas nitq hissələri əsas nitq hissələri ilə köməkçi nitqq hissələri arasında orta mövqedə dururlar. Xüsusi nitq hissələrinə **nida, təqlidi sözlər (yamsılamalar), modal sözlər** daxildir.

Beləliklə, nitq hissələri təlimi zəminində morfologiya elmi meydana gəlib inkişaf etmişdir. Morfologiyanın vəzifəsi bu və ya digər nitq hissəsi kateqoriyasına hansı sözlərin və neçə sözün daxil olub-olmadığı məsələsini həll etmək deyil; onun vəzifələri daha geniş və tamamilə başqadır.

Dilin ictimai həyatla ayaqlaşaraq ünsiyyət vasitəsi olmaq vəzifəsini yerinə yetirməsi üçün iki şey tələb olunur:

- birincisi, o özünün işarələr sistemini, yəni söz ehtiyatını müntəzəm olaraq zənginləşdirilməlidir;
- ikincisi, həmin işarələrin, yəni sözlərin ünsiyyət üçün əlaqəndirilməsi üsullarını təkmilləşdirilməlidir.

Sözdüzəltmə və sözdəyişdirmə kimi iki mühüm dil hadisəsi məhz bununla əlaqədardır. Başqa sözlə desək, bunlar, morfoloji kateqoriyaların fəaliyyət göstərdiyi sahədir. Morfologiya məhz bu kateqoriyaları öyrənir. Onun tədqiqatının nəticələri nitq hissələri kateqoriyalarının müəyyənləşdirilməsi üçün daha zəngin material və daha etibarlı tədqiqat üsulları verir.

Azərbaycan dilində qrammatik kateqoriyaları əhatə dairəsinə görə iki yerə bölmək olar: xüsusi qrammatik kateqoriyalar; ümumi qrammatik kateqoriyalar.

Ümumi qrammatik kateqoriyaların müəyyənləşdirilməsi sərhədi Azərbaycan dilçiliyində müxtəlif şəkildə verilmişdir. Bu isə dolaşıqliğa səbəb olmuşdur. Onu da qeyd etmək lazımdır ki, nitq hissələri mənaları və qrammatik-morfoloji xüsusiyyətlərinə görə bir-birindən fərqlənsələr də, bunlar eyni kateqoriyaya daxil olmaq baxımından birləşirlər.

Azərbaycan dilində bir sıra qrammatik kateqoriyalar vardır ki, bunlar sözlərin bir-birinə bağlanmasında, sözlər arasında əlaqə yaratmaqda çox mühüm rol oynayır. Bu kateqoriyaların bir qismi ümumi xarakter daşıyır və yalnız bir nitq hissəsinə xas olmur, bütün nitq hissələrini əhatə edir. Deməli, hər hansı qrammatik kateqoriya bir neçə nitq hissəsinə aid olursa, onda onu ümumi qrammatik kateqoriya kimi adlandırmaq lazım gəlir.

B.Xəlilov Azərbaycan dilindəki ümumi qrammatik kateqoriyaları aşağıdakı şəkildə qruplaşdırmışdır: hal kateqoriyası; mənsubiyyət kateqoriyası; şəxs kateqoriyası; kəmiyyət kateqoriyası; inkarlıq kateqoriyası (2.152).

M.Hüseynzadə isə dilimizdə olan ümumi qrammatik kateqoriyaları aşağıdakı şəkildə sistemləşdirmişdir: kəmiyyət kateqoriyası, mənsubiyyət kateqoriyası, hal kateqoriyası, xəbərlik kateqoriyası (3.37).

Bu ümumi kateqoriyalar yalnız isimlərə aid deyildir; bunlar sifət, say, əvəzlik, fel və köməkçi nitq hissələrinə də aiddir.

Beləliklə, ümumi qrammatik kateqoriyalar öz vəzifələri, məzmun və formal əlamətlərinə görə həm sintaktik, həm də morfoloji kateqoriya hesab olunur. Buna görə də bunlara ümumi qrammatik kateqoriya adı verilmişdir.

Adlara məxsus ümumi qrammatik kateqoriyalardan biri də mənsubiyyət kateqoriyasıdır. Mənsubiyyətə görə dəyişmə şəxslərlə şəxslər, şəxslərlə əşyalar, əşyalarla əşyalar arasında ola bilər. I və II şəxslərə aid mənsubiyyət şəkilçisi yalnız şəxs və əşyanın insana mənsubluğunu bildirir. Məsələn, *mənim dostum, sənin dərdin, mənim evim* və s. III şəxsə aid mənsubiyyət şəkilçisi qəbul etmiş isim isə həm insana, həm də cansız əşyaya aid ola bilər. Məsələn, *evin pəncərəsi, atın ayağı* və s. Mənsubiyyət kateqoriyası əsasən, iki söz arasındakı münasibəti bildirir. Bu kateqoriya öz semantikasına görə iki sözdən, yəni sahib şəxs və hər üç şəxsdən birinə aid mənsub şəxs və ya əşyadan ibarət olur. Lakin iki söz bir tərkibdə işlənməklə yanaşı, mənsub əşya bir sözlə də ifadə oluna bilər. Beləliklə, mənsubiyyət kateqoriyasının iki tərəfi vardır: birinci tərəf, ikinci tərəf. Birinci tərəf, əsasən, sahib şəxsdən, ikinci tərəf mənsub əşyadan ibarət olur. Məsələn; **Mənim** öz **istəyim, mənim** öz **kamım – Sənin** öz **istəyin, sənin** öz **kamın**.

Mənsubiyyət kateqoriyasının tərəfləri arsında idarə və uzlaşma əlaqəsi özünü göstərir. İkinci tərəf əsas və aparıcı rola malik olur. Onun tələbinə görə birinci tərəf ismin yiyəlik halında idarə olunur. İsmin yiyəlik halında olan birinci tərəflə mənsubiyyət şəkilçili ikinci tərəf uzlaşma əlaqəsinə girir. Mənsubiyyət şəkilçisini qəbul etmiş söz özündən əvvəl gəlmiş sözü tabe vəziyyətə salır, asılı sözə çevirir, onu idarə edir. Tabe edən sözün tələbinə görə tabe söz mütləq ismin yiyəlik halında olmalıdır. Əgər birinci tərəf yiyəlik halda deyilsə, burada mənsubiyyət kateqoriyasından danışmaq olmaz. Burada elə bir möhkəm qanun yaranmışdır ki, mənsubiyyət şəkilçili söz ismin heç bir başqa halı ilə əlaqəyə girə bilmir. Mənsubiyyət kateqoriyasını yaradan tərəflərin hər ikisininn iştirakı əsas şərt deyildir, yəni tərəflərin hər ikisinin iştirakı olduğu halda, təkcə ikinci tərəfin də iştirakı mümkündür. Məsələn, ***qələmim, bacım, kitabım, gözüm, çantası, düşüncələri*** və s. Mənsubiyyət kateqoriyasının göstəriciləri aşağıdakılardır:

Mənsubiyyət kateqoriyasının göstəriciləri aşağıdakılardır:

Tək		Cəm	
I şəxs	**-im**	I şəxs	**-imiz**
II şəxs	**-in**	II şəxs	**-iniz**
III şəxs	**-i, -si**	III şəxs	**-ləri**

I və II şəxsə aid mənsubiyyət şəkilçilərinin mən, sən, biz, siz şəxs əvəzliklərindən əmələ gəldiyini və hər hansı bir nitq hissəsinin sonuna əlavə edildikdə eyni şəxsi ifadə etdiyini bilirik. I şəxsin mənsubiyyət şəkilçisi **mən**, II şəxsinki **sən** əvəzliyindən törəmişdir. Eyni qayda ilə I şəxsin cəminin mənsubiyyət şəkilçisi isə **siz** əvəzliyindən əmələ gəlmişdir. Mənsubiyyət şəkilçiləri mən əvəzliyindən törəmiş **m**, sən əvəzliyindən törəmiş **n** və biz,siz əvəzliklərindən törəmiş **z** ünsürləri ilə bağlıdır. Bunlar sözün ahənginə uyğun olaraq sait qəbul edib, mənsubiyyət kateqoriyasını yaradırlar: m → -ım, -im, -um, -üm; n → -ın, -in, -un, -ün (3.41).

I və II şəxsin cəminin mənsubiyyət şəkilçiləri bu şəkilçilərə **z** ünsürünün ahəngə uyğun olan **-ız, -iz, -uz, -üz** variantlarının qoşulması ilə yaranır: -ım, -im, -um, -üm + -ız, -iz, -uz, -üz → -ımız, -imiz, -umuz, -ümüz; -ın,-in, -un, -ün + -ız, -iz, -uz, -üz → -ınız, -iniz, -unuz, -ünüz. III şəxsin tək və cəmi –**sı**[4] və -**ı**[4] şəkilçiləri vasitəsilə yaranır (2.191). Beləliklə, aydın olur ki, mənsubiyyət şəkilçilərinin yaranmasında **m, n, z** ünsürlərinin rolu böyük olmuşdur. Saitlər isə ahəngə uyğun olaraq bu ünsürləri sözə bağlamışdır.

Mənsubiyyət kateqoriyasının şəkli əlamətləri aşağıdakılardır: I şəxsin təki saitlə bitən isimlərdə **-m** ünsürü samitlə bitən isimlərdə isə **-**ım[4] şəkilçiləri vasitəsilə yaranır. Azərbaycan dilində işlənən –ım[4] sözdüzəldici şəkilçiləri birinci şəxsin təkini ifadə edən –ım[4] mənsubiyyət şəkilçiləri ilə omonimlik təşkil edir. Lakin bu şəkilçilər şəkilcə, formaca fərqlənməsələr də, mahiyyət etibarilə, məzmunca çox fərqlənirlər. Birincisi, mənsubiyyət şəkilçiləri qrammatik (sözdəyişdirici) şəkilçi olduğu halda, digərləri leksik (sözdüzəldici) şəkilçi rolunu oynayır. İkincisi isə sözdüzəldici şəkilçi rolunu oynayan –ım[4] şəkilçisi fellərdən atributiv isimlər düzəldən şəkilçidir. Mənsubiyyət kateqoriyasının I şəxsin təkinin morfoloji göstəricisi isə şəxsin mənsub olduğu əşyanı bildirir. Qeyd etdik ki, sözdüzəldici şəkilçi olan –ım[4] fellərdən atributiv isimlər düzəldir; məs: udmaq – udum, içmək – içim, yığmaq – yığım, baxmaq – baxım və s.

I şəxsin cəmi saitlə bitən isimlərdə -mız[4] şəkilçiləri, samitlə bitən isimlərdə isə -ımız[4] şəkilçiləri vasitəsilə yaranır. II şəxsin təki saitlə bitən isimlərdə **-n** ünsürü, samitlə bitən isimlərdə isə **-ın[4]** şəkilçiləri vasitəsilə yaranır.

Mənsubiyyət kateqoriyasının II şəxsin təkinin –ın[4] şəkilçisi omonim şəkilçidir. Bu omonimlik özünü həm fellərdən isimlər əmələ gətirən sözdüzəldici şəkilçi rolunu ifadə edən –ın[4] şəkilçisində, həm ismin yiyəlik halını əmələ gətirən qrammatik şəkilçidə, həm də əmr bildirən fellərdə ikinci şəxsin cəminin düzəlməsində göstərir. Bu şəkilçilərin oxşar və fərqli cəhətlərinə diqqət yetirək. Əvvəl, mənsubiyyət kateqoriyasının II şəxsin təkinin morfoloji əlaməti olan –ın[4] şəkilçisi ilə fellərdən isimlər əmələ gətirən şəkilçilərə nəzər salaq. Bu şəkilçilərin yalnız bir oxşar cəhəti vardır ki, o da həmin şəkilçilərin formaca eyni olmağı, yəni omonimliyidir. Fərqli cəhətləri isə aşağıdakılardır:

1.Mənsubiyyət kateqoriyasının II şəxsin təkinin şəkilçisi sözdəyişdirici şəkilçidir, yəni sözün formasında dəyişiklik yaranır. Digəri isə sözdüzəldici şəkilçidir, çünki yeni məna kəsb edən sözlərin yaranmasında iştirak edir.

2.-ın[4] mənsubiyyət kateqoriyasının II şəxsin təkinin morfoloji əlaməti kimi iştirak etdiyi halda, sözdüzəldici şəkilçi kimi işlənən –ın[4] şəkilçisi isə fellərdən isimlər əmələ gətirir. Məsələn, *sağmaq – sağın, əkmək - əkin, biçmək – biçin, səpmək – səpin* və s. –ın[4] mənsubiyyət kateqoriyasının II şəxsin təkinin şəkilçisi kimi: Adi bir insanam, sənin **yanında**, Başqa qayğılarla yaşayıram mən. Yuxarıda qeyd etdik ki, mənsubiyyət kateqoriyasının II şəxsin təkini əmələ gətirən –ın[4] şəkilçisi ismin yiyəlik halının morfoloji əlaməti ilə də omonimdir.

Onları bir-birindən fərqləndirmək üçün aşağıdakıları yadda saxlamaq lazımdır:

1) Yiyəlik hallı isim digər hallarda olduğu kimi ikinci dəfə hallana bilmir. Mənsubiyyət şəkilçisi isə hal şəkilçisi qəbul edir. Məsələn, **sənin kitabın – kitabını – kitabında – kitabından**.

2) Mənsubiyyət şəkilçili sözün əvvəlinə **sənin** əvəzliyini əlavə etmək olar. Məsələn, **Kitabın məndədir. Sənin kitabın məndədir.**

II şəxsin təkinin mənsubiyyət şəkilçisi felin əmr şəklinin II şəxsin cəminin şəxs şəkilçisi ilə oxşardır. Lakin bu şəkilçilər formaca oxşarlıq təşkil etsələr də, məzmunca bir-birindən çox fərqlənirlər. Hər ikisi qrammatik şəkilçi olsa da, biri mənsubiyyət kateqoriyasında, digəri isə fel şəkillərində tədris edilir. –ın[4] əmr bil-

dirən fellərdə ikinci şəxsin cəmini düzəldən şəkilçi kimi: **Qoyun** o qoca loğman tarixi **varaqlasın.** Bu nümunədə göstərilən **qoyun, varaqlasın** sözləri əmr şəklinin II şəxsin cəmində işlədilmişdir. II şəxsin təkinin mənsubiyyət şəkilçisinə isə aşağıdakı nümunəni misal göstərmək olar. **Sənin sabahını** kölgələndirən Məğrur keçmişinin ləkəsiyəm mən...

II şəxsin cəmində saitlə bitən isimlərdə **-nız**[4], samitlə bitən isimlərdə isə **-ınız**[4] mənsubiyyət şəkilçilərindən istifadə olunur. Məsələn: **Eşqiniz** – gələcək. **Yaşınız** – səhər. **Qəlbiniz** işıqlı, **fikriniz** təzə!

Müasir Azərbaycan dilində bir sıra sözlərdə **-ın** [4] şəkilçisi daşlaşmışdır. Həmin sözlər kök və şəkilçiyə ayrılmır: sərin, yaxın, burun, yoğun və s. Bütün bunlardan aydın olur ki, II şəxsin təkinin mənsubiyyət kateqoriyasını ifadə edən **-ın, -in, -un, -ün** şəkilçisi müxtəlif sözlərin tərkibində müxtəlif mənalar ifadə edərək omonimlik xüsusiyyətini özündə cəmləşdirmişdir.

İkinci şəxsin cəmində saitlə bitən isimlərdə **-nız, -niz, -nuz, -nüz**, samitlə bitən isimlərdə isə **-ınız, -iniz, -unuz, -ünüz** mənsubiyyət şəkilçilərindən istifadə olunur. Məsələn: **Eşqiniz** – gələcək. **Yaşınız** – səhər. **Qəlbiniz** işıqlı, **fikriniz** təzə!

Mənsubiyyət kateqoriyasının üçüncü şəxsin təki və cəmində saitlə bitən isimlərdə **-sı, -si, -su, -sü** (**-yı, -yi, -yu, -yü**) şəkilçilərindən istifadə olunur. Məsələn: ...Bir də günəşə baxdı, qırmızı işığın **şöləsi** ağrı içində qovrulan şairin sifətində elə bil çıraq kimi yandı, amma bu yanğıdan üzü-gözü bir qədər sərinlədi.

Üçüncü şəxsin təki və cəmində **-yı, -yi, -yu, -yü** şəkilçilərindən də istifadə olunur. Bu istisna haldır ki, bəzi sözlərdə özünü göstərir. Dilimizə ərəb dilindən keçmiş **mənafe, mövqe, mənşə, tale, mənbə** tipli alınma sözlər mənsubiyyət şəkilçilərini qəbul edərkən, digər saitlə qurtaran sözlərdən fərqli olaraq, **"y"** bitişdirici samitinin də əlavə olunmasını tələb edir: mənbəyi, mənşəyi, taleyi, mənafeyi. ***Su*** və ***nə*** sözləri milli söz olmalarına baxmayaraq, mənsubiyyətə görə dəyişərkən yuxarıdakı alınma sözlər kimi dəyişir: suyu, nəyi.

Üçüncü şəxsin təki və cəmi samitlə bitən isimlərdə isə **-ı, -i, -u, -ü** ünsürlərindən istifadə olunur. Məsələn: Aeroport Zaurun **gözləri** qarşısında canlandı: gecəyə qərq olmuş uçuş **meydanı**, rəngbərəng siqnal **işıqları**, qapısı açıq təyyarə, trap və trapda Təhminənin təzə **dostları** – televiziya **işçiləri**, qapının ağzında kiçik, cib fənərini yandırıb biletləri yoxlayan stüardessa.

Üçüncü şəxsin təki və cəminin mənsubiyyət şəkilçiləri eynidir.

Üçüncü şəxsin təki və cəmini əmələ gətirən **-ı, -i, -u, -ü** şəkilçisi mənsubiyyət şəkilçisi ilə omonim şəkilçidir.

1) **-ı, -i, -u, -ü** şəkilçisi sözdüzəldici şəkilçi olub, fellərdə isim əmələ gətirir. Məs.: *ölçmək – ölçü, qorxmaq – qorxu, çəkmək – çəki, yazmaq – yazı, ölmək – ölü* və s.

2) **-ı, -i, -u, -ü** şəkilçisi isim və fellərdən sifət əmələ gətirir. Məs.: *armud – armudu, palıd – palıdı, durmaq – duru* və s.

3) **-ı, -i, -u, -ü** həmçinin adlardan təsirsiz fel əmələ gətirən şəkilçidir; məsələn: *bərk – bərkimək, çirk – çirkimək, təng – təngimək, ləng – ləngimək* və s.

4) **-ı, -i, -u, -ü** az məhsuldar olub, feldən fel düzəldən şəkilçidir; məsələn: *qazmaq – qazımaq, sürmək – sürümək, daşmaq – daşımaq, toxmaq – toxumaq* və s.

5) **-ı, -i, -u, -ü** əsasən, cəm şəkilçisi qəbul etmiş zaman məzmunlu sözlərdən zaman zərfi əmələ gətirən şəkilçisidir; məsələn: *sabahlar – sabahları,gecələr – gecələri, dünənlər – dünənləri, əvvəllər* **-** *əvvəlləri* və s.

6) **-ı, -i, -u, -ü** nisbətən az məhsuldar şəkilçi olub, aşağıdakı məqamlarda düzəltmə isimlər əmələ gətirir.

a) İsimlərdən rəqs adı bildirən isimlər yaradır: *qaytağı, heyratı, çobanı, vağzalı,* innabı və s.

b) İsimlərdən təxəllüs bildirən isimlər əmələ gətirir: *Təbrizi, Şirvani, Zərdabi, Kərbalayi, Qəzvini, Məsudi* və s.

7) **-ı, -i, -u, -ü** şəkilçisi sözdəyişdirici şəkilçi olub, həm də ismin təsirlik halını əmələ gətirir; məsələn: *kitabı, qələmi, qoyunu, üzümü, çantanı* və s.

III şəxsin təkinin mənsubiyyət şəkilçisi ilə ismin təsirlik halının şəkilçisi qeyd etdiyimiz kimi omonim şəkilçidir. Onları aşağıdakı şəkildə fərqləndirmək olar. Mənsubiyyət şəkilçisi qəbul etmiş isim çox zaman yiyəlik hal şəkilçisi qəbul etmiş isimlə söz birləşməsi əmələ gətirir. Bu zaman cümlədə hər ikisi bir cümlə üzvü olur: **Dostun sözü (nə?) qiymətli olar.** Tək işləndiyi zaman isə əvvəlinə **onun** əvəzliyini əlavə etmək olur: **(Onun) Sözü (nə?) qiymətlidir.** Təsirlik halda olan söz isə cümlədə tamamlıq kimi işlənir. Məs.: **Məktəbi (nəyi?) təmir etdilər.** İstisna hallarda zaman məzmunu bildirərək zaman zərfliyi ola bilər: **Gecəni** yatmamışam. **Yayı** şəhərdə qaldım.

Nümunələrdən də göründüyü kimi, **-ı, -i, -u, -ü** şəkilçisi yalnız ismin təsirlik halının morfoloji göstəricisi kimi çıxış etdikdə sözdəyişdirici, digər hallarda isə yeni mənalı sözlər əmələ gətirməklə sözdüzəldici şəkilçi funksiyası daşıyır.

Ədəbiyyat

1. Müasir Azərbaycan dili – Morfologiya, II hissə. Bakı, Elm, 1980, 510 s.
2. Xəlilov B., Müasir Azərbaycan dilinin morfologiyası, I hissə. Bakı, Nurlan, 2007, 280 s.
3. Hüseynzadə M., Müasir Azərbaycan dili, III hissə. Bakı, Şərq-Qərb, 2007, 280 s.
4. Cəfərov C., Nitq hissələrində keçid prosesləri və konversiya. Bakı, ADPU, 2009, 292 s.

Самира Худиева

Формирование категории принадлежности в Азербайджанском языке и роль местоимении в этом працэссэ

Резюме

В Азербайджанском языке грамматические категории делятся на две части: общие и особые. Категория принадлежности одна из общих категорий. В статье исследуется формирование категории принадлежности в Азербайджанском языке и роль местоимении в этом працэссэ**.**

Samira Khudiyeva

Forming of the possession category in the Azerbaijani language and role of the pronouns in this process

Summary

Grammatical categories are separated into two parts in the Azerbaijani language: proper and common. Category of possession is one of general grammatical categories. In the article is investigated forming of the category of possession in the Azerbaijani language role of the pronouns in this process.

Rəyçi: Professor Həsən Mirzəyev

ŞƏHLA ŞİRƏLİYEVA
Bakı Dövlət Universiteti
azfolklor@yahoo.com

TÜRK DİLİNDƏ HƏRƏKƏT FELLƏRİNİN FUNKSİONAL-SEMANTİK VƏ STRUKTUR XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: türk dili, fel, dilçilik, hərəkət, semantika
Ключевые слова: тюркский язык, глагол, языкознание, движение, семантика
Key words: Turkic language, verb, linguistics, movement, semantics

Müasir türkologiyanın aktual problemlərindən biri ayrı-ayrı nitq hissələrinin leksik-semantik konturlarının tədqiqindən ibarətdir. Bir nitq hissəsi kimi fel də bu baxımdan böyük maraq doğurur. Çünki fcl özünün tipoloji parametrlərinə, semantik sahəsinə görə digər nitq hissələrindən əsaslı şəkildə fərqlənir. Sintaktik vahid kimi predikatlıq məzmunu kəsb edən fel bu funksiyasına görə cümlə strukturunda da aparıcı mövqe tutur.

Felin leksik-semantik qrupları arasında hərəkəti ifadə edən fellər qrupu xüsusilə zəngindir. Araşdırmalar göstərir ki, Azərbaycan və türk dillərində hərəkət fellərinin semantik sahəsi invariant leksik-qrammatik xüsusiyyətlər əsasında formalaşır. Bu əlamətlərin müəyyənləşməsi bilavasitə həmin sahədəki situasiyanın dəyişib-dəyişməməsi ilə bağlıdır. Həmin sahənin ən ümümi görüntüsünü, özəyini «hərəkət etmək» anlayışı yerinə yetirir. Ayrı-ayrı leksik-semantik qruplar üzrə fellərin semantik-sintaqmatik potensialının tədqiqi olduqca əhəmiyyətlidir. Hərəkot fellərinin struktur-semantik cəhətləri bir nitq hissəsi kimi fellərin qrammatik mahiyyətinin aydınlaşdırılması, onun sintaktik statusunun müəyyənləşdirilməsi baxımından da əhəmiyyətlidir. Bu məsələnin ayrı-ayrı formalar üzrə tədqiqi bir tərəfdən türk dillərində hələ geniş dairədə öyrənilməmiş semantik sahə nəzəriyyəsinin daha da zənginləşməsinə, digər tərəfdən, Azərbaycan və türk dillərində felin semantik cəhətdən daha dərindən və hərtərəfli öyrənilməsinə imkan yaradır.

Türk dillərində hərəkət felləri dedikdə subyektin məkanda yerdəyişməsini bildirən fellər nəzərdə tutulur. Həqiqətən, hərəkət fellərində subyektin yerdəyişməsi –

(T) Kemal ileri yürüdü. Coçuk yüzüyor.

(A) Şir birdən irəli cumdu, İdmançı göldə üzür

- başlıca xarakterik xüsusiyyətlərdən sayılır.

Azərbaycan və türk dillərində hərəkət fellərinin leksik-semantik qrupları semantik-sintaktik əlamətlərin ümumiliyi əsasında birləşmis sözlərin vəhdətini təşkil edir. Bu dillərdə hərəkət felləri subyektin müəyyən sahədə fiziki hərəkətini ifadə edir.

Hər iki dildən verilmiş yuxarıdakı nümunələr Azərbaycan və türk dillərinin hərəkət fellərinin semantik müxtəlifliyini şərtləndirən aparıcı cəhətin istiqamət kateqoriyasından ibarət olduğunu göstərir.

Tədqiq olunan dillərdə hərəkət fellərinin semantik sahəsi kauzativ və qeyri-kauzativ fellərin paralel birliyindən ibarətdir.

Hərəkətlər müəyyən ardıcıllıqla - müəyyən xətt üzrə baş verir. Hərəkətin başlanğıc nöqtəsi olduğu kimi, son nöqtəsi də olur. Bu hərəkətlər dildə öz ifadəsini fellərdə tapır. Daha doğrusu, fel bu və ya digər hərəkətləri inikas etdirir.

a) fel insan hərəkətlərini əks etdirir:
(T) Coçuk kaçıyor
(A) Uşaq qaçır
b) fel heyvan və quşlara aid hərəkətləri əks etdirir:
(A) Pələng şığıyır
(T) Kuş uçuyor
c) fel cansız əşyalara aid hərəkətləri əks etdirir:
(T) Uçak uçuyor,
(A) Təyyarə uçur,
(T) Araba gediyor,
(A) Maşın gəlir və s.

Azərbaycan və türk dillərində hərəkət fellərinin semantik sahəsi invariant leksik-qrammatik əlamətlər əsasında formalaşır. Bu əlamət "sahədə vəziyyəti dəyişdirmək" və "sahədə vəziyyəti dəyişdirməmək" antonimiyası ilə müəyyənləşir. Semantik strukturun sadəliyinə görə bu sahənin ən ümumi üzvü, özəyi rolunu haraket etmek (hərəkət etmək) feli yerinə yetirir. Digər hərəkət etmək felləri daha mürəkkəb quruluşa malik olur. Onların təsnifinin əsasında mücərrəd kateqorial mənalar durur: "hərəkət səciyyəsi", "hərəkət mühiti", "hərəkət üsulu" və "hərəkətin ümumi istiqaməti". Bu mənalar fellərin ətrafında olan sözlərin təhlili ilə müəyyənləşir. Hərəkət fellərinin semantik sahəsi ən ümumi şəkildə, daha çox, "hərəkətin səciyyəsi" əlaməti üzrə qruplaşdırılır. Maraqlıdır ki, Azərbaycan dilində çəkmək feli bir sıra prosesləri (məsələn, *siqaret çəkmək, su çəkmək* və s.) bildirir. Türk dilində isə eyni mənanın ifadəsi üçün *siqara çəkmək* yox, *sigara içmek* ifadə cdir.

Türk dillərində hərəkət fellərinin semantik sahəsini aşağıdakı kimi də müəyyənləşdirmək olar: 1) dinamik hərəkət bildirən fellər: *gelmək, qaçmaq* və s.;

2) qeyri-dinamik hərəkət bildirən fellər: *tərpənmək, yırğalanmaq* və s.;

3) fırlanma hərəkəti bildirən fellər*: fırlanmaq, hərlənmək* və s.

Metaforik mənalar. Metaforik mənalar keçid mənalar olaraq hərəkət felinin sonradan qazanılmış əlavə mənaları sayılır. Nümunələrə diqqət yetirək:

Gelmek/gəlmək felinin metaforik mənaları.

Etiraf mənasında: gel: (T) Bu iş elimden gelmez. (A) Pislik etmək mənim əlimdən gəlməz.

Danışmaq mənasında: (T) dile gelmek, (A) dilə gəlmək. Körpə dilə gəlirdi. Cana gəlmək.

Dəyişmək mənasında: (T) Yine bahar geldi, bülbül sesinden/Seda verip seslendinmi yaylalar (Ruhsati)

Itirmək mənasında: Bütün şeylərim əlimdən gedib. Ağanın malı gedər, nökərin canı.

Ərə getmək mənasında: Bəs nə üçün ona getmədin?

Girmek/girmək hərəkət felinin metaforik mənaları.

Çıxmaq, dırmaşmaq mənasında: ağaca çıxmaq; səfərə çıxmaq. Girmək mənasında: suya girmək; borca girmək.

Geymək mənasında: əyninə girmək (keçirmək), xalat geymək (xalat əyninə girmir).

Kaçmak/qaçmaq hərəkət felinin metaforik mənaları. Nəyisə söz verib etməmək mənasında: *sözündən qaçmaq, vədindən qaçmaq*.

Gitmek/getmək hərəkət felinin metaforik mənaları. Bu hərəkət feli müxtəlif metaforik mənalarda işlənə bilir:

(T) Attığım boşa gitmiyordu (TIID); ölüp gitmek; kıranda çok koyun gitti; tırmanmak, yokuş yukarı gitmek; qonaq getmək. müzakirə gedir, vuruşma gedir, işlər yaxşı gedir, iki ölkə arasında danışıqlar gedir, qarşılıqlı güzəştə getmək, yola düşmək, qatar iki saatdan sonra yola düşür (gedir), yaxınlaşmaq, gəlmək, yaz yaxınlaşır, axmaq, tökülmək, yaradan qan gəlir (axır), su damcı-damcı gəlir, tilova gəlmək, yuxum gəlmir və s.

Geçmek/keçmək felinin metaforik mənaları: aşmaq, adlamaq mənasında:

köprüyü geçmek; caddeyi/sokağı karşıdan karşıya geçmek, dağı aşamadılar: burada nehir geçit vermiyor; növbəti mərhələyə keçid mənasında: beşinci sınıfı geçmek; nəyinsə irsən keçməsi mənasında: miras yoluyla geçmek/intikal etmek:söhbəti dəyişmək mənasında: *(T) başka konuya geçmek;* döyüş akt: mənasında: *hücuma geçmek;* dəyişiklik mənasında: *(T) iktidar emekçilerin eline geçti;* nəyinsə sahibliyinin dəyişməsi mənasında: *(T) elden ele geçmek/dolaşmak,* məkanın, mənsubiyyətin dəyişməsi mənasında: *(T) yeni daireye geçmek; düşman yanına geçmek, düşmana kaçmak (T)* (1, 365-366).

Dolaşmak/dolaşmaq felinin metaforik mənaları:

getmək, baş çəkmək mənasında: (T) gidib gelmek; ziyaret etmek; muzeleri ziyaret elmek; hastayı yoklamalı; nereleri dolaştın geldin? girip çıxmaq mənasında: (T) gerçek bir savaşa girip çıkmak; birçok işlere girip çıkmak; üç kez hapse girip çıkmıştı; gəzmək, dolanmaq mənasında: Dolaşdım dünyanı, gəzdim baş-başa. (AƏ); Qoy bir az dincəlsin, ovda da dolaşsın, onda Firuz bəyin təbi gələr, yazar (TŞS); uçaraq dövrə vurmaq mənasında: Qartallar göy üzərində dolaşır; yayılmaq, intişar etmək mənasında: Zavodda pulların tapıldığına dair şad bir xəbər dolaşdı (SR); ağızdan-ağıza, dildən-dilə yayılmaq mənasında: Mənim adım bu vaxtadək dildən-dilə dolaşır (CC).

Dolaşmaq feli aşağıdakı metaforik mənaları da ifadə edir: nahaqdan işə düşmək, çətin və çıxılmaz vəziyyətə düşmək; sataşmaq, toxunmaq, öcəşmək və s. - Ev molla dayı, gəl bu müsəlmanə dolaşma! (ƏQ), Bəylərə, xana dolaşmaq da zarafatmı məgər (ON); çaşmaq, karıxmaq, sözünün dalını gətirə bilməmək, qarışdırmaq mənasında: O, sözünün axırında dolaşdı.

Bu hərəkət feli bir sıra sözlərə qoşularaq müxtəlif ifadə və tərkiblər əmələ gətirir: *əl-ayağa dolaşmaq, ağlı dolaşmaq, dili dolaşmaq* (2, 132).

Keçid mənalar. Azərbaycan və türk dillərində hərəkət felləri müxtəlif keçid mənaları ifadə edir. Məsələn: Atlamak. İkı feldən türk dilində sıçramaq, fırlamak, çıkmak mənalarının ifadəsi üçün istifadə olunur. Məs.: ayağa fırlamak; yataktan fırlamak; çıkmak- tuzluya. oturmak (1, 73).

Azərbaycan dilində atlamak felinin qarşılığı kimi irəli atılmaq, sıçramaq, cummaq hərəkət felləri işlədilir. Məs.: Şir irəli atıldı; Oaraquş sıçradı; İt mənə tərəf cumdu. Addımlamaq. Müasir Azərbaycan dilində adi hərəkəti bildirən bu fel türk dilində yürümek formasında təzahür edir. Məs.: (T) yolda yürümek (yolda addımlamaq); türk dilində aşmak mənasında: (T) adım atıp eşigi aşmak; bir addım atmak; büyük bir ilerleme kaydetmek (`1, 663).

Aşmak/aşmaq. *(T) Tutarı bin çubleyi aştı/keçdi; Köç dağı aşdı.*

Düşmek/düşmək. Çoxmənalı xarakterə malik bu fel həm "yola düşdü" getmək mənasında, həm də raslamak (Bayram bazara düştü) mənasında izlənir: *T) Yola düştü*; *Bayram pazara düştü.*

Dönmek (T) - Yandan-yana dönmek. Qayıtmaq (A) - Sığırçılar kəndə qayıdırdılar (İS). Dolaşmak - bu fel türk dilində «gidib gelmek; ziyaret etmek» mənasında işlənir: (T) Nereleri dolaştın geldin; Adamlar kəndin yan-yörəsini dolaşırdılar. İlerle (T) – irəlilə (A) Asker, ilerle!; Qoşun irəliləyirdi. Yönelmek (T)- yönəlmək (A) *Araba yöneldi. Maşın kəndə tərəf yönəldi.* Gezmek (T)-gəzmək (A) Coçuklar gezirdiler; Turistlər meşəni gəzirdilər. Konmak (T)-qonmaq (A) *Kuş kondu/Quş qondu.* Yetmek (T), yetmək(A) Araba köyə yetti/Maşın kəndə yetdi. Köçmek (T)- köçmək (A) *Fezli başka köye köçtü. Biz öz kəndimizə köçdük.* Yollanmak (T), yollanmaq (A) *Kasabaya yollandık / Qəsəbəyə yollandıq.* İtələmək. Bu hərəkət felinin qədim kökü «it»-dir. Çuvaş, oyrot, yakut və digər türk dillərində bu kök mühafizə olunmuşdur. Qazax dilində *it+er* formasındadır (1 13, 78). İməkləmək. (T) Coçuk imekledi; Uşaq iməkləyirdi. Varmak. Ulaşmak/koşmak/çatmaq mənasında: *Deniz kenarına vardım/çatdım.* Gezmek/gəzmək. Həqiqi mənasından əlavə *(Parkta gezinmek; çocukları gezdirmek)* bu fel türk dilində *tatil olmak, eylenmek, keyfetmek; cümbuş yapmak* mənalarında da işlənməkdədir (1, 108).

Sürümək/sürümek. Bu fel türk dilində sürüklemek; haddeden çekmek; düşe kalka yürümek; ayaklarını sürümek; sağ ayağını süyüyerek yürür; sürüklenmek; yerde sürüklenmek; peşinde koşmak və s. mənalarında işlənir.

Sürüşmək. Bu hərəkət feli müasir Azərbaycan dilində də kifayət qədər işləkdir. Türk dilində bu felin qarşılığı kimi kaymak sözündon istifadə edilir. Kay/qay qədim fel köküdür. Müasir türk dilində qalsa da, Azərbaycan dili üçün arxaikləşmişdir. Müqayisə edək: *parke üstünde kaymak - parket üstündə sürüşmək, toprak islaktı, ayaklar kayıyordu - torpaq islandığı üçün ayaqlar sürüşürdü.*

Sürünmək. Türk dilində bu fel aşağıdakı mənalarda işlənir: *sürünerek inmek; bu dağdan güc bela sürünerek inebildik.* Azərbaycan dilində isə sürünmək feli enmək felinin mənasını özündə ehtiva etmir. Azərbaycan dilində sürünmək feli torpağın üzərində qarnı və arxası üstə irəliləmək mənasındadır. Məs.: *İlan sürünür. Uşaq arxası üstə sürünür.*İnebilmek (T) – enmək (A). Yuxarıdan və ya bir şeyin üstündən aşağı düşmək. Bu hərəkət türk dilində analitik, Azərbaycan dilində isə sintetik formalarla ifadə olunur. Bu cəhət qohum dillərin hərəkət fellərinin fərqli formal əlamətlərindəndir. Məsələn, müqayisə et: *(T) Köyden ine bildik*, *Dağdan arana endik; Kənd uşaqları əllərində badya, mis kasa dərəyə enirdilər (AŞ).*

Geçmek/keçmək. Türkiyə türkcəsində geçmek/keçmək felini götürək: *köprüden geçmek. Minski gece geçdik. İstasyonu geçdim.*

İkinci mənada yapmak (yol) almak mənasında: *Yirmi dört saate üç yüz kilometre yaptı.* Üçüncü mənada: *yolçuluk(lar) için harcamak.* Geçmek/keçmək hər iki dildə ismi birləşmənin birinci tərəfi kimi çıxış edir: *gelib geçen turistler/gəlib keçən atlılar.* Çekmek/çəkmək. Bu hərəkət feli Türkiyə türkcəsində aşağıdakı mənalarda işlənir: əşyanın yerini dəyişmək mənasında: *(T) Masayı buraya çek;* oynatmaq, kımıldatmaq mənasında: *(T) Kaşlarını oynatmak;* hərəkətə gətirmək mənasında: *Hareket ettirmek; su turbinleri hareket ettirir;* sürmek mənasında; *(T) Tümeni cepheye sürmek; erini/piyadesini sürmek* (1, 111). Çökmek/çökmək. (T) koltuğa çöktü; Denize sis çöktü; Qoca dizi üstə yerə çökdü.

Kaldırmak/qaldırmaq. Bu hərəkət feli hər iki dildə çapmaq mənasını verir: atı dördnala kaldırmak/çapmak; Cahandar ağa atı dördnala çapırdı (İ.Şıxlı).

Koşturmak/qoşdurmaq. Bu hərəkət feli türk dilində *sürmək* mənasında *(Atı koşturdu/sürdü),* Azərbaycan dilində isə iş feli kimi *(Atı arabaya qoşdurmaq)* işlənir. Gitmek/getmək. Bu hərəkət felinin Türkiyə türkcəsindəki əsas mənasına aşağıdakı nümunələri misal göstərmək olar: (T) yürümek; gelmek-eve gitmek: yayan gitmek, yürümek; tırıs gitmek; tahtaya kalk!, öne düş; yol almak - tren hızlı gidiyordu; gemi Odesaya doğru yol alıyordu; karşıdan bir kamyon gidiyordu; izi takip et.; ava gitmek; ben gidiyorum; benimle gelir misin? Gidip gezsen; misafirliye gitmek; suya gitti; sinemaya gidelim; duşman Moskvaya yürüyordu. Eyni məna oxşarlıqlarına Azərbaycan dilində işlənən getmək felində də rast gəlirik: Bağa getdi. Ova getdi və s. Keçmek/geride bırakmak(T) – keçmək/ötüb-keçmək.

Gelmek/gəlmək. Bu hərəkət felinin hər iki qohum dildə bir-birinə oxşar və fərqli formaları, mənaları vardır. Türk dilindən nümunələr: *(T) gelmek; varmak; yarın gel; bahar geldi/girdi; tren geldi; Tren Moskovaya kaçta varır?* Müasir Azərbaycan dilində *varmaq* feli arxaikləşmişdir. Ona görə də varmaq felinə daha çox qədim abidələrin dilində rast gəlmək olar. Məs.: «Kitabi-Dədə Qorqud»-da. «Dastani Əhməd-Harami»də *varmaq* deyil, *gəlmək* hərəkət felindən istifadə cdildiyini görürük.

Oeyd edək ki, *köçmək, keçmək, gəlmək, getmək, gəzmək* hərəkət felləri bir semantik qaynaqdan qidalanır. Bu hərəkət fellərinin kökü *gö, ge, ge, kə* təkhecalı asemantik köklərdir. H.Mirzəyevin fikrincə, -gö, -ke, -ge, -go asemantik kökləri ilə başlayan sözlərdə əşyanı yerindən uzaqlaşdırmaq, dinamik hərəkəti icra etmək mənası özünü mühafizə etmişdir (4, 55).

Tırmanmak/dırmanmaq. Bu hərəkət felinin tədqiq edilən hər dildəki mənası demək olar ki, eynidir: tırmanarak çıkmak; girmek, ağaclara tırmanmak/çıkmak: tırmanmak, yokuş yukarı gitmek, dırmanmaq/dırmaşmaq.

Çıkmak/çıxmaq. Bu hərəkət feli həm Azərbaycan, həm də türk dilində, ilk növbədə qalxmaq/kalkmak mənası verir:

(T) Balonla on beş kilometreye çıkmak;

Basamakları ağır-ağır çıkmak; merdivenden beşinci kata çıkmak; asansörle (liftlə) çıkmak; dağa çıkmak; gemiye çıkmak; kürsüye çıkmak; perde beş kere inip kalktı; kaşları yukarı kalktı; ayağa kalkmak; düştü ama derhal ayağa kalktı; masta yakında kalkacak; çıkmak-kopmak mənasında: Rüzgar çıktı/aldı; fırtına çıktı/koptu; toz kalktı; gürültü koptu (1, 387). Kalkmak/qalxmaq. Bu hərəkət feli isə bəzi məqamlarda havalanmak mənasını ifadə edir. Bu hərəkət quşlara və təyyarəyə aiddir. Məs.: *(T) havalanmak, kalkmak. Yatakdan kalkmak; hücuma kalkmak; ayağa kalkmak.* Kaldırmak/qaldırmaq. Türk dilində kaldırmak deyərkən, nəyisə hərəkətə geçirmek nəzərdə tutulur: Bölüğü hücuma kaldırmak; yığınları bağımsızlık savaşımı için harekete geçirmek (1, 387). Azərbaycanda isə qaldırmaq feli belə bir mənaya malik deyildir.

Ədəbiyyat

1. Emre A. Türk dilbilgisi. Istanbul, 1945, 244 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. II cild. Bakı: Elm, 1980, 576 s.

3. Ойротско-русский словарь. Москва: 1947, 701 с.
4. Mirzəyev H. Azərbaycan dilində sadə fellər. Bakı: ADPU, 1984, 126 s.

Shahla Shiraliyeva

Functional- semantic and structural features of the action verbs in Turkish language

Summary

Article is about the study of lexical-semantic units as one of the actual problems of modern Turkology different parts of speech. As a part of speech verb in this regard is of great interest. Because the parameters of its typology, according to the semantic differ fundamentally from other parts of speech. Verb, which is a common theme, such as syntactic hold leading positions in the structure of the sentence in this function. Lexical -semantic groups of verbs and action verbs that are especially rich in the group. Studies have shown that an area of the Azerbaijani and Turkish languages semantic invariant action of verbs formed on the basis of lexical-grammatical features. The determination of these traits are directly related to the change in the situation has changed. The most common view of the area, the backbone of the " movement " concept is fulfilled.

Шахла Ширалиева

Функционально-семантические и структурные особенности глаголов действия в турецком языке

Резюме

Статья посвящена изучению лексико-семантических единиц как одной из актуальных проблем современной тюркологии. Как часть речи глагол в этой связи представляет большой интерес. Поскольку параметры его типологии, в соответствии с семантическими принципиально отличаются от других частей речи. Глагол, который является общей темой, например, синтаксические предикативность занимают лидирующие позиции в структуре предложения в этой функции. Лексико-семантическая группа глаголов и глаголов действия, которые особенно богаты в группе были изучены на богатом материале. Исследования показали, что в зербайджанском и турецком языке семантический инвариант глаголов действия формируются на основе лексико-грамматические особенностей. Определения этих черт напрямую связаны с изменением ситуации.

Rəyçi: Afaq Ramazanova
filologiya üzrə fəlsəfə doktoru, dosent

MƏRYAM FAZİLZADƏ
Bakı Dövlət Universiteti
E-mail: fazilzade_ulker@yahoo.com

THE BASIC FEATURES OF STANDARD MANUSCRIPT FORM

Açar sözlər: Uyğunlaşdırmaq, sahə, tələsik, səhv, qiymətləndirmək
Ключевые слова: Корректировать, поля, поспешно, ошибка, оценивать
Key words: Proofread, margins, hastily, error, evaluate

The appearance and correctness of a manuscript – regardless of content-are important. A sloppily written manuscript with misspelled words and other careless errors says two things to the reader:

(1) this student was not interested enough to proofread, to check, to revise;

(2) this student has no pride in quality work.

Paper and ink. If you typewrite, use standard size white typewriting paper. Type double space, using a black ribbon. Do not type on both sides of the paper.

The title. Place the title in the center of the first line of a ruled page and skip a line between the title and the beginning of the composition. In a typewritten composition the title should be placed about two inches below the top of the page. Do not underline the title; do not enclose the title in quotation marks unless it is a quotation.

Margins. Leave a margin of at least one-and-a-quarter inches at the left and one inch at the right side of the paper. The left-hand margin must be even; the right-hand margin should be as even as possible. Leave a margin of at least one inch at the top and the bottom of all pages after the first.

Indention. Indent the first line of every paragraph about inch from the left-hand margin; in typing indent these lines five spaces.

Indent long quotations one inch or five spaces from both the left- and right-hand margins; in typewritten work, a quotation treated in this way should be single-spaced. The first line of ezch paragraph in an endented quotation should be further indented from the quotation's left-hand margin. If a long quotation is indented and clearly identified, quotation marks may be omitted.

Labeling and numbering pages. One common practice is to label the first page by writing your name, the name or number of the course, and the date in the upper right-hand corner. This information should be given on three separate lines, one below the other. Number all pages, except the first, with Arabic numerals in the upper right-hand corners. You may be asked to write your name beneath the page number on each sheet.

General Appearance. Do not spoil the appearance of your composition with cross-outs and insertions between lines; do not use margins for changes or additions. If corrections are long or if they cannot be made neatly, rewrite the entire page. In typewritten work, do not sacrifice neatness for speed; retype any page containing excessive strikeovers or messy erasures.

Revising the first draft.

Every composition should be written at least twice: as a first draft and as a final manuscript. The first draft is your copy, meant for your eyes alone. The process of revision is an extremely important stage in the writing of a composition. It should never be done casually or hastily. Plan the revision of your first draft in three distinct steps; 1-evaluate the content and the general organization of the entire composition ; 2- eliminate badly constructed sentences and poorly chosen words; 3- check the mechanics. After the final draft has been written, proofread your manuscript carefully for careless copying errors. When the revision is completed, write the composition in its final form. Be sure to proofread the final draft. There exists the following checklist for revision.

First, evaluate: Quality of material(effectiveness, relevance, etc), general organization (sequence of ideas),division into paragraphs(check your topic sentences) ,transitions (within and between paragraphs),variety of sentence structure

Eliminate: Errors in grammatical usage(agreement, pronouns, verbs, adjectives, and adverbs), sentence fragment and run-on sentences, awkward sentences, confusing sentences, wordiness, clichés (trite expressions)

Check: Spelling ,punctuation (watch the placement of the apostrophe. Don't omit final quotation marks), capital letters, hyphenation (especially the division of words at the ends of lines)

In compositions, don't use abbreviations except in certain special instances in which abbreviations are customary.

Incorrect During Sheila's 1st yr. At the Univ.of Ala..,she devoted most of her spare time tennis and track; then, one Fri.aft, in Apr.she announced to a friend at the Chem. Bldg., I've decided to become a premed major!

Correct During Sheilla's first year at the University of Alabama she devoted most of her space time to tennis and track; then,one Friday afternoon in April, she announced to a friend at the Chemistry Building ' I've decided to become a premed major!'

1. The following abbreviations are customary before a name; Mr..,Messrs.,Mrs.,Ms.,Dr.,Rev.,St.(Saint). The following abbreviations are customary after a name: Jr. Sr. The college degrees B.S. ,Ph.D., etc., may be abbreviated whether they are used with a name or not.

Nonstandard Mother asked me to tell dr. that jr. feels much better today.
Standard Mother asked me to tell the doctor that Junior feels much better today.
Standard Dr.Herbet Simms, Jr, has a sister, Alice Simms, Ph.D
Standard Holders of the Ph. D. degree are properly addressed as ''Doctor''

2. The following abbreviations are acceptable in all writing: A.D. (A.D. 1066); B.C.(44 B.C.); A.M. or P.M. (2:30 P.M); etc.(and so forth); i.e. (that is);e.g. (for example). Generally understood abbreviations for government agencies are acceptable :NASA,FBI (notice that periods are not used with these abbreviations)

Don't begin a sentence with a numeral.

Nonstandard 342 students must commute to our high school every day.

Standard Three hundred and forty-two students must commute to our high school every day.

For example; two million, ten cents, ninety dollars, seventy-nine

But in statistical and technical writing, all numbers are generally written as numerals. All page numbers are written as numerals. Numbers representing dates do not follow this rule.

Hyphenate all compound (two-word) numbers form twenty-one to ninety-nine. Don't hyphenate a fraction unless it is used as an adjective.

Examples; He won by a two-thirds majority.
Two thirds of the girls in this class are attending.

Write out numbers like *third, forty-first*,etc., rather than writing them as numerals with letter endings

Examples My mom and dad celebrated their twenty-fourth wedding anniversary with letter endings.

Exception Street numbers may be either written out or written as numerals with letter endings.

In dates, numerals only are used when the name of a month precedes the date. When the date precedes the name of a month or stands alone, either write out the number or use a numeral with a letter ending.

Examples My birthday is December 21.
We shall see you on the 12^{th} of July.

Dividing a word at the end of a line.

If it is necessary to divide a word ,it should be divided between syllables.(A syllable is a letter or group of letters pronounced as a single sound). Your dictionnary gives the correct syllable division of every word it contains. Whenever you are in doubt on a syllabication problem, consult the dictionary. A great many of these problems can be solved by the application of the following simple rules.

Incorrect play-ed (one-syllable word)
Correct played

A word having double consonants should be divided between the consonants.

Example control-ling
bil-lion

Don't divide a word so that a single letter stands alone. if possible, don't divide a word so that only two letters are carried over to the next line.

Awkward i-solate
Better iso-late

Words having prefixes and suffixes should be divided between the prefix and the root of the word or between the root of the word and the suffix.

Examples inter-jection; dis-mantle; over-joyed

Correction symbols

We learn how to write by recognizing and correcting our own errors, but often we don't recognize our errors until they are pointed out by a teacher. More often than not, your compositions will be returned to you with marginal notations by your teacher indicating errors and corrections. Learn the meanings of these notations; make the corrections they call for. This kind of practice-and lots of it-is an indispensable part of learning to write English effectively.

Correction Symbols used by teachers

We learn how to write by recognizing and correcting our own errors, but often we don't recognize our errors until they are pointed out by a teacher. More often

than not, your compositions will be returned to you with marginal notations by your teacher indicating errors and corrections.

ms error in manuscript form or neatness
cap error in use of capital letter(s)
p error in punctuation
sp error in spelling
frag sentence fragment
ss error in sentence structure
k awkward sentence
rs run-on sentence
nc not clear
ref unclear reference of pronoun
gr error in grammar
w error in word choice
t error in tense

The correct preparation of a manuscript is every writer's responsibility. You should follow standard practice in spelling and usage. You should follow standard practice in writing and typing your manuscript, just as you follow standard practice in spelling and usage as well as the basic rules of standard manuscript form, from the first draft to the final paper submitted for the teacher's corrections and evaluation.

Bibliography

1.Norman Lewis.Word Power Made Easy
2.Swan.Practical English Usage
3. X.Myers.Rosanna T.Herndon.Dynamics of Speech
4.John E.Warriner.English Grammar and Composition.
5.Cherry. On human Communication.MIT Press Cambridge.

M. Fazilzadə

İngilis dilində olan əl yazmanın xüsusiyyətləri

Xülasə

Məqalədə əl yazmanın son variantının hazırlanması, materialın düzgün seçimi, fikirlərin uyğunlaşdırılmasının təşkili qaydaları işıqlandırılmışdır. Həmçinin əsas diqqət əvəzlik, fel, sifər və digər əsas nitq hissələrinin istifadəsində yaranan xətaların aradan götürülməsinin problemlərinə yönəldilmişdir. Məqalədə ingilis dilində mövcud ixtisarların, ingilis dilinə xas olan rəqəmlərin istifadə qaydaları göstərilməşdir. Bununla birgə məqalədə ikiqat şamilli,tək və çox qat mürəkkəb sözlərin şəkilçilərin, prefikslərin sətirdən sətirə köçürülməsi qaydaları verilmişdir. Məqalənin sonu ingilis dilini mükəmməl öyrənmək məqsədi ilə yaranan xətaların, səhvlərin tapılması və düzəldilməsi praktikasına həsr olunmuşdur. Həmçinin səhvlərin düzəlişi prosesində istifadə olunan işarələrin tam siyahısı verilmişdir.

М. Фазильзаде

Особеннности рукописи в английском языке

Резюме

В данной статье освещаются правила подготовки окончательного варианта рукописи, а также вопросы правильного подбора материала, общая организация в согласованности идей. Особое внимание уделено также проблемам искоренения ошибок в употреблении местоимений, глаголов, прилагательных и других основных частей речи. Статья также коснулась правил употребления не только сокращений в английском языке,а также свойственных английскому языку особенностей употребления английских чисел. Наряду с этим показаны особенности переноса слов, а именно подробно рассмотрены примеры при переносе слов с учетом двойных согласных, односложных и многосложных слов, а также при наличии префиксов и суффиксов. Практика выявления и исправления ошибок является неотъемлемой частью эффективного изучения английского письма и в связи с этим конец статьи посвящена практике выявления и исправления ошибок. В дополнении к этому дан подробный список символов, используемых в процессе исправления ощибок.

Rəyçi: Dosent Möminat Ömərova

GÜLNARƏ SƏFƏROVA
MEHRİBAN İBADULLAYEVA
ADU
safarovagulnara @mail.ru

CÜMLƏ İNTONASİYASININ ÜMUMİ ƏSASLARINA DAİR BƏZİ QEYDLƏR

(İngilis və Azərbaycan dillərinin materialları əsasında)

Açar sözlər: intonasiya, melodiya, cümlə vurğusu, temp, tembr, pauza
Key words: intonation, melody, ences stress, tempo, tember, pause
Ключевые слова: интонация, мелодия, фразовое ударение, темп, тембр,

Dil-danışıq səsləri – zahirən adi görünən bu vahidlər, ecazkar qüvvə potensiyasına malikdir. Dilin fonetik faktları üzərində iş – səslərin, sonra isə fonemlərin tədqiqi böyük fonetika aləminin çıxış nöqtəsi, başlanğıcı, giriş qapısıdır. Qeyd edilməlidir ki, dilin bütün sisteminə maddi qida verən, onun daxili və xarici məna cəhətlərinin qanunauyğunluqlarını dəqiq müəyyənləşdirməyin bir növ açarı olan dilin fonetik quruluşu onun fonoloji sisteminin kiçik dil vahidlərinə söykənir. Bu həmin sahənin tədqiqatçısının qarşısında böyük məsuliyyət qoyur, ondan son dərəcə dəqiqlik, həssaslıq, hərtərəfli mühakimə qabiliyyəti tələb edir. Deməli, dil sistemində insanın nitq fəaliyyətində və daha konkret sahələrdə fonetik vahidlərin, fonetik proseslərin rolunun, müəyyənedici rolunun araşdırılması fonetikadan çox fonetik proseslərin fəaliyyət sferasının tədqiqidir. Beləliklə, intonasiyanın müxtəlif dil faktları üzrə funksiyalarını ətraflı araşdırarkən aydın olur ki, hər bir cümlə çox maraqlı, rəngarəng dil faktları ilə doludur. Cümlənin strukturunda özlərinə məxsus yer tutan üzvlərin reallaşmasında intonasiyanın, onun komponentlərinin və s. rolu böyükdür ki, onlarsız nitq prosesi reallaşmır. İntonasiya və onun əsaslarını təşkil edən komponentlər ayrılıqda fəaliyyət göstərə bilmir. İntonasiya seqment vahidlərin (fonemlərin) düzümündən formalaşan vahidlərin üzərində fəaliyyət göstərir. Nitq intonasiyasının komponentləri aşağıdakılardır:

1) Melodiya (ton)
2) Cümlə vurğusu
3) Temp (sürət)
4) Tembr (boya, çalarlıq)
5) Fasilə (pauza)

Melodiya – hər hansı bir sintaqm və ya cümləni tələffüz edərkən səs tonunun səviyyəsinin ucalıb alçalması (tonun qalxıb enməsi) deməkdir. İntonasiyanın bu komponenti nitq zamanı məna yaradıcılığında mühüm rola malikdir. O, intonasiyanın əsas tərkib vasitələrindən biri olmaqla, təsdiq, sual, nida və s. cümlə tiplərinin və növlərinin əmələ gəlməsinə xidmət edir. Bir çox dünya dillərində olduğu kimi, azərbaycan dilində də dörd intonasiya tipi vardır: nəqli, sual, nida, əmr. Bu intonasiya tipləri arasındakı fərqi biz keyfiyyətcə müxtəlif qrammatik quruluşlar kimi qavrayırıq. Belə bir qavrayış prosesi intonasiyanın müəyyən zaman daxilində dəyişən və bölünən tərkib ünsürlərinin əsas tonun, səs ucalığının, vurğunun, yaratdıqları müxtəlif keyfiyyətlərin şüurumuzda etdiyi təsirindən meydana gəlir. (3, s. 84)

İntonasiyanın dinamik komponenti olan cümlə vurğusu melodik komponentə bələdçilik edir. Cümlə vurğusu – cümlədə vəhdət təşkil edən vurğular sistemi kimi başa düşülür. Cümlə vurğusu eyni zamanda səs tonunda ucalığın və hecada uzunluğun dəyişməsi ilə də ayrılmaz surətdə bağlıdır. Cümlə vurğusu söz vurğusu kimi müəyyən tələffüz ənənələrindən asılı deyildir. Söz vurğusu sərbəst olub intonasiyadan heç bir asılılığı olmasa da, bunu cümlə vurğusu haqda demək olmaz. Cümlə vurğusu intonasiyanın əsas komponentlərindən hesab edilir. Sözlər cümlədə kəsb etdikləri məna dərəcələrinə, semantik əhəmiyyətlərinə görə müxtəlif dərəcəli vurğular qəbul edirlər. Sözlərin cümlənin tərkibində vurğu daşıyıb daşımaması onların həmin cümlə daxilində kəsb etdikləri semantik əhəmiyyətdən asılıdır. Funksional cəhətlərinə və xarakterik xüsusiyyətlərinə görə cümlə vurğusu məntiqi, sintaqmatik, aksent (ritmik) qrupu vurğularının təşkil etdikləri bir sistemdir. Həm Müasir Azərbaycan, həm də ingilis dilindən götürülmüş cümlələrə nəzər salaq:

«Otaq cülüş səsiylə dolmuşdu. Tanrı ̀özü də gülürdü.» (N.Gün)

Qayıdış əvəzliyi olan «özü» cümlə daxilində formal ünsür kimi çıxış edərək kontrastiv vurğu ilə tənzimlənmişdir. Əsas gərginlik «özü də» sözündə cəmlənmişdir. Beləliklə, kontrastiv vurğunun köməyilə cümlə strukturuna yeni bir çalar əlavə olunmuşdur.

İngilis bədii ədəbi irsindən götürülmüş cümləyə nəzər salaq:

«He may supply the material himṣelf.» (J.Galsworthy)

Burada postpozisiyada işlənən «himself» əvəzliyi kontrastiv vurğu ilə səciyyələnir.

Nitqin tempi-onun hər hansı bir parçasının tələffüzünə sərf olunan vaxtla ölçülür. Nitq axınının orta sürətini təyin etmək üçün bir saniyə ərzində tələffüz edilən hecaların sayını təyin etmək lazımdır. Nitqin tempi intonasiyada müəyyən tələffüz stilinə xidməd edir və nitqin üslubundan asılıdır. J.V.Şerba nitq tempində iki stil – adi danışıq stili və tam stili tanıyır. (9, s. 302)

Nitqin tembri – nitq səslərinin özlərinə məxsus rəngarənglikləri və ya keyfiyyətləridir. Belə rəngarənglik rezonatorların həcmi və aldıqları formalarından irəli gəlir. Tembr nitqdə müəyyən bir səsin spektirini təşkil edən müxtəlif formantların məcmusundan ibarətdir.

Fasilə – danışıq zamanı nitq cihazının öz fəaliyyətini müvəqqəti olaraq dayandırması deməkdir. Danışıq zamanı fasilə əsas etibarilə iki işə xidmət edir: 1) tələffüzün anatomo-fizioloжki ritmini saxlamağa; 2) müəyyən nitq (fonosemantik) vahidləri arasındakı sədləri müəyyənləşdirməyə. Misala nəzər alaq:

I. *Mağaraya girmək istəyirdi ki, dəvə bərkdən səsləndi*. (Ə.Vəliyev)

II. *Mağaraya girmək istəyəndə dəvə bərkdən səsləndi*.

Bu misallarda zərflik budaq cümləsi feli bağlama tərkibli sadə nəqli cümlə kimi verilir. Burada baş verən intonasion-struktur-semantik fərqlərə nəzər salaq:

Cümlədə suprasintaktik vahidlərin, intonasiyanın rolu daha böyük əhəmiyyət kəsb edir. Tərkibində bağlayıcı olan birinci cümlə tələffüz olunarkən cümlənin ritmik-melodik üzvlənməsinin təmin edilməsi üçün burada vasilənin son həddinə əməl edilir. Bu cümlənin modifikasiya edilməsi nəticəsində feli bağlama tərkibli sadə nəqli cümlədə həm struktur, həm də semantik baxımdan müəyyən fərq əmələ gəlir. Birinci cümlədə məna daha nəzərə çarpan idisə, feli-bağlama tərkibli sadə nəqli

cümlədə zərfliyin determinantlığı sayəsində bu məna yükü bütün cümlə boyu paylanaraq, ritmik-melodik üzvlənməni dəyişdi. Bu cümlədə I sintaqmın, yəni feli-tərkibin özündən sonra yaratdığı fasilə adi dərəcədədir. Beləliklə, fasilə komponenti nitq axınını ayrı-ayrı cümlələrə və bəzən də cümlələri sintaqmlara ayırmağa xidmət edir. Buna görə də bu komponent intonasiya konturunda müxtəlif sintaktik vahidləri biri-birindən seçmək və müəyyən etmək funksiyasına malikdir. Nitq prosesində göstərilən bu ünsürlər bir-birindən ayrılıqda deyil, həmişə sıx qarşılıqlı və mürəkkəb bir əlaqədə çıxış edirlər. Bu mənada ingilis alimi P.H.Metyuz qeyd edir ki,dil ən azı iki cür minimal vahiddən ibarətdir, onlardan biri sintaksis və semantikanın əsas vahididir, o birisi isə fonoloжi vahiddir. (8, s. 50)

S.M.Babayev isə qeyd edir ki, nitq intonasiyası bütün dillərdə insan fəaliyyətini müxtəlif şəkillərdə izah etmək, insanın gerçəkliyə olan məntiqi-ixtiyari və emosional münasibətlərini göstərmək üçün istifadə etdiyi ünsiyyət vasitəsidir. (4, s.9) Hər hansı bir nitq vahidinin təhlilində başlıca olaraq onun səs konturu və daşıdığı məna öyrənilir. Müasir tədqiqat işlərində nitq intonasiyasının təbiəti əsasən iki planda öyrədilir:

1. Fiziki (akustik planda)
2. Funksional planda. (3, s. 84)

German dilçiliyində intonasiya ilə bağlı müxtəlif fikirlər vardır. Avropa dillərinin əksəriyyətində ton cümlə səviyyəsində relevantdır. Ancaq norveç, isveç, litva, latış, sloven, serb-xorvat, şimali alban və bəzi Niderland dialektlərində ton söz səviyyəsində relevantdır. (5, s. 406) Deməli, intonasiya qəlibi hecaların qarşılıqlı əlaqəsini, quruluşunu, vurğu və s. məsələləri əhatə edir. Hər bir konkret cümlə (söyləm) özünün səs tərkibi və heca strukturu intonasiya strukturu ilə də xarakterizə olunur. Intonasiya, linqvistik bir anlayış kimi dilçilikdə əsasən iki mənada – dar və geniş mənada izah edilir. Belə ki, xarici dilçilikdə intonasiya anlayışına dar məna baxımından yanaşırlar, ancaq, bir komponentdən ibarət olması fikrini irəli sürürlər.

J.V.Şerba nitq intonasiyasının təsdiq, sual, bitkinlik, natamamlıq, sadalama, bitişdirmə, əlavə və s. kimi ən ümumi tiplərini vermişdir. (9, s. 300) Digər qrup dilçilər intonasiyanın dörd əsas fonoloжi (simmetriya, assimilyasiya, eyniləşdirmə, dərəcələrə bölmə) tiplərini verir və qeyd edirlər ki, intonasiya cümlənin səddini göstərmək cümlənin melodik xəttini onun ayrı-ayrı hissələri arasında bölüşdürmək fikri və emosional cümlələri bir-birindən seçmək vəzifəsini görür. Həmin hissələr bir-birindən əks əlamətlərlə fərqlənir və hərəsi öz mövqeyinə bir cür xidmət edir.

Azərbaycan dilçiliyində də intonasiya anlayışına müxtəlif yanaşmalar mövcuddur. Belə ki, A.Axundov, S.M.Babayev, F.H.Zeynalov, F.Y.Veysəlli və başqaları intonasiya anlayışına geniş anlamda izah verirlər. Dilçilər qeyd edirlər ki, intonasiya anlayışına yalnız melodiya deyil, cümlə vurğusunu, nitqin tempi, tembri, ritmi, fasiləsi və s. daxildir. Onlar intonasiyanı bu komponentlərin qarşılığı, birliyi və onların mürəkkəb dəyişməsi kimi izah edirlər. Beləliklə intonasiyanın fiziki xassələri öz-özlüyündə ayrılıqda müəyyən məna ifadə etməyə qadir deyildir. Onlar məna ifadəedici xarakterə yalnız və yalnız dil sistemi daxilində malik olurlar. Bu o deməkdir ki, şüurumuzda mövcud olan ikinci siqnal sistemi müəyyən məqsədəuyğun bir şəkildə fiziki xassələrin axınına daxil olandan sonra sözün əsl mənasında nitq prosesi meydana gəlir.

Beləliklə, intonasiya özlüyündə ifadənin məzmununun əksinə olaraq dəyişə bilir. Bununla da, nitq intonasiyasınınsən onun fonoloji-akustik faktları ilə, onun funksio-nal təbiəti isə həmin faktların qarşılıqlı əlaqəsindən əmələ gələn mürəkkəb formalaşdırıcılıq və ya kommunikativlik ilə təyin edildiyi qənaəti bir daha təsdiq-lənmiş olur. A.M.Peşkovskinin dediyi kimi, intonasiya vasitələri öz hərəki sərbəst xarakterləri ilə fərqlənir. İntonasiya səs vasitələri üzərinə mürəkkəb rəngarəng naxiş layları ilə yayılır, onlarla heç bir müəyyən əlaqəyə girmir, bəlkə, əksinə addımbaşı onlardan fərqlənir, onlar bir növ dilin qrammatik səthi üzərində mövcud olurlar. (12, s. 191)

Beləliklə də, fonetik ünsürlər prinsipcə leksik-qrammatik vasitələrdən fərqlə-nir, lakin onlar canlı nitqdə həmin vasitələrin mənalarının səsləndiricisi rolunu oy-nayırlar.

Ədəbiyyat

1. Axundov A.A. Azərbaycan dilinin fonetikası. Bakı: Maarif, 1984, 390 s.
2. Axundov A., Babayev S., Zeynalov F. Ingilis və Azərbaycan dillərində vurğunun ritmik melodik xüsusiyyətləri. Bakı: ADU nəşriyyatı, 1996, 252 s.
3. Babayev S.M. Nitq intonasiyasının fonetik və funksional təbiəti. // Axundov adına APXDI-nin elmi əsərləri, 1996, Seriya 12, Dil və Ədəbiyyat, № 3, s. 82-87.
4. Babayev S.M. Ingilis danışıq ritminin perspektiv aspektinə dair // Elmi Xəbərlər, № 5, 2002, s. 3-9.
5. Veysəlli F.Y. German dilçiliyinə giriş. Bakı: Təhsil, 2003, 406 s.
6. Bowen F. and Marks J. The Pronunciation Book. London: Piligrims-Longman, 1992, 289 p.
7. Brazil D. Coulthard M. Intonation and Language Teaching. London: Longman, 1980, 400 p.
8. Matthews P.H. Morphology - an Introduction of the Theory of Word Structure. London: Cambridge, 1979, 350 p.
9. Щерба Л.В. Фонетика французского языка. М.: Просвещение, 1963, 309 стр.
10. Peter Roach. English Phonetics and Phology. Cambridge University Press 4th edition.
11. Jehiste-Else. The role of Prosody in the Internal Structuring of Sentence. Tokyo, 1982, 210 p.
12. Halliday M.A.K. A Course in Spoken English Intonation. London: Oxford University Press, 1970, 317 p.
13. Пешковский А.М. Интонация и грамматика. Избранные труды. М.: высшая школа, 1959, № 209.

G.Safarova
M.Ibadullayeva

Some Notes on General Basis of Sentences Intonation
(On the Basis of Material of the English and Azerbaijani Languages)
Summary

The article deals with the common nature of sentence intonation which is the characteristic features of all languages, as well as the English and Azerbaijani languages. In the article an attempt is made to study the components of intonation in a general way which vary and acquire specific character in various languages.

Г.Сафарова
М.Ибадуллаева

Некоторые заметки к основным фактам интонации предложений
(на основе материалов английского и азербайджанского языков)
Резюме

Статья рассматривает общие свойства интонации предложения, которые являются характерной чертой всех языков, так же как английского и азербайджанского. В статье была сделана попытка изучить компоненты интонации, которые изменяются и приобретают особые специфические свойства в разных языках.

Rəyçi: Kifayət Alırzayeva
filologiya üzrə fəlsəfə doktoru

SƏİDƏ HACIYEVA
ADPU-nun magistrantı
seide_haciyeva@hotmail.com

AZƏRBAYCAN DİLİNDƏ SAİT SƏSDƏN İBARƏT SÖZ YUVALARI VƏ ONLARIN ƏMƏLƏ GƏLMƏ YOLLARI

Açar sözlər: söz yuvaları, sait, samit, səs, söz kökü.
Ключевые слова: гнёзды слов, гласные, согласные, звук, корень слова.
Key words: word slots consisting of vowel sounds, vowel, consonant, word root.

Azərbaycan dilində olan söz yuvaları araşdırılarkən onların sait səsdən və həmçinin, sait və samit səsdən ibarət olması müəyyənləşir. Bu məqaləmizdə biz dilimizdəki sait səsdən ibarət söz yuvaları və onların əmələ gəlmə yolları ilə bağlı araşdırmalara nəzər salacağıq. Azərbaycan dilindəki söz yuvalarından bəhs edən prof. H.Mirzəyev bu məsələ ilə bağlı belə məlumat verir: "Dilçilikdə söz köklərinin, xüsusən, eyni söz yuvalarından təşəkkül tapan sözlərin izahı problem məsələlərdən biridir. İstər türkoloqlar, istərsə də dilçilər bu problemlə, demək olar ki, az məşğul olmuş, və ya az maraqlanmışlar. Bir sözlə, dilçiliyimizdə bu problem lazımi şəkildə öz əksini tapmamışdır" (1.8).

Hər bir dilin lüğət tərkibi, fonetik və qrammatik quruluşu qədim-qayım dövrdən başlayaraq bu günə qədər uzun tarixi yol keçmişdir. Eyni zamanda inkişafın müxtəlif mərhələlərində təkmilləşmiş, cilalanmış və bölünməz kristal strukturları əmələ gətirmişdir.

Dil sistemi ilə bağlı müqayisələr göstərir ki, fonetik, leksik və qrammatik quruluşda baş verən dəyişmələrin səviyyəsi bir-birindən fərqlənir. Məsələn, fonetik və qrammatik quruluşa nisbətən, leksik quruluş daha çox dəyişir. Ona görə də lüğət tərkibində baş vermiş dəyişmə, çarpazlaşma, müxtəlif dillərlə genetik-kontakt əlaqələri leksik quruluşda tez bir zamanda üzə çıxır.

Bizə belə gəlir ki, dünyada elə bir dil yoxdur ki, onun lüğət tərkibi bütövlükdə saf olsun. Dilin lüğət tərkibinin tam şəkildə saf olmaması səbəblərindən ən başlıcası budur ki, hər bir xalq, millət digərləri ilə ərazi cəhətdən qonşuluq münasibətində yaşayır. Bu münasibət zamanı, təbii olaraq, dillərin əlaqəsi, çarpazlaşması baş verir. Həm də təbii olaraq, əlaqələrin tarixi də dillərin ən qədim, qədim, orta, yeni, ən yeni dövrləri səviyyəsində üzə çıxır.

Bəzən əlaqələrin tarixi o qədər qədimlərə gedib çıxır ki, səbəbdən-nəticəyə, sadədən mürəkkəbə olan yolu, yaxud da bunun əksini tapmaq, görmək çox çətin olur. Belə demək mümkünsə, ən qədim dövrlərə aid dil əlaqələrinin səbəbini, dəqiq tarixini açmaq üçün yazılı mənbələr də bir çox zaman az qala rolunu itirir. Məhz onda müəyyən suallar, problemlər yaranır. Onların cavabı da bəzən qeyri-müəyyənliyə, aydın olmayan mücərrəd bir təhlilə, izaha söykənmiş olur.

Dillər arasında olan tarixi əlaqələr dil faktı vasitəsilə təsdiqlənir. Lakin ən qədim dövrlərdə dil əlaqələrini törədən, mənbə, başlanğıc, səbəb və s. kimi hallar çox vaxt qeyri-müəyyənliyə yaxınlaşır. Məsələn, xet dilinin tibet, iber-qafqaz və s. dillərlə olan əlaqəsi həm sual, həm də maraq doğurur.

Bu əlaqələrin səbəbini açmaq isə qeyri-müəyyən qalır və mücərrəd bir şəkildə öz həllini tapa bilmir. Yaxud, xet dilində bir sıra dil faktları vardır ki, onların etimoloji baxımdan Azərbaycan dili, o cümlədən türk dilləri ilə olan əlaqəsini görməmək mümkün deyildir.

Bu cür müqayisələr istər-istəməz sual doğurur: necə olmuşdur ki, xet, xurrit, urartu dilləri ilə Azərbaycan, o cümlədən türk dilləri arasında dillərin amorf quruluşa malik olduğu bir səviyyədə əlaqə olmuşdur? Bu sualın cavabı isə tam dəqiq olmayan qeyri-müəyyən dövrlərə, izahlara və səbəblərə gedib çıxır.

Amorf tipdən iltisaqi tipə keçmənin nə zaman baş verdiyini bilməsək də, pratürkdə səs uyuşması qanununun yaranması və sözlərin şəkilçiləşməsi prosesinin mövcud olması faktı göstərir ki, həmin keçid dövrü pratürkün ilkin mərhələlərində başa çatmışdır.

Maraqlıdır ki, pratürk dövrü üçün bərpa olunan praformalarda iltisaqi əlamətlərlə yanaşı, az da olsa, fleksiya əlamətləri nəzərə çarpır. Bu isə o deməkdir ki, amorf quruluşun pozulması ilk çağlarda həm iltisaqi, həm də flektiv əlamətlərin ortaya çıxmasına imkan açmışdır.

Görünür, bir müddət dildə yanaşı yaşayan flektivliklə iltisaqilik arasında tənzimlənmə istiqamətində çəkişmələr getmiş, nəticədə iltisaqilik üstün gəlmişdir. Əlbəttə, bu prosesdə iltisaqi tipin ön xəttə çıxması yolunda səs quruluşunun həlledici rolu olmuşdur, xüsusilə o dövrün fonetik qatı üçün bərpa olunan beş sait morfoloji quruluşda səs uyuşması qanununu ortaya çıxarmış, həmin qanun isə morfemlərdə sinharmonik modellərin yaranmasına imkan açmışdır.

Səs quruluşu ilə morfoloji quruluşun qarşılıqlı əlaqəsi, bu əlaqəni əks etdirən faktorlar morfoloji quruluşun təsvir dairəsinə düşür, morfemlərin heca quruluşu, hecalanma modelləri, vurğunun dinamikası, fonematik ölçüləri və qaydaları, səs uyuşması modelləri morfoloji quruluşun xüsusiyyətlərini təşkil edir. Ona görə də iltisaqi quruluşun yaranma yolunda dönüş nöqtəsi olan səs uyuşması qanunu istər diaxroniya, istərsə də sinxroniya baxımından, həmçinin, fonotaktika, heca və morfoloji vahidlərin, kateqoriyaların ifadə formasının fonetik xüsusiyyətləri morfologiyanın tədqiqat obyektinə daxil olur.

Söz və şəkilçilərin rekonstruksiyasında onların derivatları müqayisə olunur və bütöv paradiqmada iştirak edən allomorfların içərisindən yuva üsulu ilə ümumi variant seçilir.

Yuva üsulu morfem arxetipini müəyyənləşdirmək baxımından əlverişli etap olduğu kimi, fonem sistemindəki praformaların bərpası üçün də gərəkli vasitədir. Yuva anlamının üç növünü fərqləndirmək lazım gəlir: söz yuvası, morfem (şəkilçi) yuvası və səs yuvası. Morfoloji rekonstruksiyada bu yuvaların hamısından istifadə olunur. Türkoloji ədəbiyyatda söz və morfem yuvalarından bəhs olunmuşdur, xüsusilə etimoloji araşdırmalarda törədici söz yuvalarına daha çox rast gəlmək olur, lakin səs yuvaları barədə bunu demək olmaz və xüsusilə diaxronik fonologiyası tədqiq olunmamış Azərbaycan dilində həmin vəziyyət daha qabarıq nəzərə çarpır. Türk dillərinin leksik tərkibində kök sözlərin xüsusi yeri vardır. Kök sözlər qrupuna birhecalı və ya tərkib hissələrinə bölünə bilməyən bir neçə hecalı sözlər daxildir.

Kök söz anlayışı ilə əlaqədar bir məsələni də nəzərə çarpdırmaq lazımdır ki, belə sözlər təkhecalı və ya bir neçə hecalı quruluşda olmasına baxmayaraq, sadə söz kökü səviyyəsi daşıyır. Yəni necə ki, birhecalı köklər düzəltmə sözlərin əsası olursa,

kök və şəkilçiyə bölünməyən bir neçə hecalı sözlər də eləcə düzəltmə sözlər üçün kök əsası olur. Ona görə də birhecalı və tərkib hissələrinə bölünə bilməyən bir neçə hecalı sözlərin hamısı bütövlükdə kök sözlər adlandırılır.

İstər birhecalı və istərsə də bir neçə hecalı sözlərin tarixən formalaşmasına müxtəlif amillər təsir göstərmişdir. Bu amillərin öyrənilməsi türk dillərində sözlərin yaranması və formalaşması imkanlarını müəyyənləşdirmək baxımından maraqlıdır. Məsələn: belə bir suala cavab tapmaq maraqsız sayıla bilməz ki, birhecalı sözlər nə zaman yaranmışdır və nə üçün müasir dövrdə kök-şəkilçi tərkibli düzəltmə sözlər əmələ gəldiyi halda, birhecalı vahidlərin formalaşmasına təsadüf edilmir?

Bundan əlavə, birhecalı sözlərin hamısının sabit və vahid quruluşa malik olmaması məsələləri də tədqiqatçıları daim düşündürmüş, bir çox hallarda onların formalaşması barədə müxtəlif fikirlər söylənməsinə səbəb olmuşdur.

Məsələn, mütəxəssisləri həmişə düşündürən problemlərdən biri budur ki, görəsən birhecalı sözlərdən hansı ilkindir? Əvvəli samitlə başlayıb sonu samitlə bitənlər, əvvəli saitlə başlayıb sonu samitlə bitənlər, yoxsa əvvəli samitlə başlayıb sonu saitlə bitənlər?

Birhecalı sözlərin problemləri bununla bitmir. Onların tərkibində, həmçinin, əvvəli saitlə başlayıb sonu iki samitlə bitən və əvvəli samitlə başlayıb sonu iki samitlə bitən növlər də mövcuddur. Tədqiqat cəhətdən, şübhəsiz, həmin tipli sözlərin quruluşca təhlili də maraqlı görünür.

kök sözlərin forması və quruluşu ilə bağlı olan sual doğuran məsələlər çoxdur. Şübhəsiz, bu sualların hamısına cavab tapmaq mümkün deyildir.

Doğru cavablar isə aparılan tədqiqatların uğurlu cəhəti sayılmalıdır.

Kök sözləri quruluş cəhətdən təhlil eymək üçün aşağıdalkı kimi problemlərin müəyyən olunması xüsusi əhəmiyyət kəsb edir:

1. Birhecalı sözlərin formalaşmasında kökdaxili proseslər: həmin prosesdə semantik və struktur amillər.
2. Birhecalı sözlərin formalaşmasında kökxarici proseslər: babb və abb quruluşlu köklərin formalaşması.
3. İki və üçhecalı kök sözlərin əmələ gəlməsi: analitik və sintetik formalar.

Türk dillərindəki birhecalı sözlərdə köksüzlük, ikihecalı sözlərdə analitiklik və sintetiklik, üçhecalı sözlərdə isə sintetiklik (aqlütinativlik) mərhələsinin əlamələri yaşayır.

Tədqiqatçıların araşdırmaları təsdiq edir ki, dilimizdə işlənən sözlərin əksəriyyəti türk dillərinə məxsus ana kitabələrdən biri olan Orxon-Yenisey yazılı abidələrində təşəkkül etmiş şəkildə əks olunmuşdur. Onları müasir türk dillərindəki sözlərlə, xüsusilə də fellərlə müqayisə etdikdə o qədər də fərqli cəhətlər üzə çıxmır. Məsələn, başqırd dilçisi M.A.Axmetov Orxon-Yenisey yazılı abidələrindəki felləri müasir başqırd dilində işlənən fellərlə müqayisəli şəkildə tədqiq etmişdir. Onun müqayisə etdiyi birhecalı və ikihecalı fellərin əksəriyyəti müasir türk dillərində, demək olar ki, eynilə işlənir. M.A.Axmetovun hesablamasına görə, Orxon-Yenisey abidələrində 178 fel kökü işlənmişdir. Bunlardan 108-i birhecalı, 70-i isə ikihecalı feldir. Orxon-Yenisey yazılı abidələrində ən çox işlənmiş fel kökü samit-sait-samit heca tipindədir.

B.Xəlilovun araşdırmalarına görə, bu heca tipləri içərisində ən qədim və ilkin olanları bunlardır: sait, sait-samit, samit-sait. Yerdə qalan heca tipləri, əsasən, bun-

lardan təşəkkül etmişdir. Hətta, həm Orxon-Yenisey yazılı abidələrində, həm də müasir türk dillərində say miqdarı ilə üstünlük təşkil edən samit-sait-samit heca tipli törəmə köklərdir. Onlar samit-sait heca tipindən formalaşmışdır (2.79.).

Mövcud dilçilik tədqiqatlarının bir çoxunda türk dillərindəki söz kökləri sait, samit-sait, sait-samit, sait-samit-samit, samit-sait-samit-samit heca tipləri əsasında izah edilmişdir. Bunlardan samit-sait-samit heca tipini ilkin hesab edən dilçilər də az olmamışdır. Lakin bir daha qeyd etmək lazımdır ki, tədqiqatlar nəticəsində sait, samit-sait, sait-samit heca tipləri nisbətən ilkin köklərdiir. Yerdə qalan heca tipləri bu ilkin köklərdən təşəkkül tapmış törəmə köklərdir.

Orxon-Yenisey yazılı abidələrində işlənmiş fellərin heca tipləri müasir türk dillərində, əsasən, eyni səviyyədə qorunub saxlanılmamışdır. Məsələn: müasir başqırd dilində qorunanlar bunlardır: samit-sait, samit-sait-samit, sait-samit-samit, samit-sait-samit-samit və samit-sait-samit-samit-sait. Eyni zamanda başqırd dilində sait, sait-samit, sait-samit-sait-samit, samit-sait-samit-sait-samit və samit-sait-samit-samit-sait-samit heca tipində olan fellər, demək olar ki, qalmamışdır. Orxon-Yenisey abidələrində işlənmiş fellərdən sait, samit-sait, samit-sait-samit-samit-sait-samit heca tipləri Azərbaycan dilində qorunmamışdır. Bu cür müqayisələri konkret olaraq hər bir türk dilində aparmaq mümkündür. Türk dillərinin əski çağlarına məxsus ilkin köklərdən biri sait səsdən ibarət heca tipində olmuşdur. Dilçilik ədəbiyyatlarında sait səsdən ibarət heca tipli köklər barəsində maraqlı fikirlərlə qarşılaşmalı oluruq.

Bu fikirlərin bəzilərində belə hesab olunur ki, tək bir saitdən ibarət sait heca tipli köklər sonralar yaranmışdır. Guya şumercədə sonu samitlə bitən bir çox sözlərdən samitlər düşmüş və nəticədə, yeni söz formaları üzə çıxmışdır. Məsələn, bil-, sağ-, sıx- kimi sözlərdən sonralar bi-, sa-, sı- formaları yaranmışdır. Eyni zamanda bu tipli sözlərdən bir çoxunda samitlərin düşməsi yolu ilə yeniləri formalaşmışdır. Yəni sözdə tək saitin qalması yeni bir kökü ərsəyə gətirmişdir. Həm də bu fikirdə olan dilçilərə görə, sait səsdən ibarət heca tipli köklərin uzun variantları da sait+samitdən ibarət sözlərdə sondakı samitlərin düşməsiylə yaranmışdır.

Bunu dəstəkləyən dilçilərə görə, həm də sözün (samit-saitdən ibarət olanlar) əvvəlindəki samitin düşməsi yolu ilə də sait səsdən ibarət heca tipli köklər əmələ gəlmişdir. Məsələn: su sözündə "s"-nın düşməsi yakut dilində u-nu (su mənasında) yaratmışdır. Yaxud yakut dilində sağ felində əvvəlcə sondakı "ğ", sonra əvvəldəki "s" samitləri düşmüş və "sağma, sağış (südü)" mənasında olan i kökü meydana çıxmışdır. Buradan belə nəticəyə gəlmək olur ki, ən əski dövrlərdə ilk sözlər sadə, bəsit deyil, bir çox dilçilərin dediyi kimi, çox qarışıq və çözülməz şəkildə olmuşdur. Onların fikrincə, ilk dil sadə sözlərdən qurulmamışdır. Guya əvvəllər bölünməz görünən qarışıq – mürəkkəb sözlər olmuş, sonralar onlar bölünmüşdür. Və onlar sadə, bəsit formalara – təkhecalılığa doğru inkişaf etmişdir. Buradan belə görünür ki, təkhecalılıq dilin sonrakı inkişaf mərhələlərində meydana çıxmışdır. Maraqlıdır ki, dilçilikdə ilkin sözlərin ən azı iki hecalı olması fikri də mövcuddur (8.61).

İkihecalılığı qəbul edənlər qeyd edirlər ki, ilkin köklərin ikihecalılığını sözlərin fizioloji baxımdan tələffüzü də təsdiqləyir. Onların fikrincə, birhecalı sözləri tələffüz edərkən danışıq üzvləri birdən-birə dayanmır. Eyni zamanda danışıq üzvlərinin əlaməti qəti olmur: ona görə də uşaq nitqində baba, dədə, nənə kimi ikihecalı sözlər xüsusi yer tutur. Lakin bizə belə gəlir ki, uşaq nitqindəki bu cür sözlər təzə-təzə dil açmağa can atan körpənin asan tələffüz etdiyi elementlərdir. Bu ele-

mentlər eyni sözün təkrarı ilə qurulmuşdur: ba-ba, də-də, nə-nə. Təkrar olunan bu elementlər – sözlər təkhecalıdır.

Ümumiyyətlə, B.Xəlilov tədqiqatlarında ikihecalı felləri (sözləri) tək hecalılardan təşəkkül tapması kimi araşdırmışdır. Onun fikrincə, tək bir saitdən ibarət sait heca tipli köklərə gəldikdə isə, yuxarıda qeyd olunan nəzəri fikirlərin heç birinin inandırıcı olmadığını qeyd etmişdir. Xüsusilə də, ikihecalı sözlərin ilkinliyi fikri sadədən mürəkkəbə doğru inkişaf xəttini inkar edir. Heç cür inanmaq olmur ki, ikihecalı sözlər (üçhecalılar və s.) azhecalılığa doğru inkişaf etmiş və təkhecalı sözləri əmələ gətirmişdir.

Sait səsdən ibarət heca tipli köklərin ilkinliyini, qədimliyini yazılı abidələrimiz də təsdiqləyir. Yazılı abidələrimizlə birlikdə bir sıra araşdırmalar da sübut edir ki, sait səsdən ibarət heca tipində olan ilkin köklər əski türkcədə işlənməklə yanaşı, çağdaş türk dillərinin bəzilərində də qorunub saxlanılmışdır. B.Xəlilovun fikrinə görə, sait səsdən ibarət heca tipli köklər, əsasən, aşağıdakılardır. İ kökü: i "qoxu" (müqayisə et, iy); i "əymək" (qırğız, teleut, kazan tayfalarının dillərində), "birinə baş vurmaq" (qara qırğız dilində), "tökülmək", "tük tökmək" (kazan tatarlarının dilində), "çürümək" (kazan tatarlarının dilində), "buraxmaq", "göndərmək" (altay, teleut, lebedin dillərində). "Əymək" mənası göstərir ki, i- və əy- felləri eyni mənbədəndir. Buradan görünür ki, tarixən türk dillərində i - ə keçidi baş vermişdir. i- "göndərmək", "tərk etmək", "qaçırmaq". İt-, itə- ilə bir mənbədə birləşirlər. i- "bağlamaq". İlgək, ilmə, ip, el//iliq (türk dillərinin bir çoxunda) və s. sözlər i- kökünün bu mənaları ilə bir yuvaya daxil olur. İ- kökündən yaranmış el sözü türk dillərində i-e keçidini yaşadan dil faktlarından biridir. i- "etmək". Bizcə, iş, işləmək, etmək və s. sözlər i- kökünün bu mənası ilə ilişgəli olurlar. Burada et- feli i-e keçidini türk dillərində qoruyub saxlayır.

İ- kökü sinkretik xüsusiyyətə malik olmuşdur. Kökün sinkretikliyini ad-fel məna qruplarında göstərmək olar. Ad mənası budur: "qoxu". Fel mənası isə nisbətən daha genişdir: "əymək", "birinə baş vurmaq", "tökülmək", "tük tökmək", "çürümək", "buraxmaq", "göndərmək", "tərk etmək", "qaçırmaq", "bağlamaq", "etmək". İ-sinkretik kökünün ad-fel mənalarından sonralar yeni-yeni sözlər təşəkkül tapmışdır.

I kökü: ı- "bitki, əkin, orman" (yazılı mənbələrdə və uyğur dilində işlənir). Ağac sözü bu köklə ilişgəli olur. Həm də ı-a keçidini qoruyur. I- "ağlama", "ağlayış" (şor dilində). Bizcə, ağla, ula sözləri bu kökün törəmələridir. Ula- sözü ı-u keçidini gerçəkləşdirən dil faktıdır.

O kökü: o- "ağu" (lebedin, şor, saqay dillərində). Ağu sözü o- kökü ilə eyni etimoloji mənbədəndir. Bu söz o-a keçidini təsdiqləyir. o- "yanmaq". Od, odun, ocaq və s. sözlər bu köklə bir yuvaya daxildir.

Ö kökü: ö – "düşünmək". Öyüd, öyünmək, öyrənmək və s. sözlər bu kökdəndir. ö – "oxumaq, öyrənmək". Bu kökdən yaranmış oxumaq, okul (türk dilində "məktəb") və s. sözlər ö – o keçidi əsasında yaranmışdır.

U kökü: u – "qarışdırmaq, ovmaq" (kazan və barabin tatarlarının dillərində). Kökün "ovmaq" mənası göstərir ki, u-o keçidi ilə ov- feli yaranmışdır. u – "ağu, zəhər" (teleut dilində), "əldən gəlmək, edə bilmək" (uyğur dilində). Ağu sözü u- kökündən yaranmışdır. Bu söz u – a keçidi ilə formalaşmışdır. u – "qarışdırmaq, ovmaq" (saqay dilində). u – "ev" (şor dilində), "yuxu" (yakut dilində). Məlumdur ki, əski türk dillərində u- "yuxu" mənasında işlənmişdir. U- kökündən yaranmış ev sözü u – e

keçidi ilə yaranmışdır. u – "anlamaq". Us "ağıl", usanmaq, huş sözləri bu kökün törəmələridir. u – "qüvvə, güc, taqət, bacarıq, itidir, gücü çatmaq, qadir olmaq, edə bilmək". Udmaq, uduzmaq, uduş və s. sözlər bu kökdən təşəkkül tapmışdır.

Ü- kökü: ü- "ev" (barabin və şor dillərində). Bu kökün "ev" mənası göstərir ki, u – e keçidi ilə ev sözü əmələ gəlmişdir. ü- "ovmaq" (saqay dilində), "toplamaq, birləşdirmək, birikdirmək" (altay, teleut dillərində). Ü- kökünün "ovmaq" mənası ov felinin ilkin ü- kökü ilə ilişgəli olduğunu göstərir. Həm də ü – o keçidinin tarixi mövcudluğunu üzə çıxarır. ü- "paylaşmaq". Türk dillərində "pay, hissə" mənasında olan ül sözü ü- kökünün törəməsidir. Ül sözü Azərbaycan dilində pay-püş yaxın mənalı sözünün püş komponentində qorunmuşdur. ü- "yüksəlmək, yuxarı çıxmaq". Ucalmaq, uca, yüksəlmək, yuxarı, üst və s. sözlər ü- kökünün törəmələridir (3.34). Ümumiyyətlə, qeyd etmək lazımdır ki, söz yuvalarının tədqiqi zamanı bir sıra maraqlı faktlar üzə çıxır.

Ədəbiyyat

1. Mirzəyev H., Orucova R. Azərbaycan dilində söz yuvaları (qa- söz yuvası ilə əmələ gələnlər). Filologiya məsələlərinə dair tematik toplu. N-2,Bakı, 2000, s.8-13.
2. Xəlilov B. Azərbaycan dilində söz köklərinin fono-semantik inkişafı. ADPU xəbərləri. Humanitar elmlər seriyası, N-1, Bakı, 1992.
3. Xəlilov B. Fellərin ilkin kökləri. Bakı, ADPU nəşri, 1998, 220 s.

Саида Гаджиева

Гнёзды слов состоящие из гласных звуков в Азербайджанском языке и пути их образования

Резюме

При исследовании гнёзд слов в Азербайджанском языке было установлено их образование из гласных, также из гласных и согласных звуков.

В данной статье просмотрены гнёзды слов состоящие из гласных звуков и пути их образования в Азербайджанском языке.

Saida Hajiyeva

Word slots consisting of vowel sounds and the ways of their formation in Azerbaijan language

Summary

While researching the word slots in Azerbaijan language, it is defined that they can both consist of vowel sounds or vowel and consonant sounds.

In this article on the word slots in Azerbaijan language consisting of the researchs vowels and their formation ways would be discussed.

Rəyçi: Firuzə Məmmədli
filologiya üzrə fəlsəfə doktoru, dosent

XANIMBACI İBRAHİMOVA
ADPU-nun magistrantı
xanimbacı@mail.ru

TERMİNLƏRİN ÜMUMİŞLƏK SÖZLƏRƏ ÇEVRİLMƏSİ

Açar sözlər: termin, transterminləşmə, reterminləşmə, determinləşmə, sahə terminləşmə, ümumişlək sözlər
Ключевые слова: термин, транстерминация, ретерминация, детерминация, сфера терминации, обще используемые слова
Key words: term, transterminatsiya , reterminatsiya, determination , the scope of termination , general words used

Ədəbi dilin lüğət tərkibində elə söz qrupları vardır ki, öz əlamətlərinə görə başqa söz qruplarından fərqlənir. Bu söz qruplarından birini terminlər təşkil edir.

Terminlərin özünəməxsus spesifik xüsusiyyətləri ədəbi dilin qeyri-terminoloji səciyyəli leksik vahidləri ilə, ilk növbədə isə, ümumişlək sözlərlə müqayisədə daha aydın müşahidə edilir. Termin və söz problemi dilçilikdə ən geniş fikir ayrılıqlarına səbəb olmuş problemlərdən biridir. Termin elmi anlayışların mövcudluq forması kimi, xüsusi bilik sahəsinə aiddir. Termin sözdür, lakin bütün sözlər termin deyil, adi sözlərdən fərqli olaraq termin özünəməxsus sözdür. Terminin özünəməxsus funksiyası nominativ funksiyadır. Funksional cəhətdən termin həm də definitiv funksiyanı yerinə yetirir.

Adi sözün mənası tarixi inkişaf nəticəsində formalaşır və dəyişir. Bu prosesdə sözün daxil olduğu müxtəlif leksik, semantik kontekstlər mühüm rol oynayır. Terminin mənası isə elmin özünün inkişafı ilə, yeni elmi istiqamətlərin və baxışların meydana gəlməsi ilə əlaqədar dəyişir. Buna görə də terminin mənası kontekstdən asılı olmur.

Terminin mahiyyətini, spesifikasını düzgün başa düşmək üçün birinci növbədə ümumi anlayış olan sözə müraciət etmək lazımdır. Çünki termin də sözdür. Söz isə dilin əsas vahididir. Söz leksik kateqoriyadır. Termin də leksik kateqoriyadır. Termin söz kimi nominativ xarakterə malik olub əşyaları, hadisələri və müəyyən məfhumları ifadə edir. Termin də söz kimi tarixi kateqoriyadır. O, dil tarixinin müəyyən dövründə yaranır, formalaşır, müəyyən məna kəsb edir. Lakin terminlər xüsusi sözlər deyil, xüsusi funksiya daşıyan sözlərdir (2 , 3).

Terminlər dilin başqa sözləri tərəfindən yerinə yetirilən nominativ funksiya ilə yanaşı, həm də özlərinin definitiv funksiyası ilə fərqləndiyi üçün məna və işlənmə cəhətindən dilin sözləri içərisində xüsusi yer tutur (10 , 197).

Dilin leksik tərkibində yer tutan bu iki vahid arasında ümumi cəhətlərlə yanaşı, ciddi fərqlər də vardır. Ən əsası termin elm, texnika, incəsənət və s. sahələrdə tam şəkildə müəyyənləşmiş hər hansı anlayışı ifadə edir.

Ümumişlək sözlərlə terminlərin müqayisəsi zamanı aydın olur ki, "adi söz və ya söz birləşməsindən fərqli olaraq, termin məhdud və təsbit edilmiş məzmuna malik olmalıdır. Bu məzmun kontekstdən asılı olmayaraq terminə mənsub olmalıdır, halbuki adi sözün mənası kontekstlə dəqiqləşir" (6 ,18).

Terminlərlə ümumişlək sözlər arasında fərqlər bir neçə istiqamətdə araşdırıla bilər: işləmə dairəsinə görə, semantik cəhətə görə, funksional cəhətə görə, yayılma dərəcəsinə görə, yaranma mənbələrinə, üsullarına və vasitələrinə görə və s.

Terminlərlə ümumişlək sözlərin fərqləndirilməsi heç də bunların arasında keçilməz sədd qoyulması demək deyildir. Terminlər ümumişlək sözlərə məxsus bir sıra leksik-semantik prosesləri özündə əks etdirə bilər. Məsələn, ideal terminə verilən tələbə görə, hər hansı anlayışın elmi dildə yalnız bir işarəsi olmalıdır. Halbuki, təcrübə göstərir ki, bütün elmlərin terminologiyasında dubletlik hadisəsinə təsadüf edilir. Bu bir tərəfdən müasir dövrdə elmlərin inkişafı nəticəsində çoxlu miqdarda yeni konsepsiyaların, meydana gəlməsi ilə bağlıdırsa, digər tərəfdən beynəlxalq terminlərin daha geniş ölçüdə elmi dildə tətbiqi ilə əlaqədardır: məsələn, dilçilik terminologiyasında "metateza-yerdəyişmə", "eliziya-səsdüşümü", "proteza-səsartımı" və s. tipli onlarca dublet termin işlədilir.

Ümumiyyətlə, söz və termin məsələlərindən danışarkən "söz-termin"lərdən danışmamaq mümkün deyildir. Bu termin dilçiliyimizdə yenidir (5, 34).

Məlumdur ki, terminləşən sözlər ilk dəfə söz olaraq dilə daxil olmuşdur. Başqa sözlə desək, dil tarixinə nəzər saldığımız zaman sözün termindən daha qədim olduğunu görürük. Bunu nəzərə alaraq, burada "termin-söz "lər deyil, "söz-termin" terminini işlətməyi məqbul sayırıq.

Müxtəlif dillərin terminoloji sisteminin təhlili göstərir ki, bütün terminoloji sahələrdə ümumişlək sözlərin terminləşməsi ilə bağlı yaranmış çoxlu sayda terminoloji vahidlər mövcuddur. Bu proses dilin ayrı-ayrı sahə terminologiyalarının zənginləşmə mənbələrindən biri kimi özünü göstərən dil hadisəsidir. Bu proses dilçilikdə reterminləşmə və determinləşlə adlanır.

İstər söz, istərsə də termin bir-biri ilə əlaqədə və qarşılıqlı təsirdə olur. Sözlər həm dilçilik, həm də tarixi baxımdan determinalizasiya olunur. Yəni, söz terminə çevrilir və yaxud əksinə termin də sözə çevrilə bilir. Ümumiyyətlə, elmi ədəbiyyatda terminləşmənin aşağıdakı növləri göstərilir.

a.Transterminləşmə

b.Reterminləşmə

c.Determinləşmə

Transterminləşmə: semantik konversiyanın terminoloji konversiyaya çevrilməsi kimi özünü göstərən terminləşmə zamanı bir sahənin hazır terminini öz semantikasını tam və ya qismən qorumaqla digər sahəyə keçir və bu zaman sahələrarası omonimləşmə baş verir. Bölmə, koman, daş atan və s. bu kimi terminlər keçid zonasının vasitəsilə hərbi məzmun kəsb etməsinə baxmayaraq riyaziyyata, musiqiyə, inşaata və digər sahələrə keçir. Eləcə də kompozisiya termini həm ədəbiyyatşünaslıqla, həm də rəssamlıqda işlənir. Plastik termini həm təsviri incəsənətdə, həm də tibdə işlənir. (9,22)

"Balta" termini öz ilkin mənasını saxlamaqla, yəni, "kəsmək", "doğramaq" mənasını qorumaqla neftçıxarma sənayesində işlənir. Məlum məsələdir ki, quyu qazmaq üçün istifadə olunan balta öz funksiyasına görə bildiyimizdirsə, formasına görə tamam başqa şeydir. "Qundaq" termininin tüfəngin taxta hissəsini bildirməsi və onun qucaqda və qoltuqda tutulması ilə bağlı mənası bələnmiş çağaya da aid edilir. Fikrimizcə, bu söz əslində "qoltuqdakı" sifətindən törəmiş isimdən başqa bir şey deyil.

Reterminləşmə: bu proses, adətən, sahələrarası və dil xarici termin "gəzişməsi" kimi özünü göstərir. Lakin, bu nə semantik konversiya, nə də termin konversiyası deyil. Burada müəyyən dil vahidi uzunmüddətli "əzişmədən" sonra yenidən dilə qayıdır və özü ilə yeni məna keyfiyyəti gətirir. Lakin bu zaman termin öz əvvəlki mənasını tam şəkildə itirir. Sadəcə olaraq, bu termin digər sahələrdə və yaxud da başqa bir dildə yeni və əlavə məna əldə edir. Bu prosesə məruz qalan termin "qayıdış termin" də adlandırılır. Bir sözlə, köhnəlmiş termin yenidən doğulur. Reterminləşmə dildə çox nadir hallarda baş verir. Azərbaycan dilində işlənən kəski, əriş, həvə, tişə, eləcə də sursat termini buna misal ola bilər. (9,23)

Sursat termini. Fars dilindən keçən bu termin həmin keçidə qədər "sur-sat" şəklində olub, qoşunun arxasınca gedərək müəyyən şeylərin alveri ilə məşğul olmaq prosesini bildirmişdir. Fars dilində "sursat" şəklinə düşərək terminləşmiş və Azərbaycan türk dilində qayıtmışdır. Atəş termini də həmin yolu keçmişdir. "Od-əş" əsasında yaranan bu söz fars dilində "atəş" kimi formalaşaraq Azərbaycan türk dilinə qayıtmışdır (11,321).

Determinləşmə: transterminləşmənin bu növü sahə termininin praqmatik mahiyyət kəsb edərək dilin ümumi lüğət fonduna keçməsi prosesidir. Sahə leksikasından ümumi lüğət fonduna keçən termin digər sahələrə yeni, geniş, lakonik əvvəlki paradiqmasını saxlayaraq nüfuz edir.

M.İsmayılova göstərir ki, determinləşmə terminləşmənin əksi olan prosesdir. Bu proses nəticəsində termin özünün terminoloji mənasını dəyişərək ümumişlək söz kimi də istifadə olunur. Determinləşməyə terminşünaslıqda birtərəfli münasibət özünü göstərir. Tədqiqatçıların böyük bir qismi belə hesab edir ki, terminoloji anlayışı ifadə edən termin başqa mənada ümumişlək söz kimi işlənirsə, yalnız onda determinləşmə hadisəsi baş verir (4 ,46).

Ox termini Azərbaycan türk dilinin leksik fonduna hərbi terminoloji sistemin vahidi kimi keçmiş, sonradan isə digər sahələrə öz məzmununu qoruyaraq yeni vahidlər yaratmaq məqsədi ilə nüfuz etmişdir. "Təkər oxu", "oxvarı", "ox işarəsi", "oxuyarpaq", "oxotu" və digər dil vahidləri hansı sahədə olur olsun, onun mənşəyini və hərbi məzmununu xatırladır. (9,23)

Qeyd edək ki, dildə adi sözlər termin əlaməti qazandıqdan sonra terminləşdiyi kimi, terminlər də ümumişlək xarakter aldıqdan sonra adiləşir, yəni determinləşir.

N.Məmmədli qeyd edir ki, internasional terminlər determinləşərək, yaxud üslubi çərçivəsini dəyişərək dilimizin semantik strukturunu zənginləşdirir. O yazır: "xüsusi tətbiq olunma sahəsindən ayrıla bilən internasional terminlər semantik dəyişməyə məruz qalır. Bu terminlər milli terminlərlə müqayisədə dilimizin leksik-üslubi sisteminə çox çətinliklə uyğunlaşır. Ələlxüsus publisistik üslubda internasional terminlər terminoloji mənalarından uzaqlaşır. Vulkan geologiya termini kimi " dağ kraterinin zirvəsində püskürən qaynar qaz, lava" mənasını bildirir. Publisistik üslubda isə "daim təhlükə içində yaşamaq, daim istirab çəkmək" kimi məcazi mənada işlənir.

Korifey yunan mənşəli termindir, qədim yunan teatrında "xor rəhbərinə" deyilmişdir. Müasir Azərbaycan dilində bu söz yalnız məcazi mənasında işlənir: "elm, incəsənət və s. sahəsində ən görkəmli xadim "(8 ,96).

Ümumiyyətlə, işlənmə imkanına görə terminoloji leksika təkcə termin kimi istifadə olunan ümumişlək sözlərə bölünmür, həm də termin kimi işlənən vahidlərə

bölünür. Yalnız termin kimi işlənən sözlərin istifadəsi müəyyən elm və ya sənətlə bağlı olub, müəyyən anlayış çərçivəsində işlənir və konkret anlayışı ifadə edir.

Dilin özündə yaranmış və başqa dillərdən alınmış bir çox neologizmlər (bunların çoxu termin olur) adiləşməyə doğru getdiyi kimi, terminlər də adiləşir. Elmin, sosial həyatın bütün sahələrində əvvəllər termin kimi işlənən dil vahidləri sonradan ümumişlək leksikaya keçə bilir.

Məsələn,

İqtisadiyyatda: dəyər, pay, sələm, faiz və s.

Pedaqogikada: təhsil, təlim, tərbiyə, dərs və s.

Tibdə: çiban, dərman, dalaq, təzyiq, qan və s.

İdmanda: finiş, start, turnir, rinq, raund və s.

Hərbi sahədə; top, tank, atəş, alay, əsgər və s.

Bu proses tikinti, kulinariya, musiqi, incəsənət, ədəbiyyat və digər elm sahələrinin hamısında gedir. Terminlər sərbəst birləşmələr daxilində, nitq prosesində öz müstəqilliyini saxlayır. Başqa sözlə desək, dar ixtisas sahiblərinin nitqindəki terminlər sərbəst birləşmələr tərkibində işləndikdə öz əvvəlki terminlik xüsusiyyətini hifz edə bilir. Amma terminlər əsasında sabit birləşmələr də yaranır ki, bu çox vaxt terminin terminsizləşməsi nəticəsində baş verir. Terminlər əsasında sabit birləşmələrin yaranmasına Azərbaycan dilçiliyində, demək olar ki, toxunulmamışdır. Dilin leksik sistemində terminlərin yerindən, rolundan bəhs edərək, onların əsasında yeni bir semantik sahənin yarandığını mütləq qeyd etmək lazımdır. Terminin işarə etdiyi anlayış ətrafında elə bir semantik sahə yaranır ki, onda yeni mənalar yarana bilir. Məsələn, təslim olmaq, silahı yerə qoymaq, pay-pay olmaq payını vermək (7 ,68).

Elmi-texniki terminologiya dəqiq və kəskin sistemliliyi ilə fərqləndiyi halda, ictimai-siyasi terminlər yayılma sərhədinə görə diqqəti cəlb edir. Bu ondan irəli gəlir ki, elmi-texniki terminlər mütəxəssislər arasında elmi ünsiyyət vasitəsidir, ictimai-siyasi terminlər isə həm mütəxəssislər, həm də geniş xalq kütləsi tərəfindən işlənir. Çünki cəmiyyətdə gedən dəyişikliklər xalqın bütün zümrələrini əhatə edir. Hazırda “kommersiya”, “dollar”, “makler”, “tender”, “büdcə”, “gömrük”, “biznes” kimi terminlər cəmiyyətin hər bir üzvü tərəfindən başa düşülür. Deməli, elmi-texniki terminləri mənimsəmək hər bir fərdin subyektiv işidir. İctimai-siyasi terminlərdən isə siyasi partiyaların liderləri, nümayəndələri öz fikirlərini, platformalarını xalqa çatdırmaq üçün daha çox istifadə edirlər. Ona görə də elmi-texniki terminlərdən fərqli olaraq ictimai-siyasi terminlər getdikcə ümumişlək leksikaya daha tez keçir. İctimai-siyasi həyatda baş verən dəyişikliklər öz əksini dildə də tapır. Son dövrlərdə ictimai-siyasi həyatla bağlı “lobbi”, “tender”, “menecer”, “menecment”, “parlament”, “departament”, “birja”, “konpensasiya”, “kommersiya”, “media”, “diaspor”, “sammit” və s. kimi terminlər hal-hazırda dildə geniş şəkildə işlənir. Elmi-texniki tərəqqi ilə bağlı yeni terminlərin yaranmasında ana dilinin həlledici rolu nəzərə alınmalıdır. Dilin daxili imkanları hesabına yaranmış “icarə haqqı”, “sahibkar”, “orta biznes”, “kiçik biznes”, “azad sahibkar”, “iqtisadiyyatın tənzimlənməsi ”,“tənzimlənən qiymət”, “sərbəst qiymət”, “icarə”, “icarədar”, “büdcə”, “bazar” kimi terminlər dildə çox asanlıqla işlənən sözlər sırasına daxil olur.

Yüksək elmi-texniki tərəqqi prosesində informatikanın proqramlaşdırma sistemləri və dilləri, tətbiqi proqramlar, elektron hesablama maşınları yaranır və buna uyğun olaraq terminoloji sistem formalaşır. Bu proses kompüter və korporativ

şəbəkələrinin xüsusən də qlobal informasiya şəbəkəsinin ─ internetin yaranması ilə nəticələndi. Bütün bunlar həmin sahədə işlənən terminlərin sayının sürətlə artmasına səbəb olur.

Cəmiyyətdə baş verən dəyişmələr, yeniləşmələrlə bağlı olaraq həyatımıza daxil olan yeni anlayışları yalnız dilin daxili imkanlarından istifadə etməklə adlandırmaq qeyri-mümkündür.

Terminoloji vahidin ümumişlək vahidlərə çevrilməsində kütləvi kommunikasiya vasitələrinin çox mühüm rolu vardır. Terminlərin kütləvi kommunikasiya vasitələri kimi qəzet-mətbuat, radio, televiziya dilində işlədilmə intensivliyi onların kütləviləşməsini təmin edən başlıca vasitələrdəndir. Eyni zamanda terminlərin ümumişlək, vahidlərə keçməsində dərsliklərin, monoqrafiyalar və elmi əsərlərin də böyük rolu var. Təbii ki, qeyd edilən mənbələrdə terminlərin işlədilməsi müəyyən zərurətdən doğur. Terminoloji vahidlərin dar spesifik mənası tədricən dərsliklərin, mətbuatın və digər kommunikasiya vasitələrinin təsiri ilə cəmiyyətin bütün fəaliyyət sahələrinə yaxınlaşır. Həqiqətən də, dərsliklər, monoqrafiyalar və mətbuatdakı terminlərlə onların hətta aid olmadıqları sahələr arasında bağlılıq yaradır. Bunun nəticəsində terminoloji vahidlər məna etibarilə kütləviləşir və ümumişlək leksika statusu qazanır.

Terminlərin kütləviləşərək ümumişlək sözlər sırasına keçməsində qəzet-mətbuat dili xüsusi ilə mühüm yer tutur.

Mətbuat dili elm və texnikanın son nailiyyətləri ilə əlaqədar yaranmış elmi xarakterli vahidləri tezliklə dar semantik sahədən çıxarıb ümumişlək anlayışlı vahidlər sırasına daxil edir. Mətbuat dilinə məxsus belə bir əməliyyat, hər şeydən əvvəl terminlərin işlənmə intensivliyi ilə əlaqədardır. İşlənmə intensivliyi əsasında mətbuat dilində ümumişlək səciyyə qazanmış aşağıdakı vahidləri misal göstərmək olar: robot, strategiya, eksperiment, reqlament, miniatür, variant, praktika, qreyder.

Determinləşmənin geniş yayılmasında kütləvi informasiya vasitələrinin və mətbuatin rolu haqqında xeyli məqalələr və elmi işlər yazılmışdır.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lügəti. III cild, Bakı, Elm, 1983.
2. Будагов Р.А, Что такое равитие и совершен ствования языка, М. Наука, 1977
3. Hacıyeva M. Azərbaycan dilində hüquq terminlərinin linqvistik təhlili. Nam. disst. Bakı, 2008.
4. İsmayılova M. Terminşünaslığın əsas məsələləri. Bakı, 1999.
5. İsmayılova M. Terminologiyanın leksik-qrammatik məsələləri. Bakı, 2007.
6. Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları. Bakı, Elm, 1972
7. Qurbanova L. Dilin leksik sistemində terminoloji leksikanın yeri. Nam. disst. Bakı, 2005
8. Məmmədli N. Alınma terminlər. Bakı, Elm, 1997.
9. Məmmədli Y. Azərbaycan dilində hərbi terminlərin terixi-müqayisəli təhlili. Nam. dissst. Bakı, 1995.
10. Мелъников Г.П. Анализ процесса наминования Доклады Института Языкознания А Н. СССР.М,1968
11. Zərinzadə N. Fars dilində Azərbaycan sözləri. Bakı, Elm, 1962.

Ибрагимова Ханымбаджы

Превращение терминов в используемые слова

Резюме

В научной литературе существует 3 типа терминации: транстерминация, ретерминация, детерминация.

В статье рассматриваются возможности условия детерминации. В соответствии с прагматической природы области процесса передачи с точки зрения языка и общего словарного фонда. Этот процесс является противоположным процесса терминации.

С помошью исследований стало известно, что если научно-техническая терминология отличаются ясной и резкой границей системности, то политические термины различаются условиями распределения.

Ibragimova Xanımbacı

The transformation of the terms used in speech

Summary

In the scientific literature, there are 3 types of termination : transterminatsiya, reterminatsiya , determination .

The article discusses the possibility of determination conditions . According to the pragmatic nature of the transfer process from the point of view of language and a common word stock . This process is the opposite process of termination .

With the aid of research , it became known that if the scientific and technical terminology differ clear and sharp boundary systemic , political conditions differ in terms of distribution.

Rəyçi: Mirvari İsmayılova
filologiya üzrə elmlər doktoru, professor

ŞABAN HÜSEYNOV
Baki Slavyan Universiteti
Türkologiya kafedrasının dosenti
shabanhwseynov@mail.**ru**

TÜRK DİLLƏRİNDƏ ŞƏKİLÇİ QOVUŞMALARI MƏSƏLƏSİ

Açar sözlər: Şəkilçi, qovuşma, morfosemantika, sıralanma, məna mərkəzi, zəif qovuşma, güclü qovuşma.
Ключевые слова: суффикс, слияние, морфосемантика, распорядок морфем, центр значения, слабое слияние, сильное слияние.
Key words: influence of affixes, principle sources of affixes, types of affixes, formation of the general semantic influence

Şəkilçilərin meydana gəlməsi və inkişaf problemi XIX əsr Alman dilçiliyində «normal» dillərin öyrənilməsi aspektində özünün elmi izahını tapmış, gənc qrammatiklər tərəfindən isə morfogenezis adı altında tədqiqata cəlb olunmuş və başqa dilçilik məktəblərinə də bunların təsiri olmuşdur.Bu xüsusda çox samballı tədqiqat əsərləri vardır. (10, 295);(9;13);(2;73); və s.

Şəkilçi qovuşmaları və söz kökü ilə bağlı tədqiqatlara Sepir təlimi ciddi təsir etmiş və türkologiyada şəkilçi qovuşmaları ilə bağlı problemlər onun müəyyənləşdirdiyi iki faktor **[(birləşən /fuziyalaşan/ və birgəyerləşən"-** ***sonuncunu aqlytinativ texnika adlandırır*****)]** əsasında araşdırılmışdır. **(11, 102).**

Bu sahə ilə bağlı əsaslı tədqiqat işlərindən biri kimi A.N.Kononovun «Türk dillərində fuziya haqqında» adlı məqaləsini qeyd etmək olar (5, 117). O, türk dillərində şəkilçilərin meydana gəlməsi məsələsindən danışarkən Sepirin müəyyənləşdirdiyi fuziya prinsiplərinə müraciət edir.

A. Türk dillərində şəkilçi qovuşmaları aşağıdakı xüsusiyyətlərə malikdir:

1. İki sözdüzəldici şəkilçinin qovuşması məna sintezinə əsaslanır. Bunlarda məna sintezi əsasında vahid məna mərkəzi yaranır; onlar sözlərə vahid bir formant kimi əlavə edilir. Həmin formantın vahidliyi ondadır ki, şəkilçilər birləşib bir məna atmosferi yaratmışdır; məna atmosferi vahid morfosemantik mərkəzin yaranması ilə bağlıdır və əvvəldə mövcud olmuş struktur əsasında formalaşır.

2.Bəzi fonetik hadisələr şəkilçi qovuşmaları üçün stimul ola bilər.

3.Qovuşma üçün mühüm faktorlardan biri də istisna hallarda sözdəyişdirici şəkilçidən sonra yerləşən sözdüzəldici şəkilçinin təsir dairəsi məsələsidir. Məs.-dakı[4]

4.Qovuşuq şəkilçilərin törəməsinin mühüm stimullarından biri tərəflərdən birinin dildən çıxmasıdır.

5.Dilimizdə qovuşma faktorunu şərtləndirən amillərdən biri də kateqorial mənanın meydana gəlməsidir.

6. Dilimizdə bir qrup şəkilçilər vardır ki, onlar tarixən mürəkkəbləşmə mərhələsindən keçərək yenidən sadələşmiş, sonradan başqa şəkilçi ilə qovuşmuşdur. Məs.: -madan[2] və ya -dıqca[4].

7.Dildə qovuşan formantlar tam, sabit və natamam-qeyri - sabit qovuşmalar şəklində mövcuddur. Sabit qovuşmalar yerindən asılı olmayaraq, həmişə sabit tərkibdə fəaliyyətdə olan qovuşmalardır.

8.Qeyri - sabit birləşmələr müəyyən qədər formal olaraq tərkib hissələrinə ayrıla bilir.

Göstərdiyimiz bu bölgü (7;8) dil vahidlərinin inkişafının müəyyən mərhələlərində dayanmaları ilə izah olunur. Çünki qovuşma prosesi özü daim inkişafdadır. Dilin sadədən mürəkkəbə və mürəkkəbdən sadəyə doğru inkişafının əlamətlərini özündə əks etdirir. Onların qovuşma mənaları tam formalaşmamışdır. Buraya -çı, -lıq komponentləri əsasında formalaşan şəkilçini daxil etmək olar; (-inə şəkilçisini də bura əlavə etmək olar).

9. İki və ya bir neçə şəkilçinin bir-birinə yanaşaraq struktur bütövlük (qovuşma) yaratması, dilin morfoloji qaydaları çərçivəsində şəkilçi sıralanmaları ardıcıllığına müvafiq olaraq baş verir (yəni yerdəyişmə olmadan).

B.Şəkilçilərin adi sıralanması ilə qovuşması arasındakı aşağıdakı fərqlər vardır:

1. Sıralanan şəkilçilərin hüdudu aydındır; hər biri müstəqil şəkildə mövcuddur, müvafiq şəkilçilərlə əsas morfemə nəzərən birləşir. Qovuşuq şəkilçilərin isə ümumi mənası olur və əsas morfemə ayrı-ayrılıqda deyil, bütöv şəkildə əlavə olunur.

2. Sıralanan şəkilçilərin hər birinin öz məna mərkəzi var. Mürəkkəb şəkilçilərdə isə tərkibin bütövlükdə bir mənası var və mürəkkəb səciyyə daşıyır (mürəkkəblik şərti anlayışdır, mürəkkəb şəkilçilərdə mənalar sintezi nəzərdə tutulur).

3. Sıralanan şəkilçilər bir-biri ilə müstəqillik əsasında əlaqələnir, mürəkkəb şəkilçilər isə bir-birindən bir məna dairəsində asılıdır; bir-birini tamamlayır.

4. Sıralanan şəkilçilər müəyyən qədər sərbəstliyə malikdir; əsasa formant əlavəsindən asılı olaraq sıralanır, mürəkkəb şəkilçilər isə bu sərbəstliyə yalnız mövcud mürəkkəb quruluş daxilində malikdir. Onlar tərkib hissələrinə parçalanmır.

C. Şəkilçilərdə məna sintezinin yaranması üçün aşağıdakı şərtlər olmalıdır:

a) Məna sintezi üçün məna yaxınlığı vacibdir. Eyni zamanda yaxın mənalar bir-birinə nüfuz etməlidir.

b) Bir neçə yaxın mənalar müəyyən həddə çərçivəsində məna sintezinə məruz qalmalıdır..

c) Məna sintezi yeni məna müəyyənləşdirməlidir;

4.Qovuşuq şəkilçinin yeni təyinatı, yeni anlamda dərki olmalıdır.

Deməli, məna sintezindən kənarda heç bir şəkilçi qovuşması ola bilməz.

Ç.Qovuşuq şəkilçilər aşağıdakı əlamətlərə malikdir:

1. Vahid strukturla səciyyələnir.

2. Müvafiq sintez mənaya malik olur.

3. Bəzən kateqoriyaların inkişafı və formalaşması prosesinin izlərini özlərində saxlaya bilirlər.

4. İki bəzən də daha çox tərkibdən ibarət ola bilər.

5. Mövcud mənanı gücləndirməyə və ya intlisivlik səviyyəsini artırmağa xidmət edir.

6. Konversion təsirlərlə formalaşa bilərlər.

7. Konversion təsirlərlə onlar morfoloji təyinatını dəyişə bilər .

8. Funksional diferensiallaşmaya məruz qala bilər.

9. Dilin inkişafı prosesində müxtəlif fonetik dəyişikliklərə məruz qalar bilər.

Onlarda struktur sadələşmə dilin ümumi inkişaf qanunlarına uyğun olaraq baş verir.

10. Onlar dilin yeni qrammatik vahidləri hesab olunurlar.

11. Yeni qrammatik vahidlərin formalaşma yollarını əks etdirirlər.

D.Qovuşmuş şəkilçilər birikmə səviyyəsinə görə iki cür olur:

1. Sabit qovuşma.

2. Zəif qovuşma.

1. Sabit qovuşmalar tərkib hissələrinə parçalanmır. Onları yalnız diaxron tədqiqat nəticəsində müəyyənləşdirmək olur

2. Zəif qovuşmalar formal olaraq tərkib hissələrinə parçalana bilər, müasir dil baxımından onun tərkib hissələri məlumdur. Şəkilçilərin morfosemntikasından asılı olaraq onları aşağıdakı cür təsnif etmək olar:

I.Sözdəyişdirici şəkilçilərin qovuşması

Qovuşma prosesinə daxil olan hər bir şəkilçinin ümumi əlamətləri ilə bərabər, onların fərdi xüsusiyyətləri də vardır. Fərq daha çox şəkilçilərin morfosemantikası və dildəki mövqeyi ilə bağlıdır. Sözdəyişdirici şəkilçilərin qovuşması ilə bağlı üç məsələni nəzərdən keçirməyi lazım bilirik:

1. Bir qrup sözdəyişdirici şəkilçilər var ki, bu strukturda ilk dəfədir ki, qovuşma prosesini keçirir. Məs.: -ın-ız; -ım-ız;

2. Bəziləri isə bir prosesi başa vurmuş ikinci dəfə strukturca mürəkkəbləşmə - birikmə prosesinə məruz qalmışdır. Bunu xatırlamaq üçün feli bağlama şəkilçilərindən bəzilərini yada salmaq kifayətdir; -madan[2]; a) - ma[2] inkarlıq formantı; b) - dan;

3. Bir qrup şəkilçilər konversiyanın nəticəsi kimi qovuşur və morfoloji təyinatını dəyişir (-inə; tərsinə; düzünə; uzununa) və kateqorial şəkilçilərlə oppozisiyada dayanır.

II. Sözdüzəldici şəkilçilərin qovuşması

1. -cıl: İsimlərdən sifətdüzəldən şəkilçidir.a) -çı[4] isimdüzəldən;b) -l sifət düzəldən formant–şəkilçi; məs.: zarafatcıl: yuxucul: qabaqcıl:[K.D.Q. dastanlarında geniş işlənib.(ərcil, uykucul və s.)]

2. –ıcı: Fe"llərdən sifət düzəldir;a) –ı; uγ /ig (feli ad)b) -cı/cı;

3. -cığaz[4]: Kiçiltmə və əzizləmə mənalı isimlər yaradır. İki hissədən ibarətdir: a) -cıq b) –az;

4. -anaq[2]: fellərdən isim yaradır; biç+ənək; döy+ənək; yığanaq/yığınaq (yığnaq);İki tərkib hissədən ibarətdir:a) -an[2] -fel sifət şəkilçisi;b) -aq - substantiv və ya atributiv isimlər yaradır Tam qovuşmuş şəkilçidir,

5. -mac[2]; fellərdən isim yaradır:a)-ma[2] -feli ad şəkilçisi; b) -c/ca[2] isimdüzəldən şəkilçi; Doğramac; bulamac; dürməc; tutma (bulamac: tutmac sözlərində - c düşmüş "bulama" tutma kimi işlənməyə başlanmışdır); Dilimizdə bilməcə, tapmaca sözləri də işlənir ki, -c/-ca morfemlərinin tam variantı sıralanma keyfiyyətində iştirak edir.

6. -ırğa. Başqa türk dillərindən fərqli olaraq, Azərbaycan dilində az rast gəlinir, bəzən də asemantik köklərdə yaşayır: düyürgə/dürgə: qasırğa;İki tərkib hissədən ibarətdir: a)-ir; feldüzəldən şəkilçi. b)-ğa; isimdüzəldən şəkilçi.

7. – ıltı: fellərdən və təqlidi sözlərdən isim yaradır: vıyıltı; xırıltı; qurultu; sızıltı;

a) -ıl; b) -tı isim yaradır;Dilimizdə sıralanma variantı yoxdur, yalnız qovuşuq şəkilçi kimi mövcuddur.

8. çılıq; qəribçilik; sözçülük; bağçılıq: İki tərkibdən ibarətdir: -çı [isimdüzdən]; -lıq [isimdüzəldən]; Müasir ədəbi dilimizdə sıralanma variantı daha aktivdir: yazıçılıq; əkinçilik; baramaçılıq və s.

III. Sözdüzəldici şəkilçilərlə sözdəyişdiricilərin qovuşması

Sözdüzəldici və sözdəyişdirici şəkilçilərin qovuşması əvvəldə dediyimiz kimi, sözdüzəldiciliyin üstünlüyü ilə getsə də, sözdəyişdirici şəkilçinin morfosemantikası yeni strukturda formalaşan məzmuna güclü təsirgöstərir.

IY.Funksional şəkilçilərin qovuşması

1. -dıqda[2]: Feli bağlama şəkilçisi. Müasir Azərbaycan dilində geniş işlənmə dairəsinə malikdir. Bu morfem iki tərkib hissədən ibarətdir **(-dıq[4]; -da[2]).**

a).-dıq Tarixən türk dilləri üçün fəal işlənmə qabiliyyətinə malik olmaqla müxtəlif funksiyalarda çıxış etmişdir. Müasir Azərbaycan dilində mənsubiyyət şəkilçiləri və yuxarıda qeyd etdiyimiz kimi, bəzi hal şəkilçiləri ilə birləşərək morfoloji bütövlük yaratmaqla işlənir; yəni müstəqil şəkildə işlənmir. Həmin şəkilçinin qovuşmasına təsir edən amillərdən biri onun dilin müasir səviyyəsində sərbəst işlənə bilməməsidir. Digər tərəfdən də, tarixən geniş işlənmə dairəsinə malik olması səbəbindən epizodik şəkildə müxtəlif funksiyalar dairəsində funksional qalıqların müşahidə olunmasıdar.

Əsasən, üç momenti qeyd etmək olar: 1 -dıqda[4] ; 2 -dıqca[4]; 3. dıq+məns. şəkilçisi. Deməli, iki momentdə feli bağlama, bir momentdə feli sifət formantı kimi çıxış edir. Bu formantlarda diqqəti cəlb edən nədir?

1. Funksional şəkilçinin morfosemantik aktivliyinin qabarıq nəzərə çarpması;
2. Tərəflərin fonetik variantlılığını qoruyub saxlaması;
3. Tərəflərin formal dəyişikliyə uğramaması;
4. Tərəflərin mövcud kateqoriya daxilində aktivliyə malik olması;

2. -ınca[4]: -ca[2] şəkilçisi tarixən feli bağlama formantı kimi mövcud olmuş **-ın** şəkilçisi ilə birləşərək **-ınca[4]** morfemini yaratmışdır.

3. -arkən[2]: M.Hüseynzadə yazır ki, bu şəkilçi qeyri- qəti gələcək, indiki və nəqli keçmiş şəkilçiləri ilə ikən köməkçi felinin -kan -kən ünüsrlərindən əmələ gəlmişdir -Arkən/ -ərkən, -irkən, -mışkən şəkilçilərini fel köklərinə əlavə etdikdə zaman və hal - vəziyyət məzmunu ifadə edən feli bağlamalar əmələ gəlir (6, 252), -kən başqa formantlardan fərqli olaraq ,fel kökünə deyil, zaman şəkilçilərindən sonra artırılır.

Y. Sinonim məzmunlu şəkilçilərin qovuşması

Müxtəlif məna çalarlı və ya funksiyaca sinonim şəkilçilər bir məna ətrafında birləşə bilər. Əvvəldə qeyd etdiyimiz kimi, bunun üçün müəyyən morfoloji şərait lazımdır. Sinonim xarakterli şəkilçilərin qovuşması mövcud mənaya intensivlik verir, onun morfoloji funksiyasını dəyişdirmir. Məs.: --ımtıraq; -ımsov; *-ımtıraq* üç tərkib hissədən ibarətdir:a) -ım[4]; köküm-yaşıl, mavitəhər (5, 118), b) -tı; kızıltım – qırmızıtəhər (1, 30),c) -raq[3]; gödəkrək.

Bu tipli şəkilçilərin tərkib hissələrini müəyyənləşdirmək üçün ayrıca götürülmüş bir dilin faktları bəzən bəs etmir, digər türk dillərinə də müraciət etmək lazım gəlir. Haqqında danışdığımız -ım; -tı; -raq; -sov və bu kimi digər şəkilçilər müasir türk dillərində morfosemantik cəhətdən bəzi fərqləndirici əlamətləri ilə fərqlənirlər. Bu da daha çox həmin formantların pratürkdə zəngin mənaya malik olmaları ilə izah oluna bilər: məs.:

1. qızartı; ağartı; parıltı; -tı şəkilçisinin mənasında azlıq çaları var.

2. ağlamsı(maq); dadıxsı (maq); dolumsu(maq); gülümsü(mək);

-m+sı: -sı şəkilçiləri funksiyaca -tı şəkilçisinin adekvatıdır.

Güman etmək olar ki, türk dillərinin qədim dövrlərində əlamət və hərəkətin müəyyən ölçülərdə intensivləşdirilməsi və ya azaldılması eyni formantlarla reallaşdırılmış və sonradan funksional diferensiallaşmaya məruz qalmışdır. Görünür, həmin formantların təkcə əlamətlərlə bağlanmasına səbəb sifətin aydın leksik mənası və onlarda müvafiq mənaların leksik yolla ifadəsinin meydana çıxmasıdır.

E.Funksiyaca müxtəlif olan şəkilçilərin qovuşması yeni məna mərkəzinin yaranması, həmin mürəkkəb struktur tərəflərinin məna sintezi ilə səciyyələnir:

1. -ma+dan (-ma^2- inkarlıq kateqoriyası; +dan) feli bağlama düzəldir.

2. -inə (-i-mənsubiyyət şəkilçisi -(n) ə+ yönlük hal) zərf düzəldir.

3. -laş^2 (-la^2 - fel düzəldən şəkilçi +ş növ şəkilçisi) başqa nitq hissələrindən feldüzəldən şəkilçi.

4. -dıqda^3 (-dıq -feli bağlama +da^2 yerlik hal şəkilçisi) feli bağlama yaradır.

Sinonim xarakterli şəkilçilərin qovuşması tipoloji səviyyədə də özünü göstərir. Fin-uqor dillərində türk dillərində olduğu kimi, sifətin müqayisə dərəcəsini yaratmaqdan ötrü bir neçə formantın qovuşması baş verir. Məs.: -impa/-impɑ, -imba/-imbɑ variantlı formantlar iki vahiddən əmələ gəlib; -i və -mp: bunlardan -mp<-mp mürəkkəb suffiksi əsasdır, müqayisə dərəcəsi yaradan suffiks kimi də istifadə olunur (8, 152).

Yaxud: türk dillərində cəmlik -lar^2 şəkilçisinin: fin-uqor dillərində adekvat -yan kollektiv cəmlik bildirən şəkilçi [ya + p] iki sinonim mənalı formantın qovuşmasından yaranıb və "kollektiv qohumluqların determinativi." (8, 152) morfosemantikasına malikdir.

-cığaz şəkilçisi -cıq/-cıq və -az/as tərkiblərindən ibarətdir. Müq. qulaqcıq, gözcük: -az/-as Azərbaycan dilində müstəqil olaraq işlənmir. F.Q.İsxakov və A.A.Palmbax qeyd edir ki, xakas və tuvin dillərində -aş, eş; as/-es şəkilçiləri kiçiltmə məzmununda müstəqil olaraq işlənir (4, 143).

Oğuz qrupu türk dillərində mürəkkəb strukturlu şəkilçilər aşağıdakı cür qruplaşddırıla bilər:

I. Bir hecalı:1. -dan^2 (bab); -laş^2 (bab); -lan^2 (bab); -lar^2 (bab); -inə (aba) və s.

II. İki hecalı:-dıqda^4 (babba); dıqca^4 -anda^2 (abba);-arkən (abbab) ; -madan^2 (babab);- sınız^2 (babab)-ımtıl (ababa); -ımsov (abbab); -ımız (abab)**;**-dakı (baba); -ıcı (aba) və s.

III. Üç hecalı:-ımtıraq (abbabab);-ıbanı (ababa);-casına (bababa)

IV. Dörd hecalı;-ıbanları (ababbaba).

Ədəbiyyat

1. Баскаков Н.А. Диалект черневых татар (Туба-Кижи). – М., Наука, 1966, 173 с.
2. Бетлингк О. Н. О языке якутов. – Новосибирск, Наука, 1989, 646 с. Грамматика современного Якутского языка. -М., 1982,
3. Исхаков Ф.Г., Пальмбах А.А. Грамматика тувинского языка. -М.,1961, 472 с.

4. Кононов А.Н. О фузии в тюркских языках. Структура и история тюркских языков. -М., Наука, 1971
5. Hüseynzadə M. Müasir Azərbaycan dili, Bakı, Maarif, 1973, 358 s.
6. Мусаев К.М. Грамматика караимского языка, -М., Наука, 1964, 344 с.
7. Майтинская К.Е. Историко-сопоставительная морфология финно-угорских языков. -М., 1979, 263 с.
8. Махмудова А.З. Типологическая реконструкция проязыкового состояния (на материале индоевропейских и тюркских языков). –М., 1955, 235 с.
9. Пауль Г. Принципы истории языка. –М., 1960, 500 с.
10. Сепир. Язык, М.-Л., 1934, 243 с.
11. Современный казахский язык. –Алма-Ата: ФАН, 1962, 452 с. 208.
A — sait ;b---samit.

Шабан Гуейнов

Проблема слияния аффиксов в тюркских языках

Резюме

В статье рассматривается слияние аффиксов в тюркских языках; Исходя из важных источников, комментируются основные принципы и виды слияния. Больше внимание уделяется формированию общесемантического центра слитных аффиксов, в котором начинается новое назначение объединенных морфем. Дается сравнение аффиксов, расположенных в определенном порядке и аффиксов, которые образовались в результате слияния, анализируется смысловые отношения между слитным аффиксом корнем.

Shaban Huseynov

The problem of influence of affixes into the turk languages

Summary

The article is considered to research the influence of affixes into the turk languages. Dealing with the principle sources of affixes and their types great attention is paid to the formation of the general semantic influence of affixes for the formation of united morphemes.

Rəyçi: İkram Qasımov
filologiya elmləri doktoru, professor

SEVİNC QƏMBƏROVA
Gəncə Dövlət Universiteti, doktorant
sevinc.qemberova@mail.ru

AZƏRBAYCAN DİLİNİN QƏRB ŞİVƏLƏRİNİN TƏDQİQ TARİXİ

Açar sözlər: qərb, şivə, təsnifat, tədqiqat, lüğət;
Keywords: west, dialect, classification, investigation, dictionary;
Ключевые слова: запад, говор, квалификация, исследование, словарь.

Məqalədə Azərbaycan dili şivələrinin təsnifatı zamanı qərb şivələrinin mövqeyi və azərbaycan dilinin qərb şivələrinin tədqiqi tarixi araşdırılıb sistem şəklinə salınmışdır. Bu məqsədlə də azərbaycan dilinin qərb şivələri haqqında olan bir çox tədqiqat işləri izlənilmiş və ardıcıllıqla işıqlandırılmışdır.

Azərbaycan dilçiliyinin ən önəmli məsələlərindən biri də şivələrimizin öyrənilməsidir. Xalqımızın dilinin və tarixinin araşdırılmasında hər bir şivənin kompleks şəkildə tədqiq olunmasının böyük əhəmiyyəti vardır.

Azərbaycan xalqının tarixi, onun adət və ənənələri, başqa xalqlarla əlaqələrini göstərən bütün amillər şivələrimizdə öz əksini tapmışdır. Belə ki, şivələr qədim dil xüsusiyyətlərinin qorunub saxlanılmasında olduqca mühafizəkardırlar. Dil tarixinin öyrənilməsində də şivələr canlı və etibarlı mənbə kimi çıxış edir.

Azərbaycan türklərinin nitqində dialekt fərqlərinin olmasını ilk dəfə görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli müəyyənləşdirmiş, Qarabağ və Qazax əhalisinin digər regionlardan fərqli şəkildə danışdıqlarını göstərmişdir. [9]

Fuad Köprülü də Gəncə və Qarabağ bölgələrinin spesifik dialekt xüsusiyyətlərini nəzərə alaraq, onları Şimali və Cənubi Azərbaycanda Şəki (Nuxa), Bakı, Təbriz, Ərdəbil, Urmiyə və s. kimi şivələrin sırasına daxil etmişdir. Onun təsnifatının əsasında dörd dialekt qrupu dayanır ki, onların da coğrafi cəhətdən şimal, şərq, qərb və cənub dialektləri şəklində qruplaşması nəzərdə tutulur.[14]

Sürəyya Talıbxanbəyli isə Azərbaycan Respublikası ərazisindəki şivələri belə fərqləndirmişdir: Bakı, Gəncə və Qarabağ (Şuşa), Şamaxı, Nuxa, Qazax, Naxçıvan, Salyan və Lənkəran. Əvvəlki bölgülərdən fərqli olaraq müəllif Gəncə, Qarabağ şivələrindən əlavə, Qazax şivəsinin səciyyəvi xüsusiyyətlərinə əsaslanaraq qərb şivələrinin əhatə dairəsinə aid etmişdir.[15]

Azərbaycan dili şivələrinin təsnifatı ilə ardıcıl olaraq M.Şirəliyev məşğul olmuşdur. O, Azərbaycan dili şivələrini coğrafi baxımdan qruplaşdırmış və ilk təsnifatında onları beş qrupa ayırmışdır. O, qərb ləhcəsini "qərb qrupu dialektləri " adı altında fərqləndirərək buraya - Qazax, Borçalı, ayrım şivələrini, "orta qrup dialektləri"nə isə Kirovabad(indiki Gəncə) və Qarabağ şivələrini daxil etmişdir.

Sonrakı tədqiqatında M.Şirəliyev Azərbaycan dilində dörd dialekt qrupu fərqləndirir. Müəllif bu təsnifatında "orta qrupu" ləğv edib, Gəncə və Qarabağ şivələrini qərb qrupuna daxil etmişdir. Müəllifin bu təsnifatında coğrafi cəhət əsas kimi götürüldüyündən qərb şivələrini tam əhatə etmir. Qərb şivələrinin spesifik xüsusiyyətləri daha geniş ərazilərə yayılmışdır.[11,12]

Azərbaycan dilinin dialektlərini R.Rüstəmov dörd qrupa bölür. R.Rüstəmovun təsnifatında qərb qrupuna Qazax, ayrım, Gəncə, Qarabağ və s.şivələr aiddir. Bu

təsnifatda da dil xüsusiyyətləri nəzərə alınmadığından naqislik özünü göstərir.[1] Azərbaycan dili şivələrinin təsnifi məsələsinə A.Hüseynov da öz münasibətini bildirmişdir. Müəllif ilk təsnifatında Azərbaycan dilinin iki böyük ləhcəsindən bəhs edərək göstərmişdir ki, birinci ləhcə Şərq və əsasən Şimal qruplarını, ikinci ləhcə əsasən qərb və cənub qruplarını əhatə edir. Sonralar müəllif öz fikrini inkişaf etdirərək Azərbaycan dilində üç ləhcəsinin olmasını göstərir: şərq ləhcəsi, qərb ləhcəsi, cənub ləhcəsi. [5,6]

Keçən yüzilliyin sonlarına qədər dialektlərin möqeyi, əsasən, coğrafi cəhətdən müəyyənləşdirilir, dil xüsusiyyətləri nəzərə alınmırdı. Digər tərəfdən də Azərbaycan dilinin etnocoğrafiyasındakı bütün şivələri əhatə etmirdi. Buna görə də dialektlərin yeni bölgüsünün aparılmasına zərurət yaranmışdı. E.Əzizov coğrafi prinsiplə yanaşı, dialektlərin qarşıyaqoyulan fərqlərini nəzərə alaraq, şivələri yenidən təsnif etmişdir. O, dilin dialekt bölünməsinin vahidləri kimi şivələr qrupunu və ləhcəni götürmüş, dilimizdə üç ləhcə fərqinin olmasını müəyyənləşdirmişdir. Onun fikrincə, qərb şivələri orta ləhcəni əmələ gətirir.

Bu ləhcə Azərbaycanın Kür və Araz çayları arasındakı ərazisinin qərb və cənub – qərb hissəsinin (Qazax, Gəncə, Qarabağ, Daşkəsən, Gədəbəy, Kəlbəcər, Laçın) və Gürcüstanın bəzi rayonlarının (Borçalı, Marneuli, Bolnisi, Dmanisi) şivələrini əhatə edir. Qərb ləhcəsi üç şivə qrupuna bölünür: 1) Qarabağ; 2) Qazax – Borçalı; 3) ayrım şivəsi (Daşkəsən, Gədəbəy, Kəlbəcər rayonlarında yayılmışdır).[4]

Qərb ləhcəsinin sərhədləri respublikamızla məhdudlaşmır. Qərbi Azərbaycan və Gürcüstan Respublikası ərazisindəki bölgələrdə işlədilən Azərbaycan dili şivələri qərb şivələrinin əhatə dairəsinə daxildir. Qərbi Azərbaycan ərazisindəki Göyçə, Şəmşəddin, Pəmbək (Böyük Qarakilsə, Hamamlı), Loru (Dağ Borçalı) zonalarında yaşamış azərbaycanlıların şivələrini Azərbaycan dilinin qərb ləhcəsinin Qazax – Borçalı şivələrinin təsir dairəsindədir. Zəngəzur, Dərələyəz azərbaycanlılarının şivələrinin isə dilimizin qərb (orta) və cənub ləhcələri arasında keçid xarakterlidir. Gürcüstanın bəzi rayonlarının (Borçalı, Marneuli, Bolnisi, Dmanisi) şivələri də Azərbaycan dilinin qərb ləhcəsinə daxil edilir.[4]

Qərb şivələri indiyə qədər müxtəlif istiqamətlərdə tədqiq edilmişdir:

1.Qərb şivələrinin monoqrafik tədqiqi;

2. Qərb şivələrinin lüğət tərkibinin leksik-semantik tədqiqi;

3. Qərb şivələrinin müqayisəli tədqiqi.

Qərb şivələrinin monoqrafik tədqiqi

Dialektlərin monoqrafik yolla öyrənilməsi onların ümumi və səciyyəvi cəhətlərini aşkara çıxarmağa imkan yaradır. Qərb ləhcəsinin təsir dairəsində olan şivələrin əksəriyyəti bu yolla öyrənilmiş, spesifik xüsusiyyətlər və onların arealı müəyyənləşdirilmişdir. Tədqiqatlardan aydın olur ki, qərb ləhcəsinə xas xüsusiyyətlərin yayılma mərkəzi Qazax, Borçalı və Qarabağ bölgələridir. Mərkəzi bölgədən uzaqlaşdıqca dialekt faktları zəifləyir və sərhəddə Göyçay, Zəngilan kimi keçid şivələri əmələ gəlmişdir.

İ.Həsənovun "Gəncə şivəsində mənsubiyyət şəkilçisiz isimlərin hallanması" (1926) kitabı Azərbaycan dilinin dialektlərinə dair ilk tədqiqatlardandır. Azərbaycan dilinin qərb şivələrinin öyrənilməsinə bu kitabla başlanılmışdır. İ.Həsənov Qazax şivəsinə dair material toplayaraq həmin şivənin fonetik xüsusiyyətlərini əks et-

dirən "Azərbaycan-türk dilində ləhcələr haqqında" (1935) əsər yazsa da, bu tədqiqt işi elmi dövriyyəyə daxil olmamışdır.[3]

İ.Cəfərov Moskvada " Tovuz rayonunun şivələri" (1954) mövzusunda tədqiqatının yazılmasında əsas məqsəd Tovuz rayonu şivələrinin fonetik, leksik, morfoloji və sintaktik xüsusiyyətlərini müəyyənləşdirib aşkara çıxarmaqdır. Azərbaycan dilinin qərb qrupu şivələrinə aid edilən Tovuz rayonu şivələri bir çox özünəxas xüsusiyyətləri tədqiqatda öz əksini tapmışdır. [23]

Z.Vəliyevin " Ermənistan SSR Basarkeçər rayonunun Azərbaycan dili şivələri" (1955) mövzusunda tədqiqat işində Basarkeçər rayonunun şivələrinin özünəxas fonetik, morfoloji və sintaktik xüsusiyyətlərindən bəhs edilir.Tədqiqat işi dörd fəsildən ibarətdir. Birinci fəsildə Basarkeçər rayonununun iqtisadi və mədəni vəziyyəti, "Basarkeçər" sözünün məna və mənşəyi haqda olan fikirlər işıqlandırılır. İkinci fəsildə Basarkeçər şivələrində istifadə edilən səs variantları Azərbaycan ədəbi dilində işlənən səslərlə müqayisəli şəkildə təsvir edilir.Tədqiqat işinin üçüncü fəsli bütünlüklə həmin şivələrin morfoloji xüsusiyyətlərinin araşdırılmasına həsr edilmişdir. Dördüncü fəsildə isə Basarkeçər şivələrinin sintaktik xüsusiyyətləri və dialekt leksikası müqayisəli şəkildə verilmişdir.[18]

T.Hacıyevin " Azərbaycan dilinin Cəbrayıl şivəsi" (1962) adlı tədqiqatında digər qərb şivələrindən keçid xarakterli olması ilə fərqlənən Cəbrayıl şivəsinin spesifik xüsusiyyətləri araşdırılmışdır.Tədqiqatın birinci fəsli şivənin fonetik, ikinci qrammatik xüsusiyyətlərinə, üçüncü fəsil isə bütünlükdə leksikasının tədqiqinə həsr edilmişdir.[19]

Qazax dialektinin Ə.Cəfərli tərəfindən fəlsəfə doktoru dissertasiyası səviyyəsində təsviri metodla tədqiqi ilə qərb ləhcəsini səciyyələndirən xüsusiyyətlər aşkara çıxarıldı. Eyni zamanda bu dialektdə qədim oğuz xüsusiyyətlərinin daha çox qorunub saxlanması, spesifik cəhətlərin yayılma mərkəzi müəyyən olundu. Tədqiqat işinin birinci fəslində dialektin fonetikası, ikinci fəsildə isə morfologiya və sintaksisi tədqiq edilir. Qazax dialekti özünəməxsus bir sıra morfolji xüsusiyyətləri ilə, həm ədəbi dildən, həm də Azərbaycan dilinin başqa dialektlərindən fərqlənməsi ilə xarakterizə olunur. Dissertasiya işinin üçüncü fəsli isə maraqlı, zəngin tərkibə malik olan və özündə qədim zamanlardan müasir dövrə qədər olan dəyişiklikləri əks etdirən Qazax dialektinin leksikasına həsr edilmişdir.[24]

Qazax və Borçalı şivələri ümumi xüsusiyyətlərinə görə bir şivələr qrupunda birləşir. Qərb ləhcəsinin sərhədlərini müəyyənləşdirmək baxımından dilimizin Gürcüstan ərazisindəki şivələrinin tədqiqinin mühüm elmi əhəmiyyəti vardır.

V.Cankidzenin rus dilində " Azərbaycan dilinin Qazax dialektinin Dmanisi şivəsi" (1965) adlı monoqrafiyasında Dmanisi şivəsinin səs sistemi, morfoloji xüsusiyyətləri və qısaca olaraq sintaksisi araşdırılır. Dmanisi şivəsinin leksik tərkibi, ərəb, rus, gürcü, yunan mənşəli sözlər, yerli leksika, ədəbi dildə işlənən və Dmanisi şivəsində əlavə məna kəsb edən sözlər və s.tədqiqata cəlb edilmişdir.[25]

S.Behbudovun "Azərbaycan dilinin Zəngilan şivəsi"(1966) adlı tədqiqatından aydın olur ki, Zəngilan şivəsi keçid xarakterli şivədir, belə ki, o özündə həm qərb, həm də cənub qrupuna aid olan xüsusiyyətləri əks etdirir. Müəllif 1961-63-cü illər arasında Zəngilan rayonunun 34 kəndindən həm müşahidə, həm də müsahibə yolu ilə zəngin material toplayaraq şivənin özünəməxsus xüsusiyyətlərini təsviri və müqayisəli-tarixi metodlarla araşdırmışdır.[16]

Qərb şivələri fərdi üsulla yanaşı, kollektiv üsulla da tədqiqata cəlb edilmişdir. Keçən yüzilliyin 50-60-cı illərində Dilçilik İnstitutu qərb bölgəsinə dialektoloji ekspedisiya təşkil etmişdir. M.Şirəliyev və R.Rüstəmovun redaktorluğu ilə 1967-ci ildə " Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri" kitabı nəşr edilmişdir. Burada Qazax dialekti və Gürcüstan ərazisindəki Borçalı (Marneuli) rayonundan toplanmış dialektoloji material əhatə edilmişdir. Qazax dialektinin əhatə dairəsinə Qazax, Tovuz, Şəmkir və Ağstafa rayonlarının əraziləri aid edilir. [2]

Ş.Kərimovun "Karvansaray (Krasnoselo) və Çənbərək (İcevan) rayonlarında Azərbaycan dili şivələri" adlı tədqiqatı 60-70-ci illərdə yazılsa da, 2004 –cü ildə monoqrafiya şəklində çap olunmuşdur. Tədqiqat işində Karvansaray və Çənbərək rayonlarının Azərbaycan dili şivələri üç qrupa bölünərək araşdırılır:

1) Qaraqoyunlu şivəsi ;

2) Göyçə şivəsi ;

3) Ayrım şivəsi.[10]

Q.Tuşmalişvili "Qardabani rayonu azərbaycanlılarının şivə xüsusiyyətləri" (1972) adlı tədqiqatında belə qənaətə gəlmişdir ki, Qardabani şivəsinin özünəməxsus xüsusiyyətlərinin olmasına baxmayaraq, bu şivə Qazax rayonu şivələri ilə daha çox ümumi xüsusiyyətlərə malikdir. Tədqiq edilən şivənin bir sıra xüsusiyyətləri isə onu Azərbaycan dilinin cənub şivələri ilə bağlayır.[27]

"Azərbaycan dilinin Ağcabədi şivələri"nin (1977) İ.Quliyev tərəfindən tədqiqi ilə Qarabağ şivələrinin mövqeyinə aydınlıq gətirilir, bu şivələr qrupunun ümumi xüsusiyyətləri müəyyənləşir.Tədqiqatın birinci fəsli Ağcabədi rayonu şivələrinin səs sistemindən bəhs edilir. Tədqiqat işinin ikinci fəsli Ağcabədi rayonu şivələrinin morfoloji, üçüncü fəsli isə sintaktik xüsusiyyətlərinə həsr edilmişdir. Dördüncü fəsildə isə bütövlükdə leksik xüsusiyyətlər tədqiq edilmişdir.[26]

A synchronic dictionary should also show the distribution of every word. It has been traditionally done by labelling words as belonging to a certain part of speech, and by noting some special cases of grammatically or lexically bound meanings. Thus, the word *spin* is labelled in "The Concise Oxford Dictionary" as v.t. & i., which gives a general idea of its distribution; its various senses are shown in connection with words that may serve as subject or object, e. g.: "2. (of spider, silkworm, etc.) *make* (web, gossamer, cocoon, or abs.) by extrusion of fine viscous thread ... 10. *spun glass* (spun when heated into filaments that remain pliant when cold); *spun gold, silver* (gold, silver thread prepared for weaving ...)." This technique is gradually being improved upon, and compilers strive to provide more detailed information on these points. "The Advanced Learner's Dictionary ..." by A.S. Hornby, E.V. Gatenby and H. Wakefield supplies information on the syntactical distribution of each verb. In their "Notes on Syntax" the compilers state that one who is learning English as a foreign language is apt to form sentences by analogy, which at times may lead him into error. For instance, the student must be warned against taking the use of the verb *tell* in the sentence *Please tell me the meaning* as a model for the word *explain,* because **Please, explain me the meaning* would be ungrammatical. For this purpose they provide a table of 25 verb patterns and supply the numerical indications in each verb entry. This gives the student the necessary guidance. Indications are also supplied as to which nouns and which semantic varieties of nouns may be used in the plural. This helps the student to avoid mistakes like **interesting informations.*

Many dictionaries indicate the different stylistic levels to which the words belong: colloquial, technical, poetical, rhetorical, archaic, familiar, vulgar or slang, and their expressive colouring: emphatic, ironical, diminutive, facetious. This is important, because a mere definition does not show these data. There is always a difference in style between the dictionary word and its definition. The word *digs* is a slang word but its definition 'lodgings' is not. Giving these data modern dictionary-

makers strive to indicate the nature of the context in which the word may occur. The problem is also relevant for bilingual dictionaries and is carefully presented in the "New English-Russian Dictionary" edited by I.R. Galperin. A third group of lexicographic problems is the problem of definitions in a unilingual dictionary. The explanation of meaning may be achieved by a group of synonyms which together give a fairly general idea; but one synonym is never sufficient for the purpose, because no absolute synonyms exist. Besides, if synonyms are the only type of explanation used, the reader will be placed in a vicious circle of synonymic references, with not a single word actually explained. Definitions serve the purpose much better. These are of two main types. If they are only concerned with words as speech material, the definition is called linguistic. If they are concerned with things for which the words are names, they are termed encyclopaedic. American dictionaries are for the most part traditionally encyclopaedic, which accounts for so much attention paid to graphic illustration. They furnish their readers with far more information about facts and things than their British counterparts, which are more linguistic and more fundamentally occupied with purely lexical data (as contrasted to r e a l i a), with the grammatical properties of words, their components, their stylistic features, etc. Opinions differ upon the optimum proportion of linguistic and encyclopaedic material. Very interesting considerations on this subject are due to Alf Sommerfeldt. He thinks that definitions must be based on the fact that the meanings of words render complex notions which may be analysed (cf. componental analysis) into several elements rendered by other words. He emphasises, for instance, that the word *pedestrian* is more aptly defined as 'a person who goes or travels on foot' than as 'one who goes or travels on foot'. The remark appears valuable, because a definition of this type shows the lexico-grammatical type to which the word belongs and conesquently its distribution. It also helps to reveal the system of the vocabulary. Much too often, however, one sees in dictionaries no attention paid to the difference in distribution between the defined and the defining word.

One more problem is the problem of whether all entries should be defined or whether it is possible to have the so-called "run-ons" for derivative words in which the root-form is readily recognised (such as *absolutely* or *resolutely).* In fact, whereas *resolutely* may be conveniently given as a *-ly* run-on after *resolute,* there is a meaning problem for *absolutely.* One must take into consideration that in colloquial speech *absolutely* means 'quite so', 'yes' which cannot be deduced from the meaning of the corresponding adjective.

Ədəbiyyat

1. *Никитин М. В.* Лексическое значение слова. М., 1983.
2. *Уфимцева А. А.* Лексическое значение. М., 1986.
3. *Jespersen, Otto.* Growth and Structure of the English Language. Oxford, 1982.

Zamirə Əfəndiyeva
Səidə Gəmərli

Leksikologiyanin əsas problemləri

Xülasə

Leksikologiya dilçiliyin əsas şöbələrindən biridir. Bu mövzu bir çox dilçilərin elmi işlərində öz əksini tapıb, çünki leksikologiya hər bir dilin özəyini təşkil edir.

Dilin lüğət tərkibindən bəhs edən leksikologiyanı dərindən bilmək hər bir dilçi üçün çox vacibdir. Sözdüzəltmə, sözyaradıcılığı kimi terminlər məhz leksikologiyaya aiddir. Dilin əsas elementlərindən biri olan söz dilin lüğət tərkibini təşkil edir.

Məqalə leksikologiyanın bəzi problemlərindən bəhs edir və böyük əhəmiyyət kəsb edir.

Замира Эфендиева
Саида Гамарли

Основной проблемы лексикологий

Резюме

Лексикология одно из главных разделов языкознания. Многие лингвисты использовали эту тему в своих научных работах. Потому что лексикология основа каждого языка.

Для каждого языковеда очень важно знать лексикологию, изучающую словарной состав языка. Такие термины как словообразования относятся именно к лексикологию. Слово как важный один из важных языка составляет словарный состав языка.

В статье говорится о некоторых проблемах лексикологии.

Rəyçi: B/m Səkinə Bilalova

ZAHİRƏ KAZIMOVA
Azərbaycan Dövlət Neft Akademiyası
Xarici dillər kafedrası

CHARACTERISTICS OF THE WORD AS THE BASIC UNIT OF LANGUAGE

Açar sözlər: söz, dil, vahid, əsas, motivasiya, yanaşma
Key words: word, language, unit, basic, motivation, approach
Ключевые слова: слово, язык, единица, основной, мотивация, подход

Although the borderline between various linguistic units is not always sharp and clear, we shall try to define every new term on its first appearance at once simply and unambiguously, if not always very rigorously. The approximate definition of the term word has been given in the article.

The important point to remember about definitions is that they should indicate the most essential characteristic features of the notion expressed by the term under discussion, the features by which this notion is distinguished from other similar notions. For instance, in defining the word one must distinguish it from other linguistic units, such as the phoneme, the morpheme, or the word-group. In contrast with a definition, a description aims at enumerating all the essential features of a notion.

To make things easier we shall begin by a preliminary description, illustrating it with some examples.

The word may be described as the basic unit of language. Uniting meaning and form, it is composed of one or more morphemes, each consisting of one or more spoken sounds or their written representation. Morphemes as we have already said are also meaningful units but they cannot be used independently, they are always parts of words whereas words can be used as a complete utterance (e. g. *Listen!).* The combinations of morphemes within words are subject to certain linking conditions. When a derivational affix is added a new word is formed, thus, *listen* and *listener* are different words. In fulfilling different grammatical functions words may take functional affixes: *listen* and *listened* are different forms of the same word. Different forms of the same word can be also built analytically with the help of auxiliaries. E.g.: *The world should listen then as I am listening now*.

When used in sentences together with other words they are syntactically organised. Their freedom of entering into syntactic constructions is limited by many factors, rules and constraints (e. g.: *They told me this story* but not **They spoke me this story).*

The definition of every basic notion is a very hard task: the definition of a word is one of the most difficult in linguistics because the simplest word has many different aspects. It has a sound form because it is a certain arrangement of phonemes; it has its morphological structure, being also a certain arrangement of morphemes; when used in actual speech, it may occur in different word forms, different syntactic functions and signal various meanings. Being the central element of any language system, the word is a sort of focus for the problems of phonology,

lexicology, syntax, morphology and also for some other sciences that have to deal with language and speech, such as philosophy and psychology, and probably quite a few other branches of knowledge. All attempts to characterise the word are necessarily specific for each domain of science and are therefore considered one-sided by the representatives of all the other domains and criticised for incompleteness. The variants of definitions were so numerous that some authors collecting them produced works of impressive scope and bulk.

A few examples will suffice to show that any definition is conditioned by the aims and interests of its author.

Thomas Hobbes, one of the great English philosophers, revealed a materialistic approach to the problem of nomination when he wrote that words are not mere sounds but names of matter. Three centuries later the great Russian physiologist I.P. Pavlov examined the word in connection with his studies of the second signal system, and defined it as a universal signal that can substitute any other signal from the environment in evoking a response in a human organism. One of the latest developments of science and engineering is machine translation. It also deals with words and requires a rigorous definition for them. It runs as follows: a word is a sequence of graphemes which can occur between spaces, or the representation of such a sequence on morphemic level.

Within the scope of linguistics the word has been defined syntactically, semantically, phonologically and by combining various approaches.

It has been syntactically defined for instance as "the minimum sentence" by H. Sweet and much later by L. Bloomfield as "a minimum free form". This last definition, although structural in orientation, may be said to be, to a certain degree, equivalent to Sweet's, as practically it amounts to the same thing: free forms are later defined as "forms which occur as sentences".

E. Sapir takes into consideration the syntactic and semantic aspects when he calls the word "one of the smallest completely satisfying bits of isolated 'meaning', into which the sentence resolves itself". Sapir also points out one more, very important characteristic of the word, its indivisibility: "It cannot be cut into without a disturbance of meaning, one or two other or both of the several parts remaining as a helpless waif on our hands". The essence of indivisibility will be clear from a comparison of the article *a* and the prefix *a-* in *a lion* and *alive. A lion* is a word-group because we can separate its elements and insert other words between them: *a living lion, a dead lion. Alive* is a word: it is indivisible, i.e. structurally impermeable: nothing can be inserted between its elements. The morpheme *a-* is not free, is not a word. The situation becomes more complicated if we cannot be guided by solid spelling.' "The Oxford English Dictionary", for instance, does not include the reciprocal pronouns *each other* and *one another* under separate headings, although they should certainly be analysed as word-units, not as word-groups since they have become indivisible: we now say *with each other* and *with one another* instead of the older forms *one with another* or *each with the other.*

Altogether is one word according to its spelling, but how is one to treat *all right,* which is rather a similar combination?

When discussing the internal cohesion of the word the English linguist John Lyons points out that it should be discussed in terms of two criteria "positional

mobility"and "uninterruptability". To illustrate the first he segments into morphemes the following sentence: *the - boy - s - walk - ed - slow - ly - up - the – hil.* The sentence may be regarded as a sequence of ten morphemes, which occur in a particular order relative to one another. There are several possible changes in this order which yield an acceptable English sentence: *slow - ly - the - boy - s - walk - ed - up - the - hill up - the - hill - slow - ly - walk - ed - the - boy – s.* Yet under all the permutations certain groups of morphemes behave as 'blocks' — they occur always together, and in the same order relative to one another. There is no possibility of the sequence *s - the - boy, ly - slow, ed - walk. "*One of the characteristics of the word is that it tends to be internally stable (in terms of the order of the component morphemes), but positionally mobile (permutable with other words in the same sentence)".

The semantic-phonological approach may be illustrated by A.H.Gardiner's definition: "A word is an articulate sound-symbol in its aspect of denoting something which is spoken about."

The eminent French linguist A. Meillet combines the semantic, phonological and grammatical criteria and advances a formula which underlies many subsequent definitions, both abroad and in our country, including the one given in the beginning of this book: "A word is defined by the association of a particular meaning with a particular group of sounds capable of a particular grammatical employment."

This definition does not permit us to distinguish words from phrases because not only *child,* but *a pretty child* as well are combinations of a particular group of sounds with a particular meaning capable of a particular grammatical employment.

We can, nevertheless, accept this formula with some modifications, adding that a word is the smallest significant unit of a given language capable of functioning alone and characterised by positional mobility within a sentence, morphological uninterruptabilityand semantic integrity.[2] All these criteria are necessary because they permit us to create a basis for the oppositions between the word and the phrase, the word and the phoneme, and the word and the morpheme: their common feature is that they are all units of the language, their difference lies in the fact that the phoneme is not significant, and a morpheme cannot be used as a complete utterance.

Another reason for this supplement is the widespread scepticism concerning the subject. It has even become a debatable point whether a word is a linguistic unit and not an arbitrary segment of speech. This opinion is put forth by S. Potter, who writes that "unlike a phoneme or a syllable, a word is not a linguistic unit at all." He calls it a conventional and arbitrary segment of utterance, and finally adopts the already mentioned definition of L. Bloomfield. This position is, however, as we have already mentioned, untenable, and in fact S. Potter himself makes ample use of the word as a unit in his linguistic analysis.

The weak point of all the above definitions is that they do not establish the relationship between language and thought, which is formulated if we treat the word as a dialectical unity of form and content, in which the form is the spoken or written expression which calls up a specific meaning, whereas the content is the meaning rendering the emotion or the concept in the mind of the speaker which he intends to convey to his listener.

Summing up our review of different definitions, we come to the conclusion that they are bound to be strongly dependent upon the line of approach, the aim the scholar has in view. For a comprehensive word theory, therefore, a description seems more appropriate than a definition.

The problem of creating a word theory based upon the materialistic understanding of the relationship between word and thought on the one hand, and language and society, on the other, has been one of the most discussed for many years.

The word is the fundamental unit of language. It is a dialectical unity of form and content. Its content or meaning is not identical to notion, but it may reflect human notions, and in this sense may be considered as the form of their existence. Concepts fixed in the meaning of words are formed as generalised and approximately correct reflections of reality, therefore in signifying them words reflect reality in their content.

When there is a certain similarity between the sounds that make up the word and those referred to by the sense, the motivation is phonetical. Examples are: *bang, buzz, cuckoo, giggle, gurgle, hiss, purr, whistle,* etc. Here the sounds of a word are imitative of sounds in nature because what is referred to is a sound or at least, produces a characteristic sound *(cuckoo).* Although there exists a certain arbitrary element in the resulting phonemic shape of the word, one can see that this type of motivation is determined by the phonological system of each language as shown by the difference of echo-words for the same concept in different languages. St. Ullmann stresses that phonetic motivation is not a perfect replica of any acoustic structure but only a rough approximation. This accounts for the variability of echo-words within one language and between different languages. Gf. *cuckoo* (Engl), *Kuckuck* (Germ), *кукушка* (Russ). Within the English vocabulary there are different words, all sound imitative, meaning ‘quick, foolish, indistinct talk’: *babble, chatter, gabble, prattle.* In this last group echoic creations combine phonological and morphological motivation because they contain verbal suffixes *-le* and *-er* forming frequentative verbs. We see therefore that one word may combine different types of motivation.

Words denoting noises produced by animals are mostly sound imitative. In English they are motivated only phonetically so that nouns and verbs are exactly the same. In Russian the motivation combines phonetical and morphological motivation. The Russian words *блеять* v and *блеяние* n are equally represented in English by *bleat.* Cf. also: *purr* (of a cat), *moo* (of a cow), *crow* (of a cock), *bark* (of a dog), *neigh* (of a horse) and their Azerbaijani equivalents.

Ədəbiyyat

1. Ginzburg R.S., Khidekel S.S., Knyazeva G.Y., Sankin A.A. A Course in Modern English Lexicology. M., 1979.
2. Jespersen, Otto. Growth and Structure of the English Language. Oxford, 1982.
3. Lehrer A. Semantic Fields and Lexical Structure. Amsterdam — London, 1974.

Zahirə Kazımova

Sözün xüsusiyyəti

Xülasə

Söz dilin əsas vahidlərindən biridir. Sözsüz dil yoxdur. Dil ünsiyyət vasitəsidir. Nəzərə alsaq ki, ünsiyyət sözlərlə yaranır, sözü dialektik vahid kimi qiymətləndirmək çox vacibdir. Söz hər cümləmizi yaradan vacib elementdir. Bu səbəbdən sözü geniş mənada öyrənmək hər bir dilçi üçün çox vahiddir. Məqalədə dilin əsas vahidlərindən biri olan sözdən bəhs edilir. Dilin lüğət tərkibini təşkil edən sözləri yaradan morfemlərdir. Məqalədə bu haqda geniş məlumat verilib. Bu baxımdan məqalə bu məsələ ilə bağlı böyük əhəmiyyət kəsb edir.

Захира Казымова

Характеристика слова

Резюме

Слово это один их важных элементов языка. Без слов отсутствует и язык (нет и языка). Язык это способ коммуникации. Если учесть что коммуникация создается с помощью слов, очень важно оценим слово как диалектическая единица. Слово это важный элемент образуемый каждую предложение. Следовая этому для каждого лингвиста важно исследовать «слово» в широком смысле его значение. В статье говорится об одной из важных единицу языка о слове. Основная часть словарного состава слова образуется с помощью морфемы. В статье об этом дано много информации и имеет большую ползу.

Rəyçi: Baş/ m Tamilla Mehdiyeva

GÜLNAR BABAYEVA
AMEA Nəsimi adına Dilçilik İnstitutunun dissertantı

KEÇƏN ƏSRİN 20-Cİ İLLƏRİNDƏ DİALEKT VƏ ŞİVƏLƏRİMİZİN TƏDQİQİ MƏSƏLƏLƏRİ

Açar sözlər: Tədqiq və Tətəbbö cəmiyyəti, dialekt, şivə, proqram, lüğət
Ключевые слово: Исследовательская и Научная Корпорация, диалект, акцент, программа, словарь
Key words: Research and Study Corporation, dialect, accent, program

Azərbaycan xalqı zəngin mədəni irsə, böyük ənənələrə, dictionary malikdir. Çoxəsrlik Azərbaycan xalqı uzun və keşməkeşli bir yol keçmiş, daim müxtəlif təsir və təzyiqlərə məruz qalmışdır. Bütün bu çətinliklərə baxmayaraq, mədəniyyətimiz, dilimiz özəlliyini qoruyaraq bugünümüzə qədər gəlib çıxmışdır. Xalqın mənşəyi adətən onun danışdığı dilə görə müəyyən edilir. Etnik mənsubiyyəti bildirən başlıca əlamət dildir. "Orxon-Yenisey" abidələri, "Divanü-lüğat-it-türk", "Oğuznamə", "Qutadqu bilik" kimi əsərlər türk xalqlarının, türk dillərinin qədim tarixə malik olduğunu göstərir.

Müxtəlif inkişaf mərhələləri keçən elm və mədəniyyətimiz Alban dövlətinin qurulması ilə daha da yüksəlmiş və tanınmağa başlamışdır. Lakin ictimai-siyasi həyatda baş verən dəyişikliklər, digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsinə də öz təsirini göstərmişdir. Belə ki, VII əsrdə ərəblərin Azərbaycan ərazisini işğal etməsi, ərəb dilinin hakim mövqe tutmasına gətirib çıxardı. İşğal olunan ərazilərdə ərəb dilinin hakim mövqe tutması tədricən alban əlifbasını sıradan çıxardı. Ölkədə yazı işləri, dini ayinlər ərəb dilində aparılırdı. Abbasilər sülaləsinin hakimiyyəti dövründə artıq ərəb dili öz yerini fars dilinə verdi və bu dilin hökmranlığı başladı. Bu dil ədəbiyyat sahəsinə çox sürətlə yol açdı. Əsərlər fars dilində yazılmağa başlandı və bu dil ədəbiyyatda uzun müddət hakim mövqe tutaraq qaldı. Lakin 1500 illik tarixi olan "Kitabi Dədə Qorqud" dastanları Azərbaycan ədəbiyyat tarixində şifahi xalq yaradıcılığının ana dilində qələmə alınmış ən böyük ədəbi abidə kimi qorunub saxlandı. Ana dilində yazıb-yaradan şairlər meydana gəldikcə Azərbaycan dili yüksək ədəbi dil səviyyəsinə gəlib çıxdı. 1501-ci ildə Səfəvilər dövlətinin yaranması və Şah İsmayıl Xətainin hakimiyyətə gəlməsi ilə Azərbaycan dili dövlət dili elan olundu. Azərbaycan dili bütün Səfəvi imperiyasında hakim dilə çevrildi. XVII əsrdə şah sarayında, hətta adlı-sanlı adamların evlərində də bu dildə danışılırdı.

Azərbaycanın sosial-iqtisadi və siyasi həyatındakı dəyişikliklər mədəniyyətimizdə də öz əksini tapırdı. XIX əsrin ikinci yarısında Azərbaycanda maarif inkişaf edirdi. Əsas tədris ocaqları olan mədrəsə və məktəblərin sayı 500-700-ə çatırdı. Bakı, Şamaxı, Şuşa , Nuxa və s. şəhərlərdə ədəbi dərnəklər, məclislər təşkil olunurdu ki, bu da uşaqların ana dilinə məhəbbətinin artmasına, şeirə, poeziyaya olan maraqlarının genişlənməsinə kömək edirdi. XIX əsrin sonlarında təhsildə bəzi dəyişikliklər baş verdi. Belə ki, artıq məktəblərdə ana dili tədris olunmağa başladı. Bu sahədə S.Ə.Şirvani, Məhəmməd Tağı Sidqi, xüsusən Həsən bəy Zərdabi və N.Vəzirov kimi ziyalıların misilsiz xidmətləri olmuşdur. Azərbaycan üçün müəllim kadrlarının hazırlanmasında 1879-cu ildə Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsinin

fəaliyyətə başlamasının böyük rəhəmiyyəti olmuşdur. Şöbənin müdiri A.O.Çernyayevski azərbaycanlı uşaqların təhsilə cəlb olunmasında mühüm işlər görmüşdür.

XIX əsrin II yarısında Azərbaycanda kütləvi kitabxana və qiraətxanalar açıldı. Belə kitabxana və qiraətxanalardan birini 1894-cü ildə N.Nərimanov açmışdır. XIX əsrin ən mühüm hadisələrindən biri 1875-ci ildə milli mətbuatın əsasının qoyulması olmuşdur. H.B.Zərdabi tərəfindən "Əkinçi" qəzeti ilə əsası qoyulan milli mətbuat sonralar arxası ilə "Ziya", "Kəşkül", "Molla Nəsrəddin" kimi mətbuat nümunələrini gətirdi. Azərbaycanda soial-iqtisadi sahədə olan bu irəliləyiş ədəbiyyatda maarifçilik ideyalarının da genişlənməsinə yol açdı. M.F.Axundov tərəfindən əsası qoyulan dramaturgiya N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov yaradıcılığı ilə yüksək zirvəyə çatdı. Dramaturgiyanın inkişafı milli teatrın yaranmasına gətirib çıxardı. Beləliklə, 1873-cü il martın 22-sində Bakı realni məktəbinin həvəskarlar qrupu M.F.Axundovun "Hacı Qara" komediyasını səhnələşdirdilər. Bu işdə H.B.Zərdabinin də mühüm xidməti olmuşdur. Sonralar H.Z.Tağıyev tərəfindən Bakıda teatr binasının tikilməsi bu sənətin inkişafına daha da təkan verdi. XIX əsrdən başlanan bu inkişaf XX əsrdə də davam etdi. XX əsrin əvvəllərində Azərbaycanda ilk dəfə olaraq dövlət səviyyəsində elmi tədqiqat sahələri və institutları yaradılması işinə başlandı. 1921-ci ilin fevralında Xalq Maarif Komissarlığı nəzdində elm və təhsil sahəsinə rəhbərlik üşün akademik şöbə yaradıldı. Onun tərkibinə Azərbaycan Dövlət Universiteti, Azərbaycan Politexnik İnstitutu, Dövlət Muzeyi, Dövlət Arxivi, Dövlət Kitabxanası və bütün digər elmi xarakterə malik idarələr, məktəblər daxil edildi.

1920-ci illərdə respublikada elmi tədqiqatla, elmi fəaliyyətlə məşğul olan kadrların sayı çox az idi. Azərbaycanda təbiət və texnika elmlərinin inkişafına yol açmaq üçün başqa ölkələrdən çox görkəmli alimlər, yüksək ixtisaslı mütəxəssislər göndərilməyə başladı. Lakin Azərbaycanda elmin daha da inkişafı vahid elmi mərkəzin yaradılmasını tələb edirdi. 1923-cü ilin əvvələrində belə bir cəmiyyətin yaranması üçün bir qrup ali məktəb professoru Xalq Maarif Komissarlığına müraciət etmiş və öz nizamnamələrini təqdim etmişlər. Elə həmin il Xalq Maarif Komissarlığının kollegiyası təqdim olunmuş nizamnaməni təsdiq etdi. Beləliklə, 1923-cü il noyabrın 2-də "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" fəaliyyətə başladı. Cəmiyyətin məqsədi, vəzifələri, görəcəyi işlər və bu işlərin görülmə üsulları və vasitələri nizamnamədə öz əksini tapmışdır. Cəmiyyətin məqsədi Azərbaycanı iqtisadi, sosial, tarixi, etnoloji, arxeoloji, linqvistik (dilşünaslıq) cəhətlərindən tədqiq etmək və öyrənmək idi. Cəmiyyət 4 seksiyaya bölünürdü:

1. Türkoloji;
2. Sosial-iqtisadi;
3. Tarix və etnoqrafiya;
4. Təbiət;

Cəmiyyət 4 büro üzrə fəaliyyət göstərirdi:

1. Biblioqrafiya;
2. Azərbaycan haqqında bilik populyarizasyonu və məktəbə kömək;
3. Fotoqrafiya;
4. Azərbaycan hüdudundan xaricdə olan məmləkətlər bürosu.

Azərbaycanın keçmişini, bugününü ətraflı tədqiq etmək və öyrənmək üçün cəmiyyət elmi ekspedisiyalar təşkil edir, qurultaylar, konfranslar, iclaslar çağırır,

müşavirələr, mühazirələr təşkil edir, muzeylər, kitabxanalar yaradaraq ölkənin öyrənilməsi üçün bir sıra işlər görürdü.

"Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" ali məktəb professorlarını, həkimləri, müəllimləri, ali məktəb tələbələrini öz ətrafına toplayırdı. Hər il qəzalara elmi-tədqiq ekspedisiyaları gedir, ekspedisiyaların köməyi ilə cəmiyyət zəngin elmi material toplayırdı. Bu materialların bir qismi cəmiyyətin məcmuələrində, bir qismi isə ayrıca elmi əsərlər şəklində dərc olunurdu.

Naxçıvan, Xankəndi, Şəki, Zaqatala, Qazax,Gəncə, Şamaxı, Lənkəran qəza mərkəzlərində cəmiyyətin şöbələri fəaliyyət göstərirdi. Lakin bu şöbələrdə yalnız həvəskar işçilər fəaliyyət göstərirdi. Belə olduqda şöbələrdə dəqiq araşdırmalar aparılmır və cəmiyyətə kifayət qədər məlumat ötürülmürdü. Buna görə də cəmiyyətin katiblər heyəti yeni bir proqram layihəsi hazırlamağı qərara aldılar. Layihədə qarşıda duran birinci və əsas məsələ cəmiyyətə üzvlərin cəlbi məsələsi idi. Belə ki, şöbələrə maarif, mədəniyyət, tibb sahəsində fəaliyyət göstərən şəxslər, fəal tələbələr, qadınlar cəlb edilməli idi. Hər bir üzv iki nüsxədən ibarət anket sorğu vərəqəsi doldururdu. Bu vərəqənin biri şöbə katibində saxlanılır, digəri isə Bakıdakı cəmiyyətin idarəsinə göndərilirdi. Yeni üzvlər ümumi iclas tərəfindən təsdiq edilirdi.

Şöbənin fəaliyyətini yüksəltmək və işlərini səmərəli təşkil etməkdən ötrü rəyasət adı kağızda qeyd olunub həqiqətdə heç bir iş görməyən üzvləri deyil, yalnız ölkənin öyrənilməsi ilə maraqlanan və şöbənin işini aparmağa qabil olan insanları üzv kimi saxlayırdı. Şöbə öhdələrinə həvalə edilmiş işin icrasına səy və fəaliyyət göstərməyən üzvləri şöbədən kənarlaşdırırdı. Rəyasətə seçiləcək üzvlərin sayı 5-7 nəfərdən çox olmamalı idi. Ümumi iclas özü müəyyən etdiyi miqdarda şura seçir, ümumşura isə öz üzvləri arasından işçi rəyasət heyəti seçirdi ki, rəyasət heyəti də öz növbəsində şura qarşısında hesabat verməli olurdu. Şöbə rəyasətinə seçilmiş olan üzvlərin siyahısını cəmiyyətin mərkəzi şurası təsdiq edirdi.

Azərbaycanın ayrı-ayrı bölgələrinin daha yaxşı öyrənilməsi üçün dairə mərkəzlərində ölkəşünaslıq dərnəkləri təşkil edilirdi. Bu dərnəklərə yerli əhali arasında fəallar, bu iş sahəsi ilə maraqlananlar cəlb edilirdi. Məhəlli şöbələr cəmiyyətin katiblər heyətinə öz protokollarını, iş planlarını, hesabatlarını göndərməklə bərabər cəmiyyət tərəfindən göndərilən sualları da cavablandırmalı idilər. Cəmiyyətə bəzi məlumatlar məktub vasitəsilə göndərilirdi. Göndərilən məktubun üzərinə ünvan yazılmaqla bərabər cəmiyyətin hansı şöbəsinə müraciət edildiyi də göstərilməli idi.

Cəmiyyətin nəşriyyatı da fəaliyyət göstərirdi. Cəmiyyət tərəfindən "Azərbaycanı öyrənmə yolu", rus dilində isə "Cəmiyyətin xəbərləri" adlı jurnal nəşr edilirdi. Şöbə üzvləri tərəfindən cəmiyyətin redaksiyasına dərc edilmək üçün göndərilən əsərlər mütəxəssislər tərəfindən nəzərdən keçirildikdən sonra mətbuatda nəşr edilə bilərdi.

Cəmiyyət fəxri, həqiqi və müxbir üzvlərdən ibarət idi. Fəxri üzvlüyə Azərbaycan və digər ölkələrin alimləri, xüsusən də Azərbaycan haqqında əsərləri ilə məşhur olan alimlər seçilirdilər.

Həqiqi üzvlüyə Azərbaycanı öyrənməkdə maraqlı olan 18 yaşından yuxarı hər bir şəxs seçilə bilirdi. Seçiləcək namizəd haqqında cəmiyyətin 2 üzvü tərəfindən tövsiyə xarakterli təlimat müəyyən büro və yaxud seksiyaya verilirdi. Seksiya və ya büronun ümumi iclasında namizədlər səsə qoyulduqdan sonra şuranın təsdiqinə təqdim edilirdi. Cəmiyyətin təşkilində iştirak edənlərsə birbaşa cəmiyyətin həqiqi

üzvü olurdular. Cəmiyyətin üzvləri cəmiyyət tərəfindən təşkil ediləcək iclaslar və ekskursiyalardan istifadə etməkdə imtiyazlara malik idilər. Nizamnaməni pozanlar, cəmiyyətin adını ləkələyənlər həm mərkəzi, həm də məhəlli şuraların qərarına əsasən çıxarıla bilərdi. Həmçinin mühüm səbəbsiz 3 ay ərzində fəaliyyət göstərməyən üzvlər cəmiyyətdən çıxmış hesab olunurdular.

Cəmiyyətin həqiqi üzvləri hər il üç manat məbləğində üzvlük haqqı ödəməli idilər. Üzvlük haqqı artıq olmamaq şərti ilə hissə-hissə də ödənilə bilərdi. Lakin cəmiyyətin həqiqi üzvü olan müəllimlər, fəhlələr və kəndlilər üzvlük haqqını üç manat əvəzinə bir manat ödədikləri halda, əsgərlər və işsizlər isə üzvlük haqqından ümumiyyətlə azad edilirdilər.

1923-cü il noyabrın 2-də cəmiyyətin fəxri sədri Səmədağa Ağamalıoğlu seçilmişdir. İşçi qrupun tərkibi isə aşağıdakı şəkildə idi: A.N.Samoyloviç cəmiyyətin sədri, A.R.Zifeldt sədr müavini, V.M.Sısoyev xəzinədar, V.A.Ryumin cəmiyyətin katibi vəzifələrinə təsdiq olunmuşdular. H.Cəbiyev, M.Baharlı, R.Şabanov, V.İ.Smirnov-Loqinov və İ.F.Blinov isə cəmiyyətin üzvləri idilər.

"Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" 4 şöbə üzrə fəaliyyət göstərirdi. Bu şöbələrdən biri Tarix-etnoqrafiya şöbəsi idi. Şöbənin qarşısında duran əsas məqsəd Azərbaycanda yaşayan müxtəlif xalqların, xüsusən də türklərin maddi və mənəvi həyatlarını öyrənmək, Azərbaycan ərazisində yerləşən hər bir kəndin, hər bir yerin, köçəri camaatın maddi və mənəvi həyatını tədqiq etmək olmuşdur. Tədqiqat zamanı maddi mədəniyyətə, əhalinin maddi həyatına — yemək-içmək məsələlərinə, geyim tərzinə, yaşayış məkanına, silah, alət, istehsalat texnikasına, rəsm, heykəltəraşlıq, musiqi alətləri, təbabətdə istifadə olunan dərmanlar və s.-ə diqqət etmək lazım idi.

Qəzada yaşayan xalqların ad və ünvanları, nəsil-kökü, harada yaşamış olmaları və haradan gəlmələri məsələlərinə böyük əhəmiyyət verilirdi. Ümumən, Azərbaycanda hansı xalqların yaşadıqlarına dair lazımi məlumat toplanmalı idi. Qəzaya daxil olan şəhərlər, kəndlər, yaşayış məskənləri şifahi və yazılı məlumatlar toplanmalı, qəzanın tarixinə dair yazılmış və çap edilmiş olan kitab, məcmuələrdən məlumatlar toplanaraq biblioqrafiya hazırlanmalı idi. Həmçinin qəzadakı əl yazılarını, arxiv materiallarını toplamaq, tərtib işinə arxiv idarələrinə də kömək edilməli idi. Əhali arasından xalq ədəbiyyatı nümunələri, nağılları, xalq mahnıları mənəvi mədəniyyət nümunələri olaraq tədqiq olunmalı idi. Cəmiyyət tərəfindən görüləcək işlər üçün vahid bir yol, üsul da tərtib olunurdu. İlk olaraq materialın toplandığı məkan, yer müəyyənləşdirilərək qeyd olunmalı idi. Materialı toplayan şəxslərin adları qeyd olunmaqla bərabər, nə vaxt və hansı şəraitdə toplanması da mütləq şəkildə göstərilməli idi. Toplanılan materialın ya fotosu, ya rəsmi və ya planı tərtib edilməli, surəti çıxan sənədlər isə mükəmməl hüsnxət ilə, hətta dilinə belə toxunulmadan olduğu kimi köçürülməli idi. Əgər hər hansı bir dəyişiklik olarsa, onda əl yazması öz əhəmiyyətini itirmiş olunurdu. Xalq ədəbiyyatı nümunələri toplanıldığı zaman tələffüzünə və dilinə heç bir müdaxilə edilmədən olduğu kimi qeyd edilməli idi. Materiallar toplanıldığı zaman materialın kim tərəfindən söylənilməsi, onun hansı xalqın nümayəndəsi olması və neçə yaşında olması kimi məsələlər də göstərilməli idi.

"Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" tərəfindən Azərbaycan türk xalq şivələri lüğəti tərtib etmək üçün toplanacaq materiallar haqqında düsturüləməl və proqram tərtib edilmişdir. Proqram 22 səhifədən ibarətdir. 5 iyul 1924-cü ildə "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin nəşriyyatında çap edilmişdir.

Proqramın ilk səhifəsində "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin Tarix və etnoqrafiya bölməsi sədrinin Ə.Haqverdiyev, katibinin Ryuminin olduğu qeyd edilmişdir. Proqram Aşmarin tərəfindən tərtib edilmişdir və "Cümlə cahan işçiləri birləşsin" şüarı ilə başlayır. İki hissədən ibarətdir. I hissədə lüğətin quruluş xüsusiyyətlərindən, II — "Proqram" adlı hissəsində isə lüğətin tematik bölgüsündən danışılır. Proqramda lüğətin quruluşu və şivə materiallarının toplanılması üsulları ətraflı açıqlanmışdır. Proqramda qeyd olunur ki, Azərbaycan türk xalq şivələri lüğətini tez bir zamanda öyrənmək və bunun əsasında mükəmməl bir lüğət tərtib etmək üçün ilk öncə Azərbaycan dilinin hansı yerlərdə işləndiyini müəyyən etmək və qərarlaşdırmaq lazımdır. Yerli şivələrin işləndiyi ərazilərin sərhədləri təxmini göstərilməli, ərazicə bir-birinə yaxın olan əhalinin danışığında böyük fərq nəzərə çarparsa, ərazilər ayrı-ayrı şivələr kimi tədqiqata cəlb olunmalıdır. Hər bir şivə haqqında toplanacaq materiallar, yerli şivələrin bütün xüsusiyyətləri qeyd olunmaqla göstərilməlidir. Sözlər istər oxunuş, istər səs, istər düzülüş, istərsə qrammatik baxımdan olduğu kimi yazılmalıdır. Məsələn: şivə toplayan şəxs eşitdiyi "sattı" sözünü "satdı", "günnər" sözünü "günlər", "daddı" sözünü "dadlı" yazarsa, onda səhv etmiş olar. Sözlər düzgün yazılış qaydalarına əsaslanaraq deyil, əksinə tələffüz olunduğu kimi qeyd edilməlidir. Əks halda şivələr arasındakı fərq görünməyəcək. Şivə toplayan şəxs şivə topladığı ərazilərdə yerli əhalidən başqa, daha kimlərin yaşadığına da diqqət yetirməlidir. Həmçinin bu xalqların yerli əhali ilə nə cür qaynayıb-qarışdığını göstərməklə bərabər, əhalinin dilinə nə kimi təsir göstərdiyini də araşdırmalıdır. Şivə toplayan şəxs həm başqa dillərdən keçən alınma sözləri, həm də başqa dillərdən keçərək türkləşmiş sözləri qeyd etməlidir. Həmçinin bəzi sözlər də vardır ki onlar şivələrdə az-az işlənir. Belə sözlərə toplayıcı xüsusi diqqət yetirərək onları mümkün qədər tapmacalarda, xalq mahnılarında axtarmalıdır. Toplayıcı qeyd vərəqəsinin üz tərəfində ilk növbədə şivə topladığı yerin adını göstərməli, sonra sözləri uşaqdan, kişidən, qadından, qoca kişi və ya qoca qarıdan topladığını qeyd etməlidir.

Toplayıcı topladığı sözün mənası ona məlumdursa rus dilində mənasını göstərməlidir. Bundan əlavə, hər bir sözün mənası Azərbaycan dilində tam izah olunmalıdır. Sonra bu sözlərin mənalarını daha da aydınlaşdırmaq üçün nağıllardan, mahnılardan, tapmacalardan, atalar sözlərindən və bu kimi başqa parçalardan nümunələr gətirməlidir. Bu nümunələr tərcümə edilmir. Lakin digər xalqlar üçün anlaşılmazsa, onda Azərbaycan dilində tam izah edilməlidir. Toplayıcı ilk növbədə qeyd etdiyi sözün I, yəni əsas mənasını yazmalı və izah etməlidir. Sonra həmin sözün başqa mənalarına diqqət yetirməlidir. Əgər söz bir neçə məna ifadə edirsə, həmin mənalar da ardıcıl olaraq izah edilməlidir. Həmçinin dildə bir mənanı ifadə edən bir neçə kəlmə də ola bilər. Belə sözlərin də hər biri ayrı-ayrılıqda göstərilməlidir.

Sözlərin toplanması vərəqə (kartoçka) sistemi üzrə olmalıdır. İzah ediləcək və ayrıca olaraq lüğətə daxil olunacaq hər bir kəlmə ayrı-ayrı vərəqələrdə qeyd edilməlidir. I vərəqədə sözün əsas mənası, izahı və bu məna ilə bağlı nümunə yazılmalıdır. Əgər I vərəqəyə sığmazsa onda II və III vərəqələr də nömrələnməlidir. Lakin bu halda həmin söz digər vərəqələrin də yuxarı tərəfində yazılmalıdır. Sözün izahı isə həmən vərəqənin altında qeyd edilməlidir. Lüğət toplayıcının qarşısına qoyulan digər bir tələb bütün qeydiyyatlarını son dərəcə səliqəli, anlaşıqlı bir şəkildə yazmasıdır. Çünki toplanan material olduğu kimi mətbəəyə göndəriləcəkdir.

Toplayıcı həmçinin bütün sözləri tələffüzə əsasən olduğu kimi yazmalıdır. Qeydiyyatlar türk əlifbası ilə aparılmalı olsa da, lakin yerli şivələrin bəzi səslərini ifadə etmək üçün əski əlifbadan da istifadə edilə bilər. Lakin sözlərin mənaları və izahı ərəb əlifbası ilə yazılmalıdır. Mənanın açıqlanması üçün istifadə ediləcək nümunələr yazılı Azərbaycan ədəbiyyatı nümunələri də ola bilər.

Lüğət tərtib etmək üçün material toplayan şəxs proqramın bütün müddəalarını yaxşı bilməli, onlara əməl etməlidir. Toplayıcının məlumat toplamaq işində özünün də məntiqi baxışı, yanaşması olmalıdır. Belə ki, məsələn: meşə kənarında yaşayan adam üçün meşədəki ağaclar, heyvanlar haqqında məlumat vermək çətin olmadığı kimi, çay kənarında yaşayan insanın balıqçılıq, çay ətrafında yaşayanların həyatı barəsində məlumat verməsi o qədər də çətin olmaz. Təcrübələr göstərir ki, bu cür toplanan məlumat səhvsiz olar. Material toplayan şəxs uşaq oyunları haqqında qoca adamlardan və ya qadınların paltarları, bər-bəzək əşyaları haqqında uşaqlardan məlumat yığarsa, böyük səhv etmiş olar. Ona görə elə insanlara müraciət olunmalıdır ki, onlar bu və ya digər dərəcədə veriləcək məlumat barəsində anlayışlı olsunlar. Əgər hər hansı bir material şübhə doğurarsa, onun barəsində daha məlumatlı şəxslərə müraciət olunmalıdır. Bütün səylərə baxmayaraq bir sözün mənasını anlamaq mümkün olmazsa, onda o sözün qarşısında mənasının bəlli olmadığı qeyd edilməlidir. Mənası aşkarlanmayan bu cür sözlər vərəqədə mütləq şəkildə qeyd edilməlidir. Bu, elm və fənn üçün çox əhəmiyyətlidir.

Lüğət üçün material toplayan şəxs tərəfindən hər hansı bir səs və ya kəlmə açıq və ya aydın eşidilməzsə, həmən səs və ya kəlmənin aşkar olunması üçün başqa bir adama da tələffüz etdirilməlidir. Lakin bu zaman hər iki tərəfin bir-birinə təsir etməməsi şərtdir.

Toplayıcı tərəfindən yığılmış material məlumat vərəqəsi "Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti"nə təqdim edilməlidir. Məlumat vərəqəsində material yığılan yer, müəllifin qeydləri və vərəqə üçün qəbul etdiyi qısa əlamət və işarələr haqqında geniş məlumat verilməlidir. İxtisarlar barəsində mükəmməl məlumat verilməzsə, onun oxunması və təhlili çətin olar.

Proqramı üzərində material yığılan kəndin adı və bu kəndin yerləşdiyi areal göstərilməlidir. Kəndin adı qeyd olunduqdan sonra kənd əhalisindən bu adın mənası, haradan götürüldüyü barədə məlumat alınmalıdır. Həmən kənd əhalisinin başqa bir yerdən buraya köçməsi barədə bir rəvayət olub-olmaması qeyd edilməlidir. Məşhur və tarixi şəxslər haqqında nağıllar, rəvayətlər qeydə alınmalıdır.

Proqramda hansı sahələr üzrə material toplanacağı aşağıdakı ardıcıllıqla qeyd edilmişdir:

1. Aqrar sahə ilə bağlı—torpaqçılıq, əkinçilik və onun növləri. Bu sahədə ölçü vasitəsi kimi istifadə olunan alətlər, onların hissələrinin adı. Əkinçilik sahəsində istifadə olunan alətlər və onların hissələrinin adı. Bu sahə ilə bağlı rəvayətlər.

2. Suvarma işləri ilə bağlı istilahlar.(kəşflər)

3. Maldarlıqla bağlı istilahlar. Malların cinscə adı, onlarda mövcüd olan xəstəliklər, bu xəstəliklərin aradan qaldırılması yolları. Sağıcılıq işləri.

4. Quşçuluq, quşların adı və onların ovlandığı yerlər. Ümumən ovçuluqla bağlı xüsusi kəlmə və cümlələr.

5. Üzümçülük, bağçılıq, bostançılıq, tütünçülük, pambıqçılığa dair istilahlar. Bu sahələrlə bağlı bitkilərin, çiçəklərin adı, bu sahədə istifadə olunan xüsusi kəlmə və cümlələr.

6. İpəkçilik sahəsindəki istilahlar. Bu sahədə istifadə olunan xüsusi alətlər. Barama qurdlarında olan xəstəliklər, bu xəstəliklərlə mübarizə aparmaq üçün vasitələr.

7. Balıqçılıq və balıqları tutmaq üçün istifadə olunan vasitələr. Yerli və kənardan gələn balıqlar, balıqların cinscə adı. Balıqçıların adətləri.

8. Ovçuluğa dair istilahlar. Vəhşi heyvanlar və quşların adı. Onları ovlamaq üçün istifadə edilən alətlər və onların hissələrinin adı.

9. Kətan, kəndir və bu kimi şeylərə aid istilahlar. Onların əmələ gəlməsi, istehsalı. Yunçuluq sənəti, yunun əyirilməsi, xalı, gəvə və baçqa bu kimi palasların toxunulması. Naxışların və haşiyələrin adı. Xalqın özü toxuduğu və kənardan satın aldığı cürbəcür sapların, hörmələrin adı.

10. Dülgərlik sənətinə aid istilahlar. Bu sənətdə istifadə edilən alətlər. Bu sənətdə işlənən xüsusi kəlmə və cümlələr. Ağac və taxta üzərində naxışlar, ağacdan yonulmuş və taxtadan düzəldilmiş əşyalar və zinət əşyaları.

Dəmirçilik, arıçılıq, dərziçilik, silah düzəldilməsi, dəyirmançılıq, meşəçilik,ev əşyaları, din, dünyanın və insanın yaradılması, musiqi alətləri, uşaq oyunları, xalq ədəbiyyatı nümunələri və s.

Beləliklə, aydın olur ki, hələ sovet hakimiyyətinin ilk illərində dialekt və şivələrimizin tədqiqi, öyrənilməsi üçün Tədqiq və Tətəbbö cəmiyyətində son dərəcə əhatəli bir proqram hazırlanmışdır. Həmin proqramla bağlanan iş böyük vüsətlə davam etmiş, lakin 30-cu illərin sonlarında başlanan repressiya və sonra da II Dünya müharibəsi həmin işləri ləngitmişdir. 40-cı illərin sonlarında və 50-ci illərdə bu sahədə tədqiqat işləri yenidən başlanmış və sonralar uğurla davam etdirilmişdir.

Ədəbiyyat

1. Azərbaycan türk şivələri lüğətini tərtib etmək üçün toplanacaq materiallar haqqında düsturüləməl və proqram. Azərbaycan Tədqiq və Tətəbbö cəmiyyəti nəşriyyatı, 1924
2. Qəzənfər Kazımov. Dil, tarix, poeziya. Bakı: Nurlan, 2005
3. Qəzənfər Kazımov. Seçilmiş əsərləri. I cild. Bakı: Nurlan, 2010

Гюльнар Бабаева

Задачи в области исследования диалектов и наречий XX века

Резюме

Таким образом становится ясно, что в первые годы Советской власти, с целью исследования диалектов и наречий, в Научно-исследовательской корпорации была создана обширная программа. Проводились широкомасштабные работы, связанные с этой программой. Научные прогрессы, начавшиеся в начале XX века были замедлены репрессиями в 30-х годах, а после II Мировой войной. Но исследовательские работы в этой сфере в конце 40-х годов и в 50-х годах снова были начаты и успешно продолжены в последующем.

Gulnar Babayeva

Objectives of the study of dialects in the XX century

Summary

Thus it is clear that in the first years of Soviet government, in order to study dialects, there was an extensive program of left-hand digit established in the Research Corporation. Work associated with this program fulfilled on a large scope. The repression of the 30 th years and then the World War II decelerated the scientific progress started from the beginning of XX century. But, at the end of the 40 th years and in the 50 th years research work started again in this field and subsequently was continued successfully.

Rəyçi: Professor Qəzənfər Kazımov

AYƏDDİN ƏLİYEV
LDU

DİLİMİZİN BƏZİ PROBLEM MƏSƏLƏLƏRİ

Açar sözlər: Azərbaycan dili, orfoqrafiya, orfoepiya, əlifba, termin
Ключевые слова: Азербайджанский язык, орфография, орфоепия, алфавит, термин.
Key words: Azerbaijani language, orfhography, orfhoepy, alphabet, term.

Cəmiyyətdə baş verən müxtəlif hadisələr bu və ya digər dərəcədə dilə də təsir edir. Bu nöqteyi-nəzərdən, XX əsrin sonlarında Azərbaycanın ictimai-siyasi həyatında baş verən dəyişikliklər dildən də yan keçməmişdir. Yeni ictimai quruluşla əlaqədar olaraq sərhədlərin açılması, mədəni əlaqələrin genişlənməsi və digər səbəblərdən Azərbaycan dili də inkişaf etmiş, zənginləşmişdir. Bununla bərabər, qeyd etməliyik ki, bu illər ərzində dildə neqativ halların yaranması üçün də müəyyən şərait yaranmışdır. Belə ki, lüzumsuz yerə dilə əcnəbi sözlər daxil edilmiş, televiziya, radio, qəzet və jurnallarda, ümumiyyətlə kütləvi informasiya vasitələrində, şou proqramlarda, dublyajlarda, idman verilişlərində dilimizin qrammatik, leksik və fonetik normalarının kobud şəkildə pozulması məqamları artmışdır. Ona görə də Dövlət dilimizin inkişaf tarixinin izlənilməsi, dildə baş verən proseslərin araşdırılması, dildən istifadəyə və onun tətbiqi işinə nəzarət, zaman keçdikcə onun orfoqrafik və orfoepik normalarında baş berən dəyişmələrin nizamlanması vacib məsələlərindəndir. Dilçiliyin bir sıra məsələləri var ki, onlar hələ də həllini tapmamışdır. Xüsusən onun sahə leksikası Azərbaycanda bu günə qədər tədqiqata tam cəlb olunmamış, ayrı-ayrı sahələr üzrə sözlərin, terminlərin, mikro və makro toponimlərin etimoloji lüğətləri tərtib olunmamışdır. Özünün zəngin fauna və florası, əkinçilik, heyvandarlıq, balıqçılıq, sənətkarlıq, kulinariya ənənələri olan Azərbaycanda bu sahələrlə bağlı yüzlərlə söz-termin tədqiqatdan kənarda qalmışdır. İngilis dilinin lüğət tərkibində 600 mindən çox sözün olduğu qeyd olunur. Bəs Azərbaycan dilində nə qədər söz vardır? Bunun cavabını nəinki adi vətəndaş, heç dillə məşğul olanlar da bilmir. İngilis dilində ona görə sözlər çoxdur ki, buraya həm dialekt, həm sahə, həm jarqon, həm də vulqar leksika daxil edilmişdir. Son orfoqrafiya lüğətimizdə sözlərin sayı 80 minə yaxındır. Halbuki yuxarıda qeyd etdiyim məsələlər də həllini tapsa, dilimizin necə zəngin olmasını sözlə yox, faktlarla sübut etmiş oluruq. Fikrimizcə, dilimizin bütün sözlərinin əksini tapdığı lüğətin və ya sözlüyün hazırlanmasının vaxtıdır və biz bu işdə gecikirik.

Təbiətdə hər hansı bir canlı növünün itməsi ciddi fəsadlara gətirib çıxarır. Məşhur bioloq prof.Qara Mustafayev bu fikri cəmiyyət hadisələrinə də şamil edir. O qeyd edir ki, "böyük dillər kiçik dillər olmadan inkişaf edə bilməz. Azərbaycan dili bu respublikada yaşayan və azsaylı xalqlar adlandırılan talış, ləzgi və digərləri ilə təmasda olaraq inkişaf etmişdir". Qara müəllimin dediyində böyük həqiqətlər vardır. Respublikamızın əvəzolunmaz, nadir sərvəti olan bu dillər Azərbaycan dilinin inkişafında müstəsna rol oynayır. Odur ki, əminliklə demək olar ki, bu dillərin müqayisəli şəkildə öyrənilməsi dilimizə və dilçiliyimizə böyük töhfə verəcəkdir.

İstər respublikamızın paytaxtını, istərsə də bölgədəki şəhərlərimizi gəzmiş olsaq, küçə və meydanlarda, ictimai iaşə, market, mağaza, mədəni - maarif müəssisə-

lərində, vitrin və digər yerlərdə ədəbi dilin normalarının həddən artıq kobud pozulması hallarının şahidi olarıq. Sanki bir əcnəbi şəhərə düşmüsən. Kim nə istəyir onu da yazır. Unutmamalıyıq ki, inzibati qanunlar kimi, ədəbi dilin istər yazılı, istərsə də şifahi normalarına əməl edilməsi məcburi olmalıdır. Burada könüllülükdən söhbət gedə bilməz. Dil qeyrət tələb edir. Öz dilini sevəndə qeyrət də olar. Çünki dil ana ilə, ana isə vətənlə bağlıdır. Bir sıra ölkələrdə dil qanunlarını pozan insanlara, təşkilatlara müəyyən cəzalar tətbiq olunur. Azərbaycan dilinin qanunlarına zidd yazıları olan həmin təşkilat və ya müəssisələrə, obyektlərə qarşı müharibə elan etməyin vaxtıdır və onlara müəyyən cəza tədbirləri tətbiq olunmalıdır. Xalq artisti Rasim Balayev müsahibələrinin birində haqlı olaraq qeyd etdi ki, televiziya dilimizin təmizliyini qoruyan ən güclü vasitədir. Televiziyanın böyük təsirini nəzərə alaraq burada işlər daha da sərtləşdirilməlidir .Televiziya qədər tamaşaçısı və təsir gücünə malik ikinci bir səhnə yoxdur. Burada dil qanunları daha çox qorunmalı, həssaslıq, diqqətlilik daha çox önə çəkilməlidir. Maraq üçün 15-20 gün ərzində respublika televiziya verilişlərini izlədim. Külli-miqdarda orfoqrafik, orfoepik, qrammatik və üslubi xətalara rast gəldim. Əvvəla, dilimiz zəngindirsə, niyə aparıcı teleşirkətlərin, radio şirkətlərinin adları ("Lider", "ANS", nə yazılışı, nə də deyilişi Azərbaycan dilinin qanunlarına cavab verməyən "Spase") əcnəbi dillərdə olmalıdır? Bəzi faktlara diqqət edək.

Məlumdur ki, dilimizdə zamanla bağlı məfhumu ifadə etmək üçün adətən feli bağlamadan (Məsələn, ***keçəndə, gedəndə***) istifadə olunsa da, türk dilini yamsılamaqla bəzi üzdəniraq jurnalistlər həmin məqamda ***keçdiyində, gəldiyində*** sözlərindən, ***vaxtınızı aldıq*** əvəzinə ***zamanınızı aldıq***, ***əhval-ruhiyyə*** əvəzinə ***aora*** kimi söz və ifadələrdən istifadə edirlər. Ədəbi tələffüz normaları elə pozulur ki, çaşıb qalırsan. Axı bunlar bu deyilişi kimdən və haradan öyrəniblər? Axı həmin tələffüz variantları nə məşhur diktor və ziyalıların dilində, nə də dərsliklərdə vardır. Felin arzu forması ilə gələcək zaman qarışdırılaraq ***kaş gedəydim*** əvəzinə ***kaş gedərdim*** şəklində ifadə olunur və s. Yazıda: ***azərsel, baksel, ekspres***, ***taksi*** əvəzinə ***azersell, baksell, ekspress,*** (qaydaya görə, dilimizdə sonu cüt samitlə bitən çoxhecalı söz yoxdur) ***taxı*** yazılır. Bu misalları dəfələrlə artırmaq olar. Müasir türk dilində əcnəbi sözlərin olduğu kimi yazılışını qəbul edən qayda var. Amma bu, bizdə yoxdur. Odur ki, əcnəbi sözlər Azərbaycan dilinin orfoqrafiya prinsipləri əsasında yazılmalıdır. Bütün bunlar onu göstərir ki, həmin yazıları efir və ya reklam üçün hazırlayanlar müvafiq təhsili olmayanlardır. Savadlı şəxs bu qədər məsuliyyətsizliyə yol verməz. Etiraf edək ki, sovet hakimiyyəti dövründə qəzet, jurnal səhifələrində, televiziya ekranlarında, kitablarda səhv tapmaq, demək olar ki, qeyri-mümkün idi. İndi isə səhvi axtarmaq lazım deyil. Çox vaxt da bunu kompyuter xətası kimi göstərirlər. Bəzi aparıcılar, hətta millət vəkilləri yeri gəldi-gəlmədi türk dilini yamsılayırlar. Allah Mirzə Cəlili rəhmət eləsin, nə gözəl demişdi: ***" Mən siz ilə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dili (Azərbaycan dili) danışmaq eyibdir, şəxsin elminin azlığına dəlalət edir. Ancaq hərdənbir keçmiş günləri yad etmək lazımdır. Salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi."*** Türk dili də bizim üçün əzizdir. Ora-burasını dəyişdirmədən həm türklər bizi, həm də biz türkləri çox gözəl anlayırıq. Mən şəxsən türk filmlərinin dublyaj edilməsinin əleyhinəyəm. Açığını deyim ki, bəzən türklərin danışığı bizim bir çox millət vəkillərimizin, aparıcılarımızın danışığından daha

anlaşıqlı görünür. Amma fakt fakt olaraq qalır. Müasir türk dili öz qanunları, müasir Azərbaycan dili isə öz qanunları çərçivəsində fəaliyyət göstərir və inkişaf edir. Bunlar fərqli-fərqli dillərdir. Ümumiyyətlə, bütün müasir türk dilləri bir kökdən yaranıblar. Amma nə yakut, nə çuvaş, nə də özbək bir-birini başa düşür. Ədəbi dili yazarlar, canlı danışığı isə xalq özü yaradır. Xalqın iradəsinə isə zidd getmək cinayətdir. Bir məsələni də qeyd etmək yerinə düşərdi. Atatürkə qədər türk dili özündən elə uzaqlaşmışdı ki, onu sadə xalq başa düşmürdü. Atatürk dildə bir inqilab elədi. Halbuki XIII əsrdən bu günə qədər Azərbaycan türkcəsi öz təmizliyini, xalqa yaxınlığını həmişə qorumuşdur. Zaman-zaman fərqli dövrlərdə yaşamış Dədə Qorqudun, Həsənoğlunun, Nəsiminin, Füzulinin, Xətayinin, Vaqifin, Bakıxanovun, Zakirin, Axundovun və başqalarının dilinə baxın. Onlar heç vaxt türk dilini yamsılamayıblar. Əksinə ana dillərini öz bazaları əsasında, xalq dilinə uyğun inkişaf etdiriblər. Bir vaxtlar Azərbaycan xalqını da osmanlı türkcəsində danışdırmağa cəhd ediblər. Allah rəhmət eləsin Mirzə Cəlilə, Ü.Hacıbəyova, F.Köçərliyə ki belə tendensiyanın qarşısını çox mətanət və kəskinliklə alıblar. Təsəvvür edin ki, guya Azərbaycan dilində danışan bir şəxsin dilində 10 sözdən 5-i sırf ya rus, ya da türk kəlməsidir. Deməli, həmin şəxs öz dilinə hörmət eləmir, həmvətənləri ilə açıq, sadə ana dilində danışmağa utanır, kəndli ata-anasını özünə sığışdırmır. Belə bir şəxs vətənpərvər ola bilərmi, və ya o, millət və dil təəssübü çəkərmi? Əcnəbi dildə danışmaq, əlbəttə, böyük hünərdir. Ancaq əcnəbi ilə onun dilində danışılmalıdır, xüsusilə onun torpağında. Ancaq heç bir ehtiyac olmadan Azərbaycan televiziya və ya radiosunda Azərbaycan vətəndaşı üçün verilən bir müsahibədə əcnəbiləri yamsılamaqla danışan üzdəniraq buqələmun azərbaycanlı görəsən nəyi sübut etmək istəyir? Bu ixtiyarı ona kim verib?

Dilin inzibati qanunlardan da möhkəm qanunları var. Odur ki, televiziya, radio, kütləvi informasiya vasitələrində həmin sahə üzrə təhsili olanlara üstünlük verilməlidir. Etikası, davranışı, dil bilgisi və nitq mədəniyyəti olmayan, bu məsələlərlə bağlı məktəb keçməyən üzdəniraq jurnalistlərin son illər Azərbaycan mətbuatına, Azərbaycan əxlaqına vurduqları yaranı sağaltmaq üçün illər lazımdır. Bəzi jurnalistlər elə bilirlər ki, efirdə hər şeyi demək olar və ya hər bir hərəkətə yol vermək olar. Çünki həmin şəxslər ədəbi dil nədir, onun üslubları hansılardır, nəyi demək olar, nəyi demək olmaz məsələlərindən xəbərdar deyillər. Son dövrdə televiziya ekranlarında əksər aparıcılar həm azərbaycanlı adət-ənənəsinə uyğun olmayan mövzular müzakirəyə çıxardır, həm də qeyri-etik ifadələrə yol verirlər. Bəzi radio aparıcıları doğma ana dilində ağız-dodağını büzərək elə danışır ki, hansı dildə danışdığını bilmirsən. Eyni fikri müğənnilər və şoumenlər haqqında da demək lazımdır. Ucuz şöhrət naminə hər cür mövzunu bütün çılpaqlığı ilə efirə çıxaran, özünün naqis əxlaqı olan və başqasına əxlaq dərsi keçən həmin "jurnalist" və "aparıcılar" min illər ərzində qoruyub saxladığımız dəyərlərimizi hörmətdən salırlar. Musiqi savadı olmayan müğənnilər Ana dilinin qayda-qanunlarından xəbərsiz olduqlarından sözləri səhv tələffüz etməklə insanları yanlış istiqamətə aparırlar. Xüsusilə məktəblilər, yeniyetmə və gənclər bu səhvin təsirinə tez düşürlər. 32 ilə yaxındır ki, həm orta, həm də ali məktəbdə dərs deyirəm. Həmin o savadsız, yerini bilməyən jurnalistlərin ucbatından şagirdlərin, tələbələrin yazılarında səhvlər yaranır. Bu səhvlərin birinci və əsas mənbəyi isə qəzet və televiziyadır. Tele-radio şirkətlərinin, kütləvi informasiya vasitələrinin rəhbərləri yerində olmalıdır. Onlar nə qədər milli

adət-ənənəyə və müsəlman əxlaqına söykənsələr, ruhən, daxilən nə qədər çox ***azərbaycanlı*** olsalar, mənə elə gəlir ki, biz dilimizi qoruya biləcəyik.

Dövlət himnimizdə türk dilinə məxsus ***(hazırız, qadiriz)*** şəkilçiləri təcili dəyişdirməliyik. Bu himni az qala hər gün oxuyan, eşidən uşaqda anlaşılmazlıq baş verir. Həmin sözləri və ya şəkilçiləri dəyişdirmək bir faciə deyil. Ümumiyyətlə, himnin dilini bir qədər sadələşdirmək də olar. Unutmamalıyıq ki, dünya təcrübəsində himnlərin sözlərinin ya qismən, ya da bütövlükdə dəyişdirilməsi hallarına az təsadüf olunmur. Orfoqrafik, orfoepik, nitq mədəniyyəti qaydaları tam, sabitləşmiş və kütləvi şəkildə nəşr edilməlidir. Hər bir şəxs necə yazmağı, necə danışmağı, necə davranmağı öyrənməlidir. Ali məktəblərdə bütün ixtisaslarda praktik Azərbaycan dili dərsləri məcburi tədris edilməlidir. Çünki ziyalının əsas göstəricilərindən birincisi və əsası gözəl, aydın danışığı, anlaşıqlı xətti və yazı savadıdır. Professor Nizami Cəfərov televiziya verilişlərinin birində qeyd etdi ki, şifahi danışıqda variantlar da ola bilər. Məsələn, ***haqlı*** sözünü biri ***[haxlı]***, digəri isə ***[hak΄lı]*** deyə bilər. Dilimizin bu haqda da qəti, əsaslandırılmış qaydaları var. Yəni tərkibində qoşa q samiti olan sözlərdə birinci q səsi onun kar qarşılığı olan [k′] səsi çalarında tələffüz olunur. Birhecalı qoşa samitli sözlərə samitlə başlayan şəkilçi qoşulduqda ikinci samit düşdüyündən ***haqlı*** sözü də ***[hak΄lı]*** şəklində tələffüz edilməlidir. Variantlılıq dili korlayır. Hərc-mərclik yaradır. Gəlin o tendensiyanı ədəbi dilə şamil etməyək. Orta məktəblərdə dillə bağlı praktik məsələlərə ciddi fikir verilməlidir. Dərsliklərimizdə orfoqrafiya, orfoepiya ilə bağlı nə qədər problemlər var. Orfoqrafiya lüğəti qüsurlarla çap olundu. Ağamusa müəllimin nöqsanlarla bağlı ”Azərbaycan dili və ədəbiyyatının tədrisi” jurnalında verdiyi müsahibə şəxsən mənə müəmmalı göründü. Biz XXI əsrdə yaşayırıq. Nazirlər Kabineti tərəfindən təsdiq olunan bir sənəddə, xüsusilə orfoqrafiya lüğətində və ya dərslikdə nəyi isə səhv vermək bağışlanmazdır. Orfoqrafiya lüğətinin girişində bütün orfoqrafik qaydalar, o cümlədən ötən orfoqrafiya lüğətindən fərqli məqamlar və onların izahlı səbəbi öz əksini tapmalı idi. Çox təəssüflə qeyd etməliyik ki, bu məsələyə başdansovdu yanaşılmışdır. Son vaxtlar bəzi alimlər əlifbaya düzəliş edilməsi təklifi ilə çıxış edirlər. Ağrılı olan budur ki, bir vaxtlar kiril əlifbasını ən mükəmməl hesab edənlər bu gün latın qrafikasını zirvəyə qaldırırlar. Halbuki hər iki əlifba bir kökdən qidalanıb. Çinlilər və yaponlar məgər əlifbalarının hesabına tərəqqi tapıblar?! Dil poliqon, eksperimentər meydanı deyil. O əlifba kamil hesab olunur ki, onda yazının sürətinə əngəl törədən işarələr azdır. İndiki əlifba dünyanın ən müqtədir əsərlərini oxumağa imkan verirsə, 20 ilə yaxın bir müddətdə balalarımızın təhsilinə xidmət edirsə, onda dəyişikliklər edilməsinə heç bir lüzum yoxdur. Bu cür dəyişikliklər təkcə iqtisadiyyata deyil, mədəniyyətə, milli dəyərlərə də zərbədir. Çox maraqlıdır ki, İngilis dilində 26 hərf 44 səs vardır. Göründüyü kimi, 18 hərf birləşməsi vardır ki, bu da oxuda xüsusi çətinlik yaradır. Amma ingilislər bunu eləmirlər. Bizdə orta nəslin böyük bir hissəsi hələ də latın əlifbasından istifadə edə bilmir? Axı onların nə günahı var? Bu da bir növ insan hüquqlarının tapdalanmasıdır. S.Rüstəm ömrü boyu ərəb əlifbası ilə yazıb. Bu, onun böyüklüyünü məgər kiçildib? Sabah bir başqası ayağını bir başmağa dirəyər ki, gəlin Nizamini, Nəsimini, Füzulini, Cabbarlını yetirən ərəb əlifbasına keçək. Haqqı da var. Çünki minillik ədəbiyyatımız, elmimiz o əlifba ilədir. Bu dəqiqə əlyazmalar fondunda, dünyanın ən məşhur kitabxanalarında ərəb əlifbası ilə Azərbaycan dilində onlarla əsərlərimiz var ki, bugünkü nəslə çatdırılmalıdır. Biz o

haqda fikirləşməliyik.Müasir Azərbaycan ədəbi dilində 32 hərf, 34 səs vardır. İki səsdən birincisi y samitinin kar qarşılığı [x′], ikincisi q samitinin kar qarşılığı olan [k′] səsidir. Əsas mübahisə sonu k ilə bitən çoxhecalı Azərbaycan mənşəli sözlərdə y samitinin kar qarşılığı kimi götürülən [x′] səsi haqqındadır. Bu səs y səsinin kar qarşılığı kimi qeyd olunsa da, akustik təsirinə görə boğaz samiti olan h səsinə uyğun gəlir. Bunu Ağamusa Axundov da qeyd edir və misal olaraq M.İsgəndərzadənin belə bir şerini misal göstərir: ***Sənsizəm, Fərəhsizəm. Çəmənəm-Çiçəksizəm.*** Göründüyü kimi, ***çiçək*** sözü ***fərəh*** sözü ilə həmqafiyə verilmişdir. Qrammatikada qeyd olunur ki, sonu k (g samitinin kar qarşılığı) ilə bitən çoxhecalı Azərbaycan sözlərində k səsi [x′] ilə tələffüz edilməlidir. Mənim fikrimcə, bu ləhcədən gələn bir yanlışlıqdır. 1929-cu ildə nəşr olunmuş "Azərbaycan aşıqları" kitabı haqqında məqaləsində böyük ədəbiyyatşünas Hənəfi Zeynallı da yerli Qazax şivəsində "k səsləri çox yerdə h səsinə keç"diyini qeyd edir. Müəllif hətta ***səhsən (səksən), pah (pak), təhlif (təklif), məhtəf (məktəb), çəhmək (çəkmək)*** sözlərini də nümunə göstərir. Doğrudan da, əsasən qərb, qismən də şimal və cənub ləhcələrində, k (g samitinin kar qarşılığı) ilə bitən nəinki çoxhecalı, eyni zamanda təkhecalı Azərbaycan sözləri də, hətta birinci hecası k ilə bitən sözlər də [x′] ilə tələffüz olunur : ***tük [tüx'- tüh], tək [təx'- təh], təklikdə [təx'lix'də - təhlihdə], məktəb [məx'təb - məhtəb]*** və s. Uzun müddət televiziya və radioda tanınmış diktorların, eləcə də qabaqcıl ziyalılarımizin, alimlərimizin əksəriyyətinin dilində k (g samitinin kar qarşılığı) ilə bitən çoxhecalı sözlərin [y] səsi ilə tələffüz olunduğunu müşahidə etmişəm. Məlumat üçün bildirim ki, eyni zamanda təkmilləşmə kurslarında ana dilini tədris edirəm. Dil-ədəbiyyat müəllimləri ilə apardığım söhbətlərdən məlum olur ki, bu, tədris işində də çoxlu çətinliklər törədir. Uşaqlar bu məsələ ilə əlaqədar bir neçə qaydanı yadda saxlamağa məcburdurlar:

1. Sonu k (g samitinin kar qarşılığı) ilə bitən çoxhecalı Azərbaycan mənşəli sözlər [x′]-lə tələffüz olunur: Məsələn, [küləx´],[çiçəx´].

2. Həmin sözlər samitlə başlanan şəkilçi qəbul etdikdə k samiti yenə də [x′]-lə tələffüz olunur: Məsələn, küləklər - [küləx´lər], çiçəkdən [çiçəx´dən].

Fikir verin, adi bir səsə görə şagird dolaşıq olan bir neçə qaydanı mexaniki əzbərləməlidir ki, test tapşırıqlarında cavabları düzgün sayılsın. Halbuki praktik çəkildə o həmin səsdən istifadə etmir. Ən böyük dərd də budur ki, dilçiliyin ən çətin bölməsi olan fonetika uşaqların dərketmə səviyyəsi hələ lazımi səviyyədə olmadığı V sinifdə tədris olunur və mənimsədilməsi üçün uzun və gərgin iş tələb olunur. Təsadüfi deyil ki, IX-XI siniflərə keçən şagirdlər həmin məsələni yenidən repititorların yanında öyrənməli olurlar.Təklifim budur ki, reallqla barışaq, sonu k (g samitinin kar qarşılığı) ilə bitən çoxhecalı sözlərin sonundakı [k] səsinin [y] ilə tələffüzü düzgün sayılsın. Eyni fikri sonu q samiti ilə bitən sözlərə də aid etmək olar. Belə ki, Azərbaycan dilçiliyində sonu q ilə bitən çoxhecalı Azərbaycan sözlərində q samitinin [x] səsi ilə tələffüzü düzgün qəbul edilmişdir. Lakin yuxarıda qeyd etdiyim kimi, televiziya və radioda tanınmış diktorların, eləcə də qabaqcıl ziyalılarımizin, alimlərimizin əksəriyyətinin dilində sonu q ilə bitən çoxhecalı Azərbaycan sözlərinin [ğ] ilə tələffüzünün şahidi olmuşam. Uşaqlar reallıqla qayda arasında qalır, səhvlərə yol verirlər. Bununla bağlı da şagirdlər bir neçə qaydanı yadda saxlamağa məcbur olurlar ki, bu da əlavə çətinliklər yaradır:

1. Sonu q samiti ilə bitən coxhecalı əsil Azərbaycan sözləri [x] çalarlığında tələffüz olunur: [papax], [çırax]. Bu tip səslərin [ğ] çalarlığında tələffüzü də düzgün sayılır.

2. Həmin sözlər samitlə başlanan şəkilçi qəbul etdikdə q samiti yenə də [x] çalarında tələffüz olunur: Məsələn, [papaxda], [çıraxda].

3. Həmin sözlərə saitlə başlanan şəkilçi qoşulduqda q samiti [ğ] səsinə keçir: [papağı], [çırağı] və s.

4. Sonu q samiti ilə bitmiş sözə saitlə başlanan söz qoşulduqda q samiti [ğ] çalarlığında tələffüz olunur: qayıq aldım - [qayığ aldım].

Göründüyü kimi, qaydanın çoxluğu əlavə problem yaradır.

Ədəbiyyat

1.Ə.Dəmirçizadə.Müasir Azərbaycan dili.
2.A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili.
3.Azərbaycan dilinin orfoqrafiya lüğəti, 2004.
4.Ə.Əfəndizadə.Orfoqrafiya-orfoepiya lüğəti.
5. H.Həsənov. Nitq mədəniyyəti və üslubiyyatının əsasları.

Аяддин Алиев

Не которые проблемные вопросы нашего языка

Резюме

Мир слов имеет свои закономерности, познание которых не менее увлекательно, чем изучение биологии или физики. Трудно встретить сегодня человека, полностью равнодушного к родной язык и удовлетворенного ее состоянием. В статье затрагивается некоторые проблемные вопросы современного азербайджанского языка, выражается отношение к ним и указывается пути их решения.

Ayaddin Aliyev

Some problems and tasks of ourlanguage

Summary

Linguistics has its own laws. It is as important as the laws of chemistry and physics, you can not find a person that remains indifferent to their mother tongue, its situation. Some contraversial problems of the modern Azerbaijani language were men tioned in the article. Different approaches to these problems were shown and someways were suggested for their solution.

Rəyçi: Məsud Məmmədov
filologiya üzrə elmlər doktoru, professor

Док. фил.п.н. АЙГЮН АМИРОВА
АГЭУ
aygün emirova@mail.ru

МЕТОДИКА РАБОТЫ ПО СЛОВООБРАЗОВАНИЮ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ СТУДЕНТАМ ЭКОНОМИСТАМ

Açar sözlər: Sözdüzəldici şəkilçilər, iqtisadi terminlər, leksik vahidlər, morfoloji üsul, nitq hissələri, alınma sözlər, termionoloji söz birləşmələri
Ключевые слова: Словообразование, словоизменение, экономические термины, заимственные слова, морфологический способ, части речи, лексические единицы, терминологические словосочетания.
Key words: Word-building suffixes, economic terms, vocabulary, morphological method, parts of speech, lexical units, borrowed words, terminological phrases

Обучение иностранному языку – процесс выработки навыков и умений речевосприятия и речепроизводства.

Язык – порождение человеческого сознания. Он способен не только выражать значения, но и участвовать в их создании и существовании. Словам свойственны не только внешнее оформление в звуках и графических знаках, но и сам смысл воспроизводимых в процессе речи языковых единиц. Различные сферы и области человеческого существования и деятельности, в которых люди общаются посредством языка, обслуживаются лексикой данного языка во всем ее стилистическом разнообразии. Каждое словоупотребление обусловливается тем следом, который зафиксировался памятью из прежнего опыта установления связей между данным словом и другими словами. Если в сознании, памяти имеется достаточное количество связей, слово легко актуализируется в речи: конкретное словоупотребление вызывается ассоциацией с одной из прежних связей.

Чтобы полностью овладеть иностранным языком, необходимо усвоить его основные компоненты как звуковую систему, лексику, грамматический строй, условия его формирования и функционирования. Язык постоянно изменяется и развивается. С этой точки зрения для его характеристики важное значение имеют такие его особенности, как способы ***словообразования*** и ***словоизменения***.

В процессе усвоения словообразования студенты приобретают умение более тонко различать смысловые и стилистические оттенки слов и правильно пользоваться ими в собственной речи. Например, разбирая слово, студент находит его корень и начинает задумываться над его значением. И, таким образом, он уточняет его смысл. «Найти корень слова, значит найти его внутренний, затаенный смысл – то же, что зажечь внутри фонаря огонек».

Словообразование тесно связано с грамматикой и лексикой. Связь словообразования с грамматикой проявляется в соотношении словообразовательных моделей с частями речи. Наиболее ярко это себя показывает в категории рода.

Словообразовательные типы являются структурной базой лексики.

Определенную и достаточно большую часть активной лексики в текстах по специальности занимает терминология.

Среди терминов есть немало слов интернациональных, объем которых нередко совпадает в различных языках.

Например, слова ***бизнес***, ***биржа***, ***диалог***, ***менеджмент*** студентом-азербайджанцем воспринимается как знакомые слова родного языка, но глубинный смысл их остается непонятным, особенно когда они входят в терминологические словосочетания.

А такое понятие, как ***эконометрика***, несмотря на то, что оно состоит из «интернациональных» элементов, недоступно пониманию студентов без специальных объяснений сущности данного понятия.

Кроме трудности понимания значений терминов их восприятие и усвоение затрудняет то, что в русском языке терминология по своему составу и словообразованию отличается тем, что в ней большой процент заимствований и словообразований, даже в тех случаях, когда в качестве термина можно было бы использовать слово общелитературного языка, русские стремятся создать иную, «новую» лексическую единицу. Если в основе термина лежат слова из общелитературного языка, то при словообразовании термина они приобретают совсем другие значения, что затрудняет понимание их в тексте.

Количество терминов в языке постоянно изменяется, увеличиваясь за счет образования новых слов.

В исследованиях по русской лингвистике различают словообразование и то, что Н.М.Шанский называет словопроизводством, за счет которого происходит в основном обогащение русского языка новыми словами.

Термины и профессионализмы образуются этими двумя способами. Наиболее часто используются:

1. Метафорический перенос названия чего-либо:

Например: *ажур – счетоводство, при котором запись производится в день совершения операции*
(от франц. = сквозное {кружево}).
петля – в спортивной авиации: мертвая петля
(по сходству следа самолета с нитяной,
веревочной петлей).

2. Выбор одного из омонимов, характерных для слова:

Например: *агент – человек, действующий (agentis) по поручению фирмы, организации; страховой агент, агент по снабжению.*
но: *агент – причина, вызывающая те или иные явления в природе, в организме человека;*
атмосферные агенты, химический агент и т.д.
или: *облигация*
1. билет государственного займа: сторублевая облигация, держатель (хозяин) облигации.

2. ценная бумага, выпускаемая акционерным обществом, дающая право на получение процентов в определенном размере.

3. Лексико-синтаксический способ образования терминов заключается в соединении нескольких, как правило, двух, лексических единиц в одно слово:

Например: *выше/указанный* *законо/дательство*
и/того *наймо/датель*
скоро/портящийся *рекламо/датель*
выше/упомянутый

4. Лексико-семантический способ образования терминов заключается в том, что разные значения слова расходятся и воспринимаются как самостоятельные.

Например: *гнет* в значении «эксплуатация» *(из: гнет = груз, пресс)*
подоплёка в значении «тайная причина» *(подоплёка = подкладка).*

5. Морфолого-синтаксический способ образования терминологической лексики довольно распространенный. Он заключается в переходе слов из одного грамматического класса в другой, но не распространяется на глагол и глагольные формы.

Например: *столовая,*
шашлычная,
пивная.

6. Морфологический способ словообразования – это словопроизводство в полном смысле. Это наиболее продуктивный способ образования новой терминологической лексики. Различают сложение, аффиксацию, безаффиксный способ, аббревиацию и обратное словообразование.

7. Сложение – это образование новой лексической единицы путем объединения в одну двух или более основ:

Например: *льноволокно*
эквивалентно-потенциальный
научно-технический
эколого-экономический
экономист-международник
статуправление

8. Безаффиксный способ словообразования наименее распространен при образовании терминологической лексики. Это образование слова путем использования его основы.

Например: *накал (от накалиться)*
эконом (от экономика)

9. Аффиксация – самый продуктивный способ словопроизводства. В этом способе можно выделить:

а) суффиксальный способ образования новых слов:
акционер *дебитор*

б) префиксальный способ образования слов:
ин⌋ вест *до⌋ ход*
пере⌋ вод (денег)

в) суффиксально-префиксальный способ образования слов:

пере┤ датчик
раз┤ делить
10. Заимствованная терминологическая лексика представляет собой довольно большой пласт терминологических слов.
Например: *акциз дебитор паритет*
баланс кредит санация
валюта лицензия чартер и т.д.
11. Большое место в терминологическом списке лексики, связанной с проблемами экономики, торговли и транспортировки, занимают в русском языке слова тюркского происхождения.
Это названия торговых точек – *киоск, кябабная, бакалея.*
Это названия покупаемых товаров, типа: *лаваш, халва, рахат-лукум, мутаки, кишмиш, хна, басма, йогурт* и т.п.
Это и такой продукт, как *мазут*, и такой объект контрабанды, как *гашиш* или *терьяк*
Говоря об образовании терминов, связанных с такой наукой, как экономика, нельзя обойти и терминологические устойчивые сочетания, функционирующие в языке как «раздельно оформленные образования».
Эти устойчивые сочетания являются единицами целостной номинации и выступают как один член предложения.
Например: *Торговый баланс – это соотношение ввоза в страну*
и вывоза из нее товаров.
или: *Валовой доход – разница между выручкой и материальны-*
ми затратами на производство.
или: *Общее количество занятых и не занятых работой*
субъектов – это рабочая сила.

«Работа над словообразованием должна вестись в целях развития глубинного понимания лексико-грамматических связей в языке, что обеспечивает активное владение языком во все его богатстве и многообразии». Студенты азербайджанских групп должны осознать способ образования слов. Например, слово ***эконом*** образовался от слова ***экономика***, а слово ***заказчик*** образовался прибавлением к основе суффикса ***-чик***.

Студенты также должны уметь различать такие словообразовательные суффиксы как ***–ость*** и ***–тель***. Они должны знать, что суффикс ***–ость*** бывает в существительных женского рода (например, молодость), а суффикс ***–тель*** в существительных мужского рода (например, покровитель).

Опыт показывает, что обучающимся полезно завести специальный словообразовательный словарь. В этот словарь они должны записывать помимо образцов и новые одноструктурные образования. Например, говорить – поговорить и т.д.

Для преподавателя русского языка как иностранного важно определить, чему именно обучать студентов, какие нормы русского литературного языка важны для них как для будущих собеседников, в первую очередь, в границах их специальности.

Литература

1. Методика преподавания русского языка как иностранного (Под ред.О.Д.Митрофановой, В.Г.Костомарова. М., 1990)
2. Шанский Н.М. Русское языкознание и лингводидактика. М.: Русский язык, 1987
3. Е.А.Баринова, Л.Ф.Боженкова, В.И.Лебедев «Методика русского языка». Москва 1974
4. Г.И.Рожкова «Очерки практической грамматики русского языка». М., Просвещение, 1991
5. М.А.Рыбникова. Изучение родного языка в школе. ГИЗ, 1921

Aygün Əmirova

Rus dilinin xarici dil kimi tədrisi prosesində iqtisadçı tələbələrə sözdüzəldici şəkilçilər vasitəsilə meydana gələn yeni sözlərin öyrədilməsi metodikası

Xülasə

Təqdim olunan məqalədə rus dilində yeni sözlərin sözdüzəldici şəkilçi vasitəsilə meydana gəlməsi yolları göstərilmiş, bu şəkilçilərin Azərbaycan bölmələrində təhsil alan iqtisadçı-tələbələrin rus dili üzrə leksik bazasının zənginləşməsində nə qədər əhəmiyətli olduğu vurğulanmışdır.

Burada tədris prosesində məna baxımından çətinlik yaradan düzəltmə sözlərin daha asan mənimsənilməsi və dərk edilməsi üçün müəllif tərəfindən təklif olunan bir sıra metodiki üsullar öz əksini tapmışdır.

Aygun Amirova

The methods of working on word-formation in learning Russian as a foreign language to students of economic faculty

Summary

In the given article are presented the ways of forning new words in the Russian language by means of word-building suffixes and the importance of enlarging the vocabulary of students of economic faculty of Azery department by means of these suffixes is emphasized.

In the given article the author proposed a number of methods for easier understanding and learning of derivative words by students in the process of education

Rəyçi: Gülnarə Rzayeva
filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent

SEVİNC MƏMMƏDOVA
ADU
aytac2000@yandex.ru

MÜASİR ALMAN VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İNKARLIĞIN LEKSİK-QRAMMATİK İFADƏ VASİTƏLƏRİ

Açar sözlər: mononeqativ, polineqativ, inkarın inkarlığı, ikiqat inkarlıq
Key words: mononegative, polynegative, negative negation, double negation
Ключевые слова: мононегативность, полинегативность, отрицания отрицании, двойная отрицания.

İnkarlıq kateqoriyası və onun ifadə vasitələri, müasir alman və Azərbaycan dilçiliyində də böyük tədqiqat əhəmiyyəti olan bir mövzudur. Alman alimləri Q.İpsen, İ.Trir, V.Portsiq, U.Qudenaf, T.Launsberi, E.Koseriu; rus dilçiliyində - A.M.Peşkovski, A.A.Şaxmatov, V.V.Vinoqradov, N.İ.Karıyev, V.A.Trofimov, A.M.Şerbakova, N.A.Bulax, L.F.Kumaniçkina, L.P.Şipulina və başqaları bu problemə toxunmuş, tədqiq olunan hər dilin spesifik cəhətlərini nəzərə almış, düzgün nəticələr əldə etmişdilər. Azərbaycan dilçiliyinə gəldikdə isə, bu mövzu S.Ə.Abdullayev, A.Aslanov, B.R.Məmmədov, C.A.Cəfərov, E.Q.Yusifov və başqaları tərəfindən tədqiq edilmişdir. Bu məqalədə isə, biz danışıq zamanı öz inkari fikirlərini dinləyiciyə tamamilə çatdırmaq və bu fikirlərin dinləyiciyə yetişəcəyinə özünü inandırmaq istəyərkən ikiqat inkarlıqdan, müxtəlif inkarlıq vasitələrindən istifadə edilməsindən bəhs edəcəyik.

Məlumdur ki, inkarlığın leksik-qrammatik ifadə vasitələri kimi inkar əvəzliklərinin və zərflərin xüsusiyyəti onların ümumiləşdirilməsi ilə nəticələnir. Belə inkar vasitələr alman və Azərbaycan dillərində müxtəlif xüsusiyyətlərlə çıxış etsə də, ümumi mərhələdə leksik-qrammatik xüsusiyyətə malikdir. Belə ki, qeyri-müəyyənlik anladan inkar əvəzlik və zərflər inkarlıq semasının reallaşması üçün kifayət etdikdə, başqa sözlə, bütün cümləni inkarlaşdırmaq funksiyası yerinə yetirdikdə mononeqativ sxem, digər inkarlıq əlamətinin işlənməsi zərurəti meydana çıxdıqda polineqativ quruluş yaranır(S.Abdullayev, 101).

Aşağıdakı sxemdə alman dilində inkar əvəzlikləri və zərfləri, Azərbaycan dilində onların ekvivalentləri verilmişdir.

Alman dilində

Kein, keiner, niemand, nichts

İnkar əvəzlikləri nie, nimmer, nie und nimmer, niemals, keineswegs, keinesfalls nirgends, nirgendwo

İnkar zərfləri

Azərbaycan dilində

heç bir, heç biri, heç kim,
heç kəs, heç nə

heç vaxt, heç zaman, heç yerə,
heç yerdə, heç cürə, heç vəclə

Müasir alman dilində inkar əvəzlikləri və zərflər yalnız cümlə üzvü kimi çıxış etmir, həmçinin təsdiqdə işlənən xəbərə inkar məna çaları verir. Məs.:

Hat *(irgend) jemand* nach mir gefragt?, Wer weiß es? - *Niemand*. Wie gesagt, *keine Menschenseele* kannte mich, ich war völlig frei. Er hat *niemanden* gesehen. Er hat *keinen* (Menschen) gesehen. Er hat *nicht einen* (Menschen) gesehen. *Niemand* in Gefahr hätte das getan. *Niemand (= nicht irgendjemand*). Außer Kerem hatte das Geringste gesehen. *Gar niemand* hat ein Wort mit ihm gesprochen. *(= gar nicht irgendjemand).*

Azərbaycan dilində inkarlığın belə vasitələri cümlə üzvü kimi işlənməsi ilə əsasən bir məqsədə - inkarlığın qüvvətləndirilməsinə xidmət edir. Məs.:

O, heç kimə heç nə demədi. Mən səni heç vaxt unutmaram.

Yuxarıdakı cümlələrdən göründüyü kimi, Azərbaycan dilində ən qüvvətli inkar ikiqat inkar vasitəsi ilə ifadə olunur. İkiqat inkarda yalnız hərəkət deyil, həmçinin hərəkətin subyekti, zamanı, məkanı və s. inkar edilir. Belə ikiqat inkarlıq (polineqativlik), əsasən, türk, slavyan, litov, fars dillərinə aiddir. Alman dili isə sintaktik quruluş etibarı ilə bir inkar əlamətinə (mononeqativlik) malikdir.

Müasir alman dilində ikiqat inkarlıq işlənmir, çünki alman dili inkarlığın mononeqativ sisteminə xasdır. İkiqat inkarlıq bəzi yazıçıların əsərlərində nadir hallarda işlənir ki, bu da müəllifin savadsız personajın nitq xüsusiyyətlərini göstərmək istəməsindən irəli gəlir.Məs.:

Für die *nicht mißverstehende* Interpretation von Gesten und Körperhaltungen ist meist die Kenntnis der Person und der Situation *nicht unerlässlich.*

Azərbaycan dilində isə ikiqat inkarlıq geniş şəkildə işlənir. Bu onunla izah olunur ki, Azərbaycan dili polineqativ dil sisteminə daxildir. İkiqat inkarlıq zamanı xəbər inkar formada olur və onunla yanaşı cümlə üzvü funksiyasında çıxış edən inkar vasitə (inkar əvəzlikləri və ya zərflər) işlənir. Məs.:

Heç bir ana öz övladının pis gününü *istəməz*. Mən sizin yaxşılığınızı *heç vaxt unutmaram.*

İkiqat inkarlıqdan fərqli olaraq, inkarlığın inkarlığı hər iki dildə mövcuddur. İnkarlığın inkarlığı zamanı hər iki inkarlıq bir-birini neytrallaşdırır və nəticədə təsdiq bir məzmun alınır. Məs.:

a) Alman dilində:

In meinem Distrikt hat *niemand* eine Waffe, *nicht* einmal einTaschenmesser. Im ganzen Taurus gibt es keine Sommerweide und in der Çukurova kein Winterquartier. *Niemand* in meinem Alter lebte noch - *Alle* in meinem Alter leben. Ich verstehe *überhaupt nichts mehr.* Rahmi starrte sie an, als erinnerten sie ihn an *etwas*, sagte aber *nichts*, redete *nicht* und ging dann weg. Wenn der Wolf ganz *blind* ist, kann er *[nirgendwohin] fliehen* und dreht sich auf der Stelle.

b) Az□rbaycan dilind□:

Belə bir qayınatanın bu cür hərəkəti onda ağır duyğular *oyatmaya bilməzdi* (M.İbrahimov, Böyük dayaq). Aliyənin təşvişə düşməsi *səbəbsiz deyil* (C. Əmirov, Brilyant məsələsi). Bu kağızdan görünür ki, adamı *yox deyil* (M.Cəlal, Bir gəncin manifesti).

Qeyd etmək lazımdır ki, alman dilindən fərqli olaraq Azərbaycan dilində inkarlığın inkarlığının inkarı mövcuddur. Bu, üç inkar vasitənin köməyi ilə müm-

kündür. İnkarlığın inkarlığının inkarı zamanı predmet və hadisə eyni bir vaxtda inkar olunur və nəticədə təsdiq deyil, inkar məzmun alınır. Məs.:

O, məndən, əlbəttə, *narazı olmaya bilməzdi.* Mən həmin günü kinoya *həvəssiz getməmiş deyildim.*

Dildə, eyni bir cümlədə inkarlığı qüvvətləndirmək üçün müxtəlif vasitələrlə iki, üç, hətta dörd, beş inkar işlədilə bilər və bu inkarların heç biri bir-birini məhv etməz, əksinə, bu inkarlığı daha da qüvvətləndirər, onun obyektlərini genişləndirər. Məs.: *Heç kəs, heç zaman mənim haqqımda heç bir söz söyləməmişdir* cümləsində üç inkar mövcuddur, yəni burada üç obyekt (zaman, şəxs, əşya) inkar edilir və inkarların heç biri bir-birini yox etmir. Əksinə, belə hallarda inkarlıq daha da qüvvətlənir.

Yalnız bir halda iki inkar təsdiqə çevrilir. Bu, o zaman baş verir ki, iki inkar eyni bir obyektə, eyni bir anlayışa aid olsun. Əgər iki inkar eyni anlayışa, eyni obyektə, eyni sözə aiddirsə, o zaman nəticə həmişə təsdiq bildirir. (Bu xüsusiyyət bütün dillər üçün belədir). Məs.: . Onun hərəkəti *qeyri-qanuni deyil*, yəni onun hərəkəti qanunidir. Yəqin ki, siz bu məktubu *oxumamış deyilsiniz*, yəni – yəqin ki, siz bu məktubu oxumuşsunuz. Bu baxış *mənasız deyil*, yəni bu baxış mənalıdır. (A.Aslanov, 10). Wenn ihr *nicht* hier wäret, würde auch dieser Berg *nicht* hier stehen. Das ist *nicht unmöglich* = Das ist möglich. Man sollte mit Kindern *nicht ohne* Geduld umgehen = Man sollte mit Kindern mit Geduld umgehen. Göründüyü kimi, həmin cümlələrdə işlədilmiş iki inkar bir-birini rədd edir. Lakin (nəticə təsdiq bildirsə də) *mənalıdır, qanunidir, oxumuşsunuz* xəbərləri ilə qəti şəkildə ifadə olunan təsdiq *mənasız deyil, qeyri-qanuni deyil, oxumamış deyil* şəklində ifadə edilən təsdiqdən müəyyən dərəcədə fərqlənir. Burada bir qədər şübhə nəzərə çarpır. Təsdiqin mürəkkəb şəkildə, yəni iki inkarın işlədilməsi ilə ifadəsində təsdiq müəyyən qədər zəifləyir. Bu zəifləmənin səbəbi ondan ibarətdir ki, iki inkar vasitəsi ilə təsdiqin ifadəsi dinləyənin dərketmə qabiliyyətini, əqli qüvvəsini az da olsa zəiflədir. Təsdiqin bu şəkildə ifadəsi danışan şəxsin özündə də müəyyən tərəddüd əmələ gətirir. Yuxarıda qeyd edildiyi kimi, əgər iki və ikidən artıq inkar müxtəlif sözlərə, anlayışlara aiddirsə, onda onlar bir-birinə təsir göstərə bilmir, buna görə də nəticə tamamilə inkar edilir. Bu cür inkarlığın inkarlığını fikrimizcə, A.Aslanov haqlı olaraq tam inkar adlandırır. Bu inkarlığın müxtəlif dillərdə belə geniş yayılmasının müəyyən səbəbləri vardır.

A.Aslanov qeyd edir ki, məhz çoxmərtəbəli inkarlıq inkar ünsürü, inkar vasitəsi qismən az olan dillərə məxsusdur. O.Yespersenin fikrincə isə, hər bir müvafiq imkan daxilində inkarı təkrar etmək, bütün cümləyə inkar çalarlığı vermək daha əlverişlidir. Çünki belə halda fikrin başa düşülməsi asan olur. Burada həm danışan, həm də dinləyicidən əqli gərginlik tələb olunmur.

Polineqativ quruluş əsasən iki şəkildə, iki struktur situasiyada təzahür tapır: 1) inkar əvəzlik və zərflərin konstituent tərkibinə daxil olduğu cümlələrdə; 2) inkar bağlayıcılı cümlələrdə. Birinci vəziyyət polineqativ struktur tip üçün daha müntəzəm xarakter daşıyır və çoxinkarlıq modelinin ən bariz sxemini yaradır (S.Abdullayev, 100-101).

Qeyd etmək lazımdır ki, "*heç"* ədatı ilə düzələn inkar əvəzlikləri və inkar zərfləri semantik cəhətdən öz-özlüyündə, ayrılıqda inkar mənası daşımır, əksinə, onlar mövcud əşya, hadisə, anlayış və s. topluluğunu özündə ehtiva edir. Doğrudan da, biz "*heç kim*" dedikdə, yəni *"hamı", "heç nə*" dedikdə "*hər şey", "heç zaman*"

dedikdə "*həmişə", "heç vaxt*" dedikdə "*həmişə", "heç yerdə"* dedikdə "*hər yerdə", "heç biri"* dedikdə *"hamısı", "heç kəs*" dedikdə "*hər kəs, hamısı", "heç cürə*" dedikdə, yəni "*hər cürə*" ifadələrini başa düşürük. Bunlar öz-özlüyündə, tək halda inkarlıq bildirmir. Lakin bu əvəzliklər, zərflər inkari cümlələrdə , inkari quruluşda işlədildikdə inkarın mənasını qüvvətləndirir, inkarı tam şəklə salır, həm də hərəkətlə birlikdə subyekt, obyekt, zaman, məkan, kəmiyyət və s. də inkar edilir. Bütün bunlar ikiqat inkarlığın yaranmasında əsas rol oynayır.

İkiqat inkarda bədii, təsviri, idiomatik vasitələrdən də istifadə edilir. Belə hallarda inkarlığın ifadəsində müəyyən çalarlıq, bədiilik nəzərə çarpır. Belə nəticəyə gəlmək olar ki, idiomatik, bədii ikiqat inkarlıq inkarın qüvvətlənməsinə xidmət edir. Burada nəinki bütün əşya, həmçinin həmin əşyanın, anlayışın ən kiçik hissəsi də inkar edilir. Burada inkar edilən əşyanın ən xırda, kiçik hissəsini bildirən sözlərdən istifadə edilir. Obrazlı inkarda ən çox aşağıdakı ifadələr işlədilir. Məs.:

Alman dilində: *gar nicht, durchaus nicht, ganz nicht, ganz und gar nicht, nicht im geringsten, nicht im mindesten, nicht mehr, nicht einmal mehr*;

Sag doch *etwas* Haydar, was sollen wir tun? Sag *nicht etwas*, Haydar. [= Sag *nichts*, Haydar.]. Ihm fiel *überhaupt nichts* ein.

Azərbaycan dilində: *heç bir damcı da, heç bir zərrə də, heç bir tikə də, heç bir gilə də, heç bir qram da, heç bir misqal da, heç bir qırıq da, heç bir qəpik də, heç bir qarış da, heç bir sətir də* və s.

Vedrənin içində *heç bir damcı da* su qalmamışdır (H.Mehdi, Daşqın, II); Mənim onlardan *heç bir zərrə də* ehtiyacım yoxdur (H.Mehdi, Daşqın, II); Mən belə şeylərə heç bir qəpik də vermərəm (Azərbaycan jurnalı); Mən ətdən *heç bir tikə də* dilimə vurmamışam (Azərbaycan jurnalı).

Həmin nümunələrdə nəzərə çarpan obrazlı inkar həqiqi mənadadır, əşyanın, anlayışın ən kiçik hissəsi inkar edilir. Obrazlı inkarda məcazi məna da ola bilər." Vedrənin içində *heç bir damcı da* su qalmamışdır" cümləsində obrazlı inkar ifadəsi olan "*heç bir damcı da"* həqiqi mənadadır. Lakin "Mənim bu işə *heç bir damcı da* etibarım yoxdur*"* cümləsində isə inkar ifadəsi olan *"heç bir damcı da"* məcazi mənadadır, bu, ikiqat idiomatik inkardir.

İkiqat inkarı təxmini olaraq aşağıdakı qruplara bölmək olar.

1. İkiqat inkar, əsasən, isimlərdən ibarət olur, inkar edilən anlayışın ən kiçik hissəsi bildirilir. Məs.:

Er liest ein *nicht un*interessantes Buch. (= ein ziemlich interessantes Buch). Er hat die Ansprache *nicht ohne* Spannung verfolgt. (= mit Spannung).

Uşaq *heç bir sözə cavab verm*ə*di*. Dumanlı havada *heç bir söz eşidilmədi*. Atamın *heç bir şeyi yox imiş* (C.Cabbarlı, Əsərləri, II); *Heç bir* mədəndə *heç bir* çarx *fırlanmayacaqdır* (C.Cabbarlı, Əsərləri, IV).

2.İkiqat inkarlıq inkar edilən anlayışın ən kiçik ölçüsünü göstərən sözlərdə ifadə olunur. Məs.:

Diese Leute haben *überhaupt niemals* Land.

Bu sözlərin bahasına *heç bir qəpik də verməzlər* (Kirpi jurnalı).

3.Obrazlı inkar elə qurula bilər ki, orada ən kiçik hissə deyil, ən sadə, elementar əşya, məsələ inkar edilsin.Məs.*:*

Weder ein Vogel, *noch* eine Ameise,. *noch* eine Biene, *noch* ein Schmetterling stirbt. Ich habe *weder* mit den Augen gezwinkert, *noch* einen Moment die Sterne aus den Augen gelassen.

*Nə "a"nı, nə də "b"*ni tanıyır.

Həmin nümunədə, ümumiyyətlə, hadisənin tam inkarı verilir. Əgər o (şəxs) nə "a"nı, nə də "b"ni bilirsə, deməli, ən sadə, ən elementar bir şeyi bilmirsə, bu həmin şəxs heç nə bilmədiyindən (savadsızlığından) xəbər verir. Belə konstruksiyalar ikiqat inkara yaxındır.

4.İkiqat inkara elə obrazlı inkar konstruksiyalar yaxındır ki, orada ikiqat inkar qrammatik cəhətdən təsdiq bildirən söz ilə verilir, lakin həmin söz inkar məna ifadə edir. Məs.:

Wenn der Wolf blind ist, kann er *nirgendwohin* mehr fliehen und dreht sich auf der Stelle im Kreis. Von *nirgendwoher/von keinem Ort* kommt ein Geräusch.

Von *gar nirgendwoher* kommt ein Geräusch.

Mən bunu *ömrümdə etməmişəm*. Mən *ömrümdə bunu eşitməmişəm*. Hələ *dünyasında belə iş olmayıb*.

Göründüyü kimi, həmin cümlələrdə inkar xəbərin təsdiq-inkar polyarlığında ifadə olunur. Lakin qrammatik təsdiq forması olan *"ömrümdə, hələ dünyasında"* sözləri semantik cəhətdən inkarlıq bildirir. Burada işlədilmiş *"ömrümdə, hələ dünyasında*" sözləri *"heç vaxt"* sözü ilə sinonimdir. Bəzən ikiqat inkarın özünü də qüvvətləndirmək mümkündür. Belə hal inkar edilən anlayışın bir hissəsini bildirən sözlərdə inkarlıq həmin sözlərə kiçildici şəkilçilər əlavə olunmaqla baş verir.

İkiqat inkarı qüvvətləndirmək üçün bəzən "*da, də"* ədatından da istifadə etmək mümkündür. Məs.:

"Vedrədə *heç bir damcı su qalmamışdır*" cümləsində ifadə olunan ikiqat inkarı daha da qüvvətləndirmək üçün ona "*da*" ədatını artırmaq kifayətdir. O zaman cümlə bu şəkildə olacaqdır: Vedrədə *heç bir damcı da su qalmamışdır*.

İdiomatik ikiqat inkarda "heç" inkar ədatı hətta işlənməsə də, məzmun yenə də əvvəlki mənasında qalar. Məs.:

"Mənim *heç bir qəpik pulum yoxdur*" cümləsindən "*heç*" inkar ədatını atdıqda alınan "Mənim *bir qəpik pulum yoxdur*" ifadəsində inkar məzmunu yenə də qalır, lakin burada ikiqat inkar qüvvətli olmur.

Beləliklə, müasir alman və Azərbaycan dillərində inkarlığın leksik-qrammatik ifadə vasitələrini qarşılıqlı tədqiq etmək, hər iki dildə inkarlığın özündə ümumiləşdirdiyi bir sıra xüsusiyyətləri aşkar etmək, fikrimizcə, nəinki alman və Azərbaycan dilçiliyi üçün, xüsusən də ümumi dilçilik üçün müəyyən əhəmiyyətə malik olardı.

Ədəbiyyat

1. Abdullayev S.Ə. Müasir alman və Azərbaycan dillərində inkarlıq kateqoriyası, Bakı. "Maarif", 1998
2. Aslanov A. Müasir Azərbaycan dilində inkarlıq və kəmiyyət kateqoriyaları, Bakı, Asərb, SSR EA nəşriyyatı, 1963
3. Бондаренко В.Н. Отрицание как логико-грамматическая категория. М.: Наука, 1983

4. Булах Н.А. Развитие грамматической категорий отрицания в немецком языке. Автореф. дис. ...канд. филол. наук. Ярославль, 1954
5. О.Есперсен. Философия грамматики. М., 1958
6. Harald Weinrich: Textqrammatik der deutschen Sprache, Mannheim; Leipzig; Wien; Zürich: Dudenverlag
7. Helbig / Buscha: Deutsche Grammatik, 17. Auflage 1996, Verlag Enzyklopädie Leipzig
8. Ulrich Engel: Deutsche Grammatik, 3., korrigierte Auflage. Heidelberg: Groos, 1996

Sevinj Mammadova

The lexical-grammatical means of expression of negation in the German and Azerbaijani languages

Summary

The article deals with the theoretical problems of the category of negation.

It is devoted to the nature of negation from different points of view, to the double negation, negative negation.

In this article the negative pronouns and negative adverbs are used as means of negation.

Севиндж Мамедова

Выражение лексико-грамматическая отрицания в современном немецком и азербайджанском языках

Резюме

Статья посвящена теоретическим вопросам категории отрицания.

Здесь же рассматриваются различные точки зрения о природе отрицания, в двойном отрицания, об отрицании отрицания.

В этом статье отрицательные местоимение и наречие употребляются как средства выражения отрицания.

Rəyçi: Elxan Yusifov
filologiya üzrə fəlsəfə doktoru

Fil.f.d. GÜLŞƏN KƏRİMOVA
Bakı Dövlət Universiteti
qarikk@yahoo.de

İNGLİS DİLİNİN TƏDRİSİ ZAMANI KOMPÜTER VƏ İNTERNET ŞƏBƏKƏSİNDƏN İSTİFADƏ

Açar sözlər: informasiya-kommunikasiya texnologiyaları, qloballaşma, pedaqoji texnologiyalar, ingilis dilinin tədrisi
Key words: information and communication technologies, globalization, technological pedagogical, English language teaching
Ключевые слова: информационные и коммуникационные технологии, глобализация, педагогические технологии, обучение английскому языку

XX əsrin sonlarında informasiya-kommunikasiya texnologiyaları sahəsində baş vermiş müsbət dəyişikliklər sayəsində dünya yeni qlobal mərhələnin astanasına qədəm qoydu. Bu mərhələ, heç şübhəsiz ki, "sənaye əsrindən" "biliklər əsrinə" keçid əsri kimi müəyyən olunub. Artıq XXI əsrin əvvəlindən sonunadək biliklər əsri olacağına, yəqin ki, az adam şübhə etmiş olar. Biliklər əsrində yaşayan hər bir insan əsas kompüter bacarıqlarından xəbərdar olacaq, eləcə də, gündəlik həyatda həmin bacarıqlardan istifadə edərək öz həyat tərzini asanlaşdıracaq. Bununla kifayətlənməyərək, insanlar yüksək kompüter bacarıqlarına yiyələnməyə də can atacaqlar. Beləliklə, təbii ki, informasiya-kommunikasiya texnologiyalarından, kompüter və İnternet şəbəkəsindən daha məharətlə istifadə edə bilənlər biliklər əsrində istər təhsil, istərsə də, əmək fəaliyyəti sahəsində daha böyük uğur qazanacaq. Bu gerçəkliklə ayaqlaşa bilməyənlər isə olduqca böyük çətinliklərlə üzləşəcəklər.

Məlumdur ki, yaşadığımız dövrdə sənaye əsri informasiya əsri ilə əvəz olunmuş, eləcə də, informasiya əsri vaxt və məsafə məfhumunu sıxışdıraraq aradan çıxarmışdır. Bu isə dünya iqtisadiyyatının sənaye hasilatından informasiya əsaslı məhsul istehsalı və xidmət sferasına transformasiyası ilə nəticələnmişdir. Heç bir coğrafi sərhəd tanımayan informasiya inqilabı mövcud dünyəvi dəyərləri yenidən formalaşdırmaqdadır. Qlobal səviyyədə baş verən informasiya emalı dünyamızı kompüter və Internet əsrinə qovuşdurmuşdur. Kompüter vasitəsilə ünsiyyət yazılı və şifahi ingilis dili arasında mövcud olan boşluğu doldurmuşdur və bu proses indi də davam edir. Bu proses daha sadə və qeyri-rəsmi danışıq dilinin, eləcə də, müxtəlif və fərdi kommunikasiya üsullarına tolerant münasibətin təşəkkül tapmasına rəvac vermiş, müxtəlif dil təzadlarının dominantlığına son qoyan Internet ingilis dili ("Internet English") deyilən yeni istiqamətin meydana çıxması ilə nəticələnmişdir.

Hal-hazırda qloballaşma dövrünün tələblərinə cavab verən və tədris müəssisələrinin təhsil xidmətləri bazarındakı mövqeyini möhkəmlədə biləcək professional-texniki təhsil modelinin işlənib hazırlanmasına dərin ehtiyac duyulur. Bu, heç şübhəsiz ki, xarici dillərin tədrisi işinə də şamil edilməlidir. Yəni, ingilis dilini mükəmməl bilən şəxs zəruri kompüter bacarıqlarına malik deyilsə, gələcəkdə həmin şəxsin professional fəaliyyət göstərməsi sadəcə mümkün olmayacaq. Istənilən ölkənin, o cümlədən, Azərbaycan Respublikasının iqtisadi inkişafı birbaşa olaraq əmək bazasında işçi qüvvəsinin ixtisaslaşdırılmasından asılı olacaq.

Beləliklə, təhsilin inkişaf etdirilməsində prioritet vəzifə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sayəsində təlim-tərbiyə prosesini təkmilləşdirmək, təhsilin əlçatan və səmərəliliyini təmin etmək, gənc nəslin informasiya cəmiyyətinə hazırlamaqdan ibarətdir. Burada qeyd etmək yerinə düşərdi ki, demokratikləşmə və "İnternetləşmə" prosesləri təhsil məqsədlərinin dar mənada nizam-intizam anlayışından həmin məqsədlərin milli və qlobal anlayışa keçidinə rəvac verməlidir.

Informasiya-kommunikasiya texnologiyalarının inkişafı və onların təlim-tərbiyə işinə tətbiqi təhsil sisteminin modernləşdirilməsinin ən səmərəli üsullarından biridir. Bu baxımdan, qlobal Internet şəbəkəsinin sürətlə inkişafı biliklərin mənimsənilməsi və şagird və tələbələrin özünüifadə bacarıqlarının təkmilləşdirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir. Əgər ilkin inkişaf mərhələsində Internet şəbəkəsi əsasən "informasiya istehlakı", və ya "vahid şəbəkə daxilində iştirak" funksiyasını daşıyırdısa, hal-hazırda İnternet təkcə hipermətnlərin (digər sənədlərə istinadla təchiz olunmuş mətn) arxivi kimi yox, qarşılıqlı interaktiv fəaliyyət, informasiyalı təhsil məkanında ünsiyyət portalı kimi çıxış edir. Internet istifadəçiyə yenilikləri qavramaq, öz potensial imkanlarını realizə etmək üçün şərait yaradır.

Bilikləri əldə etmə yollarının informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sayəsində təkmilləşdirilməsi müəllimin da rolunun köklü surətdə dəyişikliyə uğraması ilə müşayiət olunur. Bu halda, müəllimin əsas rolu da dəyişərək "mərkəzi fiqur"dan məsləhətçi, naviqator roluna çevrilir.

Əvvəllər də qeyd etdiyimiz kimi, informasiya-kommunikasiya texnologiyalarından istifadə hallarının kəskin şəkildə artması dünyada "sənaye cəmiyyətindən" "biliklər cəmiyyətinə" keçidin əsasını qoymuşdur. Belə ki, əgər sənaye cəmiyyətində bütün cəhdlər məhsul istehsalı və istehlakına yönəldilirdisə, biliklər cəmiyyətində intellekt və biliklərin istehsalı və istehlakı əsas istiqamət kimi çıxış edir. Bu baxımdan, təhsil sisteminə də yanaşma tərzinin dəyişdirilməsi, yüksək keyfiyyətli və qabaqcıl texnologiyalara əsaslanan informasiyalı təhsil mühitinin formalaşdırılması fundamental əhəmiyyət kəsb etməyə başlamışdır. Təsadüfi deyil, ki, inkişaf etmiş dövlətlərdə təhsil sisteminin informasiya-kommunikasiya texnologiyaları əsasında intensiv inkişafı ən vacib milli prioritet səviyyəsinə qaldırılmışdır. Unutmaq olmaz ki, qloballaşma prosesləri bütün sahələrdə, o cümlədən də, təhsil sahəsində kardinal dəyişikliklərin həyata keçirilməsini zəruri edir.

Bu baxımdan, ingilis dilinin tədrisi sahəsinin informasiya-kommunikasiya texnologiyaları ilə inteqrasiyası təhsil sistemimiz qarşısında duran ən vacib amillərdən biridir. Bu problemin həllində iki yol mümkündür. Birinci yol ondan ibarətdir ki, informasiya-kommunikasiya texnologiyaları sahəsində əldə olunmuş nailiyyətlərdən istifadə etməklə tamamilə yeni metodoloji və texnoloji əsaslar üzərində yeni təhsil texnologiyası işlənib hazırlanmalı və tətbiq edilməlidir. Lakin, əvvəllər də qeyd etdiyimiz kimi, informasiya-kommunikasiya texnologiyaları yaradılarkən sırf təhsil üçün nəzərdə tutulmadığından və pedaqoji problemləri nəzərə almadığından, bu yolun səmərəliliyi və praktik cəhətdən əlverişliliyi bir çox pedaqoqlar, xüsusilə, Rusiyalı alimlər tərəfindən şübhə altına alınmaqdadır. Ikinci yol isə informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə artıq mövcud olan təhsil texnologiyalarına zəruri dəyişikliklər etməyi nəzərdə tutur. Bu yol bir çoxları tərəfindən daha cəlbedici görünür. Bunun da bir sıra səbəbləri vardır.

1. Informasiya-kommunikasiya texnologiyalarından fərqli olaraq pedaqoji texnologiyalar təhsil problemlərini həll etmək məqsədilə yaradılmışdır.

2. Mövcud pedaqoji texnologiyaların əksəriyyətinin səmərəliliyi təhsil prosesini fərdiləşdirməyə, tədris prosesini interaktiv rejimdə həyata keçirməyə imkan verməyən texniki tədris vasitələri ilə nəzərə çarpacaq dərəcədə azalmışdır.

3. İnnovasiyalı pedaqoji texnologiya anlayışı get-gedə özünə daha çox yer etməkdədir. Bu səbəbdən də, informasiya-kommunikasiya texnologiyalarının imkanlarından mükəmməl şəkildə istifadəyə əsaslanan təlim-tərbiyə texnologiyalarının mənimsənilməsi zamanı müəllimlər psixoloji baryerlə daha az üzləşmiş olacaqlar. Birinci yolda isə bu risk daha yüksəkdir.

Bağlayıcı. Orta yüzillikdə Azərbaycan ədəbi dil materiallarında rast gəlinən bağlayıcıların böyük əksəriyyəti bilavasitə bu dilin özünə məxsusdur. Məlumdur ki, «bağlayıcının əmələ gəlməsi cümlə quruluşu ilə yaxından bağlıdır» (6, c. 380).

Daha çox əsərin dilində «əgər» bağlayıcısı işlənmişdir. Məs.: Əgər qaynadıb suyun içsələr, olduqca xeyirlidir. «Əgər» sözü, demək olar ki, hər cümlə başı işlədilir. Başqa sözlə, cümlələr «əgər»lə başlayır. Şərt, qarşılaşdırma mənalarını ifadə edir.

«Tibbnamə»nin dilində tabedici alınma əsli bağlayıcılardan zira, çün, çünki, əgər bağlayıcıların işlənmə intensivliyi yüksəkdir. «Bu bağlayıcılar təkcə klassik ədəbi dil yazılarında deyil, eyni zamanda danışıq dilinə yaxın üslubda yazılmış abidələrdə də müşahidə edilir» (Şükürov Əlisa. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, APİ-nin nəşri, 1981, s. 91 (98 s.).

«Çün» bağlayıcısı....çün bir saatdan sonra qalxıb oturub ətçə edib danışmağa başladı (s.170).

«Çün» ədat sayılır və ke\ki bağlayıcısı ilə birləşərək çünki bağlayıcısını yaratmışdır.

«Və» bağlayıcısından istifadə. Durğu işarələrinin (vergülün) olmadığı bir dövrdə həmcins üzvlər arasında «və»-birləşdirmə bağlayıcısının ardıcıl işlənməsi halları sözügedən əsərin dilində də müşahidə olunur. Məs.: Məkan *və* məskən *və* şəhər *və* libaslar geymək bəyanındır (151), Əgər yaşıl *və* əgər sarı *və* əgər nefti rəng qumaşın üzərinə turşu dəysə...(154).

«Və» sadə cümlələr arasında da təkrarlanır: Xayası ayaqdan çəkər *və* göz suyu mədədən içər *və* saqqal suyu xayadan içər (163)

Hərgah bağlayıcısı. Hərgah bir kimsəni xənçər və ya bıçaq ilə vursalar və qanı dayanmazsa, gərəkdir ki, mum (10 dirhəm), saqqız-cəm (5 dirhəm)... (s.151).

Ədat. «Tibbnamə»nin dilində «dəxi» ədatı həddən artıq çox istifadə olunub. Bu ədat cümlədə hər hansı bir sözdən sonra gələrək, qüvvət, emosional bir semantik incəliyi yaratmaq üçün işlənmişdir. «Dəxi» ədatı bəzən da, də-nin sinoninimi kimi, bəzən də artıq ədatının eyni mənalı variantı kimi işlədilmişdir. Məs.: Bir az qızıl üzüm və paxla otu və kəmmun və cavşiri bunlardan bir az götürüb əzib *dəxi* bir-birinə qarışdırıb nəqriz üzərinə qoysalar, keçər (s.70);- Sənai-

məkki *dəxi* yesələr, sağalarlar (s. 71);...olduqca ləziz olur və mənfəəti həm *dəxi* olduqca əladır (s.99) və s.

Danışıq dilinin təsiri. Danışıq dilininin təsiri ilə sözlərin yazılışında indiki orfoqrafiya ilə müqayisədə fərqli cəhətlər özünü göstərir.

Yeylaq|yaylaq: Əgər təzə yeylaq yağını sürtsələr, xeyirdir (s.32).

Dəmirov| dəmiro: Dəmironun (dəmrovun) müalicəsi bəyanındadır (s.78).

Böyürtikan|böyürtkən: Böyürtikan yarpağın dəxi yaraya qoysalar, irini axıdıb xilas edər (s.79).

Cümlədə söz birləşməsinin tərəfləri danışıq dilinin təsiri ilə yerini dəyişə bilir. Məs.: Bir kişinin bir yerinə qurd düşsə, qoyunun təzə öpkəsindən o qurd düşən yerə qoysalar, *hamı qurdlar (qurdların hamısı)* çıxıb düşər, təcrübədən keçib (s.164).

Beləliklə, «Tibbnamə»nin morfologiyası əsərin yarandığı dövrün qrammatik quruluşunu əyaniləşdirir. Bu baxımdan məqalədə ən çox nitq hissələri üzrə arxaik elementlərin aşkar edilərək öyrənilməsi ön plana çəkilmişdir.

Ədəbiyyat

1.Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 1990.
2.Kazımov Q. Seçilmiş əsərləri, IX cild, Birinci kitab, Bakı, «Nurlan», 2010.
3. Dastani-Əhməd Hərami. Bakı, «Gənclik» nəşriyyatı, 1978.
4.Seyidov Yusif. Nəsiminin dili. «Azərbaycan» nəşriyyatı, Bakı, 1996.
5.Şükürov Əlisa. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, APİ-nin nəşri, 1981.
6.Мешаннинов И.И. Члены предложения и части речи. М.: 1978.

Marifa Manafova

The morphology of “Tibbnama”

Summary

In this article the morphological structure of “Tibbnama” is observed suitable to the historically developed and tradition. Here it defines mainly the variety and the differences of grammatical structure and it attracts analysis. The object of analysis consists of notional and structural parts.

The morphology of “Tibbnama” visualized the grammatical structure of old times. The noun, the adjective, the pronoun, the adverb and the verbs in the language of this work draw attention to its interesting language characteristics. They possess proper characteristics different from our modern language.

It is stressed that hundreds of words in this work have become archaic, however they still remain in the dialects and accents of the Azerbaijan language and at the same time other Turkish languages.

The structural part that is used in “ Tibbnama” gives rich insights into the learning of Azerbaijani historical grammar.

Марифа Манафова

Морфология «Тиббнаме» (Медицинская книга)

Резюме

В статье исследуется морфологический строй произведения «Тибнаме» (Медицинская книга) согласно традиции исторического развития языка. Больше всего здесь выявляются и подвергаются анализу грамматические особенности, которые отличаются от нашего современного языка.

Морфология «Тибнаме» наглядно отражает своего создания и грамматический строй языка. В языке «Тибнаме» привлекает внимание с вособразие и интересные свойства, прилагательных, числительных, местоимений, наречий, глаголов. Они облагают множеством грамматических свойств, отличающихся от современного языка.

Здесь отличается, что сотни слов из произведения стали архаизмами в Азербайджанском языке, но они еще продолжают оставаться в диалектах и говорах азербайджанского языка, а также в других тюркских языках.

В произведении «Тибнаме» использованные служебные части речи служат богатым материалом с точки зрения изучения исторической грамматики Азербайджанского языка.

Rəyçi: Namaz Manafov
filologiya elmlər namizədi, dosent

JALƏ SALMANOVA
Azərbaycan Dillər Universiteti
jala_87@yahoo.fr

L'HÉTÉROGÉNÉITÉ EN CLASSE DE FLE

Açar sözlər : Başa düşmək, yadda saxlamaq, anlama, əlaqə, inkişaf, bilik, bacariq, müəllim
Ключевые слова : понимать, запоминать, обучение, коммуникация, развитие, знание, компетенцию, преподавателя
Keywords: understand, remember, learning, communication, development, knowledge, expertise, teacher

Dans le cadre de mes études en MASTER 1 DILFLES (2008-2009) à l'université de Strasbourg, j'ai eu l'opportunité d'effectuer un stage dans de lieu (à l'école élémentaire de Louvois et le deuxième est à l'IIEF) situé à Strasbourg pour un total de 50h. Durant mes deux stages, j'avais deux publics différents. D'un côté, ceux qui devaient apprendre le français en France pour pouvoir bien se débrouiller et pour s'inscrire aux universités de la France et de l'autre côté, ceux qui étaient les élèves natifs. La façon d'organiser les cours était donc très différente, tout comme le rythme des cours. Toutefois, un problème apparaissait dans les deux établissements. Quand je leur expliquais la nouvelle leçon ou bien je leur donnais des exercices à domicile, je me rendais compte que certains élèves ne comprenaient rien alors que les autres les faisaient sans difficulté. En tant qu'enseignante-stagiaire, j'ai été confrontée dans ma classe à des élèves qui sont plus lents que les autres, à ceux qui rêvent pendant la séance, à ceux qui n'arrivent pas à écrire ce que je dis oralement ou même ce que je note au tableau, à ceux qui se font oublier ou qui évitent de se mettre au travail et à ceux qui deviennent excessivement timides... et égalent aux rapides, aux intelligents, ceux qui ont fini avant que je dise de commencer et pour qui il faut prévoir davantage d'exercices. Bref, dans un groupe de la classe les différences entre les élèves sont de plusieurs catégories.

Quelles sont donc les aspects et les principales causes de ce phénomène? Et pour gérer tout ce monde, quelles sont les idées et les stratégies qu'on peut suivre dans le milieu scolaire? Comment gérer l'hétérogénéité en classe de langue ? J'en ai parlé autour de moi et j'ai écouté aussi les autres enseignants, et il semblait que c'était un problème fréquent. Comment faire pour répondre alors à ce problème de l'hétérogénéité?

Pour répondre à cette question, nous verrons d'abord dans quel contexte se déroule la situation.

1. Définition du mot hétérogénéité: `L'hétérogénéité est une notion assez floue, mais j'aimerais tout de même essayer d'exprimer ce que l'on met derrière ce mot. Dans un groupe d'une classe les différences entre les élèves sont de plusieurs ordres, on trouve:

• Les acquis de connaissance, c'est à dire le savoir acquis par les élèves.

• Les acquis de compétence, c'est à dire le savoir-faire de chaque élève : prélever une information, mettre en relation, la capacité à raisonner, à comprendre, à mémoriser.

• Les différences d'âge: l'âge de l'élève est important dans son acquisition du savoir.

• Les différences de sexe : les garçons sont moins forts que les filles.

• Les différences physiques: il y a des élèves handicapés et non-handicapés dans une classe.

• Les différences culturelles : La culture joue un rôle très important dans l'enseignement.

C'est plus facile de gérer les différences qui concernent les acquis, que les compétences. L'hétérogénéité a des causes endogènes et exogènes.

2. Rechercher et analyser les causes: Je peux traduire l'hétérogénéité de ma classe à plusieurs niveaux :

Au niveau de l'hétérogénéité socio-culturelle: Au-delà de l'aspect purement économique avec des élèves issus de catégories socioprofessionnelles différentes, il s'avère que mes élèves ont suivi leur scolarité dans des établissements divers et variés, avant d'arriver en France. Ils sont également issus de différentes universités et branches à Strasbourg et ils n'appartiennent pas tous au même niveau social. J'avais plusieurs nationalités dans ma classe, ce qui veut dire que les élèves ont des cultures différentes.

Au niveau de l'hétérogénéité de sexe : Certes, il existe une mixité dans le groupe de ma classe, mais d'équité entre les sexes. J'avais un nombre variable d'élèves, parfois que des filles et parfois que des garçons.

Au niveau de l'hétérogénéité scolaire : Dans le groupe, il y avait des étudiants de licence droite, de licence langues, de Master art, de doctorat de biologie, de la faculté de médecine, de l'école de journalisme,... Mes élèves n'avaient pas le niveau scolaire ni le même domaine d'études. Ils ne possédaient pas donc des mêmes capacités linguistiques et cognitives.

Au niveau de l'hétérogénéité des motivations : A travers les cours que j'ai pu donné, j'ai remarqué que mes élèves n'avaient pas tous les mêmes conduites motivationnelles. Quelques-uns étaient enthousiastes de venir en cours et d'y assister. D'autres qui quittaient la salle avant la fin de la séance, car ils n'arrivaient pas à faire les exercices et le thème de la séance leur posait une grande difficulté de compréhension, alors ils voulaient juste se sauver et d'autres qui sont là avec l'esprit ailleurs.

Ces remarques confirment la diversité des attitudes, des niveaux et des motivations des élèves. Ils sont issus d'établissements et des cultures très divers. Les activités pratiquées, les expériences vécues, les connaissances acquises, le niveau atteint, les projets personnels sont autant de raisons de divergences entre eux. Le phénomène d'hétérogénéité est apparu dès la première séance comme j'ai cité un peu avant. La diversité des niveaux de pratique était très remarquable, grâce à l'exercice sur « les expressions françaises », il était difficile de faire face à une telle disparité. En effet, il y avait deux élèves qui ont pu faire l'exercice correctement et sans difficulté, ils ont pu trouver des situations réelles pour chaque proverbe et expression proposé dans l'exercice et d'autre qui ont rencontré des grosses difficultés

dans l'exécution de ces mêmes exercices. Outre ce constat, il était clair que la dynamique de classe était entachée par ces problèmes. Les élèves confrontés à l'échec se démotivaient devant la difficulté, quant aux autres leur réussite quasi-permanente ne les encourageait pas à poursuivre leurs efforts. Ainsi, afin de permettre aux élèves de développer un désir d'acquérir des savoirs, des savoir-faire et des attitudes et surtout être plus motivé, il m'a semblé nécessaire de leur proposer des chemins d'apprentissage adaptés à chacun et un suivi individuel.

3. Comment gérer l'hétérogénéité?: Personnellement, je voyais que la meilleure solution pour répondre à l'hétérogénéité du public dans une classe, est de mettre en place d'une pédagogie différenciée, c'est à dire la conduite des élèves vers des objectifs éducatifs communs tout en empruntant des chemins d'apprentissage individualisés. En tant qu'enseignante, je dois être consciente que je transmets des informations que l'élève doit transformer en savoir. Je suis libre de la manière de transmettre ces informations. Je ne peux pas faire des niveaux dans ma classe sur la totalité de l'emploi du temps. Il est donc nécessaire lorsque je fais mes cours de considérer que mes élèves ont des modes de compréhension, des stratégies différentes. Par exemple, lorsque nous travaillons sur un exercice de conjugaison, **« le conditionnel »** et lorsque je demande aux élèves de faire l'exercice; une moitié des élèves le fait spontanément et conjugue tous les verbes de l'exercice, mais l'autre moitié attend que je conjugue le verbe de la première phrase de l'exercice, car ils ont besoin de visualiser et comprendre pour passer à l'action. On connaît les recherches sur le cerveau : selon que l'on a le cerveau gauche ou le cerveau droit dominant, on n'a pas les mêmes stratégies de compréhension. J'ai toujours essayé de créer un échange entre les élèves, faibles ou non. Il faut noter l'importance du déplacement dans la classe, en offrant de l'aide à tout le monde. Je me déplace à l'opposé de celui qui parle, afin que tout le monde puisse entendre ce que l'élève est en train de dire: en facilitant la circulation de la parole, je facilite la compréhension. Je me suis efforcé de laisser parler et d'écouter tout le monde, mais aussi d'interroger ceux qui n'intervenaient pas systématiquement. C'est ce travail d'adaptation (utiliser l'espace, les gestes,…) à la diversité des élèves qui a pu faciliter l'apprentissage. En exigeant cela, j'ai surmonté avec eux l'obstacle de trouver leur propre motivation. Notamment avec les « bons points », qui valorisent chaque effort de participation et qui les motivent davantage. J'ai compris la nécessité de leur exprimer leurs échecs mais surtout leur progrès et leur réussite. Ce que je ne faisais pas clairement au début. Il m'a été aussi difficile de leur faire comprendre de suite, qu'ils ne devaient pas avoir peur de l'erreur. Et ce n'est que lorsque j'ai moi-même accepté leurs erreurs, que je n'ai plus hésité à solliciter les élèves les plus faibles. Ensuite, J'aurai dû utiliser un moyen détourné qui utilisait le principe de raisonnement de la démonstration. Le contenu du cours n'était pas du tout adapté à leur demande. Il a fallu d'ailleurs le déterminer lors d'un module sur la synthèse de cours où certains voyaient la synthèse comme un cours dans son utilité, d'autres comme un moyen de compréhension des nouveaux apprentissages. Là, s'est posé le problème de savoir comment ils apprenaient. Cet intérêt est lié de très près à la méthode de travail de l'élève. Ces questions de l'apprentissage doivent aussi être connues des élèves pour leur permettre de mieux se connaître, pour mieux se corriger. Ils doivent donc apprendre à s'observer.

4.<u>Définition de la pédagogie différenciée :</u> On peut définir cette méthodologie comme un suivi individuel des élèves de l'attention permanente à la progression de chacun, à la proposition individuelle d'exercices strictement adaptés au niveau que chaque élève a pu atteindre. C'est donc un enseignement sur mesure et à la mesure de l'élève et un ensemble de techniques pédagogiques et didactiques pour permettre à l'ensemble de faire progresser le plus grand nombre d'élèves vers un même savoir. Cependant, elle commence par la connaissance des élèves. Après 2 semaines de cours, j'ai commencé à connaître le niveau de chacun de mes élèves, dont ils ont besoin tous en matière de savoir, ce qu'ils aimeraient travailler parmi les les quatre compétences, … Cela m'a permis de bien choisir les supports de cours : Diapositives, photocopies, vidéo, jeux, documents, presse, cartes... et les thèmes de leçons et les exercices qui conviennent le niveau de chacun. Je misais surtout sur le dialogue pour communiquer avec les élèves, je leurs surveillais au moment de faire leurs exercices ou rédiger leurs résumés, j'essayais que les consignes soient claires, structurées, redondantes et réparties opportunément dans le temps pour être efficaces, je traduisais tout ce que je disais en termes simples, concrets et compréhensibles par tout le monde pour éviter tout problème d'ambiguïté dans ce que je transmets ou je demande aux élèves. Je voyais même des étudiants en dehors des cours, car quelques-uns trouvaient que la petite heure consacrée au cours de conversation, n'était pas assez pour apprendre à parler et s'exprimer correctement en français. Nous faisions donc des sorties ensembles: visites de musées et de la ville de Strasbourg, pique-niques de lecture, repas internationaux... pour que chacun discute de son livre favori, de son plat traditionnel, de ses activités sportives...etc. De même, la motivation du professeur est aussi un élément important pour les élèves car il est reconnu qu'un cours fait sans motivation ne donne pas envie d'être appris.

Enfin, je voudrais dire que cette méthode d'apprentissage m'a amené à reconnaître qu'avec une classe hétérogène, plus qu'avec un autre, il faut avancer en étant sûr de pouvoir évoluer ensemble. En accompagnant les élèves dans leur apprentissage, j'ai accepté de ne pas être obligatoirement responsable, si tous les élèves ne deviennent pas d'excellents élèves.

Bibliographie

1. BAUCH, CHRIST, KRUMM, Francke UTB 1995, HandbuchFremdsprachenUnterricht,
2. Claude AUBERTIN, dossier pédagogique, Pédagogie différenciée, 3 niveaux pour une leçon,
3. Halina PRZESMYCKI, Hachette éducation, pédagogie différenciée.
4. MARIE-CLAUDEGrandguillot, Hachette éducation. Comment gérer l'hétérogénéité ?
5. Methods for individualising instruction, 1971 in Cahiers Pédagogiques 148-149
6. Philippe MERIEU, Conférence au CRDP de Grenoble

J.Salmanova

Xarici dilin tədrisində Etrogen problemi

Xülasə

Məqalədə fransız dilinin xarici dil kimi tədrisində ortaya çıxan əsas problemlərdən biri kimi məhz tələbələrin müxtəlif bilik səviyyələrində olması analiz edilir. Sinifdə müxtəlif bilik səviyyəsi (zəif və güclü tələbələr) və ya fərqli fikir ayrılıqları, müxtəlif yaş heddi dilin tədrisində çətinliklər törədir. Bu çətinlikləri aradan qaldırmaq üçün məqalədə bir çox analizlər aparılmış və təkliflər irəli sürülmüşdür.

J.Salmanova

Heterogeneity in the class of language

Summary

How to manage the heterogeneity in the class of language?To answer this question, firstly we must analyse the context that the stuation unfolds. Then we they to show the necessary explanations and finally we explore the possible to solve this problem. In a group of a class differences among students are of several kinds are: 1). The acquisition of knowledge, ie the knowledge acquired by the students. 2) The achievements of competence, ie the expertise of each student collect information, to connect, the ability to reason, understand, remember.3) Differences in age: the age of the student is important in the acquisition of knowledge.4) difference of sex: the boys are less strong than the girls..5) Physical differences: there students with disabilities and non-disabled people in a class.6) Cultural differences: Culture plays a very important role in education.

Ж. Салманова

Гетерогенntмть в классе языка

Rezюме

Как управлять гетерогенntмть в классе языка? Чтобы ответить на этот вопрос, во-первых мы должны проанализировать контекст, который развоРачивает ситуацию. Тогда мы чтобы показать необходимые объяснения наконец исследуем возможное, чтобы решить эту проблему. В группе класса разногласия между учениками из нескольких порядков, находим: 1)опыты знания, то есть умение, приобретенное учениками. 2) опыты компетенции, то есть ноухау каждого ученика: взимать информацию, помещать в отношении, способность рассуждать, понимать, запомнить. 3) разногласия возраста: возраст ученика значителен в своем приобретении умения. 4) разногласия секса: мальчики менее сильны чем девушки 5) физические разногласия: ученики в невыгодном положении и не- инвалиды в классе. 6) культурные разногласия: Культура играет очень значительную роль в образовании.

Rəyçi: Dosent Alik Hənifəyev

ELNARƏ ABBASOVA
Filologiya üzrə fəlsəfə doktoru
ADİU
elnare@mail.ru

İNGİLİS DİLİNDƏ İNVERSİYA HADİSƏSİ

Açar sözlər: isim, fel, inversiya, vurğulamaq üçün, mübtəda
Key words: noun, inversion, for emphasis, subjact
Ключевые слова: существительное, глагол, инверсия, для эмфатического усиления, подлежащее

İfadəlilik əldə etmək məqsədilə nitqdə sözlərin adı, ümumişlək sırasının pozulması, cümlə üzvlərinin yerlərinin dəyişilməsi hadisəsi inversiya adlanır. İnversiya filoloji termin kimi nitq ünsürlərinə aiddir. İnversiya latın sözü «inversio» olub, «dəyişilmə, yerdəyişmə» deməkdir. Adətən inversiyadan psixoloji və üslubi effekt üçün istifadə olunur. Ədəbiyyatda inversiyadan daha çox istifadə edilir, belə ki, yazıçılar və şairlər öz fikirlərini daha qabarıq, daha emosional şəkildə göstərmək üçün inversiyadan istifadə edirlər və bu zaman nitqi daha da ifadəli edirlər. İnversiya hadisəsi nitq hissələrinin yerini dəyişməsi yolu ilə baş verir, burada əsasən fellə isim öz yerini dəyişir. İnversiyadan müxtəlif dillərdə istifadə olunur. Azərbaycan dilində də inversiyadan geniş istifadə edilir. Məsələn:

Sızlar, yada düşəndə, ürəyimin telləri,
O mehriban, o əziz tələbəlik illəri (C.Novruz)

Bu beytdə çox mürəkkəb, bir neçə pilləli inversiya özünü göstərir. Əslində bu cümlədə söz sırası aşağıdakı kimi olmalıdır: «O mehriban, o əziz tələbəlik illəri yada düşəndə ürəyimin telləri sızlar». Lakin şair şerin daha da dilə yatımlı, daha da ifadəli olması üçün inversiya hadisəsindən istifadə etmişdir.

Fransız dilində inversiya əsasən sual cümlələrində özünü göstərir. Məsələn: «*Tu aimes le chocolat*» nəqli cümlədir, bu cümlə ingilis dilində «*I like chocolate*» (mən şokalad istəyirəm) cümləsi ilə eynidir. Sual cümləsində inversiya baş verir və tu (you) mübtəda ilə aimes (like) xəbəri yerini dəyişir. Nəticədə «Aimes tu le chocolat?» sual cümləsi düzəlir. Bu sual cümləsi ingilis dilindəki «Do you like chocolate?» (Sən şokalad istəyirsən?) sual cümləsi ilə üst-üstə düşür. Alman dilində də inversiya hadisəsi ingilis dilindəki inversiya hadisəinə uyğun gəlir. Məsələn: alman dilindəki «du magst» ingilis dilində «youk like» (sən xoşlayırsan) mənasını verir. Bu cümlə inversiyaya uğradıqda «magst du?» kimi yazılır, bu da ingilis dilindəki «do you » (sən xoşlayırsa) mənasını ifadə edir.

Sabit söz sırası olan dillərə nisbətən sərbəst söz sırasına malik olan dillərdə inversiya hadisəsinə daha tez-tez təsadüf edilir. Bu, xüsusi qrammatik konstruksiyaların bir hissəsi kimi yox, daha çox praqmatik səbəblərdən baş verir.

Bildiyimiz kimi, ingilis dilində çabit söz sırası mövcuddur. Bu o deməkdir ki, nəqli cümlələrdə birinci yerdə fikrin predmetini bildirən, qrammatik cəhətdən cümlə üzvlərinin heç birindən asılı olmayan və cüttərkibli cümlənin baş üzvü kimi çıxış edən sintaktik vahid, yəni mübtəda, ikinci yerdə isə mübtədaya ta-

be olan və mübtədanın əks etdirdiyi əşyanın aktiv və ya passiv əlamətini bildirən cümlənin baş üzvü, yəni xəbər işlədilir. Məsələn:

I was a little nervous before seeing Mr. Rochester next morning.

Miss Mamie Potter was not better than Joe.

I leaped to my feet, bellowing like a bull.

I´ ll eat nothing for dinner tonight.

Yuxarıda qeyd etdiyimiz kimi, sabit söz sırasının dəyişilməsi dildə inversiya hadisəsi (inversion, inverted word order, inverse word order). İngilis dilində inversiya adətən köməkçi felin, modal felin və ya əsas felin mübtədadan əvvələ keçməsi yolu ilə düzəlir. İnversiya müəyyən bir məqsədlə, xüsusilə hər hansı bir fikri vurğulamaq üçün istifadə edilir. Məsələn:

What a smile she had.

What do you mean? I´ m telling the truth.

How do you feel about Joe Pearson and the way he´ s leaving?

Then came the question of drink.

İngilis dilində inversiya hadisəsinin iki növü vardır:

1. Mübtəda-fel inversiya (subject-verb inversion). Bu zaman mübtəda ilə əsas məna daşıyan fel yerlərini dəyişir və cümlədə söz sırası fel+mübtəda (verb+subject) strukturunda olur. Məsələn:

On the top of the hill stood an old oak tree.

Down the stairs came the dog.

On the doorstep was a bunch of flowers.

2. Mübtəda-köməkçi fel inversiyası (subject-auxiliary inversion). Bu inversiya nəticəsində mübtəda ilə köməkçi fel cümlədəki yerlərini dəyişirlər və cümlədə söz sırası köməkçi fel+mübtəda (auxiliary+subject) və ya köməkçi fel+mübtəda+əsas məna daşıyan fel (auxiliary+subject+verb) şəklində olur. Məsələn:

When does the bus leave?

You are hungry, aren´ t you?

Hardly had I arrived at home when my phone rang.

Bu geniş yayılmış inversiya növlərindən əlavə bəzi digər qrammatik strukturlar da inversiyaya uğrayır. Buna there is, there are ifadələri ilə işlənən cümlələri, here və ya there sözləri ilə başlanan cümlələri, so do I və ya Neither do I tipli cavab cümlələrini və s. misal göstərmək olar.

İndi isə tipik inversiya növlərinə ayrı-ayrılıqda bir daha nəzər salaq və onlar haqqında biliklərimizi misallarla möhkəmləndirək.

I. Sual cümlələlərində inversiya:

İngilis dilində ən geniş yayılmış inversiya növü köməkçi felin mübtədadan əvvələ keçməsi ilə baş verir. Buna əsasən sual cümlələrində rast gəlinir. Məsələn:

Will you tell me what you attitude is – to medicine and to this hospital?

Does my deep love mean nothing to you?

Why, then, should´ t the students be allowed to look at their textbooks during the examination?

Is this story long?

How long is this story?

Has she found her keys?

II. There is/there are konstruksiyasında inversiya:

There is/ there are ifadələri ilə işlənən cümlələrdə, eyni zamanda bu konstruksiyaların tərkibində modal fel və ya əsas məna daşıyan fel olarsa, bu zaman inversiya tələb olunur. Məsələn:

There is an interesting article about. Spain in today´ s newspaper.

There are several books on the table.

Once upon a time there lived an old man in a small house bü the sea.

There can be no doubt about it.

There must be reason for their arrival.

There exist several theories on this matter.

III. Here və ya there sözlərindən sonra inversiya:

Here və ya there ilə başalanan cümlələrdə inversiya hadisəsi baş verir. Onu da qeyd edək ki, here və ya there ilə başlanan cümlələr idiomatic xarakter daşıyır. Məsələn:

Here is the book you asked for.

Here comes my bus.

There goes my money.

Unfortunately there came a time when Joe didn´ t do new things any more.

Here comes your friend.

Here rises the Sun.

Qeyd edək ki, əgər here və ya there ilə başlanan cümlələrin mübtədası şəxs əvəzliyi ilə ifadə olunarsa, bu zaman fel mübtədadan sonra işlədilir. Məsələn:

Here he is, Mr. Mason! Called the lawyer.

So there I was, high up on the chair, publicly displayed as an ugly example of evil.

Here you are.

There she is.

Here he comes.

IV. So və neither konstruksiyalarında inversiya:

So do I və Neither do I tipli cavab cümlələrində inversiya tələb olunur. Məsələn:

I like clffee – So do I.

I don´ t like coffee – Neither do I.

She will wait for them – So will I.

She won´ t wait for them – Neither will I.

İnversiya həmçinin belə konstruksiyalı mürəkkəb cümlələrində də labüddür.

Məsələn:

I like clffee, and so does Ella.

I don´ t like coffee, and neither does Ella.

She will wait for them, and so will my brother.

I. Şərt budaq cümlələlərində inversiya:

Əgər şərt budaq cümlələrində «if» bağlayıcısı işlədilməzsə, bu zaman cümlə inversiyaya uğrayyır. Əgər «if» bağlayıcısı cümlədə işlədilərsə, bu zaman badaq cümlədə söz sırası sabit söz sırası şəklində olur. Məsələn:

Should my son call, ask him to wait for me at home – If my son should call, ask him to wait for me at home.

Had I known him, I would have helped him – If I had know him, I would have helped him.

Were I not so tired, I would ge there with you – If I were not so tired, I would go there with you.

VI. Vasitəsiz nitqdən sonra inversiya:

Əgər «said, asked, replied» sözləri vasitəsiz nitqdən sonra gələrsə, bu zaman inversiya baş verir. Məsələn:

«Produce him – or go to hell» sail Mr. Rochester.

«Perhaps it´ ll stop soon» , said Susie hopefully.

«I lost my purse», replied the old woman.

«If they spoil it for me to night», Susie continued, «I≥ll kill them, the beasts!»

Əgər bu tipli cümlələrdə mübtəda şəxs əvəzliyi ilə ifadə olunursa, bu zaman cümlədə söz sırası mübtəda+fel formasında olur. məsələn:

«Oh, this is awful, awful», she said.

«I was suprisrd when I learned studens go out to dinner with their lecturers», she says.

«No, indeed, Mrs. Fairfax», I replied crossly.

«Don´ t mention it», he answered.

Əgər «said, asked replied» sözləri vasitəsiz nitqdən əvvəl gələrsə, bu zaman heç bir inversiya hadisəsi baş verməz. Məsələn:

Coleman said: «Thank you fortelling me*».*

John Steinbeck once said: «A great teacher is a great artist, and you know how few great artists there are in the world».

VII. Nida cümlələrində inversiya:

Bəzi hallarda nida cümlələrində fikri daha vurğulu şəkildə ifadə etmək üçün inversiyadan istifadə olunur. Məsələn:

Oh my, am I hungry! – I am so hungry!

Oh boy, was she mad! – She was so mad!

May all your wishes come true!

How beautiful are these roses! – How beautiful these roses are!

VIII. İnkarlıq biodirən cümlələrdə inversiya:

Əgər cümlə verilmiş inkar zərfləri «never, never before, not only… but also, not until, no sonner, hardly, scarcely, rarely, seldom» ilə başlayarsa, bu zaman həmin cümlə inversiyaya uğrayır. Məsələn:

Hardly had I begun to speak when I was interrupted.

Scarcely had w started our meal when the phone rang.

No sooner had I arrived than they all started to argue.

Seldom have I seen such a beautiful view.

Rarely did he pay anyone a compliment.

Never had I felt so happy.

İnversiyaya uğramış inkarlıq ifadə edən konstruksiyalar daha çox formal xarakter daşıyır və rəsmi yazılarda və ədəbi əsərlərdə özünü büruzə verir.

Ədəbiyyat

1. О.Д.Мешков: «Словообразование современного английского языка». Москва, 1976.
2. И.Б.Арнольд: «Лексикология современного английского языка». Москва, 1973.
3. M.İ.Adilov, Z.N.Verdiyev, F.M.Ağayev "İzahlı dilçilik terminləri" Maarifç 1989.
4. http://wwwştranslationdirectoty.com/article.html
5. http://en..wkikpedia.org/wiki/
6. "Love of Life and Other Stories". M; 1979.
7. Ch.Bronte "Jane Eyre" Oxford Book worms 6.
8. С.Моем: «Рассказы». Л; 1976.

E.Abbasova

Inverted World Order

Summary

This article deals with the inversion. In linguistics, inversion is any of several grammatical constructions where two expressions switch their order of appearance, that is, they invert. The most frequent type of inversion in English is subject-auxiliary inversion, where an auxiliary verb changes places with its subject; this often occurs in questions, such as Are you coming?, where the subxect you is switched with the auxiliary are.

Э.Аббасова

Инверсия в английском языке

Резюме

Изменение стандартного порядка слов называется «инверсия» (обратный порядок слов). Инверсия в английском языке обычно имеет в виду помещение вспомогательного, модального или основного глагола перед подлежащим. Инверсия используется с определенной целью, часто для эмфатического усиления.

Rəyçi: Rəfiq Cəfərov
filologiya üzrə fəlsəfə doktoru

SƏBİNƏ ORUCOVA
ADPU
səbi-1986@box.com

RƏSUL RZANIN ŞEİR DİLİNDƏ DİALEKT LEKSİKASI

Açar sözlər: dialekt, bədii, şeir, üslub, leksika, poeziya, dil, mətn
Ключевые слова: диалект, художественный, стих, стил, лексика, поэзия, язык, текст.
Key words: dialect, art, poem, style, vocabulary, poetry, language, text

Dialekt leksikası ədəbi dilin lüğət tərkibinin zənginləşməsində fəal iştirak edən ən mühüm qaynaqlardan biridir. Bədii dildə dialektizmlərin xüsusi üslubi mövqeyi və işlənmə özünəməxsusluğu vardır.

Məlumdur ki, dialekt və şivə sözləri ədəbi dil normalarına tabe olmayan leksik vahidlərdir və onlar müəyyən ərazidə yaşayan əhalinin nitq ünsiyyətində işlədilən sözlərdir. O da məlumdur ki, dialekt və ədəbi dildə olan sözlər arasındakı sərhəd tam müəyyənləşdirilməmiş, canlı danışıq dilinə məxsus sözlərin ədəbi dilə keçmə yolları tam müəyyənləşdirilməmişdir.

"Dialektlər xalqın təbii danışıq dili, bir növ dilin etnoqrafiyasıdır. Biz dialektləri öyrəndikcə xalqı və onun tarixini öyrənmiş oluruq" (7,116).

Dialekt sözlərinin bədii dilə, o cümlədən poeziya mətninə yol tapması səbəbsiz deyil. Onlar mühüm üslubi tələbləri ödəyir və onların bədii mətnə nüfuz etməsi söz sənətkarlarının fərdi dəsti-xəttinin müəyyənləşdirilməsində də əsaslı rol oynayır. Çünki dilin leksikasında elə bir söz yoxdur ki, o şeir üçün yararsız olsun. Burada əsas amil söz sənətkarının istedadı, ümumxalq dilinə yiyələnməsi dərəcəsi və ondan istifadə qabiliyyətidir.

Sözdən istifadə bacarığı poetik situasiya ilə stimullaşır. Şeirin ifadə tərzində dialekt leksikasının iştirakı poetik pafosdan, şeirin məzmununa uyğun forma tapmaq təşəbbüsündən irəli gəlir.

Dialekt leksikası ədəbiyyatımızda xüsusi mövqeyi və yaradıcılıq siqləti olan şairlərimizin dilində də özünü tez-tez büruzə verir. Şivə sözləri ilə üslubi davranışın spesifikasını mənimsəmək həmin şairlərin yaradıcılığında bədiilik yaratma vasitəsi kimi mühüm yer tutur.

Azərbaycan ədəbiyyatı və bu ədəbiyatın ən məhsuldar dövrü sayılan 1950-70-ci illərin dil yeniliyi, dil sənətkarlığı və novatorluğu ilə seçilən şairlərdən biri, bəlkə də birincisi R.Rzadır desək, məncə, yanılmarıq.

R.Rza yaradıcılığındakı bu yeniyi onun sərbəst şeir vəznində yazması ilə əlaqələndirənlərin çoxluğu bu fikrin doğruluğunu heç şübhəsiz ki, təsdiqləyirlər. Bu yeniliyi heca vəznində də olan şeirlərə aid etsək, heç də yanılmarıq.

R.Rza şeirinin leksikasına diqqət yetirsək, buraya daxil olan yeni sözlərlə yanaşı, dilimizin gözəlliyini hər zaman özündə saxlayan, zaman-zaman ədəbi dilə qarşı olan və bəzən də onunla qırılmaz əlaqədə göstərilən dialekt sözlərdən istifadə nəzər-diqqəti cəlb edir. Bəzi dialekt sözlərin şeirə gətirilməsi heç şübhəsiz ki, yazıçıdan ehtiyatlı olmağı tələb edir.

Ona görə ki, dilimizin gözəlliyini qorumaq, hər şeydən əvvəl, yazar və şairlərimizin çiyinlərində daşıdığı ən mühüm vəzifələrdəndir. Onu da vurğulayım ki, dilimizin zənginləşməsində, inkişafında dialekt sözlər mühüm rol oynayan amillərdəndir. Düzdür, dialekt sözlər şeirə nisbətən nəsrdə daha çox işlənir, amma bu sözlərin şeirdəki oynadığı rol danılmazdır.

R.Rza şeirində olan bəzi dialekt sözlərə misal olaraq: təşniş, qanıq, mahlıc, yayxanmaq, eymənmək, təpişdirmək, kələk, hayan, küsü, sesqa, keçid, yanıq və s.

R.Rzanın dialektizmlərə münasibətindən bəhs edərkən diqqətimizi "Tələsmirəm" adlı şeirə yönəldək:

Dağlar, mənə keçid verin!
becid verin!
Çaylar mənə ayrıc verin!
yüz qıc verin!

Bu şeirdəki sözləri ayrı-ayrılıqda götürək. əlbəttə ki, dialekr sözlərdir, lakin bu şeirdəki sözləri nə başqa söz və ya ifadə ilə əvəz etmək olar. Bu aspektdə "Şair və söz" adlı məqaləsində prof.Ağamusa Axundov R.Rzanın "Lenin" poemasına istinadən bu poemadakı bəzi sözlərin, xüsusən də "köbər" sözünün mühüm üslubi əhəmiyyətindən söz açır. Belə sözlərin R.Rza dilində heç də təsadüfən olmayıb, bilərəkdən şeir dilini dilimizin incəlikləri vasitəsi ilə vurğulamaq üçün bilərəkdən işlədilmişdir.

Top sındırmış bir ağac
Yaralı durna kimi
dayanmışdır köbərdə

Bu sözün əvəzlənməsindən danışmaq zənnimcə, yersizdir. Bir faktı da qeyd etmək yerinə düşərdi ki, vaxtı ilə müəyyən dialektə mənsub olan sözlər zaman keçdikcə ədəbi dilə daxil olub. Belə sözlərdən vagam, tərəcə, pərdi və s.

İlk əvvəl
Buxarının qurumu alışdı,
Sonra alov keçdi tavana,
Otağı yarı bölən qargı tərəcəyə
Quru pərdilər taqqıldadı
davam gətirməyir
Min neçə yüz
Fərrangert dərəcəyə.

Biz qruplaşdırmanı nitq hissələrinə görə əsaslandırsaqq onda aydın olar ki, R.Rzanın ədəbi dilə dialektlərdən gətirdiyi sözlərin içərisində isimlər çoxluq təşkil edir. Bunu təbii aspektdən əsaslandırsaq, dildə olan əşya adları hıyatda mövcud olan əşyaların ancaq müəyyən bir hissəsini adlandırır.

R.Rzanın dialekt sözlərdən bu qədər geniş istifadəsini, onun vətən torpağını, doğma Azərbaycanımızı qarış-qarış tanıması ilə əlaqələndirmək lazımdır. Şairin vətənimizi bu qədər dərindən tanıması torpağda mövcud olan bütün varlıqların növləri ilə, müxtəlif cinsləri ilə çox gözəl tanıyır.

R.Rza leksikonunda işlənən dialekt fellər kəmiyyət etibartilə daha azdır. Bu felləri qruplaşdırarkən deməliyik ki, bu fellər bir neçə yerdə təkrarən işlənmişdir.

Bu kölgədən
neçə kölgə ürüyür
öz-özünə şellənərək
nazlandı çox alabəzək.

Dialekt paralelizmlərdən danışarkən R.Rza yaradıcılığından danışmamaq olmaz. R.Rza sözün əsl mənasında dərin poetik məzmun daşıyan bu kiçik şeir parçası dialektik paralelizmə gözəl nümunədir:

Bir şillə kimi vur
At üstünə qom-qom,
Dəstə-dəstə
Ancaq bu sükutu kəs.

Misrada qom-qom qəzəb və nifrətin bolluğunu, böyüklüyünü ifadə etmək daha maraqlı görünür. Bu qədər dialektizmlərin bolluğu şairin dilini lorulaşdırır, bəsitləşdirir. Çünki dialekt vahidləri əslində xalq dilinin, canlı danışıq dilinin ünsürüdür. Bu dialektlərin işlənməsi həm müəllifin, həm də personajların dilində artıqlıq hiss olunujr. Dialektizmlərin bu cür geniş istifadə R.Rza yaradıcılığında yalnız bədiiliyin artırılmasına xidmət edir.

Dialekt sözlərinin şeir nitqinə daxil edilməsində şairin ciddi cəhdləri, intensiv üslubi axtarışları dayanır. Canlı ünsiyyət leksikasından yaradıcı şəkildə yararlanma R.Rzanın dəsti-xəttində qabarıq formalarda təzahür edir. Bunu aşağıdakı şeir fraqmentlərində açıq-aşkar görmək mümkündür.

Sol yanımda dəniz yatıb,
Üfüqdən-üfüqə **yayxanıb,**
Mavi dərili nəhəng kimi;
Tonqalında bir avara
Kabab **təpişdirib**

araqdan qızınmasa
kövrək budaq
torpaqdan su əməcək;
Yadıma düşür dağlar,
günöyündə növruzgülü,
Kölgöyündə quzey qarı və s.

R.Rza şeirinin dili prinsipləri və poetik tələbləri adi ünsiyyət-məişət leksikasının, o cümlədən dialektizmlərin bədii mətnə yol tapmasına geniş şərait yaradır. Söz sənətkarı canlı danışıq ünsürlərinin daha çox üstünlük verir.

Kitab sözünün müqabilində onun kolorit yaradan sinonimlərinə - dialekt leksikasına müraciət edir. Məhz bunun birbaşa nəticəsidir ki, biz R.Rzanın şeir dilində koloritli məhəlli səciyyəli sözlərin spesifik təzahürlərini görürük. Təqdirəlayiq cəhətdir ki, şeiri dialekt sözlərin kommunikativ mənalarından daha çox onların üslubi tərəfləri, bədii təsir yaratma məziyyətləri cəlb edir.

R.Rzayevin qələmində dialekt sözləri informativ səciyyə daşımır. Onlar daha çox ekspressiv rəngə yiyələnir, yeni məna dairəsinə girir, yeni semantik quruluşa, poetik qiyafəyə daxil olub ekspressivlik baxımından xüsusi çevikliyə yiyələnir.

Ədəbiyyat

1. Abdullayev S. Dil və bədii qavrayış. Bakı, Yazıçı, 199984, 167 s.
2. Abdullayev C. Rəsul Rza Azərbaycan sovet ədəbiyyatı. Bakı, Maarif, 1988, 532 s.
3. Adilov M.İ. R.Rzanın "Lenin" poemasının bəzi üslub xüsusiyyətləri haqqında. Azərb.SSR EA Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1970, N 4, s.3-11.
4. R.Rza. Həyat duyumları. B., Gənclik, 1975, 166 s.
5. R.Rza. Qanadlar. Bakı, Azərnəşr, 1935, 84 s.
6. Seyidov Y. Ədəbi tənqid və bədii dil. Bakı, Yazışı, 1981, 268 s.
7. Əzizov E.S. Bədii dildə dialektizmlərin yeri /Filologiyanın aktual problemləri (elmi-nəzəri konfransın materialları). Bakı Dövlət Universitetinin materialları. Bakı, 2006

С.Оруджева

Диалектная лексика поэтического языка Расула Рзы

Резюме

В статье анализируется диалектная лексика поэтического языка Расуле Рзы. Здесь конкретными фактами поясняются выразительность и экспрессивность диалектных слов.

Основной целью статьи является исследование процесса обновления диалектная в Азербайджанском языке. Здесь речь идет о способах создание терминов и исследованиях в этой области в наши дни.

Термины анализируются морфологически, синтактически , семантически. Здесь также говорится о продуктивных способах в создание терминов и о диалектная созданных из внутренных ресурсов языка.

S.Oruchova

Rasul Rza`s dialect vocabulary in poem language

Summary

The article deals with stylistic peculları ties of dialect vocabulary in poetry. The expressiveness is explained by concrete language facts.

The main purpose of article is about the researching of the process of dialect updating in Azerbaijan linguistic. Here are talked about creating and researching ways of dialect nowdays.

Termins are investigated on morphological, syntactical, semantic sights. Here are also given productive ways in creation of termins and about the termins created by from the internal resources of our native language.

Rəyçi: Məhərrəm Hüseynov
filologiya elmləri namizədi, dosent

RƏHİLƏ HÜMMƏTOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
nabiyevpn@gmail.com

AŞIQ MİKAYIL AZAFLININ POEZİYASINDA İŞLƏNMİŞ OMONİMLƏR

Açar sözlər: omonimlər, cinas qafiyələr, üslubi məqamlar, omofon, omoform
Key words:cinas rhyme,homonyms,stylistic moments,omofon,omoform
Ключевые слова: омонимы, рифмовые слогания, стилистические особенности, омофон, омоформ

Omonimlər eyni səs tərkibinə malik olan, lakin müxtəlif mənalar ifadə edən sözlərdir. Omonimlər bir-biri ilə əlaqəsi olmayan və ya məna əlaqələrini çoxdan itirmiş məfhumları ifadə edir.

Qeyd etmək lazımdır ki, yazılı ədəbiyyat kimi, aşıq poeziyası da omonim sözlərlə olduqca zəngindir. Aşıq poeziyasında omonimlərin işlədilməsi yazılı ədəbiyyatdan fərqli olan bir sıra spesifik xüsusiyyətlərə malikdir. Dahi söz ustadları da klassik ədəbiyyatın lirik növündə omonimlərdən, onun müxtəlif növlərindən (omofon, omoform, omoqraf) istifadə etməklə cinas qafiyələr yaratmış, lirik qəhrəmanın daxili duyğularını emosional ovqatla oxucu qəlbinə köçürmüşlər. Nümunə üçün İ. Nəsimi- nin aşağıdakı misralarına nəzər salaq:

Al ilə ala gözlərin aldadıb aldı məni,
Alini gör nə al edər, kimsə irməz alinə.

Beytin mənası belədir: Hiylə ilə ala gözlərin məni aldatdı. Gör necə hiylə edir ki, kimsə onun hiyləsinə çatmaz.

Haşiyə. Qədim türk leksik layında al (hiylə) ən işlək söz olmuşdur, bu gün ədəbi dildə passiv mövqedə qalmışdır. Dialektlərdə, xüsusən qərb qrupu dialektində **hiylə** mənasını qoruyub saxlayır (Al dilə tutmaq).

Aşıq poeziyasında işlənən omonimlər əsas linqvistik əlamətlərinə görə geniş tədqiq olunmuş yazılı ədəbiyyat nümunələrindən müəyyən qədər fərqlənir. Milli ruh üstündə köklənən bu ecazkar söz çələngində omonimlər aşıq şeir şəklinin ən çətin janrların- dan olan təcnislərin yaradılmasında böyük rol oynayır. Aşıq poeziyasında omonimlə-rin tədqiqata cəlb edilməsi həm də Azərbaycan xalqının poetik təfəkküründən süzülüb gələn şifahi ədəbiyyatda, canlı xalq danışıq dilinin bir neçə əsrlik inkişaf dövründə omonimlərin üslubi məqamlarını araşdırmaq üçün də geniş imkanlar açır.

Omonim sözlər bədii yaradıcılıqda geniş istifadə olunan bədii ifadə vasitələrindən biridir. Bədii söz ustadları omonimlər vasitəsilə ahəngdarlıq, poetik ovqat, emosionallıq yaradır, sanki misraları musiqi üstə kökləyirlər. Leksik və qrammatik omonimlərdən incə, zərif, musiqili qafiyələr qurulur, bədii nitq üçün xarakterik olan cinaslar yaradılır. Şifahi xalq ədəbiyyatında, xüsusən lirik növün ən aparıcı janrlarından olan bayatılarda da cinas qafiyələrdən istifadə edilir. Bu həm bayatıları araya-ərsəyə gətirən, onu ipə-sapa düzənlərin poetik düşüncəsindən, həm də ağıl, idrak fəlsəfəsinin, dünyagörüşünün dərinliyindən xəbər verir. Aşağıdakı bayatılara nəzər salaq:

Mən aşıq **Qaramanlıdır**,
Üzün **qaramanlıdır.**
Yaxşının tənəsindən
Yenə **qar amanlıdır**. (1. səh. 170)

Birinci misrada cinas qafiyə yaradan Qaramanlı onomastik vahidi qaraman türk tayfasının adı ilə bağlıdır, **- lı** topoformantı qaraman tayfasına mənsub olanların yeri-yurdu mənasını ifadə etmək məqsədi daşıyır. Beləliklə, cinas qafiyə yaradan onomastik vahidlə bayatını düzüb-qoşan sənətkarın yaşayış yeri müəyyənləşir.

Bayatının ikinci misrasında üzün qara xallı olmağından söhbət açılır.

Üçüncü və dördüncü misradan çıxan nəticə belədir: Yaxşının tənəsi, istehzası lirik qəhrəmanı şaxta kimi kəsir, onu elə üşüdür ki, müqayisədə qar ondan daha insaflıdır, aman verəndir. Beləliklə, son dərəcə zərif və orijinal cinas qafiyə yaradılır.

Bayatıda cinasların yaranmasında iştirak edən omonim sözlər birinci, ikinci misralarda leksik omonimlik yaradırsa, dördüncü misrada bu omonimlik təsadüfi, müvəqqəti xarakter daşıyır. Çünki həmin sözün kökü tamam fərqlidir. Yalnız səslənməsinə görə oxşardır, bu tipli omonimlər fonetik xarakterli olduğuna görə omofonlar adlanır.

Və yaxud:

Eləmi **qovun** dərdi,
Bostançı **qovun** dərdi
Yığılın, el-əğrəba
Başımdan **qovun** dərdi (1, səh. 127)

Bayatının birinci, ikinci misrasında işlənmiş eyni səs tərkibinə malik olan söz **(qovun)** qrammatik mənasına görə isimdir, mənası yemişdir. Bu, misraların məzmu-nundan da aydın olur. Vurğu sözün son hecasının üzərinə düşür.

Dördüncü misrada işlənmiş **qovun** sözü isə qrammatik mənasına görə feldir. Felin əmr şəklinin ikinci şəxsinin cəmində işlənmişdir və həmin şəkilçi (-un) vurğu qəbul etmir. Vurğu birinci hecanın üzərinə düşür. Bu misralardakı omonimlik yalnız yazılışı eyni, səslənməsi müxtəlif olan leksik vahidlərin qarşılaşdırılması ilə yaranmışdır ki, buna da omoqraflar deyilir.

Göründüyü kimi, bir-birindən mənalı cinas qafiyələr yaradılmış, bayatıda ifadə edilən fikrin emosionallığı, təsir gücü, forma və məzmunun vəhdəti omonimlər vasitəsilə oxucuya çatdırılmışdır. Az sözlə dərin-dərin mənalar yaratmaq məhz Azərbaycan xalqının müdrik babalarının, el anası ağbirçək nənələrinin könül dünyasına xas olan poetik vergidir.

Şifahi xalq ədəbiyyatının xüsusi bir qolu olan aşıq ədəbiyyatında da omonimlər vasitəsilə külli miqdarda təcnislər, təcnislərin müxtəlif növləri (dodaqdəyməz, cığalı, ayaqlı, qıfılbənd təcnislər və s.) yaradılmışdır. Lakin təcnisləri yalnız ustad aşıqlar, dərin biliyə dünyagörüşə malik olan aşıqlar yarada bilərdi. Qüdrətli söz ustadı Xəstə Qasım bu işin çətinliyindən söz açır:

Nə alim işidir, nə üləma,
Təcnis meydanının öz hünəri var.

Təcnis sənətkardan Allah vergisi olan fitri şairlik istedadı, zəngin söz ehtiyatı, dilin incəliklərini bilməyi tələb edir. Təcnis yaratmaq üçün dilin bütün incəliklərini, ifadə imkanlarını bilmək gərəkdir. Hər aşıq təcnis meydanında əsl söz sahibi ola bilməmişdi.

Aşıq poeziyasında Xəstə Qasımın, Aşıq Tufarqanlının, Aşıq Allahverdinin (Ağ Aşığın), Aşıq Alının, Aşıq Ələsgərin və onlarla ustad aşıqların müxtəlif növdə təcnisləri var.

Tədqiqata cəlb olunan Aşıq Mikayıl Azaflının yaradıcılığı üzərində aparılan müşahidələr də bunu deməyə əsas verdi ki, şair-aşıq omonimlərin müxtəlif növlərindən (leksik, qrammatik) istifadə etməklə çoxlu sayda təcnislər ("Yara dərdi", "Ay atamandı", "Ağlar", "Atalar", "A yaşa-yaşa", "Ağadan istər", "Adam-adama", "Didər-didərdi", "Qaralar keçər" və s.) yaratmışdır. Aşığın poeziyasında işlənmiş omonimlər əsasən cinas qafiyələrin yaradılması, poetik ovqatın aşılanması, oxucuların təfəkkür tərzinin inkişafı məqsədinə xidmət edir.

Prof. Vaqif Vəliyev "Qaynar söz çeşməsi" kitabında (Yazıçı. Bakı-1981, səh. 116-117) Azaflı yaradıcılığında təcnisin 29 nümunəsinə təsadüf etdiyini qeyd edir. Alim bu nümunələrin hər biri haqqında izahat verir və cığalı hərf təcnis, dodaqdəyməz hərf təcnis, dodaqdəyməz hərf cığalı təcnis və kölgəsiz təcnisə yalnız Azaflı yaradıcılığın-da rast gəlindiyini göstərir. (2. səh. 11)

Saz-söz sənətinin yorulmaz tədqiqatçılarından olan E. Məmmədli də təcnisə həsr olunmuş namizədlik dissertasiyasında aşığın təcnis yaradıcılığını yüksək qiymətləndirir.

Aşığın əksər təcnisləri fəlsəfi fikirlərin dərinliyi ilə seçilir, məzmunla forma arasındakı sıx bağlılıq onları daha oxunaqlı, yaddaqalan edir.

Aşığın poeziyasında həm leksik, həm də qrammatik omonimlər vasitəsi ilə müxtəlif səpkidə cinas qafiyələr yaradılmışdır ki, bu da dahi söz ustadının sənətkarlığının bariz nümunəsidir.

Məlum olduğu kimi, leksik omonimlərin yaradılmasında heç bir qrammatik şəkilçi, morfoloji vasitə iştirak etmir. Onlar kökləri etibarilə omonimlik yaradır və sonradan artırılan eyni xarakterli şəkilçi bu omonimliyi pozmur. Bunu aşığın əsərlərində də tez-tez müşahidə etdik. Nümunələrə nəzər salaq:

Könlümün hər sözü min saz dindirdi,
Ayılmadı eynim, ha **çal, çal** oldu.
Hicran çəkicindən qəm mismarını,
Müdəm sinəm üstə ha **çal, çal** oldu.

Azaflı, dost gördüm oda yandırdı,
İşrət karvanımı o dayandırdı.
Bir mehriban eşqi oda yandırdı,
Ağardı saqqalı, ha **çal, çal** oldu (2, 373-374)

Misralarda tamamilə müxtəlif mənalar ifadə edən omonimlər cərgəsi düzülmüşdür. Müəllif **çal** sözünün dildə nisbətən az işlənən omonimlərini ustalıqla işlədərək uğurlu bir omonim cərgə yaratmışdır. Birinci bəndin ikinci misrasında omonim yaradan **çal** sözü **çalğı** sözünün kökü olan **çalmaq** felidir (saz çalmaq). Bunu

məzmundan da asanlıqla dərk etmək mümkündür. İkinci **çal** sözü "mismar çalmaq, vurmaq" mənasını ifadə edir. İkinci bənddəki **çal** sözü isə qrammatik məna baxımından sifətdir, ağlı-qaralı saça deyilir (məsələn, çal saçlı, çalsaqqal və s.). Göründüyü kimi, omonimlər cərgəsindəki sözlər müxtəlif nitq hissələrinə məxsus, tamamilə fərqli məna daşıyan ifadələrdir.

İkinci bənddə həm də qrammatik omonimlər cərgəsi düzülmüşdür. Qrammatik omonimlər müxtəlif nitq hissələrinə aid olub, lakin özlərinin bir və ya bir neçə qrammatik formalarında səslənən sözlərdir. Bu sözlər öz kökləri etibarilə omonim deyildir, lakin şəkilçilərin köməyi ilə eyni forma (omoform) yaranır. Omoformlarda sözün yeni formaya düşməsi qrammatik tələb əsasında olur. Buna görə də həmin sözlər başqa qrammatik formaya keçəndə onlardakı omonimlik pozulur.

Nümunədə ikinci bəndin birinci misrasında omonim yaradan sözün kökü **od**-dur, **-a** yönlük halın şəkilçisidir. İkinci misrada **o** üçüncü şəxs əvəzliyi, "dayandırdı" sözü feldir. Bu misradakı **o dayandırdı** ifadəsi digərlərindən fərqli olaraq, məna və morfoloji tərkibcə müxtəlif, yazılışca fərqlidir. Tələffüz, səslənmə baxımından bir-birinə uyğun gəlir. Omonimlərin dilimizdə mövcud olan bu növü omofon adlanır. Üçüncü misrada **od** sözün kökü, **-a** isə yönlük halın şəkilçisidir.

Aşıq Mikayıl Azaflı omonimlərin müxtəlif qruplarından istifadə etməklə təcnisin qıfılbənd, gedər-gəlməz, ikibaşlı, cığalı, ayaqlı, baş və ya qara, nöqtəsiz, divani dodaqdəyməz, diltərpətməz və s. növlərində qələmini sınamış, çox dərin məzmunlu əsərlər yaratmışdır. Aşığın "Qara düşəndə" cığalı təcnisindən bəzi misralara nəzər salaq:

Azaflı, sənindi dərd, qəm, **a zar**, hey,
Naxələf nankoru tutsun **azar** hey.
Aşıq deyər **a zar** hey,
Saxla namus, **az ar** hey.
Vəfasıza inanma,
Düz dolanmaz, **azar** hey.
Qəza tutsa, gəmin göldə **azar**, hey,
Qədər yıxar boran, qara düşəndə (2, 374)

Aşıq Mikayıl Azaflı "a zar" sözünün omonim variantlarını təcnisin bu bəndi daxilində işlədərək maraqlı bir məzmun yaratmışdır. Bu məzmun obrazlı deyim tərzi, fəlsəfi məna tutumu ilə daha da dolğunlaşır.

Təcnisin birinci misrasında, eləcə də cığa bəndin birinci misrasında "a zar "ifadəsi dərd, qəm sinonimlərinə mənaca yaxın olan "zarıltı, inilti, sızıltı" mənalarını bildirir. İkinci misrada "azar" sözü "xəstəlik" sözünün sinonimi kimi mənalandırılır. Təcnisin cığa bəndinin ikinci misrasında "az" qeyri-müəyyən miqdar sayı, "ar" isimdir, "həya", "namus" sözlərinin sinonimidir. Cığa bəndin dördüncü misrasında və sonrakı misrada "azar" sözlərinin kökü "azmaq" məsdəridir, **-ar** şəkilçisi isə qeyri-qəti gələcək zamanın morfoloji əlamətidir. Böyük məharətlə yaradılmış cığalı təcnisdə leksik omonimlərlə yanaşı, omofon, omoqraf və omoformlardan da istifadə edilmişdir. Aşığın poeziyasında işlədilmiş omonimlərin əsas linqvistik əlamətlərini nümunə kimi verdiyimiz cığalı təcnisin bu bəndindən də görmək mümkündür.

Fəlsəfi tutumu ilə seçilən misralarda omonimlərdən istifadə etməklə ustad aşıq dilin ən dərin qatlarına baş vurur, şeirin bədii ifadə imkanlarını zənginləşdirir. Müəllif bu semantik söz qrupu ilə poetik fikrin, ideyanın dərkini asanlaşdırır, oxucunu düşünməyə vadar edir. Şair-aşıq vəfasız insanların dolanbac yollarda azmasını qəza nəticəsində gəminin göldə azması ilə əlaqələndirir, insanla təbiəti eyniləşdirir.

Başqa bir təcnisə (“Atalar”) nəzər salaq:
Qəhər dəryasında çəkər **can avar,**
Öz yerində dayaq olar **cana var.**
Yüz sürüyə çoban olsa **canavar,**
O xaindir, qoymaz, qırar, a talar (2. səh. 361)

Nəzərdən keçirdiyimiz omonim cərgə üç müxtəlif məna verən sözlər vasitəsilə yaradılmışdır. Bu sözlər yazılış etibarilə də fərqlidir. Yalnız səslənməsinə görə omonimlər (omofonlar) adlanır. Belə tipli omonimlərin də omonimliyi təsadüfi xarakter daşıyır.

Birinci misrada aşıq çox maraqlı metafora yaratmışdır. Qayıqla dənizdə, dəryada avar çəkərlər, qəm dəryasında yox! Həm də qayığın kürəyi ilə avar çəkilər, canla yox!

Bu misrada omonimlik yaradan **can** və **avar** (avar çəkmək) sözləridir.

İkinci misrada sözün kökü “**can”**dır, **-a** yönlük halın şəkilçisidir, **var** isə “mal, mülk, dövlət, imkan” mənasını verir. Yəni cana var-dövlət dayaq olar.

Üçüncü misrada isə sözün kökü elə **“canavar”** dır, mənası da aydındır.

İstər bayatılarda, istərsə də Aşıq M. Azaflının poeziyasında omofonlar digər tiplərə nisbətən çox geniş və rəngarəng şəkildə işlənir. Bu, hər şeydən əvvəl omofonların cinas qafiyələrin yaradılmasında əsas və həlledici funksiya daşıması ilə əlaqədardır.

Aşıq Mikayıl Azaflının poeziyası omonimlərin mənşəyinə və müxtəlif tiplərinə aid külli miqdarda nümunələrlə zəngindir. Fəlsəfi və bədii təfəkkürün məhsulu olan bu ecazkar söz dünyası Müasir Azərbaycan ədəbi dilinin semantik söz qruplarının hərtərəfli araşdırılması, onların üslubi məqamlarının tədqiqi üçün zəngin və qiymətli material verə bilər.

Ədəbiyyat

1. Bayatılar. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı. 1960
2. Mikayıl Azaflı. Qoca Azaflıyam. Bakı. “Nurlan” 2008
3. A. Qurbanov. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı. “Nurlan”. 2003
4 S. Cəfərov. Müasir Azərbaycan dili. II hissə(leksika). Bakı. 1982

Р.Гумматова

Омонимы, использованные в поэзии Ашыга Микаил Азафлы

Резюме

В статье рассмотрены стилистические особенности омонимов, которые были использованы в стихах Ашыга Микаила Азафлы.

Слова омонимы являются одним из средств художественного выражения, часто используемого в художественном творчестве.

На основе лексических и грамматических омонимов и омофонов ашуг слогает нежные, миниатюрные музыкальные рифмы, создает характерные для художественного слогания созвучия.

Используя омонимы, мастер ашуга обращается к самым глубинным истокам ашугского языка, обогащает возможности художественного выражения стиха.

Автор этой группой семантического слова упрощает восприятие поэтической мысли и идеи, побуждая читателя к размышлениям.

В поэзии ашуга посредством как лексических, так и грамматических омонимов были созданы различного стиля рифмовые слогания.

R.Gymmatova

Used homonyms in Mikayil Azafli's poetry

Summary

In the article was explained stylistic moments of the homonyms which hass been used Ashug Mikayil Azafli's poems.Using from the homonyms and it's different types the ashug greates CINAS that are characteristics for the artistic speech.

Rəyçi: Kamil Bəşirov
filologiya üzrə fəlsəfə doktoru

ƏDƏBİYYATŞÜNASLIQ

HÜSEYN HƏŞİMLİ
Naxçıvan Dövlət Universiteti
filologiya üzrə elmlər doktoru, əməkdar elm xadimi
e-mail - hashimli-h@rambler.ru

"ŞEYPUR" JURNALINDA ERMƏNİ FİTNƏKARLIĞININ İFŞASI

Açar sözlər: Azərbaycan ədəbiyyatı, "Şeypur" jurnalı, poeziya, publisistika
Key words: Azerbaijan literature, "Sheypur" journal, poetry, publicism
Ключевые слова: Азербайджанская литература, журнал «Шейпур», поэзия, публицистика.

İyirminci əsrin əvvəlləri Azərbaycan mətbuatının öyrənilməsi sahəsində indiyədək mühüm işlər görülmüş, bir çox ciddi tədqiqatlar ortaya çıxmışdır. Lakin bu vaxtadək elmi fikrin diqqətindən kənarda qalan, əhatəli araşdırma predmetinə çevrilməyən mətbuat orqanları da vardır ki, onlardan biri də "Şeypur" jurnalıdır. 1918-19-cu illərdə Bakıda çıxmış bu jurnalın müdiri (redaktoru) görkəmli maarifçi Məhəmmədtağı Sidqinin oğlu, tanınmış jurnalist və publisist Məmmədəli Sidqi, naşiri isə istedadlı ədib Səməd Mənsur idi.

Jurnal haqqında indiyədək yalnız bəzi qısa mülahizələr söylənilmişdir ki, bunların da çoxu qeyri-dəqiq, yaxud da birtərəflidir. Prof. N. Axundov "Azərbaycan satira jurnalları (1906-1920-ci illər)" adlı monoqrafiyasında "Molla Nəsrəddin"i və digər satirik mətbuat orqanlarını tədqiqə cəlb etdiyi halda, "Şeypur"u "əksinqilabi mahiyyət daşıyan, burjua-mülkədar hökmranlığını müdafiə edən "gülgü" jurnalı" sayaraq ondan danışmağı məqsədəuyğun bilməmişdir **(2, s. 3)**. Söylənilmiş qısa mülahizələrdə faktiki yanlışlıqlar da vardır. Məsələn, "Azərbaycanda dövri mətbuat (1832-1920)" adlı biblioqrafiyada "Şeypur" jurnalının cəmi 12 sayının çıxması, son sayın da 4 yanvar 1919-cu ilə aidliyi bildirilir **(1, s. 71).** Prof. N. Ələkbərli Səməd Mənsura həsr etdiyi "Bir ömrün rəngləri" kitabında "Şeypur"un cəmi 13 sayının çıxması fikrini irəli sürmüşdür **(4, s. 8).** M. Məhəmmədzadə "Azərbaycan türk mətbuatı" adlı əsərində "Şeypur"un 1918-ci ilin sentyabrından sonra nəşrə başladığını, 1919-cu ilin ortalarınadək davam etdiyini nəzərə çatdırmışdır **(5, s. 78).** A. Aşırlı isə 1919-cu ilin 8 yanvarından jurnalın nəşrinin dayandığını yazmışdır **(3, s. 224).**

Araşdırmalarımız göstərir ki, "Şeypur" jurnalının cəmi 14 sayı çıxmışdır, onlardan 11-i 1918-ci ilə, 3-ü isə 1919-cu ilə aiddir. Jurnalın ilk sayı 5 oktyabr 1918-ci ildə, son sayı isə 18 yanvar 1919-cu ildə işıq üzü görmüşdür. Həftədə bir sayı çıxan bu jurnal Bakıda elektrik "Turan" mətbəəsində nəşr olunurdu.

"Şeypur"un səhifələrində müxtəlif gizli imzalara rast gəlirik: Şeypur, Pompuşalı, Kənarçı Pompuşalı, Qarınqulu, Günahkar, Yaftım, Yaftıməli, Mömin çinovnik, Müxbiriniz mömin çinovnik, Xəbərçiniz Hacı Badamalı, Müxbiriniz Qarapapaq, Həzrət, Dağlı, Dağlızadə, Qoçu Mauzerzadə, Bakılı, Sərgərdan, Dərdmənd,

Müxlisiniz Dərdmənd, Mürtəd, Qozqurab bəy, Lağlağı, Təəsübkeş, Dəyənək, Sırtıq, Diplomat, Diplomatüddövlə, Mərqub, Düzəldən, Dilfərib, Özciyəzim, Müsafir, Bir naxoş, Teatrçı, Aktyor, Sabiq spekulyant, Nağılçı, Köhnə qıyıq, Həsrətəli, Hərbi müxbir, Bakı modaçısı, Azərbaycanlı, Müxlisiniz Fısdırıq, Sahir bəy, Hacı leylək, Biz və s. Jurnalın "Teleqraf xəbərləri", "Poçta qutusu", "Şeypur"un lüğəti" kimi rubrikalarındakı materiallar imzasız verilmişdir.

"Şeypur" dakı Pompuşalı, Kənarçı Pompuşalı imzalarının Səməd Mənsura; Dağlı, Dağlızadə imzalarının Cəfər Cabbarlıya; Mömin çinovnik, Müxbiriniz mömin çinovnik, Xəbərçiniz Hacı Badamalı imzalarının Salman Mümtaza aidliyi bəllidir.

Jurnalda "Şeypur" imzası ilə verilmiş çoxsaylı məqalə və felyetonlardan bir neçəsi S. Mənsurun 2006-ci ildə çap olunmuş "Seçilmiş əsərləri"nə daxil edilmişdir **(7, s. 207 və s.).** Fikrimizcə, bu, doğru deyil. Əvvəla, onu deyək ki, jurnalın ilk sayı məhz "Şeypur" imzasıyla verilmiş "Altı ay" adlı məqalə ilə açılır. Dərginin əsas məram və məqsədini ifadə edən proqram xarakterli bu məqalənin redaktor M. Sidqi tərəfindən yazılması daha ağılabatandır. Digər tərəfdən, məşhur salnaməçi Qulam Məmmədli "İmzalar" kitabında "Şeypur"dakı "Şeypur" imzasını Məmmədəli Sidqiyə aid etmişdir **(6, s. 110**) və bizcə, bu, daha əsaslıdır. Çünki Q. Məmmədli "İmzalar"ın əvvəlindəki "Bir neçə söz"də M. Sidqi ilə uzun illər davam edən yaxınlığını, əməkdaşlığını, həmçinin kitabı hazırlayarkən müxtəlif imzaların toplanılması və dəqiqləşdirilməsində bir sıra digər ziyalılarla yanaşı, Məmmədəli Sidqinin də vaxtı ilə ona kömək etdiyini yazmışdır **(6, s. 12-16).** Başqa imzaları dəqiqləşdirməyə kömək göstərən M. Sidqi, sözsüz ki, özünə aid imzalar barədə də Q. Məmmədliyə dürüst məlumat vermiş olmalı idi. Yəni "Şeypur" jurnalındakı "Şeypur" imzasının məhz M. Sidqiyə məxsusluğunu deməyə tam əsas var.

Onu da deyək ki, Məmmədəli Sidqi mətbuat sahəsində uzun illər səmərəli fəaliyyət göstərmişdir. M. Sidqi hələ 1910-11-ci illərdə "Molla Nəsrəddin" jurnalında redaktor köməkçisi olmuş, o dövrdə bu jurnalla yanaşı, "Tazə həyat", "İqbal", "Yeni iqbal", "Bəsirət", "Tuti", "Zənbur", "Azərbaycan" və digər mətbuat orqanlarında müxtəlif mövzularda çoxsaylı məqalələr və felyetonlar dərc etdirmiş, sovet dövründə də yaradıcılıqdan uzaqlaşmamışdır. Lakin onun bədii-publisistik irsi, o cümlədən "Şeypur" jurnalındakı fəaliyyəti indiyədək araşdırılmamışdır.

Jurnaldakı materiallarla ətraflı tanışlıqdan sonra deyə bilərik ki, "Şeypur"a sovet dövründə uzun illər boyu birtərəfli, laqeyd münasibət bilavasitə onun mövzu-ideya mündəricəsi, izlədiyi qayə ilə bağlı idi. İctimai-siyasi hadisə və proseslərə aydın mövqedən münasibət bildirən jurnal Vətən və xalq taleyi üçün xüsusi önəm daşıyan məsələlərə həssaslıqla yanaşır, milli mənafelərin ardıcıl müdafiəçisi kimi çıxış edirdi. Xüsusən Azərbaycanın yenidən işğalına yönələn rus bolşevizminin əsl mahiyyəti, onlara və digər havadarlarına arxalanan ermənilərin fitnəkar əməlləri, əsassız torpaq iddiaları, 1918-ci ilin martında soydaşlarımıza qarşı törətdikləri qanlı qırğınlar "Şeypur"un səhifələrində tutarlı faktlar və əhatəli təhlillər vasitəsilə öz ifadəsini tapmışdır.

Səməd Mənsurun 5 oktyabr 1918-ci il tarixli ilk sayda "Pompuşalı" imzasıyla verilmiş "Qaçmaq günüdür" şeirində Azərbaycan və türk silahlı qüvvələrinin Bakını azad etmək üçün birgə hərbi əməliyyatları alqışlanmış, torpaqlarımızdan çəkilməyə məcbur qalan ingilis və erməni bölüklərinə ironiya ilə xitab olunmuşdur:

Deyirdin Bakı, Dərbənd, Dağıstan sənin olsun,
Tiflis də sənin, Qars da sənin, Van sənin olsun,
"Hayrik" olasan, cümlə "Hayıstan" sənin olsun,
Türk qoymadı, əfsus, bir ovdan sənin olsun.
Qaçmaq günüdür, ingilis! Osman gəliyor! Arş!
Qaçmaqda Mıkırtıç sənə, Hartun sənə yoldaş!

(8, s. 1)

Həmin sayda "Şeypur" imzalı müəllifin "Altı ay" adlı məqaləsi də diqqəti çəkir. M. Sidqinin həmin məqaləsi jurnalın əsas məramnaməsi, proqram sənədi də sayıla bilər. Burada həftəlik jurnalın əsas hədəfləri, başlıca qayəsi öz ifadəsini tapmışdır. Müəllif əsas diqqəti xalqımıza qarşı törədilmiş 1918-ci ilin qanlı mart qırğınından ötən altı aya yönəldərək həmvətənlərinə xitabən yazırdı:

"Altı aydır ki, gülməmisən. Mart hadisatından, bolşeviklərin təbirincə, vətəndaş müharibəsindən sonra suya batmış toyuq kimi suyu süzülə-süzülə bir tərəfdə qalmışdın. Öz şəhərində, öz evində özgə yerdən gəlmişlərin əli altında əzilirdin. Küçədən keçəndə küçə dibi ilə yeriyib, öz ana dilində danışmağa ehtiyat edirdin..." **(8, s. 2).** Göründüyü kimi, M. Sidqi mart hadisələrini vətəndaş müharibəsi sayan bolşeviklərin də iç üzünü qısa, lakin mənalı ştrixlə açmışdır. Həmin sayda "Yaftım" imzasıyla verilmiş "Zəbani-hal" adlı şeirdə isə bolşeviklərin, Şaumyan kimi maskalı daşnakların Bakıdakı qanlı cinayətləri nəzmə çəkilmişdir:

Axdırdığın, ay bolşevik, al qan səni boğsun!
Pulsuz-pinəsiz içdiyin şampan səni boğsun!
Pislik niyə etdin, a Şaumyan, səni boğsun!

(8, s. 7)

İlk sayda "Şeypur"un lüğəti" başlıqlı satirik şərhlərdə də ermənilərin iç üzü açılmışdır. Bir izahda deyilir:

"Vperyod- əslən rus sözü olub, bu axır vaxtlar ermənilər onu çox istemal edirdilər. Bu sözün əsl mənası "Qabağa" deməkdir. Amma nədənsə ermənilər onu tərsinə başa düşüb, "Dala" deyə işlədirdilər. Qədim zamanlarda erməni daşnakları həmin adda Bakıda bir qəzetləri də çıxarırdılar. Müsəlmanlara müraciətən hər gün "şirin-şirin" məqalələr yazmaqda idi" **(8, s. 8).**

3-cü saydakı "Teleqraf xəbərləri"ndə milli qüvvələrin Bakını yadellilərdən azad etməsindən əndişələnən ermənilərin məkrli siması ifşa olunmuşdur:

"Zəngəzur - Ermənistanın sütunu olan Andranik Bakının alınması xəbərini eşitcək canını bədənindən çıxarıb, tezliklə özünü Bakıya yetirmək üçün propusk alıb havaya qalxdı. Andranikin keçəcəyi yollara xəbər verildi ki, hər yerdə onu müşayiət etsinlər. Şuşa- Dünən Andranikin ruhu qara paltarda Şuşa şəhəri üzərindən Bakıya tərəf keçdi. İrəvan- Andranikin ruhunun Bakıya tərəf getməsi xəbəri alınan kimi ermənilər tərəfindən Hamazaspa təbrik teleqrafları göndərildi. Andranikin ruhu Bakıdan qayıdana qədər onun cəmdəyini saxlamaq lazım gəldiyindən İrəvandan Zəngəzura bir dəstə nümayəndə göndərildi ki, Andranikin cəmdəyini İrəvana gətirsinlər" **(9, s. 4).**

3-cü saydakı bir şeirdə mart hadisələrində ikibaşlı oyun oynayan bəzi qüvvələrin, həmçinin Andranik, Hamazasp kimi düşmənlərin mənfur siması satirik biçimdə üzə çıxarılmışdır. "Sərgərdan" imzalı həmin əsərdə (bu imzadan o illərdə Əliab-

bas Müznib daha çox istifadə etmişdir) bolşevik-daşnak qüvvələrin Azərbaycana qarşı birləşməsi kimi tarixi faktlara diqqət yetirilmişdir:

Ay kirvə, xəbər var ki, Şaumyan gələcəkdir,
Əldə yeni mandatla Avakyan gələcəkdir.
Yanında müavin Avanes, Artun, Əzizbəy,
Alyoşa, Dadaş, Sərkis, Akopyan gələcəkdir.
(9, s. 6)

Dördüncü sayda "Şeypur" imzası ilə dərc olunmuş "Tiflis duması" adlı məqalədə "sosialist dərisi örtmüş daşnakların" mart hadisələri haqqında uydurmalar yayması, Gürcüstandakı müəyyən dairələrin, xüsusən sol eserlərin (sosialistlərin) də onlara dəstək verməsi ürək ağrısı ilə dilə gətirilmişdir. M. Sidqi bolşeviklərin ermənilərı dəstəklədiyini, azərbaycanlılara münasibətdə ayrı-seçkilik etdiyini, həmvətənlərimizin əksinqilabçı adıyla qırdırıldığını da diqqət mərkəzinə çəkmişdir:

"Qafqaz islam əhalisi hamısı "kontrevolyusioner", yəni əksinqilabçı olduqlarına görə onların qətli vacibdir. Lakin kirvələr əsl həqiqi sosialist, yəni cibgir olduqlarından onlar lazımlı adamlardırlar. Özləri də azdırlar... Onlara əl gəzdirib azaltmaq yaxşı deyildir" **(10, s. 2-3).** Müəllif əsl vətəndaş yanğısı ilə belə bir haqlı sual verir: "Amma bircə burası var ki, bilmirəm, bu "rəhmli ağalar" bir neçə ildə bütün Qafqaziyada müsəlman qanı çay kimi axanda harada idilər?" **(10, s. 2).**

Jurnalın 5-ci sayındakı "Rəsmi-güşad" adlı yazıda azərbaycanlılarda düşmənə qarşı birliyin, səfərbərlik ruhunun güclü olmasının vacibliyi önə çəkilmiş, eyni zamanda mart hadisələrindən danışılarkən erməni namərdliyinin iç üzü konkret şəkildə açılmış, onların "müsəlmanları qırması, evləri çapıb talaması, bazarları yandırması" nəzərə çatdırılmışdır. Bu saydakı "Taziyanə" adlı şeir parçasında da "Bakı yandı, millət qırıldı" harayı eşidilir.

6-cı sayda "Şeypur" imzalı müəllifin "Nə istəyirlər?" adlı məqaləsində də erməni xislətinin böhtankeş mahiyyəti önə çəkilmişdir:

"Erməni kirvələrin qədimdən bəri bir adətləri vardır ki, bir şey olan kimi elə bağırardılar ki, səsləri birbaş Yevropaya gedərdi. Yevropanın başı qarışıq olduğuna görə indi də Ermənistanın Tiflisdə olan vəkili Camaliyan əlini qulağının dibinə qoyub Kiyev komissarına qışqırır ki, - Adə, ay dığa! Qoyma, Gürcüstanda olan erməni qaçqınları soyuqdan, aclıqdan qırıldı ... Tiflisdə çıxan erməni qəzetləri bütün Qafqaziyanın Ermənistana verilməsindən ötrü müharibə edib qırılan ermənilərin tələf olmasından ... uzun-uzadı məqalələr yazmaqdadırlar" **(11, s. 1)**.

Lakin M. Sidqi təkzibolunmaz faktlarla göstərir ki, ermənilər özləri qırğınlar, vəhşiliklər törədir, sonra isə başqalarını borclu çıxarırlar:

"O gün Gəncədən iki teleqraf gəlib ki, erməni saldatları Göyçə sərhəddini keçib müsəlmanlara hücüm etmişdirlər. Altmış min müsəlmanın irzü namusu, həyatı, malı və mülkü təhdid edilir. İndi Tiflisdə olan Camaliyana və erməni qəzetlərinə deyəsən ki, balam, bu nə əhvalatdır? Özlərini eşitməməzliyə vurub deyəcəklər ki, qoymayın, erməni milləti qırıldı, qurtardı...Xülasə, erməni kirvələr çox ərköyün bəslənmişlər. Onlar deyir ki, biz hər nə eləsək, siz danışmayın. Ancaq siz bir balaca əl tərpətsəniz, qiyamət qopardarıq" **(11, s. 2).**

6-cı saydakı "Bir diplomat ilə müsahibə"də də erməni quldurların günahsız azərbaycanlıları qətlə yetirməsi nəzərə çatdırılmışdır:

"Erməni cümhuriyyətinin müsəlləh qüvvəsi Andranik başda olmaqla xırda uşaq-muşaqları qırmaqla rəşadətini göstərir" **(11, s. 5).**

7-ci sayda "Mərqub" imzasıyla verilmiş "Təqsirkar gücsüzdür" adlı məqalədə 1918-ci ilin mart hadisələrində daşnakların təkcə Bakıda 13 min azərbaycanlını əsir götürməsi, onların ev-eşiyini talan etməsi barədə danışılır:

"Bu on üç min nəfərin evi, məlum olduğu kimi, Caparidze və Məşədi bəyin söylədiyinə görə, talanlanmışdır. Aparılan aparılıb, yerdə qalan stəkan, nimçə kimi şeylər sındırılmışdı. Bu bolşeviklərin dediyi... Daşnaksaqanlar Bakının neftini, benzinini, cövhərini, hökumət idarələrində olan nəqdiyyələrini, manufakturanı... və qeyrini paraxod rabatay... Əhaliyə məxcsus olan paraxodlar da üstəlik getdi" **(12, s. 4-5).** Məqalədə o da vurğulanır ki, ermənilərin törətdiyi vəhşilik və talanın miqyası daha böyük olmuş, bolşeviklər isə "camaatı həyəcana gətirməmək üçün birə üç dəfə az demişlər" **(12, s. 4).**

8-ci saydakı "Bu gün" məqaləsində isə Andranikin "Qarabağda müsəlmanları qırmağa başlaması", Ermənistan hökumətinin ona dəstək verməsi, ermənilərin əsassız iddiaları nəzərə çatdırılmışdır:

"Həyasız adamdan hər nə desən, baş verər. Bu həyasızlardan biri də Ermənistan hökumətinin baş komandanı Andranik kirvədir ki, yenə Qarabağda baş qaldırıb müsəlmanları qırmağa başlamışdır. Ermənistan hökuməti də gözlərini yumub, əli lilə işarə eləyir. Ermənistan hökumətinin nə tövr siyasət yeritdiyini və nə fikirdə olduğunu təfsir etmək artıqdır. Bu hökumət deyir ki, Qafqazda Gürcüstan və Azərbaycan ola bilməz. Burda ancaq bir Ermənistan ola bilər. Qafqazın hamısı ya gərək Ermənistan olsun, ya da Ermənistana tabe kimi bir şey olsun **(13, s. 2).**

Məqalə müəllifi "Şeypur" (M. Sidqi) onu da vurğulayır ki, Tiflisdə çıxan "Qruziya" qəzeti Upuçnin adlı rus yazıçısının "Keçmiş xülyalar" adlı məqaləsini öz səhifələrində dərc etməklə ermənilərə cavab vermək istəmişdir. "Azərbaycan" qəzeti də həmin məqalənin tərcüməsini dərc etmişdir. Bu məqalədə Upuçnin aşkar şəkildə yazır ki, Qafqazda Ermənistan adlı bir şey olmayıbdır. Ruslar Qafqazı tutanda burada bir Gürcüstan olub, bir də Azərbaycan xanlıqları... Həmin saydakı "Teleqraf xəbərləri"ndə, eləcə də "Özciyəzim" imzasıyla verilmiş "Azərbaycan" adlı məqalədə Andranikin və Biçeraxovun Zəngəzur və Cəbrayıl qəzalarında soydaşlarımıza qarşı qırğınlar təşkil etməsi, Ermənistanın Kaçaznuni hökumətinin buna dəstək verməsi faktları önə çəkilmişdir.

Bu sayda "Kənarçı Pompuşalı"nın (Səməd Mənsurun) "Ziyalılarımız" felyetonunda bolşevik-daşnak qüvvələrinin azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğınlardan danışılmış, həmçinin tarixi saxtalaşdıran, hətta Nuh peyğəmbərin, Adəm ilə Həvvanın erməni olduğunu iddia edən ermənilərin cəfəng uydurmaları satirik tənqid hədəfinə çevrilmişdir:

"Daşnak deyir ki, bir vaxt dünyada Tursiya-mursiya, Qafqaz-mafqaz, İran-miran olmayıb. Tamam bir Armeniya olub...Daşnak deyir ki, Nuh peyğəmbər erməni idi. Dünyanı su basanda gəmisi ilə gəzirmiş. Birdən bir quru yer görür. Deyir ki, iro! Yəni görünür, görünür. Sonra çıxır o yerə. Başlayır orada yaşamağa. O yerin adı İrəvan olur. Sonra da başlayır balalamağa. Yavaş-yavaş ermənilər tamam bu yerləri tutur... Nuh rəhmətə gedəndən sonra türklər, gürcülər, iranlılar qırğı kimi birdən çıxıb onların "veliki sarstvasını" uniçtojit eləyirlər... Hələ deyirlər ki, Adəm ilə Həvva erməni idi... Znaçit, Adəm erməni, Həvva armiyanka. Nuh da erməni. Kak

vidno, dünyada erməni olmasaydı, heç çeloveçestvo olmaz idi... Bunlar hamısı müsəlman qırmaqdan ötəri imiş ki, öz Nuhdan qalma yerlərini təmizləyib əllərinə alsınlar... Onlar deyir ki, bu yerlər bizim babamız Nuhun kupçili yerləridir... Qoy hələ Nuhun yerlərini alıb qurtarsınlar. Sonra Adəmin də yerləri üçün advokat tutub okrujnoy suda proçeniya verəcəklər" **(13, s. 6).**

Jurnalın 9-cu sayındakı "Siyasət" adlı məqalədə də (müəllifi "Şeypur"- M. Sidqi) bədnam Andranikin törətdiyi qırğınlardan danışılır. Həmin sayın "Teleqraf xəbərləri"ndəki tarixi faktlar isə "Bakı-Şamaxı mahalında mart hadisələrində 50 min müsəlmanın qanını axıdan Styopa Lalayevin", həmçinin Qarabağda məskunlaşmış ermənilərin iç üzünü açır. O da vurğulanır ki, daşnaklar mart hadisələrində bolşevik cildinə girərək azərbaycanlıları əksinqilabçı kimi qələmə verməklə onları qırmalarına haqq qazandırmaq istəmişlər **(14, s. 4).** Jurnalın 10-cu sayındakı "Teleqraf xəbərləri"ndə də Andranikin vəhşilikləri faktlarla ifşa olunmuşdur **(15, s. 2).**

11-ci saydakı "Gürcü-erməni vuruşması" adlı məqalə də siyasi kəskinliyi və o dövrün hadisələrinin obyektiv təhlili ilə səciyyələnir. Məqalə müəllifi M. Sidqi sərhəd məsələlərini və digər mübahisəli mətləbləri müzakirə etmək üçün Tiflisdə keçirilməsi nəzərdə tutulan konfransda iştirakdan hər dəfə bir bəhanə ilə boyun qaçıran ermənilərin əsassız mövqeyini, gürcülərə qarşı da iddialar irəli sürmələrini, vəhşi daşnakların Borçalıdakı soydaşlarımıza da divan tutduqlarını ifşa etmişdir. Təhlillər sonunda müəllif belə nəticəyə gəlir ki, bütün bu oyunlar "Ermənistana Ermənistan verilməsinə", yəni Qafqazda qondarma Ermənistan formalaşdırılmasına yönəlmişdir **(16, s. 3).** Bu saydakı "Havadan qapılmış xəbərlər"də ermənilərlə gürcülər arasında keçirilən Sinain konfransından, ermənilərin Gürcüstan parlamentindəki siyasi riyakarlığından, Qafqazın müxtəlif bölgələrində soydaşlarımıza qarşı törətdikləri qətllərdən bəhs olunur. 12-ci saydakı "Teleqraf xəbərləri"ndə də ermənilərin şərəfsiz əməlləri barədə bəzi faktlara rast gəlirik **(17, s. 2)**

13-cü sayda "Azərbaycanlı" imzasıyla verilmiş "Erməni yuxusu" adlı maraqlı felyeton daşnakların yalanlarına səciyyəvi nümunədir: Vaqonda Tiflisdən Bakıya gələn bir erməni yatıb yuxuda görür ki, Hacıqabulda müsəlmanlar 13 ermənini güllələyiblər. O, yuxusunu digər ermənilərə danışır. Daşnak liderləri yuxuya həqiqət donu geyindirərək Azərbaycan hökumətinə nota verirlər. Araşdırmalar bunun növbəti erməni uydurması olduğunu aşkarlayır. Felyetonun sonunda müəllif fikrini ümumiləşdirərək yazır:

"Qərəz, ermənilərin bu axır vaxt Azərbaycanda otura-otura belə yuxular görməsi Qarabağ, Naxçıvan və Ordubad mahallarında nə hərəkətlərdə bulunması aydın məsələlərdən biridir ki, bu barədə bir çox dəfələr yazılmışdır" **(18, s. 6).**

"Şeypur"un 14-cü sayında "Özciyəzim" imzalı müəllifin "Azərbaycan və İran" adlı felyetonunda dövrün bir sıra mühüm hadisələri ilə yanaşı, qədim Azərbaycan torpaqları olan qondarma Ermənistan ərazisində günahsız yerə qanı axıdılan, şərəfi tapdanan minlərlə soydaşımızın acı taleyinə, həmçinin ermənilərin riyakar oyunlarına sərt münasibət ifadə olunmuşdur:

"Daşnaklar Hayastan məmləkəti dairəsində yüz minlər ilə nahaq yerə qanı axıdılan, namus və irzi paymal olan müsəlmanlar şayəd birdən hökumətə üz tutub desə ki: "A kirvə! Axı belə hökumət aparmaq olmaz. Bunca zülm və qədər Afrika vəhşilərinə belə yaraşmaz, əlbəttə, bu, dövlətə xəyanətdir. Amma üç erməni bir yolda iki adamın yolunu kəsib libasını alsa, yainki bir kəndin ermənisi bir karvan ar-

vad-uşağı qiymə-qiymə doğrasa, yainki bir xain, cani, qaniçən, adam əti yeyən başına bir neçə min özü kimi vəhşi yığıb, kəndləri, qəsəbələri oda və qurşuna tutsa, əlbəttə, bu iş inqilabçılıq və bu işi görənlər inqilab qəhrəmanı, hürriyyət fədakarı, azadlıq pəhləvanlarıdırlar" **(19, s. 2).**

Bu sayın "Teleqraf xəbərləri"ndə ermənilərin Naxçıvan və Ordubada hücum edərək vəhşiliklər törətmələri satirik tərzdə diqqət mərkəzinə çəkilmişdir:

"Andranik öz dəstəsi ilə bərabər Ordubada "qonaq" gələcəkdir. Şəhər əhalisi bu "qonağı" istiqbala hazırlaşır. Ordubad ətrafında olan səngərlərdə tədarük vardır. Səngərlər torpaq ilə içi dolu meşoklar ilə bəzənmişdir...Naxçıvana Andranik deyil, İrəvan tərəfindən "erməni" adlı qonaqlar hərəkət edirlər.... Ordubad şəhərinin Ermənistan olduğunu isbat etməkdən ötrü keçən gün İrəvandan Yevropaya bir heyət göndərildi..." Ermənilərin üzdə vəhşiliklərdən əl çəkdiklərini desələr də daima öz çirkin işlərini davam etdirmişlər: "Zəngəzurda olan ermənilər dəfələrlə müttəfiq dövlətlər nümayəndələri yanında müsəlman kəndlərini dağıtmağı və müsəlman öldürməyi tövbə etdiklərini iqrar etmişdilər. Bu dəfə ermənilər bundan belə tövbə etməyi tövbə etdiklərini hamıya xəbər vermişlər..." "Teleqraf xəbərləri"ndəki başqa bir fakt on minlərlə soydaşımızın qaçqın vəziyyətinə düşməsini diqqət mərkəzinə çəkir: "Qarabağdan xəbər verirlər ki, erməni zəlzələsindən ev-eşikləri dağılıb dərbədər düşən qırx min nəfər qaçqın ordusu Bakı üzərinə yürüş etməkdədir" **(19, s. 3**).

Bu saydakı "Ağrı dağı parlamanında" adlı felyetonun əsasında erməni sosialistlərlə Ağrı dağı arasındakı mükalimə dayanır. Ermənilər hiyləgərliklə "Ararat" adlandırıb özününküləşdirmək istədikləri Ağrı dağından soruşurlar ki, Qafqazın bir hissəsində Azərbaycan hökumətinin qurulmasından xəbərdardırmı? Xəbəri varsa, niyə tədbir görmür? Ağrı dağı isə hər şeydən məlumatının olduğunu və müvafiq tədbir gördüyünü bildirir:

"Odur ki, bu yaxınlarda Qarabağ, Naxçıvan və Ordubad uyezdlərinə hücum edən erməni əsgərlərinin ədədi artırılmışdır". Felyetonun sonluğu ürəkağrıdıcı mənzərə ilə tamamlanır: "Hava soyuq olduğundan iclas burada tamam olur. Məbuslar Ağrı dağının başına çıxıb Araz çayı üstündən İrana qaçmaqda olan ayaqyalın-başıaçıq müsəlman kişi, övrət və uşaqlarına tamaşa etməyə başlar. Gələn iclas Naxçıvan şəhərində təyin edilmişdir" **(19. s. 4).**

Göründüyü kimi, "Şeypur" jurnalındakı çoxsaylı materiallar 1918-1919-cu illərdə nankor ermənilərin azərbaycanlılara qarşı törətdiyi qırğınları, ağlasığmaz vəhşilikləri real faktlara istinadən bədii-publisistik tərzdə əks etdirir. Jurnal ətraflı tədqiqata layiqdir.

Müasir dövr üçün də ciddi əhəmiyyət daşıdığını nəzərə alıb "Şeypur" jurnalının bütün saylarını latın əlifbası ilə nəşrə hazırlayırıq.

Ədəbiyyat

1 .Axundov N. F. Azərbaycanda dövri mətbuat (1832-1920), biblioqrafiya). Bakı: Azərbaycan EA nəşriyyatı, 1965, 178 s.
2. Axundov N. F. Azərbaycan satira jurnalları (1906-1920-ci illər). Bakı: Azərbaycan EA nəşriyyatı, 1968, 356 s.
3. Aşırlı A.A. Azərbaycan mətbuatı tarixi (1875-1920). Bakı: Elm və təhsil. 2009, 296 s.
4. Ələkbərli N.Ə. Bir ömrün rəngləri. Bakı: Elm, 2000, 80 s.

5. Məhəmmədzadə M.B. Azərbaycan türk mətbuatı (çapa hazırlayan, ön sözün və qeydlərin müəllifi A. Bayramoğlu). Bakı: Bakı Universiteti nəşriyyatı, 2004, 83 s.
6. Məmmədli Q. M. İmzalar. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1977, 119 s.
7. Mənsur S. Ə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, 248 s.
8. "Şeypur" jurnalı, Bakı, 1918 , № 1
9. "Şeypur" jurnalı, 1918 , № 3
10. "Şeypur" jurnalı, 1918 , № 4
11. "Şeypur" jurnalı, 1918 , № 6
12. "Şeypur" jurnalı, 1918 , № 7
13. "Şeypur" jurnalı, 1918 , № 8
14. "Şeypur" jurnalı, 1918 , № 9
15. "Şeypur" jurnalı, 1918 , № 10
16. "Şeypur" jurnalı, 1918 , № 11
17. "Şeypur" jurnalı, 1919 , № 12
18. "Şeypur" jurnalı, 1919 , № 13
19. "Şeypur" jurnalı, 1919 , № 14

Huseyn Hashimli

Exposure of the armenian ruse in the "sheypur" journal

Summary

The journal of "Sheypur" takes an important place in the history of Azerbaijan satirist press. But till nowadays this journal hasn`t been investigated. The "Sheypur" journal which was published during the years of 1918-1919 in Baki is investigated for the first time in the article. The author has been investigated the famous Azerbaijan writers Mammadali Sidqi`s, Samad Mansur`s articles, feuilleton and poems which are about the Armenian`s ruse and bloody genocides against the Azerbaijan people. Today those materials has an important role for to learn the historical reality.

Гусейн Гашимли

Разоблочение армянского клаузничества в журнале «шейпур»

Резюме

Журнал «Шейпур» занимается значительное место в истории Азербайджанской сатирической прессы. Но до сих пор этот журнал оставался неисследуемым. В этом статье впервые привлечено к исследованию сатирический журнал «Шейпур», который издавалься в Баку в 1918-19 годах. Здесс исследовано статы, фельетоны и стихи Мамедали Сидги, Самеда Мансура и других авторов, опубликованные в этом журнале, которые разоблачают клаузные действия, кровопромится армян против Азербайджанского народа в те годы. Эти материалы имеют серезное значение с точки зрения в вявлении исторических реальностей.

Rəyçi: Seyfəddin Eyvazov
filologiya üzrə fəlsəfə doktoru, dosent

NADİR İSMAYILOV
filologiya üzrə fəlsəfə doktoru
(Naxçıvan Dövlət Universiteti)

NƏRİMAN HƏSƏNZADƏ VƏ UŞAQ ƏDƏBİYYATI

Açar sözlər: Azərbaycan ədəbiyyatı, uşaq ədəbiyyatı, Nəriman Həsənzadə
Key words: Azerbaijan literature, children's literature, Nariman Hassanzade
Ключевые слова: Азербайджанская литература, детская литература, Нариман Гасанзаде

Xalq şairi, əməkdar incəsənət xadimi Nəriman Həsənzadə müasir Azərbaycan ədəbiyyatının tanınmış və istedadlı nümayəndələrindən biridir. Əlli ildən artıq zəngin və çoxcəhətli yaradıcılıq yolu keçmiş görkəmli sənətkarın yüksək ilham və istedadla yazılmış şeirləri, poemaları, nəsri, dramları, həmçinin bədii tərcümələri, elmi, publisistik əsərləri ədəbiyyatımızın dəyərli nümunələri sırasına daxildir. İstedadlı ədibin əsərləri özünün ideya-bədii mükəmməlliyi ilə səciyyələnir.

Nəriman Həsənzadə yaradıcılığının müxtəlif mərhələlərində uşaqlar üçün bir sıra maraqlı əsərlər yazmışdır. Bu məqalədə biz şairin müxtəlif illərdə uşaqlar üçün yazdığı bir sıra şeirləri təhlilə cəlb edəcəyik.

Ədəbiyyatşünaslıqda qeyd olunduğu kimi: "N. Həsənzadə çox sadə mətləbləri mənalandırmağı, oxucusuna aşılamaq istədiyi fikri poetik hiss və duyğularla yoğurmağı, əsl sənət aləminə çevirməyi bacarır. Belə şeirlərin gücü insanı həyata çağıran, qurub yaratmağa ruhlandıran, ona nəcib mənəvi və əxlaqi keyfiyyətlər aşılayan yeni fikirlər, poetik hisslər ifadə etməsindədir" **(3, s. 59).**

Bu məziyyətlər şairin uşaqlar üçün qələmə aldığı bədii nümunələrdə də ön planda dayanır. Sadəlik, təbiilik, inandırıcılıq, axıcılıq, rəvanlıq N. Həsənzadənin uşaqlar üçün nəzərdə tutduğu əsərlərdə aşkar şəkildə nəzərə çarpır. Şair çalışmışdır ki, yazdığı əsərlər uşaqların dünyagörüşünə, anlam səviyyəsinə, psixologiyasına uyğun olsun, həmçinin onların marağını, diqqətini cəlb edə bilsin. Deyə bilərik ki, şair öz məqsədinə nail olmuş, uşaqlar üçün ideya-bədii mükəmməlliyə malik dəyərli əsərlər yazmışdır. Ümumiyyətlə, "60-70-ci illərdə ədəbi aləmdə öz dəst-xətti ilə tanınan istedadlı şairlərdən Ə. Kərim, Ə. Kürçaylı, M. Araz, C. Novruz, N. Həsənzadə, X. Rza, F. Sadıq və T. Mütəllibovun yaradıcılığında uşaq şeiri xüsusi yer tutur" **(4, s. 329).** Bu mərhələdə Nəriman Həsənzadənin müvafiq yaradıcılıq axtarışları da özünəməxsus əhəmiyyət daşıyır.

N. Həsənzadənin uşaqlar üçün qələmə aldığı əsərlərdən biri "Qızım" şeiridir **(2, s. 166).** Həmin şeirdə şair əvvəlcə yenicə dil açan körpə qızını təsvir edir, onun təzə, səliqəli geyimini, gözəlliyini məxsusi vurğulayır:

Xına yaxdıq əllərinə,
Lent bağladıq tellərinə.
"Ata", - deyən dillərinə
Mən "can", - dedim,- "ay can", - qızım,
Umdu-küsdü anan qızım.

Corabın var alabəzək,
Köynəyin var çiçək-çiçək.
Ata qara, bala göyçək,
Gəl öpüşək, gözəl qızım,
Gəl gülüşək, gözəl qızım.

Lakin əsərdəki bədii qayə bununla məhdudlaşmır, bənddən bəndə keçdikcə poetik təqdimin yeni qatları açılır. Şair dişləri yenicə çıxan balaca qızcığaz üçün el ənənəsinə, qədim adətə uyğun olaraq diş hədiyi qoyulduğunu da bildirir:

Qucağına ayın sığmaz,
Filin də var, səni yıxmaz.
Sədəf dişin çıxar-çıxmaz
Hədik asdı anan, qızım,
Şeytan balam, şeytan qızım.

Əsl mətləb, başlıca ideya son bənddə açılır. Şair qızını ən müxtəlif bədii vasitələrlə təsvir etsə də, onu "qara atanın göyçək balası", "kənd oğlunun şəhər qızı" kimi səciyyələndirsə də ən vacib məsələ onu sayır ki, bu körpənin dünyaya gəlişi ilə Azərbaycan qızlarının sırasına biri də əlavə olunmuşdur, yəni bu körpə gələcəyin vətəndaşıdır. Belə sonluq və yozum şeirin ictimai mündəricəsini də dolğunlaşdırmışdır:

Kənd oğlunun şəhər qızı,
Dünyanın bəxtəvər qızı.
Yox, artdı bir azər qızı,
Çox şad oldu atan, qızım.
Qucağımda yatan qızım.

Bəllidir ki, uşaq folklorunun ən qədim janrlarından biri laylalardır. "Xalqın yaratdığı laylalar uşaqlar üçün ən incə, həzin, tərbiyəvi nümunədir. Burada başlıca məqsəd təkcə uşağı ovundurmaq, yuxuya vermək deyil, həmçinin estetik baxımdan ona təsir göstərməkdir" **(1, s. 159).** Yazılı ədəbiyyatımızda da zaman-zaman çoxsaylı müəlliflər tərəfindən müxtəlif səpkili laylalar yazılmışdır. Nəriman Həsənzadənin "Laylay" şeiri də bu baxımdan əlamətdardır. Xalq ədəbiyyatındakı laylaylarda olduğu kimi, bu şeirdə də uşağı yatırtmaq istəyi ilə yanaşı, ona estetik təsir göstərmək məqamı da var. Əsərdə şairin işlətdiyi bədii təsvir və ifadə vasitələri də diqqəti çəkir. Göydə ulduzların sayrışmasının onun yuxusuzluğu, oyaq qalması kimi mənalandırılması, şirin laylanın xoş gələn mehə, küləyə bənzədilməsi və s. bu qəbildəndir:

Göy ulduz-ulduz,
Göy də yuxusuz,
Sən də yuxusuz, gül balam.
Mehdi, küləkdi,
Ən xoş diləkdi şirin laylam.

Yat, gülüm, yat,
Bülbülüm, yat,
Sünbülüm, yat.
Yatır dağ-meşə,
Nərgiz , bənövşə,
Qoşa yasəmən, buz bulaq.

Balaca quzum,
Şəkərim, duzum,
Yat, yuxusuzum, qalma oyaq.

(2, s. 221-222)

Laylay xarakterli bu şeirdəki təbiilik, uşaq psixologiyasına uyğunluq göz qabağındadır. Ədəbiyyatşünaslıqda qeyd olunduğu kimi: "Uşaq otun, çiçəyin, quşun, heyvanın danışığına, Ayın küsməsinə, ulduzların göz vurmasına, şeh düşəndə çiçəklərin üşüməsinə, yarpaqların pıçıltısına, çayların mahnı oxumasına, buludların ağlamasına və s. bu kimi ifadələrin doğruluğuna qətiyyən şübhə etmir" **(5, s. 7).** Bu mənada N. Həsənzadənin "Laylay" şeirində uşağı yatırmaq üçün ona dağın, meşənin, bulağın, gül-çiçəyin də yatdığının deyilməsi məhz uşaq psixologiyasına uyğunluğu ilə səciyyələnir.

Analoji cəhətlər şairin "Xatirə" şeirində də özünü aşkar şəkildə göstərir. Bu əsər də uşaq psixologiyasını təbii şəkildə əks etdirməsi ilə səciyyələnir. Burtada təsvir edilir ki, gecə yarısı yuxudan oyanan qızcığaz oyuncaqlarını istəyir, paltarlarının harada olduğunu soruşur. Suallarına qənaətləndirici cavablar aldıqdan, yəni hər kəsin, hər şeyin yatdığını eşitdikdən sonra isə yenidən yatır:

-Qazım hardadı?
-Qazın yatıbdı.
-Quzum hardadı?
-Quzun yatıbdı.
-Əlcəyim hanı?
-Əlcək də yatır.
-Pencəyim hanı?
-Pencək də yatır.
Kəsdi sözünü,
Yumdu gözünü,
Yatdı Xatirə.

(2, s. 227)

"Heç nə istəməyən qız" şeiri də dialoq əsasında qurulmuşdur. Şeirdə təsvir olunur ki, balaca qız atasından tez-tez müxtəlif oyuncaqlar, əşyalar, paltarlar almasını xahiş edir. Hər dəfəki xahişdən sonra da başqa heç nə istəmədiyini bildirir. Beləcə, arzu arzuya, istək istəyə calanır. Hər dəfə də qız bu istəkdən başqa diləyinin olmayacağını bildirir. Müəllif bu kimi detallarla uşaq psixologiyasını yetərincə açа bilmişdir:

-Ata, gülllü bir corab al,
Heç nə daha istəmirəm.
Sən tülkülü bir kitab al,
Heç nə daha istəmirəm.
Bir plaş al, iki bayraq,
Bir qara zont, bir ağ papaq...
Heç nə daha istəmirəm.
-Qızım, özgə nə alım mən?
-Qırmızı lent, yaşıl qələm,
Heç nə daha istəmirəm.

(2, s. 227)

Nəriman Həsənzadə "Heykəl" şeirində bir-biri ilə oynayan iki uşağı təsvir etmişdir. Onlardan biri faşist, digəri isə bizim əsgərdir. Şair burada maraqlı detallar vasitəsi ilə mənəvi ölümsüzlük amalını önə çəkmişdir.

"Uşaqlar" şeirində isə şair bu fikri aşılayır ki, balacalar savaşar da, barışar da. Onların dalaşıb küsüşməsini böyüklər problemə çevirməməlidirlər. Çünki indi savaşan uşaqlar az müddət sonra yenə birlikdə oynayacaqlar:

Uşaqlar küsüşdü,
Uşaqlar söyüşdü,
Bir az da döyüşdü.
Böyüklər qarışdı,
Ürəklər bulandı.
Uşaqlar barışdı,
Böyüklər utandı.

(2, s. 228)

Tanınmış sənətkarın "Şeytan qız" şeiri də yığcamdır, lakin təbiiliyi ilə diqqəti çəkir. Şair təsvir edir ki, balaca dəcəl qız kiçik qardaşıyla qucaqlaşıb yatır. Amma yuxuda onunla dalaşır, söyüşür. Çox səciyyəvi bir detal!

Nəriman Həsənzadənin bir sıra şeirləri oğlu Nazimin uşaqlıq həyatından bəhs edir. Lakin bu əsərlərdəki ümumiləşdirmə sayəsində onlar bir şəxsin yaşantıları olmaqdan çıxaraq geniş kütləvilik qazanmışdır. "Yuxuda ağlatdılar" şeiri bu baxımdan xarakterikdir. Bütün gün ərzində oyuncaqlarla oynayan, nağıllar dinləyən balaca Nazim yuxuda nağıllar aləminə düşür, Məlikməmmədi, Qorxaq Əhmədi görür, "Cırtdan ilə görüşə, divlər ilə döyüşə" yollanır. Sonra isə oyuncaqları onun yuxusuna girir. Hər oyuncağın da bir zədəsi, yaxud qüsuru var: dovşanın qulağı, dəvənin ayağı, ayının çənəsi qopub, atın başı itdə, itin başı atdadır. Onlar haray salıb bu balaca uşaqdan kömək istəyirlər. Belə səs-küylü yuxu görən uşaq ağlayaraq yuxudan oyanır.

"Həmin sinifdə" şeirində isə Nazimin məktəb yaşantıları maraqlı bədii biçimdə təqdim olunmuşdur. Birinci sinfi başa vurmuş Nazim tətildən sonra məktəbin ikinci sinfinə gedir. Dərsdən sonra evə dönən uşağın bikef olduğunu görən valideynləri bunun səbəbini soruşurlar. Mükalimədən aydınlaşır ki, bu il də əvvəlki sinif otağında dərs keçmələrini o, sinifdə qalmaq kimi başa düşübmüş:

-Sinifdə qalmışam mən....
Bütün sinif qalıbdı.
Hamı "iki" alıbdı.
-Hamı sinifdə qalmaz,
Nazim, belə şey olmaz.
-Axı həmin sinifdə
Dərs keçdik bu dəfə də?!

(2, s. 232)

İstedadlı şairin "Yeddi yaylıq nağılı" şeirində də uşaq sadəlövhlüyü səmimi və təbii detallarla canlandırılmışdır. Yaylıqlarla oynayan uşaq bir müddət sonra onların itdiyini bildirir. Amma əslində belə deyil. Uşaq onların birindən gəlinciyə örpək, birindən köynək, birindən şarf, birindən corab düzəldib. Bir yaylığı onun belinə bağlayıb, digərini lent kimi saçına vurub, çətir düzəltməyi də unutmayıb. Beləcə. "itiklər" tapılır.

Başqa bir bədii nümunədə - "Nazim" adlı şeirdə isə ata oğluna müraciət edərək küsmüş anası ilə barışmağın yolunu göstərir:

Nazim, bir söz deyim,
Sən mənə inan.
Apar zibili at,
Barışsın anan.

(2, s. 232)

Göründüyü kimi, burada bir tərəfdən də uşaqları əməyə alışdırmaq motivi diqqət mərkəzinə çəkilmişdir.

Görkəmli sənətkarın uşaqlar üçün qələmə aldığı "Düz görübsən, atacan" adlı şeiri isə ata ilə balaca oğulun mükaliməsi əsasında qurulmuşdur. Televizor ekranında atasını görən uşaq düşünür ki, yəqin, atası da ekrandan baxaraq onu görüb. Atanın özünü ciddi tutaraq uşağın dediklərini təsdiqləməsi, təkrarən ona deməsi oğlanı daha da inandırır:

-Ekranda gördüm səni,
Sən necə
Gördün məni, atacan?
Divanda?
Harda gördün?
Əlimdə şar da gördün?
Bəs məstan pişiyimiz?
Hardaydıq biz ikimiz?
-Gördüm səni,
Hayanda?
Əlində şar, divanda.
Yanında pişiyimiz,
Baxırdınız ikiniz.

Nazim güldü mehriban,
Düz görmüsən, atacan.
(2, s. 233)

"Hazırcavab" şeiri də ideya-bədii siqləti ilə razılıq doğurur. Bu əsərdə Nəriman Həsənzadə uşaqlardakı əqli çevikliyi, hər sözə tez cavab tapa bilməyi konkret detallar vasitəsilə bədii müstəviyə gətirmiş, axıcı, rəvan bir bədii əsər yaratmışdır. Belə nümunələr uşaqların nitq və təfəkkürlərinin inkişafına da kömək göstərmək imkanlarına malikdir:

-Dondurma al.
-Soyuqdu.
Donarsan.
-Eybi yoxdu.
-Dişin göynəyər.
-Udaram.
-Üstünə batar.
-Tutaram.
-Soyuq dəyər.
-Qaçaram.
-Bərk bükülüb.
-Açaram.
-Buz kimidi.
-Qızdıraq.
-Harda?
-Qazda.
Yeyim, bax.
(2, s. 233)

Şairin "Bir həyətdə beş uşağın söhbəti" şeiri isə ictimai mündəricəsi ilə təqdirəlayiqdir. Müəllif bu əsərdə müxtəlif dünyagörüşlü uşaqların həyata fərqli baxışlarını mükalimələr əsasında təsvir etmişdir. Uşaqlardan biri dəbdəbəli geyimi ilə öyünərək onların müxtəlif xarici ölkələrdən gətirildiyini bildirir, digəri isə təzə çantası, flamaster qələmi ilə lovğalanır. Başqa bir uşaq ayrıca mağazalarının olmasından dəm vurur. Mükalimələrin gedişində digər iki uşaq isə atalarının halal zəhmətlə məşğul olmasını qürurla vurğulayır. Bəlli olur ki, onlardan birinin atası bənnadır, evlər tikir. Digərinin atası isə yol çəkməklə məşğuldur. Beləliklə, yığcam dialoqlar əsasında qurulmuş bu şeirdə şair halal zəhməti insana mənəvi ucalıq gətirən vasitə kimi vurğulamış, zəhmətkeş övladlarının mövqeyini zahiri dəbdəbəyə uymuş uşaqlara qarşı qoymuşdur.

Bu əsərdə poetik fikrin axarı elə düşünülmüşdür ki, şeiri oxuyan hər bir uşaq asanlıqla müəllifin nə demək istədiyini, balaca oxuculara hansı ideyanı təlqin etdiyini dərhal anlayır. Bu isə poetik nümunənin tərbiyəvi əhəmiyyətini layiqincə nümayiş etdirir. Xüsusən əsərdə uşaqların mükalimələrindəki bədii qarşılaşdırmalar diqqəti çəkir:

-Mənim cinsi şalvarım,
Zəncirli ağ paltarım.
Biri İtaliyadan,
Biri Yaponiyadan.

-Təzə çantam var mənim,
Flamaster qələmim.
Biri Daşkənddən gəlib,
O biri kənddən gəlib.

-Ayrıca mağazamız,
Bizə baxır o yalnız.
Biri Nəsimidədi,
Biri Nizamidədi.

-Mənim atam ev tikir,
Ən uca ev – Bakıda.

-Mənim atam yol çəkir,
Ən uzun yol – Şəkidə.

(2, s. 233-234)

Məlumdur ki, uşaq ədəbiyyatında zaman-zaman folklor süjetlərinə tez-tez müraciət olunmuş, bu yöndə bir çox dəyərli əsərlər qələmə alınmışdır. Nəriman Həsənzadənin yaradıcılığı da bu cəhətdən istisna deyil. Belə ki, şair uşaqlar üçün "Qızıl lələk nağılı" adlı mənzum əsərini kalmık xalq nağılı əsasında yazmışdır. Əsərdə təsvir olunur ki, keçmiş zamanlarda bir kənddə xoruz ilə tovuzquşu qonşuluqda yaşayırmışlar. Xoruz öz gözəlliyi ilə hamının diqqətini çəkər, bərq vuran rəngbərəng lələkləri ilə ətrafdakıları heyran edərmiş. Şair onun gözəlliyini əlvan boyalarla təsvir edir:

Xoruz bərli-bəzəkli,
Xoruz - ipək lələk li.
Gün çıxanda lələklər
Simü-zərdi, simü –zər.
Gün batanda lələklər
Tutulardı bir qədər.
Ay çıxanda lələklər
Görünərdi təzə-tər.
Ay batanda lələklər
Parıldardı bir qədər.

(2, s. 228-229)

Bu parçadakı misralarda müəllifin işlətdiyi bədii təsvir və ifadə vasitələri də təqdirəlayiqdir. Xoruzun gün çıxanda parıldayan lələklərinin simü-zərə bənzədilməsi maraqlı təşbehdir. Eləcə də "ipək lələk li" ifadəsi diqqətəlayiq epitetdir. Mətndəki

təkrirlər, xüsusən "lələklər" sözünün tez-tez işlədilməsi də poetik fikrin daha qabarıq ifadəsinə yönəlmişdir.

Təhkiyənin davamından öyrənirik ki, qonşusu tovuzquşu bir axşam xoruza üz tutaraq sabah bir qonaqlığa gedəcəyini bildirir. Xahiş edir ki, xoruz lələklərini, bəzək-düzəyini müvəqqəti olaraq ona versin. Həm də deyir ki, qonaqlıqdan tez qayıdacağam, əgər yubansam, məni çağır, gəlim. Bər-bəzəyi əlinə keçirən tovuzquşu səhər özünə sığal verib qonaqlığa yollanır. Vaxt keçir, tovuzquşu geri dönmür. Xoruz isə onun gəlmədiyini görüb gündə üç dəfə - səhər, günorta, axşam banlayıb tovuzquşunu çağırır:

Oldu pipiyi al qan,
İndiyəcən o vaxtdan
Xoruz hər gün üç dəfə
Səs salır hər tərəfə.
Çağırır: quq-qulu-qu!
Gəlməyir tovuzquşu.

(2, s. 230)

Göründüyü kimi, əsərdə bir tərəfdən, xoruzun səhər, günorta, axşam banlamasına, digər tərəfdən isə əlvan lələkli tovuzquşunun gözəlliyinin səbəblərinə əfsanəvi yozum verilmiş, bu yolla uşaqlar üçün maraqlı olan bir süjet əsasında dolğun bədii nümunə yaradılmışdır. Əsərdə həmçinin hiyləgərlik, başqasını aldatmaq kimi mənfi xüsusiyyətlərin pislənilməsi də bir ideya olaraq üzə çıxmışdır.

Bütövlükdə istedadlı şair Nəriman Həsənzadənin uşaq ədəbiyyatı sahəsində ciddi, çoxcəhətli xidmətləri vardır. Burada biz bir sıra səciyyəvi nümunələrə toxunmaqla kifayətlənirik.

Ədəbiyyat

1. Cəfərli M. A. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: ADPU nəşriyyatı, 2012, 674 s.
2. Həsənzadə N. Seçilmiş əsərləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı. 1987, 376 s.
3. Müasir Azərbaycan ədəbiyyatı, iki cilddə, 2-ci cild. Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 564 s.
4. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 444 s.
5. Yusifoğlu R. Uşaq ədəbiyyatı. Bakı: Şirvannəşr, 2006, 268 s.

Nadir Ismaılov

Nariman Hassanzade and children's literature

Summary

Nariman Hassanzade is one of the most prominent represantatives of the Azerbaijani literature of XX century. His poetry is rich with deer humanistic sences and qualities.

The article has been dedicated to the lyrics of Nariman Hassanzade. In this paper attention is directed to the various phase's of literary activities Nariman Has-

sanzade. These stages are investigated on the basis of those examples, facing a poet and made appropriate conclusions.

There have been analysed charakteristic works, their idealogial-literary features have been clarified. There are have been telis opinions about his poetic style and on the examples of verse are exposed main features of his poetry.

Надир Исмаилов

Нариман Гасанзаде и детская литература

Резюме

Нариман Гасанзаде является одним из выдающихся представителей азербайджанской литературы двадцатого века. Его поэзия пронизана гуманизмом, глубокими чувствами.

Статья посвящена лирике известного поэта Наримана Гасанзаде**.** В статье рассматриваются разные этапы творчества Наримана Гасанзаде . Здесь на основе примеров исследуются темы, к которым обращался поэт на этих этапах, и сделаны некоторые вводы.

В статье анализириуются характерные произведения, связанные с темой, выявляются их идейно-художественные особенности. Здесь высказываются мнения о поэтическом стиле поэта, а также выявляются главные особенности его поэзии на стихотворных примерах.

Rəyçi : Hüseyn Həşimli,
filologiya üzrə elmlər doktoru

НАМИН СУЛТАНЛЫ
БГУ, доцент

АБДУРРАХМАН МАДЖИД АР- РУБЕЙИ – ПРЕДСТАВИТЕЛЬ ПСИХОЛОГИЧЕСКОГО НАПРАВЛЕНИЯ В СОВРЕМЕННОЙ ИРАКСКОЙ НОВЕЛЛИСТИКЕ

Açar sözlər: “psixoloji” cərəyan, “altmışlar”, Ə.M.Rubeyyi, ekzistensializm, “Atlılar”, “Döymə”.
Ключевые слова: «психологическое» течение, «шестидесятники», А.М. ар-Рубейи, экзистенциализм, «Конница», «Татуировка».
Key words: “psychological” direction, “the 60`s”, A.M.ar-Rubeyyi, existentialism, “Cavalry”, “Tattoo”.

Национальные литературные традиции, восприятие западной и русской культур способствовали в Ираке 50-60-х гг. XX в. прозы, в частности повести и новеллы, которые развивались в различных литературных течениях. Основных литературных течений было два: «новый реализм» и «психологическое» течения.

Важную роль в развитии современной иракской прозы сыграли «шестидесятники» - писатели, которые появились после июльской революции 1958г. Это – Абдуррахман Маджид ар- Рубейи, Али Сухейл, Муса Кариди, Лутфи аль-Хаййат, Мухаммед Камил Ареф и другие. Большинство из них были представителями «психологического» направления. Произведения этих писателей в литературной среде Ирака называли «прогрессивной литературой» и печатались в журнале «Прогрессивной литература» (الطالعة الادبية) .

Среди «шестидесятников» одним из самых выдающихся прозаиков является Абдуррахман Маджид ар-Рубейи, последователь французских экзистенциалистов А.Камю и Сартра.

Абдуррахман Маджид ар-Рубейи родился в 1939 г. в городе Самава провинции Насырийа в многодетной семье, которую окружала нищета. «С точки зрения классовой принадлежности, я отношусь к бедной семье и с детства должен был определить своих врагов и остро чувствовать несправедливость» (4, 2).

Учеба его началась с изучения Корана у муллы. Затем он поступает в среднюю школу в Насырийе и делает успехи в учебе. Однажды один из учителей подарил мальчику книгу. «Это был самый ценный подарок, полученный мною» - пишет ар- Рубейи (4, 5). Бедность и несправедливость, которые он познал в детстве, постепенно заставляют подростка задуматься. Он часто путешествует по Насырийе, наблюдает за жизнью бедных крестьян. Кроме этого он знакомится с фольклором, песнями. «Величайшим открытием для него было познание чувства цвета, красок, через которые он попытался освободиться от печали, кошмаров, открывая для себя скрытые радости» (3, 111).

С 1959 года ар- Рубейи работает учителем рисования в Насырийе. В эти дни он начинает читать более серьезную литературу, как например, Жан Поля Сартра, Албера Камю, Хемингуэйа, которые к тому времени были переведены

на арабский язык. Свою литературную деятельность он начал с поэзии. «Однажды я встретился с ним (поэтом Фадылем аль-Изави – Н.С.) в комнате одной из простых багдадских гостиниц в 1962 году. Когда появился мой сосед по комнате, им оказался поэт Фадыль аль-Изави. Мы познакомились, и он прочел мне некоторые свои стихи. Я также прочитал ему свои стихи, в частности, касыду «Забава болтуна» (عبث ثرثر), которую он попросил оставить у него (6, 191). Вернувшись в Насырийю, узнал, что касыда была опубликована в газете «аль- Биляд» с восторженным предисловием, где писалось, что автор касыды – мастер с многообещающим будущим. Тогда ар-Рубейи, поверив в свой поэтический дар, опубликовал некоторые свои касыды в бейрутском журнале «Поэзия» (شعر). В 1974 году в газете «Новые известия» (الانبياء الحديثة) ар-Рубейи опубликовал сборник касыд под названием «Шахрияр неудачно отплывает» (شهريار يبحر خائباء) под псевдонимом «аль-Мигдад». Он очень интересовался классической арабской поэзией. Читал классиков – аль-Мутанабби, аль-Бухтури, Абу Нуваса.

Далее ар-Рубейи начинает пробовать свои силы в прозе, считая, что поэзия обогатила его прозаический дар, сделав язык его рассказов более богатым и компактным.

Вскоре Багдад все больше овладевает его мыслями и ар-Рубейи пишет прошение в отдел образования Ирака с просьбой перевести его в Багдад. Однако вместо Багдада его переводят в деревню вблизи Динавии. Деревня утопала в финиковых пальмах и была постоянно затоплена водой. Школа находилась под открытым небом, а парты стояли прямо в воде. Картина была такой удручающей, что нередко заставляла плакать юношу. Ар-Рубейи решил уйти в отставку и отправиться в Багдад, где он начал делать свои первые шаги в качестве редактора газеты «Голос народа» (صوت الجماهر). Газета просуществовала недолго. Ар-Рубейи решил поступить в Академию Изящных искусств. Воплощается его багдадская мечта, где он знакомится с прогрессивными писателями и поэтами Ирака. Это – Лутфи аль-Хаййат, Ахмад аль-Муфраджи, Абд аль-Латыф ас-Саадун, Сами Махди, Джалил Атыйа, Халид ар-Рави и др. Для молодого писателя было великим счастьем, когда Лутфи аль-Хаййат предложил ему печататься в газете «Новые вести». На страницах этой газеты ар-Рубейи мог говорить все, что думал о литературе, об обновлении, о поэзии. Именно в этой газете зародилось движение «шестидесятников» - это были молодые писатели Ирака, издающие первые свои работы в этой газете: Муса Кариди, Бусейна ан-Насыри, Халид ар-Рави, Юсуф аль-Хайдари, Азиз Джасим и др.

Ар-Рубейи был категорически против консерватизма, предлагал САмостоятельность в творчестве и выступал за обновление в литературе.

После революции 1958 года шла перестройка: молодежь стала больше участвовать в этой перестройке, контролировать обстановку в культурных учреждениях и издательствах газет и журналов. Ар-Рубейи, можно сказать, был во главе «шестидесятников» и принимал активное участие в перестройке. Сюжеты для своих произведений он заимствовал из окружающей его среды. Как отмечает сам ар-Рубейи, «когда я приехал в Багдад, был одним из тех, кто находился в забвении, которых знали в гостиницах низкого класса, которые бродяжничали, держа свои книги под мышкой; в головах было множество

проектов, а в душах бесплодные пустыни» (4, 8). Ар-Рубейи перечеркнул все свое унылое прошлое и все сентиментальное, что было в его жизни. Он считал себя сыном поколения, которое было окружено ложью, не имело выбора и возможностей. Все свои тяжкие воспоминания о прошлом ар-Рубейи изобразил в своих коротких рассказах, которые вошли в сборник «Меч и корабль» (السيف و السفينة), 1966г. В сборнике «Тени в голове» (الظل في الراس),1967г. была тоска по прошлому. В своих рассказах из этого сборника он пытается обойти стену насмешек настоящего. Что касается языка его рассказов, то ар-Рубейи выступает против использования диалекта в диалогах, считая, что это «умерщвляет красноречивый поток слов и их семантику» (4, 6). Это было его возмездием прошлому поколению. Ар-Рубейи пишет о писателях 50-х годов: «Их рассказы, в основном, иракизированные рассказы, но не иракские. Однако рассказы 60-х годов являются детищем национальной идеологии, которые можно считать арабскими, иракскими рассказами» (1, 20).

Ар-Рубейи удалось осуществить многие свои планы, которые когда-то были в голове «легкомысленного учителя». В Багдаде он встречается со многими известными учеными, читает лекции во многих университетах арабских стран, работает в Министерстве Информации Ирака. Росла популярность писателя, росло число его произведений, а также росла ответственность за качество его новелл. В 1977 году ар-Рубейи становится главным редактором журнала «Перья» (الاقلام).

Творчество писателя начинается с издания сборника новелл «Меч и корабль» (السيف و السفينة) (1966г.), за ним следует сборник «Тени в голове» (الظل في الراس)1968г. Далее в 1969 году ар-Рубейи издает сборник новелл «Лица утомительного путешествия» (وجوه من رحلة النعب), а затем в 1970 году выходит сборник «Другие сезоны» (المواسم الاجرى). Направленностью этих сборников и целью автора является изображение духовного кризиса и идейного падения личности перед злым внешним миром.

Второй этап творчества ар-Рубейи начинается с издания в 1972 году повести «Татуировка» (الوشم), далее в 1974 году «Глаза, затуманенные мечтой» (عيون في الحلم). В том же году ар-Рубейи издает повесть «Реки» (الانهار) и сборник рассказов «Память города» (ذاكرة المدينة). В 1976 году писатель издает в Тунисе сборник рассказов «Конница» (سلاح الفرسان). Этот этап его творчества отличается реалистичным изображением событий, где герои продолжают бороться пока не добьются триумфальной победы. Ар-Рубейи является представителем «анархо-экзистенциализма» в иракской литературе, философия которого – философия «бунта» Альбера Камю и Ф.Кафки (2, 12). Протест ар-Рубейи выглядит как неприятие всего окружающего мира, порой для него мир разрушен, люди лишены гуманности, даже воздух непригоден для дыхания. В рассказе «Глаз», где пассажир заплатил шоферу за проезд своим глазом, тот выбросил глаз и его подобрал шакал, автор показал свою приверженность французским экзистенциалистам Камю и Сартру. В своих рассказах ар-Рубейи использует новый для иракской, да и всей арабской литературы прием: совмещение в одном рассказе беспощадной сатиры и нежный лиризм, высокую поэзию и грубый физиологизм. Порой автор нарочито игнорирует общепризнанные литературные каноны (3, 127).

Примером тому можно привести рассказ из сборника «Память города» - «Королевство козлов» (1972). Действие рассказа происходит до 1958 года во времена монархизма. В рассказе повествуется о любящей друг друга супружеской паре Саади и Сальве. Когда они познакомились, Сальва была чистой и невинной девушкой. Но их безоблачному счастью пришел конец, когда Саади попал в тюрьму за участие в демонстрации. Выйдя из тюрьмы, он узнал, что Сальва стала проституткой. Первым его желанием было убить её, но когда она объяснила Саади, что своим ремеслом она хорошо зарабатывает, что его ждет спокойная и обеспеченная жизнь и, что ему придется всего лишь иногда оберегать её от обидчиков, жажда сытой жизни взяла верх и Саади становится сутенером своей жены. В этом рассказе ар-Рубейи использует аллегорию, когда описывает Саади с огромными рогами, которые растут изо дня в день. Ар-Рубейи показывает, как порой человек отказывается от своих моральных принципов и революционных идей взамен обеспеченной и сытой жизни.

Лень и безделье обывателей являлись постоянной мишенью для сатиры ар-Рубейи. Он пишет: «Я хотел бы изо всех сил ударить по заплесневелым мозгам. Пусть это расценивают как проявление анархизма мелкого буржуа. Однако я определил, что это противодействие косности – моя жизненная позиция» (4, 10). Основная мера ценности человека по ар-Рубейи – это взаимоотношение личности с обществом: человек деградирует, став конформистом, отщепенцем. Писатель не жалел красок, чтобы высмеять косность мещан. Ар-Рубейи находит такие сюжеты, высвечивает столь темные закоулки человеческой психики, что его прозу можно отнести к «прозе крайностей», ибо метание героев его рассказов достигает предела и приводит, в конце концов, к безвыходному тупику. Как и глава «психологического» течения Абд аль-Малик Нури в своей знаменитой новелле «Там, где течет кровь» (юноша и девушка спасаясь от полиции за свое участие в демонстрации, находят убежище в публичном доме; то есть автор высокие идеалы и нравственную чистоту своих героев сталкивает с низменными сторонами жизни), ар-Рубейи интересует психологическое состояние, в которое попадают его герои.

Ар-Рубейи очень часто в своих рассказах обращается к арабской мифологии и преданиям, при этом подчеркивает бессмысленность и алогичность существования в современном мире. В рассказе «Меч и корабль» исповедь – обращение к возлюбленным пересказана в форме криминальной драмы из бедуинского быта, поданной как парафраз легендарной повести «Меджнун и Лейла», лирическая тема которой бессмертна. Одновременно писатель включил сюда реминисценции из ветхозаветного мифа об Ионе во чреве кита из сказок о Синдбаде-мореходе. И здесь ар-Рубейи явно показал свою приверженность сюрреализму и, в частности, А.Камю. По названию можно судить, что рассказ «Меч и корабль» является параллельно аллегорическому произведению «Изгнание из царства» А.Камю, когда меч уподобляется «царству», которое нависает над спешащим на корабль изгнанником. Ар-Рубейи считает, что реакционное правительство превратило в изгнанников весь иракский народ, разобщенный в изгнанников весь иракский народ, разобщенный нуждой, национальной и религиозной рознью. Повествуя о кризисном состоянии об-

щества и отдельных личностей, писатель всякий раз многозначительно умалчивает о причинах, предлагая читателю самому сделать выводы.

«Некоторые свои рассказы он начинает, как это принято в древних арабских сказках: «Жили-были» или же «Однажды в один божий день в нашем городе появился странный человек…» и т.д.» (3, 111).

Ар-Рубейи ярко и со знанием дела описывает природу Ирака и водную стихию его, т.к. сам родился и вырос на берегу реки.

В рассказе «Тайна воды» (سر الما ء) из сборника «Воспоминания города» повествование ведется от имени ученого-социолога, которому было поручено написать доклад о жителях лагуны, об их жизни, о чем они думают. Неслучайно, в рассказ вплетены отрывки из легенды о Джамиле и Бусейне, о поэте из племени Узра, о котором говорили: «полюбив раз, умирают». Хатем – герой рассказа, также как и Джамиль, был влюблен в девушку, которую за него не выдавали. Отцом девушки было поставлено условие: найти невесту его сыну, только тогда он выдаст за Хатема свою дочь. Хатем не смог исполнить это условие и потерял свою возлюбленную. В рассказе красочно описывается природа Ирака, быт людей, которые живут на воде, занимаются рыболовством. Заклятыми врагами их являются змеи. Хатем настолько слился с природой, что когда однажды ему пришлось уехать в город, он возвратился оттуда больным от шума автомобилей и духоты.

Вот как ар-Рубейи с любовью описывает свой родной городок: «Насырийа – маленький, тихий городок, куда однажды устремились наши отцы, бросив свои мотыги и косы в поисках работы, чтобы прокормить своих голодных детей… Насырийа омывается Евфратом, воды которого освещаются её огнями во имя лучшего будущего» (5, 12).

Одним из ярких и характерных произведений ар-Рубейи является повесть «Татуировка» (وشم), которую автор посвятил своей супруге. Повесть была издана в октябре 1977 года в Тунисе и стала темой диссертации магистра литературы и языка Матильды Джальярди из Венецианского университета. Повесть также была переведена на итальянский язык.

«Татуировка» - это небольшое произведение, состоящее из 13 глав. Тема, затрагиваемая ар-Рубейи в этой повести, охватывает целую эпоху, жизнь целого поколения. Это – «повесть о нас всех, о нашей жизни, в то время как никто кроме него не решался писать правду» пишет знаменитый иракский поэт-революционер Мухаммед аль-Джазаири (5, 127). Так писал знаменитый литератор Азиз ас-Сейид Джасим: «Я не предлагаю ограничить реалистическое видение в повести, но кто, же смог бы создать реалистическое произведение как «татуировка», без описания реальности с таким богатством и символизмом» (5, 120).

В повести описана жизнь простого иракца, который через себя передает читателю всю реальность окружающей его действительности. Герой повести Керим ан-Насыри простой человек со своими мечтами и переживаниями. Он – детище автора, а может быть и сам автор. Он не один из многих, он один из нас» - пишет аль-Джавахири.

Первые строки произведения вселяют в читателя уверенность в том, что у «каждой ночи есть рассвет, но наступает он не сразу, а медленно, с течением

времени. Выйдя из тюрьмы, Керим не смог найти своего места в жизни. У него не осталось ни дома, ни друзей, ни работы. Он «ходил по улицам, сидел на скамейке, искал работу, грузил кирпичи, мыл посуду» (5, 30).

С самого начала чтения повести привлекает внимание форма написания, так умело избранная ар-Рубейи. Повествование ведется от имени автора, но в то же время жирным шрифтом передаются слова самого героя, его переживания, мысли. Словно произведение разделено на светлые и темные полосы, впрочем, как и жизнь любого человека. Ар-Рубейи мастерски удалось в жизни и переживаниях героя показать несколько жизней. Мысленно Керим беседует со своими друзьями, которых он узнал и подружился в тюрьме. Это – Маджид Амран Хасун Салман, Рияд Касым, Хамид Шалан и Махсун Халид. О Маджиде Амране Керим говорит: «Если Маджид Амран был рядом со мной, это придавало мне некоторое спокойствие, этот элегантный человек был скуп даже на приветствие» (5, 33).

Среди друзей Керима были не только его ровесники, но и представители старшего поколения: это – Хамид Шалан, имеющий интересное политическое прошлое. «Он был учителем, вышедшим на пенсию, отошедшим от политики, но его политическое прошлое преследовало его даже, несмотря на то, что он был болен, страдал астмой и хроническим ревматизмом. Он проводил свое время в молитвах и изредка давал наставления и советы своим младшим друзьям» (5, 45).

Выйдя из тюрьмы, все они отошли от политики. Некоторые ушли в религию, Хасун и Хамид Шалан стали хаджи.

Таким образом, по мере развития событий в повести перед нами расходятся пути героев, меняются судьбы, которые когда-то были тесно связаны. Но некоторых из них сломало иракское правительство. Один из друзей Керима уходит в религию, другой спивается, третий выбирает спокойную жизнь. Лишь один из друзей Керима Джабир Маусили намерен продолжить политическую деятельность. «Я останусь здесь, наша партия возродится и объединится вновь и я никогда не отступлю» (5, 130).

Одно из значительных мест в повести занимает тема любви героя. Керим был трижды влюблен в разные периоды жизни. Художница Асиль – увлечение его молодости, которая была для него вечным воспоминанием первой нежной любви. «Он познакомился с Асиль Амран на художественной выставке, где она участвовала с несколькими своими картинами» (5, 40).

Другим увлечением Керима была Ясари Тауфик, которая была для него «символом молодости, чистоты и недоступности» (5, 50). И наконец, Марьям, которая представлена в повести как образ женщины, достойной любви, несмотря на её прошлое. Она была вдовой и имела двух дочерей. «Это была маленькая, смуглая женщина с карими глазами, вокруг которых была темная тень от её обольстительных ресниц, её тонкая талия была как побег молодого растения» (5, 49). Свою любовь к Марьям Керим всегда называл «старой шуткой», которая в итоге становится реальным и серьезным шагом в жизни Керима. В итоге он женится на ней.

Поколение Керима ан-Насири жило, как отмечает автор повести во «времена молчания», которые не должны повторяться никогда. Прочитав

повесть, можно задать вопрос: почему автор назвал его «татуировкой»? Это можно трактовать по-разному. Однако лучше всего может объяснить сам автор. «Татуировка» - т.е. клеймо – это то, что невечно. Его можно получить только после определенного времени, которое само же способно стереть это клеймо. Его можно прикрыть, попытаться стереть, но нельзя изменить то, что когда-то позволило получить эту татуировку. Так, герои повести прожили свою жизнь, не пытаясь изменить её.

Абдуррахман Маджид ар- Рубейи является ярким представителем «психологического течения» иракской литературы. Его произведения отличаются свежестью мыслей, простотой и ясностью языка, а также свободным выбором композиции.

Творчество ар- Рубейи высоко ценили не только в Ираке, но и во всем арабском мире, во Франции и в бывшем Советском Союзе. (Он часто посещал Москву, работал и общался с писателями).

«Когда я читал произведения ар- Рубейи, то чувствовал, что читаю произведения мастера короткого рассказа» - писал лауреат Нобелевской премии, египетский романист Наджиб Махфуз (4, 112).

Иракский литератор доктор Абдуллах Ахмед писал: «Поколение молодых новеллистов Ирака я назвал бы поколением ар- Рубейи» (4,112).

«Ар-Рубейи – Наджиб Махфуз Ирака» - (4,112) – пишет Тахир Вытад.

Литература

1. داوود سلوم٠ الادب المعاصر في القصص الاراقية المعاصرة٠ بغداد٠١٩٦٢٠
2. سحيل ادريس٠ القصة العراقية الحديثة٠ الاداب٠١٩٥٣٠
3. محمد الجزائري٠ مجلة الادب٠ بيروت٠ العدد ١١٠ ١٩٥٣
4. عبد الرحمان مجيد الربيعي٠ الخيول٠ لبنان-تونس٠١٩٨٦٠
5. عبد الرحمان مجيد الربيعي٠ الوشم٠تونس٠١٩٧٧٠
6. عبد الرحمان مجيد الربيعي٠ الافواه ٠بيروت٠٩٠ ١٩٧

N.Sultanlı

Əbdürrəhman Məcid ər-Rubeyyi “psixoloji” cərəyanın nümayəndəsi kimi

Xülasə

Müasir İraq ədəbiyyatında XX əsrin 60-cı illərində yazıb yaradan ədiblər arasında ər-Rubeyyi xüsusi mövqeyə malikdir. O, 50-ci illərdə İraq ədəbiyyatında meydana gələn “psixoloji” cərəyanın nümayəndəsi idi. Bu cərəyanın nümayəndələri fransız ekzistensializminin nümayəndələri olan Kamü və Sartrın əsərlərinin təsirinə məruz qalıb İraq həqiqətinin ən acımasız tərəflərini qələmə almış, qəhrəmanların psixoloji hisslərini dərindən təsvir etmişlər. Ər-Rubeyyinin bu cərəyanın nümayəndəsi olduğunu isbat etmək üçün məqalədə ədibin “Atlılar”, “Döymə” və başqa qısa hekayələr nəzərdən keçirilmiş və müxtəlif ədəbiyyatşünasların ədibə verdikləri yüksək qiymət qeyd edilmişdir.

N.Sultanli

Abdurrahman Majid ar-Rubeyyi as the representative
of “psychological” direction
Summary

Ar-Rubeyyi has a special position among modern Iragi writers of the twentieth century 60`s. He was the representative of "psychological" that direction occurred in the 50s in Iragi literature. The representatives of this direction had been affected by the representatives of French existentialism Kamu and Sartr, deeply described the most brutal aspects of the reality of Irag and psychological feelings of the heroes. In order to prove ar-Rubeyyi`s being representative of this direction, in the article the writer `s “Cavalry”, “Tattoo” and other short stories have been analyzed and high value given to him by different literary men has been pointed out.

Rəyçi: Professor Aida Qasımova

ƏLİ HƏŞİMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: aliheshim@yahoo.com

QAÇAQÇILIQ HƏRƏKATINDAN BƏHS EDƏN TARİXİ NƏSRDƏ NAXÇIVAN

Açar sözlər: tarixi nəsr, "Boz atın belində", "Dağlara çəkildi", Naxçıvan, ədəbi həqiqət.
Ключевые слова: исторические прозы, «Отодвинувшие на горах», «На седле Бозата», Нахчыван, литературные реальности.
Key words: Historical prose, "Boz atin belinde", "Daglara chekildi", Nakchivan, literaturel realite.

Məqalədə qaçaqçılıq hərəkatından bəhs edən Həsən Qasımovun "Dağlara çəkildi" povesti və Cəlal Bərgüşadın "Bozatın belində" romanlarından söz açılır. Hər iki əsərdə yaradılan Qaçaq Nəbi obrazından, qaçaqçılıq hərəkatından, dövrün reallıqlarını əks etdirən məqamlardan, həmçinin bu əsərlərdə Nəbinin keçdiyi yol kimi Naxçıvanın oynadığı roldan, bu dövrdəki Naxçıvan reallıqlarından bəhs olunur.

Azərbaycan tarixi nəsrinin keçdiyi yolda roman janrı ilə yanaşı nəsrin həcmcə kiçik janrları olan povest və hekayələrdə də tarixi mövzulara müraciət aktual olmuşdur. Belə ki, Azərbaycan ədəbiyyatında tarixi mövzuda qələmə alınan maraqlı povestlərdən biri də folklorçu-yazıçı Həsən Qasımovun "Dağlara çəkildi" əsəridir.

Tarixi nəsrimizin daha çox müraciət olunan dövrlərindən biri də XIX əsrin sonu-XX əsrin əvvəllərini əhatə edən qaçaqçılıq hərəkatından bəhs edən mərhələ olmuşdur. Bu mənada qaçaqçılıq hərəkatından, konkret olaraq Qaçaq Nəbidən bəhs edən tarixi əsərlər XX əsrdə daha çox yazılmışdır. Nəzərə alsaq ki, bu maraq folklorşünaslığı da əhatə edirdi, o zaman nəsrdə Nəbi mövzusuna müraciət təbiiləşir. Süleyman Rüstəmin "Qaçaq Nəbi" mənzum dramı, M.Təhmasibin "Nəbi" kinosenarisi, yaradıcılığında bu mövzuya müraciətin ənənəviləşdiyi yazıçı Süleyman Rəhimovun "Aynalı" povesti, "Qafqaz qartalı" romanı, "Pəri çınqıllı" hekayəsi, Cəlal Bərgüşadın "Bozatın belində" romanı ilə yanaşı yazıçı-tədqiqatçı Həsən Qasımovun povesti də Qaçaq Nəbi hərəkatından bəhs edən əsərlər sırasında özünəməxsus yer tutur (1, s. 164). Yazıçı povesti 1964-cü ildə "Azərbaycan" jurnalında nəşr etdirmişdir.

Povestin adından da göründüyü kimi əsərdə əsasən Nəbinin yeniyetməlik illəri, onu qaçaqçılığa sürükləyən ictimai mühit və Nəbinin dağlara çəkilərək xalqın azadlıq mübarizəsində, əzilən təbəqənin hüquqlarının müdafiəsində fəal iştirak etməsindən bəhs olunur. Povest Nəbinin çobançılıq etdiyi günlərin təsviri ilə başlayır. Nəbi kasıbçılığı ilə gün keçirən Alı kişinin oğludur. Mahalın tanınmış mülkədarı Məmməd bəyin qoyun sürüsünü otarır. Gecələrin birində Nəbi dostu Kərimi sürünün yanında qoyub kəndə gəlir, canavarlar Məmməd bəyin heyvanlarından bir neçəsini parçalayır. Bun bilən bəy Nəbini döydürüb tövləyə saldırır və buradan başlayaraq Nəbinin qaçması, bəyin ona qərəzli münasibəti, ailəsini incitməsi, digər tərəfdən isə bəyin bacoğlusunun Nəbinin sözlüsü, mahalın gözəl qızı Həcərə vurulması Nəbini çıxılmaza çəkir. Nəbi Xoca Qaluts adlı bir ermənin evində nökərçilik edir.

Üzərinə şər atılan, həbs edilən Nəbi yolda onu zindana aparan dəstənin əlindən qaçır, Həcərlə toyunu edir. Öz sakit dünyasında yenə rahatlıq tapmır. Harınlamış bəyin ona qərəzli münasibətinin davam etdiyini görəndən sonra bəydən minlərlə həmvətəninin qisasını alaraq ən sadiq adamları ilə dağlara çəkilir. Bu sadə sujet xəttində müəllif Qaçaq Nəbiylə bağlı olan tarixi mənbələrdən, el dilində gəzən rəvayətlərdən də müəyyən qədər istifadə edərək tarixi reallığa bədiiliyin tələbləri səviyyəsində yanaşaraq maraqlı süjet qurur. Yazıçı həcmcə kiçik bu əsərdə Nəbini qaçaqçılığa sürükləyən ictimai mühitin, çar üsuli-idarəçiliyinin iç üzünü açıb göstərməyə səy edir. Buna nə qədər nail olduğuna isə ədəbiyyatşünslıq qərar verir. Yazıçı-ədəbiyyatşünas Qulu Xəlilovun "Folkor romanları" adlandırdığı bu kimi əsərlərdə Qaçaq Nəbi obrazına yeni faktlar əlavə edilməsinin yolverilməz olduğu vurğulanır (2, s. 224).

Əsərdə Nəbi və onun tərəf müqabili, tarixi şəxsiyyət olan Həcərlə yanaşı Nəbinin atası Alı, Həcərin atası Xanəli, Nəbinin anası Gözəl, nənəsi Nisəbəyim, dostu, silahdaşı Kərim kimi əməkçi xalqın nümayəndəsi olan sadə kəndlilərin obrazları ilə rastlaşırıq ki, əsərin ana xəttinin, aparıcı ideyasının müəyyənləşməsində bu obrazlar özlüyündə mühüm rol oynayırlar. Eyni zamanda Azərbaycanlı olmasına baxmayaraq rus rəhbərlərin diqtəsi ilə öz xalqına zülm edən əzazil Məmməd bəy kimi mülkədar obrazı, onun tüfeyli qohumu- bəyzadə, Lütfəli bəy kimi işbazların surətləri ilə yanaşı Hüseyn bəyin timsalında kiçik eoizodlarda iştirak etməsinə baxmayaraq öz mənəvi keyfiyyətləri ilə Məmməd bəylərdən fərqlənən obrazlar da vardır.

Nəbi qəhrəman kimliyi, azadlıq duyğusu, mübarizliyi, daxili ədaləti, kəndlilərinə qarşı olunan zülmə dözməyərək mübarizəyə qoşulması ilə ümumxalq sevgisi qazanan qəhrəman simadır. Nəbi ilə yanaşı öz mətanəti, sədaqətliliyi, mənəvi-əxlaqi keyfiyyətləri, vətənpərvərliyi ilə heç də Nəbidən geridə qalmayan Həcər surəti də oxucu yaddaşından silinmir, daha çox düşündürür.

Əsərdə müəyyən qədər zəif məqamlar da vardır. Qeyd edək ki, yazıçı tarixi nəsr qarşısında duran bədiiliyin tələblərini bir çox məqamlarda pozaraq bəsit təsvirçiliyə yol vermişdir. Çox halda sıxıcı olan bu təsvir üsulu əsərə müəyyən qədər sönüklük gətirmişdir. Nəbiylə bağlı olan mənbələrin verdiyi tarixi həqiqətlər bir çox hallarda qorunmamışdır. Əsərdə yazıçı diqqətsizliyindən irəli gələrək, yaxud nəzəri qüsurların olması halları da var. Xoca Qalutsun arvadı Mariyanın bəzən otuz, bəzən də iyirmi beş yaşında verilməsi faktı, Nəbinin məhkəməsini təsvir edərərkən yazıçının yaşadığı dövrdəki kimi məhkəmə prosesini təsvir etməsi detalları əsərin belə nöqsanlarındandır.

Lakin əsərin müsbət, tərbiyyəvi keyfiyyətləri daha çoxdur. Belə ki, əsərdə şeir parçalarından istifadə, folklor nümunələrindən yaradıcı şəkildə bəhrələnmə, həm də mətn içində müvafiq məqamlarda şifahi xalq şeiri nümunələrini verməklə yazıçı emosional təsir gücü yaratmış olur, həmçinin folklor motivlərinin, dastançılıq ənənəsinin yazılı ədəbiyyatda davam etdirilməsi istiqamətdə lazımı addım atmış olur. Nəbinin toyunun geniş təsviri ilə xalqımızın qədim və zəngin adət və ənənələrindən söz açmaq, toy adətlərimizin özünəməxsusluqlarından danışmaq, xalqımıza məxsus olan adətlərdən ən gözəli kimi elin dar günündə insanların birləşməsi, yardımlaşması Nəbinin toyunda onun ailəsinə qonşuların əl tutması, köməklik etməsi səhnəsinin təsirli bir dillə təsvir olunması, gəlin köçürmə və bununla bağlı mərasimlərdə regional xüsusiyyətlərin dəqiqliklə işlənməsi, Nəbinin ailəsinin simasında ailə dəyərlə-

rimiz, məişət mədəniyyətimizin müəyyən cizgilərinin verilməsi əsərə müsbət keyfiyyətlər qazandırır.

"Dağlara çəkildi" povestində hadisələrin cərəyan etdiyi məkan kimi bəzən Naxçıvan seçilir, bəzi epizodlarda Naxçıvanla bağlı müəyyən məqamlar verilir. Belə ki, əsərdə Naxçıvanla bağlı olan yer adlarından istifadə olunmuş, Naxçıvanın özünəməxsusluqlarından söz açılmış, bu regionun insanlarının məişət şəraiti, problemləri, müvafiq dövrdə əhalinin dolanışıq səviyyəsi, Naxçıvan insanının səxavətindən, Naxçıvanın gözəl təbiəti, coğrafi mövqeyi ilə bağlı da müəyyən məqamlar açıq və ya dolayısıyla təqdim olunmuşdur. Həmçinin Naxçıvan dağlarında Qaçaq Əbdülkərim adlı qaçağın olmasından da bəhs olunur(5, s.171). Eyni zamanda Nəbigilin kəndinin yaylaq yeri olan Salvartının gözəl təbiəti, təsərrüfat üçün əlverişli şəraiti ilə bərabər Salvartı ətrafındakı dağlar, düzənliklərdən də dəqiqliklə bəhs etməsi yazıçının tarixi mənbələrlə yanaşı Nəbinin gəzdiyi yerlərin coğrafiyasını da öyrəndiyinin göstəricisidir. Nəbinin, sonra isə Həcərin sığınacağı kimi Naxçıvan dağlarının təsvir olunması, Şahbuz rayonu və kəndindən kiçik epizodlarda bəhs olunması, Biçənək yaylağı və Biçənək kəndindən, bu yerlərin təbiəti, sıldırım qayalarından, gözəl mənzərələrindən, buz bulaqlarından söz salması yazıçının Nəbinin gəzdiyi oylaqlardan biri kimi Naxçıvanın tarixi rolundan xəbər verir. Nəbigilin Salvartı yaylağında olması, azuqə üçün Naxçıvana getməsi, Naxçıvanlıların səxavətindən söz salan sənətkar yazır: "...Salvartı dağını aşıb, Əlincəçayın sahili ilə Ərəfsə, Milah, Qazançı, və Xanağa kəndlərini keçdilər..."(5, s. 99). Qayıdan baş Qazançı kəndindən iki cayılın onların atlarını oğurlamaq istəməsi ilə atışma başlanması, bir nəfərin ölməsi, elin ağsaqqal nümayəndələrinin barışığa gəlməsi, ağsaqqalıq missiyası ilə məsələni yoluna qoymasına baxmayaraq ölən Yusif kişinin qardaşlarının Qazançılılardan qan almaq məqsədi ilə basqına getməsi, iki Qazançılı dinc adamın öldürülməsi və bundan istifadə edən yüzbaşının Nəbini günahkar bilərək həbs etməsi sənhələri hadisələri yeni məcraya salır.

Azərbaycan nəsrində dastançılıq ənənələrindən irəli gələrək mövzu axtarışlarında fərqlənən, qaçaqçılıq hərəkatından bəhs edən əsərlər özünəməxsus sənətkarlıq xüsusiyyətləri və təsir imkanlarına malikdir. Folklorşünas Həsən Qasımovun "Dağlara çəkildi" povesti ilə yanaşı yazıçı Cəlal Bərgüşadın "Bozatın belində" romanı da Qaçaq Nəbi haqqında yazılmış maraqlı romanlar silsiləsindəndir. 1970-ci ildə kitab halında çap olunan əsər oxucu kütləsinin geniş marağına səbəb olmuşdur.

Tarixi roman janrının davamlı tədqiqatçısı Yavuz Axundlu roman haqqında yazır: "Tarixi şəxsiyyətin, xalq qəhrəmanının surətinin yaradılması baxımından ədəbiyyatımızın ənənələrini davam etdirən müəllifin öz qəhrəmanı ilə əlaqədar əldə etdiyi materiallar əsəri inandırıcı və təsirli etmişdir"(2, s. 166). Əsərin uğurlu cəhətlərindən biri də folklor motivlərindən yaradıcı şəkildə bəhrələnmədir.

Yazıçı uzunmüddətli axtarışlar, illərlə toplanmış, mətbuat səhifələrində paylaşılmış materiallar əsasında bu el qəhrəmanı-Qaçaq Nəbinin həyatı, döyüş yolu haqqında tarixi reallıqlara uyğun olaraq dastanvari şəkildə bir əsər ortaya qoymuşdur. Yazıçı Qaçaq Nəbinin keçdiyi mübarizə yolunun müxtəlif səhifələrini əks etdirən məqalələrlə mətbuatda çıxış etməklə oxucularını bu mövzuya hazırlamışdır. Əsərin müvafiq məqamlarında Nəbiyə həsr edilmiş şeir parçalarını verməklə yazıçı güclü təsir imkanı yarada bilmişdir. Burada 1930-cu illərdə aşıqların dilindən toplanmış şeirlər Qaçaq Nəbi haqqındakı dastandan da istifadə olunmuşdur. Qəhrə-

manın-Nəbinin həyat yolunu işıqlandırmağı məqsəd olaraq müəyyənləşdirən yazıçı Nəbinin mübarizə apardığı istibdad, çar məmurlarının yerli xalqa qarşı amansız rəftarı, xalqın malını talaması hüquqlarını tapdalaması kimi ictimai-sosial problemləri geniş planda işıqlandıran yazıçı dövrü reallıqları ilə təsvir edə bilmiş, ictimai-siyasi vəziyyəti aşkarlaşdırmışdır. "Bozatın belində" romanı Azərbaycan oxucusu tərəfindən olduğu kimi ədəbiyyatşünslığımız tərəfindən də obyektiv şəkildə qiymətləndirilmişdir. Əsərin nəzəri problemlərinə toxunan ədəbiyyatşünas Seyfulla Əsədullayev romanda naturalis təsvirə, sözcülüyə yer verilmişdir-deyir (4, s. 80).

Romanda Naxçıvanla bağlı müəyyən məqamlar da vardır. Bəzi səhnələrdə Naxçıvanda cərəyan edən hansısa hadisədən danışıldığı halda bəzi səhnələrdə də dolayısıyla Naxçıvanla bağlılığı görürük. Əsərin 134-cü səhifəsində iki Naxçıvanlının söhbəti verilib. Burada Naxçıvan mahal naçalniki Slavçinskinin əhaliyə qarşı rəhmsiz davranışından danışılır.

Əsərin maraqlı xüsusiyyətlərindən biri də başlıqların hər birində Azərbaycan, eləcə də dünya ədəbiyyatı, mədəniyyətinin görkəmli simalarından verilmiş aforizmlərin yaratdığı təsir gücüdür.

Romanda yazıçının uzun illik axtarışlarının nəticəsi kimi "Kafkaz" qəzetində Nəbinin dəstəsi ilə bağlı verilən xəbərdən yaradıcı şəkildə bəhrələnilmişdir. Səlim bəyin dilindən "Kafkaz" qəzetində dərc olunan yazının şərh olunması əsərə yeni rəng qatır. Naxçıvanın Tivi, Nəsirvaz, Anzır kəndlərində eləcə də digər kəndlərdə Nəbinin dəstəsinə yardımlar edildiyi, cəza tədbiri kimi Nəbiyə kömək edənlərin cərimələnəcəyi bildirilir(3, s. 227). Şuşada gedən bu söhbətlərdə Nəbinin dəstəsinin bütün Azərbaycana səs saldığı, xalqın Nəbini müdafiə etməsi, Naxçıvanın da bu cəhəddən xüsusilə seçilməsi vurğulanır. Nəbinin dəstəsində fərqlənən igidlər içində Tumaslı Allahverdinin, Başkəndli Şahhüseyinin adları çəkilir. Bu vaxt yolda təşviş içində olan çaparın verdiyi xəbər naçalnik Səlimbəyi daha da narahat edir. Çünki Nəbinin Ordubadın pristavı Əliağa Əliyevi öldürdüyü xəbərini gətirmişdi. Hadisənin təfərrüatına varan yazıçı xalq arasında gəzən rəvayətlərdən yararlanaraq Naxçıvan mahal naçalniki Slavçinskinin Nəbiyə köməklik edənləri təqib etməsi, romanda göstərildiyi kimi ermənilərin Nəbini qızışdırması nəticəsində Nəbinin Əliağa Əliyevi öldürməsi faktının müqabilində Nəbinin mərdliyi, yenilməzliyi, namus, əxlaq məsələlərindəki mövqeyi özlüyündə hər şeyi deyir. Nəbiyə qarşı vuruşanların hətta ən çirkin tədbirlərə əl atması, hamilə olmasından istifadə edərək Həcəri qaçırmağı planlaşdırması ilə Nəbi ilə onlar arasındakı fərqin böyüklüyü göstərilir.

Əsərdə Naxçıvanla bağlı müəyyən detallar da vardır. Arazı keçib İrana gedən Nəbi Həcəri və anası Gözəli dostu Şeyxin evinə qoyur. Ara sakitləşəndə Həcər Arazı keçib Naxçıvana, oradan da Zəngəzura getməlidir. Şeyx Həcərə Başkənddə Şahhüseynin evinə düşməyi məsləhət görür və Həcər də belə edir(3, s. 30). Nəbi ilə yanaşı Həcər də Naxçıvanda seçilən simadır. Nəbiyə Naxçıvanda Başkəndin koxası Kərbəlayi Heydərdən şikayət edən bir vətəndaşla söhbətdən aydın olur ki, xalqa zülm edən koxanın elə bu əməllərinə görə Nəbinin həyat yoldaşı Həcər tərəfindən əlinin biri kəsilir. Bu kiçik epizoddan da göründüyü kimi yerli məmurların caniliyini Naxçıvan naçalniki Slaviçinski müdafiə edir.

Nəbiyə bəylərdən, mülkədarlardan şikayət edənlər Mollu kəndinə də gedib çıxırlar. Çünki yazıçı əsərdə Nəbini xalqın inam yeri kimi təqdim edir. Belə acınacaqlı vəziyyət Şahbuz rayonunun Qarababa kəndində də davam edir(3, s. 367).

Sovetlər dönəmində də tarixi nəsrin mövzu dairəsinə qaçaqçılıq hərəkatından bəhs edən nəsr nümunələrinin daxil olması sovet ideologiyasına bir tərəfdən də sərf edən bir məqam idi. Ona görə ki, qaçaqçılıq hərəkatı, kütlələr arasında yaradılmış qəhrəmanlarla əhalinin siyasi mövzulardan uzaq tuturdusa, digər tərəfdən istər çar rusiyası dövründə, istərsə də sovetlər dövründəki qaçaqlar və onlarla mübarizə, qaçaqların sonda dövlətlə mübarizədə məğlub olması kütlələr arasında sovet dövlətinin gücünü simvolizə edir, xalqın mübarizə əzmini qırır, psixoloji təsir yaradırdı.

Sovetlər dövründə, yəni 1984-cü ildə çap olunan qaçaqçılıq hərəkatı ilə bağlı olan növbəti nəsr nümunəsi-povest yazıçı Güllü Məmmədovanın "Qaçaq Quşdan" povesti idi. Povestdə tarixi şəxsiyyət olduğu tarixi mənbələrdə də təsdiqlənmiş(8) Quşdan adlı el qaçağının həyatı, mübarizə yolu işıqlandırılmışdır. Onu deyək ki, yazıçı Quşdan haqqında el dilində gəzən rəvayətlərdən, Quşdanın qaçaqçılıq etdiyi dövrün tarixi materiallarından bəhrələnsə də əsərin mətnindən də göründüyü kimi daha çox təxəyyül imkanlarından istifadə etmişdir. Şahbuz rayonunun Keçili kəndində doğulan bu el qəhrəmnının 1918-1920-ci illərdə, Xalq Cumhuriyyəti illərindəki boşluqdan istifad edən ermənilərin Naxçıvanın müxtəlif bölgələrində törətdiyi qırğınlarda bərkidiyi, doğma diyarını erməni cəlladlarına qarşı müdafiə etdiyi mübarizə yolu işıqlandırılır. Daha sonra, sovet hakimiyyəti illərində Orbelyan adlı ermənin havadarlarının dəstəyi ilə yerli xalqa qarşı divan tutması və Naxçıvanda bu qırğına qarşı dirənən, öz el-obasını müdafiə edənələrin qaçağı olduğu Quşdanın mübarizə yolu sovet hakimiyyətinin hələ də mövcud olduğu gerçəyinin təsiri ilə tam dəqiqliyi, reallığı ilə işıqlandırılmamışdır. Bu əsərdə də ənənəvi olaraq dastan motivlərindən irəli gələrək Quşdanın sonda ölümü sovet hökumətinə tabe olmaqdansa ölümü seçmək kimi dəyərləndirilir, Quşdanın mənvi qələbəsi kimi dəyərləndirlir. Bir məsələni də qeyd edək ki, povestin qələmə alındığı günlərdə Azərbaycan nəsrində özünü göstərən yeni mövzu axtarışları və bu dövrün nəsrinə xarakterik olan məhz milli xarakterlərin ədəbiyyatın qəhrəmanı səviyyəsinə qaldırılması və bundan doğan ədəbi təsirlənmə elementləri bu əsərdə də görünməkdədir. Belə ki, Azərbaycan nəsrinin istedadlı nümayəndəsi, əsərlərində yaratdığı milli xarakterlərlə daha çox diqqəti cəlb edən İsmayıl Şıxlının "Dəli kür" romanı ilə Güllü Məmmədovanın "Qaçaq Quşdan" povesti arasında müəyyən oxşarlıqlar görünməkdədir, daha dəqiqi povestdə "Dəli kür"dən təsirlənmə elementləri özünü göstərməkdədir. Belə ki, povestdəki Soltan bəylə "Dəli kür" dəki Kərbalayi İsmayılın, Kürd İsmayılla Qəmlonun xarakter oxşarlığı, tipiklik göstəriciləri, milli məsələdə olduğu qədər, adət və ənənələrə, etalon dəyərlərə münasibətlərində konkretlik və s. keyfiyyətlər povestdə müəyyən təsirlənmə elementlərinin olduğunu təsdiqləyir. Həmçinin hər iki əsərin süjet xətti, hadisələrin sosial planda verilməsi, sonluqlardakı müəyyən bənzərliklər bu təsirlənmə faktını təsdiqləyir.(7).

Əsərin baş qəhrəmanı olan Quşdan surətli ilk baxışda müsbət planda təqdim olunsa da əsərin müəyyən kiçik detalları müəllifin bu mövqeyinə kölgə salmış olur. İlk olaraq onu deyək ki, mili xarakteri canlandıran yazıçı Quşdan obrazını iradəsiz, zəif planda verir, onun pessimizmi qəhrəmna kimliyinə yaraşmır, fikri tərəddüdləri onun haqqında dərindən düşünməyi gərəkdirir. Belə ki, Quşdana dar günündə sahib çıxan Nurməhəmməd kişinin ölümünə göz yumması, amma dostu Xanışın ölümünə icazə verməməsi obrazın ziddiyətini ortaya qoyur. Düşünürük bu sədaqətdirmi? Quşdanın tərəddüdünün doğurduğu növbəti səhv isə onun amalına kölgə salır. Bəl-

kə də yazıçı Quşdan haqqında onun uğrunda vuruşduğu ideyanı tam müdafiə etməməsi haqda hansısa məlumata mlikdir ki, qəhrəmanını bu şəkildə təqdim edir. Ancaq əsərdə bunu göstərəcək hər hansı detal yoxdur. Quşdanın dilindən verilən "Ara sakitləşənə qədər dağlarda baş girləyirəm"(6, s. 201) –sözləri, yaxud Quşdanın ona sahib çıxan dostları silah yoldaşları haqda dediyi "Əgər onlar olmasaydı mən nə dəstəyə qoşulardım, nə də sovet hökumətinə güllə atardım"(6, s. 252) fikri onun və yazıçı düşüncəsinin ziddiyətini ortaya qoyur. Bir onu demək olar ki, dastançılıq ənənəsində formalaşan haqqa xəyanət edənin ölümünün labüdlüyü gerçəkliyi idi Quşdanın ölümünü zəruri edən.

Povestdə əsas hadisələrin cərəyan etdiyi kimi bir də Naxçıvan gerçəkiliyi vardır. Povestdə Naxçıvanın müvafiq dövrünün siyasi, sosial mənzərəsi yaradılmış, əhalinin yaşam səviyyəsi, məişət şəraiti canlandırılmışdır. Həmçinin yazıçının Naxçıvana bələdliyinin göstəricisidir ki, tarixi şərait dolğunluğu ilə canlandırılmışdır. Naxçıvanda sovet hakimiyyətinin qurulması prosesi, bunu doğuran tarixi şərait, tarixi və ictimai gerçəkliklər müəyyən qədər tarixi həqiqətə uyğun yaradılmışdır. Vurğulanası hal odur ki, yazıçının Naxçıvan təbiətinə bələdliyinin göstəricisidir ki, əsərin sonunda Quşdanın dilindən polis rəisi Mansurova "Daş qaladan Sirab kəndinə yol...var"(6, s. 270), -dedirdir. Naxçıvanla bağlı əsərdə adı keçən yer adları da maraq doğurur. Bu sıraya Daş qala, Sarı dağ, Ballı qaya, Çay Şahbuz,Külüs, Üçqardaş, Ərəci dağı, Qarabağlar kəndi, Toğlu qaya,Şərur(Noraşen), Nəhəcir kəndi, Nəhəcir qalası və qalanın təsviri, Tata düzü kimi yer adları daxildir. Bu adların özü belə Quşdan haqqında yazılan əsərdə Naxçıvan ərazisində maraqlı coğrafiya formalaşdırır. Belə ki, əsərdə müəyyən çatışmamazlıqlar olsa da bədii mətnin özü dövrə aid kifayət qədər informasiya verir. Əsər bütün xüsusiyyətləri ilə Naxçıvan ədəbi mühitinin diqqətəlayiq nümunəsidir.

Haqqında danışdığımız hər üç əsər Azərbaycan tarixi nəsrinin uğurlu nümunəsi, qaçaqçılıq hərəkatından bəhs edən maraqlı əsərlərdir.

Ədəbiyyat

1. Axundlu Y. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər. Bakı: Adiloğlu, 2005, 550 s.
2. Axundlu Y. Azərbaycan sovet tarixi romanı. Bakı: Yazıçı, 1979, 238 s.
3. Bərgüşad C. Bozatın belində. Bakı: Gənclik, 1970, 408 s.
4. Əsədullayev S. Tarix, sənətkar, müasirlik. Bakı: Gənclik, 1975, 80 s.
5. Qasımov H. Dağlara çəkildi.//Azərbaycan. 1964, № 5-6.s.99.
6. Məmmədova G. Mənim üçün varsan. Bakı: Nurlan, 2004, 304s.
7. Şıxlı İsmayıl. Dəli Kür. Bakı: Gənclik, 1977, 408 s.
8. Zeynaloğlu S. Tarixin qanlı yaddaşı. Bakı: Gənclik, 1999, 124 s

Али Гашимов

Нахчывыан в исторической прозе посвященным к движению разбойничества

Резюме

В статье говорится о народных движениях в повести «Отодвинувшие на горах» Гасана Касумова, и в романе «На седле Бозата» Джалала Баргюшадлы.

В обоих произведениях рассуждается идеи народных движений того времени в образе «народного героя Наби», реалистические мотивы этих движений отражающие того времени, путь народного героя Наби, его рол в Нахчыване и реальные исторические процессы тогдашнего Нахчывана.

Ali Hashimov

Nakchivan in the historical prose dealing with smuggling movement

Summary

In the article is talked from Hasan Qasimov's "Daglara çekildi" narrative and from Calal Bergushad's "Boz atin belinde" novel which talking smuggling movement. In the both work is talked be from smug Nabi character,smuggling movement, from suitable times show realites of the time, Also in the article passed fromNabi's as way Nakchivan's played role, it is talked from realites of Nakchivan.

Rəyçi: Hüseyn Həşimli
filologiya üzrə elmlər doktoru

AYBƏNİZ RƏHİMOVA
AMEA Əlyazmalar İnstitutu

TEYMUR BƏY BAYRAMƏLİBƏYOVUN SEÇİLMİŞ ƏSƏRLƏRİNİN İLK NƏŞRİ

Açar sözlər: maarifçi, mədəniyyət, məktəb, Teymur bəy, etnoqraf.
Ключевые слова: Культура, школа, Теймур бек, етнограф просветителя.
Key words: education, culture, school, Teymur bek, ethnographer.

XIX əsrin birinci yarısından etibarən Azərbaycanın ayrı-ayrı şəhərlərində məktəb, maarif və mədəniyyətin inkişafı özünü qabarıq şəkildə biruzə verirdi. Azərbaycan Rusiyanın tərkibinə keçdikdən sonra, ölkə daxilində İranın zəifləməkdə olan hakim nüfuzu, Lənkəran qəzasında daha çox özünü bildirirdi. Bu Lənkəran ziyalı və mülkədarları arasında maarifə, təhsilə olan münasibətdə də aydın görünməkdə idi. Rus təbəəsinin özləri üçün açdıqları məktəblərə müsəlman-mülkədar övladları da həvəs göstərərdi. Mənbələr bildirir ki, bu məktəblərə müsəlman uşaqları arasında meylin güclənməsini görən general Yermolov rus dili ilə yanaşı Azərbaycan dilinin də tədrisini təşkil etdirir və beləliklə, müsəlman oğlan uşaqları rus və digər millətlərlə bərabər təhsil alırlar.

1927-ci ildən başlayaraq Zaqafqaziya üzrə qəza məktəblərinin açılmasına qərar verilir. Azərbaycan əyalətlərinə sürətlə yayılan bu məsələ Lənkəranda da müsbət qarşılanır. Lakin, müvafiq şəraitin olmaması, ən əsası isə, məktəb binalarının yoxluğu, prosesin ləngiməsinə səbəb olur. Faktlar göstərir ki, belə ləngimələr Lənkəranda maarifin inkişafının qarşısını ala bilmirdi. Kökü qədimlərə gedən dini xarakter daşısa da, insanların maariflənməsində böyük rol oynayan köhnə tipli məktəbləri və mollaxanaları fərdi yolla şəxsi evlərdə təşkil olunmuş rus, alman, fransız dillərini və bunlarla yanaşı digər dünyəvi fənlər öyrətməyə müvəffəq olan yeni tipli tədris ocaqları əvəz edirdi. Dərslər mülkədarların həyətlərində və evlərində təşkil olunur, təhsilin bu şəkildə yayılması insanların tam olmasa da, müəyyən hissəsinin savadlanmasına kömək edirdi.

1850-ci ildə Lənkəranda "müsəlman məktəbi" açılır. Məktəbin təsis edilməsində yerli əhali yaxından iştirak edirdi. Əhalinin səyi ilə toplanan ianə məktəb təchizatına sərf olunurdu. Məktəb avadanlığının alınmasında və başqa maddi işlərin təşkilində Lənkəranın mütərəqqi baxışlı ziyalılarının xüsusilə də, Mir İbrahim Talışinskinin, Mirəlibəy Talışxanovun, Mirzə Məmmədəli Səfiyevin fədakar əməyi, təqdirəlayiq xidmətləri olmuşdur ki, bu, Lənkəranın maarifçilik tarixndə daim yüksək qiymətləndirilmişdir.

"Müsəlman məktəbi"nin kursları şəhərin tərəqqipərvər şəxsləri tərəfindən aparılırdı. Rus dili Mirzə Məmmədəli Səfiyev, digər fənlər isə Molla Ələkbər Zahidovun iştirakı ilə pulsuz tədris edilirdi. "Müsəlman məktəbi" mütərəqqi əhəmiyyətinə görə mollaxanalardan əsaslı surətdə fərqlənsə də dövrünün tələblərinə cavab vermirdi.

1856-cı ildə, Lənkəranda dövlət tərəfindən "Pervonacalnoe ucilise" adı altında ilk ümumtəhsil ibtidai məktəb açıldı. Pulsuz fəaliyyət göstərən ibtidai məktəbdə təbəqə prinsipi yox idi. Müxtəlif tərkibli bu məktəbdə dövlətli və kasıb uşaqları yana-

şı təhsil ala bilirdilər. İbtidai məktəbdə sayına görə müsəlman uşaqları üstünlük təşkil edirdi. Lənkəran uşaqları təlimə böyük həvəs göstərir və aralarında çox qabiliyyətli gənclər yetişirdi. İbtidai məktəb fəaliyyət göstərdiyi müddət ərzində yüksək müvəffəqiyyətlər qazanmışdı.

1860-70-ci illərdə Lənkəranda yeni dörd sinifli "üsuli-cədid" deyilən məktəb təsis edilmişdir ki, bu təhsil ocağı Lənkəranın mədəni-maarifinin tərəqqisində müstəsna xidmətləri olmuş şair Mirzə İsmayıl Qasir tərəfindən təşkil edilmişdir. M.İ.Qasir burada dərs dediyi müddətdə İrandan gələn çərəkələri bəyənməz, yeni tədris proqramları və dərslikləri özü tərtib edərdi. Sonralar M.İ.Qasir müəllimlik fəaliyyətindən və başına yığılan nümunəvi şagirdlərini şeirlərində fəxarətlə tərənnüm edirdi. Bu məktəbin məzunlarının demək olar ki, hamısı gələcəyin ən qabaqcıl ziyalıları olmuşlar.

Savadsızlığa qarşı mübarizə dalğası bütün ölkəni bürüdüyü zaman, Lənkəran mühitində maarifçilik ənənələrinin davamçıları yetişməkdə idi. Belə gənclərdən biri də, Teymur bəy Bayraməlibəyov idi. O, ömrünün çox hissəsini demək olar ki, Azərbaycan xalqının mədəni inkişafı və yüksəlişinə həsr etmiş, onun maariflənməsi yolunda əlindən gələni əsirgəməyən dövrünün yüksək intellektual ziyalısı olmuşdur.

Teymur bəy Məmməd bəy oğlu Bayraməlibəyov 1862-ci ildə Lənkəran şəhərinin Yeddioymaq kəndində dünyaya göz açmış ilk təhsilini kənd mollaxanasında almış, ərəb-fars dillərinə yiyələnmişdir. Mütərəqqi fikirli valdeynləri inkişafını düşünərək, təhsilini davam etdirmək üçün onu Lənkərandakı ikiillik rus məktəbinə vermişlər. Teymur bəy bu məktəbi bitirdikdən sonra, 1875-ci ildə Tiflis şəhərində feldşer məktəbinə daxil olur. Bu məktəbi 1879-cu ildə orta tibb təhsili alaraq müvəffəqiyyətlə başa vurmuşdur.

1879-cu ildə qori Müəllimlər seminariyası nəzdində Azərbaycan şöbəsinin təşkilatçısı A.Çernyayevski tərəfindən seminariyada təhsil almaq üçün cəlb olunan üç nəfər azərbaycanlı gənclər arasında Teymur bəy Bayraməlibəyov adlı oxmağa can atan bir tələbə də var idi ki, onu seminariyanın 2-ci kursuna qəbul etmşdilər. 1881-ci ildə Teymurbəy Müəllimlər Seminariyasını bitirib, doğma vətəninə dönmüş və ikisinifli rus məktəbində rus dili və riyaziyyat müəllimi kimi fəaliyyətini davam etdirmişdir. Bu illərdən başlayaraq o bütün ömrünü savadsızlığa və cəhalətə qarşı mübarizəyə sərf edir.

T.Bayraməlibəyov bir müddət Lənkəranın qocaman müəllimi M.İ.Qasirlə birlikdə şəhər məktəbində riyaziyyatdan dərs demişdir. Onların bərabər səyi nəticəsində məktəb bir çox nəaliyyətlər əldə edir. T.Bayraməlibəyov təkcə dərs deməklə kifayətlənmir, xalqın maariflənməsi yolunda çalışır. Lənkəranın kəndlərini gəzir, təbliğat vasitəsi ilə məktəbə şagird toplayırdı. Lakin bunun müqabilində bəzi cahillərdən "allahsız", "babi" kimi adlar da qazanırdı.

Teymurbəy xeyriyyəçilik məqsədi ilə məktəb səhnəsində teatr tamaşaları təşkil edir, bu yolla yığılan pullar məktəbin ehtiyaclarına və yoxsul ailələrin yardımına sərf olunurdu. Beləliklə, T.Bayraməlibəyov 1880-ci ildə dram dərnəyi yaradır və ilk dəfə N.B.Qoqolun "Evlənmə" əsərini səhnəyə qoyur.

1884-cü ildə Teymurbəyin rəhbərliyi ilə işlədiyi məktəbin imkansız şagirdləri üçün, bu dəfə rəsmi olaraq "Xeyriyyə cəmiyyəti" təşkil olunur və bu cəmiyyətin hesabına pulsuz yemək, paltar, dərslik və dərs vəsaitləri verilir.

Xalqının mədəni rifahını daim düşünən və bu yolda çalışan Teymur bəy Bay-

raməlibəyov mənbələrin verdiyi məlumatlara əsasən, ilk dəfə Lənkəran məktəbinin tarixini yazmaq təşəbbüsündə olmuşdur. 1906-cı ildə öz şəxsi vəsaiti hesabına Lənkəranda "Rus-Azərbaycan" ictimai qiraətxanasının yaranmasında da böyük zəhmətlər çəkmişdir. Teymurbəyin səyi nəticəsində yaranan qiraətxananın fəaliyyəti uzun sürməmiş, az zaman kəsiyində hakim dairələrin təsiri ilə "hökumətin əleyhinə təbliğat ocağı" adlandırılaraq bağlanmışdır. Bu dövrdə millətin ən böyük bəlası olan savadsızlığı aradan qaldırmaq üçün öz inədkar səyi ilə qarşısına çıxan maneələr Teymurbəyi tutduğu yoldan nəinki çəkindirir, əksinə irəli sürdüyü yeni-yeni ideyalara çatmaq arzusu ilə o, irəliləyir və bu yolda yetərincə nailiyyətlər əldə edir. Görkəmli maarifçi 1907-ci ildə 5 sinifli orta məktəb səviyyəsində fars, azərbaycan, ərəb, rus dilləri ilə yanaşı, riyaziyyat, coğrafiya, rəsm və xəttatlıq fənləri keçirilən "Behcət" adlı məktəbin açılmasına nail olur və özü də burada rus dili dərsi deyir. Məktəb üç il aktiv fəaliyyət göstərdikdən sonra bağlanır və təşkilatçısı Teymur bəy inqilabi fikirlər yaymaqda suçlanır və həbs olunaraq Bakıya göndərilir. O, ağlı və bacarığı ilə günahsızlığını və ona atılan böhtanların əsassız olduğunu sübuta yetirir. Bir müddət Bakıda nəzarətdə qaldıqdan sonra yenidən Lənkərana dönür və əmək fəaliyyətinə başlayır.

Tərəqqipərvər T.Bayraməlibəyov ömrünün çox hissəsini xalqın maariflənməsinə sərf etmişdir. 1909-cu ldə "Ziya" adlı rus-tatar məktəbi, 1910-cu ildə Lənkəranda 4 sinifli ibtidai məktəb, 1913-14-cü illər şəxsi təşəbbüsü ilə evində 3 sinifli ibtidai məktəb və sairə onun iştirakı ilə yaranmışdır. 1918-ci ildə Bakıda qızlar məktəbinin yaranmasında da Teymur bəyin böyük xidmətləri olmuşdur.

XX əsrin əvvəllərində Azərbaycanın bütün mərkəzlərində olduğu kimi, Lənkəranda da müsəlman qızlarının təhsili üçün ümumi məktəb yox idi. Ümumi məktəblər başqa millətlərdən olan qızlar üçün fəaliyyət göstərsə də, 20-yə yaxın müsəlman qızları müxtəlif ziyalı bəylərin həyətlərində açılmış tədris ocaqlarında təhsil alırdılar. Fərdi yolla təhsil sistemi Azərbaycan qadınlarının savadsızlığını aradan qaldıra bilməzdi. Millətin gələcəyini düşünən maarifpərvər Teymur bəyi müsəlman qadınına olan laqeyd münasibət və cəmiyyətdə, ailədə mənəvi geriliyi, hüquqsuzluğu son dərəcə narahat edirdi. Övlad böyüdən qadının maariflənməsinə biganəliyi, gələcək nəslin inkişafına vurulan zərbə kimi qiymətləndirir və bu məsələyə münasibətdə dövlət adamlarını günahlandırırdı. Müsəlman qadınının savadsızlığını aradan qaldırmaq məqsədilə dövrün aparıcı qəzetlərində vaxtaşırı məqalələrlə çıxış edir, bu problemi ictimai-siyasi mühitlə bağlayır və qızlar məktəbinin açılmasına mane olan amilləri rəsmi dəftərxana formalizmi adlandırırdı. Çox maneələri dəf edən Teymur bəy, nəhayət 1917-ci ildə Lənkəranda "Ünas" qızlar məktəbinin əsasını qoyur. Milli mədəniyyətin yorulmaz təbliğatçısı Teymur bəyin illər boyu xalqın maariflənməsi üçün etdikləri çar hökuməti tərəfindən, inqilabi fikirlər yaymaqda təqsirləndirilir və Bakıya göndərilir. Bir müddət qapısı bağlı qalan qızlar məktəbi isə, 1918-ci ildə çar Rusiyasının süqutundan sonra, T.Bayraməlibəyovun səyyi və təkidi ilə dövrünün qabaqcıl ziyalısı olan böyük qızı Məryəm xanımın ağır zəhməti hesabına fəaliyyətə başlayır. O. atasının yolunu ləyaqətlə davam etdirir, onun ideyalarını həyata keçirirdi. Yüksək təşkilatçılıq qabiliyyətinə malik olan Məryəm xanım, bu məktəbə özü rəhbərlik edirdi. Lənkəran qızlar məktəbi Azərbaycanın ziyalı qadınlarının yetişməsində böyük əhəmiyyət kəsb etmişdir.

1918-1937-ci illər arası Teymur bəy Bakıda yaşamış və bu müddət ərzində pedaqoji fəaliyyətini davam etdirmişdir.

Teymur bəy iti qələm sahibi idi. Onun peşəkar publisist kimi yetişməsində bir çox qəzetlərin, əsasən də "Kaspi" (1893-1917), azərbaycan və rus dillərində nəşr olunan "Azərbaycan" qəzetlərinin böyük rolu olmuşdur. Bundan başqa o "Tiflisskiy listok". "Rıbnoe delo", "Baku", qəzetlərdə dərc etdirdiyi məqalələrində dövrün ictimai-siyasi problemlərinə bir ziyalı, millətini sevən vətəndaş, demokratik düşüncəli publisist kimi, görüb-şahidi olduqlarını qələmə almış yazılarında kəskin münasibət bildirmişdir.

T.Bayraməlibəyovun əsərləri ilə tanışlıq onun həyatı və fəaliyyəti haqqında geniş təsəvvür yaradır, eyni zamanda maarifçi, folklorşünas, publisist, etnoqraf olmasından xəbər verir. O, əsərlərini müəmmalı "Starıy pedaqoq", "Lenkoraneц", "Mectatel", "A" (Alibekov), "M" (Mamed bek oqlı), "T" bek, "Mozalan" və sairə imzalarla yazırdı.

T.Bayraməlibəyovun müxtəlif sahələrə, ictimai-siyasi, ədəbiyyat-mədəniyyət, tarix-etnoqrafiyaya, tibbə, məişət məsələlərinə həsr etmiş bir sıra əsərləri vardır ki, bunların bir qismi də, AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun xəzinələrində qorunmaqdadır.

2012-ci ildə "Elm və Təhsil" nəşriyyatında 356 səhifədən ibarət Teymur Bek Bayramalibekov "İzbrannıe proizvedeniя" adlı kitab onun arxivindəki əlyazmaları əsasında çapdan çıxmışdır. Pedaqoji fikir tariximizdə xüsusi yeri olan T.Bayraməlibəyovun bu kitabda tarixə, etnoqrafiyaya, folklora aid əsərləri cəm olunmuşdur. Kitab Əlyazmalar İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Esmira Cavadovanın gərgin əməyinin məhsuludur. Əsər, E.Cavadovanın 28 səhifəlik T.Bayraməlibəyovun həyat yolunu, yaradıcılığını əhatəli şəkildə işıqlandıran ön sözlə başlayır. Burada, E.Cavadova T.Bayraməlibəyovun millətinin maariflənməsi yolundakı böyük xidmətlərindən, onun publisistikasının təməlini qoyan məqalə və çıxışlarından danışır, peşəkar jurnalist kimi yetişməsində o zamankı "Kaspi", "Azərbaycan", "Bakı", "Tiflisskiy listok" və sairə qəzetlərin rolunu izah edir. Millətə olan yüksək xidmətləri ilə yanaşı onun həm də gözəl ailə başçısı kimi, özünə və xalqına layiqli, zəmanəsinin ən yüksək təhsilini görmüş, 5 oğul, 4 qız, ziyalı övladlarının yetişməsində göstərdiyi təsirdən bəhs açmışdır.

Görkəmli maarifçinin azərbaycan tarixinə, etnoqrafiyasına, folkloruna dair çox maraq doğuran 34 əsəri ilk dəfə təqdim olunaraq işıq üzü görmüşdür. T.Bayraməlibəyovun əsərləri ona xas olan yüksək xüsusiyyətləri açıqlayır, onun bir tarixçi, etnoqraf, folklorşünas, publisist kimi professionallığından xəbər verir. Teymur bəy əsərlərini dövrünün tələblərinə uyğun rus dilində yazırdı. Ədibin hal-hazırda haqqında danışdığımız yeni nəşri olan seçilmiş əsərləri də olduğu kimi rus dilində nəşr edilmişdir.

Maraqlı burasıdır ki, müxtəlif sahələrə aid materiallar əldə etmək üçün kəndbəkənd gəzən T.Bayraməlibəyov, topladığı materialları ictimaiyyətə, yuxarı dairələrə çatdırmaq üçün rus dilində yazır və bu dilə tərcümə edirdisə də, xalq nümunələrinə məxsus spesifik xalq dilini böyük ustalıqla qoruyub saxlamaq qabiliyyətinə malik idi. T.Bayraməlibəyovun əsərlərinə nəzər yetirdikcə aydın olur ki, istər folklor nümunələrinin toplanmasına, istərsə də digər sahələrə aid materialların yığılmasına çöx böyük maraq göstərmiş və məsuliyyətlə yanaşmışdır. Əsərlərin sonunda ha-

radan toplanması, kim tərəfindən söylənməsi, qeydə alınma tarixi çox dəqiqliklə verilmişdir.

T.Bayraməlibəyovun nəşr olunmuş əsərləri Talış xanlığının tarixi, Lənkəran keçmişdə, Lənkəran qəzasının coğrafi vəziyyəti, müxtəlif türk, talış, osetin, gürcü, fars və sairə xalqlara məxsus əfsanələr və lətifələrdən, torpaqşünaslığa, bağçılığa aid əsərlərdən ibarətdir. Oxucuların diqqətinə təqdim olunan kitab AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda qorunan T.Bayraməlibəyovun zəhməti hesabına toplayıb yazdığı əlyazmalarının əsasındadır. Ön sözdə E.Cavadova haqlı olaraq yazır: "Onun yaradıcılığı geniş diapazonuna və çoxşaxəliliyinə görə insanı heyrətləndirir". Həqiqətən də T.Bayraməlibəyovun əsərlərinin məzmunu onun geniş dünyagörüşlü, hərtərəfli bilik dairəsinə malik olmasından xəbər verir.

T.Bayraməlibəyov vaxtı ilə Talış xanlığının tarixini yazmışdır. Bu əsər məşhur xeyriyyəçi, general mayor Mir-İbrahim xan (el arasında o, yaranal ləqəbi ilə tanınırdı) və Mir-Əsgər xan Talışinskilərin verdiyi məlumatlara görə və onların məsləhəti ilə Mir-Mustafa xanın dəftərxanasından götürülmüş faktlar, sənədlər əsasında qələmə alınmışdır. Teymur bəyin qeydinə görə, Mir-Əsgər xan Talışinskinin köməyi ilə bu məlumatları farscadan rus dilinə özü tərcümə etmişdir. Teymur bəy bu barədə yazırdı: "1885-ci ildə Lənkəranda yazdığım "Talış xanlığının tarixi" əsərinin xanlığa dair əksər məlumatları xan dəftərxanasından əldə etdim, Kotlayarevskinin Lənkərandakı döyüşləri barəsindəki faktları isə, B.A.Pottonun «Утверждение русского владычества на Кавказе» adlı əsərindən almışam". Kitabın 35 səhifəsini əhatə edən Talış xanlığının tarixi geniş təfsilatı və həm də bədii dili ilə maraq doğurur və oxucunu düşündürür. Kitabda yer alan digər əsərlər də "Lənkəran şəhərinin yaranması haqqında Talış əfsanəsi", "Yatmış şahzadə haqqında türk xalq əfsanəsi", Böyük fateh Makedoniyalı İsgəndərə həsr olunmuş türk xalq əfsanəsi, Fars xalq əfsanəsi "III Ezdəgird", "Fətəli-şah Qacara və varisi Abbas Mirzəyə həsr olunmuş türk xalq əfsanəsi və s. diqqəti çəkəcək qədər maraqlıdır. Teymur bəy Şah Abbas haqqında Talış əhalisinin söylədiyi əfsanə və lətifələri diqqətlə dinləmiş və müəyyən qeydlərlə qələmə almışdır. Onu da qeyd edək ki, Şah Abbasla əlaqəli müxtəlif əfsa-nələr kitabda çoxluq təşkil edir.

Kitabın 350-ci səhifəsində "Talış lətifələri" başlıqlı yazı yerləşir ki, bu lətifələri T.Bayraməlibəyov kəndləri bir-bir gəzərək, insanların dilindən toplamışdır. Lətifələrin sonunda Teymur bəy qeyd edir ki, "Əsgər xan, Sadıq xan, Bağır xan, Mehdi xan, İsmayıl xan Talışinskilər bu lətifələrin həqiqətdə olmuş hadisələr əsasında yaranmasını təsdiq etmiş, mən isə, bu lətifələri 1895-ci ilin aprel ayında Lənkəran şəhərində qələmə almışam".

T.Bayraməlibəyovun əsərləri arasında özünün təşəbbüsü ilə yaranan fars-türk məktəbi "Behcət" haqqında da məlumat xarakterli məqaləsi öz əksini tapmışdır. Bu məqalədə T.Bayraməlibəyov "Behcət" məktəbini belə təsvir edir: "200 nəfər şagirddən ibarət olan bu məktəbdə 5 nəfər müəllimin iştirakı ilə fars, türk, ərəb, rus dilləri, şəriət, riyaziyyat, coğrafiya fənləri keçirilirdi".

"Behcət" fars məktəbi olsa da, İranın rəsmi dairələri tərəfindən onun fəaliyyətinə heç bir vəsait sərf edilmirdi. Ancaq məktəb yerli əhalinin hesabına qüvvədə qalırdı. Məktəb 3 illik təhsil verməsinə baxmayaraq, çox yüksək nümunəvi nəticələri ilə seçilirdi.

T.Bayraməlibəyovun tərəqqipərvər ideyaları, Azərbaycan maarifinin inkişafında əhəmiyyətli dərəcədə rolu ilə yanaşı, əsərləri folkloru, tarixi etnoqrafiyanı öyrənmək baxımından zəngin material verir.

T.Bayraməlibəyovun ədəbiyyat və mədəniyyətimiz üçün çox dəyərli olan əsərlərini arxiv materialları arasından tapıb üzə çıxaran E.Cavadovanın zəhməti xüsusi qeyd olunmalıdır. Tərtibçinin bu nəşri T.Bayraməlibəyov barədə yazılan və tərtib edilən yeganə əsər deyil. Onun Teymur bəyin həyatı və yaradıcılığına aid bir sıra silsilə məqalələri, 2009-cu ildə "Nurlan" nəşriyyatında çapdan çıxan "O, həm də görkəmli etnoqraf idi" adlı monoqrafiyası bu sahədə gələcək tədqiqatçılar üçün bir mənbə, bir nümunədir. Teymur bəy Bayraməlibəyovun "Seçilmiş əsərləri" adlı kitabın elmi məsləhətçisi akademik T.Bünyadov, redaktoru isə filologiya elmləri doktoru P.Kərimovdur.

Ədəbiyyat

1. Таирзаде Н. Просветительская и научная деятельность Теймур бека Байрамалибекова (1862-1937). - //Известия Академии Наук Азербайджанской ССР Серия истории, философии и права, 1974, №2, с.19-29.
2. Məmmədov X. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan maarifçi realist ədəbiyyatı. – //Bakı, 1978, s.7-8.
3. Наджафов А. Рукописи Теймур бека Байрамалибекова. - //Газета «Элм», 1997, №7.
4. Ağazadə Y. Teymur bəy Bayraməlibəyov və folklor. - //Bakı, "Nurlan", 2003, 170s.
5. Azərbaycan Xalq Təhsili Muzeyi, qovluq 106.
6. Джавадов Г. Рукописи Теймур бека Байрамалибекова как источник изучения этнографии Азербайджана. /Материалы научно-теоретической конференции «Рукописи средних веков и проблемы истории Азербайджана. - //Баку, 1992, -с.11-14.
7. Керимов Е. Взгляды Т.Байрамалибекова на фольклор и этнографию. - //Археология и этнография Азербайджана, т.1.-//Баку, 2004, -с.24-32.
8. Cavadova T. Teymur bəy Bayraməlibəyovun elmi irsində Azərbaycan xalqının mənəvi mədəniyyəti problemlərinin əksi. -//Tarix və onun problemləri, Bakı, 2004, №3. –s.237-248.
9. Cavadova E. "... O həm də görkəmli etnoqraf idi". -//Bakı, "Nurlan", 2009, -204s.
10. Паша Алиоглы. Страницы жизни Теймур бека Байрамалибекова (О монографии Э.Джавадовой… Он был еще и выдающимся этнографом. -// «Каспий», 2009, 26-го сентября. –с.9.
11. Теймур бек Байрамалибеков. «Избранные произведения», Джавадова Е. - //Баку, «Элм ве техсил», 2012. – 356с.
12. Cavadova E., Kərimov B. Görkəmli maarif xadimi Teymur bəy Bayraməlibəyov ocağının davamçıları. -// "Üç əsrin qəzeti "Kaspi", Bakı, Qanun nəşriyyatı, 2011. – s.218-233.
13. Cavadova E. Teymur bəy Bayraməlibəyov – 150 Teymur bəy Bayraməlibəyovun etnoqrafik görüşlərinin bəzi məsələləri. -// "Kaspi", 2012, 9-11; 12; 13 iyun (3 məqalə).
14. Talışlı M. "125 yaşlı məktəb". Bakı, 1983, 53s.

Айбениз Рахимова

Первое издание избранных произведений
Теймур бека Байрамалибекова
Резюме

Данная статья посвящёна книге доктора философии по истории Эсмиры Джавадовой «Избранные произведения Теймур бека Байрамалибекова», написанной ею на основе архивных материалов и рукописей, хранящихся в Институте Рукописей имени Мухаммеда Физули Национальной Академии Наук Азербайджана, отражающих жизнь, общественную деятельность и творчество видного просветителя, публициста, фольклориста и этнографа Теймур бека Байрамалибекова.

В книге рассмотрены, проанализированы и высоко оценены колоритные произведения Теймур бека Байрамалибекова по истории, этнографии, фольклору и медицине, а также повествуется о поэтапном развитии образования в азербайджанском городе Ленкорань в XIX-XX веках, о жизненном пути выдающегося просветителя того времени, посвятившего большую часть жизни культурному развитию и возвышению своего народа, учёного с высоким интеллектом, сделавшего все возможное для просвещения.

Aybeniz Rahimova

The first publication selected works by Teymur bek Bayramalibeyov
Summary

This article is dedicated to the book by philosophy doctor on history Esmira Javadova titled «Selected works of Teymur bek Bayramalibeyov», written on the basis of manuscripts and archive materials stored at the Institute of Manuscripts named after Muhammad Fuzuli of the Azerbaijan National Academy of Sciences, reflecting a life, public service and scientific work of the prominent enlightener, publicist, folklorist and ethnographer Teymur bek Bayramalibeyov.

The book studied, analyzed and highly assessed the colourful essays by Teymur bek Bayramalibeyov on history, ethnography, folklore and medicine, as well as narrates about the phased development of the education in the city Lenkoran, Azerbaijan, in the XIX-XX centuries, and also about the life of the prominent enlightener of the time brought up by his era, who devoted the most part of his life to the cultural development and rising of the his people, the highly intellectual scientist who did everything for education.

Rəyçi: Azadə Musabəyli
filologiya elmləri doktoru, professor

ŞƏLALƏ QULİYEVA
BDU-nun "Televiziya və radio jurnalistikası" kafedrasının dissertantı
selale_meh@mail.ru

RADİODA XƏBƏR MƏTNİNİN HAZIRLANMASI

Açar sözlər: Azərbaycan radiosu, Son xəbərlər, Xəbərlərin əsas buraxılışı, Baş redaktor, diktor.
Ключевые слова: Радио Азербайджана, Последние новости, Основной выпуск новостей, Главный редактор, диктор
Key words: Azerbaijan radio, the latest news, main issue of the news, managing editor and announcer.

Azərbaycanda ilk dəfə radioda "Son xəbərlər" 1932-ci ildən fəaliyyətə başlayıb və bugünə kimi də həmin termin radio lüğətində işlək sözlərdən biridir. O vaxtlar efirə verilən "radioqəzet"lər (ingilis dilində "radio newspaper" - əsas məqsədi geniş informasiya vermək yolu ilə təşviqat aparmaq olan ilk radio materiallardan biri; efirə verilən xəbərlər toplusu. 5.s.224) mətbuatın gündəlik informasiyaları üzərində qurulurdu. Forma və üslubuna görə yeni efir materialı, hadisəni hər kəsdən birinci xalqa söyləmək istəyi nəticəsində xəbər jurnalistləri, reportyorlar fəaliyyətə başladı.

Professor Nizami Xudiyev yazır: "Radioqəzetə nisbətən "Son xəbərlər" daha çox operativ tutuma malik idi və deməli, hər gün radio ilə verilən ictimai-siyasi informasiyaların həcmini əhəmiyyətli dərəcədə artırırdı, informasiyaların operativlik səviyyəsini hiss olunacaq dərəcədə yüksəldirdi, yəni hadisə ilə kütləvi dinləyici auditoriyasının xəbəri eşidib qavraması arasındakı zaman intervalını qısaldırdı". (3. s.38).

Xəbərlərin yaranışı ilə radioda informasiyanın təqdimatının yeni aspektlərdə işlənməsi prosesinə start verildi. Ancaq, xəbərin necə hazırlanması, onun radio dilində hansı üslubda işlənməsi, mövzu axtarışına jurnalistin hansı yollarla nail olması və s. peşə məsuliyyəti tələb edən bir sıra amillər gündəmə gəldiyindən, bu sahə böyük bir inkişaf mərhələsi adladı. Beynəlxalq təcrübəyə əsasən söyləmək olar ki, forma və məzmunca daima yenilik axtarışında olan dünya radiolarının xəbər seçimində özəl yanaşmalar mövcuddur.

"Reportyorun vəzifəsi görmək, eşitmək, duymaq və hadisəni öz auditoriyasına çatdırmaqdır. Söhbətin aparıcısı yoxdursa, xəbər də olmayacaq. Söhbət aparanın özü hadisəyə həvəs və maraq göstərməlidir ki, şövqlə danışa bilsin."(1.s. 12)

Baş vermiş hadisə barəsində məlumat verən reportyor xəbəri özünküləşdirməli, sonra onu efirə asan dildə, başa düşülən tərzdə təqdim etməlidir. Xəbərlər bu sahə ilə məşğul olan əməkdaşların gərgin əməyi nəticəsində hazırlanır. Ona görə də xəbər jurnalisti ilə, radionun digər veriliş redaktorları arasında xüsusi fərq var. Birincisi, hər ikisi radio əməkdaşı hesab edilsə də, onların işlədiyi, çalışdığı redaksiyalar (hazırda bir neçə redaksiya-departament adı altında birləşib) tamamilə fərqlidir və üslubda da ayrı-ayrı janrlardan istifadə edirlər.

Publisistikanın ən geniş yayılmış informasiya janrı bir neçə formanı özündə cəmləşdirir. İnformasiya janrları qrupuna aid olan xronika, xəbər, müsahibə, hesabat, reportaj reportyordan operativlik, hadisələrə geniş nöqteyi-nəzərdən baxmaq və doğru-dürüst məlumat hasili tələb edir. Ədəbi verilişlərdə isə ədəbi-bədii duyumu yüksək olan, dinləyicidə ovqat yarada bilən söz adamları, yəni radionun auditoriyası ilə ünsiyyət qurmağı bacaran peşəkarlar çalışmalıdır...

Xəbərin mətninin hazırlanması prosesi yeni əməkdaşlar üçün bir qədər çətin hesab edilir. Ona görə də uzun illərdir ki, radioda ştatdankənar müxbirlər xəbər hazırlanması prosesinə cəlb edilir, hətta illərlə təcrübəyə yiyələndikdən, müəyyən yazı vərdişləri əldə etdikdən sonra əsl xəbər redaktoru adını qazanırlar. "Xəbərlər redaksiyası"nda çalışmağın özəlliyi nədədir, xəbər mətni necə yazılmalıdır, hansı xəbərlər efirə verilə bilər və s. məsələlər ətrafında həmişə qızğın mübahisələr var.

Gans Herbet J. yazır: «baş vermiş hər bir hadisə xəbərdir, insanlar nə barədə danışırsa, nəyi bilməyə ehtiyacı varsa, hansı xəbərdən həyəcanlanırsa..., jurnalist xəbəri yazmazdan əvvəl özü anlamalı, hər gün media xəbərlərini, televiziya, radio və onlayn xəbərləri izləməlidir ki, xəbəri tam şəkildə başa düşsün və sonra onu yazıb, ərsəyə yetirsin».(2.14)

Son dövrlərdə KİV-in çoxalması, informasiya cəmiyyəti quruculuğu istiqamətində atılan addımlar mətbuatın bolluğuna, xüsusilə teleradioların genişlənməsinə imkanlar yaradır. Cəmiyyətdə baş verən hər bir nüansdan, xırda hadisədən anındaca xəbər tutmaq imkanımız var. Bu sivilizasiyalı ölkələr üçün normal haldır və ölkəmizdə söz azadlığının bir nümunəsi hesab edilir.

Hadisə baş verən anda onu dinləyicinin eşitməsi ilə bağlı münasibətə gəlincə bu məsələ barəsində radionun tədqiqatçı alimləri çox fərqli düşünürlər. Elə hadisələr var ki, efirdə səslənməsi radio üçün məqbul sayılmır. Alimlər hesab edir ki, jurnalistikada, xüsusən televiziya və radioda xəbəri kütləyə çox yumşaq halda təqdim etmək lazımdır. Çünki auditoriyanın yaş fərqi müxtəlifdir, yaşlı insanların tükürpədici xəbərlərdən qulağı eşitdiyi anda sarsılması mümkündür. Məsələn, yolda sükan arxasında əyləşən yaşlı bir sürücü radionu dinləyəndə eşidir ki: "bu gün yanğın hadisəsi olub, ana iki azyaşlı uşağını xilas etmək üçün özünü alova atıb, ancaq hər üçü diri-diri yanıb". Bu xəbərin daha da diqqət çəkməsi üçün ona əlavə effektlərin verilməsi, olayın məkanından yayılması, hadisənin "qəhrəmanları"nın çığırtısı, kömək imdadı, yanğınsöndürən və təcili yardım maşınlarının həyəcan siqnalı və s. səslər, təbii effektlər hadisənin bütün detallarını qabardır, xəbərin təsir gücünü artırır. Hər bir dinləyici isə bunu "həzm etmək", ən ağır xəbərləri dinləmək gücünə qadir deyil. Ürəyi xəstə olan bir dinləyicinin qulağı çaldığı ağır xəbər həyatına təhlükə yarada bilər.

Əfsuslar olsun ki, bu gün Azərbayan teleradio məkanında jurnalist peşə tələblərini ön plana çəkərək ağır hadisələrin, kriminal situasiyaların işıqlandırılması məsələsində insan faktoruna - dinləyici, tamaşaçı auditoriyasının psixoloji durumuna çox ciddi fikir vermir. Həm də unutmaq olmaz ki, radio və televiziya xalqın danışıq dilidir, birbaşa təsir gücünə malikdir. İki nəfər söhbət zamanı ağır xəbəri qarşı tərəfə çox yumşaq halda söylədiyi kimi, efir və ekranda da sözün deyilişinə böyük ustalıqla yanaşılmalı, eyhamla, üstüörtülü çatdırılmalıdır. Xüsusən televiziyalarda «sözaltı məna» ilə fikir təqdim olunur.

Son vaxtlar efirləri bürüyən kriminal hadisələrə aid xəbərlər də xoşa gələn reaksiya doğurmur. Birincisi, hadisənin ən dəhşətli məqamları xəbərin mətnində öz əksini tapır, ikincisi, həddindən çox belə xəbərlərə yer ayrılması elə təsəvvür yaradır ki, guya cəmiyyətdə özbaşınalıqdır, kim kimi istəsə vurub öldürür, insanlar narazıdırlar, qanunlar kobud şəkildə pozulur və.s.i. Xəbər düzümündə belə kriminal cinayətin təfərrüatlarına geniş yer verilməsi, günün «baş xəbəri»nə seçilməsi ölkənin digər mühüm, vacib xəbərlərini arxa plana keçirir. Belə xəbərlərin işıqlandırılması üçün jurnalistin gərgin əməyinə ehtiyac yoxdur. Hüquq mühafizə sisteminin əməkdaşları ilə sıx əlaqələr quraraq, hər hansı olay barəsində qısa zamanda məlumat alır və onu bir az "şişirdərək" ictimaiyyətə açıqlayır. Bununla jurnalist rahat şəkildə öz fəaliyyətini qurmuş və gündəlik planını yerinə yetirmiş olur.

Azərbaycan teleradio məkanında səslənən kriminal xəbərlər, xüsusilə ailə-məişət zəminində baş verən qətllər, qadınların ərlərini öldürməsi faktları, övladın valideyn qatili olması, "Facebook" sosial şəbəkəsinin ailə mənəviyyatına mənfi təsiri nəticəsində yaranan əxlaqa zidd cinayətlər və s. günü-gündən artan qanlı olaylar millimənəvi dəyərləri şübhə altına salır. Əslinə qalanda bütün ölkələrdə belə hadisələr yetərincədir. Onu radionun xəbər buraxılışında günün əsas hadisəsi kimi təqdim etməyə heç bir lüzum yoxdur. Belə xəbərlərin hər gün "baş xəbər" kimi deyil, ayda, həftədə bir dəfə, müəyyən saatlarda ölkədəki kriminal durumu şərh edən xüsusi proqramlar vasitəsi ilə yayımlanması məqsədəuyğun sayılır. Ekran və efirlərdə səslənən kriminal xəbərlər həm gündəlik, həm də həftədə və ayda təkrarlanmaqla, ölkəmizin imicinə mənfi təsir etməklə yanaşı, həlli vacib mövzuları gecikdirmiş olur.

Halbuki cinayət hadisələrini əks etdirən xəbərlərdən daha önəmli, ölkə üçün əhəmiyyətli məsələlər üzərində işləmək məqsədəuyğun olar. Jurnalist radionun efir vaxtını səmərəli xəbərlərə sərf etməli, cəmiyyətə faydalı olan hadisələrə diqqət çəkməlidir.

Televiziyada və radioda işıqlandırılan bir xəbərin süjet xəttinə diqqət yetirək. Yol qəzası haqqında xəbər verilir və hadisənin baş verdiyi məkandan söhbət açılır. Jurnalist faktların köməyi ilə israr edir ki, yolda heç bir işarə qoyulmayıb, hər iki tərəfi dərədən ibarət döngəli yolun kənar hissələri dəmirlərlə əhatələnməyib, ona görə də sürücülər sərt döngəyə daxil oduqlarını bilmədiyi üçün burada qəza hallarının olması labüddür. Xəbərin müəllifi əraziyə camaat arasında "qanlı dərə" deyilməsini diqqətə çatdırmaqla aidiyyatı üzrə lazımi təşkilatlar qarşısında məsələ qaldırır və bu yolda baş verən çoxlu ölüm hallarını misal çəkərək, hadisəni qabartmaqla, vacib bir situasiyanın həllinə çalışır. Jurnalistin mövzunu nəzarətdə saxlaması sonda mövzunun müsbət nəticəsinə səbəb olur.

"1980-ci ilin yanvarında qaranlıqda və dumanda öz yolunu azan bir gəminin İsveçin Çern adasını bağlayan tağlı körpünü uçurması nəticəsində 7 avtomobil suya düşür, 8 adam həlak olur. Bu hadisəyə jurnalistlər tərəfindən adekvat münasibət, qısa bir müddətdə 1981-ci ilin noyabrında rekord sürətlə tikilmiş yeni körpünün istismarı ilə nəticələnir. "(1.s.16.)

Radioxəbərin əsas məğzi onun qısa formada yazılmasıdır. "İnformasiya sahəsində çalışan jurnalistlər "xəbər çətin janrdır" ifadəsini tez-tez işlədirlər. Bu sözlərdə böyük həqiqət var. Çünki yaradıcılığın bütün sahələrində olduğu kimi, radioda da böyük mətləbləri qısa formada çatdırmaq böyük məharət tələb edir. Burada dil-

dən, onun leksikasından yerli-yerində istifadə etmək də böyük peşəkarlıq sayılır." (3.s.42)

Radioda ədəbi dilin qayda qanunlarına riayət olunmaqla danışıq dilinə üstünlük verilir. Lakin ayrı-ayrı verilişlərdən fərqli olaraq xəbər mətnlərinin oxunuşunda rəsmi danışıq ön plandadır. "Bu gün Azərbaycan prezidenti Avropadan gəlmiş nümayəndə heyətini qəbul edib" cümləsində diktor "qəbul edib" sözü əvəzinə "qəbul eləyib" sözünü işlətməsi məqsədəuyğun sayılmır.

"Radionun dili müasir şifahi ədəbi dilinin elə bir növüdür ki, orada kütləvi kommunikasiyanın məhz bu növünə məxsus cizgilərin məcmusu və dinləyiciyə maksimum təsirin məqsədyönlü düşünülməsi ilə şərtlənən bəzi ümumi seçim prinsipləri, fonetik, leksik-frazeoloji, morfoloji və konstruktiv vasitələr işlənir. Bu vasitələrin ən başlıca vəzifəsi informasiyanı, məlumatı, söylənilən fikri, deyilən mahiyyəti, nəzərdə tutulan mənanı və məqsədi dinləyiciyə aydın şəkildə çatdırmaqdır"(6.s.65)

Xəbər mətni aydın, anlaşıqlı, səlist yazılmalı, sadə cümlələrdən istifadə edilməlidir. "Cümlə üzvləri bir-biri ilə mənaca bağlı olduğu kimi, qrammatik cəhətdən də bağlı olur. Mübtəda ilə xəbər arasında uzlaşma olur - xəbər mübtəda ilə uzlaşır." (4.s.55).

Keçmiş zamanı əks etdirən "mış", "miş", "muş", "müş" şəkilçilərinin də xəbər mətnində yer alması xəbərin danışıq dilinə ağırlıq gətirir. Məsələn, "Bu gün ölkə prezidentinin qəbulu olmuşdur", yaxud "Azərbaycana İtaliyadan qonaqlar gəlmişdir" və s. belə cümlələrdə "ıb", "ib","ub", "üb" şəkilçilərinə üstünlük verilməlidir. Bir halda ki, radio operativ informasiya yayır, deməli baş verən hadisənin vaxtı yaxın zamanı əks etdirməli, xəbərin uzaq keçmişdə deyil, bu günün xəbəri olduğuna eyham vurulmalıdır.

Radio cəmiyyətin hər bir üzvünün informasiya təminatında ən önəmli rol oynayan kommunikasiya vasitəsidir. Hazırda insanlar müxtəlif mənbələrdən informasiya əldə etsələr də, yəni internet və telekanalların xidmətlərindən yararlansalar da, yenə əsas kütlə radio ilə "qidalanır". Çünki çox insan iş başında, yolda, müxtəlif məkanlarda olur və münasib vaxtlarda informasiyanı gözlə qəbul edirlər. Ancaq insanın qulaq yoldaşı, hər bir şəraitdə işlək vəziyyətdə olan simsiz rabitə vasitəsi- radioda hər saatın tamamında efirə təqdim olunan "xəbərlər" günün əsas olaylarından tez xəbər tutmağa yardımçı olur.

İnformasiya ilə yanaşı, musiqiyə də geniş yer verilməsi auditoriyanın tələbi olduğundan hazırda «xəbər üstəgəl musiqi» prinsipi radioların qayəsini təşkil edir. Musiqilər arasında səslənən qısa və lokanik xəbərlər maraqla dinlənilir. Özəl radioların dünya praktikasından götürdüyü bu iş prinsipi uzun-uzadı söhbətlərdən, təbliğat-təşviqat xarakterli materiallardan qurtulmaq və əyləncəli proqramların genişlənməsi məqsədini güdür. «Belə hesab etmək olar ki, TV ilə rəqabətdə məhz bu formul radionun dadına yetmişdir, müasir radiolarda informasiya-musiqi tipli proqramların mahiyyətini ifadə edir.» (6.s.40)

Bu gün radio jurnalistinin müxtəlif mənbələrdən xəbər əldə etmək imkanı var. Hər gün müxtəlif saytları, idarə və təşkilatların press-relizlərini nəzərdən keçirmək, gündəlik mətbuatı incələmək qısa vaxtda xəbər bülleteni hazırlamağa kifayət edir. Ancaq efirdə səslənən hər bir xəbər doğru-dürüstlük tələb etdiyindən, yalan məlumata yer verilə biməz. Bunun üçün jurnalist, xəbər redaktoru faktın dəqiqliyini yox-

lamalıdır. Şübhəli məqamlara aydınlıq gətirdikdən sonra xəbər efirə təqdim olunur. Əks halda yalan yayılan informasiyaya görə redaksiyanın həmin gün üzrə növbətçi efir redaktoru məsuliyyət daşıyır. Qəzetlərdə gedən yanlış məlumat, növbəti buraxılışlarda təkzib edilə bilər, radioda isə bu problem böyük ajiotaj yaradar. Radio nüfuzunu itirmiş olar, məsuliyyətsiz redaktor da cəzasız qalmaz. Nəzərə almaq lazımdır ki, radionun xəbər xidməti milyonlarla dinləyici auditoriyası üçün söz deyir.

Professor Hokan Hvitfeldtin gəldiyi qənaətə görə "əgər informasiya məlumatı ənənəvi müzakirə predmetinə, yaxın məsafədən sensasion hadisələrə əsaslanırsa, insanlar üçün əhəmiyyət daşıyırsa və ənənəvi mənbələrdən daxil olursa, o xəbər dəyər qazana bilər".(1.s.19)

Məhz jurnalist xəbər üzərində işləyərkən yazdığı informasiyanın vəzifəsini düşünməklə, şərh və əlaqələndirməyə xüsusi ustalıqla yanaşmalı, təmsil etdiyi qurumun mövqeyini nəzərə almalıdır. Xəbərin "tərəfsiz" və "qərəzsiz" yazıldığı kimi, xəbəri oxuyan diktor onun mətnini hiss və həyacansız dinləyiciyə çatdırmalıdır. Xəbər diktoru yüksək peşəkarlığı və professional nitq qabiliyyəti ilə təqdim etdiyi xəbərə maraq doğurmalıdır. Təzə, əhəmiyyətli xəbərlərə dinləyici həmişə üstünlük verir.

«Xəbərlər redaksiyası»nın əməkdaşları gün boyu təzə informasiya axtarışında olur. Başqa redaksiyaların fəaliyyəti ilə müqayisədə ən qaynar iş prosesi burada hiss edilir. Eyni informasiyanın gün ərzində hər saat efirdə təkrar səslənməsi yolverilməzdir. Çünki dinləyici saatın tamamında yenidən xəbər vaxtını izləyəndə bir saat öncə eşitdiyi hadisənin təkrarçılığından bezə bilər. Ona görə də gündəlik informasiya buraxılışlarında orijinallıq əsas götürülür. Ancaq siyasi əhəmiyyətli, ölkə üçün vacib xəbərlərin bir neçə dəfə efirdə səslənməsi başa düşüləndir. Bu xəbərlər günün siyasi sferasını yaratmaqda ideoloji xətt kimi əsas götürülür və cəmiyyətin inkişaf prosesinin təhlilinə kömək edir.

Gün ərzində radionun xəbər redaktorları tərəfindən işlənən, əhəmiyyət kəsb edən bütün mövzular "Xəbərlərin əsas buraxılışı"nda, gecə saatlarında yenidən toplu halında auditoriyaya çatdırılır.

Xəbər janrında yazmağı bacaran jurnalist çeviklik və mövzunun konkret açılması vərdişinə yiyələndikdən sonra, mətbuatın istənilən sahəsində nüfuz qazana bilər. Çünki xəbər əməkdaşı jurnalistikanın ən maraqlı və gərəkli sahəsini inkişaf etdirir, publisistikada öz yaradıcılıq üslubu olan peşəkarlardan ibarətdir.

«Radionun janrlar sistemi müasir jurnalistikada qəbul edilmiş üç mühüm məqamı özündə əks etdirir: a) xəbər; b) təhlil; c) rəy. Yəni hər hansı hadisə barədə, ilk növbədə, xəbər verilir; ictimai əhəmiyyətindən asılı olaraq bu xəbər təhlil edilir və analitik süzgəcdən keçirilir, nəhayət, bu hadisəyə (fakta) münasibət bildirilir, dəyərləndirilir.» (7.s.306)

Xəbərin əvvəlində «redaksiyamıza yenicə daxil olmuş məlumata görə», «indicə əldə etdiyimiz xəbərə görə», «bir neçə saniyə əvvəl» və s. kimi sözlərin səslənməsi, xəbərin tamamilə təzə olmasına və ilk dəfə eşidilməsinə işarədir.

Günün informasiya toplumunda kasadlıq yaşanmaması üçün xəbər alınan mənbələrlə mütəmadi əlaqələr həmişə qaydada olmalıdır. Çünki radioda xəbər buraxılışı kollektiv əməyin məhsuludur. Toplanan xəbərlərin sıralanmasına, xəbərlərin düzümünə də diqqətlə yanaşmaq lazımdır. İlk növbədə rəsmi xəbərlər (ölkə prezidentinin fəaliyyəti) siyasi, iqtisadi, mədəni, idman yenilikləri və hava haqqında məlumatlar ardıcıllıqla xəbər bülletenində əks olunur.

Azərbaycan Milli Radiosunda efirə hazırlanmış xəbər buraxılışlarından birinə nəzər salaq.

***

25.09.13-14.00-Aynurə.

***

Salam, hörmətli dinləyicilər. Azərbaycan Milli Radiosu xəbərləri təqdim edir, studiyada Aynurə Mədətqızıdır.

***

Sentyabrın 24-də Prezident İlham Əliyev ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun seçkiləri müşahidə missiyasının rəhbəri, xanım Tana de Zuluetanı qebul edib. Görüşdə Azərbaycanda qarşıdan gələn prezident seçkiləri üzrə görülən hazırlıq işlərinin vəziyyəti və seçkilərin keçirilməsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

****

Minskdə MDB iştirakçısı olan dövlətlərin yaradıcı və elmi ziyalılarının "2013-cü il MDB iştirakçısı olan dövlətlərdə ekoloji mədəniyyət və ətraf mühitin mühafizəsi ilidir" devizi altında 8-ci forumu başlayıb. Azərbaycan nümayəndə heyətinin də təmsil olunduğu forumda MDB məkanında ekoloji sabitliyin qorunub saxlanılması və beynəlxalq mədəni əməkdaşlıq məsələləri müzakirə mövzusu olub. Bununla yanaşı, forum çərçivəsində ekoloji təhsil və tərbiyə, Birlik ölkələrində gənclər siyasətinin həyata keçirilməsi, MDB ölkələrinin mədəniyyətlərinin dialoqu və humanitar əməkdaşlıq, təbii və mədəni irsin qorunub saxlanması məsələlərinə həsr edilən iclaslar keçirilib.

****

Rezidentura səviyyəsinə keçirilən müsabiqə nəticəsində 528 plan yerinə 504 namizəd qəbul olunub. Boş qalan yerlərə elan olunan müsabiqəyə sənəd qəbulu isə başa çatır. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından bildirilib ki, rezidenturaya qəbul olan 504 nəfərdən 496 namizəd qeydiyyatdan keçib və nəticədə müəyyən plan yerləri boş qalıb. Boş qalan plan yerlərindən 10-u Tibb Universitetinin hərbi tibb fakültəsinə aid ixtisaslardır. Bu ixtisaslar üzrə müsabiqədə iştirak etmək hüququ olan namizədin yoxluğu səbəbindən həmin ixtisaslar müsabiqəyə təqdim edilmir. Lakin digər ixtisaslar üzrə müsabiqədə iştirak etmək istəyən namizədlər şəxsiyyəti təsdiqləyən sənədin əsli və surətini təqdim etməklə Komissiyaya müraciət edə bilərlər.

****

Parisdə "Port de Versay" sərgi mərkəzində keçirilən "Top Resa-2013" beynəlxalq turizm sərgisində ölkəmiz də təmsil olunub. Bu il Azərbaycanı Mədəniyyət və Turizim Nazirliyinin nümayəndə heyəti, həmçinin "Bakı" futbol klubu, ümumən 60 kvadrat metr sahədə qurulmuş stendlə təmsil edir. Bir sıra turzim şirkətlərimiz öz imkanlarını iştirakçılara təqdim edirlər. 151 ölkənin iştirak etdiyi Beynəlxalq turizim sərgisinin açılışını Fransanın Turizim naziri xanım Silvia Pinel edib. Nümayəndə heyətimiz fransalı nazirə Heydər Əliyev Fondunun hazırladığı, Azərbaycanın tarixindən, mədəniyyətindən, incəsənətindən və turizm imkanlarından bəhs edən əyani vəsaitləri hədiyyə edib. Bundan başqa, "Bakı" klubunun adından nazirə klubun fəaliyyətindən, Fransa ilə əməkdaşlığından bəhs edən müxtəlif hədiyyələr təqdim olunub.

****

Efirdə xəbərlərdir....Suriyada hökumət qüvvələri ilə müxaliflər arasında gedən döyüşlər Dəməşqətrafı ərazilərdə, həmçinin Hələb, Homs və Hamada daha intensiv xarakter alıb. Dəməşqin cənub hissəsində içərisinə partlayıcı qurğu yerləşdirilmiş avtomobil partladılıb. Ölənlərin və yaralıların sayı barədə dəqiq məlumat verilmir.

****

Bu arada, BMT Baş Assambleyasının 68-ci sessiyası Nyu-Yorkda öz işinə başlayıb. Sessiyanın ilk günündə əsas müzakirə mövzularından biri Suriya problemi olub. Türkiyə prezidenti Abdulla Gül çıxışı zamanı deyib ki, "Suriya münaqişəsi kimyəvi silah tətbiqi ilə başlamayıb, ona görə də bu barədə razılığın əldə olunması ilə də bitməyəcək. Beynəlxalq ictimaiyyət Bəşər Əsəd hökumətinin digər cinayətlərin məsuliyyətindən boyun qaçırmasına imkan verməməlidir". Fransa prezidenti Fransua Oland isə BMT Təhlükəsizlik Şurasını Suriyanın kimyəvi silah arsenalının məhvi ilə bağlı müvafiq qərar qəbul etməyə çağırıb.

****

Sessiyada çıxış edən ABŞ prezidenti Barak Obama isə deyib ki, Bəşər Əsədin hakimiyyətdə qalması ölkədə zorakılıq hallarının artmasına gətirib çıxaracaq. O, BMT Təhlükəsizlik Şurasını kimyəvi silahla bağlı tutarlı qərar qəbul etməyə çağıraraq bəyan edib ki, əgər Suriya hökuməti öhdəliklərinə riayət etməsə, cəza tədbirləri ilə üzləşəcək. Öz növbəsində, BMT-nin baş katibi Pan Gi Mun Dəməşq yaxınlığında kimyəvi silahdan istifadə edənlərin cəzalandırılmasına çağırıb. Onun sözlərinə görə, Suriya münaqişəsi zamanı 100 mindən çox adam ölüb, 7 milyon sakin öz evindən didərgin düşüb. Baş katib Təhlükəsizlik Şurasını təcili olaraq kimyəvi silahla bağlı lazımi qərar qəbul etməyə səsləyərək, problemin yalnız sülh yolu ilə həllinin mümkünlüyünü vurğulayıb.

****

Sonda hava məlumatı....Bu gün Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu, əsasən yağmursuz keçəcək. Mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. 23-28 dərəcə isti olacaq. Bəzi dağlıq və dağətəyi rayonlarda axşam yağış yağacağı ehtimalı var. Aran bölgəsində 24-29, dağlıq yerlərdə isə 15-20 dərəcə isti olacaq.

****

Azərbaycan Milli Radiosunda xəbərləri dinlədiniz

****

Məsul redaktor Səyavuş Hüseynli

***

Hazırlanmış bülleten ilə studiyaya keçən diktor xəbərləri dinamik templə təqdim edir. Xəbərlər arasında, mövzudan mövzuya adlamaq üçün kiçik musiqi parçası-keçid musiqisindən istifadə olunur. Əfsuslar ki, bəzi özəl radiolarda sərişəli xəbər diktorları yoxdur, ya da onların xəbəri çatdırmaq barədə düşüncələri bir qədər fərqlidir. Xəbəri hiss və həyəcanla, gərgin emosiya ilə təqdim edən "diktorlar" sanki hökm oxuyan hakimə bənzəyir və yeri gəldi-gəlmədi xəbərə müdaxilə edir, öz fikirlərini, düşüncələrini səsləndirirlər. Unutmaq olmaz ki, radio sözün səsli por-

tretidir. İnsanların sakit səslə xəbər eşitmək, musiqiyə qulaq asmaq, maraqlı söhbətləri dinləmək istədiyi yaxın dostu, könül yoldaşı, rəngarəng səslər dünyasıdır.

Ədəbiyyat

1. Fiçtelius E. "Jurnalistikanın 10 qızıl qaydası" AJB-nin nəşri, Bakı, 2001,179 s.
2. Gans H. J. "Deciding What's News.Vintage", New York, 1979
3. Xudiyev N. "Radio, Televizia və Ədəbi dil, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 2002, 656 s.
4. Kazımov Q. " Müasir Azərbaycan dili.Sintaksis", Ünsiyyət, Bakı, 2000. s. 496.
5. Məhərrəmli Q. "Kino, televiziya və. radio terminləri. Izahlı lüğət. Bakı, 2002..
6. Məhərrəmli Q. " Radio dalğalarında", Təhsil, 1999.
7. Məhərrəmli Q. "Radio dərsləri", Nurlan, 2007. s.540.

Шалала Кулиева

Подготовка текстовой информации для радио новостей

Резюме

Каждый час на радио передаются основные события дня. Все новости, собранные на протяжении дня бывают представлены в ночном выпуске под рубрикой «Основной выпуск новостей». В данное время принцип «информация + музыка» на радио используется в более широком формате. Над сбором новостей вплотную работают корреспонденты, а за выпуск новостей в эфир ответственен Главный редактор.

Shalala Kuliyeva

To write news article in radio

Summary

The daily news is playing hourly everyday in the radio .At the end of the day all news is broadcasting `The main of the final news` to listeners on the night hours. Right now the principle of the "news plus a music" method is working with high general point in a radios. Reporters are participate preparation the news, and managing editor is answerer for ether`s responsibility for the news in a radio.

Rəyçi: Nəsir Əhmədli
filologiya elmləri doktoru, professor

TƏRANƏ ABDULLAYEVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun
Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin elmi işçisi,
filologiya üzrə fəlsəfə doktoru

MƏHƏMMƏDAĞA ŞAHTAXTLININ MİLLİ TƏRƏQQİ KONSEPSİYASI

Açar sözlər: M.Şahtaxtlı, azərbaycançılıq, milli kimlik, ana dili, milli tərəqqi.
Key words: Mahammadagha Shahtachtli, Azerbaijanis, national self-identification, native language, national progress.
Ключевые слова: М.Шахтахтлы, азербайджанское национальное самосознание, национальная самоидентификация, родной язык, национальный прогресс.

Azərbaycan xalqının XIX əsrin sonu, XX əsrin əvvəllərində yetişdirdiyi, ilk tərbiyəsi və təhsilini "bir çox sahib-mənsəb və ziyalıların vətəni"ndə alıb, sonra Tiflisdə, Peterburqda, Almaniya və Fransada davam etdirmiş, "nəinki Qərbdə, hətta bütün dünyada ən çox xarici dil bilən yeganə şərqşünas", tanınmış ictimai-siyasi və ədəbi şəxsiyyətlərdən biri də Məhəmmədağa Şahtaxtlıdır. Çox mürəkkəb və ziddiyyətli bir dövrdə xalqa əvəzsiz xidmətlərinə görə hələ sağlığında müasirləri tərəfindən "dövrünün ən böyük heykəli" adlandırılan M.Şahtaxtlının, təkcə vətənində deyil, Avropada da ciddi bir alim və jurnalist kimi böyük nüfuz qazanmasının başlıca səbəbi onun Şərq və Avropa mədəniyyətlərini sintez halında mənimsəməsi və hər iki məkanda bütün fəaliyyəti boyu təbliğ etməsidir.

Müasir Avropa mədəniyyətini əski Şərq-islam mədəniyyəti sayan və "mədəniyyət" adı altında ilk növbədə maariflənməni və elmə yiyələnməyi nəzərdə tutan M.Şahtaxtlıya görə "...istər İslam, xaçpərəst, istərsə məcus, sabei olsun, salamat və rahata yetmək üçün mütləq qədim müsəlmanların – indiki avropalıların keçdikləri körpü ilə keçəcəkdir. Daha bu körpünü buraxıb boğula-boğula sudan keçməyin nə ləzzəti var?!

...On beş – iyirmi il zamanın iqtiza və icabı ilə yazılan "Camü-qəvaid"i əzbərləmək ilə, ərəb saçına oxşayan qarışıq, xırda haşiyələrlə, hökmü-isabəti çoxdan köhnəlmiş, qoxumuş, Qazimir ilə, üsturlab ilə xəyal və cəfəngiyyatdan ibarət olan cəfr, nücum, rəml və sairlər ilə vaxt keçirmək, iktifa etmənin nə mənası var?!" (3).

Şübhəsiz, M.Şahtaxtlı "körpü" deyərkən avropalıların Şərqdən əxz edib, uzun əsrlər üzərində çalışıb inkişaf etdirdikləri, modernləşdirdikləri mədəniyyət, elm və maarif körpüsünü nəzərdə tutur və müsəlmanların da tərəqqisinə səbəb olacaq bu "körpü"dən keçməyi, artıq əldə edilmiş çağdaş elmi nailiyyətlərdən və mədəni dəyərlərdən bəhrələnməyi lazım bilir, bir qədər də dəqiq desək, milli tərəqqinin, yalnız bununla mümkün ola biləcəyini diqqətə çatdırırdı.

Müəllif eyni zamanda bu "körpü"nün "Şərq təməlləri"ni yaddan çıxarmır, qədim və müasir Şərq mədəniyyətinin, türk və tatar qövmlərinin məişətinin, etnoqrafiyasının, ədəbiyyatının Rusiya və Avropada təbliğini də zəruru sayır və qeyd etdiyimiz kimi, bu yolda əzmlə çalışırdı. Məhz bu xidmətlərinə görə Qərblə Şərq mədəniyyətləri arasında "etibarlı körpü" hesab edilən M.Şahtaxtlını akademik İsa Həbibbəyli "Qərb üçün dərkolunmuş Şərq, eyni zamanda Şərqdən ötrü millətpərvər və

maarifçi Qərb" (1,19) adlandırır və dediklərinə əlavə edir ki, "O, Qərb aləminə və mədəniyyətinə yol açmış birinci Şərq Buzqıran gəmisi idi. Görkəmli şərqşünas Mirzə Kazımbəyin Azərbaycan baxımından Rusiyada gördüyü işi Avropada Məhəmmədağa Şahtaxtlı həyata keçirmişdir. O, bizim Avropadakı Mirzə Kazımbəyimizdir" (1,19).

"Avropadakı Mirzə Kazımbəyimiz"in – M.Şahtaxtlının avropalaşmaq – Avropa mədəniyyətini mənimsəmək konsepsiyasını daha geniş aspektdən müşahidə etdikdə maraqlı məqamlarla qarşılaşırıq: bir tərəfdən bu böyük ziyalı "ərəb mədəniyyətindən min dəfə ali və üstün" saydığı Avropa mədəniyyətini, təhsilini, elmini, dövlətçilik strukturunu və idarəçilik üsullarını Şərq xalqlarının, dövlətlərinin də inkişafına təkan verəcəyinə qəlbən inanır, onlardan işlənmiş – hazır bir model kimi istifadə etməyin zəruriliyini diqqətə çatdırır, digər tərəfdən uzaqgörən bir siyasətçi və cəmiyyətşünas kimi Avropa dəyərlərini qəbul etməyin qaçılmaz olduğunu anlayır, onları müsəlman xalqlarının özünümüdafiə vasitəsinə çevirməyin vacibliyini təbliğ edirdi. "Xaric əhvalatı" adlı məqaləsində müəllif yazır: "Mədəniyyət sayəsində yevropalılar hamısı istiqlala qabil və layiq olduqlarından bir-birlərinin məmləkətini almaq fikrindən keçmişlər. Dava, cəng və cidal maddəsi yevropalılar arasında yevropalı olmayan millətlərin mülkünü bölməkdir" (5).

M.Şahtaxtlı xristian dövlətlərinin Avropa mədəniyyətini qəbul etməyən müsəlman xalqlarını "müzməhill" – məhv edəcəyini bir çox məqalələrində, o sıradan "Türkiyəni necə xilas etməli" əsərində də xatırladır. Müəllif yazır: "Həqiqətən, milli istiqlaliyyətin yükü bizim dövrdə elə ağırlaşıb ki, onu Avropa mədəniyyətinin köməyi olmadan daşımaq mümkün deyil.

Əgər, hələ mədəniyyətdən kənarda yaşayan müstəqil xalqlar varsa da, onların bu istiqlaliyyəti müvəqqətidir, tam olmasa da, bu xalqların hakimiyyətinin böyük bir hissəsini "imtiyazlar" adı altında avropalılar müsadirə etmişlər.

Hakimiyyətin yerdə qalanına gəldikdə isə bu, xalqın gücü ilə deyil, avropalıların dünyanı tam bölüşdürmək üçün hələlik razılığa gəlmələri nəticəsində durur" (7,43).

Beləliklə də Avropa mədəniyyətini mənimsəməyən müsəlmanların, türk-tatar qövmünün, o sıradan Azərbaycan türklərinin də tərəqqisinə kömək edəcəyinə bir ziyalı kimi əmin olan, eləcə də bu yolla getməməyin böyük faciələr, fəlakətlər gətirəcəyini uzaqgörən bir siyasətçi kimi əvvəlcədən duyan M.Şahtaxtlı, demək olar ki, bütün fəaliyyətini Avropa mədəniyyətinin təbliğinə yönəltmişdir. Amma onun məqsədi sadəcə bu mədəniyyəti təbliğ etmək yox, bu üsulla öz millətinin inkişafına, tərəqqisinə çalışmaq olmuşdur.

M.Şahtaxtlı milli tərəqqi haqqındakı anlayış və qənaətlərini əsaslandırıb, sistemləşdirib elmi konsepsiya səviyyəsinə qaldırmışdır. O, "millət" sözünün qapsadığı məna və məzmundan tutmuş "milli tərəqqi" ifadəsinin konseptosferasına, onu şərtləndirən amillərə, həyata keçirilməsini təmin edən vasitələrə qədər hər birinin elmi izahını vermişdir.

M.Şahtaxtlının milli tərəqqi konsepsiyasının təməl prinsiplərini milli tərəqqiyyə nail olunmasında mətbuatın, ana dilinin, mədəniyyət və ədəbiyyatın, elm və maarifin, qadın azadlığı və demokratik dövlət quruluşunun əhəmiyyəti və bunlar uğrunda mübarizə təşkil edir.

M.Şahtaxtlının milli tərəqqi konsepsiyasında milli kimliyin atributlarının müəyyənləşdirilməsi ön cərgədə durur və demək olar ki, bütün yaradıcılığı boyu ya birbaşa, ya da bu və ya digər məsələlərin izahında onlara öz münasibətini bildirir. Hələ 1882-ci ildə "Qafqaz" qəzetində dərc etdirdiyi "Müsəlmanlarda məktəb həyatı" məqaləsində milli mənsubiyyətin dinə deyil, dilə və adət-ənənələrə görə müəyyənləşdirilməli olduğunu vurğulayan müəllif rusların Qafqaz azərbaycanlılarını "müsəlman milləti", eləcə də "tatar" adlandırmaları ilə razılaşmır. O, millətimizin "türk" adlandırılması üzərində də dayanır və özümüzün dilimizi "türk dili" adlandırdığımızı, eləcə də farsların və ermənilərin də bizi "türk" adlandırdığını diqqətə çatdırır. Amma, avropalıların və rusların "türk" adı altında bizdən əvvəl Osmanlı türklərini "tanıdığını" xatırladıb (mövcud ictimai-siyasi vəziyyəti nəzərə alıb) bu adı da uğurlu hesab etmir. Münasib ifadə tapa bilmədiyindən müəllif, "hələ ki, Azərbaycan türklərinin İranda yaşadığı ərazini – Azərbaycan, Qafqazda yaşayan azərbaycanlıları isə "Qafqaz müsəlmanları" (6) adlandırmağı təklif edir...

M.Şahtaxtlı bu mövzuya, təxminən on il sonra bir də qayıdır və problemi çap etdirdiyi ("Kaspi" q., 1891) məqalənin başlığına çıxarır: "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı ?!". O, on il əvvəl söylədiyi mülahizələri bir qədər də dəqiqləşdirir və qətiləşdirir: "Böyük bir hissəsi İrandan Rusiyanın payına düşmüş Azərbaycan mahalı – indiki Zaqafqaziyadır, əhalisi də türklərdir. Onları həm Şərq yazıçıları, eləcə də Avropa coğrafiyaçıları və etnoqrafları başqa adla yox, ancaq "Azərbaycan türkləri" adlandırırlar.

Gündəlik həyatımızda xalqın adını və dilinin adını iki sözlə ifadə etmək rahat deyil: məsələn, azərbaycanlı türk və yaxud azərbaycanlı türk dili.

Ona görə də Zaqafqaziya müsəlmanlarını azərbaycanlı, Zaqafqaziya türk dilini isə "tatar dili" əvəzinə, "Azərbaycan dili" adlandırmaq məqsədəuyğun olardı" (8).

Məsələyə tarixi-siyasi aspektdən yanaşsaq, M.Şahtaxtlının XIX əsrin 80-90-cı illərində belə bir ciddi, aktual, eyni zamanda təhlükəli mövzunu qabardıb gündəmə gətirməsi böyük cəsarət tələb edirdi. Əvvəla, ona görə ki, çar Rusiyası işğal etdiyi Zaqafqaziyanın böyük bir hissəsinin Azərbaycan, burada yaşayan müsəlmanların isə türk olduğunu yaxşı bilirdi və üstəlik qədim Azərbaycan torpağının böyük bir hissəsində – İrəvan xanlığının ərazisində ermənilərə dövlət yaradan da onlar idi. Onların Qafqaz türklərini "müsəlman", yaxud "tatar" adlandırmaları, məlumdur ki, məqsədli idi və Qafqaz türklərinin digər türk xalqları ilə eyni soydan olduğunu unutdurmağa xidmət edirdi. Şübhəsiz ki, bunlar Şərqin və türkün tarixini dərindən bilən, eləcə də Rusiyanın Qafqaz siyasətinə yaxından bələd olan M.Şahtaxtlıya məlum idi. Amma bu böyük ziyalının vətən sevgisi, azərbaycançılıq eşqi, milli təəssübkeşliyi onun təhlükələrlə üzləşə biləcəyi xofu arxa plana keçirmişdi.

İkincisi, bu problem XX əsrin əvvəllərində – 1905-ci il inqilabının ərəfəsində, yaxud sonra qaldırılsaydı, bunu başa düşmək olardı. Çünki həmin illərdə yaranan sosial-siyasi gərginliyin, inqilabi əhvali-ruhiyyənin artdığını görən rus hakim dairələri məcburən əyalətlərdə də müəyyən güzəştlərə, yumşalmalara gedirdi.

Üçüncüsü isə M.Şahtaxtlıya qədər milli kimlik və azərbaycançılıq mövzusunu kimsə gündəmə gətirməmişdi. Yeni nəsrdə azərbaycançılığın banisi hesab edilən C.Məmmədquluzadə də bu mövzudakı əsərlərini hələ qələmə almamışdı. Bu mənada M.Şahtaxtlını "ilk azərbaycanşünaslardan biri", onun "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı?!" məqaləsini "azərbaycanşünaslığa böyük töhfə" hesab edən

İ.Həbibbəyli qənaətlərində tamamilə haqlıdır. O, yazır: "Bu qiymətli məqalədə Şahtaxtlı birinci dəfə olaraq Azərbaycan ölkəsinin, xalqının və dilimizin adının müəyyən olunması baxımından mühüm elmi-siyasi əhəmiyyətə malik olan mülahizələr irəli sürmüş, bu ciddi məsələyə aydınlıq və konkretlik gətirmişdir. Məhəmmədağa Şahtaxtlının "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı?!" məqaləsi azərbaycanşünaslığın ilk elmi bünövrəsi, azərbaycançılığın ilkin minimum proqramıdır" (1, 22).

M.Şahtaxtlı bu "minimum proqram"ı sonrakı əsərlərində daha da genişləndirmiş və konseptuallaşdırmış, milli kimliyin müəyyənləşdirilməsi məsələsi onun bir çox məqalələrinin mövzusu və təhlil obyekti olmuşdur. M.Şahtaxtlı yazır: "Biz müsəlmanlar İslam dinində olan müvəhhidin ümumi heyətinə millət deyiriz. Yevropalılarda isə "natsiya" və ya fransızların yumşaq tələffüz ilə"nasion" kəlməsi var ki, həmzəban olan qövmə, cinsə deyilir ki, bu qövmün dini və ya məzhəbi bir və ya mütəəddid olsun" (4).

M.Şahtaxtlı irəli sürdüyü fikrin təsdiqi üçün müxtəlif din və məzhəblərə inancı olan yaponların avropalılar tərəfindən "bir nasion" kimi tanınmasını nümunə gətirir. Daha sonra isə milli kimliklə bağlı əvvəlki məqalələrində irəli sürdüyü fikirləri bir qədər də inkişaf etdirib, milli mövcudluğun şərtlərini açıqlayır. Müəllifə görə "Bir nasionun (Şahtaxtlıya görə Osmanlı türkcəsinə "millət", "qövm", "cins" kimi tərcümə edilən sözlərin heç biri "nasion" kəlməsinin həqiqi mənasını tam ifadə etmir - T.A.) dünyada yaşaya bilməsi mütləq ona mütəvəqqifdir ki, o nasionu təşkil edən əfradın hamısında o fikir ola ki, "Mən fərdəm, mən təkəm, təklikdə yaşayamam. Çün Allah insanı Ərəsta Talis həkim dediyi kimi, yığıncaqla yaşayan bir zihəyat xəlq etmişdir. Ona görə mənə vacibdir əyalımı yaşatmağa çalışdığımdan maəda bir də nasionumun varlığına, rifah halına, gələcəyini təminə dəxli və rəbti olan işlər ilə çalışam" (4).

M.Şahtaxtlı fərdin milli maraqları şəxsi maraqlarından üstün tutmasını lazım bilir. Hətta, fərdin mənfəətləri milli mənfəətlərə zidd olduqda belə milli maraqlara güzəştə getməyi, ona tabe olmağı zəruri sayır. Müəllif yazır: "Mən cüzəm, nasion külldür. Cüz yox olasıdır, küll qalacaqdır. Mən mərd olmalıyam. Öz mənfəətimi nasionumun mənfəətinə fəda etməliyəm. Həm də edərsəm, böyük-böyük fədakarlıq etmiş oluram. Çün mən özüm, əbavü əcdadım və övlad-əyalım hamımız nasionun ayrılmaz parçası deyilmiyiz? Nasiona etdiyim fədakarlığı özümə etmirəmmi?" (4).

M.Şahtaxtlıya görə, bu hiss, bu əqidə ilə yaşarsa, nasionun hər bir fərdi - digər fərddə özü kimi ümumin varlığına, vücuduna lazım bir şey görüb, onu özü kimi sevər, Həzrəti Əlinin "Öz yaxın adamını özün kimi sev!", yaxud, Şeyx Sədinin "Bütün insanlar bir-birinin ayrılmaz hissələridir" - müdrik kəlamlarına əməl etmiş olarlar.

M.Şahtaxtlının milli tərəqqi konsepsiyasında ana dilinin inkişaf etdirilməsi və işləklik dairəsinin genişləndirilməsi də əsas yerlərdən birini tutur. O, ana dilini milli kimliyin atributu kimi qəbul edir və öz dilini qoruyan, onu sevən millətlərin "baqi"-əbədi olacaqlarına əminliyini bildirir. Müəllif müqayisələr apararaq bolqarları, yunanları "kəndi cinslərini dünyada yaşatmağa müstəid nasionlar" sirasına aid edir. Səbəbini isə millətin hər bir fərdinin dilini sevməsi ilə əlaqələndirir: "Dillərinə üləma, üdəba pərvəriş verirlər. Dillərinin aləmdə bəqası, inkişafı və rəvacı xüsusunda mal olsun, can olsun, heç şey əsirgəməzlər. Amma bizlər necə?" (4).

M.Şahtaxtlı "bizlər" deyərkən, təkcə azərbaycanlıları yox, "Rusiyada sakin olub, türk və tatar dillərində danışan qövmləri və elləri" nəzərdə tutur. Bildirir ki, bu qövmlərin heç birində "dil dərdi, dil qeydi, əl-ələ verib milləti yaşatmaq, türk dilini yaxşılaşdırmaq" – inkişaf etdirmək cəhdi yoxdur. M.Şahtaxtlıya görə, "ümumi ilə xüsusinin, cüz ilə küllün, nasionla ona mərbud olan fərdin arasındakı rəbt və şirazə bizim içimizdə kəsilib pozulmuşdur. Biz tək-tək yaşayan insannüma məxluqlarız. Diri bir nasionun qövm və cinspərvər əfradı deyiliz. Tək-tək, fərdənfərd biz diriyiksə də, heyəti-ümumiyyətcə, nasionca biz ölüyüz. Dil isə dirilərə lazımdır, ölülərin nəyinə yarar?!" (4).

M.Şahtaxtlı türklərin yaşadıqları ərazilərdə doğma ana dillərini ümumi işlərdə, ədəbiyyatda, elmdə, siyasətdə işlətmələrinin zəruri olduğunu, amma işlətmədiklərini diqqətə çatdırır və bildirir: "Əgər, işlənməzsə, insanların hacətlərinin ifasına xidmət etməyən bir dil dünyada baqi olub, onu danışan nasionun elm və maarifinə xidmət edə bilərmi? Əgər edəməzsə, bir qövm, bir nasion elmsiz, maarifsiz, ədəbi dilsiz nasıl yaşar?" (4).

M.Şahtaxtlı "Azərbaycanda darülfünun" adlı məqaləsində də ana dili məsələsinə toxunur və maraqlı fikirlər ortaya qoyur. Doğrudur, mövcud elmi potensialı (yerli alimlərin olmamasını) və siyasi vəziyyəti (oktyabr inqilabından sonra Rusiya professorlarının işsiz qalmasını) nəzərə alan M.Şahtaxtlı Azərbaycanda universitetin rus professorlarının bazası əsasında yaradılmasını və tədrisin də rus dilində aparılmasını təklif edir. Təhsilin rus dilində aparılmasının zəruriliyini azərbaycanlı gənclərin xarici dillərdən yalnız rus dilini bilməsi və bu dildə ali təhsil ala biləcəkləri ilə də əsaslandırır. Amma bu, M.Şahtaxtlının universitetin ilkin fəaliyyəti üçün verdiyi təklif idi. O, universitetdə sonralar da təhsilin rus dilində aparılması ilə razılaşmır və yazır: "Fəqət, daima olmaq üzrə ali təhsilin əcnəbi lisanda kəsb olunacağı işimizə əl verməz. Fünunda olsun, idarədə, siyasətdə olsun, nərədə olursa-olsun, kəndi işlərini öz dilində əmələ gətirməyən bir millət səqət, xırda bir millət olub, həqiqi istiqlaldan saqit və həqiqi istiqlala naqabil bir millətdir. Qonşu, mən bu sözümü deyəmmirəm, bir az vəqt üçün dilini mana ver danışım, - deyən adam nə qədər zəlil və həqarətə şayan isə, mən öz qərarmədarımı öz dilimdə yazammıram, qonşu, dilini mənə ver, sözümü tez vətəndaşlarıma anladım, – deyən bir nazir və ya ziyalı ondan ziyadə şayani-təhqirdir... Ona görə əvvəlimci günündən belə təzə və rus dilində açacağımız darülfünunumuzu milliləşdirməli və türkləşdirməliyiz. (Təkcə) Darülfünunumuzu deyil, idarələrimizin hamsını türkləşdirməliyiz" (2).

M.Şahtaxtlının azərbaycançılıq, milli kimlik və ana dilinin milli tərəqqinin qazanılmasında əhəmiyyəti haqqında söylədiyi dəyərli fikirlər qısaca haqqında danışdıqlarımızla yekunlaşmır. Bundan əlavə bu böyük şəxsiyyətin və dəyərli alimin, dilçinin, etnoqrafın, publisistin, siyasətşünas və cəmiyyətşünasın milli tərəqqi konsepsiyasının digər təməllərini təşkil edən ana dilli mətbuat, elm və təhsil, mədəniyyət və ədəbiyyat, qadın azadlığı, demokratik dövlət quruluşu və b. məsələlərə həcm məhdudluğu səbəbindən toxuna bilmədik. Bu problemlər barədə sonrakı araşdırmalarımızda danışacağız. Amma, qısaca toxunduğumuz və müəllifin öz əsərlərindən təqdim etdiyimiz nümunələr də, güman edirik ki, M.Şahtaxtlının milli tərəqqi konsepsiyasının bu gün də aktuallığını qoruyub saxlaması barədə kifayət qədər təsəvvür yaradır.

Ədəbiyyat

1. Həbibbəyli İ. Millətin canlı heykəli (müqəddimə). Şahtaxtlı M. Seçilmiş əsərləri. Bakı, "Çaşıoğlu", 2006.
2. Şahtaxtlı M. Azərbaycanda darülfünun. "Azərbaycan" q., 28 iyul 1919.
3. Şahtaxtlı M. Dərdimiz və dərmanımız. "Şərqi-Rus" q., 13 aprel 1903, №5-6.
4. Şahtaxtlı M. Hər gün bir az. "Şərqi-Rus" q., 25 iyun 1904, №84.
5. Şahtaxtlı M. Xaric əhvalatı. "Şərqi-Rus" q., 1903, №2.
6. Şahtaxtlı M. Müsəlmanlarda məktəb həyatı. "Qafqaz" q., 7 aprel 1982, №20.
7. Şahtaxtlı M. Türkiyəni necə xilas etməli? Şahtaxtlı M. Seçilmiş əsərləri. Bakı, "Çaşıoğlu", 2006.
8. Şahtaxtlı M. Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı? "Kaspi"q., 1891, №93.

T. Абдуллаева

Концепция национального прогресса Магамедага Шахтахтлы

Резюме

В статье анализируются основные принципы и приоритетные направления, составляющие основу концепции национального прогресса. Автор исследует такие проблемы, как национальная самоидентификация азербайджанцев, родной язык, национальная пресса, культура, литература, вопросы женской независимости, построение государства и т.д., одновременно подчеркивая их значение для развития общественной мысли в Азербайджане.

T.Abdullayeva

Conception of national progress of Mahammadagha Shahtatli

Summary

The article deals with the main principals and priority directions being the basis for the conception of national progress. The author researches such problems as the national self-identification of Azerbaijanis, the native langue, national press, culture, literature, matters of women independence, building of a state and so on, at the same time underlining their significance for the development of the social thought in Azerbaijan.

Rəyçi: Rəhim Əliyev
filologiya elmlər doktoru, professor

ATAƏMİ MİRZƏYEV
filologiya üzrə elmlər doktoru
Nizami adına Ədəbiyyat İnstitutu
ataemi@rambler.ru

FÜZULİNİN BİR QƏZƏLİ HAQQINDA

Açar sözlər: Fizuli, əlyazma nüsxəsi, qəzəl, nəzirə, təxmis.
Ключевые слова: Физули, рукописная копия, газель, подражание, тахмис.
Key words: Fuzuli, copy, gazelle, imitation, takhmis.

Məhəmməd Füzulinin (1494-1556) ana dilində yazdığı "Divan"ın avtoqraf nüsxəsi əldə olmadığından bizə gəlib çatan əlyazma nüsxələrində müxtəlif təhrif və naqisliklər özünü göstərir. "Divan"ı nəşrə hazırlayan hər bir tərtibçi Füzuli sözünü əslinə uyğun bir şəkildə verməyə çalışsa da, bu sahədə hələ də müəyyən problemlər öz həllini gözləməkdədir. Füzuli "Divan"ının mükəmməl nəşri sahəsində akademik Həmid Araslının xüsusi xidməti vardır. Onun 1958-ci ildə yeddi əlyazma və çap nüsxəsi əsasında çapa hazırladığı Füzuli "Divan"ı ən sanballı akademik nəşr hesab olunur. Müəllif kitabın sonunda nüsxə fərqlərini də göstərmişdir ki, bu da Füzuli əsərlərinin mətnşünaslıq baxımından tədqiqi üçün daha da geniş imkanlar yaratmışdır. Həmin nüsxə fərqləri altıcildlik Füzuli əsərlərinin 1996-cı il nəşrində də saxlanılmışdır. Lakin çox təəssüflər olsun ki, H.Araslının böyük zəhmət hesabına hazırlamış olduğu birinci cildin sonunda verilən həmin hissə ("Nüsxə fərqləri") latın qrafikası ilə çap olunmuş altıcildlik Füzuli əsərlərinin 2005-ci il nəşrində ixtisar edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə latın qrafikasında çap olunan altıcildlik Füzuli əsərlərinin təkrar nəşrində belə bir haqqı naşirlərə kim vermişdir? Axı bu, Füzuli əsərlərinin latın qrafikasında təkrar nəşridir (həm də H.Araslının tərtibi ilə). Təkrar nəşr zamanı mətnə belə bir müdaxilə özünü nə dərəcədə doğruldur? Bu, Füzuli irsinin nəşri sahəsində irəliyə deyil, geriyə atılmış bir addım olub, füzulişünaslığın bu yöndə əldə edilmiş nailiyyətlərini gələcək nəsillərdən gizlətmək kimi dəyərləndirilə bilər. Məlumdur ki, klassik mətnlərin tərtibi zamanı müəllif sözünü, müəllif üslubunu saxlamaq işində əlyazma nüsxələrini tutuşdurmaq, nüsxə fərqləri əsasında onu bərpa etmək mühüm işlərdən sayılır. Füzuli irsinin H.Araslının tərtibi ilə çap olunan 1958 və 1996-cı il nəşrləri bu sahədə qazanılan ən böyük təcrübə sayılır. Eləcə də bu müqayisə bəzi misra, beyt və nümunələrin dəqiqləşdirilməsində də olduqca əhəmiyyətlidir. Ədəbiyyatşünaslıq elmimiz inkişaf etdikcə bir sıra yeni tapıntılar klassik mətnlərin bərpası işinə də müsbət təsir göstərir. Bu baxımdan digər köməkçi vasitələrlə – mətnlərlə də klassik nümunələr üzərində dəqiqləşdirmələr aparmaq mümkündür. Bu aspektdən yanaşdıqda Füzuli əsərlərinin birinci cildinin sonunda – "Əlavələr" hissəsində verilən "Guşeyi-əbrulərində çeşmi-cadularmıdır?" misrası ilə başlayan qəzəlin Füzuliyə məxsusluğunu əsaslandırmaq işində onun dil, üslub, poetik xüsusiyyətləri ilə yanaşı, ona yazılmış təxmis də az əhəmiyyət kəsb etmir.

Akademik Həmid Araslının 1958-ci ildə nəşr etdirdiyi beşcildlik Füzuli əsərlərinin birinci cildinin sonunda – "Əlavələr" hissəsində 3 qəzəl və 2 rübai verilmişdir. Alim hər səhifənin sonundakı çıxarışda bu qəzəllərdən birincisinin Füzuli əsər-

lərinin Daşkənd və Sankt-Peterburq əlyazma nüsxəsindən, ikinci və üçüncüsünün 1924-cü ildə İstanbulda çap olunmuş "Külliyyati-Divani-Füzuli" nəşrindən, rübailərin isə 1857-ci ildə Təbrizdə çapdan çıxmış Füzuli "Divan"ından götürüldüyünü qeyd edir (4, 400-403).

Füzulişünas alim Mirzağa Quluzadə "Füzulinin lirikası" adlı monoqrafiyasında beşcildlik Füzuli əsərlərinin 1958-ci il nəşrinin birinci cildinin "Əlavələr" hissəsi haqqında bəhs edərkən göstərir ki, qeyd etdiyimiz həmin qəzəl və rübailərin heç biri Füzuliyə aid deyil, epiqonçu şairlərə məxsusdur (11, 157). Daha sonra M.Quluzadə həmin qəzəllər haqqında fikrini davam etdirərək yazır: "Cildin sonunda verilmiş üç qəzələ gəldikdə isə, bunlardan iki axırıncının yalnız İstanbul (1924) nəşrində olduğunu H.Araslı özü də qeyd edir. Birinci qəzəl isə tərtibçinin dediyi kimi, yalnız Daşkənd və Leninqrad (Sankt-Peterburq – A.M.) (A, B) əlyazmalarında vardır. Bu qeydlər qəzəllərin Füzuliyə aid olduğuna şübhə etmək üçün kifayət qədər əsas verir. Eyni zamanda qəzəllərin məzmunu, bədii qüvvə, üslub və ifadə xüsusiyyətləri də onun Füzuliyə aid olmadığını göstərir" (11, 158).

Füzuli əsərlərinin sonrakı akademik nəşrlərində (Bakı 1996, 2005) birinci cildin "Əlavələr" hissəsi ilə bağlı M.Quluzadənin qeydlərindən biri nəzərə alınmışdır, yəni özbək şairi Əlişir Nəvainin (1441-1501) "Qürbətdə qərib şadman olmaz imiş" misrası ilə başlayan rübaisi səhvən Füzulinin əsəri kimi təqdim olunduğundan o, sonrakı iki nəşrə daxil edilməmişdir. Bundan başqa, altıcildlik Füzuli əsərlərinin 1996-cı il nəşrinin "Əlavələr" hissəsinə 4 qitə də əlavə olunmuşdur. Həmin qitələrlə bağlı nəşrin məsul redaktoru professor Həmid Məmmədzadə səhifənin sonunda belə bir qeyd verir: "Bu qitələr "B" (Bakı – A.M.) nüsxəsində haşiyədə yazılmışdır..." (5, 385). Füzuli əsərlərinin latın qrafikası ilə 2005-ci il nəşrinin birinci cildində həmin qeyd ixtisar olunmuş, 4 qitə eynilə nəşrə daxil edilmişdir (6, 381-382).

Bu məqalədə Füzuli əsərlərinin birinci cildinin "Əlavələr" hissəsində olan qəzəllərdən yalnız

Guşeyi-əbrulərində çeşmi-cadularmıdır?
Yoxsa girmiş yayə tirəndaz hindularmıdır? –

beyti ilə başlayan üçüncü qəzəldən bəhs ediləcəkdir.

M.Quluzadə bu qəzəl haqqında xüsusi bəhs edərək yazır: "Üçüncü qəzəldə "cadularmıdır", "hindularmıdır", "sularmıdır" və sair sözlərdə, gördüyümüz kimi, sual şəkilçisi olan "-mı" xəbər şəkilçisi olan "-dır", "-dir"dən əvvəl gəlmişdir ki, bu xüsusiyyət, ümumiyyətlə, Azərbaycan dilinə, eləcə də Füzuli üslubuna yabançıdır" (11, 159).

Biz hər şeydən əvvəl göstərmək istərdik ki, əgər məsələ təkcə "-mı[4]" sual ədatının xəbərlik (şəxs) şəkilçisi olan "-dır[4]"dan əvvəl işlənməsi ilə bağlıdırsa, bu nəinki "Azərbaycan dilinə, eləcə də Füzuli üslubuna yabançı" (M.Quluzadə) deyil, əksinə Azərbaycan dili, Füzuli üslubu üçün xarakterik olan bir xüsusiyyətdir. Demək olar ki, Füzulidən əvvəl yaşamış, yaxud onun müasiri olmuş bütün şairlərimizin yaradıcılığında bu xüsusiyyət özünü göstərir. Fikrimizi əsaslandırmaq üçün aşağıdakı örnəklərə diqqət yetirək.

Nəsimidən: Ey nəsimi-sübhdəm, billah, şu yarım xoşmudur?
Şol həbibim, dilbərim, aləmdə varım xoşmudur? (13, 234)
Gülşənidən: Eşqə könül verməyən can ilə aşiqmidir?

Kizblə hər müddəi dəvisi sadiqmidir? (2, 242)
Həqiqidən: Kövsərin eyni ləbin cami-şərabindənmidir?
Surəyi-rəhman rüxün hərfi-kitabindənmidir? (3, 35)
Xətayidən: Ol gedən yarımmıdır, ya ixtiyarımdır gedir?
Bilməzəm canımmıdır, ya sevgi yarımdır gedir? (9, 104)

Eləcə də Füzulinin "Leyli və Məcnun" poemasındakı

Bədxahlərinmidir bu tədbir?
Qəmmazlərinmidir bu təzvir? (7, 129) – beyti və yaxud yenə "Leyli və Məcnun"da Məcnunun dilindən verilən "Sizdə adət bumudur? Böylə olurmu yarlıq?" (7, 148) – ifadəsi bu fikri bir daha təsdiq etmirmi? Yeri gəlmişkən, onu da qeyd edək ki, bu xüsusiyyət xalq dilində də mövcuddur. "İraq-Kərkük bayatıları" kitabında oxuyuruq:

Bu yol Ərbil yoludu,
Arxı dolu sumudu?
Sən sevdin, sən usandın,
Səndə adət bumudu? (10, 125)

Bu bayatıdakı "Səndə adət bumudu" ifadəsi Füzulinin yuxarıda "Leyli və Məcnun"dan misal gətirdiyimiz "Sizdə adət bumudur" ifadəsi ilə səsləşmirmi?

Deməli, "-mı[4]" sual ədatının "-dır[4]" xəbərlik (şəxs) şəkilçisindən əvvəl işlənməsi Azərbaycan dili və Füzuli üslubu üçün xarakterik bir xüsusiyyət kimi özünü göstərir. Bir cəhəti də qeyd edək ki, bu xüsusiyyət daha çox şeir dili üçün səciyyəvidir. Belə ki, bu zaman şeirin həm səslənmə keyfiyyəti, ahəngi, həm də təsir gücü daha da artmış olur.

Onu da qeyd etmək lazımdır ki, nədənsə bu qəzəlin XV əsrin sonu – XVI əsrin əvvəllərində yaşamış, Şah İsmayıl Xətayi sarayına yaxın olan və ona hörmət əlaməti kimi şeirlərində "Şahi" təxəllüsünü işlətmiş şairimizin

Sünbülün yanında hər su çeşmi-cadularmıdır?
Ya kəmənd ilə tutulmuş vəhşi ahularmıdır? –

mətləli qəzəlinə nəzirə yazıldığı unudulur. Halbuki H.Araslı xatırladığımız çıxarışda qeyd edir ki, Füzulinin bu qəzəli Şahiyə nəzirədir (4, 402). Tərtibçinin çıxarışda verdiyi bu qeyd 1996 və 2005-ci il nəşrlərində də saxlanılmışdır (5, 383; 6, 381). Xatırladaq ki, Füzuli Şahinin

Ğönçeyi-gül bülbülün qəsdinə peykan eyləmiş,
Ğönçə açılğan gülü yüzünə qalxan eyləmiş (1, 494; 2, 334; 14, 182) –

beyti ilə başlayan "Eyləmiş" rədifli başqa bir qəzəlinə də nəzirə yazmışdır. (20 cildlik "Azərbaycan klassik ədəbiyyatı kitabxanası"nın üçüncü cildində səhvən Şahinin bu qəzəlinin Füzuliyə cavab yazıldığı qeyd olunur (1, 493)).

Məlumdur ki, Füzuli yaradıcılığına onun yetişdiyi ədəbi mühitin böyük təsiri olmuş, o, bir çox şairlərin təsiri ilə əsərlər yazmışdır. Onun gənc yaşlarında bir sıra sənətkarlara, o cümlədən Həbibi, Lütfi, Şahi və digər müəlliflərə yazmış olduğu təxmis və nəzirələri vardır. Şahinin sözügedən qəzəli belədir:

Sünbülün yanında hər su çeşmi-cadularmıdır?
Ya kəmənd ilə tutulmuş vəhşi ahularmıdır?
Yaylarmıdır qurulmuş asılu hər guşədən,
Ya ğəzəblə çatdığın peyvəstə əbrularmıdır?
Qaşın altında iki çeşmindi yaslanmış yatar,
Ya bir eyvan içrə yatmış iki sayrularmıdır?
Şətmidir, qülzümmidir, ya abi-Ceyhun, ya Fərat,
Həsrətindən hər dü çeşmimdən axan cularmıdır?
Görgəcin bağlandı çeşmim iki xoşbu sünbülə,
Türreyi-ənbərəfşanın açdı, der: bularmıdır?
Baş çıqarqan hər tərəf güllərmidir fəsli-bəhar,
Ya fəna dünyadə xak olmuş pərirularmıdır?
Bilmən, ey Şahi, sənin yarındır ancaq tündxu,
Yoxsa xublar barcası ha böylə bədxularmıdır? (1, 493; 2, 334;14, 183)

Bir cəhəti də qeyd edək ki, Füzulinin sözügedən qəzəli ilk dəfə İstanbul (1924) nəşrində çap edilsə də, onun Azərbaycanda ilk nəşri 1958-ci ildə akademik H. Araslının adı ilə bağlıdır. Füzuli əsərlərinin Azərbaycanda sonrakı nəşrlərinin heç birinə bu qəzəl daxil edilməmişdir. Doğrudur, "Seçilmiş əsərlər" silsiləsindən buraxılan bu nəşrlərə dediyimiz qəzəl daxil edilməyə də bilərdi. Lakin məsələ ondadır ki, altıcildlik Füzuli əsərlərinin sonrakı akademik nəşrlərinin (Bakı 1996, 2005) heç birində də şairin bu qəzəli əsas əsərlər sırasına daxil edilmir. Halbuki bu, Füzuliyə məxsusluğu şübhə doğurmayan bir qəzəl kimi birinci cilddə əsas əsərlər sırasında verilməlidir. Bu qəzəlin Füzuliyə aidliyini şərtləndirən aşağıdakı cəhətlərə də diqqəti cəlb edək. Əvvəla, o da maraqlı və danılmaz bir faktdır ki, Füzulinin digər qəzəlləri kimi, bu qəzəli də geniş ərazilərdə yayılmışdır. Məsələ ondadır ki, özü nəzirə kimi yazılan həmin qəzələ klassik özbək şairi Əmir Seyyid Mühəmməd Ömərxan Əmirinin (1787-1822) təxmisi vardır. Əgər bu qəzəl Füzulinin əsəri olmasa idi, o, digər ərazilərdə, o cümlədən Özbəkistanda da tanınmazdı. Bu fakt onu göstərir ki, Füzulinin sözügedən qəzəli heç də az tanınmış olmayıb. Ömərxan Əmiri Lütfi, Zəlili, Nəvai kimi, Füzulinin qəzəllərini də təxmis etmişdir. Onun Füzulinin iki qəzəlinə təxmisi vardır. Onlardan biri

Şəfayi-vəsl qədrin hicr ilə bimar olandan sor,
Zülali-zövq şövqün təşneyi-didar olandan sor (6, 135) –

beyti ilə başlayan qəzələ, digəri isə haqqında danışılan qəzələ yazılmışdır (8, 70-71). Əmiri Füzulinin sözügedən qəzəlini belə təxmis etmişdir:

Gülşəni-rüxsarında ol çeşmi-ahulərmidir?
Cövrü küpü mehri az, bibak bədxulərmidir?
Xuni-nagəh qılğıcı ikki cəfaculərmidir?
Guşeyi-əbrulərində çeşmi-cadulərmidir?
Yoxsa girmiş yayə tirəndaz hindulərmidir?

***

Dişlərinə nə münasib gövhəri-dürci-sədəf,
Guşvari danəsidir əxtəri-bürci-şərəf,
Xublıq babında sən dursan təkəllüf bər tərəf.
İqdi-şəbnəmdir güli-tər üzrə, yaxud hər tərəf,
Qətreyi-tərdən güli-rüxsar üzə sularmıdır?

***

Bağ ara nərgiz nigahidir, işarət intizar,
Yüz yaşarmış hər kəfi-xak üzrə bir simin üzar,
Bilgisi hər kimsəyə olsa nigahi-etibar,
Açılan güllərmidir, yer üzrə hər fəsli-bahar,
Ya fəna dəştində xak olan pərirulərmidir?

***

Qamətin şövqində şimşadü sənubərdür qulam,
Gülbüni-növrəstəsən bağ içrə, ey aliməqam,
Nola eylərmən təmənnayi-rüxündən sübhü şam,
Əşki-çeşmimdir səri-zülfün xəyalilə müdam,
Ya düzülmüş rişteyi-mişk üzrə lölö'lərmidir?

***

Dərgəhində kim ki, baş altinə daş qoymuş, yatır,
Demə daş kim, başin üstinə günəş qoymuş, yatır,
Üzdə zülfün bir-birinə baş tutaş qoymuş, yatır,
İki əjdərdir ki, bir gənc üzrə baş qoymuş yatır,
Ya müsəlsəl arizin dövrində geysulərmidir?

***

Barca xublar ol pəri hüsnünin olmuş qaili,
Dəmbədəm xurşidü mah kuyində olmuş saili.
Dudi-ahim kim, Əmiri-hüsn bolmuş haili,
Sənmisən ancaq, Füzuli, böylə xublər maili,
Yoxsa eşq əhli qamu səntək bəlaculərmidir? (8, 70-71)

Təqdim olunan təxmislə tanışlıq Füzulinin qəzəlinin mətni ilə bağlı bir sıra nüsxə fərqləri də üzə çıxarır ki, bu, özünü ikinci və dördüncü beytlərdə aydın şəkildə göstərir. Eləcə də Əmirinin bu təxmisi altı bənddən ibarətdir. Bu isə onun əlində olan variantda Füzulinin qəzəlinin altı beytdən ibarət olduğunu göstərir. Ancaq H.Araslının tərtib etdiyi nüsxədə qəzəl beş beytdir. Həmin variantda Əmirinin təxmisində olan

Açılan güllərmidir, yer üzrə hər fəsli-bahar,
Ya fəna dəştində xak olan pərirulərmidir? –

beyti yoxdur.

Füzulinin Şahiyə yazmış olduğu nəzirədə, ənəyə uyğun olaraq, qəzəlin vəzni (rəməl bəhrinin ikinci növü: *fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün*) və qafiyələrinin

bir qismi eynilə saxlanılmışdır. Eləcə də qəzəlin dil-üslub xüsusiyyətləri və poetik deyim tərzi, o cümlədən leksikonunun Füzulinin nəzm əsərlərinin tezlik sözlüyünə tam uyğun olması (12) onun Füzuliyə aidliyinə heç bir şübhə yeri qoymur. Füzulinin Şahiyə yazdığı nəzirəyə Əmirinin təxmisindəki bir beyti də əlavə etsək, onda belə bir mətn alınmış olacaqdır:

Guşeyi-əbrulərində çeşmi-cadularmıdır?
Yoxsa girmiş yayə tirəndaz hindularmıdır?
İqdi-şəbnəmdir güli-tər üzrə, yaxud hər tərəf,
Qətrə-qətrə tərdən ol rüxsar üzə sularmıdır?
Açılan güllərmidir, yer üzrə hər fəsli-bahar,
Ya fəna dəştində xak olan pərirulərmidir?
İki əjdərdir ki, bir gənc üzrə baş qoymuş yatır,
Ya müsəlsəl arizin dövrində geysularmıdır?
Əşki-çeşmimdir səri-zülfün xəyalilə müdam,
Ya düzülmüş rişteyi-mişk üzrə lölö'lərmidir?
Sənmisən ancaq, Füzuli, böylə xublər maili,
Yoxsa eşq əhli qamu səntək bəlacularmıdır? (6, 381)

Beləliklə, bu deyilənlər əsas verir ki, altıcildlik Füzuli əsərlərinin birinci cildinin "Əlavələr" hissəsində verilən "Guşeyi-əbrulərində çeşmi-cadularmıdır?" misralı qəzəli onun müəllifliyinə heç bir şübhə doğurmayan əsər kimi gələcək nəşrlərdə əsas hissədə verilməlidir. Bu isə şairin ədəbi irsinin daha da dəqiqləşməsi və zənginləşdirilməsi işinə xidmət etmiş olacaqdır.

Ədəbiyyat

1. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə, III c., XIII-XVI əsrlər Azərbaycan şeiri / Tərtib edəni: C.Qəhrəmanov. Bakı: Elm, 1984
2. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə, II c., XIII-XVI əsrlər Azərbaycan şeiri / Tərtib edəni: C.Qəhrəmanov. Bakı: Şərq–Qərb, 2005
3. Cahanşah Həqiqi. Seçilmiş əsərləri. / Tərtib edənlər: Ə.Rəhimov, L.Hüseynzadə, M.Əliyev. Bakı: Şərq – Qərb, 2006
4. Füzuli. Əsərləri. Beş cilddə, I c., / Tərtib edən: H.Araslı. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1958
5. Füzuli. Əsərləri. Altı cilddə, I c., / Tərtib edən: H.Araslı. Bakı: Azərbaycan, 1996
6. Füzuli. Əsərləri. Altı cilddə, I c., / Tərtib edən: H.Araslı. Bakı: Şərq–Qərb, 2005
7. Füzuli. Əsərləri. Altı cilddə, II c., / Tərtib edən: H.Araslı. Bakı: Şərq–Qərb, 2005
8. Füzuliyə təxmislər. /Toplayanı və nəşrə hazırlayanı C.Nağıyeva. Bakı: Yazıçı, 1993
9. Xətayi Ş.İ. Əsərləri. / Tərtib edənlər: Ə.Səfərli, X.Yusifli. Bakı: Şərq–Qərb, 2005
10. İraq-Kərkük bayatıları. / Tərtib edən: Q.Paşayev. Bakı: Yazıçı, 1984
11. Quluzadə M. Füzulinin lirikası. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1965
12. Məhəmməd Füzulinin nəzm əsərlərinin əlifba-tezlik sözlüyü. / Tərtibçilər: K.Vəliyeva, M.Mahmudov, C.Rəhmanov, V.Sultanov. Bakı: Elm, 2004

13. Nəsimi İ. Seçilmiş əsərləri. İki cilddə, I c., / Tərtib edən: H.Araslı. Bakı: Lider nəşriyyat, 2004
14. XIII-XVIII əsrlər Azərbaycan poeziyasından seçmələr. / Tərtib edən: X.Yusifli. Bakı: OKA Ofset, 2007

Атаэми Мирзоев

Об одной газели Физули

Резюме

В первый том многотомного издания произведений Физули, составленного в 1958-1996 гг. академиком Гамидом Араслы, включен научно-критический текст «Дивана» поэта. В заключении этого текста – в разделе «Дополнения» представлены 3 газели, принадлежность которых поэту подвергается сомнениям. Третью из этих газелей Физули написал как подражание (назира) на газель поэта, известного под тахаллусом Шахи. Интересен факт, что это произведение было известно как газель Физули, а узбекский поэт Омархан Амири (1787-1822) даже написал тахмис на нее. Указанная газель по своим языковым и стилевым особенностям, а также мастерству не оставляет никаких сомнений по поводу авторства Физули. В статье обосновано мнение, что в будущих изданиях «Дивана» Физули данная газель должна быть представлена не в разделе «Дополнения», а в основной части книги.

Ataami Mirzayev

About a gazelle written by Fuzuli

Summary

The first volume of Fuzuli's works compiled in 1958–1996 by academician Hamid Arasli includes a scientific critique text of his "Divan" . In conclusion of this text – in the "Amendment" part there are 3 gazelles of which authorship falls under suspicion. Fuzuli wrote the third of these gazelles as an imitation to gazelle of a poet, whose pseudonym (takhallus) was "Shahi". It is very interesting that, this work was known as Fuzuli's gazelle and even Omarkhan Amiri (1787-1822) – an uzbek poem wrote takhmis for that. The mentioned gazelle considering its linguistics, style as well as mastership has no room for suspicion of Fuzuli's authorship. The article substantiates the fact that in future publications of Fuzuli's Divan this gazelle should be presented not in the "Amendment" part, but in the main body of the book.

Rəyçi: Əlyar Səfərli
AMEA-nın müxbir üzvü,
filologiya elmləri doktoru, professor

Fil.f.d. **EŞQANƏ BABAYEVA**
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
azimova-eshqane@rambler.ru

YAQUB QƏDRİ QARAOSMANOĞLUNUN "ANKARA" ROMANINDA İCTİMAİ-SİYASİ KONFLİKT

Açar sözlər:Türk ədəbiyyatı, Yaqub Qədri Qaraosmanoğlu, roman, Ankara, konflikt.
Key words: Turkish Literature, Yakub Kadry Karaosmanoghlu, Turkish novel, Ankara, conflict.
Ключевые слова: Турецкая литература, Якуб Кадри Караосманоглу, романы, "Анкара", конфликт.

XX əsr türk ədəbiyyatının əsas ədəbi simalarından biri də Yaqub Qədri Qaraosmanoğlu olmuşdur. Onun yaşadığı dönəm Türkiyənin həm ədəbi-mədəni, həm də ictimai-siyasi həyatında bir çox önəmli hadisələrin ortaya çıxdığı bir dönəmdir. İstiqlaliyyət savaşı, I Dünya müharibəsi, Cümhuriyyətin qurulması, Avropaya inteqrasiya, qərbləşmə kimi ən önəmli hadisələr məhz Yaqub Qədrinin yetişdiyi bir dönəmdə ortaya çıxmışdır. Vətənpərvər bir şəxsiyyət olan Yaqub Qədri bu hadisələrə biganə qalmamış, istər ictimai-siyasi, istərsə də ədəbi fəaliyyəti ilə bu mübarizəni davam etdirmişdir. Yaqub Qədri jurnalistik fəaliyyətindən tutmuş, demək olar ki ədəbiyyatın bütün sahələrində əsərlər yazmışdır. O, ictimai-siyasi xadim, Kadro dərgisinin qurucusu, jurnalist, şair və yazıçı olmuşdur. Onun romanları XX türk romanın ən dəyərli töhfələrindəndir. Yaqub Qədri "Kiralık Konak" (1921), "Nur Baba" (1922), "Hokm gecəsi" (1927), "Sodom və Gomore" (1928), "Yaban" (1932), "Ankara" (1934), "Bir Sürgün" (1937), "Panorama I" (1949), "Panorama II" (1952) və "Həp o şarkı" (1956) adlı on roman müəllifidir.

Onun yaradıcılığında önəmli yer tutan romanlardan biri də "Ankara"dır. Dövrün ictima-siyasi panoramasının əks olunduğu bu roman utopik bir əsərdir. Əsərdə milli mücadilənin sonucları ən xırda detallarına qədər təhlil olunur. Ümumiyyətlə, əsər həm konflikt, həm də dərin-gərgin konfliktlərin ortaya çıxartdığı xarakterlər baxımından diqqəti cəlb edir. Əsərdə hadisələr İstanbullu, evdar bir xanım olan Səlmanın kontekstində cərəyan edir. Konfliktlər, düyünlər bu əsas obrazın müstəvisində təqdim edilir.

Onu da qeyd edək ki, seçilən məkanlar, xarakterler və dövr bir-biri ilə əlaqələndirilmiş, yazıçı öz ideyalarını bu obrazların simasında ümumiləşdirmiş, bəzən isə ümumiyyətlə simvollaşdırmışdır.

Roman üç bölümə ayrılır, hər bir hissə isə Türkiyənin mühüm bir mərhələsini özündə əks etdirir: Birinci bölüm: Sakarya savaşı öncəsi (1922-ci illərə qədərki mərhələni əhatə edir). İkinci bölüm: Cümhuriyyətin elan olunmağa başladığı dövr (1926-cı illərə qədərki mərhələ). Üçüncü bölüm: Cümhuriyyətdən 15-20 il sonrakı illər (1937-1943-cü illərə qədər).

Hadisələrin cərəyan etdiyi Ankara bir növ adi məkan anlayışından çıxaraq dərin mənəvi məna kəsb etməyə başlayır. Hadisələrin fonunda ilk öncə inqilab atəşi ilə yanan köhnə Ankara, daha sonra isə Avropai yaşam tərzi, Palasları ilə məşhur

olan yeni Ankara təqdim olunur. Yazıçını belə bir məsələ düşündürür. "O millî atəşin hərarətindən bu buz kimi şəhər maketi necə ortaya çıxdı?"

Qısa məzmuna nəzər salaq, Əsər, Səlmanın böyük xəyallarla İstanbuldan əri Nazif bəyin yanına Ankaraya gəlməsiylə başlayır. I Bölümdə Ankara`nın ruhunu, Milli Mücadilənin həyəcanını anlamayan Səlma xanım ətrafıyla konfliktdədir. Kasıb xalq, onların həyat tərzi, taxtabitiylə dolu olan köhnə evlər onda ikrah hissi oyadır. Halbuki, Ankara onun xəyalında nağıllar ölkəsi kimi möcüzəvi bir yer idi. Əsərdə göstərilir ki, ümumiyyətlə, İstanbullulara görə "Ankara" bir ümüd, qurtuluş deməkdir. Səlmanın atası səhərlər əlinə qəzet alar-almaz ilk axtardığı xəbərlər Ankarayla bağlı olur. Hətta İstanbuldan Ankaraya gələnlərə milli hərəkatın qəhrəmanı kimi baxırdılar.

… Ecnebi işğali altında bir zindan haline gelen İstanbul`da, bir kaçış ve kurtuluş parolası gibi kulaktan kulağa fısıldanan, her fısıldanışta gözlerde bir ümit ve intizar işığı parlatan ve o gizliliği kendisine esrarlı bir cazibe veren Ankara kelimesi, ideal Ankara`nın adı, zihninde bir hayal ülkesi olarak yaşayan bu yeri adete masal iklimi haline sokmuştu. (8, 17)"

Amma gördüyü mənzərələr Səlmanı hey İstanbul həsrətinə aparır.

"Sanki, bu alem bana küs ve ben ona dargın gibiyim. Hem, bu Anadolu peyzajlarının dili yok. İstanbul`da her taraf konuşur. Her taraf, size bir şey söyler. Sanki, taşı-toprağı canlı gibidir."

Səlma ilə gənc yazıçı Neşati Sabitin söhbətində bir ziddiyət ortaya çıxır. Gənc yazıçı, Ankaranı yalnız adi bir mekan, həm də daşı-torpağı lal məkan hesab edən Səlmaya kəskin şəkildə etirazını bildirir:

"-Buraların da bir dili vardır ama, biz anlayamıyoruz. Ömrünüzde bir kere olsun, halis Anadolu türkülerini candan dinlediğiniz oldu mu,? Bu kısır derenin, şu cılız ağaçların ve bunların ardındakı taşlık dikenlik tepelerin bütün sıtması onlardadır ve bütün ihtirası..

…Bir Anadolu köylüsünün yüzüne hiç dikkatle baktığınız oldu mu? Bir Anadolu köylüsü diyorum; kadın olsun, erkek olsun, çocuk olsun, hepsinde öyle bir ifade görürsünüz ki saffetine, sadeliğine, hatta basitliğine, iptidailiğine rağmen, vekarı, olgunluğu, derin ve ıstıraplı çizgileriyle sizi korkutur." (8, s. 79)

Daha sonra, bu daşın torpağın dilini Anadolu uşağının, o balaca odunçunun daha yaxşı hiss etdiyini söyləyir.

Əsərdə diqqəti cəlb edən obrazlardan biri də mübariz bir qəhrəman, vətənpərvər insan gənc zabit Haqqı bəydir. Səlmaya ilk milli duyğuları, vətənpərvərlik hisslərini məhz bu gənc zabit aşılayır. I bölümün axırlarında evdar bir xanım olan Səlma, Ankara ilə arasındakı ruhu hiss edən milli duyğularla yaşayan, vətən uğrunda canını fəda etmək istəyən tibb bacısına çevrilir. Həyat yoldaşı Nazif bəy, "mən canımı çöldən tapmamışam" deyib, istiqlaliyyət savaşının tüğyan etdiyi Ankaradan uzaqlaşır. Səlma ilə onun arasındakı konflikt daxili monoloqda əks olunur. Səlma, məhz bu gün o ütülü, səliqəli geyinmiş ərinin nə qədər şəxsiyyətsiz biri olduğunu başa düşür. Əsərin ikinci hissəsində onun Haqqı bəylə evləndiyini, günlərini ziyafətlərdə keçirdiyi əks olunur. Bu hissədə milli mübarizə uğrunda çırpınan Ankara, sürətlə inkişaf edən, böyük Ankara Palasları ilə məşhur olan kosmopolit bir yerə çevrilir. Əslində burada, yazıçı inqilabdan sonra, varlanmış, harınlamış, müasirləşməni Avropa təqlidçiliyində görən insanların karikaturasını təsvir etməklə, kəskin

şəkildə onları tənqid edir. Milli duyğularla mübarizəyə atılan, gənc zabit minbaşı Haqqı bəy, günlərini ziyafətlərdə, qadınlarla rəqs etməkdə, yeyib içməkdə keçirən, evi, xaricdən gətirtdiyi mebelleri ilə qürur duyan bir dəllala çevrilir. Səlma əvvəllər heyranlıq duyduğu bu insan getdikcə yazığı gəlir, hətta iyrənməyə başlayır:

"Ərimin üzünə baxdıqca ona yazığım gəlir. Bilirsiz, mənim ərim əvvəllər qəhrəman idi. Möhkəm və kəskin ruhlu idealist bir insan idi. Həmişə mənə hörmət və qulluq edən bir centlmen idi. Qələbə qazanmış bir komandir kimi cəhbədən gələn günü xatırlayıram. O vaxtlar, o mənim heç nəyim deyildi. Fəqət, hər şeyim idi. Mənim üstümdə özünə görə bir nüfuzu, bir hökmü vardı. Hər dəfə gözləri gözlərimə baxanda "Buyurun, əmriniz nədir" demək istəyirdim. Halbuki, indi…indi? (8, s.141)"

Səlma, belə bir cəmiyyətdə, bu atmosferdə artıq nəfəs ala bilmir. Belə bir sual ortaya çıxır. Bəyəm milli mücadilə bunun üçün olmuşdu? İnsanlara vəd edilən gələcək bu idi?!

Bütün bunlara dözə bilməyən Səlma, Haqqı bəydən ayrılır, öz ayaqları üzərində duracağına söz verərək, müəllimliyə başlar. O, əvvəllər bəyənmədiyi Tacəddin məhəlləsinə böyük sevgi ilə qayıdır. Onun üçün önəmli olan, xalqı üçün faydalı ola bilməkdir. Əsərdə iki fərqli toplum arasında konflikt başlayır. Bir qütbdə əvvəllər vətən heyranı, indi isə həyatını eyş-işrətdə keçirən kökündən qopmuş, Avropa təqlidçiləri Haqqı bəylər, Murad bəylər, əks qütbdə isə Anadolunun ruhunu duyan, apardığı mübarizənin, inqilabların nəticəsinin bu olmadığını dərk edən, Səlmalar, Nəşati Sabitlər dayanır.

Əsərin axırıncı bölümündə ütopik bir Ankara canlandırılır. Yazıçı, burada görmək istədiyi Ankaranı real tablolarla əks etdirir. Səlma bir qədər yaşlanmış, onunla eyni idealogiya sahibi olan yazıçı Neşati Sabitlə xöşbəxt bir ailə həyatı qurmuşdu. Hətta, yazıçı göstərir ki, Səlma o qədər bu inqilabın içində bişmişdi ki, bir qədər yaşlandığının, dərisinin qırışmağa başladığını belə hiss etməmişdi. Çünki, bu cəmiyyət dünyanın ikinci yaradılışı idi.

"Bundan dörd il əvvəl üzünü görüb, səsini eşitdiyi Tanrı, aydınlığa ol! Demişdi; Aydınlıq olurdu artıq. Suya ol! Demişdi. Su olurdu. "

Əsərin əvvəlində Ankarada özünü yad, obrazın diliylə desək, "yaban" hiss edən acı qürbət duyğusu keçirən, adi ev xanımı, milli mübarizəyə qoşulan, Ankaranın daşına, torpağına bütün qəlbiylə bağlanan mükəmməl bir xarakterə çevrilir.

"Sanki Ankara, onun öz evi, Ankaranın qurulması və inkişafı onun öz mübarizəsi idi. Bunu belə hesab etməyənlərə, və ya öz şəxsi mənfəətlərinin çuxurunda ilişib qalanlara yazığı gəlirdi. Çünkü, bələləri, ona, 1926-cı illərdəki Yenişəhir sakinlərini xatırladırdı. (8, s.177)"

Səlma xanım həyatının o mərhələsini hələ də ürpərərək xatırlayırdı. Onun görmək istədiyi Ankara məhz bu idi. Fəhləsi, mühəndisi, heç kəsin əsiri olmayan, özünü vətən torpağının qulluqçusu hesab edərək, alın təriylə firavan həyat sürən bir cəmiyyət… Yazıçı, Ankaranı zahiri baxımdan təsvir edərkən, onun əvvəlki kimi acı qürbət hissi yaratmadığını vurğulayırdı.

Yeri gəlmişkən onu da qeyd edək ki, yazıçı, bu əsəri nəşr etdirdikdən otuz il sonra təkrar çap etdirərkən, romanın ilk səhifəsinə təəssüfdolu bir qeyd etmişdi.

"… bu ideal Türkiyəyə iyirmi ilə qovuşacağımızı sanırdım. İndi, o iyirmi ilin üstündən, bir iyirmi il də keçib. Fəqət biz, siyasi, mədəni və iqtisadi devrimin

şərtləri baxımından hələ də romanımın ikinci bölümündə karikaturasını çəkərək verdiyim Ankaranın içində çırpınıb qalmaqdayıq. (8, s.9)"

Nəticə:

Maraqlı ədəbi şəxsiyyətə malik, ictimai-siyasi xadim Yaqub Qədri Qaraosmanoğlunun "Ankara" romanını tədqiqata cəlb edərkən, əsərdə təqdim edilmiş Ankaranın məkan anlayışı hüdudlarından çıxaraq simvolik məna kəsb etdiyi qənaətinə gəldik. Bu romanda Ankaranın daha dərin mənəvi qatları açılmaqdadır. Yazıçı, Nəşati bəyin vasitəsi ilə bu yerin daşının, torpağının bir ruhu, hər "yaban"a açılmayan bir sirri, dili olduğunu vurğulamaqdadır. Əslində əsərin elə əsas ideyası da budur. Əsərdə dövrün ictimai-siyasi ab-havası real boyalarla açıqlanır. Yazıçı bu romanıyla oxucunu düşünməyə sövq edir. İnqilabın nəticələrini şərh etməyə çalışır. Harınlaşmış, Avropa təqlidçilərini tənqid atəşinə tutur.

Əslində, obrazlar, seçilən məkanlar ümumiləşdirilərək, simvollaşdırılaraq təqdim olunmaqdadır. Yazıçı, bu əsərində "Kadro" hərəkatını, ideologiyasını əks etdirməktədir.

Ədəbiyyat

1. AKI, Niyazi, Yakup Kadri Karaosmanoğlu, İnsan-Eser-Fikir-Üslûp, İletişim Yayınları, 2001.
2. AKTAŞ, Şerif, Yakup Kadri Karaosmanoğlu, T.C. Kültür ve Turizm Bakanlığı Yayınları, Ankara, 1987.
3. AKYÜZ, Kenan, Modern Türk Edebiyatının Ana Çizgileri (1860-1923), İnkılâp Kitabevi, İstanbul, 1995.
4. BALCI, Yunus, Türk Romanında Aydın Problemi, T.C. Kültür Bakanlığı Yayınları, Ankara, 2002.
5. ÇETİN, Nurullah, Roman Çözümleme Yöntemi, Öncü Kitap Yayınları, Ankara, 2008.
6. Doğumunun 100. yılında Yakup Kadri Karaosmanoğlu, Marmara Universitesi, Fen Edebiyat Fakültesi Yay., İstanbul, 1989
7. KAPLAN, Mehmet, Türk Edebiyatı Üzerine Araştırmalar 3-Tip Tahlilleri, Dergâh Yayınları, İstanbul, 1991.
8. KARAOSMANOĞLU, Yakup Kadri. Ankara, 29.baskı, İletişim yayınları, İstanbul, 2012
9. KUDRET, Cevdet, Türk Edebiyatında Hikâye ve Roman, C.2, Varlık Yayınları, İstanbul, 1967.
10. MORAN, Berna. Türk Romanına Eleştirel Bir Bakış, İletişim Yayınları, İstanbul, 1983.

Eshqane Babayeva

Social-political conflict in Yakub Kadry Karaosmanoghlu's "Ankara" novel

Summary

Yakub Kadry Karaosmanoghlu was a famous figure of the 20th century Turkish literature. Kadry having multi skills in creature is mainly known as a big novel writer. He is the author of novels such as "Nur Baba" (1928), "Hökm gecesi" (1927), "Yaban" (1932), "Ankara" (1934) and etc.

Conflict problem is going to be studied in the article.

Эшгана Бабаева

Социально-политически конфликт в романе Якуба Кадри Караосманоглы "Анкара"

Резюме

Якуб Кадри Караосманоглу - один из выдающихся личностей турецкой литературы XX века. Его творчество отличается жанровой многогранностью, но более всего он известен как автор романов. Перу писателя принадлежат такие романы, как "Нур Баба" (1928), "Ночь приговора" (1927), "Чужак" (1932), "Анкара" (1934) и др.

В представленной статье будет исследована проблема социально-политического конфликта на основе его романа *"Анкара"*.

Rəyçi: Professor Aydın Abıyev

SƏBİNƏ HACIYEVA
GDU
Qrammatika və ingilis dilinin tədrisi kafedrası
haciyeva.Sabina@bk.ru

XX ƏSR AMERİKA NƏSRİ VƏ CON APDAYK

Açar sözlər: mifə qayıdış, mifik yaddaş, mənəvi böhran, zamansızlıq, təhtəlşüur, xaos, kosmos sublimasiya, sinxron, paradiqmatik təşkilolunma
Ключевые слова: возвращение в мифы, мифические памяти, моральное кризис, безвременно, подсознание, хаос, космос, сублимация, парадигматическое создание
Key words: return to the myth, mythological memory, spiritual crisis, non-tenseness, subconscious, chaos, space, sublimation, synchrony, paradigmatic organization

Hər bir sənətkarın bütövlükdə yaradıcılığı, hətta konkret bir əsəri barəsində obyektiv bir fikir söyləmək, ətraflı təsəvvür yaratmaq üçün onun yaşayıb yaratdığı dövrün, ədəbi tarixi mühitin əsas meyl və tendensiyalarını, problemin mənzərəsini müəyyən etmək lazımdır. Müasirləri olan P.Bak, E.Heminqvey, Dos Passos, Con Steynbek, U.Folkner kimi Con Apdayk da XX əsrin 60-cı illər Amerika mühitinin yetirməsi idi. Onların yaradıcılığı bu gərgin, zəngin, və ziddiyyətli mühitlə mübarizədən, ondan narazılıqdan başlamışdı. Bu Amerika nəsrinin vüsətli inkişaf dövrü idi. Bu dövrədək artıq altı Amerika yazıçısı dünyanın ən böyük mükafatına - Nobel mükafatına layiq görülmüşdü; Sinkler Lyuis (1939), Fucin O"Nil (1936), Perl Bak (1938), Ulyam Folkner (1949), Ernest Heminquey (1954) və Con Steynbek (1963). XX yüzilliyi həm də Amerika ədəbiyyatının, xüsusilə nəsrin çiçəklənmə dövrü kimi dəyərləndirmək olar. Məhz bu əsrin önlərindən etibarən Amerika nəsrində bir yeniləşmə baş verir: təsvirdə və təhkiyədə psixologizm güclənir. Bu üç amillə baglı idi: birincisi əsrin önlərində Amerikada təbiət elmləri xüsusilə bilogiya gücləndi, ikincisi dünya iqtisadi böhranı ölkədə əhalinin psixoloji durumunu maksimum gərginliyə çatdırdı, üçüncüsü əsrin əvvəllərində məşhur Avstriya filosofu, psixoanaliz nəzəriyyəsinin banisi Ziqmund Freyd Amerikada altı məruzə oxudu və bu məruzələr Amerika ədəbiyyat və mədəniyyətini yeni istiqamətlərə yönəltdi.Fəqət XX əsrin 60-cı illərində sovet ədəbiyyatında yeni mərhələ başlananda Amerika həyat tərzi mürəkkəbləşir. Amerika ədəbiyyatında 6-cı Nobel mükafatı laureatı Con Steynbek yazırdı: "1960 год был годом перемен. В такие годы подступне страхи выползают на поверхность, тревога нарастает и глухое недовольства постепенно переходит в гнев" (Джон Стейнбек. Зима теревоги наших, М, 1962, с 270). C.Steynbek bu epoxanı Amerika ruhunun tənəzzül dövrü adlandırırdı.

XX əsrin 60-cı illər Amerika nəsri bir neçə qlobal problemi həll edirdi:

1. Amerika həyat tərzi
2. Orta amerikalının taleyi (obrazı)
3. Amerika ruhunun böhranı
4. Millətin mənəvi kasıblığı [1]

Ədəbi tənqid tərəfindən "XX əsr Amerika nəsrinin zirvəsi", "dahiyanə roman" kimi qiymətləndirilən "Qəzəb salxımı" romanı tənqidə məruz qalanda Con Steynbek tənqidçilərə cavab verərək yazırdı:

"Mən oxucuya həzz vermək üçün yazmıram. Əksinə, mən dəridən qabıqdan çıxıram ki, o əsl əsəb sarsıntısı keçirtsin. Və bir də mən bu kitabı kitablar adətən yazılan tərzdə yazmamışam, bərbəzəksiz, həyat necə var eləcə də yazmışam" [2, 94]. 60-cı illər nəsri Amerika həyat tərzini bütün sosial iflicləri ilə təsvir edir.

"Orta amerikalı"nı içəridən silkələyib oyadır, onun taleyində Amerikan ruhunun böhranını təcəssüm etdirir və bunların əsasında milli–mənəvi tənəzzülü, milli çatışmazlığı açıb göstərir, oxucunu bunun səbəbləri üzərində düşündürürdü. Çıxış yolu çölə atdıqları nəsri saf və ulu keçmişə, mifə, folklora yönəltməkdir ki, Ernest Heminqvey "Qoca və Dəniz", Ulyam Folknerin "Küy və Qəzəb", Con Steynbekin "Həyəcanlarımızın qışı" və Con Apdaykın "Kentavr" romanları belə yaranmışdı.

XX-ci əsrin 60-cı illərində bütün dünyada, xüsusilə də SSRİ-də olduğu kimi, onunla əks qütbdə dayanan ABŞ-da da azad fikrin, yazının mövqeyi qətiləşmişdi. 1962-ci ildə Con Steynbek yazırdı: "Yazıçılar arasında ölü olmaq bir dəb halına keçib." Əsas bu idi ki, yazıçılar milli və estetik idea, məna bilmirdilər. O dövrün gənc yazıçısı Con Qordir bu fikirdə idi: "Biz qəhrəmanlıq idealı olmadan yaşamaqdan imtina edirik. İzolə olunmuş peşəkarlıq bu yazıçının təfəkküründə bütün dünya müqabilində ölümə bərabərdir." [3, 18]Yuxarıda qeyd olunmuş fikirlər Amerikadakı ədəbi-tarixi mühiti dəqiq səciyyələndirir.Bu dövrün tədqiqatçısı A.M.Zverev yazır: "Apdayk, Malamud, Dot, Bekkon kimi yazıçılar 60-ci illərin əvvəlləri amerikan zənginliyinin tələbatına cavab verən, yəni millətinin "mənəvi əzablarını" namusla və güzəştsiz təsvir edən əsərlər yazırdılar. Ədəbiyyat heç də az əhəmiyyəti olmayan, cəmiyyətin qarşısında irəli sürdüyü başqa bir problemin təkcə psixologiyasını deyil, həm də onların dünyagörüşünü və mənəvi xüsusiyyətlərini müəyyən edən istehlakçılıq problemini təcəssüm etdirirdi.

"Dovşan, qaç" romanı bu mövzuda yazılmış ən öndə gedən birinci və ciddi kitablardan biri idi: onun sentuallığı demək olar ki, Steynbekin məşhur "Həyəcanlarımızın qışı" romanı ilə eyni səviyyədə qeyd olunurdu". [3, 50]

Bu qeydlərdə Con Apdaykın ilk böyük əsərinin ədəbi mühitdəki əhəmiyyəti doğru düzgün şəkildə müəyyən olunur. Məhz "Dovşan, qaç" romanının uğuru yazıçını cəmiyyətin daha da dəqiq sosial-psixoloji qatlarını qaldırmağa, Amerika həyat tərzi kontekstində orta amerikalını təmsil edən, fərdin cəmiyyətlə münasibətlərini təmsil edən "Kentavr" romanını yazmağa sövq edir. Romanda yazıçının obrazı - şəxsi dərdi, taleyi aspektlərdə təqdim olunur. Əsərin qəhrəmanı rəssam Piter Kolduel təbii ki, yazıçının bir çox cizgilərini, xarekterini səciyyələndirən psixoloji əlamətləri əks etdirir.Yazıçı 'Kentavr" romanını daha çox şəxsi, avtobioqrafiq roman adlandırır. Ən əziz xatirələri necə nəql etmək olar. Sevdiyin qıza öz uşaqlığını necə təqdim...? bir sözlə qaydalarla xaos arasındakı aləm nədən ibarətdir..? "Kentavr" romanında dünya sahmanı ilə xaos arasındakı aləm təsvir olunur. Romanın qəhrəmanı rəssam Piter Kolduel öz sevgilisi ilə keçmişi, gələcəyi, valideynləri, ailə üzvləri barəsində söhbət edir. Burada yazıçını söhbət formasının çərçivəsi düşündürür. Belə demək olar ki, "İnsan nə üçün yaşayır" sualı Apdaykı da düşündürən əsas məsələdir. Romanda təkcə rəssam Piter Kolduel deyil, onun bütün ailəsi, müəllim atası, babası da bu sual ətrafında düşünür. Piterin atası deyir: "Я готов и дальше тянуть

эту бессмысленную, мне бы только знать, для чего все это? Кто ни спросит, никто не может ответит мне". Bütün bunlar nə üçündür? – insan ömrü boyu özü-özünə bu sualı verir və cavabını tapmadan bu dünyadan köçür."Kentavr" romanınının həm real, həm də mifoloji qatı var. Müəllif miflərin əzəlliyini pozmadan onları 60-cı illərin real həyatı, Amerika tənqidində qəbul olunmuş ifadə ilə desək "Amerika həyat tərzi" ilə qarşılaşdırır.

Romanda qədim dünya modeli - mifin ilkin saf aləmi ilə sosial ifliclər məngənəsində çabalayan Amerika üz-üzə gətirilir. Bu əsərdə əslində amerikan ruhunu tənəzzülü öz əksini tapırdı. Bu "kondisioner havasında dəhşət" (Miller.Q), "bəhrəsiz torpağın" (C.T.Eliot) faciəsi idi. Əslində XX əsrin 60-cı illər Amerika romanı XIX əsrin son çərəyindən başlayan siyasi roman (məsələn, D.Deforeqin "Odla Oyun" (1875), Q.Adamsın "Demokratiya" (1880) ənənələrinin psixologizm məcrasında davamı idi. (Bax. Американская литература и общественного политическая борьба 60-е – начало 70-х годов XX века. M.,Наука. 1977).

C.Apdaykın "Kentavr" romanı, U.Folknerin "Qəzəb və Küy" romanı ilə bərabər Amerika ədəbiyyatında psixologizm əsasında yazılmış mifəqayıdış romanı idi.

Roman simmetrik xarakter daşıyır. Onu antik yunan mifologiyası ilə əlaqələndirirdilər. Ümumən, romanın mifik xətti haqqında yazıçı belə yazır: "Miflər romanda müxtəlif funksiya-larda iştirak edir: "Bəzən kontrastivlik yaradır, bəzən maddi aləmi daha ətraflı dərk etmək üçün satiranı kəskinləşdirir, onu ideal aləmdən fərqləndirmək, Kolduelli maddi aləmdən özgələşdiyini daha kəskin nəzərə çatdırmaqdan ibarət olur. Mən çalışmışam ki, realist inikias və miflər qarşılıqlı surətdə birbirinə sirayət edərək bir-birini həqiqətən də tamamlasın və gerçəklik mif üçün ideala çevrilsin".[4, 256] Con Apdaykın mifə müraciəti XX əsr Amerika nəsrinin ənənələri ilə bağlı idi. Avropada faşizm təhlükəsi meydana gələrək bəşəriyyəti ölüm təhlükəsi qarşısında qoyanda Amerikada da ciddi böhran yaranmağa başlayır və təqribən 60-cı illərdən ölkə gərgin iqtisadi və bundan dolayısı mənəvi psixoloji gərginlik yaşayır. Belə vəziyyət bir növ cəmiyyətin ifrat ziddiyyətləri-nin bədii fəlsəfi həlli üçün kökə, əslə, səmimiyyətə - mifə qayıdışı zərurətə çevrilir.

XX əsr Amerika nəsrində ilk möhtəşəm mifoloq olan Tomas Mann özünün "Freyd və Gələcək" (1936) adlı məşhur məruzəsində mifin onun yaradıcılığındakı rolunu belə şərh edirdi: "Mif həyatın əsasıdır; bu zamanın fövqündə duran sxem, təhtəlşüur surətdə öz əlamətləri ilə həyatı tamamlayır. Heç bir şübhə yoxdur ki, bu sətirlərin müəllifinin epoxası və həyatında fikrini mifik-tipik özünəməxsus bir vüsətlə onun yaradıcılıq əhvalını-ruhiyyəsini qaldırıb, yetkinlik yaşında yaratmaq və idrak imkanlarına aydınlıq gətirib

Həqiqətən də mif ilkin və primitiv mərhələ əksinə bəşəriyyətin həyatında ayrıca hər bir insanın , fərdin həyatında isə yetkinlik əlaməti hesab olunur. [5, 5]

Beləliklə, mifin gücü ibtidailiyində və səmimiyyətindədir. O nə qədər ki, keçmişdə, qədimdə qalır sakitdir, elə ki, tarixin sonrakı mərhələlərinə gəlir qeyri-adi gücə, mənəvi-fəlsəfi elmin mənbəyinə və fikir vulkanına çevrilir. Bu mənada Tomas Mann da, Con Apdayk da, Con Steynbek də mifə məhz zamanların və zamansızlıq əldə etmək, bədii-fəlsəfi fikrin üfüqlərini maksimum həddə genişləndirmək üçün istifadə edirdilər.

Obrazlı şəkildə bunu mifin dirilməsi, canlanması, həyata qayıtması da hesab etmək olar. Boyük turk yazıçısı Çingiz Aytmatov "Əsrdən uzun gün" romanından

Ana Beyt mifik xətti ilə dünya ədəbiyyatına manqurt obrazı gətirdi. Yedigey el ağsaqqalı Qazanqanın meyitini qədim qəbiristanlığa dəfn etməyə aparmaq üçün kosmodromun ərazisindən yol istəyir. Mayor Sabit hec vəchlə ona yol vermir. Bu yerdə Yedigey yaddaşı itdiyi üçün anasını tanımayan oğlunu-Manqurtu xatırlayır. Ümumiyyətlə XX əsrdə ədəbiyyat mifə həm də itmiş yaddaşın qayitması üçün müraciət edir. Con Apdaykın "Kentavr" romanında da Koduell insan oğlunun kimliyini müəyyən etməyə çalışır.Con Apdayk mifik obrazla real obrazın müqayisəli "vəhdət"ini yaradır. Onun Kentavrı Xirop Zevslə bərabər ölməzlik bəxş olunmuş yeganə Kentavrdır. Yazıçı əsərində onu xeyirxahlıq simvolu kimi yaradır. Çünki Xirop həm allahlar, həm də insanlar arasında həqiqətən də böyük nüfuza malikdir.

Romanda hər şey XAOS-dan, müəllimin dərsdə ona verilən izahatından başlayır, getdikcə xaos hər yerdə tapılır, böyüyür, səmimiyyətin obrazına çevrilir. Yazıçı real Amerika gerçəkliyindəki xaosa qarşı mifik aləmin işığını, aydınlığını, ülviyyət və harmoniyasını qoyur. O mifik aləmlə də, real aləm kimi, sərbəst rəftar olmasınını hadisələrin psixoloji zərurət ilə əsalandırır. Bunun üçün o, ilk növbədə zamanlar arasındakı sərhədləri ləğv etməli olur, tarixsiz zamanı yaradır. Bu halda Kentavr, Xirop da, allahlar allahı Zevs də mifdən çıxıb XX əsrə Amerikaya gələ bilər. Con Apdaykın bir yazıçı kimi sözün əsl mənasında hikməti və qüdrəti, və eyni zamanda, romanın dəyəri elə bunda idi. Bu gün elm də sübut edir ki, mövcud xaosun izahı çağdaş dünyanın ictimai-tarixi, mənəvi psixoloji strukturunda deyil, məhz mifik təfəkkürlə, mif aləmindədir.Olduqca ifratlı (və xeyli mübahisəli!) bir mülahizəyə nəzər salaq: "Xaos şərti olaraq nizamsız dünya kimi səciyyələndirilməklə bizim nizamlı dünyamızın əsasını təşkil edir. Bu nizamsız dünya insan psixikasında təhtəlşüur, qeyri-şüuri, şüuraltı və s. anlayışlarla səciy-yələndirilən psixi aləmdir. XX əsr struktur antropologiyasının əsas tezisinə görə real aləmin (materiyanın) gerçək mahiyyəti qeyri-şüurlu şəkildə ifadə olunub və obrazlaşıb. Ona gedən yol həm də birbaşa mifologiyadan keçir. Mifin məntiqi qeyri-şüurunun məntiqini, o da öz növbəsində ifadə etdiyi (şərti olaraq: obrazlaşdırdığı) qeyri-xətti, qeyri-səlis aləmini-xaosun məntiqini özündə idarə edir. Bu idarəetmənin struktur mexanizmləri planında-aləmlərin bir-birinə kodlaşması, kosmoqoniya planında diaxronik sublimasiya (çevrilmə), sinxron böyümə planında paradiqmatik təşkilolunma və nəhayət bütün bu yanaşmaların fövqündə və əsasında duran bəşəri təkamül planında teokosmik başlanğıcın kosmik mövcudluq harmoniyasıdır. Mif özü yaradılış hadısəsi kimi bütöv prosesin - xaosdan kosmosa keçidin məzmununu özündə əks etdirən bilgi qaynağıdır. Mifin struktur məzmunun bütövlüyü ona dünyagörüşü sistemi kimi baxmağa imkan verir." [6, 5] Mif barəsində bu həqiqətlər XX əsrin ortalarından etibarən həm Azərbaycanda, həm Avropa, həm də Amerika ədəbiyyatı, xüsusən də nəsri ən mürəkkəb yaradıcılıq planında məşğul edir. Bəşəriyyətin yolu xaosdan kosmosa yönəlmişdi.

Gerçəkliyi sosial ziddiyyətlə həddindən artıq dramatikləşəndə şəxsin öz daxilində olmuş, onu təngə gətirmiş, çıxılmaz iztirablarla mübtəla etmiş cəmiyyətlərdən mənəvi rahatlığa çıxış yolu axtarırdı. XX əsrin 60-80-ci illərinin Azərbaycan və Amerika yazıçıları, o cümlədən, Yusif Səmədoğlu və Con Apdayk bu çıxış yolunu mifə qayıdışla görmüşdülər.

"Qətl günü" və "Kentavr" romanları bu çıxış yolunu - mifə, yaddaşa, xaos-dan-kosmosa -harmoniyaya qayıdışı təcəssüm etdirən ciddi ədəbiyyat faktları, bədii-fəlsəfi əsərlər idi.

Ədəbiyyat

1. Проблемы литературы США XX века., М.Наука, 1970
2.Джон Стейнбек и традиция Американской литературы, М., "Худ. Лит." 1984
3.Американская литература и общественно – политическая борьба (60-е начало 70-е годов XX века), М., Наука, 1977
4.Стояновская Е. "Беседух с автором", "Кентавр"а Иностранная литература, 1965, № 1
5. Апдайк Дж. "Кентавр", Прогресс, 1966
6. Rzasoy C. Oğuz mifologiyası, Bakı, "Nurlan", 2009

Сабина Гаджиева

Американская проза XX века и Джон Апдайк

Резюме

В статье анализируется проблема мифологизма, американской издании XX века который пытается изучит проблемы образа жизни американцев в творчестве американ-ского писателя Джон Апдайка в контексте прозы 60-х - 80–х годов XX века. Автор старается раскрыт основные причины обращение писателей, Джон Апдайка мифология.

В статье раскрывается мифы из его знаменитого романа "Кентавр" и становиться ясна, что миф - это основная часть жизни. В романе писатель образует из мифического образа реальный образ.

Sabina Hajiyeva

American Literature in the XX century and John Updike

Summary

The article analyses the problems of mythology, American life style in the XX century, average American's destiny and other problems which the American literature had put forward on the base of the famous American writer of the XX 60-80s of the century. The author tries to disclose the main reasons of writer's attitude to mythology.

In the article the myth was analyzed on the base of his masterpiece novel – "Kentavr" and it became obvious that the myth constitutes the base of life. In the novel the writer creates synthesis of the mythological and real character.

Rəyçi: Allahverdi Həmidov
filologiya elmləri namizədi, dosent

ŞAHBAZ ŞAMIOĞLU (MUSAYEV)
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
shindi61@mail.ru

M.F.AXUNDZADƏ VƏ Q.ORBELİANININ YARADICILIQ ƏLAQƏLƏRİ VƏ YAXUD BİR DAHA ƏDƏBİYYATIMIZIN ALDADILMIŞ ULDUZUNUN FACİƏSİ HAQQINDA…

Açar sözlər: M.F.Axundzadə, Q.Orbeliani, yaradıcılıq, əlaqələr
Key words: M.F.Akhundzade, G.Orbeliani, Georgian, creative works, relations
Ключевые слова: М.Ф.Ахундзаде, Г. Орбелиани, грузин, творчество, отношения

Qədim tarixə, zəngin qonşuluq əlaqələrinə malik Azərbaycan və gürcü xalqlarının çoxspektrli münasibətləri olduqca sağlam təməl üzərində qurulmuşdur. Tarixin bütün çağlarında Azərbaycan-gürcü münasibətləri yüksələn xətt üzrə inkişaf etmiş, əsrlərdən-əsrlərə bu münasibətlər yeni çalarlar almışdır. XIX əsrdən etibarən isə Azərbaycan-gürcü münasibətləri tamamilə yeni məcraya daxil olmuşdur. Hər iki ölkənin çar Rusiyası tərəfindən istilası və bununla da siyasi, iqtisadi, hərbi, əgər belə demək mümkündürsə, mədəni bir çətir altına salınması Azərbaycan-gürcü əlaqələri tarixində yeni bir mərhələnin əsasını qoymuşdur. Qeyd edək ki, yeni siyasi-tarixi dövr Azərbaycan-gürcü ədəbi-mədəni əlaqələri tarixinə də öz möhürünü vurmuşdur. Qafqazın siyasi-inzibati mərkəzində müxtəlif dövlət qulluğunda çalışan, yaşayıb-yaradan azərbaycanlı ziyalılarla gürcü ziyalıları arasında birbaşa ünsiyyətə söykənən əlaqələr yaranmışdır. A.Bakıxanov, M.Ş.Vazeh, İ.Qutqaşınlı, M.F.Axundzadə (əsər adları və ədəbiyyat siyahısı istisna olmaqla "M.F.Axundov" sözü "M.F.Axundzadə" şəklində yazılır – Ş.Ş.) kimi görkəmli Azərbaycan mütəfəkkirləri inzibati mərkəzdə Tiflis Azərbaycan ədəbi-mədəni mühitini formalaşdırmaqla yanaşı, Azərbaycan-gürcü ədəbi əlaqələrinin inkişafına öz töhfələrini vermişlər. Bu baxımdan M.F.Axundzadənin fəaliyyəti xüsusilə qeyd edilməlidir. O, on doqquzuncu yüz il gürcü ədəbiyyatı və mədəniyyətinin görkəmli nümayəndələri ilə yaxından tanış olmuş, onlarla qarşılıqlı bəhrələnməyə gətirib çıxaran yaradıcılıq əlaqələri qurmuşdur. M.F.Axundzadə ilə yaxından ünsiyyət qurmuş gürcü ziyalılarından biri görkəmli ədib, gürcü ədəbiyyatında «atalar» və «oğullar» arasındakı ədəbi mübarizədə konservativ qanadın təmsilçisi Qriqori Orbeliani (1800-1883) olmuşdur. O, otuzuncu illərdə gürcü taxt-tacının bərpası uğrunda mübarizə aparan qrupün üzvü olmuş, üsyan planının üstü açılandan sonra sürgün edilmişdir. 1837-ci ildə sürgündən qayıdandan sonra yenidən hərbi xidmətə qayıtmışdır. Təxminən on beş il Dağıstanda Şamilin başçılığı altında fəaliyyət göstərən müridizm hərəkatı üzvlərinə qarşı hərbi əməliyyatlarda iştirak etmişdir. 1858-ci ildə Qafqaz canişini knyaz Baryatinskinin dəvəti ilə Tiflisə qayıtmış və canişinlik yanında məsləhət şurasının sədri təyin edilmişdir. Q.Orbelianiyə canişinin Tiflisdə olmadığı vaxtlarda onu əvəzləmək səlahiyyəti verilmişdir. Canişinlikdə məsləhət şurasının sədri vəzifəsində qalmaqla o, 1860-cı ildə Tiflisin general-qubernatoru vəzifəsinə təyin edilmişdir. Həmin dövrdən etibarən bədii yaradıcılığa xüsusi diqqət yetirmişdir. Bəs onun Mirzə Fətəli ilə tanışlığı

nə vaxtdan başlamışdır? Bu suala dəqiq cavab vermək çox çətindir. Əslində bu tarixin dəqiqləşdirilməsinin elə bir ciddi əhəmiyyəti yoxdur. Lakin ortada olan bəzi materiallardakı mülahizələrə diqqət yetirmək zərurəti yaranır. Tədqiqatçı Dilarə Əliyeva yazır: «Tiflisdə gələcək yazıçının həyatında yeni mərhələ başlanır. M.F.Axundzadə Tiflisdə olan tanınmış rus ictimai xadimləri və şairləri ilə yaxınlaşır. Onun dostları, tanışları arasında gürcü ziyalılarının gözəl nümayəndələri var idi. Güman etmək olar ki, Aleksandr Çavçavadze və Qr. Orbeliani ilə tanış olmuşdur. A.Çavçavadzenin evi ədəbi salon hesab olunurdu. Oraya gürcü və rus cəmiyyətinin üzvləri toplaşırdı…» (1, s. 85). M.F.Axundzadə ilə Q.Orbelianinin görüşmələri ilə bağlı gümanında tədqiqatçı tamamilə haqlıdır. D.Əliyevanın «Azərbaycan-gürcü ədəbi əlaqələri tarixindən» monoqrafiyasının çapından sonrakı dövrdə həm tədqiqatçının özü, həm də digər araşdırıcılar hər iki ədibin tanışlığını təsdiqləyən xeyli faktlar ortaya çıxarmışlar. Amma M.F. Axundzadə ilə Q. Orbelianinin ilk dəfə A.Çavçavadzenin evində görüşüb-tanış olmaları bu gün də sadəcə güman olaraq qalmaqdadır. Nəzərə alsaq ki, həm Çavçavadze, həm də Orbeliani 1832-ci ildə (o zaman Axundzadə hələ Tiflisə gəlməmişdi – Ş.Ş.) məlum üsyan cəhdi ilə bağlı sürgünə göndərilmiş, bir neçə il sürgün həyatı yaşadıqdan sonra Tiflisə qayıtmışdılar, onda ehtimal etmək olar ki, Axundzadə ilə onların ilk tanışlığı ən azı otuzuncu illərin sonlarına təsadüf edə bilərdi. Digər tərəfdən, A.Çavçavadzenin 1846-cı ilə dünyasını dəyişdiyini əsas götürsək, onda onun M.F. Axundzadə ilə tanışlığının tarixini 1837-1846-cı illər arasında axtarmaq lazım gəlir. Q.Orbelianiyə gəlincə isə onun M.F.Axundzadə ilə tanışlığı Dağıstandan Tiflisə məsul dövlət qulluğuna gətirildiyi ildən də başlana bilərdi. Hər halda bu iki şəxs arasında sıx münasibətlərin, dostluq əlaqələrinin olduğundan bəhs edilir.

Bu baxımdan diqqəti bir neçə cəhətdən cəlb edən bir material üzərində nisbətən geniş dayanmaq lazım gəlir. Bu, Vaso Çaçanidzenin «Mrzə Fətəli Axundov və Qriqol Orbeliani» adlı yazısıdır. Qeyd edək ki, həmin yazı maraq doğurduğundan Tiflisdə əvvəlcə «Mnatobi», daha sonra isə «Литературная Грузия » jurnalında (1980, №6) , professor Vilayət Quliyevin tərcüməsində isə «Azərbaycan» jurnalının 1981-ci il 1-ci sayında dərc edilmişdir (2, s. 151-159).

Vaso Çaçanidzenin sözügedən yazısında Mirzə Fətəliyə böyük ehtiram və məhəbbət ifadə olunmuşdur. Yazıda diqqəti cəlb edən ən mühüm məsələlərdən biri azərbaycanlı ədibin gürcü ziyalıları ilə yanaşı, Tiflisin sadə insanları arasında da böyük hörmətə malik olduğu xüsusi vurğulanmasıdır. Yazı müəllifi torpaq sahəsi əlindən çıxan və onu qaytarmaq üçün hamının xeyirxah insan kimi tanıdığı Mirzə Fətəliyə pənah gətirən, ondan böyük yardım görən nənəsinin və atasının xatirələri əsasında Axundzadənin Tiflisdə xüsusi hörmət sahibi olduğunu göstərmişdir: «Mirzə Fətəli Axundzadə o dövrün kasıblara həqarətlə baxan və onları bacardıqları qədər çox soymağa çalışan acgöz məmurlarından deyildi. İnsanpərvərliyi, xeyirxahlığı və namusluluğu ilə Mirzə Fətəli Axundzadə köhnə Tbilisinin Xarpuxi, Meydan, Ortacala kimi, əhalisi əsasən yoxsullardan ibarət olan, məhəllələrinin əsl məhəbbətini və hörmətini qazanmışdı. O, hamını açıq ürəklə qarşılayır, diqqətlə dinləyir, lazımlı məsləhətlər verir və heç vaxt kasıblardan yazdığı ərizə üçün pul almırdı» (2, s. 151). Xatirə yazısında Axundzadə ilə Orbeliani arasındakı dostluq əlaqələrinə də geniş yer verilmişdir. V.Çaçanidzenin yazdığına görə, Orbeliani həmişə papaqçı Simon Abuladzenin xidmətlərindən istifadə edirmiş və onun atası həmin dövrdə usta ya-

nında şagird olduğundan hazır malı Orbelianinin evinə məhz onun atası aparırmış: «… Atam isə Mirzə Fətəli Axundzadəni dəfələrlə Qriqol Orbelianinin evində görmüşdü. Onları bir-biri ilə möhkəm dostluq telləri birləşdirirdi. Əksər hallarda bu iki məşhur sənətkar stol arxasında oturarmışlar. Mirzə özünün yeni əsərlərini oxuyar, Qriqol isə arabir «əladır», yaxud da azərbaycanca «sağ ol» - deyə heyrətini gizlətmədən qulaq asarmış…» (2, s. 153).

Daha sonra müəllif Mirzə Fətəlinin ölüm xəbəri ilə bağlı xatirələrinə geniş yer vermişdir. Onun yazdığına görə, ədibin ölümündən qonşular yalnız üç gündən sonra xəbər tutmuşlar. V. Çaçanidze o zaman yaşanan həyəcanlı anları təfərrüatına qədər təsvir etmiş, dinsiz olması səbəbindən Axundzadəni dəfn etməkdən din xadimlərinin boyun qaçırdıqlarını, hətta dəfn üçün münasib yer ayırmaqdan imtina etdiklərini söyləmiş, nəhayət, Axundzadənin layiqli dəfn mərasiminin keçirilməsində Q.Orbelianinin yaxından iştirak etdiyini vurğulamışdır.

Xatirə yazısını Azərbaycan dilinə tərcümə edən professor Vilayət Quliyevin də haqlı olaraq qeyd etdiyi kimi, yazıda həqiqətəuyğun olmayan xeyli məqamlar vardır. Mirzə Fətəlinin xristian adətlərini inkar etmədiyi, Axundzadənin dəfn mərasimi zamanı üç gün xristian adəti ilə şərab içildiyi və s. barədəki fikirlər, əlbəttə, həqiqətdən xeyli uzaq olduğundan heç də inandırıcı görünmür. Mirzə Fətəlinin dinə münasibəti bəllidir. Lakin onun xristian dininə əlahiddə münasibəti barədə ilk dəfə sözügedən yazıda oxuyuruq. Halbuki, ədibin özü «Kəmalüddövlə məktubları» əsərində bu məsələyə tamamilə açıq kontekstdə münasibət bildirmişdir: «… Ey Cəlalüddövlə, bu sözlərdən sən elə güman eləmə ki, mən bəlkə başqa din və məzhəbi islam dinindən üstün tuturam. İş ona qalsa, genə islam dini sair dinlərdən yaxşı və mənim üçün məqbuldur..» (3, s. 205).

Yeri gəlmişkən olduqca vacib bir məsələyə diqqət çəkməyimiz lazım gəlir. Sovet dövrü ədəbiyyatşünaslığında mövcud ideologiyanın təsiri altında M.F.Axundzadəni tamamilə dinsiz bir şəxsiyyət, ateist filosof kimi təqdim etmişlər. Bu, şübhəsiz ki, ədibin məşhur «Kəmalüddövlə məktubları» traktatından doğan bir məsələ idi. Lakin böyük ədibin məhz həmin əsərindən, eləcə də digər əsərlərindəki qeydlərindən görürük ki, M.F.Axundzadə heç də islam dininin düşməni olmamış, üstəlik də həmişə özünü müsəlman hesab etmişdir. Bu tamamilə ayrı bir mövzu olduğundan onun üzərində geniş dayanmağa lüzum görmürük, lakin əldə olan bir tarixi sənəd sübut edir ki, M.F.Axundzadəni öz dövrünün rəsmi orqanları məhz müsəlman kimi qəbul etmişlər. M.Füzuli adına Əlyazmalar İnstitutunda M.F.Axundzadənin arxivində mühafizə olunan sənəddə onun şiə məzhəb müsəlman olduğu qeyd edilmişdir (4, fond 2, s.v. 203, v. 2).

Burada mövzu ilə birbaşa bağlılığı olmasa da, hər halda bir nüans xüsusi diqqət çəkdiyi üçün onun üzərində bir qədər ətraflı dayanmağa dəyər. Bu, Mirzə Fətəlinin ölüm şəraiti ilə bağlı məsələdir və xatirə yazısında da bu barədə danışılıb.

Güman ki, V.Çaçanidze Axundzadənin ölüm şəraiti ilə bağı bir çox nüansları ağızda gəzən söz-söhbətlər əsasında qələmə almış və bu zaman ona özünün əlavələrini də qatmışdır. Lakin iş burasındadır ki, M.F.Axundzadənin ölümü ilə bağlı yazanlar arasında Çaçanidze nə birincidir, nə də axırıncı.

Cəlil Məmmədquluzadə 1928-ci ildə qələmə aldığı "Mirzə Fətəli Axundov dinlər haqqında " məqaləsində bu məsələyə toxunaraq yazırdı: "Mirzə Fətəlinin vəfatının şahidləri və raviləri yazıblar və rəvayət ediblər ki, onun namazına, təlqininə

və təşyii-cənazəsinə əqrabasından da duran olmadı. Ta o yerə kimi ki, onu Tiflis qəbristanında quyulamaq üçün dörd nəfər hammal aprsın. Və bir rəvayətə görə, mərhumu canişinin dörd nəfər kazak əfradı aparıb torpağa tapşırdı. Bəhər-hal Mirzə Fətəlinin cənazəsi sahibsiz qaldı" (5, 73).

Görkəmli ədəbiyyatşünas, Azərbaycan yazıçılarının müəyyən qismi ilə bağlı olduqca maraqlı memuarlar yazan, Mirzə Fətəlinin şəxsi arxivini Tiflisdən Bakıya gətirənlərdən biri Əziz Şərif Tiflisdə nəşr olunan «Dan yıldızı» (elmi ədəbiyyatda daha çox «Dan ulduzu» şəklində işlədilir – Ş.Ş.) jurnalının 1927-ci il tarixli 12-ci sayında dərc edilən «Mirzə Fətəli Axund-zadə» adlı məqaləsində ədibin ölümündən belə bəhs etmişdir: «…1878-ci il mart ayının 12-də vəfat edən Mirzə Fətəlinin cənazəsi tamam üç gün evində (Vorontsov küçəsində 53 nömrəli evdə) qaldı və şəhərin müsəlman əhli, molla və axundların təhrikinə uyaraq onu yerdən götürmədi. Axırda cənazə sərdarın xüsusi kazakları tərəfindən Tiflisdə müsəlman qəbiristanlığında dəfn edildiı» (6, 1927, №12, s. 13).

Görkəmli yazıçı, Axundzadənin mənəvi varisi Ə.Haqverdiyev «Mirzə Fətəlinin faciəsi» (7, s. 385-387) və «Mirzə Fətəli Axundovun həyat və fəaliyyəti» adlı yazılarında (7, s. 388-398) Axundzadənin ölümünə böyük diqqət və hörmətsizlik göstərildiyini yazmışdır.

Ə.Haqverdiyev yazır: «1878-ci il, fevralın 28-də Mirzə Fətəli Axundzadə vəfat etdi. Mirzə Fətəlinin ölümünü şeyxülislam Molla Əhmədə xəbər verdikdə o, belə dedi: «Mən Mirzə Fətəli ilə tez-tez söhbət etmiş, dini və başqa mövzularda mübahisələr etmişəm, mən onun din haqqında olan nöqteyi-nəzəri ilə tanışam, buna görə onun namazını qılmaqdan imtina edirəm». Başqa mollalar da şeyxülislamın ardınca gedərək, onun cənazəsi üzərində namaz qılmaqdan imtina edirlər. Uzun minnətlərdən sonra şeyxülislam məscidin xadimlərindən biri Molla Hüseynə tapşırdı ki, gedib Mirzənin nəşi üzərində «bir neçə söz desin». Mollaların yoldan çıxardığı Tiflis əhalisi onun nəşini qəbiristanlığa aparmaqdan boyun qaçırtdı. Nəhayət, Axundzadənin varisləri onun cənazəsini əbədi yuxu yerinə aparmağa razı olanların hərəsinə üç manat verməli oldular» (7, s. 393). Qeyd edək ki, Ə.Haqverdiyevin adlarını çəkdiyimiz hər iki yazısı ilk dəfə 1928-ci ildə çap olunmuşdur. Bundan bir qədər sonra yazıldığı güman edilən başqa bir yazı-memuarda da bu məsələyə toxunulmuşdur.

Abbas Səhhət və Məhəmməd Hadinin müasiri və yaxın dostu Əbülqasım Əminzadə «Abbas Səhhət haqqında xatirələr»ində 1888-ci ildə Şamaxıda Seyid Əzim Şirvaninin cənazəsinin arxasınca cəmisi 15-20 nəfərin getdiyini dostları ilə böyük təəssüflə izlədiklərini yazır, sonra diqqəti dostlar arasında olan bir mükaliməyə yönəldir. Onun yazdığına görə, Abbas Səhhət gördüyü mənzərədən pəjmürdə olaraq deyib: «Görürsünüz, bizim əhlimiz şairinə necə baxır? Belə böyük şairin cənazəsində baqqal cənazəsində olan kişi qədər kişi yoxdur». Daha sonra A.Səhhət deyib: «Mirzə Fətəlini beş-on hambal gülüşə-gülüşə aparıb dəfn ediblər» (8, s. 34-35).

Göründüyü kimi, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, A.Səhhət, Ə.Şərif kimi tanınmış simalar Axundzadənin cənazəsinə bir hörmətsizlik olduğunu söyləmişlər. Məsələnin təfərrüatlarına qədər yazıldığı kimi olduğuna zəmanət vermək çox çətindir. Amma V.Çaçanidze də daxil olmaqla bu barədə yazanların hər halda haqlı olduğunu düşünməyə əsaslar verən başqa məsələlər də vardır.

Ortaya bir sual çıxır: şeyxülislam hansı səbəbdən Mirzə Fətəlinin yas yerinə gəlməkdən, cənazə namazını qılmaqdan imtina etmişdir? Zahirən bu sualın cavabı

özlüyündə aydındır: Mirzə Fətəlinin məlum traktatı! Lakin bizə o da məlumdur ki, Tiflisə gəldiyi günlərdən ta ömrünün axırınacan Axundzadənin yüksək rütbəli müsəlman din xadimləri, o cümlədən şeyxülislamlarla elə bir konflikti olmamışdır. Ümumiyyətlə, Axundzadə Tiflisdə yaşadığı illərdə Qafqaz şiələrinin dini rəhbərliyində (Zaqafqaziya Şiə Müsəlmanları Ruhani İdarəsi və Zaqafqaziya Sünni müsəlmanları Ruhani İdarəsi 5 aprel 1872-ci ildə yaradılmışdır) Axund Məhəmmədəli Hüseynzadə (1823-1846), Axund Fazil İrəvani (1847-1862) və Axund Əhməd Hüseynzadə (1862-1884) kimi tanınmış din xadimləri olmuşlar. Sonuncu ilə Mirzə Fətəlinin normal, bəlkə də, isti münasibətləri barədə danışmaq mümkündür. M.F.Axundzadənin epistolyar irsində onun adına bir neçə dəfə rast gəlirik: «… Qeyd etdiyim şəxs yüksək dostum, Qafqazın şeyxülislamı Axund Molla Əhməd Hüseynzadədir. Müxtəlif elmlər sahəsində – astronomiya, coğrafiya, riyaziyyat, təbiət, tarix, hikmət və xüsusilə fiqh elmi sahəsində bütün Qafqaz ölkəsində tayı-bərabəri yoxdur. Bununla belə o, filosof təbiətli və liberal məsləkli bir adamdır», yaxud: «Molla Əhməd Salyani sağlam düşüncəli bir şəxsiyyətdir. Amma nə etməliyik ki, ağıl və dərrakə sahiblərinin sayı çox azdır» və s. Belə görünür ki, Axundzadənin «yüksək dostum» deyə öydüyü şeyxülislamın son borcunu vermək üçün Mirzə Fətəlinin cənazəsi üstünə getməməsinin səbəbini başqa yerdə axtarmaq lazım gəlir. Əslində bu səbəbin görünməyən tərəflərinin görünməsi çox mətləblərin üzərinə işıq salacaqdır. Zənnimizcə, rəsmi dairələrin Axundzadənin ölümünə biganə münasibəti şeyxülislamı müvafiq addımı atmağa vadar etmişdir. Bəlkə də, şeyxülislam məhz rəsmi dairələrin birbaşa göstərişi ilə mərasimə qatılmaqdan imtina etmişdir?! Şeyx Əhmədin böyük elm və bilik sahibi olması ilə yanaşı onun qətiyyətli bir şəxs olduğunu da bilirik. Lakin o dövrün ağır şərtləri altında onun tam müstəqil bir şəxs olduğunu söyləməyə çətinlik çəkirik…

Ömrünün sonuna yaxın hökumət dairlərində Mirzə Fətəliyə münasibət xeyli dəyişmişdir: «… ömrünün sonlarında hökumət əleyhinə fəaliyyətdə günahlandırılaraq işdən çıxarılmış, bir müddət qulluqdan kənarda qalmışdır. Bütün ömrü keşməkeşlərdə, gərgin işdə və mübarizələrdə keçən yazıçının səhhəti getdikcə pisləşmiş, o, fiziki cəhətdən tamam zəifləmişdi. 1877-ci ilin ortalarında isə o, ağır ürəkastma xəstəliyinə tutulmuş, uzun müddət bu xəstəlikdən əziyyət çəkmişdir. Yazıçı 1878-ci il fevral ayının 28-də (yeni stilə martın 10-da) Tiflisdə vəfat etmişdir. Hələ yazıçının cəsədi soyumamış gizli polis dərhal onun hökumət əleyhinə əlyazmalarının axtarışına başlamış, lakin rəsmi nəşrlərdən başqa, heç nə tapa bilməyib, çıxıb getmişdi» (9, s.154-155).

Mirzə Fətəlinin vəfatından sonra onun «şübhəli» əlyazmaları ilə bağlı axtarış aparılması barədə ədibin nəvəsi Mələksima xanım Qacar da öz xatirəsində bəhs etmişdir (10, s. 208-212). Onun yazdığına görə, ədib dünyasını dəyişəndən sonra həyat yoldaşı Mirzə Fətəlinin əlyazmalarını bir sandığa yığıb, saxlamaq üçün qızı Nisə xanıma vermişdir. O zamanlar Nisə xanım əri Xanbaba xan Qacarın işi ilə bağlı Tiflis yaxınlığında bir şəhərdə yaşayırmış. Mirzə Fətəlinin ölümündən bir qədər sonra jandarm idarəsinin bir polkovniki Xanbaba xan Qacarın xidmət yerinə gəlmiş, onun özü və ailəsi barədə rəisdən məlumat tələb etmiş, sonra isə evlərində axtarış aparmışdır. Rəis bu barədə Xanbaba xana dərhal məlumat verdiyindən o, evə gəlib həyat yoldaşına atasının əlyazmalarının saxlandığı sandığı gizlətməyi tapşırmışdır.

Polkovnik evdə axtarış aparmış, çoxdan çap olunmuş kitablardan başqa, heç nə tapmadığından çıxıb getmişdir…

Yazıçıya soyuq münasibət və onu doğuran səbəblərlə bağlı görkəmli tədqiqatçı İ.Yenikolopov Tiflisdə nəşr olunan «Dan yıldızı» jurnalının 1928-ci il 4-5-ci saylarında dərc etdirdiyi «Mirzə Fətəli Axundov» adlı məqaləsində xeyli inandırıcı dəlillər gətirmişdir. «Onun vəfatı günü - 1878-ci ilin 26 fevral günü (təqdim etdiyimiz sitatlarda ədbin ölüm tarixi ilə bağlı ayın müxtəlif tarixləri göstərilir. Bu, birinci növbədə sözügedən məqalələrin yazıldığı illərdə yazıçının hamı tərəfindən qəbul edilmiş ölüm tarixidir. Digər tərəfdən, Axundzadənin məhz ayın neçəsində dünyadan getdiyi ilə bağlı bir müddət elmi mübahisələr olmuşdur – Ş.Ş.) nə «Kavkaz » qəzetəsində, nə də Tiflisdə «Tiflisskiy vestnik» adında çıxan başqa bir qəzetədə heç bir yas elan və xırda xatirə ilə yad edilmədi. Onun dəfn mərasimi də böylə sakitlik ilə əmələ gətirildi» (11, s. 28).

Tədqiqatçı A.Mişiyev Mirzə Fətəlinin uzun illər əməkdaşlıq etdiyi «Kavkaz » qəzetinin yazıçının ölümünə biganə münasibətindən bəhs etmişdir: «Qəzetin Axundzadənin ölümünə laqeyd münasibətinə gəldikdə isə bu, «Kavkaz»ın praktikasında yeganə təsadüf deyildi. Uzun müddət «Kavkaz» qəzetində əməkdaşlıq etmiş görkəmli gürcü tarixçisi D.Bakradze vəfat etdikdə də qəzet gürcü ictimaiyyəti üçün son dərəcə kədərli olan bu hadisəyə toxunmamış, öz keçmiş əməkdaşının ölüm xəbəri üzərindən sükutla keçmişdir. Qeyri-rus millətlərin görkəmli adamlarına «Kavkaz»ın belə ögey münasibəti o dövrdə bir sıra qabaqcıl gürcü ictimai xadimlərini haqlı olaraq hiddətləndirmişdi» (12, s. 80). A.Mişiyevin də qeyd etdiyi kimi, sözügedən qəzetin Axundzadənin ölümü ilə bağlı verdiyi yanlış xəbər isə sadəcə ikrah doğurur; martın 1-də işıq üzü görən sayında məlumat verilir ki, polkovnik M.F.Axundzadə 90 yaşında qızdırma xəstəliyindən vəfat etmişdir. Ertəsi gün isə üzrxahlıqlı bir düzəliş verilir və bildirilir ki, polisin verdiyi səhv ucbatından yanlışlıq olmuşdur, Axundzadə 67 yaşında ürək partlamasından vəfat etmişdir… Qeyd edək ki, A.Mişiyev «rəsmi hökumət dairələrinin, müsəlman ruhani idarəsinin və onlara yaxın olan «Kavkaz»ın 70-ci illərdə Axundzadəyə bu cür soyuq və etinasız münasibətini» ədibin «Kəmalüddövlə məktubları» fəlsəfi traktatında inqilabi-demokratik mövqe tutması ilə izah etmişdir (12, s. 80). Bu məntiqə də hörmətlə yanaşırıq. Lakin unutmayaq ki, ədib «Kəmalüddövlə məktubları»nı ölümündən xeyli qabaq – hələ 1865-ci ildə yazmış və əsəri Adolf Berje ilə birlikdə 1874-cü ildə rus dilinə çevirmişdi. Tədqiqatçıların da qeyd etdikləri kimi, ruscaya tərcümə zamanı azərbaycanca və farsca (Mirzə Yusif xanla birlikdə tərcümə etmişdi) mətnlərdə olan kəskin məqamları çıxarmağa və ya yumşaltmağa məcbur olmuşdu. Əgər yazıçıya ögey münasibət yalnız bu əsəri ilə bağlı olardısa, onda onun simptomları xeyli əvvəl özünü göstərərdi.

Zənnimizcə, Axundzadəyə hökumət dairələrində münasibət o zaman soyuqlaşmağa başlamışdır ki, artıq o, üzərinə qoyulan missiyanı müəyyən mənada yerinə yetirmişdi və daha həmin dairələr üçün o qədər də əhəmiyyət kəsb etmirdi (Əlifbanın dəyişdirilməsi ilə bağlı Axundzadənin çalışmaları hər halda hökumətin siyasəti ilə üst-üstə düşürdü. Bu sahədə Axundzadənin heç bir nailiyyət əldə edə bilməməsi də ona olan ümidləri azalda bilərdi. Bu, bizim sadəcə mülahizəmizdir, onun üzərində işləməyə dəyər – Ş.Ş.). Üstəlik Rusiyanın hakim dairələrinin daxili siyasətdə yeni xətt götürməsi Axundzadəni və onun fəaliyyətini ikinci sıraya sıxışdıra bilərdi.

Bu baxımdan tədqiqatçı İ.Yenikolopovun yuxarıda adını çəkdiyimiz məqaləsindəki mülahizələri ilə tamamilə şərikik. Məqalədə Axundzadənin ruhanilər əleyhinə yazdığı əsərlərin müvəffəqiyyət qazanmasının kökündə həm də XIX əsrin 40-cı illərindən başlayaraq Şamilə qarşı hökumətin apardığı siyasətin istiqaməti xüsusi vurğulanır. «Burada «intizamı saxlamaq» üçün feldmarşal knyaz Vorontsov böyük bir ordu ilə geniş ixtiyarlı bir canişin olaraq Qafqaza göndərildi. Buna baxmayaraq knyaz Vorontsov «bir zərbə ilə» Şamili yıxa bilmədi. Darqa müharibəsində az qalmışdı ki, özü də, başında olan dəstəsi də məhv olsun. Bu gündən başlayaraq o var qüvvəsi ilə çalışırdı ki, get-gedə nüfuzu artmaqda olan Şamilin müqavimətini qırsın…» (11, s. 28). İ.Yenikolopov yazır ki, məhz bu səbəbdən Vorontsov və onun müavinləri «bütün ümumi-əfkarı və mətbu orqanları» Şamilin get-gedə artan nüfuzu əleyhinə çevirməyə başladı: «Ruhanilər əleyhinə çevrilmiş olan bu və ya digər bir tədbir həmişə təqdir edilirdi» (11, s. 28). Şamil hərəkatının süqutundan sonra çarizmin din və ruhanilərlə bağlı siyasətində bir dəyişiklik aparılır. Zaqafqaziya Şiə və Sünni Müsəlmanları idarələrinin yaradılması da buna bariz nümunədir. Hökumət dairələri artıq «sillə» əvəzinə, «kökə» siyasəti yeritməyə, din xadimlərinin könlünü almağa başlamışdır. Hökumət bununla həm qəlbən müridizmi dəstəkləyənlərin ağzını yumur, həm də müsəlmanların qəlbini ələ almaqla onları öz yanına çəkməyə çalışır. İllərdən bəri məlum fəaliyyətlə məşğul olan Mirzə Fətəli isə, sözsüz ki, olduqca pis durumda qalır. İ.Yenikolopov bunu nəzərdə tutaraq yazırdı: «Qafqazda siyasətin bu şəkildə dəyişməsi Mirzə Fətəli üçün çox ağır keçirdi…» (11, s. 28). Tədqiqatçı öz fikirlərinə davam edərək haqlı olaraq belə nəticəyə gəlir: «Bu şərtlər arasında ruhanilər ilə mübarizə aparmağın musəvi olmadığını Mirzə Fətəli o vaxt aydın bir surətdə başa düşdü, o inandı ki, keçən vaxtda o, canişinlərə yalnız Şamilin nüfuzu əleyhinə istifadə edilməsi üçün lazım imiş» (11, s. 28). Tədqiqatçı məqalədə ruhanilərin də artıq Axundzadədən uzaq durmalarına da münasibət bildirmişdir. Onun fikrincə, ədib hərgah «parlaq şənə» malik olmasa belə, onun «rütbə və nişanları» mötəbər adamları onun yanına cəlb edə bilərdi. Lakin qorxu, ruhaniləri onun yanına cəlb edə bilmədi, məhz bu səbəbə görə ki, onlara da dinsiz adı verilməsin…

Tədqiqatçı, Axundzadəyə ögey münasibətin başqa bir cəhətinə də diqqət çəkmişdir: «Arxiv materiallarına baxdıqda məlum olur ki, Mirzə Fətəlinin qadını Tuba xanımın (əslində Tubu – Ş.Ş.) öz ricasına görə canişin həzrətləri əmr «humayunu» ilə ona ildə 257 manat 50 qəpik pensiya əta buyurmuşdur. Bu 257 manat 50 qəpik tamamilə istehza demək deyilmi? Böyük ədibə o vaxtlarda göstərilən rəftar bundan ibarət idi» (11, s. 28).

Mirzə Fətəlinin həyat yoldaşı Tubu xanımın «Qafqaz canişini vəzifəsini ifa edənə» 6 mart 1879-cu il tarixli məktubundan öyrənirik ki, ərinin ölümündən bir il keçməsinə baxmayaraq, onun maaşının yarısı qədər olan cüzi təqaüd hələ də dul qadının adına keçirilməmişdir. Halbuki «… onunla həmqatar olanlardan – Məliknubarovun ailəsinə əlavə təqaüd təyin olunmuş və hələ öz sağlığında beş yüz desyatin ölçüsündə torpaq ayrılmışdır ki, bu da uşaqlarını az-çox təmin etmişdir. Lakin belə mərhəmət nə mənim ərimin sağlığında ona, nə də onun vəfatından sonra mənə göstərilmişdir…» (13, s. 340).

Burada maraq doğura biləcək başqa bir məsələyə də diqqət yetirmək yerinə düşərdi. Ömrünün sonuna yaxın hakimiyyət dairələrinin Mirzə Fətəliyə ögey münasibət bəsləməsi, şeyxülislamın onun dəfn mərasiminə gəlməkdən imtina etməsi nə

qədər təəssüf və təəccüb doğurursa, azərbaycanlı ədiblə uzun müddət yaxınlıq etmiş, bir yerdə çalışmış, onun qabiliyyətini həmişə yüksək dəyərləndirmiş Adolf Berje ilə Axundzadə arasında bir soyuqluq yaranmasına dair qeydlər də bir o qədər təəccüblü görünür və müəmmalardan xəbər verir. Görkəmli ədəbiyyatşünas Mikayıl Rəfili «M.F.Axundov və onun fəlsəfi-siyasi görüşləri» adlı məqaləsində (14, s.29-60) yazır: «1874-1875-ci illərdə Adolf Berje Tiflisdə Arxeologiya Komissiyasının sədri vəzifəsində olmuş, M.F.Axundzadə da bu komissiyada üzv və mütərcim olaraq çalışmışdır. Buna görə də Adolf Berjenin «Məktublar»ın tərcüməsini düzəltmək üçün M.F.Axundzadə ilə sonra da əməkdaşlıq etməməsi bir növ qəribədir, onların arasında narazılıq törədiyi, yaxud hər hansı başqa bir hadisə baş verdiyi üçünmü, nədənsə artıq bizə məlumdur ki, 1875-ci ildə Axundzadə öz əsərini baxmaq üçün başqa bir adama verir» (14, s. 32). Mikayıl Rəfili Mirzə Fətəlinin Brüsseldə təhsil alan oğlu Rəşidə yazdığı 10 yanvar 1875-ci il tarixi məktuba istinad etmişdir. Mirzə Fətəli həmin məktubda qeyd edirdi: «… «Kəmalüddövlə»nin tərcüməsi indi gözəl bir ədəbiyyatşünas olan Treskovski tərəfindən nəzərdən keçirilir. O, bu əsərlə fərəhlənir, onun üslub və orfoqrafik yanlışlıqlarını düzəldir. Tərcümə orijinalla birlikdə nəşr edilmək üçün tezliklə Peterburqda olan məşhur bir naşirə göndəriləcəkdir» (15, s. 239; 16, s. 47).

Əlbəttə, təəccübdoğuran, diqqətçəkən məsələdir. Məlumdur ki, «Kəmalüddövlə məktubları»nın nəşri ilə bağlı əsərin fars dilinə (müəlliflə birgə) tərcüməçisi Mirzə Yusif xanla və rus dilinə tərcüməçisi Adolf Berje ilə Axundzadə arasında şərtnamələr imzalanmışdır. Hər iki şərtnamənin mətni ədibin seçilmiş əsərlərinə daxil edildiyindən və dəfələrlə nəşr olunduğundan bu barədə geniş bəhs etməyə elə bir lüzum yoxdur. Amma onu vurğulamağa dəyər ki, şərtnaməyə görə, tərcümə nəşr ediləcəyi təqdirdə gəlir Berje ilə tən yarı bölünməli idi. Berje də bu şərtə razı olduğu halda, şərtnamə ilə bağlı yazdığı rəydə Axundzadəyə tamamilə güzəştə getdiyini görürük: «Cənab polkovnik Mirzə Fətəli Axundzadəyə bəslədiyim ən səmimi dostluq hisslərinin ifadəsi və onun şərəfli əməyinə hörmət əlaməti olaraq, bu tərcümə işində və kitabını çap etdirməkdə ona imkanım daxilində hər cür kömək etməyə hazıram, hazıram bu işdən alınacaq gəlirin nəinki payıma düşəcək yarısından, hətta hər cür maddi mükafatdan da imtina edəm» (15, s. 105). Bəs belə olan halda Axundzadə hansı səbəbdən əsəri «üslub və yanlışlıqlarını» düzəltmək üçün tamamilə başqa bir şəxsə, gözəl ədəbiyyatşünas kimi dəyərləndirdiyi Treskovskiyə (bu şəxsin kimliyi ilə bağlı ədəbiyyatşünaslığımızda yekdil rəy yoxdur – Ş.Ş.) vermişdir? Yaxud Adolf Berjenin tərcümə və redaktə işindən sonra onu baxmaq üçün başqa bir şəxsə verməyə dəyərdimi? Mirzə Fətəlinin özü bu barədə heç nə demədiyindən bütün mülahizələr elə mülahizə olaraq qalacaq. Lakin məntiq bu barədə əlavə fikirlər söyləməyə imkan verir. Çox güman ki, yuxarıda qeyd olunduğu kimi, çarizm öz strateji məqsədlərinə çatdıqdan, islam dini ilə bağlı yeritdiyi siyasətdə bir dəyişiklik aparandan sonra məsələ A.Berje üçün də cəzbediciliyini itirdiyindən bu işdən əl çəkməyi münasib bilmişdir. Halbuki Berje xatırlatdığımız rəyində yazırdı: «Avropalılar kimi, müsəlmanlar özləri də bu kitabı oxuyanda onlar üçün bu vaxta qədər qaranlıq qalmış islamiyyət haqqında aydın məlumat ala biləcəklər» (15, s. 105). Deməli, çarizmin siyasətinin dəyişdiyini görüncə «bu vaxta qədər qaranlıq qalmış islamiyyət» haqqında avropalıların və müsəlmanların aydın məlumat alıb-ala bilməyəcəkləri məsələsi Berjeni narahat etməmişdir. Görünür bundan sonra Axundzadə

başqa bir şəxsin yardımından bəhrələnmək fikrinə düşmüşdür. Bütün hallarda bir məsələ aydındır ki, Berje ilə Axundzadənin «Kəmalüddövlə məktubları» ilə bağlı şərtnaməsinə birincinin subyektiv münasibəti səbəbindən axıracan əməl olunmamışdır. Buna da ömrünün sonuna yaxın Axundzadəyə bəslənilən soyuqluğun tərkib hissəsi kimi baxmaq olar…

Beləliklə, Axundzadənin həyatının son vaxtlarında özünə, ölümündən sonra isə cənazəsinə hörmətsizliyin səbəbləri aydınlaşır. 22 yaşından 66 yaşına qədər bütün bilik və bacarığını, enerjisini, sağlamlığını hökumət yolunda xərcləmiş bir insan, böyük bir şəxsiyyət mənfur siyasətin mənfurcasına dəyişməsi ilə gərəksiz bir adama çevrilir. Bu idi Axundzadənin növbəti faciəsi. Dahilərin faciəsi daha böyük olur. Ədəbiyyatımızın aldadılmış ulduzunun faciəsi sözlə ifadə ediləsi deyil…

Ədəbiyyat

1. Алиева Д. Из истории Азербайджанско-грузинских литературных связей, Издательство Академии Наук Азербайджанской ССР, Баку, 1958.
2. Çaçanidze V. M.F.Axundov və Q.Orbeliani, **Azərbaycan** jurn., Bakı, 1981, №1, s. 151-159.
3. Axundov M.F. Bədii və fəlsəfi əsərləri, Bakı, Yazıçı, 1987.
4. M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivi, fond 2, saxlama vahidi 203, vərəq 3.
5. Məmmədquluzadə C. Mirzə Fətəli Axundov dinlər haqqında, **M.F.Axundov (Məqalələr məcmuəsi)**, Bakı, Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1962, s. 73-79.
6. Şərif Ə. M.F.Axundzadə, **Dan yıldızı**, Tiflis, 1927, №12, s. 11-13.
7. Haqverdiyev Ə. Seçilmiş əsərləri iki cilddə 2-ci cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1971.
8. Əminzadə Ə. Abbas Səhhət haqqında xatirələr, **M.S.Ordubadi, Ə.Əminzadə, Ə. Müznib, Xatirələr**, Bakı, Nurlan, 2008, s. 31-58.
9. Cəfərov N., Kərimli T., Əsgərli Z. Ədəbiyyat, ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik, Bakı, Çaşıoğlu, 2007.
10. Малексима Ханум Каджар. Воспоминания о Мирза Фатали Ахундове, **Чингиз Каджар, Тифлис Воронцовская 53 и 55**, Баку, 2008, с. 208-212.
11. Yenikolopov İ. Mirzə Fətəli Axundov, **Dan yıldızı**, Tiflis, 1928, №4-5 (16-17), s. 28.
12. Mişiyev A.Azərbaycan yazısıları və Tiflis ədəbi-ictimai mühiti, Tbilisi, Qanatleba, 1987.
13. Axundov M.F. Əsərləri üç cilddə 2-cild, Bakı, Elm, 1988.
14. Rəfili M. M.F.Axundov və onun fəlsəfi-siyasi görüşləri, Revolyusiya i kultura jurn., Bakı, 1938, №6-7, s.29-60.
15. Axundov M.F. Əsərləri üç cilddə 3-cü cild, Bakı, Elm, 1988.
16. Переписка Мирзы Фатали и Рашид-бека Ахундовых, Составаители Г.А.Гасанов, Э.А.Джамил-заде, Баку, Гянджлик, 1991.

Шахбаз Шамыоглы (Мусаев)

Творческие связи между М.Ф.Ахундзаде и Г.Орбелиани
Или еще раз о трагедии обманутого звезда нашей национальной литературы…

Резюме

Данная статья посвящена знакомству М.Ф.Ахундзаде и Г.Орбелиани, известного грузинского писателя и творческих связей между ними. В статье в то же время утверждается идеи, выраженные в отношении к смерти и похоронах М.Ф.Ахундзаде. Автор затрагивает причин холодного отношения государственных чиновников к М.Ф.Ахундзаде в конце его жизни.

Shahbaz Shamioglu (Musayev)

Creative relations between M.F.Akhundzade and G.Orbeliani Or once again about the tragedy of the deceived star of our national literature…

Summary

This article deals with the acquaintance of M.F.Akhundzade with G.Orbeliani, the famous Georgian writer and creative relations between them.At the same time the article argues about ideas expressed in relation to the death and funeral ceremony of M.F.Akhundzade. The author touches upon the reasons of the cold attitude of the state officials towards M.F.Akhundzade at the end of his life.

Rəyçi: Vaqif Arzumanlı
filologiya üzrə elmlər doktoru, professor

ÜLKƏR ƏLİYEVA
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Folklor İnstitutu
azfolklor@yahoo.com

MƏHƏMMƏDƏLİ FƏRZANƏ VƏ TƏBRİZDƏN TOPLANAN BİR MİFOLOJİ MƏTN BARƏDƏ

Açar sözlər: folklor, Güney Azərbaycan, Məhəmmədəli Fərzanə, mifologiya
Ключевые слова: фольклор, Южный Азербайджан, Махаммадали Фарзане, мифология
Key words: folklore, South Azerbaycan, Mahammadali Farzane, mythology

Hazırda təkcə AMEA Folklor İnstitutu tərəfindən Azərbaycan Respublikasının bölgələrindən toplanmış folklor materiallarının akademik nəşrlərinin sayı iyirmi cildi keçdiyi halda, bütövlükdə Güney Azərbaycanın folkloruna həsr edilmiş nəşrlərin sayı cəmi 26-dır ki, onlardan da heç biri akademik nəşr deyil. Səbəb isə aydındır. İranın rəsmi dairələri bu işə hər zaman laqeyidlik, Pəhləvilər dövründə isə hətta tam düşmən bir münasibət bəsləmişlər. Pəhləvi rejimi xalqın milli-mənəvi duyğu və düşüncələrindən süzülüb gələn və onların tarixi milli qəhrəmanlıqlarını, mədəni bədii varlıqlarını canlandıran xalq ədəbiyyatının toplanması və nəşrinə imkan verməmişdir (1. 11). Bununla belə, güneyli soydaşlarımızın ədəbi-bədii və folklor irsini nəşr etmək həmişə gündəmdə olmuşdur. Lakin bu iş dövlət tərəfindən deyil, vətənpərvər soydaşlarımız tərəfindən həyata keçirilmişdir. Ə.Sərrafi bildirir ki, 53 illik Pəhləvi rejimi illərində folklorumuza aid cəmi 26 kitab işıq üzü görmüşdür ki, onların ancaq 8-i türkcə, qalanı isə farscadır (yaxud, əsasən fars dilindədir) (2, 60). Həmin dövrdə Azərbaycan dilinin, ədəbiyyatının, mətbuatının və bir sözlə desək – Azərbaycan milli-mədəni varlığının yasaq olunduğu illərdə bu milli varlığın ən geniş və kütləvi sahəsi sayılan xalq yaradıcılığı məhsullarının toplanması, araşdırma və nəşr məsələsi hələ öz yerində qalsın, hətta ana dili, xalq varlığı, xalq ədəbiyyatı və xalq inancları kimi sözləri ağıza alıb danışmaq belə bağışlanmaz günah sayılırdı (1. 11). Bu son dərəcə vacib məsələ Quzey Azərbaycanda da hər zaman diqqət mərkəzində olub. Bir neçə cilddə nəşr olunmuş və folklor örnəklərinə də yer ayrılmış "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası", "Cənubi Azərbaycan müntəxabatı", prof. B.Abdullanın tərtib etdiyi "Arazam, Kürə bəndəm" toplusu və s. belə nəşrlərdəndir. AMEA Folklor İnstitutunun 2013-cü ildə nəşr etdirdiyi "Güney Azərbaycan folkloru. I kitab" bu silsilənin uğurlu davamı kimi dəyərləndirilə bilər (3. 5). Şübhəsiz ki, Güney Azərbaycanın tanınmış folklorşünası Məhəmmədəli Fərzanənin topladığı örnəklər əsasında tərtib edilmiş bu cild də Güney Azərbaycan folklorunun gələcək nəşrləri üçün cığır açа biləcəkdir. Güney Azərbaycan folklorunun toplanmasında xüsusi xidmətləri olan Məhəmmədəli Fərzanə 1923-ci ildə Təbrizin Çayqırağı məhəlləsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra müəllimliklə məşğul olmağa başlamış, 1945-1946-cı illərdə Təbrizdə nəşr olunan "Azərbaycan" qəzetində M.Ə. Qövsi imzasıyla məqalələrlə çıxış etmiş və Dədə Qorqud dastanlarını şərh etmişdir. 1953-cü ildə Təbrızdən Tehrana köçmüşdür. 1963-cü ildə şairin "Bayatılar" adlı şeirlər kitabı çap edilmişdir. 1976-cı ildə Əxtər

xanımla ailə həyatı qurmuşdur. 1979-cu il İran islam inqilabından sonra, professor Həmid Nitqi, Kərim Məşrutəçi (Sönməz), Mənzuri Xamneyi, Səməd Sərdarniya, Qulamhüseyn Beqdeli, Həsən Məcidzadə Savalan və Tehranda nəşr olunan Varlıq (jurnal)ının təsisçisi Cavad Heyətlə birlikdə həmin jurnalın işıq üzü görməsində böyük rolu olmuşdur. 1992-ci ildə Bakı Dövlət Universitetinin fəxri doktoru adına layiq görülmüşdür. Ürək xəstəliyindən əziyyət çəkdiyinə görə 1998-ci ildə müalicə üçün İsveçin Göteborq şəhərinə getmişdir. 2006-ci il yanvar ayının 17-də vəfat etmişdir (15). Özündən sonra zəngin bir irs qoymuş Məhəmmədəli Fərzanə aşağıdakı əsərlərin müəllifidir: "Bayatılar", "Zəbani dəstur zəbane Azərbaycan" (farsca), "Gozidehayi əz Təranehaye" (tərcumə-farsca), "Çenin bud əmma çenin nəxahəd bud" (tərcumə-farsca), "Guşehayi əz Xaterat və çənd dastan əz Cəlil Məmmədquluzadə" (farsca), "Şəhriyar və Heydər Baba" (farsca), "Dədəmin kitabı", "Mirzə Baqir Hacizadədən çap olunmuş xatirələr", "Azərbaycan el mahnıları", "Azərbaycan uşaq folkloru", "Molla Nəsrəddin lətifələri", "Azərbaycan el sözləri", "Təmsillər və məsəllər", "Azərbaycan aşıqları antologiyası", "Məqalələr", "Rəsul Rzanın şerlərinin farsca tərcüməsi" (farsca), "Torkane Parsiquy (farsca şeir yazmış türk şairlərinin antologiyası-farsca), "Azərbaycan dilinin qirameri", "Vajenameye Avayi" (Azərbaycan dili barəsində-farsca), "Ana dilimiz və milli varlığımız uğrunda xatirələr", "Fərhənge Loğate Azərbaycan" (15). Əsərlərinin siyahısından da göründüyü kimi, Məhəmmədəli Fərzanənin çalışmalarının önəmli istiqamətlərindən birini milli folklorumuzun toplanması və dərc edilməsi təşkil etmişdir. Lakin mövcud vəziyyət müəllifə bu işi peşəkarcasına aparmağa imkan verməmişdir. Belə ki, o dərc etdirdiyi materiallarda onların kimlərdən toplandığını qeyd etməmiş və bunun səbəbini izah edərkən, bildirmişdir ki, toplama işi Azərbaycan türkcəsində təhsil almağın (oxumağın) və danışmağın yasaq olunduğu bir dövrdə aparılmışdır. Həmin tarixi mərhələdə söyləyicilərin və toplayıcıların soyadlarının açıqlanması onların həbsi ilə nəticələnə bilərdi (3. 6). Əlbəttə ki, deyilənlər, Güney Azərbaycanda folklor toplamaqla məşğul olan fədakar ziyalılarımızın qarşısında duran yeganə çətinlik olmayıb. İranda Azərbaycan şifahi söz sənəti örnəkləri farscaya çevrilərək həm İran radiosu, həm də mətbuatda fars folklor örnəkləri kimi təqdim olunurdu. Odur ki, fars folkloruna qarışmış nümunələri seçmək, ayırd etmək mümkün olmurdu (4. 49). İşin ən acınacaqlı tərəfi is o idi ki, Güneydə bu işi görəcək bircə dənə də elmi müəssisə yox idi. Yeganə təhsil müəssisəsi olan Təbriz Universiteti isə 1947-1978-ci illərdə şahın siyasətinə görə İran millətçiliyinin "etibarlı dayağı" sayılırdı (5. 46). Bu gün vəziyyət nisbətən əlverişli olsa da, çox az dəyişib. İranda soydaşlarımız yenə də əvvəllər olduğu kimi təhsil haqqından məhrumdurlar. Ermənilərə olan münasibət isə tamam fərqlidir. Əldə olan son məlumatlara görə, İranda 67 erməni məktəbi fəaliyyət göstərir ki, onlarda oxuyan şagirdlərin sayı 12.240 nəfərə çatır. Ümumi hesaba görə isə hər iki erməni ailəsindən bir şagird təhsil alır (6. 97). Təbii ki, belə bir şəraitdə peşəkar folklorşünasların yetişməsindən söhbət gedə bilməz. Bununla belə, hazırda İranda az sayda da olsa, qəzet və jurnal nəşr edilməyə başlayıb. Onıarın içərisində "El-bilim" jurnalı xüsusilə fərqlənir və bilavasitə folklorşünaslıq məsələlərinə həsr edilib. Yuxarıda qeyd edildiyi kimi, AMEA Folklor İnstitutunun 2013-cü ildə nəşr etdirdiyi "Güney Azərbaycan folkloru. I kitab" bütünlüklə Güney Azərbaycanın tanınmış folklorşünası Məhəmmədəli Fərzanənin Təbriz, Yekanat və Həmədan ərazilərindən topladığı örnəklər əsasında tərtib edilmişdir. Kitabda Yeka-

nat və Həmədan toplanmış nümunələr ayrıca bir fəsil (XIII fəsil) kimi təqdim edilmiş (3. 302-375), XIV fəslə etnoqonik motivlər daxil edilmiş (3. 375-448), I-XII fəsillər isə bilavasitə Təbrizdən toplanmış materiallar əsasında tərtib edilmişdir (3. 17-301). Bu fəsillərdə sırası ilə "İnanclar" (3. 17-30), "Alqışlar, qarğışlar, andlar" (3. 31-46), "Sayalar, holavarlar" (3. 47-52), "Nağıllar" (3. 53-119), "Atalar sözü və məsəllər" (3. 120-145), "Tapmacalar" (3. 146-152), "Bayatılar" (3. 153-174), "Lətifələr" (3. 175-203), "Yuxuyozmalar" (3. 204-243), "Uşaq folkloru" (3. 244-261), "Xalq mahnıları" (3. 262-282) və "El deyimləri"dir (3. 283-301). Kitabda toplanmış materialların bir çoxunun variantına ayrı-ayrı bölgələrimizdə rast gəlinsə də, onlardan bir qismi bütünlüklə orijinal mətnlər hesab oluna bilər. "İnanclar" başlıqlı I fəslin elə ilk sətirlərindən toplanmış materialların nə qədər böyük önəmə sahib olduğunu görmək mümkündür. Burada ilk sırada yer alan bir mifdə ilk insanın yaradılmasından söhbət gedir. Deyilənlərin bir qismi Qurani-Kərimdə söylənilənlərlə üstüstə düşür, fəqət elə incə məqamlara da rast gəlinir ki, onların İslam inancı ilə birbaşa bağlılığı yoxdur və həmin məqamlar öz kökünü İslanaqədərki dövrlərin inanc sistemlərindən alır:

"Allah-təala insanı yaratmaq üçün Cəbrayılı yer üzünə göndərib, ordan bir ovuc torpaq gətirməyi əmr edir...

...Cəbrayıl torpaq götürməyib geri qayıdır. Bu dəfə Mikayıl və onun ardınca İsrafil bir ovuc torpaq aparmaq üçün yer üzünə gəlirlər. Yer bunların da hər ikisinə çoxlu yalvar-yaxar edir, Onlar da torpağa əl vurmadan geri qayıdırlar. Nəhayət, yenə Əzrayıl yerə göndərilir. Yer qabağdakı kimi ona da çox yalvarır. Əzrayıl yerin yalvarışına belə cavab verir:

– Sənin dediklərin hamısı doğrudu, lakin haqq-təalanın fərmayişi yerinə yetirilməlidir.

O, bir ovuc torpaq götürüb qayıdır..." (3.17).

Şübhəsiz ki, Qurani-Kərimdə rastlanmayan bu süjet öz kökünü İslanaqədərki dövrlərin inanc sistemlərindən alır. Burada yaradılış barədə çoxsaylı əski türk miflərindən birinin təsiri özünü açıq-aydın şəkildə göstərir. Orada da Tanrı balıqçıl quşuna suyun dibindən torpaq gətirməyi tapşırır və onun bu istəyinə sadəcə üçüncü cəhddə nail olunur:

"Çox-Çox əvvəllər heç bir şey yox idi. Yalnz dalğalanan və çalxalanan böyük bir dəniz var idi. Bir də böyük bir şaman var idi (yeniseylilərə görə, şaman Tanrıdır). **Onun nə işi vardı, nə də gücü. Bu dəniz üzərində qu quşları, qırmızı boyunlu balıqcıl quşları və daha neçə-neçə su quşları uçuşardı. Amma qonub dincəlmək, nəfəs dərmək üçün bir yerləri yox idi. Buna görə şaman balqçıl quşa dedi:**

-Suya dal, dənizin dibindən bir az torpaq gətir!

Balıqçıl iki dəfə suya cumdu, heç nə gətirə bilmədi. Üçüncü dəfə ağzında bir parça palçıq çıxarda bildi. Bu palçıqdan bir ada düzəltdilər və uçuşub onun üzərinə qondular" (7. 462).

Bu iki süjetin müqayisəsi əski türk mifologiyasından qaynaqlanan qədim təsəvvürlərin minillər sonra başqa təsəvvürlə necə əvəzləndiyini açıq-aydın şəkildə ortaya qoyur.

Təbrizdən toplanan mifdə diqqəti çəkən ən maraqlı məqamlardan biri də Allaha lazım olan torpağın məhz ölüm mələyi Əzrayıl tərəfindən gətirilməsidir. Türk

mifologiyasında isə bu işi adətən yeraltı dünyanın, yəni ölülər dünyasının sahibi Erlik edir:

"Bir zamanlar yalnız Tanrı Qara xan və su vardı. Qara xandan başqa görən və sudan başqa görünən yox idi. Ağ ana göründü. O, Qara xana "yarat" deyib yenidən suya daldı. Bunu eşidən Qara xan bir kişi yaratdı. Qara xanla kişi intəhasız suyun üstü ilə iki qara qaz kimi uçurdular. Lakin halından məmnun olmayan kişi, Qara xandan daha yüksəkdə uçmaq istəyirdi. Onun istədiyini bilən Qara xan kişidən uçmaq qabiliyyətini aldı. Kişi dibsiz suya yuvarlandı. Elədiyindən peşiman olub Tanrı Qara xandan bağışlanmasını xahiş etdi.

Tanrı Qara xanın göstərişi ilə sudan bir ulduz çıxdı. Kişi həmin ulduzun üstünə çıxıb xilas oldusa da, Qara xan onun bir daha uça bilməyəcəyini nəzərə alıb dünyanı yaratmaq qərarına gəldi. Kişiyə buyurdu ki, suyun dibinə dalaraq torpaq çıxarsın. Şər düşüncədən əl çəkməyən kişi torpaq gətirərkən fikirləşdi ki, özü üçün gizli bir dünya da yaratsın, ona görə də torpağn bir qismini ağzında saxladı. Elə ki ovcundakı torpağı su üzərinə səpdi, Tanrı Qara xan torpağa "böyü" deyə buyurdu. Torpaq böyüyüb dünya oldu. Lakin kişinin ağzında saxladığı torpaq da böyüyüb onu boğmağa başladı. Qara xan ona "tüpür!" deməsəydi, boğulub öləcəkdi.

Tanrı Qara xan dümdüz bir dünya yaratmşdı, lakin kişi tüpürəndə ağzından çıxan torpaq bataqlıqlar, təpələr əmələ gətirdi. Hirslənən Qara xan itaətsiz kişiyə "Erlik" (şeytan) adını verib, özünün işıqlı dünyasından qovdu..." (8. 13).

Məhəmmədəli Fərzanənin topladığı mifin başqa bir yerində deyilir:

"Adəm səcdə etmədiyinə görə cənnətdən qovulan şeytan ona kin bəsləyirdi. O, hər yol ilə olursa-olsun, behiştə girməyi, Adəm ilə Həvvanı yoldan azdırmağı düşünürdü. O, öz dərilərini, ya qılıqlarını az müddət ona əmanət verək üçün bütün heyvanlara baş vurdu. Heç bir heyvan nə dərisini, nə qılığını şeytana verək istəmədi.

O, sonda ilana baş vurdu. İlan dərisini verməyə razı oldu. Şeytan ilan qiyafəsində behiştə girdi. İlanın əlsiz-ayaqsız olub yerdə sürünməsi, zəhərli olub, insanları çalması, buna görə də həmişə iyrənc, qorxunc görünməsi, heç şəfqət, rəhm edilmədən öldürülməsi bu səbəbdəndi" (3. 18)**.**

Burada deyilənlər isə, nə qədər qəribə görünsə də, "Bibliya"dan qaynaqlanır və İslamla heç bir əlaqəsi yoxdur:

"...Rəbb Allahın yaratdığı bütün çöl heyvanlarının ən hiyləgəri ilan idi. İlan qadına dedi: «Doğrudanmı, Allah sizə "bağda olan heç bir ağacın bəhrələrindən yeməyin" deyib?» Qadın ilana dedi: «Bağdakı ağacların bəhrələrindən yeyə bilərik. 3 Amma bağın ortasındakı ağacın meyvələri barədə Allah deyib: "Ondan yeməyin və ona toxunmayın, yoxsa öləcəksiniz!"» İlan qadına dedi: «Yox, əsla ölməzsiniz. Əksinə, Allah bilir ki, o meyvələrdən yediyiniz gün gözləriniz açılacaq və xeyirlə şəri bilərək Allah kimi olacaqsınız». Qadın gördü ki, ağacın meyvəsi yemək üçün yaxşıdır, gözə xoş görünür və bu ağac insana dərrakə verməyi vəd edir. Buna görə də o həmin meyvədən dərib yedi. Sonra yanında olan ərinə də verdi, o da yedi. O vaxt ikisinin də gözləri açıldı və çılpaq olduqlarını bildilər. Buna görə də əncir yarpaqlarını bir-birinə hörüb özlərinə fitə düzəltdilər...

...**Rəbb Allah qadına dedi: «Sən niyə belə etdin?» Qadın dedi: «İlan məni yoldan çıxartdı, mən də yedim». Rəbb Allah ilana dedi: «Sən bunu etdiyin üçün bütün ev heyvanları və çöl heyvanları arasında lənət qazanırsan. Qarnın üstündə sürünəcəksən, bütün ömrün boyu torpaq yeyəcəksən. Mən sənin lə qadın arasına, sənin balanla onun övladı arasına düşmənçilik salıram. Bu övlad sənin başından vuracaq, Sən də onu dabanından sancacaqsan»"** (9. I, 3).

Burada istər-istəməz ortaya bir sual çıxır: xristian motivləri Güney Azərbaycan folkloruna necə və nə zaman yol tapmışdır? Axı, məlum olduğu kimi, Azərbaycanın quzeyində xristianlıq bir vaxtlar hakim din olub, amma Güney Azərbaycan əhalisinin nə zamansa xristan olduğu bardə əlimizdə heç bir məlumat yoxdur. Əslində isə məsələ bir qədər fərqlidir. Maraqlıdır ki, İncildə Azərbaycan xalqının, ilk növbədə də güneyli soydaşlarımızın etnogenezində birbaşa iştirak etmiş midiyalıların xristianlığı ilk qəbul edən xalqlar içərisində yer aldığını sübut edən çox sayda məlumat vardır. Bu faktlardan biri İncilin "Həvvarilərin işləri" adlı bölümündə yer almaqdadır. Sözügedən bölümün II fəslininin 1 – 13–cü ayələrində oxuyuruq:

"Pentikost günü gəldikdə, onların hamısı (həvvarilər, Həzrət İsanın 11 tələbəsi. 12 – ci o zaman özünü asmışdı) bir yerə toplaşdı. Qəflətən, güclü bir külək əsirmiş kimi, göydən bir səs gəldi və oturduqları evin hər tərəfinə yayıldı. Alovun dillərinə bənzəyən bir şey onların gözlərinə görünüb, parçalanaraq hər birinin üzərinə qondu. Hamısı Müqəddəs Ruhla (Həzrət Cəbrayıl nəzərdə tutulur) doldu və Ruhun (Həzrət Cəbrayılın) onlara verdiyi danışma tərzinə uyğun olaraq, başqa – başqa dillərdə danışmağa başladılar. Yerusəlimdə (Qüdsdə) yəhudilər, göy altında olan dindar adamlar yaşayırdı. Və bu səs gəldikdə, xalq bir yerə toplaşıb təəccüblənirdi; çünki hər biri onun dilində danışdıqlarını eşidirdi. Hamı çaşqınlıq və heyrət içində idi və (aralarında) deyirdilər:

-Bu danışanların hamısı qalileyalı (Qalileya qədim yəhudi şəhərlərindən birinin adıdır) deyillərmi? Bəs, necə olur ki, hər birimiz öz ana dilimizi eşidir? Biz parfiyalılar, midiyalılar, elamlılar, Messopatamiyada, Yəhudeyada və Kappadokiyada ....yaşayanlar.... kritlilər və ərəblər, onların öz dillərimizdə Allahın möhtəşəm işləri barədə danışdıqlarını eşidirik.

Və hamı heyran – heyran bir – birinə "Bu nə olan işdir?" – deyərək təəccüblənirdi" (10. 345).

İncilin bu hissəsinə inansaq, belə çıxır ki, Allah öz mələyi Həzrət Cəbrayıl vasitəsi ilə, o da Həzrət İsanın həvvariləri vasitəsi ilə müxtəlif xalqlara, o cümlədən türk mənşəli midiyalı (madaylara) və parfiyalılara (saklara) öz ana dillərində müraciət etmiş və həmin şəxslər də xristian olmuşdular (10. 345). Təqdim edilən mifdə daha bir maraqlı məqam diqqət çəkməkdədir. Burada deyilir ki, Allah-təala dünyanı yeddi günə yaratmışdır. Burada da xristianlığın təsiri özünü açıq-aydın şəkildə göstərməkdədir. Çünki Qurani-Kərimin bir neçə yerində Allahın dünyanı altı gündə yaratdığı bildirilir. Bibliyada da eyni şey sözlənilir. Fəqət burada yeddinci gündən də söz açılır və həmin gün Allahın istirahət etdiyi dilə gətirilir:

"Göylər və yer, oradakı hər şey beləcə tamamlandı. Allah yeddinci günə qədər gördüyü işləri qurtardı və yeddinci gün gördüyü işlərdən ayrılıb istirahət etdi" (9. II, 1).

Deyiliənlərdən belə bir nəticəyə gələ bilərik ki, mif yaradıcılığı tarixin bütün dövrlərində durmadan davam edir və hər bir yeni mərhələdə yeni-yeni çalarlar qaza-

naraq, təkmilləşir və dəyişir. Bəzən bu dəyişmə o qədər əsaslı olur ki, ilkin variantdan əsər-əlamət belə qalmır. Təbriz ətrafından toplanmış mif deyiliənləri bütünlüklə təsdiqləyir. Maraqlıdır ki, eyni hala bu mifin Qarabağdan toplanmış başqa bir variantında da, bir qədər fərqli şəkildə rast gəlirik:

"Allah-tala hər şeydən qabax şeytanı yaradıf. Şeytan Allaha necə il qullux eliyif. Şeytannan sohra Adəm atanı yaradıf. Adəm ata, rəvayətin dediyinə görə, Hindisdanda yaranıf, yerdən, torpaxdan, palcıxdan. Bu yaranannan sohra arvadı-zadı olmuyuf. Allah-tala şeytana əmr eliyir ki, Adəm ataya səjdə elə, baş əy. Şeytan deyir ki, mən onnan qabax dunyaya gəlmişəm. Mən Adəm ataya səjdə eləmərəm. O pirdən ki, arxası qatda cıxıllar ha, – arxaa pirə cevirmək ədəbsizdihdi, – onu, deyir, heylə qayırıflar ki, şeytan Adəm ataya baş əysin. Genə baş əymiyif, elə duzqulusuna cıxıf. Şeytan Allah-talaya şikayət eliyir ki, mən saa Adəm atadan qabax necə il qullux eləmişəm, mənim hakqımı ver. Allah-tala buna deyir ki, kim sənin sozunnan gedirsə, kim sənin buyruğaa baxırsa, sənin hakqaa onu verirəm. Sohradan Allah Adəm atanın qabırğasınnan Həvva nənəni yaradıf" (12. 15).

Bu variantı dərindən incələmiş B. Tuncayın təsbitinə görə, cəmi 12 cümlədən ibarət olan bu mifoloji mətndə üç fərqli inanc sisteminin – şamanizmin, xristianlığın və İslamın izləri əks olunub. Bu da təbiidir. Çünki İslamdan öncə Qarabağın yerli əhalisi də bütün Qafqaz Albaniyasında olduğu kimi, xristianlığı qəbul etmiş, bundan öncə isə şamanist olmuşdur (16). Sözügedən mətndə tədqiqatçının diqqətini çəkən ilk məqam Allahın şeytanı **"hər şeydən qabax"** yaratması, eləcə də **"Şeytannan sohra Adəm atanı yaradıf"** fikridir ki, bu fakir, Qarabağ əhalisinin nə Qafqaz Albaniyası dövründə iman etdiyi xristianlığın əsas kitabı olan "Bibliya"da, nə də sonradan qəbul etdiyi İslam dininin müqəddəs kitabı "Quran"da söylənilənlərlə üstüstə düşmür... Deməli, şeytanın **"hər şeydən qabax"** yaradılması fikri nə Bibliyadan, nə də Qurandan götürülməyib və yerli əhalinin səmavi dinlərdən öncəki inancları ilə bağlıdır. Sözügedən təsəvvür, şübhəsiz ki, qədim türk – şaman təsəvvürlərindən qaynaqlanır. Təsadüfi deyil ki, Altay və Sibir türklərindən toplanmış mifoloji mətnlərdə Tanrının ilk yaratdığı şəxsin bəzən tanrı özəlliklərinə sahib insan kimi bəhs edilən şeytan, yəni Erlik olduğunu görürük (16). Bahəddin Ögəl haqlı olaraq yazır ki, Orta Asiya və Sibirdə söylənən yaradılış əfsanələri içərisində ən böyüyü və doğru olanı V. Radlov tərəfindən toplanan və Altay türklərinə aid olan əfsanədir (4. 416). Mərkəzində Tanrının durduğu və aparıcı rola sahib olduğu bu dastan yarandığı dövrdən ən azı 5-6 min il sonra qələmə alınsa da ilkin məzmun və mahiyyətini, cüzü fərqlər nəzərə alınmazsa, bütünlüklə qoruyub saxlaya bilmişdir:

"Bir zamanlar yalnız Tanrı Qara xan və su vardı. Qara xandan başqa görən və sudan başqa görünən yox idi. Ağ ana göründü. O, Qara xana "yarat" deyib yenidən suya daldı. Bunu eşidən Qara xan bir kişi yaratdı. Qara xanla kişi intəhasız suyun üstü ilə iki qara qaz kimi uçurdular. Lakin halından məmnun olmayan kişi, Qara xandan daha yüksəkdə uçmaq istəyirdi. Onun istədiyini bilən Qara xan kişidən uçmaq qabiliyyətini aldı. Kişi dibsiz suya yuvarlandı. Elədiyindən peşiman olub Tanrı Qara xandan bağışlanmasını xahiş etdi...

...Sonra yerdə doqquz budaqlı ağac bitirdi, hər budağın altında bir adam yaratdı ki, onlar doqquz insan irqinin ataları oldular. Erlik insanların gözəlliyini, xoş həyatını görüb Tanrı Qara xandan xahiş etdi ki, həmin insanları

onun ixtiyarına versin. Qara xan vermədi. Erlik istəyindən dönmədi, insanları öz tərəfinə çəkməyə başladı. Qara xan insanların azğınlığını, Erliyə aldanmalarını görəndə, onları özbaşına buraxdı. Erliyi isə yer altındakı qaranlıq dünyanın üçüncü qatına qovdu. Özü isə göyün on yeddinci qatını yaradıb oraya çəkildi...” (13. 13).

Qarabağdan toplanan mifdəki ikinci maraqlı məqəam mətndə öz əksini belə tapıb:

“...Allah-tala şeytana əmr eliyir ki, Adəm ataya səjdə elə, baş əy. Şeytan deyir ki, mən onnan qabax dunyaya gəlmişəm. Mən Adəm ataya səjdə eləmərəm…” (12. 15).

Məsələnin bu şəkildə qoyuluşuna isə nə türk mifologiyasında, nə də xristianlıqda rast gəlinmir və burada əks olunan təsəvvür bilavasitə Qurani-Kərimdən qaynaqlanır (6. X, 3875). Mövzu Qurani – Kərimin “Əl - Bəqərə” surəsinin 34-cü ayəsində öz əksini belə tapıb:

“O zaman biz mələklərə: “Adəmə səcdə edin!” – dedikdə, onlar səcdə etdilər, tək İblisdən başqa. O, üz çevirdi, təkəbbür göstərərək imtina etdi və kafirlərdən oldu” (14. II, 34).

Sözügedən mətndə başqa bir məqam da var. Söhbət aşağıdakı cümlədən gedir:

“…Sohradan Allah Adəm atanın qabırğasınnan Həvva nənəni yaradıf” (12. 15).

Burada diqqəti çəkən məsələ, yəni Həvvanın Həzrət Adəmin (ə) qabırğasından yaradıldığı barədə inanc bilavasitə Bibliyadan qaynaqlanır və məsələnin bu cür qoyuluşu həm İslama, həm də türk mifologiyasına yaddır. Bibliyada deyilir:

“O zaman Rəbb Allah insana dərin yuxu göndərdi və o yuxuya getdi. Onda Rəbb Allah onun qabırğasının birini götürdü və yerini ətlə örtdü. Rəbb Allah insandan götürdüyü qabırğadan qadını düzəltdi və onu insanın yanına gətirdi” (9. II, 21-22).

Bu fakt ölkəmizin istər güneyinin, istərsə də quzeyinin tarixin müxtəlif mərhələlərindən sinxron keçdiyini və eyni mədəni təsirlərə məruz qaldığını göstərir. Bu baxımdan “Təbriz mifinin” qiyməti ölçüyəgəlməzdir. Məhəmmədəli Fərzanənin topladığı materiallar içərisində bu kimi qiymətli mətnlər olduqca çoxdur. Onların müqayisə və təhlili gəlcəkdə hələ bir çox üstüörtülü məqamlara aydnlq gətircəkdir. Məhəmmədəli Fərzanə bütün bu xidmətlərinə görə uzun illər Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun elmi əməkdaşı olmuşdur. O, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Pedaqoji Universitetinin fəxri doktoru olmuşdur. Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun hazırladığı folklor antologiyasının Cənubi Azərbaycan folklorunu əhatə edəcək 3 cildini Fərzanə tərtib etmişdir.

Ümumiyyətlə, Məhəmmədəli Fərzanənin elmi-ədəbi, bədii yaradıcılığına nəzər salanda görürük ki, o, əsərləri və bütövlükdə yaradıcılığı ilə ana dilimizin inkişafına, zənginliklərinin üzə çıxarılmasına, öyrədilməsinə yorulmadan xidmət etmişdir. Zəngin yaradıcılıq yolu keçən Məhəmmədəli Fərzanə ahıl çağlarında belə, ömrünün sonunadək əlində qələm xalqının rifah halının yüksəlməsində fəallıq göstərmişdir (11. 70-78).

Ədəbiyyat

1. Səbri M. Cənubi Azərbaycan folklorunun toplanması, nəşri və tədqiqində "Varlıq" jurnalının rolu. Filologiya üzrə fəlsəfə doktoru dissertasiyası, Bakı, 2011.
2. Sərrafi Ə. İran türklərinin dili və folkloru, "Varlıq" dərgisi, 1999, №114.
3. Güney Azərbaycan folkloru. I kitab (Təbriz, Yekanat və Həmədan ərazilərindən toplanmış folklor örnəkləri). AMEA Folklor İnstitutu, Bakı, 2013.
4. Hesari M. Folklor yığmaqda qabaqcıllar, "Varlıq" dərg., 1996, № 103,.
5. Bayramzadə S. Z. İran hakim dairələrinin Cənubi Azərbaycan maarifi sahəsindəki siyasəti, Cənubi Azərbaycan tarixi məsələləri (məqalələr toplusu), Bakı, Elm, 1991.
6. Qasparyan S. Xarici erməni koloniyaları bu gün, İrəvan, Haypetrat, 1962, (erməni dilində).
7. Ögəl B. Türk mifologiyası. l c. B.,"MBM", 2006.
8. Cəfərov N. Azərbaycanşünaslığa giriş. B., "AzAtaM", 2002. 600 s.
9. Bibliya.
10. Tuncay B. Qafqaz albanlarının dili və ədəbiyyatı. "Qanun" nəşrlər evi, Bakı, 2010. 368 s.
11. İsmayılova N. Cənubi Azərbaycan ədəbiyyatı müasir mərhələdə, yaxud "Varlıq" ədəbi məktəbinin nümayəndələri, Bakı, "Elm və təhsil", 2010.
12. Azərbaycan Milli Elmlər Akademiyası, Folklor İnstitutu. Qarabağ: Folklor da bir tarixdir. I kitab. Bakı, 2012, 396 s.
13. Ögəl B. Türk mifologiyası. l c. B.,"MBM", 2006.
14. Quran.

İnternet resursları

15. Məhəmmədəli Fərzanə. Vikipediya. http://az.wikipedia.org/wiki/M%C9%99h%C9%99mm%C9%99d%C9%99li_F%C9%99rzan%C9%99
16. Tuncay B. Qarabağdan toplanmış mifoloji mətnlərdə fərqli inanc sistemlərinin izi. http://www.facebook.com/l.php?u=http%3A%2F%2Fbextiyartuncay.wordpress.com%2F2013%2F09%2F20%2Fqarabagdan-toplanmis-mifoloji-m%25C9%2599tnl%25C9%2599rd%25C9%2599-f%25C9%2599rqli-inanc-sisteml%25C9%2599rinin-izi%2F&h=TAQFQs3Yo

Улькер Алиева

Мухаммадали Фарзане и об одном мифологическом тексте, собранном в Тебризе

Резюме

Сбор и составление, изучение фольклора Южного Азербайджана является основной задачей современной Азербайджанской фольклористики. Собранные энтузиастами, любителями и простыми гражданами Южного Азербайджана фольклорные тексты, к сожалению не только исследуются, но и не издаются, оставаясь в архивах. В этой статье делается попытка создания подроб-

ной картины состояния фольклора Южного Азербайджана. Автор изучает собирательскую и исследовательскую деятельность Мухаммадали Ферзане, ярого патриота, фольклориста, который несмотря на гонения, смог собрать большое количество материала и передать в Институт Литературы НАНА.

Ulkar Aliyeva

Muhammadali Farzane and one of the mythological texts collecting from Tabriz

Summary

Collecting and compiling, studying folklore of South Azerbaijani is a main problem of modern Azerbaijani folklore. The collecting of South Azerbaijani folklore by the enthusiasts, lovers and citizens neither investigated nor published and were kept in archives. In this article there is an effort to create the current picture of the state of South Azerbaijani folklore.

The author studies collecting and investigating activity of violent defender, folklorist Muhammadali Farzane who collected a great number of materials in spite of persecutions and gave to the Institute of Literature of ANAS.

Rəyçi: Şakir Albalıyev
filologiya üzrə fəlsəfə doktoru, dosent

NATİQ ADİLOV
Qafqaz Universiteti

PANİYALI PRİSKİN "BİZANS TARIXİ" KİTABI İNGİLİS-AMERİKAN ƏDƏBİYYATINDA HUN MÖVZUSUNDA YAZILAN ƏSƏRLƏRİN ƏSAS QAYNAĞI KİMİ

Açar sözlər: Paniyalı Prisk, "Bizans tarixi", Attila, hunlar
Key words: Priscus of Panium, "History of Byzantium", Attila, Huns
Ключевые слова: Приск из Пании, "История Византии", Аттила, гунны

XX-XXI əsr ingilis-amerikan ədəbiyyatında tarixi roman janrında yazılmış çox sayda nəsr əsərlərinin, eləcədə XIX-XX əsr ingilis dramaturgiyasında (bu mövzuda dram əsərlərinin yazılması XX əsrin ortalarından sonra demək olar ki, sona çatmışdır-N.A) yazılan müəyyən əsərlərin təhlili göstərir ki, adı çəkilən ölkələrdə hunlar və onların sadiq olduqları tacidar Attila (406-453) haqqında əsərlər kifayət qədərdir. Həmin əsərlərin müxtəlif vaxtlarda və müxtəlif coğrafi məkanlarda qələmə alınması ilə yanaşı onu da vurğulamaq lazımdır ki, nasirlər və dramaturqlar təbii olaraq fərqli kitab və məlumatları öz əsərlərinin qaynağı olaraq seçmişlər.

Attila və hunlar haqqında V əsrdən başlayaraq müxtəlif səpkili əfsanələrin ortaya çıxmasına paralel olaraq tarixi əsərlərin yazılmasına da başlanılmışdır (Asiya hunları haqqında daha əvvəllər Çin qaynaqlarında yazılmış qeydlər var-N.A). Roma İmperiyası dövrünün sonlarına yaxın tanınmış tarixçilərdən hesab edilən və ölkəsinin 96-378-ci illər arasında baş vermiş hadisələrini öz tarix kitabında əks etdirən Amianus Marselinus, onun müasirlərindən olan rahib Cerom (Jerome, 347-420), qot tarixçisi Cordanes (Jordanes), Vegetius Renatus, Kladius Kladiusanus, Aurelius Kassiodurus (490-583), Zosimus kimi tarixçi və salnaməçilər hunlar və Attila haqqında öz sözlərini söyləmişlər. Lakin təəssüf ki, onların əksəriyyəti düşmən tərəfin nümayəndələri olduqlarına görə yazdıqları məlumatlar məntiq və reallıqlara zidd mahiyyətdə idi.

Yuxarıda adlarını sadaladığımız müəlliflərin yazdıqları məlumatlardan savayı ədəbi əsərlərin müəllifəri eyni zamanda alman, skandinav və macar xalqlarının əfsanə və nağıllarından ("Nibelunqlar nəğməsi", "Böyük Edda", "Volsunqa nəğmələri", "Hervarar nəğmələri", "Volter və Hildegundun hekayəsi", "Macarıstan xronologiyası" və s.) də geniş istifadə etmişlər.

Attila haqqında yazılan məlumatların təhlilindən sonra onun haqqında ən dolğun məlumatların heç şübhəsiz ki, Paniyalı Prisk tərəfindən verildiyi qənaətinə gəlmək olar. Paniyalı Prisk 410-cu ildə (bəzi qaynaqlarda isə 420-ci ildə-N.A) anadan olmuş və 448-ci ildə Bizans İmperatoru Teodesusun hun düşərgəsinə Attila ilə görüşmək üçün göndərdiyi heyətin tərkibində olmuşdur və hun fatehinin təşkil etdiyi ziyafətdə şəxsən iştirak etmişdir. Onun bu səfər haqqında yazdığı məlumatlardan istər tarixdən yazan tədqiqatçılar, istərsə də ədəbi əsərlərin müəllifləri geniş şəkildə faydalanmışlar. O, Attilanın portretini aşağıdakı kimi izah edir: "Qısa boylu, enli sinəli, başı bir az böyük, xırda gözlü, seyrək saqqallı, yastı burunlu bir insan" (1). Prisk 472-ci ildə dünyadan köçmüşdür. Onun müəllifi olduğu səkkiz cildlik "Bizans tarixi" (bəzi alimlər bu adın sonradan verilməsi fikrini də irəli sürürlər-N.A) kitabı 433-472-ci

illər arasında baş vermiş hadisələri özündə ehtiva etmişdir. Çox təəssüf ki, onun əsərinin ancaq müəyyən hissəsi günümüzə qədər gəlib çatmışdır. "Bizans tarixi" Attila və hunlar haqqında ən etibarlı mənbələrdən hesab edilir. (2)

Böyük ingilis şərqşünas və tarixçisi, Bizans, Roma və Yunan tarixi və ədəbiyyatı haqqında ciddi araşdırmalar aparmış Con Bagnel Beri (John Bagnell Bury, 1861-1927) Priskin Attila ilə görüşünü əks etdirən hissəni "Prisk Attila sarayında" ("Priscus at the court of Attila") adı ilə ingilis dilinə tərcümə etmişdir. Həmin tərcümə sonrakı illərdə bu mövzuda ədəbi əsərlər yazan müəlliflər üçün böyük kömək olmuşdur.

Azərbaycanda da haqqında danışdığımız əsər diqqət mərkəzindən kənar qalmamışdır. Paniyalı Priskin Attila haqqında xatirələrini 2009-cu ildə "Mən Attilanı necə gördüm" adı ilə dilimizə tərcümə edən yazıçı və tədqiqatçı Əlisa Nicat kitabının əvvəlində aşağıdakı təqdimatı verir: "Prisk haqqında öz qeydlərində yazılanlardan başqa heç nə məlum deyildir. Bununla belə Attilanın yanına göndərilən Bizans elçiləri içərisində olması onun yüksək mövqeyindən, bu adamın o dövr üçün yüksək savadlı və diplomatik işlərdə təcrübəsi bir şəxs olduğundan xəbər verir. Mən qədim dünya tarixinin məxəzlərini yazanlar içində bu qədər namuslu, obyektiv qələm sahibinə rast gəlməmişəm. Düşmən tərəfinin nümayəndəsi olmasına baxmayaraq o, bir qədər sakit və təmkinli təzkirəçidir. Əgər Attila haqqında hun yazarlarının qeydləri olsaydı, mən inanmıram ki, o qeydlər bu qədər real və yüksək yazı nümunəsi olardı" (3, 5-6).

Priskin yazdığı qeydlər hələ XVII əsrdə fransız faciəsinin qurucusu hesab edilən Pyer Korneyl (Pierre Corneille, 1606-1684) tərəfindən yazılan "Attila" pyesinin yazılması üçün ciddi şəkildə istifadə edilmişdir (4,169). Tarixi romanları ilə daha çox şöhrət tapmış macar yazıçısı Geza Gardonyi(1863-1922) 1901-ci ildə nəşr etdirdiyi "Görünməz adam" (əsər ingilis dilinə "hunların qulu" adı ilə tərcümə edilmişdir-N.A) adlı romanı da adını çəkdiyimiz tarixçinin yazdığı məlumatlardan geniş istifadə etdiyi üçün bu gün də ən çox sevilən və hunlar haqqında ən düzgün məlumatların əks olunduğu əsərlərdən hesab olunur (5).

İngilis-amerikan ədəbiyyatında Paniyalı Priskin adı çəkilən əsərinin günümüzə qədər gəlib çatan hissələrindən ən çox yararlanan müəllif heç şübhəsiz Uilyam Napier adı ilə yazan ingilis müəllif Kristofer Hartdır (Christopher Hart, 1965). Onun 2005-2008-ci illərdə qələmə aldığı trilogiyası-"Attila-Tanrının Bəlası", "Attila-fırtınalarla mübarizə", "Attila-hökm"- (araşdırmalarıma görə bu mövzuda hələ ki, tək trilogiyadır-N.A) hunların tarixi və Attilanın Roma və Bizans siyasəti haqqında geniş məlumatları özündə ehtiva etməklə yanaşı romanlarda tarixi hadisələrin düzgünlüyü ilə də diqqəti cəlb edir və Priskin Bizans elçilərinin arasında Attilanın sarayında olduğu vaxt yazdığı məlumatlar tam dəqiqliyi ilə romanlarda əks olunmuşdur.

Əsərin sonunda müəllif yazır: "bu əsərin yazılması üçün Priskin qeydləri ilə yanaşı digər tarixçilərin əsərlərindən də istifadə etmişəm. Elə hadisələr var ki, onları Paniyalı Prisk qeyd etməyib" (6,539)

Bu əsərin tarixi orijinallığını artıran mühüm məqamlardan biri də müəllifin Priski əsərin obrazlarından biri kimi göstərməsi, müəyyən məqamlarda hadisələri onun adından verməsidir. Trilogiyanın epilog və prologu da Priskin adından verilmişdir. Bu, əsərə xüsusi bir çalar qazandırmaqla yanaşı eyni zamanda tarixi hadisələrin daha geniş şərhinə imkan yaradır. Priskin Attilanın sarayında təşkil olunmuş

qonaqlıq haqqındakı qeydlərinə fikir verək: "çadırın mərkəzində taxtda oturmuş Attila bütün məsələlərdə sadəlik nümayış etdirirdi. Hər kəs qızıl və gümüş qablardan yemək yeyərkən onun qabağında ağac qabda ətdən başqa heç nə yox idi. Hər kəsə gümüş və qızıl qədəhlərdə şərab paylansa da, onun piyaləsi taxtadan idi. Onun geyimi də sadə idi. Səliqəlilikdən başqa heç nəyi ilə fərqlənmirdi" (3, 32-33).

Təcrübəli müəllif "Bizans Tarixi"ndə qeyd olunan bu faktları elə Priskin dilindən əsərdə ədəbi boyalarla tam təfsilatı ilə təsvir etmiş, hunların yaşayış tərzi və Attilanın xarekteri ilə bağlı müəyyən məqamların anlaşılmasına kömək etmişdir.

Yuxarıda qeyd olunan səhnə sadəcə Uilyam Napier tərəfindən deyil, eyni zamanda onun həmvətəni Riçard Kaunter (Richard Caunter) tərəfindən 1832-ci ildə "Attila" adlı nəzm formasında yazılan faciəsində də əks olunmuşdur: "kral çadırının mərkəzində taxtadan düzəldilmiş tac kobud çadırla örtülüb. Orada oturan Attilanın əynində qaba formada hazırlanmış barbar paltarı vardır. Onun ətrafında isə daş-qaş ilə bəzədilmiş paltarlar geyinmiş əyanlar var idi" (7, 68)

Uilyam Napierin trilogiyasında yuxarıda qeyd edilən hadisə ilə yanaşı Attilaya qarşı Bizans tərəfindən təşkil qəsdin üstünün açılması, Attilanın oğlu Ernaka qarşı olan xüsusi şəfqəti də Priskin əsərindən istifadə edilməklə oxucunun diqqətinə çatdırılmışdır. Priskin qeydlərinə əsasən Ernakın Attilanın sevgili oğlu olması ilə bağlı aşağıdakı məlumata fikir verək: "Attilanın üç oğlu var idi. Böyük oğlu Ellak onun ölümündən sonra kral elan edilmişdi. Bu məsələdə Attilanın ən sadiq silahdaşlarından olan Onegesus ona böyük dəstək olmuşdur. Onun digər oğlanları isə Dengiz və Ernak idi. Priskin də Attila ilə görüşündən sonra yazdığı qeydlərində göstərdiyi kimi sonuncu Attilanın ən sevimli oğlu olmuşdur" (4,143).

Bir məqamı da xüsusi vurğulamaq lazımdır ki, Uilyam Napierin digər həmvətəni olan dramaturg Robert Lourens Binyonun (Robert Laurence Binyon, 1869-1943) da 1907-ci ildə yazdığı "Attila" pyesində də Priskin Attilanın öz kiçik oğlu Hernaka (bu əsərdə onun adı Hernak olaraq qeyd edilmişdir-N.A) olan sevgisini daha geniş müstəvidə almış və bu məqam əsərin sujet xəttinin böyük hissəsini təşkil edir. Əsərdə müəllif Attilanın dilindən oğlanları ilə bağlı fikirlərini belə izhar edir: "Mənim böyük oğlum Ellak Tatar düzənliyində anadan olub. Böyük idealları var, lakin mən onun başçı olmasını istəməzdim, çünki onun yaxşı işləyən başı yoxdur. İkinci oğlum Gengiz isə həmişə başı aşağı gəzir və tale ona lider seçimi verməyəcəkdir. Mənim Hernakım! Cəsarətli, sevimli, iradəli insan. Mən həmişə ona dua edirəm" (8, 44, 45).

Eyni zamanda o da nəzərə çatdırılmalıdır ki, Uilyam Napierdən fərqli olaraq Riçard Kaunter və Lourens Binyon Priskin yazdığı qeydlərdən yararlanmaqla yanaşı tarixi faktları təhrif etmələri ilə də diqqəti cəlb edirlər.

Paniyalı Priskin "Bizans tarixi" əsərindəki məlumatlardan ingilis müəliflər olan Uilyam Napier, Lourens Binyon, Riçard Kaunter, Ross Laidlou istifadə etsələr də onların həmvətəni məşhur ədib Con Ronald Ruel Tolkin (John Ronald Ruel Tolkien, 1892-1973) ölümündən 36 il sonra işıq üzü görən "Sigurd və Gudrunun əfsanəsi" (the legend of Sigurd and Gudrun) adlı əsərini tamamilə "Poetik Edda" əfsanəsinin təsiri altında qələmə almışdır. Roos Laidlou 2004-cü ildə nəşr etdirdiyi "Attila-Tanrının bəlası" adlı romanında Priskin qeydləri ilə yanaşı öz əlavələrinin də olmasını qeyd edərək ön sözdə yazırdı: "Attila və Aetus ilə bağlı hadisələr elə qeyri-adidirlər ki, onları dəyişdirməyə ehtiyac yoxdur. Mən sadəcə bəzi əlavələr və

dəyişikliklər etmişəm. Məsələn, Konstantiusu Attilaya qarşı hazırlanan sui-qəsdin əsas silahı kimi göstərmişəm." (9, 413).

Hun mövzusunda yazan amerikan yazıçılar da Priskin adı çəkilən əsərindən geniş istifadə etmişlər. 1973-cü ildə "Attilanın ölümü" adlı romanı ilə bu mövzuya müraciət edən nasirlər arasını adını yazdıran Cecelia Holland (1943) əsərində bir qrup hun əsgərinin Bledanın (Attilanın qardaşı-N.A) dul arvadı tərəfindən idarə edilən bir kənddə gecələməsi haqqında məlumat verir. Həmin faktın Priskin qeydlərində əks olunmasına fikir verək: "bizim qaldığımız kəndi idarə edən xanım-o, vaxtilə Bledanın zövcəsi olub-bizə hədiyyələr göndərdi" (9).

Amerikan yazıçılarından məşhur Pulitzer mükafatı laureatı amerikan Uilyam Dietrik (William Dietrich, 1951) də özünün 2005-ci ildə qələmə aldığı "Tanrının bəlası" adlı romanında Paniyali Priskin Attilanın sarayına səyahəti vaxtı yazdığı məlumatlarda adını qeyd etdiyi mavr təlxək Zerkonu əsərin qəhrəmanları arasında daxil etməsidir. Mavritaniya Afrikanın şimal qərbində ölkədir, mavr (yunan dilində "mauros"-tünd, qara mənasını verir) isə qədim və Orta əsrlər dövründə bir sıra müxtəlif tayfalara verilən şərt ad idi. Onu da vurğulamaq yerinə düşər ki, Lourens Binyon da özünün "Attila" pyesində mavr təlxək Zerkonu əsərinin əsas qəhrəmanlarından bir olaraq oxucuya təqdim edir. Priskin qeydlərində hadisə belə cərəyan edir: "....Zerko içəri girdi. Zerko Attila tərəfindən Aetusa (Roma sərkərdəsi. Bir müddət Attila ilə müttəfiq olsa da sonradan Katalaun müharibəsində əks tərəflərdə bir-birlərinə qarşı vuruşurlar-N.A) hədiyyə olaraq göndərilmişdir. O, hun düşərgəsində qalan həyat yoldaşına qovuşmaq üçün geri qayıtmışdı. Attila isə onun geri qayıtmasından yaman əsəbiləşmişdi. Qonaqlıq vaxtı Zerko hər kəsi gülüşlərə qərq etdi. Lakin Attila oğlu Ernakın içəri daxil olması vaxtı gülümsəməsinədən başqa üz cizgilərini hərəkət belə etdirmədi." (9).

Yuxarıda göstərdiyimiz hadisə Uilyam Napierin trilogiyasında da eyni ilə qeyd edilmişdir.

Beləliklə, sadaladığımız məqamlardan agah olur ki, ingilis-amerikan nasir və dramaturgları oxucularına hadisələri daha obyektiv nəzər nöqtəsindən təqdim etmək məqsədilə əsasən iki qaynaqdan – Paniyalı Priskin "Bizans tarixi" əsərindən və alman, skandinav və macar xalqlarının əfsanələrindən istifadə etmişlər. Eyni zamanda Priskin qeydlərindən istifadə edən müəlliflər də fərqli məqamlara və faktlara diqqəti yönəlmişlər. Uilyam Napierin trilogiyasının həcminin və hadisələrin izahatının geniş olması və müəllifin Paniyalı Priski əsərin əsas qəhrəmanlardan biri olaraq göstərməsi səbəbindən "Bizans tarixi"ndə yer alan hadisələrin ən çox bu əsərdə əks olunması normal qəbul edilə bilər. Xüsusi ilə qeyd olunmalıdır ki, adı çəkilən müəllif əsərində hunlara qarşı qərəzli mövqedən çıxış etmir və o cümlədən Paniyalı Prisk də hadisələrə müsbət prizmadan yanaşan qəhrəman kimi oxucuya çatdırılır.

Paniyalı Priskin adını çəkdiyimiz əsərin müəyyən qisminin günümüzə qədər gəlib çatması tarixilik nöqteyi nəzərdən mühüm əhəmiyyət kəsb etdiyi kimi, bu mövzuda yazılan əsərlərin müxtəlifliyi, tarixi reallıqları əks etdirməsi və hun türklərinə qarşı V-VI əsrlərdə yazılan bəzi qaynaqlardakı mənfi münasibətlərə qarşı əks arqument kimi istifadə olunması baxımından da qiymətli əsərdir.

Ədəbiyyat

1. www.wikipedia.org.\huns
2. http://en.wikipedia.org/wiki/Priscus
3. Attilanı necə gördüm. Paniyalı Prisk (tərcümə edən Əlisa Nicat). "Avropa" Nəşriyyatı. Bakı-2009
4. Attila. King of the Huns. The man and the myth. Patrick Howarth. John Kallman Publishers. 1997
5. http://en.wikipedia.org/wiki/Slave_of_the_Huns
6. William Napier. Attila-Judgement. London. Orion Publishing house. 2008
7. Richard Caunter. Attila and other poems. London.2010. World public library
8. Laurence Binyon.Attila-a tragedy in four acts. London 2010. World public library
9. Attila –the scourge of the god. Ross Laidlow. Polygon 2004
10. http://www9.georgetown.edu/faculty/jod/texts/priscus.html

Natiq Adilov

The "History of Byzantium" by Priscus as the main source of literary works about the Huns in Anglo-American literature.

Summary

Different writers and playwrights chose different sources to write proses and plays about the Huns and Attila in anglo-american literature. Here includes different legends and different historic books written by Roman and Byzantine historians. "The History of Byzantium" by Priscus of Panium is considered the best one among these sources. In this article information is given about the authors who used this book in their works.

Натик Адилов

Книга Приска из Пании "Византийская История" как основной источник произведений на тему Гуннов в англо-американской литературе

Кавказский университет

Резюме

В англо-американской литературе для произведений драматургии и прозы на тему Хуна и Аттилы, разные авторы в качестве основы выбрали различные источники. Как и различные легенды, среди них большинство составляют и произведения, написанные Римско-Византийскими историками. Написанную Приском из Пании работу "История Византии" среди тех произведений считают самым полным и точным источником на тему Гуннов и Аттилы. В данной статье предоставляется краткая информация об авторе и произведениях, использующих данное произведение.

Rəyçi: Dosent Nərminə Əliyeva

NÜŞABƏ SADIXLI
BDU
nushaba49@mail.ru

İSPAN ƏDƏBİYYATININ MÖCÜZƏSİ

Açar sözləri: Lope de Veqa, İspan, dramaturq, pyes, milli.
Ключевые слова: Лопе де Вега, испанский, драматург, пьесы, национальной
Key words: Lope d'Veqa, Spanish, dramatist, play, national

«Təbiətin möcüzəsi – böyük Lope de Veqadır» bu sözlər Lopenin özü qədər böyük olan Sevantesə aiddir.

Həqiqətən də Lope de Veqa İspan ədəbiyyatında möcüzə yaratdı. Bunun səbəbini bilmək üçün ilk növbədə Lope de Veqanın ədəbiyyata gəldiyi İspan ictimai-siyasi və ədəbi mühitini nəzərdən keçirək.

XVII əsr İspan ədəbiyyatında üç ədəbi cərəyan formalaşmışdır. Bu bir qədər gecikən intibah realizmi idi ki, onu Sevantesin adı ilə bağlasalar da sonradan yaradıcılığının ilk illərində Lope de Veqa da ən gözəl əsərlərini bu cərəyanda yaratdı, ikincisi klassisizmdir. Bir neçə alim və şair tərəfinədən yaradılsa da bu ədəbi cərəyanda da Lope de Veqanın adı xüsusi hallanır, üçüncüsü isə Kalderonun başçılıq etdiyi borokko ədəbi cərəyanı idi. Bu üç ədəbi cərəyan öz kökləri ilə özündən əvvəlki əsrlərə gedib çıxırdı. Bu cərəyanlardə orta əsrlərin ənənəsi ilə eyni zamanda dövrünün müasir mədəniyyətinin gətirdiyi milli və bəşəri xüsusiyyətləri görə bilərik.

İntibah realizmi, VII əsrin I yarsında İspanyada antik ədəbiyyatın uzun əsrlərdən keçən təcrübəsi ilə İspan xalqının milli ədəbi ənənələrinin qovuşuğundan yarandı.

İkinci cərəyan olan İspan klassisizmi, antik avtoritetlərə söykənir, lakin eyni zamanda xalqın milli-mədəni özünəməxsusluğunu inkar edirdi.

Üçüncü cərəyan olan İspan borokkosu intibahın estetik dəyərlərini atmadı, lakin eyni zamanda xalqın milli ədəbi duyumunu da qoruya bilmədi. Onlar intibahın mədəni dəyərlərinə yiyələnərək, təzə klerikal (dini) ədəbiyyatı, yeni, bədbin, fərqli bir formada yaratdılar.

Hər üç cərəyan İspaniyada bir qədər fərqli, yəni Avropanın digər ölkələrindən fərqli formalaşdı Lope de Veqanın möhtəşəm istedadı klassiklərin qoyduqları reqlamentə yerləşmədi. Elə bu səbəbdən İspan ədəbiyyatında milli özünəməxsusluq qələbə çaldı və xalq poetik fikri formalaşdı.

Bir sözlə məhz Lope de Veqanın sayəsində İspaniyada dramaturgiya sənətində, milli-xalq özünəməxsusluğu ədəbiyyata gəldi. Lope de Veqanın dramatik sistemi antik təcrübəni inkar etmək deyildi, yalnız bu təcrübənin qanuniləşdirmək istəyi idi. O, əsasən intibah realizminin əsas prinsipi olan: - «Həqiqət, həqiqət və həqiqətdən başqa heç nə!»yi əsas götürürdü.

Lopenin fikrincə yalan naminə nə nəsihət vermək, nə «qanun»ların, nə də sənət qaydaları ola bilməz. Həqiqət, isə cılız, sıradan olan bir həqiqət olmamalıdır. Böyük problemləri əhatə edən böyük ümumiləşməni özündə ehtiva edən, xalqın həyatını özündə əks edən bütöv bir xalqın həqiqəti olmalıdır.

Ənənəvi klassisizim özünün əsas prinsipi kimi sənətin cəmiyyətə nəsihət vermək funksiyasını önə çəkirdi; Lope de Veqa bu prinsipə qarşı, zövq almaq məmnun

olmaq prinsipini qoyur. Onun fikrincə, əsas şairi başa düşməkdir. Bəzən belə bir sual qarşıya çıxır, bu prinsipin yaradıcıları sənəti əyləncə səviyyəsinə gətirəcək sənətkar, onun ən ali vəzifəsi olan öyrətmək, yəni həyatın müəllimi olmaqdan məhrum edirdi. Əsla yox. Çünki, ədəbiyyat məhz insana olan hüdudsuz hörmətdən onun həyatı gözəlləşdirən humanist ideyalardan bəhs edir. Sənətin nifrəti isə insan həyatını cəhənnəmə döndərən, ona ziyan vuran və onu xoşbəxt olmağa qoymayanlardır.

Belə bir şəraitdə intibahın böyük oğlu Lope de Veqa dünyaya gəldi. Və gəlişi ilə təkcə İspan ədəbiyyatını deyil bütün Avropa ədəbiyyatını gözəlləşdirdi. Demək olar ki, Lope dövrünün simasına çevrildi. Hətta dövründə hər hansı bir sənətkar öz işini reklam eləmək üçün belə bir ifadə işlədirdi: «Böyük Lope də bundan yaxşı edə bilməz». Lope o dövrün İspan xalqı üçün şeir tanrısı idi. Demək olar ki, dövrünün bir çox şairləri onun əlinin altından çıxmışdılar.

O, 25 noyabr 1562-ci ildə Madrid şəhərində doğulmuşdur. Atası asturiyalı kəndli ailəsindən çıxmışdır. İmkanlı adam idi. Madrid şəhərində qızıl tikmə müəssisəsi var idi. O oğluna alınma zadəgan titulu ilə yanaşı, dövrünün ən mükəmməl təhsilini vermişdi. Madrid Universitetində təhsil alan Lope de Veqa həm də, Kral Akademiyasının riyaziyyat bölümünün mühazirələrinin də dinləyicisi olur. Erkən yaşlayından yazmağa başlayır. Özünün etirafına görə ilk dəfə on bir yaşında yazır. Xarici dil mənimsəmə sayəsində də böyük uğurları və həvəsi var idi. İntellektual əməyi nəzərə almasaq onun həyatı demək olar ki, eyni zümrədən olan müasirlərinin həyatından heç nə ilə fərqlənmirdi.

Artıq cəmiyyətdə tanınan böyük istedad və nüfuz sahibi olan şair Hersoq Alba, Hersoq Sessa, Markiz Malpik və b. kimi İspanyanın tanınmış zadəganlarının yanında katib işləyirdi. Dramaturq bir vətəndaş olaraq 1688-ci ildə İspan hərbi flotu olan «Məğlub edilməz Armadanın» ingiltərə sahillərinə səfərində iştirak etmişdir. Səfərin təsiri altında Ariostanı təqlid edən «Anjilikanın gözəlliyi» adlı poema yazır. Əsərdə intibah ədəbiyyatına məxsus olan insan gözəlliyinin vəsfini görmək olar.

Əsərlərindən göründüyü kimi, Lope de Veqanın çox qayğısız, sərgüzəştlərlə dolu bir həyatı var idi. Varlı bir məşuquna görə ona xəyanət edən, məşuqəsi aktrisa Yelena Osoraya kobud eriqramlar yazdığı üçün məhkəmə tərəfindən səkkiz il müddətinə Madrid şəhərindən sürgün olundu. Lakin bu onun ruhunu öldürmədi hətta sürgündə olduğu zaman belə Lope de Veqa böyük həvəslə bütün janrlarda – komediya, poema, sonet yazıb yaradırdı. Onun əsərləri sərbəstliyi, şənliyi, ən əsası isə həyata və onun nemətlərinə sevgi ilə dolu olması ilə fərqlənirdi.

Lakin zaman keçdikcə onun da yaradıcılığında dini, xüsusilə də o dünya haqqında fikirlər yaranır. Əsərlərinə görə o, din xadimləri tərəfindən daim nəzarətdə saxlanılırdı. Elə ki, dramaturq dünyavi hisslərdən danışırdı, kilsə onu cəzalandırmaq haqqında, düşünürdü, elə ki, o, biri dünya barəsində söhbət açırdı, kilsə ona qarşı gedirdi və «azmış qoyunu» yuvasına qaytarmağa çalışırdı.

1609-cu ildə ispan katolik kilsəsi ona etimad göstərir və ona «müqəddəs inkivizisiyaya yaxın olan» və sonralar isə «müqəddəs dini xadim» rütbələri verir. Elə bu da bir müddət onun yaradıcılığında meydana gələn matəm nəğmələri və əsərlərində mistik məqamların yaranmasına səbəb oldu. Bəzi tənqidçilərin fikrincə bu münasibət həm də əsrin təsiri altında yaranırdı. Lakin qeyd etmək lazımdır ki, mürtəce ədəbiyyat bütövlükdə şairi öz ağuşuna ala bilmədi. Hətta qocaldığı zaman

belə zarafat edir, şadlanır, həyatın gözəl olduğundan bəhs edirdi. Onu İspan milli teatrının banisi adlandırmaq olar. O tez bir zamanda klassisizmin ciddi qanunları ilə yazılan pyeslərin xalq tərəfindən bir o qədər də rəğbətlə qarşılanmadığını görür, xüsusilə tamaşaçılar tərəfindən qəhrəmanların təmtəraqlı ifadələri, əsərdə yaradılan şəhvət dolu səhnələr çox təsirsiz və soyuq qarşılandığının şahidi olurdu. Lope de Veqa əslində tamaşaçıya xoşa gəlməyə çalışırdı, o sadə xalq üçün yazırdı və bu təbəqənin ona verdiyi qiymət şair üçün çox önəmli idi. O ki, qaldı alim-nadanlara «qoy onlar teatra gəlməsinlər, onları buna heç kim məcbur etmir» - deyirdi. Lope de Veqa bir dəfəlik antik ədəbiyyatı təqlid etməkdən imtina edir. Onun üçün bu ədəbiyyatdan gələn süni zaman, hərəkət vəhdəti yoxdur, bir sözlə o özünün təbirincə desək «nadanlıqdan» imtina edir.

Lope de Veqa yaradıcılığının ən maraqlı məqamlarından biri klassiklərin tələb etdiyi faciə əsərlərində hadisələrin faciə ilə, komediya tamaşalarında isə, əsərin komik bitməsinin əleyhinə çıxması idi. Böyük dramaturq deyir ki, həyatda heç bir şey faciəvi, yaxud komik olmur. Səhnə, həyatın əks etdiricisi olmalıdır. Burada bir mənalı heç nə olmamalıdır.

Lope de Veqa düşünür ki, dramaturqu iyirmi dörd saatlıq vaxtla məhdudlaşdırmaq düzgün deyil, nəzərə alsaq ki, hələ məkan dəyişilməzliyi də üstəlik.

Dramaturq üçün ən vacib şərtlərdən biri səhnədəki intiriqalardır, yəni əsərin əsəbidir. O pyesi birləşdirir və güclü surətdə tamaşaçını səhnənin əsiri edir. Elə ilk səhnədən, pərdə açılan kimi, ilk aktyorlar səhnəyə daxil olan kimi, ilk hərəkətlər və ilk sözlər eşidilən kimi, intriqa artmalı hadisələrə bərk düyün vurmalıdır və tamaşaçını ardınca aparmalıdır. Təsadüfən birdən tamaşaçıya əsərin sonundakı hadisələr haqqında işarə versən əsərin bütün effekti itəcək. Antik klassik teatr məktəbi, tamaşaçının marağını səhnə intriqalarında deyil, (çünki artıq tamaşaçıya antik faciənin süjeti öncədən tanış idi) daha çox obrazın daxili aləminə nüfuz edərək insanın psixoloji, mənəvi sosial və siyasi həyatının problemlərinin həllinə cəhd göstərir.

Məhz Rasin və Kornelin yaradıcılığı bu istiqamətdə formalaşıb. Fransız tamaşaçı o dəqiqə nəinki faciənin süjetini bilir, hətta oradakı obrazları tanıyır, onların rolunu əzbərdən bilir, amma bir daha onların səhnə görünüşlərindən zövq almaq üçün dəfələrlə tamaşaya baxmağa gəlir.

Lope de Veqa teatrı isə - fərqli idi işıqlı, həyat həqiqətlərini özündə əks edən, tamaşaçısını həm əyləndirən, həm də düşündürəndir. Dramaturq enerjili, sağlam, qalıb insanları sevir. Elə bir əsər yoxdur ki, müəllifin orada bir, yaxud iki, rəğbət bəslədiyi obraz olmasın. Elə buna görə də onun pyeslərindəki konfliktlər namus və qəhrəmanlıq üzərində qurulur. O, yaxşı insanlardan, sevilməyə layiq olan insanlardan, pyes yazmağı xoşlayırdı. O, hər şeydən əvvəl həyata bağlı, xalqın sevdiyi, cəsur, azad xarakterli obrazları təsvir edirdi. Dramaturq görür ki, səhnədə mənfi rolu ifadə edən aktyor həyatda da tamaşaçı tərəfindən qəbul olunmur. Piştaxtaya yanaşanda bu cür rolu ifa edən aktyorlara heç nə satmırlar yolda onu görənlər üzlərini çevirib gedirlər. Elə bil bu aktyor özü çevrilib həmin obraz olur. Bu həm ldə aktyorun məharətindən danışır. Məsələn «Yeddi oğul istərəm» filmindəki Kələntər dayı obrazını ifa edən İsmayıl Osmanlı uzun müddət bu rolu ifa etdiyi üçün peşmançılıq çəkirdi. Çünki bu ifadan sonra həyatda ona iradlarını bildirən, ondan üz döndərən insanlar oldu. Eyni zamanda müsbət rolların ifaçıları ilə bağlı münasibət də eyni cürdür. Bu aktyorlara rast gələn insanlar onlarla görüşmək, əllərini sıxmaq onların

gözünün içinə baxaraq qarşılarında qeyri-adi insan gördüklərindən, canlı qəhrəmanı təsəvvür edirlər. Bu hadisə aktyor məharəti ilə yanaşı dramaturqun cəmiyyətə təsir qüvvəsindən xəbər verir.

Lope de Veqa ədəbiyatın bir çox janrlarında qələmini sınamışdır. O, sonet yazır Ariostadan tutmuş Torkvato Tassoya qədər təqlid etdiyi bir çox epik poemaların müəllifidir. Tasso ruhunda yazdığı «Yerusəlimin fəthi» poeması Vergilinin «Çoban nəğmələri»dən təsirlənərək yazdığı «Vifliem çobanları» romanın, «Dianamın macəraları», «Cəsur Qusman» adlı novellaların dövrünün iki yüzə yaxın şair və yazıçısının adını sadaladığı «Bülbül» adlı ədəbi tənqid yazının, «Müqəddəs şeirlər» adlı əsrinin ruhunda yazdığı, ruhani şeirlərin müəllifidir. Bütün bunlara baxmayaraq Lope de Veqa dövrünün ən nəhəng dramaturqu idi.

Onun dramaturji yaradıcılığında iki janr mövcud idi – komediya (məzhəkə), ayto (dini tamaşa).

Lope de Veqa üçün komediya 3 aktlı tamaşa idi. Klassik anlamda bu komediya deyildir, faciənin antipodu idi. Yəni klassik komediyada olduğu kimi burada mütləq gülməli personajların olması gülməli əhvalatlar vacib deyildi, bu cür tamaşalar özlərində həm gülməli, həm təsir edici, həm də yüksək ruh təlqin edən hissləri verməli idi. Çünki bunların hamısı həyatdan gəlirdi. Lope de Veqanın pyesləri həm – faciə, həm – qəhrəmanlıq dramı, həm də sadəcə insanların əhvalını yaxşılaşdıran komediya idi. Məhz bu cür yanaşma onu yeni dramaturgiyanın banisi etdi.

Onun dramaturgiyasının ikinci janrı auto idi. Baxmayaraq ki, dramaturq bu janra nadir hallarda müraciət edirdi, hər halda bu janrda onun yaradıcılığının müəyyən bir hissəsi idi.

Lope de Veqa komediyalarının süjetinin əhatə dairəsi geniş idi. İnsan həyatı, İspaniyanın milli tarixi, xüsusilə onun qəhrəmanlıq dövrü, dövrünün müxtəlif sosial təbəqələrdən olan insanların həyat tərzi, müxtəlif xalqların həyatından olan hadisələr təşkil edir. Bunları təsəvvür etdiyimiz zaman gözümüzün önündən hərəkət edən, danışan canlı səhnə keçir. İspaniya bir dövlət olaraq Lope de Veqa dramaturgiyasında bütün şəhərləri, əyalətləri ilə təsvir olunur. O, öz yaradıcılığında nəinki bir çox millətləri təsvir edir, eyni zamanda cəmiyyətin bütün təbəqələri onun komediyalarında əus olunur. Onun əsərlərində obrazların universallığı dramaturqun dilinin universallıbına gətirib çıxarır. Sonradan bu dil leksik mənada dünyanın ən zəngin dillərindən biri hesab edilir.

Lope de Veqa sadə və rahat yazırdı. Onun dilindən şeir musiqi kimi səslənirdi. Onun «Sevilya ulduzu», «Nə əldən qoyur, nə yardan doyur», «Rəqs müəllimi» və bir çox komediyalarında bunu görmək mümkündür.

Təbiidir ki, bu dilin sahibi sevilməyə bilməzdi. Alimlərin hesablamalarına görə o, 50 min şeir, 2989 sonet, 426 komediya, 40-dan çox «auto»nun müəllifidir.

Məhz xalqına bu xidmətin nəticəsi idi ki, 1635-ci il 27 avqustda o dünyasını dəyişdirdiyi zaman 153 ispan şairi onun ölümü ilə əlaqədar məthiyyələr yazaraq «Ölümdən sonra məskunlaşmaq» toplusunu yaratdılar. 104 italyan şairi böyük dramaturqun ölümündən kədərlənərək «Poetik dəfn» toplusunu meydana gətirdi. Və mən bu gün 2013-cü il avqustun 27-də 4 əçrdən sonra Lope de Veqanın xatirəsini yad edərək onu Azərbaycan oxucusunun yaddaşında bir qədər təzələmək istədim.

27.08.2013

Ədəbiyyat

1. Kivedo-i-Vielqas. «İstoriya jizni proydoxi po imeni don Pavlo», Kiev, 1946.
2. Pedro Kalderon. Soseneniya bip 1-3, 1900-1912.
3. Lope de Veqa. İzbrannıe dramatiçeskie proizvedeniya, t.t.I-II izd. «İskusstvo» M., 1955.
4. Miqel Saavedra Servantes. Soseneniya Qoslitzdat, M-l, 1948.
5. Miqel Saavedra Servantes. Stati i materiale, M., 1948.

Нушаба Садыхлы

Чудо Исранской литературы

Резюме

Эта статья является изучение произведений Лопе де Veqanın. Лопе де Вега создал чудо в испанской литературе. Лопе де Вега писал литературные произведения во многих жанрах.

Лопе де Вега написал простой и удобной. Лопе, де Вега был богом поэзии испаноязычных людей. Лопе де Вега автор 50000 поэзия, сонет 2989, 426, комедии, более 40 религиозных пьесы.

Nushaba Sadykhly

Miracle of spanish literature

Summary

This article is a study of the works of Lope de Vega. Lope de Vega created a miracle in Spanish literature. Lope de Vega wrote literary works in many genres.

Lope de Vega wrote a simple and convenient. Lope, he was the god of poetry, Spanish-speaking people. Lope de Vega 50000 by poetry, sonnet, 2989, 426, comedy, more than 40 religious plays.

Rəyçi: Cəlil Nağıyev
filologiya elmləri doktoru, professor

SOLMAZ DAŞDƏMİROVA
AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu
aziza.mikailova@gmail.com

XIX ƏSR CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATI

Açar sözlər: Cənubi Azərbaycan ədəbiyyatı, lirik poeziya, aşıq şeiri, cənublu şair və yazıçılarımız, Fazilxan Şeyda, Heyran xanım, Əndəlib Qaracadağı, cənubi ədəbi məktəb, .
Ключевые слова: литература Южного Азербайджана, лирическая поэзия, Фазилхан Шейда, Хейран ханум, ашугские стихотворения, поэты и писатели из Южного Азербайджана, Южная литературная школа.
Key words: literature of South Azerbaijan, writers and poets of South Azerbaijan, Fazilhan Shade, Heyran Khanum, Andalib Karacadahi, lyric poems.

Azərbaycan dilini, mədəniyyətini, milli ruhunu, nəhayət, varlığını özündə əks etdirən Cənubi Azərbaycan ədəbiyyatı hər zaman xalqımızın diqqət mərkəzində olmuşdur. Azərbaycan ədəbiyyatı tarixində cənublu şair və yazıçılarımızın özünəməxsus yeri, mövqeyi, yaradıcılıq üslubu və s. olmuşdur. XIX əsrdə və XX əsrin əvvəllərində bütövlükdə Azərbaycan ədəbiyyatında olduğu kimi, onun cənub qolunda da aşıq şeiri və lirik poeziya əsas yeri tuturdu. Nəbati, Heyran xanım, Ə.Qaracadağı və başqaları lirik şeirin gözəl nümunələrini yaratmışdır.

XIX əsr Cənubi Azərbaycan şairlərindən biri də Fazilxan Şeydadır. O, 1783-cü ildə Təbrizdə mühəndis ailəsində doğulmuşdur. Əsl adı Fətulla olmuş, Şeyda təxəllüsünü qəbul etmişdir. Təbrizdə mükəmməl ruhani təhsili alsa da, Fazil xan poeziyaya daha çox həvəs göstərmişdir. 1827-ci ildə Dəhkarxanada Rusiya və İran dövləti arasında sülh danışıqları aparıldığı zaman F.Şeyda da oraya gəlmiş, A.Bakıxanov və Qriboyedovla tanış olmuşdur. Abbas Mirzə onun fars və ərəb ədəbiyyatına dair nadir biliklərini yüksək qiymətləndirmiş, şahzadə Xosrov Mirzənin (1813-1875) müəllimi təyin etmişdir. Böyük rus yazıçısı və diplomatı Qriboyedovun 1829-cu il yanvar ayının 3-də Tehranda faciəli ölümü ilə bağlı Fətəli şahın xüsusi nümayəndəsi kimi 18 yaşlı nəvəsi Xosrov Mirzə Peterburqa I Nikolayın sarayına göndəriləndə onu müşayiət edən heyətə Fazilxan saray şairi kimi daxil edilmişdir. Səfər zamanı A.S.Puşkin təsadüfi olaraq Fazilxan Şeyda ilə görüşmüşdür. Fazilxanın Puşkinlə görüşü hər iki şairdə xoş təəssürat oyatmışdı. Puşkin 1829-cu il mayın 25-də həmin görüşlə bağlı Kobi kəndində aşağıdakı şeiri yazmışdır:

Bəh-bəh nə xeyirli gün, xoş saat,
Qafqaz dağlarında,
Tale bizi birləşdirdi bu vaxt.

İran nümayəndə heyətinin tərkibində (1829-cu il avqustun 4-dən oktyabrın 17-dək) Peterburqa gedən Fazilxan Rusiyanın qabaqcıl ictimaiyyəti və şərqşünasları ilə tanış olmağa çalışmışdır. O, şərq dilləri müəllimi kimi Rusiyada qalmaq arzusunu bildirmiş və bunu I Nikolaya təqdim etdiyi qəsidədə göstərmişdi. Bu qəsidənin tərcüməsi Peterburqda çıxan "Podsnejnik" almanaxında dərc edilmişdir. Faktlardan

məlum olur ki, Fazilxan öz görüşləri, söhbət və çıxışları ilə İranın istedadlı şairi və ədibi kimi Peterburq ictimaiyyətinin dərin rəğbətini qazanmışdır.

A.Bakıxanov F.Şeydanın dünyagörüşünə təsir etmiş, o, satira yaradıcılığına başlamışdır, məhz təxəllüsünü də həmin dövrdə götürmüşdür. Öz satiralarında dövrünün İran məmurlarını, həm də ruhaniləri tənqid etdiyinə üçün çoxlu düşmən qazanmış, ona görə də 1838-ci ildə İranı tərk edərək Tiflisə gəlmiş, ömrünün sonuna kimi burada yaşamışdır. O, 1852-ci ildə vəfat etmişdir. Şərqşünas N.V.Xanıkov 1852-ci ilin 19 mart tarixində "Kafkaz" qəzetində Fazilxan Şeydanın ölümü münasibəti ilə çap etdirdiyi məqalədə yazmışdır: "Onun şairlik məharətinin qəribə cəhəti bütün hadisələri düzgün dərk edə bilməsində idi. Ədalətsizliyə və insanların qəbahətlərinə rast gəldikdə onları öz qüvvətli şeirləri ilə açıb tökürdü. Fazilxanın şeirlərində zülmkarlar, xüsusən, mollalar, mirzələr şiddətli təqib olunurdu" (1, 15).

Təəssüf ki, şairin əsərlərinin, demək olar ki, hamısı itib-batmişdir. Yalnız iki əsəri – A.Bakıxanovun "Təbriz əhlinə xitab" satirasına nəzirəsi və rus padşahına yazdığı qəsidənin rus dilinə tərcüməsi müasir dövrümüzə gəlib çatmışdır. Qeyd etmək lazımdır ki, satira müəllifi ruhaniləri tənqid atəşinə tutsa da, dinə toxunmurdu.

XIX əsrdə Cənubi Azərbaycanda öz qoşma və gəraylıları ilə xalq içərisində böyük şöhrət qazanmış şairlərdən biri də Əndəlib Qaracadağidir. Əndəlib Qaracadağı XVIII əsrin ikinci yarısında Cənubi Azərbaycanda – Qaradağ mahalının Əhər şəhərində yoxsul bir ailədə anadan olmuşdur. Uzun illər ərzində çox çətin həyat tərzi keçirən şair İrəvan xanlığına gəlmiş, burada münşilik – katiblik etmiş, İrəvan alındıqdan sonra Rusiya dövlətinin qulluğunda işə düzəlmişdir. İrəvanın alınması haqqında aşağıdakı şeiri yazmışdır "Məni dilşikəstə, həzin əndəlib, Guhənsalü, Pirü, Əlilü qərib" (Şərq əlyazmaları bölməsi, İ.N.V, 332, Əşari əndəli Qaracadağı). Mənzumə Firdövsünün məşhur "Şahnamə"sinin vəznində yazılmışdır.

Qaracadağı Nizami Gəncəvidən sonra "Leyli və Məcnun" yazan şairlərdən biridir, məhz onun yaradıcılığında da ən qiymətli əsər "Leyli və Məcnun" poemasıdır. Qaracadağinin "Qisseyi-Leyli və Məcnun"unda müəyyən dərəcədə şairin tərcümeyi-halı əks olunmuşdur. Əsər M.Füzulinin "Leyli və Məcnun" poemasının təsiri ilə yazılmış, lakin şairin özünün də aşiqanə sərgüzəştlərinə yer verilmişdir. Poema müəllifin gənc yaşlarında bir qıza vurulmasının təsviri ilə başlanır:

Əlqissə, bəni-qəribü nalan –
Düşdüm bu bəlayə zarü heyran,
Məcnuni – həzinə nayib oldum,
Vəhşilər ilə müsahib oldum.

Qaracadağinin bədii əsərləri qoşma və gəraylı vəznində yazılmışdır. "Ay mədəd", "Sona", "Gəlin" rədifli qoşmaları M.P.Vaqif şeiriniyyatına çox yaxındır.

Söylə görüm, olum dilin qurbani,
Nədən vəfa eyləmədin iqrara?
Vaxt ikən aşığa etmədin xəbər,
Bəlkə eyləyəydi dərdə bir çara.

Xalq şeiriyyatına, üslubuna müraciət edən Qaracadağı həm də bayatı formalı (yeddi heca, *aaba* qafiyəli) şeirlər yazmışdır:

Əzizim, dərdə çara,
Vurmuşam dərdə çara.
Dil bilən təbib gərək
Eyləyə dərdə çara,
Çarəsiz xəstələrə,
Bulunuz dərdə çara.

Füzuli ədəbi məktəbinin davamçılarından, klassik Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən biri olan Heyran xanım XVIII əsrin sonlarında Dünbuli Kəngərli xanları ailəsində anadan olmuşdur. O, Naxçıvanda təhsil almış, ərəb və fars dillərini, klassik Azərbaycan və fars ədəbiyyatını öyrənmişdir. Rusiya-İran müharibəsi dövründə onun da ailəsi Naxçıvandan İrana köçürülmüşdür. O, XIX əsrin 60-cı illərində vəfat etmişdir.

Heyran xanım Azərbaycan və fars dillərində, əsasən, aşiqanə şeirlər, həm də İzzəddin Həsənoğluna, Sədi Şiraziyə, Hafizə, Nəsimiyə, Nəvaiyə, Füzuliyə və digər şairlərə nəzirələr yazmışdır. Onun şeirləri sadə xalq dilinə daha yaxındır. Əsərlərinin üç əlyazması (Bakı, Tehran və Tbilisi nüsxələri) məlumdur. Bakı nüsxəsi Azərbaycan Respublikası Əlyazmalar İnstitutunda saxlanılır.

Heyran xanımın həyatı ağır keçdiyindən həmişə yaradıcılığında zəmanədən, adamların vəfasızlığından gileylənmişdir:

Belim büküldü, qara saçlarım ağardı mənim,
Qocalmışam bu cəfakar çərx əlindən, aman.

"Təbrizdə zəlzələ haqqında" şeirində Heyran xanım yaşadığı şəhərdə baş verən təbii fəlakət nəticəsində əmələ gəlmiş faciəli hadisələrdən – xalqın kədərindən bəhs edir:

Oldu, ya rəbb, həlak insanlar,
Suvarıb torpağı qızıl qanlar.
Oldu çöllər cavanlara mədfən,
Çoxlarına nə qüls var, nə kəfən.
Sinəsinə dağlı, gözləri giryan,
Minlər ilə ana edər əfqan.

İstedadlı şairə klassik poeziyanın qəzəl, müxəmməs, müstəzad, rübai, tərcibənd janrlarında, habelə məsnəvi formasında əsərlər yaratmış, ədəbiyyatımızı zənginləşdirmişdir.

Heyran xanım 1848-ci ildə Təbrizdə vəfat etmiş və orada da dəfn olunmuşdur.

Cənubi Azərbaycanda vətənpərvər, tərəqqipərvər bir şəxsiyyət kimi yetişmiş şairlərdən biri də XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində yaşamış Səid Məşədi Xəlil oğlu Səlmasi olmuşdur. İbtidai təhsilini İranda fars dilində alsa da, ömrünün çox hissəsini Avropa ölkələrinə səyahətdə keçirtmişdir. Bu səbəbdən də fransız dilini mükəmməl öyrənmişdir. Həyatının səyahətlə bağlı mərhələsi şairin dünyagörünüşünə böyük təsir etmişdir. Vətəninə qayıtdıqdan sonra tərəqqi və mədəniyyət

yolunda çalışaraq, öz xərci hesabına Səlmasda məktəb açdırmış, "Şəfəq" adlı qəzet nəşr etdirmişdir. Beləliklə, 1905-ci il inqilabı nəticəsində Cənubi Azərbaycanda əmələ gələn azadlıq hərəkatının fəal iştirakçılarından biri olmuşdur. O, güclü təqibə məruz qalmış, məcburi olaraq Vətənini tərk etmiş, ailəsi ilə birlikdə Bakı şəhərinə gəlmişdir. Öz maarifpərvər işini burada da davam etdirmiş, həmin dövrdə Bakıda nəşr olunan "Füyuzat" jurnalında mütəmadi olaraq yeni ruhda şeirlər çap etdirmiş, həm də tərcüməçi kimi fəaliyyət göstərmişdir. Lakin vətənpərvər şair uzun müddət vətənindən, xalqından kənar qala bilmir. Bu səbəbdən də 1909-cu ildə İrana – Xoy şəhərinə mətbəə gətirmiş, yeni kitabını məhz burada çap etdirmək qərarına gəlmişdir. Təəssüf ki, irtica buna imkan verməmiş, həmin ilin fevral ayında Xoy şəhərində edam olunmuşdur.

Təəssüf ki, şairin ədəbi irsi ilə bağlı əlimizda kifayət qədər material yoxdur. Şair, publisist - "Molla Nəsrəddin", "Yeni füyuzat", "Həyat", "İrşad", "Sədayi-həqq", "Al bayraq", "Gələcək" və s. qəzet və jurnallarda müxtəlif yazılar nəşr etdirən Əliqulu Qəmküsar "Tərəqqi" qəzetində Səid Səlmasi haqqında məqalə nəşr etdirmişdir. Məqalədə müəllifin şəxsi həyatı haqqında az danışılsa da, şairin ictiumai fəaliyyətinə geniş yer verilmişdir.

Səid Səlmasi şeirlərində cəhalətdən, zülmdən, qəflət yuxusundan şikayət edən fədakar, istedadlı gənc obrazı vardır. Həmin obraz gələcəyə, azadlığa ümidini itirməmişdir. Azadlığa xidmət edənlər "zülm ağacını yıxmaq" üçün nə lazımdırsa, onu da edəcəklər. Səlmasi də müasir ictimai mübarizə və məsələlərdən bəhs edən həyati, səmimi şeir tərəfdarı olmuşdur.

Şad olur dil görüncə millətimin,
Bir böyük mərifətli əhrarın.
Qət edirlər qələmlə rişəsini,
Şəcəri-zülm olan məlainin...

Ədəbiyyat

1. Azərbaycan ədəbiyyatı tarixi (üç cilddə), II cild, Az. SSR nəşri, Bakı, 1960.
2. Əzizə Cəfərzadə. Azərbaycanın aşıq və şair qadınları. Bakı: Gənclik, 1991.
3. Персидский поэт XIX в. Фазил-хан Шайда: (К встрече Пушкина с миссией Хосров-мирзы и к русско-иранским культурным отношениям) // Средневековый Восток: История, культура, источниковедение. М., 1980. С. 226 – 230, 313 – 318

С.Дашдамирова

Литература XIX в. южного Азербайджана

Резюме

Литература южного Азербайджана отражает язык и культуру нашего народа. В истории азербайджанской литературы писатели и поэты Южного Азербайджана имеют особое место. В 19 в. в Азербайджанской литературе лирическая поэзия занимает особое место. Фазилхан Шейда жил и творил в тот период. В его стихах критикуется общественная несправедливость.

Гараджадаги является одним из тех, кто после Низами написал поэму «Лейли и Меджнун».

Хейран ханым одна из классических азербайджанских поэтов писала лирические стихи на азербайджанском языке и фарси. Рукописи произведений хранятся в Институте Рукописей Азербайджанской Республики.

S.Dashdamirova

Literature of the XIX century of south Azerbaijan

Summary

Literature of South Azerbaijan reflects the language and culture of our people. Writers and poets of South Azerbaijan has a special place. In the 19th century in Azerbaijan literature lyric poetry occupies a special place.

Fazilhan Shade lived and worked in that period. In his poetry he criticized social injustice.

Garadzhadagi is one, who wrote poem "Layla and Majnun" after Nizami.

Heyran Khanum one of the classical azerbaijany poets. She wrote lyric poems in Azeri and Persian. The manuscripts of the works are kept in the Institute of Manuscripts of the Azerbaijan Republic.

Rəyçi: Mahmizər Mehdibəyova
filologiya üzrə fəlsəfə doktoru

RƏNA ƏLİYEVA
AMEA Folklor İnstitutunun dissertantı
azfolklor@yahoo.com

TOY MƏRASİMİNİN ELEMENTLƏRİ MÖVLUD SÜLEYMANLI NƏSRİNDƏ

Açar sözlər: toy mərasimi, nəsr, Mövlud Süleymanlı, folklor
Keywords: wedding ceremonialism, proze, Movlud Suleymanli, folklore
Ключевые слова: свадебная обрядность, проза, Мовлуд Сулейманлы, фольклор

Toy mərasimində yallı oynamıq ənənəsi «Köç» romanındakı uzaq keçmişlə yanaşı, nisbətən yaxın zamanın hadisələrini əks etdirən «Ceviz qurdu» romanında, «Şanapipik» povestində və «Yaşıl obaların toyu» hekayəsində də müşahidə olunur. Ancaq sözü gedən müxtəlif zamanların yallı təqdimatları xeyli dərəcədə fərqlidir. Belə ki, «Köç» dəki toy mərasimi və yallı uzaq keçmişdə gerçəkləşdiyindən yazıçı həmin mənzərələri daha təfərrüatlı verməyi məqsədyönlü saymışdır. Bunun əksinə, yaxın keçmişin, iyirmincə yüzilliyinin ortalarının toy mərasimindəki yallının özü kimi təsvir-təqdimi də yığcamdır. «Ceviz qurdu» romanından:

«- Sən niyə ağzına su alıb dayanmısan, çalsana!

Mən zurnanı götürüb «Qol yallısı» çaldım.

Kişilər çiyin-çiyinə tutub, oynamağa başladılar. Camaat oynayıb-oynayıb sakitləşdi» (1, 228).

«Yaşıl obaların toyu» adlı etnoqrafik hekayədə isə toyda oynanılan bir neçə başqa yallının – «Qız yallısı», «Bəri-bəri» və «Köçəri» yallısının haqqında lakonik şəkildə söz açılır:

«Kimsə dedi:

-Ay Haşım, bir «Qız yallısı»!

Havanı dəyişdilər. Oğlanlar ortalığa çıxıb, hərəsi bir qız çağırdı. Sonra durub oynadılar. Altı qız, altı oğlan. Baş çəkənin əlində də nazik çubuq vardı. Kim qaydanı pozurdusa, o çubuqla əllərinə vururdu.

Sonra qızlar cərgədən çıxdılar. Oğlanlar çiyin-çiyinə tutub «Bəri-bəri» yallısını oynadılar. …Oğlanlar indi də «Köçəri» yallısını oynayırdılar» (5, 231).

Bu hekayədə adı keçən «Bəri-bəri» yallısının oynaq və ritmik zənginliyə malik olması «Şanapipik» povestindəki toy mərasimindən daha aydın görsənir. Az qala bütün kənd camaaatının qatıldığı bu yallının toy mərasimində xüsusi yer tutması, çox güman ki, buradakı oyunun həmin məqamdakı ruhu-əhvalı ilə bağlı olmuşdur:

Sədr ona aman vermədi, balaca qollarını çırmalayıb ortalığa çıxdı, çalğıçılara sarı qışqırdı:

- «Bəri-bəri» yallısı!...

Qara zurnanın səsi kəndi başına götürdü. Nağara sümükləri səksəndirirdi. Evlərdə bir adam belə qalmadı. Nişanlılarını gözləyən qızlar, oğullarını gözləyən analar:

- Şükür birliyinə, ay Tanrı, - dedilər, - çox şükür!

Yallı Aydıngilin həyətinə sığışmadı, balaca sədr böyük bir yallının başında əlini yelləyə-yelləyə oynayırdı, qapının ağzına yapışmış qızlara:

-Açın qapını! – dedi.

Yallı qapıdan çıxdı, gələn-gələn yallının qatarına düzüldü. Aydının anası sədrin havada oynayan əlinə yaylıq verdi».(2,50).

Burada bir məsələni də ayrıca qeyd etmək lazımdır. Belə ki, Mövlud Süleymanlının yuxarıda bəhs etdiyi yallıların böyük əksəriyyəti indi artıq arxaik plana çəkilmişdir. Bu yallılara müasir toyların gedişatında, demək olar ki, rast gəlinmir. Həmin mərasim oyunlarının unudulmaqda olması yazıçını narahat etdiyindən o, sözü gedən folklor örnəklərinin ümumi səciyyəsini bədii əsər hüdudları daxilində qorumağa cəhd etmişdir. Orasını da qeyd etmək lazımdır ki, milli rəqs mədəniyyəti tariximizin bərpası və öyrənilməsində bu yallı nümunələrinin özünəməxsus əhəmiyyəti ola bilər. Toy mərasimində təkcə yallılara deyil, digər qədim rəqslərə yer verilməsi də yazıçının diqqətindən yayınmamışdır. Bu sıradan elat ruhunun və atlı mədəniyyəti ovqatının dərin məzmunlu ifadəsi olan «Tərəkəmə» rəqsinin böyük rəqbət və məhəbbətlə xatırlanması və tarixin ənginlikləri fonunda mənalandırılması çox təbii görünür: «Qalxdı, qalife şalvarını dartıb kəmərini çəkdi, ayaqlarının ucunda – torpaq meydançaya qəribə izlər sala-sala oynamağa başladı. Amma elə bil bu çalınan «Tərəkəmə» havasına oynamırdı. Ay səni, doğrudan da, insanı tanımaq çətinmiş. Qarakəlləoğlunun içində öz havası çalınırmış. İçindəki havaya oynayırmış kişi. İçindəki hava da nəydi; elə oynaya-oynaya, - gedəcəm, - deyirdi. Burda da qalammaram, burdan da gedəcəm. Bu sözlər ahəngə düşüb «Tərəkəmə» havasından da yüngül bir ahənglə səslənirdi» (1,225). Oynayan adamın rəqsindəki psixoloji-mənəvi əhvalı özünəməxsus şəkildə açıqlayan bu mənalandırma süjetin həmin məqamı üçün yerində göründüyü kimi, bütövlükdə folklor təmayüllü bir qələm sahibi olaraq Mövlud Süleymanlının özünəməxsus yaradıcılıq üslubundan doğan bir keyfiyyət kimi də təbii səslənir. Bunun bir başlıca səbəbi də odur ki, Mövlud Süleymanlı müraciət etdiyi folklor motivlərini öz istedadlı yazıçı təxəyyülü ilə tamam yeni bir rakursda mənalandırmağı, tarixi-mənəvi kimlik göstəricisi olan xalq mərasimlərini dəyərləri özünəməxsus meyarlarla dəyərləndirməyi, sözün yaxşı mənasında onları ilk baxımdan o qədər də sezilməyən dərin qatlardakı ilkin məzmununa uyğun şəkildə şərh etməyi-açmağı bacarır. Çünki onun yazdıqları «daha çox Yaddaşın şəkil-şəkil tərənnümüdür, qanın, şüuraltı mənanın arxaik, milli ifadəsidir» (1,3). Çal-çağır, rəqs-oyun, yarışma keyfiyyətləri ilə bərabər toy mərasiminə bağlı qədim etnoqrafik elementlərin, arxaik adət və rəmzi atributların təsvir-təqdiminə də folklor ruhu daşıyan bir yazıçı kimi Mövlud Süleymanlı öz nəsr əsərlərində həssaslıqla diqqət yetirir. «Köç» romanında qız evi və oğlan evinin toya hazırlıqla əlaqədar xüsusi etnoqrafik atributlar nümayiş etdirməsi bu baxımdan koloritli epik lövhələr kimi xoş təsir bağışlayır: «Qızlar axışıb Çiçəyi araya aldılar, başına qırmızı kəlağay salıb alaçığa apardılar. Bəkili də oğlanlar apardı. Çiçəyin alaçığı yüz yerindən bəzədildi, ipək qotazlar asıldı, qotazlara allı-güllü durna teli düzüldü, muncuqlar salındı. Gəlinlərin biri bir dəstə durna teli götürüb Qarakəllələrə sarı getdi, özü öz əliylə Bəkilin buxara papağına durna teli sancdı:

- Qızın yengəsiyəm, - dedi.- Qoşa qarıyın, otunuz bitər, suyunuz axar olsun.

Kəhər atlar ifçin çullandı, oğlanlar qıpçaq geyindilər, ovçular oxlandı, kəməndçilər örkənləndi. Toyluq qoçlar xınalandı, qulplu qazanlar asıldı. Oğlan evi oğlan şaxı bəzədi, qız evi qız şaxı bəzədi.» (3,55-56). Buradakı «qırmızı kələğay», «xınalı toyluq qoç», «qız şaxı», «oğlan şaxı» kimi sırf rəmzi atributlarla yanaşı ge-

yim, mətbəx və toy mərasimi ilə bağlı davranış etiketlərinin təsvir-təqdimi sözün həqiqi mənasında folklor mədəniyyəti zənginliyinin əyani təcəssümüdür. Örnək gətirilən parçadakı epik təqdimatın leksik və sintaktik tərkibi özünün bütün parametrlərinə görə yazıçı dilindən daha çox ozan-aşıq təhkiyəsini xatırladır. Sanki təqdim-təsvir olunan mərasim uzaq əsrlərin arxasından gəlmiş hansısa bir ozan-aşıq tərəfindən danışılan, nəql edilən dastan mətninin parçasıdır. Doğrudur, romanda təsvir edilən hadisələr həqiqətən də uzaq bir zaman məsafəsində – Oğuz zamanında cərəyan edir. Hətta oğuz tayfasına – Qarakəllə elatına məxsus toy-düyünlərin, şadlıq mərasimlərinin çalıb-çağıranının ozanlar olduğu (romanda Dədə Qorqudu xatırladan «Ağ Ozan» obrazı da vardır) da xüsusi vurğulanır. Bununla belə, yazıçının öz ruhunda, öz təhkiyə tərzində ozanvari-aşıqvarı dil-üslub keyfiyyəti olmasa xəlqi koloriti və etnoqrafik zənginliyi bu qədər dolğun ifadə etmək mümkün ola bilməz.

Mövlud Süleymanlı toya hazırlıq prosesi və mərasimin təmtəraqlı gedişatından sonra gələn növbəti bir mərhələni – qızın ata evindən uğurlanıb yola salınması və gəlinin yeni ocaqda - bəy evində qarşılanmasını tarixi-etnoqrafik yaddaş işığında oxucuya təqdim edir: «Çiçəyi alaçıqdan çıxartdılar. Qızlar – gəlinlər bir-bir öpüşüb çəkildilər. Qarı qabağa gəldi. Əlindəkini Çiçəyə sarı uzatdı. Balaca daş odluqdu. İçində də qor varıydı, sehirli- sehirli közərirdi:

- Al, qızım – gözüm, bu, odun olsun. Bu sənnən-mənnən yeddi o yananın közüdü. Axşam külə qoy basdır, səhərə saxla, gözün üstündə olsun. Al, bu da undu, bərəkətin olsun. Birinci çörəyini bunnan bişir. Halal elə, haram qatma»(3,62). Odköz ünsürünün, eləcə də un-çörək atributunun ailə ocağına xeyir, bərəkət, xoşbəxtlik gətirəcəyinə inamın ifadəsi olan bu uğurlama etnosun minillərin daş sınağından çıxmış mental təsəvvürlərini daşıyır. Gəlin köçən qızı bədnəzərdən qorumaq, onda ailə-nəsil şəcərəsinə sədaqət-bağlılıq duyğusunu gücləndirmək məqsədi ilə təqdim olunan rəmzi atributlar da bu qəbildəndir: «Qarı əlini Çiçəyin başına qoydu, gözlərini yumdu… Çiçəyi qurumuş qollarıyla qucaqladı, qoynundan sümük muncuğu, belindən gümüş kəməri açıb Çiçəyə verdi» (3, 62). Atanın verdiyi cehizdəki at, inək və qoyun kimi xeyir-bərəkət atributları qohum-qonşuların hədiyyə-ərməğanları ilə tamamlanıq: «Hərə bir şey gətirdi, kimin qulpundan nə çıxdı, bağışladı, qulplu qazanlar, çömçələr, sapılcalar, ürşədlər, sərniclər, qaşıqlar, yorğan-döşək, kilim-xalça köçləndi; yavaş-yavaş ağ dəvənin ardınca düşdülər»(3,63). Burada ailə quruculuğu işinə hamının əlbirliyi ilə qatılması amilinin vacibliyə heç də təsadüfən diqqət önünə çəkilməmişdir. Yazıçı dünəni bu gün üçün örnək gətirir. Gəlinin bəy evində böyük təmtəraq və xoş əhvalla, çal-çağırla qarşılanması, yeni qurulan ailəyə xeyir-dua verilməsi ilə başa çatan toy mərasiminin qapanış bölümünün epik təqdimatında da folklor elementləri və xəlqi ovqat hakimdir: «Çiçəyi başının dəstəsilə Bəkilin alaçağına apardılar. Asma qotazların, durna tellərinin arasında ürəyinə isti duyğular axa-axa Çisək Bəkili gözləyirdi. Bu duyğular artıb-artıb Çiçəyi bürüdü, dizləri şirin-şirin ağrıdı. Nəfəsi oda döndü. Gözlərini yumdu ki, Bəkili görsün, görə bilmədi. Qapının ağzında səsini eşitdi.

- Çiçək!

Qara zurna haldan-hala düşə-düşə havaları dəyişirdi. Bəkil də Çiçək də artıq heç nə eşitmirdilər…

Gecədən xeyli keçənəcən toy vuruldu.

- Yaxşıdı,- dedilər, -ayağımız yurda toynan açıldı.

- Ayağı sayalı, başı dövlətli olsunlar»(3,67-68).

Mövlud Süleymanlı nəsrində toy mərasimi ilə bağlı qədim el adətlərinin, unudulmaqda olan etnoqrafik ənənələrin geniş yer alması təsadüfi deyildir. Yazıçı bunu bir mənəvi zərurət olaraq qabartmağa çalışmış və milli-mənəvi dəyərlərin bu mühüm istiqamətinin qorunması məqsədini güdmüşdür. Maraqlıdır ki, bütün ruhuyla xalq mənəviyyatına köklənmiş istedadlı yazıçının qələmindən çıxan elə bir povest və romana rast gəlmək mümkün deyildir ki, onun süjet xəttində qədim xalq mərasimlərinə bağlı epik mənzərələr yer almasın. Bu həssas mövzu ilə illər uzunu çox yaxından maraqlandığına və ardıcıl, sistemli müşahidələr apardığına, el arasından zəngin material topladığına görədir ki, o, bir çox nəsr əsərlərində «toy» sözünü və mövzusunu xüsusi olaraq sərlövhəyə çıxarmış («Şəhər toylarının səsi», «Yel Əhmədin bəyliyi», «Yallı gecəsi» «Yaşıl obaların toyu» və s.) və ən nəhayət, ssenari müəllifi olduğu məşhur filmi sırf belə bir mövzuya həsr etmək qərarına gəlmişdir. «Bəyin oğurlanması» adlanan həmin filmin böyük uğur qazanaraq çoxmilyonlu tamaşaçı auditoriyasının sevimli əsərinə çevrilməsində müəllifin yazıçı-folklorçu olması amili, şübhəsiz ki, mühüm rol oynamışdır. Bu filmin ssenarisində «Köç», «Səs», «Ceviz qurdu» romanlarının, habelə bu mövzu ilə müəyyən bağlılığı olan bir çox hekayə və povestlərin, o cümlədən də müəllifin ötən əsrin yetmişinci illərində qələmə aldığı çoxsaylı «Bulaq» radio verilişlərinin əsas zəmin olduğu aydın şəkildə görünməkdədir. Mövlud Süleymanlı nəsrində qədim xalq mərasimlərinin arxaik bir qatının – «yuğ mərasimi» nin də müəyyən cizgiləri öz bədii ifadəsini tapmışdır. Başdan-başa tarixi-etnoqrafik mədəniyyət abidəsi təsiri bağışlayan «Köç» romanında Qarakəllə tayfasının igid oğlu Amanın onlara düşmən olan Qurtan ağanın tayfası tərəfindən namərdcəsinə öldürülməsindən sonra oğuz elinin keçirdiyi bənzərsiz yas mərasimi qeyri-adi icra əlamətlərinə görə əslində qədim «yuğ» törənidir: «…ağlaşma səsi qalxdı. Səhər tezdən Amanı götürdülər. Qarakəllələrin böyüyüb yurd boyda olmuş qəbiristanlığına apardılar. Qurtan ağanın alaçıqlarından bir dəstə atlı gəlmişdi. Dilmanc da aralarında gendən-genə tamaşa eləyirdilər. Arvadlar-gəlinlər, qızlar üç-üç, dörd-dörd cənazənin qabağına çıxıb əllərini yelləyə-yelləyə avazla ağlayıb oynayırdılar. Bu elə qəribə, həm anlaşılan, həm anlaşılmayan elə bir oyun idi ki, Qurtan ağanın adamları atın üstündə qala bilmədilər, düşüb papaqlarını çıxartdılar. Dilmanc batıq səslə tez-tez deyirdi:

- Bizim xəbərimiz yoxdu, Uğur bəy, bizdən görmüyün.

Dilmancı eşidən yox idi. Cənazə gedir-gedir, dayanır, arvadlar bir yerəcə sancılır, cənazənin qabağında əllərini titrədə-titrədə, silkələnə-silkələnə oynayıb ağı deyirdilər. Amanın ölümü də addı, ağır toylar kimi hamının sümüyünə düşmüşdü, Amanın ölümünü oynayırdılar. Cənazənin qabağında ayaqlarını cütləyib, dizlərini bükə-bükə qollarını oynadan gəlinlərin, qızların əlləri vurulmuş kimi havada avazla çırpınıb-çırpınıb yanlarına düşüb can verirdi»(3,150-151). İslam öncəsi qədim türk mənəvi mədəniyyətində mühüm mərasim göstəricisi olan «yuğ» lar igid, cəsur və nakam gənclərin dəfnində icra olunan xüsusi tip bir vidalaşma aksiyası idi. Kədər əhvalı üstündə qurulan bu oyun-mərasimdə ölən adamın şəninə təsirli ağılar deyilir və ağır, hüznlü hərəkətlərlə «rəqs» edilirdi.(10,204-207) «Köç» romanında gənc və nakam oğuz igidinin – Amanın ölümü münasibəti ilə qurulan qeyri-adi yas mərasimi də öz mahiyyətinə görə «yuğ mərasimi» səciyyəsi daşıyır. Mövlüd Süleymanlının qədim xalq adət-ənənələrinə, o cümlədən də bu adət-ənənələri daşıyan mərasim-

lərə böyük ehtiram və məhəbbəti onun birbaşa bu iövzuya hekayə və etüdlər həsr etməsi ilə də nəticələnmişdir. Məsələn, yazıçının etnoqrafik məzmun daşıyan «Armud ağacının nağılı» hekayəsində süjet xətti bütövlükdə qədim bir xalq mərasimi əsasında qurulmuşdur. Hekayədə göstərilir ki, yazıçı bütün ağaclar puçurlayıb tumurcuğa dolmağa başlayanda Mahmud kişinin həyətindəki armud ağacında bir tərpəniş olur. Ağacın qurumaqda olduğundan şübhələnən dünyagörmüş Mahmud kimi əvvəlcə onun qabığını qopardıb qoxlayır, sonra dibini qazıb köklərinə nəzər yetirir: «Mahmud kişi ağacın dibini qazmışdı, əyilib ağacın kökündən tutdu, xeyli əlini çəkmədi, sonra qanrılıb bir-iki öz yaşıdı qocalara baxdı, dedi:

- Ölməyib hələ!» (2,377).

Ağacın tam qurumadığına əmin olduqdan sonra el ağsaqqalı sınanmış bir üsuldan – qış yuxusundan ayılmayan ağacı yenidən oyatmaq-diriltmək məqsədi ilə icra olunan qədim bir mərasimdən istifadə etmək qərarına gəlir. Ağacın başına yığılan qohum-qonşuların yanında Mahmud kişi armud ağacını qorxutmaq yolu ilə oyadıb onu özünə qaytarmaq istəyir. «Ağacı qorxudub ayıltma mərasimi»ni Mövlud Süleymanlı xalq adət-ənənəsinin əsil xiridarı kimi oxucuya bütün incəlikləri və mərhələləri ilə çatdırmağa çalışır:

«Mahmud kişi camaatdan aralanıb yavaşca-yavaşca evə sarı getdi, böyükdən tutmuş kiçiyə qədər, onun ardınca baxdılar.

İri bir baltayla qayıtdı. Camaatın arasına pıçıltı düşdü:

- Kəsəcək deyəsən.

Mahmud kişi ağacdan üç-dörd addım aralı əyləşdi, baltanı dizlərinin üstünə qoyub ağaca baxa-baxa itiləməyə başladı. İtiləyə-itiləyə də deyirdi:

-Kəsəcəm səni, doğrayıb oda qalayacam!» (2, 378).

Sonra onun çevrəsindəkilər – qonşular, doğmalar, yaxınlar bu mərasimə qoşulur və hərə bir yolla, bir vasitəylə aağacı qorxutmaq istəyir:

«Yığnaqda nə qədər qoca var idi, arvaddan arvad, kişidən kişi, cavanlardan ayrıldılar. Biri gedib hasarın dibindən paslı, köhnə dəmir qırıqları yığıb ağaca sarı gəldi, dəmiri qaldırıb ağaca vurmaq istədi, qocalar hay-küylə onu tutdular:

- Vurma, vurma yazıqdı!

Cavanların heç biri heç nə anlaya bilmirdi, çoxu gülürdü. Səməd yoldaşlarına sarı döndü.

-Niyə belə eliyir, əə, bunnar?

Birdən-birə Telli qarı da ayağa durdu, yanındakı qarılara üz tutub qışqırdı, hay-həşir saldı:

-Qalxın, daşdalaq eləyək bu ağacı, ay camaat, niyə durursuz, hərəniz bir daş atın, bu kökü dağılmışa!

Yenə heç kəs heç nə başa düşmədi, qızlar-gəlinlər qaldı, qarılar hərəsi əlinə bir daş götürdü, ağacın üstünə gəldilər, qarılardan biri onlara qarşı durdu:

- Vurma, vurma yazıqdı!» (2, 378).

Ən nəhayət, Mahmud kişi mərasimi kulminasiya nöqtəsinə çatdırır. Ağacı kəsməkdə «israrlı» olduğunu dönə-dönə dilə gətirən ağsaqqal onu bu işdən «çəkindirməyə çalışanların» əlindən çıxıb armudun gövdəsinə balta da vurur:

Mahmud kişi qalxıb baltanı başı üstə dolandırıb ağacın üstünə yüyürdü:

- Buraxın məni, - dedi, - doğrayacam bunu.

Qarılar, qocalar hərəsi bir yandan kişini tutdular. Mahmud kişi var gücüylə bağırırdı:

- Yox, buraxın məni, kəsib doğrayacam bunu!

Mahmud kişi xeyli çırpındı, axırda qocaların əlindən çıxdı, baltanı başı üstə tovlaya-tovlaya ağaca sarı yüyürdü, ayıl, naməd, kəsdim səni! – deyib baltanı endirdi, baltanın ağzı ağaca sancıldı. Mahmud kişi bir əli baltanın sapında döndü:

- Su gətirin, - dedi.

Gəlinlər su gətirdi, baltanın üstündən su tökdülər, Mahmud kişi baltanı çıxarıb aralandı, əyləşib gendən-genə tamaşa elədi, papağını çıxartdı.

Əlində dəmir olan qoca, dəmirləri ağacın dibinə sancdı, qarılar əllərindəki daşları ağacın dibinə yığdılar».(2, 378-379).

Beləcə mərasimin ilk mərhələsi başa çatmış olur. Mərasim iştirakçıları əsrlərin sınağından çıxmış bu tarixi təcrübənin uğurlu nəfsə verəcəyinə inam ifadə edərək ümid içində gözləmə mövqeyi tuturlar. Bunun əksinə, bir çox oxumuşlar, o cümlədən də kəndin aqronomu ağsaqqal-ağbirçəklərin bu hərəkətinə gülüb bir təbiət «başbiləni» kimi rüşxənd eləyir. Aradan bir neçə gün keçəndən sonra üzbəüz qaldıqları vəziyyət isə hər kəsi, o cümlədən da «başbilən» aqronomu heyrətdə qoyur:

İşçilər həyət qapısını açıb içəri keçdilər, armud ağacına qırmızı bağlamışdılar. Qırmızı yelənli kəlağayılar, bayraca dönüb yellənirdi. Ağacın qol-budağı yaşıl-yaşıl tumurcuqlar içindəydi. Baltanın çapığı yara yeri kimi görünürdü. Mahmud kişi yeriyib ağacın çapığına əl çəkdi, sonra hər səmtindən bir qoca gəldi. Mahmud kişiyə oxşayan qocalar idi. Ağacın dibində diz çökdülər, gülə-gülə bir qırmızı kəlağayıyla ağacın yarasını sarıdılar.

Telli qarı: «Həmişə toyda, bayramda olun», - deyib ağacın dörd yanına xalılar, xalçalar saldı. Qabaqca qocalar əyləşdilər, sonra da cavanlar. Güllü-güllü sinilərdə fəsəli gəldi, süfrəyə düzüldü». (2,380).

Epik mətnin ümumi mənzərəsindən aydın olur ki, hekayədə təsvir olunan mərasimin tərkibində mifoloji və etnoqrafik elementlər üzvi sintez halında təzahür edir. Ağac ruhunu çağırış, su ruhundan yardım istəmək, daş-dəmir kultunun xilasedici gücünə inam kimi mifoloji motivlər və mərasim icraçılarının uğurlu nəticə hasil olduqdan sonra elliklə bayramlaşması (ağacı qırmızı kəlağayılarla bəzəmək, fəsəli bişirib mərasim iştirakçılarına paylamaq, niyyət sahibinə gözaydınlığı vermək və s.) hekayənin süjet xətti boyunca mərasimi təşkil edən ünsürlər kimi məntiqi ardıcıllıqla biri-birini izləyir və tamamlayır. Elə buna görə də «Armud ağacının nağılı» hekayəsi ayrı-ayrı məqamlarına və elementlərinə görə deyil, bütöv ruhu və epik mənzərəsi etibarı ilə folklor mahiyyəti daşıyır. Göründüyü kimi, xalq mərasim ənənələrinin dərin bilicisi olan Mövlud Süleymanlının nəsr əsərlərində müşahidə edilən çoxsaylı və çoxçeşidli folklor örnəkləri iki mühüm vəzifə yerinə yetirmişdir. Belə ki, bu örnəklər bir tərəfdən həmin əsərlərin xəlqi ruhunun, folklor tutumunun güclənməsinə öz müsbət təsirini göstərmişdir. İkinci bir tərəfdən isə, yazıçı həmin mərasim nümunələri simasında unudulmuş və ya unudulmaqda olan milli-mənəvi dəyərlərin bir hissəsinin bədii əsər yaddaşının imkanları səviyyəsində qorunmasına nail ola bilmişdir.

Ədəbiyyat

1. Süleymanlı M. Üç roman. Bakı, «Azərbaycan» nəşr-tı, 2004
2. Süleymanlı M. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2006

3. Süleymanlı M. Köç. Bakı, Yazıçı, 1984
4. Süleymanlı M. Söz içində söz. Bakı, Ağrıdağ, 2006
5. Süleymanlı M. Şəhər toylarının səsi. Bakı, Gənclik, 1988
6. Zeynalova D. İ.Şıxlının yaradıcılığında mili özünüifadənin inikası. (nami. dis-sı). Bakı, 2005
7. Əliyeva X. Dədə Qorqud obraz və süjetləri bədii ədəbiyyatda (nami. dis-sı), Bakı, 2005
8. Anar. Dünya bir pəncərədir. Bakı. Gənclik, 1986
9. Vahabzadə B. «Köç» haqqında. «Ədəbiyyat və incəsənət» qəz.,10 iyul.1981
10. Seyidov M. Azərbaycan xalqının soykökü nü düşünərkən. Bakı, Yazıçı, 1989

Рена Алиева

Элементы свадебной обрядности в прозе Мовлуда Сулейманлы

Резюме

Писатель Мовлуд Сулейманлы который является экспертом ритуальных традиций народа, глубокую историю, в своих рассказах и журналистских очерках использовал фольклорные тексты в двух целях:

1) фольклорные произведения, выражали дух событий и этнографические эскизы более сильнее.

2) автор в лице этих забытых ритуалов поддерживает в памяти народа национально-нравственные ценности.

Народные ритуальные традиции более широко освещены в романе «Переселение», повестях «Мельница», «Недосол» и т.д.

Rena Aliyeva

Elements of wedding ceremonialism in Movlud Suleymanli's prose

Summary

Writer Movlud Suleymanla who is the expert of ritual traditions of the people, deep history, in the stories and journalistic sketches used folklore texts in two purposes:

1) folklore works, expressed spirit of events and ethnographic sketches is stronger.

2) the author in the person of these forgotten rituals supports national and moral values in memory of the people.

National ritual traditions more widely совещены in the novel "Resettlement", stories "Mill" etc.

Rəyçi: Afaq Ramazanova
filologiya üzrə fəlsəfə doktoru, dosent

TƏRANƏ RƏHİMLİ
filologiya üzrə fəlsəfə doktoru, dosent
E-mail: traqimli@gmail.com
UOT: 821 (479. 24)

İLYAS ƏFƏNDİYEVİN "SARIKÖYNƏKLƏ VALEHİN NAĞILI" ROMANI ÇAĞDAŞ ƏDƏBİ-NƏZƏRİ FİKİRDƏ

Açar sözlər: roman, nağıl, müasir , nəsr, təhkiyə, bədii, ədəbi tənqid, milli.
Ключевые слова: роман, сказка современный, proza, literaturno-критический мысль, критика, национальный.
Key words: novel, fairy tale contemporary, prose, litrary critical thought, criticism, national.

Görkəmli Azərbaycan nasiri və dramaturqu, xalq yazıçısı İlyas Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı" romanı nəşr edildiyi vaxtdan bu günümüzədək milli ədəbi-nəzəri fikrimizin diqqət mərkəzində olmuşdur. 1978-ci ildə "Azərbaycan" jurnalında, 1970-ci ildə isə kitab şəklində çap edilən əsər daha çox müasirliyi, qəhrəman konsepsiyası və bədii strukturu ilə çağdaş ədəbi tənqidin diqqətini cəlb etmişdir.

Ədəbi tənqid "Sarıköynəklə Valehin nağılı" romanının bədii strukturuna ciddi nəzər yetirir, əsərdə zahiri hadisə və faktların, tarixin xronikasının deyil, məhz fikir və hissin vurğulandığını müşahidə edirdi.

Əsərin mürəkkəb daxili quruluşuna diqqət yetirən ədəbi-nəzəri fikir bu romanın "yaradıcılıq axtarışları sahəsində janrda estetik-idraki imkanları genişləndirməyin, folklor stixiyası üslubunu saxlamaqla son dərəcə narahat, sarsıntılı müasir həyatımızın "nağıllarında" müxtəlif qüvvələri və taleləri göstərməyin mümkünlüyünü nümayiş etdirdi"yini vurğulayırdı. (1, c.25)

Ədəbi nəzəri fikir romanın təkplanlı təhkiyə formasında yazıldığını, bu strukturun çətinliklərinə və məhdudiyyətlərinə baxmayaraq zəngin yaradıcılıq yolu keçmiş təcrübəli müəllifin uğurlu bir sənət əsəri ərsəyə gətirdiyini xüsusi qeyd edir. Lakin əksinə, yazıçı təkplanlı təhkiyədən uzaqlaşdıqda bunun əsərin təbii ahənginə xələl gətirdiyi vurğulanırdı.

K.Talıbzadə bu baxımdan romanda "Müəllifin qeydləri", "Muradzadənin müəllifə dedikləri", "Polkovnik Həsən Bəhmənlinin Muradzadəyə dedikləri" kimi fəsillərə ehtiyac olmadığını, bu hissələrin təsvirin lirik-emosional təsirini zəiflətdiyini qeyd edir.

Tənqid əsərin ilk baxışda iki gəncin sevgi nağılına bənzədiyini, lakin əslində müasir gəncliyin taleyinin daha mürəkkəb ictimai-mənəvi proseslərlə bağlı bədii tədqiq obyektinə çevrildiyini nəzərə çatdırırdı. On beş nağıldan ibarət "Sarıköynəklə Valehin nağılı" romanının mövzu, qəhrəman və ideya-məzmun, bədii forma və təhkiyə üslubunda dastanla tipoloji yaxınlığı təhlil mərkəzinə çəkilir, əsərin "Valeh və Zərnigar", dastanı ilə tipoloji müqayisədə təhlili maraq doğururdu.

Burada yazıçının dastan deyim tərzinə müraciəti, romandakı "nağılların" əlaqələndirilməsində "nağıl", "dastan" təhkiyə üsulundan istifadə etməsi ədəbi-nəzəri fikrin diqqətindən yayınmır. Əsərin aparıcı qəhrəmanı Valehin hadisələri roman

təhkiyəsində deyil, dastan təhkiyə üslubunda danışması, bu üslubun romanla şəxsiyyətin ön plana çəkilməsinə, lirik-psixoloji məqamların daha qabarıq təqdim edilməsinə, aparıcı qəhrəmanların öz taleləri ilə bağlı əhvalatlarda yaxından iştirak etmələrinə geniş imkanlar yaratdığı aşkara çıxarılırdı.

Ədəbiyyatşünas Himalay Qasımov romanda nağıl-dastan üslubunun belə möhkəm lirik-epik sintezini müşahidə edərək yazırdı:

"Müasir həyatın çətin yollarından keçən, ömür karvanlarına xeyirin və şərin ölüm-dirim çarpışmalarını qoşan bu işıqlı qəhrəmanlar qara qüvvələrlə qeyri-bərabər döyüşdə nağıl-dastan igidliyi, dözüm və həyat eşqi nümayiş etdirərək qalın zülməti yarıb çıxa bilirlər. Əsərin başlıca ideyalarından biri budur ki, nağıl tarixi qəhrəmanlıq keçmişimiizin yaşarlı yaddaşı kimi bugünkü həyatımızdan heç də uzaqda deyil. İnsanların mifoloji-nağıl şüurunun yaratdığı xeyir və şər qüvvələr indiki həyatımızda da vardır." (1, s. 26-27)

İlyas Əfəndiyevin nəsr yaradıcılığı üçün səciyyəvi olan əsas xüsusiyyətlərdən biri kimi xarakterlərin psixologiyası ilə cəmiyyətin inkişafı arasındakı əlaqəni duya bilmək məharəti, qəhrəmanların daxili aləmində baş verən dəyişiklikləri həssaslıqla, psixoloji vasitələrlə, bədiiliyin qüdrəti ilə canlandırmaq bacarığı bu romanda başlıca sənətkarlıq məziyyətlərindən biri kimi müşahidə edilir.

Romanın bədii qəhrəman kohsepsiyasını dəyərləndirən ədəbi tənqid materiallarında yazıçının xarakter yaratmaq ustalığı dönə-dönə vurğulanır, Valeh, Sarəköynək, Yusifov, Muradzadə, Rövşən, Musa, Məcidov, Baləmi və s. obrazların uğurlu alınması yazıçının müxtəlif dünyagörüşlü, ayrı-ayrı mühitlərin yetirməsi olan xarakterləri fərdiləşdirmək qabiliyyəti ilə əlaqələndirilir.

Bəkir Nəbiyev bu münasibətlə "Sarıköynəklə Valehin nağılı" romanı haqqında tədqiqatında yazır: "Romanın qəhrəmanları çox ciddi maneələrlə rastlaşır: bəzən az qala ayaqları yerdən üzülür, lakin böyük iradə, dözüm, dəyanət və ləyaqət nümayiş etdirir, təmsil etdikləri haqqın, ədalətin, işıqlı başlanğıcın təntənəsinə nail olurlar. Ədibin əsil hünəri surətlərin taleyində nümayiş etdirə bildiyi fərdiləşdirmə ustalığındadır." (2, c.94.)

Bəkir Nəbiyev əsərdə bu fərdiləşmənin öz cazibəsi, rahiyəsi, ürəyə yatımlılığı ilə seçilən, təxminən eyni yaşda olub eyni amala, məsləkə xidmət edən, bir-birini dərin məhəbbətlə sevən Sarıköynəəklə Valeh üçün də, antipodları təmsil edən Məcidov, Yusifov, Musa kimi surətlər üçün də səciyyəvi olduğunu qeyd edir, bu obrazların hər birinin bədii xarakter kimi təzahürünün xasiyyətlərindəki güclü fərdi xüsusiyyətlərə əsaslandığını vurğulayır.

Sarıköynəklə Valeh obrazları yaşadıqları mühit, çevrələrindəki insanlarla ünsiyyət, dostluq münasibətləri kontekstində təhlil olunur, onların xarakterlərinin məhz bu baxımdan bütün incəliklərinə qədər açıldığı, dərin təsir yaratdığı vurğylanır. Qəhrəmanların mənəvi saflığının daha da güclənməsində, daxilən zənginləşməsində, eləcə də şərlə, naqisliklə gərgin mübarizələrdə möhkəmlənərək həyat təcrübəsi qazanmasında onların ətrafındakı insanların yardımçı mövqeyi ədəbi tənqidin də nəzərindən yayınmır.

Akademik Kamal Talıbzadə bu münasibətlə romanın tədqiqinə həsr etdiyi məqaləsində yazır: "Sarıköynəklə Valehin ətrafına toplaşan, onun həmişə köməyinə gələn yaxşı insanlar da vardır: rayonda, tikintidə çalışan sürücü dostları – Sərvər, Eldar, Zeynal; eyni müəssisədə vəzifə daşıyan və öz məsləhətləri, doctluğu ilə

cavanlara əl tutan Camal müəllim, "zəngin həyat təcrübəsi sayəsində həyat qanunlarının məcəlləsini yaratmış" və özü isə bilavasitə hadisələrdə iştirak etməyən, tez-tez adı çəkilən Fikrət müəllim, sovet qanunlarının keşiyində dayanan Muradzadə, qayğıkeş deputat Ceyran xala və başqaları... Buraya ata-babalarımızın, köhnə dünyanın ülvi, saf keyfiyyətlərini özlərində qoruyub saxlayan dağlar oğlu Qədirxan baba, mehriban və şirindil Güllübəyim xala da daxildir. Onlar əl-ələ verib həyatı gözəlləşdirmək yolunda çalışırlar, əməyə namuslu münasibət bəsləyir, gələcək haqqında düşünürlər." (4, s.46-47)

Burada iki bir-birini sevən gəncin təmiz, təmənnasız məhəbbəti fonunda sosial həyatın eybəcərliklərinə yazıçının tənqidi münasibəti, üz-üzə dayanan saflıq və gözəlliklə eybəcərliyin vəhdəti, həmçinin mikroaləmlə makroaləmin vəhdəti diqqət mərkəzinə çəkilir, bu vəhdətin mənəviyyatların, psixologiyaların, dünyagörüşlərin, təfəkkür tərzlərinin, ümumilikdə həyata münasibətin ziddiyyətini üzə çıxardığı aşkarlanır.

İyirminci yüzilliyin yetmişinci illərində Azərbaycan cəmiyyəti üçün səciyyəvi olan nikbin əhval-ruhiyyə, həyatsevərlik, dövlət qanunlarına sədaqət hissi, bu qanunları pozan antipodlara qarşı ciddi, prinsipial mübarizə "Sarıköynəklə Valehin nağılı" romanının əsas ideya istiqamətini təşkil edir.

Əsərin tədqiqinə həsr olunmuş ədəbiyyatşünaslıq və tənqid materiallarında da nəzəri təhlillər bu ideyaya əsaslanır, romandakı xarakterlər, ilk növbədə insanlar arasındakı rəngarəng və cazibədar münasibətlərə, dostluq, qardaşlıq və sevgiyə, "namuslu əməyin romantikasına" rəğbət və ehtiram, rəhmsizliyə, qəddarlığa, bədxahlığa, əliəyriliyə və tüfeyliliyə nifrət hissinə görə dəyərləndirilir.

İlyas Əfəndiyevin "Sarıköynəəklə Valehin nağılı" romanındakı mənfi və müsbət obrazları bütövlükdə yazıçının həyatı dürüst, təhrifsiz təqdimetmə məqsədindən qaynaqlandığı, insanı mübarizliyə, əqidə uğrunda savaşa, nəhayət böyük ideallara sədaqət hissinə səslədiyi əsər haqqında yazılmış bütün tənqidi yazılarda vurğulanır.

Ədəbiyyatşünas Bəkir Nəbiyevin qeyd etdiyi kimi, "bir tərəfdən saf, təmiz qəlbli insanlar, onların bəzən romantik vasitələrlə işıqlandırılan, ucalıqlara qaldırılan lirik-psixoloji aləmi, sarıköynəklər, valehlər dünyası, digər tərəfdən də həyatımızda hələ də özünü göstərən və saf mənəviyyatlı qəhrəmanların idealları ilə kəskin ziddiyyət təşkil edən məcidovlar, yusifovlar mühiti.

Bu iki mühitin qarşı-qarşıya durması, konflikti romanda dərindən və incəliklə, ölçü hissinə xələl gəlmədən, elə də üstalıqla təsvir olunur ki, namuslu-qeyrətli zəhmət adamlarının aləmində günəşin getdikcə daha gur, əlvan şüalar saçması nadürüstlər, el malına xor baxanlar, namussuzlar mühitində qürubun daha da qatılaşması ilə nəticələnir."(2, c.93)

Ədəbi tənqid roman müəllifinin "nağıl" müəllifindən fərqli olaraq qəhrəmanların şəxsi taleyində, tərcümeyi-halında yaxından iştirak etdiyini göstərir. Romanın tarixilik, müəllif lirikası, nağıl-dastan təhkiyə komponentləri əsasında qurulması buradakı hadisələrin tələb etdiyi ideal formanın tapılması kimi dəyərləndirilmişdir. Bu cəhətdən "Sarıköynəklə Valehin nağılı" romanı bir tərəfdən nağıl kökünə qayıtmaq, yaddaşı yaşatmaq və qəhrəmanları bu ruhda kökləndirmədirsə, digər tərəfdən uğurlu müəllif axtarışları və tapıntılarının nümayişidir." (1, s.29)

Ədəbiyyatşünas Muxtar İmanov isə əsərdə hadisələrin bir yox, bir neçə qəhrəmanın dilindən nəql olunması formasını ümumilikdə İlyas Əfəndiyevin nəsr yaradı-

cılığı üçün səciyyəvi hal hesab edir, müəllifin əsərin sərlövhəsinə çıxardığı "nağıl" sözünə aydın elmi münasibət bildirir. Tədqiqatçı burada İlyas Əfəndiyevin "nağıl" sözü altında başa düşülən bədii inikas prinsipinə sadiq qaldığını" göstərir. (3, s.77.)

Ədəbiyyatşünas-tənqidçi Kamal Talıbzadə bu əsərdə nağılvariliyin, hər şeydən əvvəl, bədii surətlərin tipində, onların təqdimində və səciyyəsində, hadisələrin mahiyyətində özünü göstərdiyini xüsusi vurğulayır. Tədqiqatçı yazır: "Realizmin epik üslubunda yazılmış əsərlərdə təsadüf etdiyimiz surətlərin daxilindəki müsbətlə mənfinin mübarizəsi bunlarda yoxdur. Sarıköynəklə Valeh də, başqa müsbət surətlər də belədirlər.

Məhəbbət və qəhrəmanlıq dastanlarımızda olduğu kimi, romanın iki gənc aşiq qəhrəmanı xeyirxah qüvvələrlə əlbir olub şərə, pisliyə, eybəcərliyə qarşı mübarizə aparır, bütün mübarizələrində qalib gəlirlər, yaxşılığın qələbəsinə inam əsərin ümumi ideya pafosuna çevrilir... "Yaxşı adam olmaq", "yaxşılıq etmək" – bu problem əsərdə müsbət qayə kimi izlənir. Qəhrəmanlar tez-tez bu məsələyə toxunur, bu barədə düşünür, fikir yürüdürlər." (4, s.49)

İlyas Əfəndiyevin lirik-romantik üslubunun özünəməxsusluğu yazıçının "Sarıköynəklə Valehin nağılı" romanının da orijinallığını təmin edən yaradıcılıq məziyyətlərindən biri kimi qeyd olunur, müəllifin digər əsərlərindəki kimi, burada da yazıçının əsas mövzusunun məhəbbət, aparıcı qəhrəmanlarının gənclər olduğuna xüsusi diqqət yetirilir.

Milli ədəbi tənqid məhz bu iki həlledici amilin romanın lirik-romantik üslubunu şərtləndirdiyini, burada saf, ülvi sevginin, sınaqlardan çıxmış məhəbbətin çox mühüm sosial problemlərin həllinə yol açdığını vurğulayır.

Beləliklə, görkəmli yazıçı İlyas Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı" romanı milli ədəbi-nəzəri fikrimizdə, tənqidimizdə çağdaş Azərbaycan bədii nəsrinin üslub rəngarəngliyini təmin etmək, onun inkişafında yararlı yaradıcılıq zəmini yaratmaq baxımından yüksək dəyərləndirilmişdir.

Bu cəhəttdən ədəbi tənqidin bu romana olan marağı səngiməmiş, müxtəlif onilliklərdə əsər haqqında yüksək nəzəri qənaətlər söylənmişdir.

İlyas Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı" romanı bu gün də nəzəri fikrin diqqət mərkəzində olub, çağdaş ədəbiyyatşünaslıq və tənqid materiallarında yer almaqdadır.

Əsərə milli ideoloji və çağdaş nəzəri fakir mövqeyindən münasibət bildirən tədqiqatlarda bu roman yeni elmi-nəzəri prinsiplərlə və müasirlik mövqeyindən araşdırılmışdır.

Ədəbiyyat

1. Qasımov H. Müasir Azərbaycan romanı (janrın poetikası və tipologiyası) Bakı, 1994.
2. Nəbiyev B. Roman və müasir qəhrəman. Bakı, Yazıçı, 1987.
3. İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm (60-70-ci illər). Bakı, Elm, 1991.
4. Talıbzadə K. Yazıçı ideyası və təhkiyə. Bax: Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1991

5. Qarayev Y. Meyar şəxsiyyətdir. Bakı, Yazıçı, 1988
6. Hüseynov A. Müxtəlifliyin birliyi. Bakı, Yazıçı, 1983.

Тарана Рагимли

Роман Ильяса Эфендиева «Сказка Сарыкёйнек и Валеха» в современной литературно-теоритической мысли

Резюме

В исследовании повествуется о романе Ильяса Эфендиева «Сказка Сарыкёйнек и Валеха» в современной Азербайджанской литературной критике. Проблем рассмотрен по материалам Азербкайджанской литературной критики и литературоведении, также романам И.Эфендиева «Сказка Сарыкёйнек и Валеха».

В сочинение особенно внимательно рассматривается ведушие образы, идея и художественная структура романа, который вызвал большой интерес в литературной критике и летуратуроведении.

В сочинении роман И.Эфендиева анализируются и оценивается как из значимых образцов посвященных национально-духовной тематике в азербайджанской прозе 70-х десятилетий.

В центре исследования находятся проблематика, жанр и типология романа, своеобразная манеря писателья, отличительный художественный подход к вопросам социоально общественной жизни Азербайджана в наших дней.

Роман вызывающий большой интерес Азербайджанской литературной критике оценена в контексте основных направлений развития критики и важных творческих склонностей того периода.

Статья имеет применительное значение на научных семинарах филологических факультетов высших школ, посвящённых вопросам спецкурсов и спецсеминаров.

Tarana Rahimli

The novel of Ilyas Efendiev “Fairy tale of Sarıkoynek and Valeh” in the thought contemporary is literary criticism

Summary

In a study it is narrated about by the hero of Ilyas Efendiev “Fairy tale of Sarıkoynek and Valeh” in the contemporary Azerbaijan literary criticism. Problems it is examined based on materials Azerbayjany literary criticism and history of literature, also to the novels of I.Efendieva “Fairy tale of Sarıkoynek and Valeh”.

In the composition especially attentively is examined the vedushie means, the idea and the artistic structure of the novel, which caused great interest in the literary criticism and literary criticism.

In the composition the novel of Ilyas Efendiev they are analyzed and it is evaluated as of the significant models of dedicated to nation- spiritual thematics at Azerbaijan prose 70th decades.

In the center of a study are located the problems, genre and typology of novel, unique maner of poetry, distinctive artistic approach to questions sociality literary criticism it is evaluated in the context of basic trends in development of criticism and important creative tendencies of that period.

Article has applicable value at the scientific seminars of the philological departments of the higher schools, dedicated to questions of special courses and special seminars

Rəyçi: Mahmud Allahmanlı
filologiya elmləri doktoru, professor

SAKİBƏ ƏLƏSGƏROVA
Filologiya üzrə fəlsəfə doktoru
UOT: 821 (479. 24)
sakibə@mail.ru

CƏNUBİ AZƏRBAYCANDA SABIRIN DAVAMÇILARI VƏ YA İNQİLABİ-DEMOKRATİK HƏRƏKATA DOĞRU

Açar sözlər: Cənubi Azərbaycan, Mirzə Ələkbər Sabir, şair, şeir, inqilabi-demokratik hərəkat
Ключевые слова: Южный Азербайджан, Мирза Алекпер Сабир, поэт, стихотворение, революционно-демократическое движение
Keywords: South Azerbaijan, Mirza Alekper Sabir, poet, poem, revolutionary- democratic movement

Vətənpərvərlik və elpərvərlik, buradan irəli gələrək millət qayğısı Azərbaycan ədəbiyyatının tarixən sıx-sıx müraciət etdiyi mövzulardan olmuşdur. Saysız-hesabsız bayatılar, «Kitabi-Dədə Qorqud» və «Koroğlu» dastanları, Nizami Gəncəvinin «İsgəndərnamə» poemasında Bərdənin tərəfinə həsr olunmuş parça, Xaqani şeirlərində Şirvan həsrətini ifadə edən sətirlər, Şakir Şirvaninin «Əhvali Şirvan» mənzuməsi, Vaqifin Kür qırağı kəndlərinin geriliyindən doğan kədərini ifadə edən «Hayıf ki, yoxdur» qoşması, Q.Zakirin tarixi şöhrəti qeyb olmuş Bərdə haqqında «Bərdə xəbərləri» və «Durnalar» şeiri, M.Hadinin («Vətənin nidası», «Təraneyi-vətənpərəstanə», «Ah kimsəsiz vətən» və s.), Ə.Hüseynzadənin, («Hali-vətən»), A.Səhhətin («Dostum Abdulla Şaiq cənablarına», «Vətən»), A.Şaiq («Vətən», «Vətənə qayıdarkən») lirikası, M.F.Axundovun «Kəmalüdövlə məktubları» əsəri, C.Məmmədquruzadənin «Vətən məhəbbəti», «Azərbaycan» felyetonları, «Anamın kitabı» komediyası, Z.Marağayinin «İbrahim bəyin səyahətnaməsi» romanı və s. onlarla bədii nümunə buna parlaq misaldır.

Vətən müxtəlif sosial təbəqələrə mənsub olan adamların məskəni olduğuna görə ona münasibət də müxtəlif, daha dəqiq desək, sinfi səciyyə daşıyır. Məsələyə aydınlıq gətirmək üçün kiçicik izahat vermək istəyirik. Məlum olduğu kimi, XX əsrin əvvəlində vətən mövzusu daha çox romantik şairlər tərəfindən işlənirdi. Lakin romantiklərlə realistlərin məsələyə münasibətində fərq var idi. 1905-ci ildə A.Şaiqə göndərdiyi mənzum məktubda romantik şair Abbas Səhhət vətənin müsibətlərindən söhbət açır, onun dərdlərinə çarə axtarırdı. Şairin dərdinə dərman axtardığı vətən bütün müsəlman dünyasından ibarətdir. Onun tənəzzülünün səbəbini isə A.Səhhət əhalinin Quran ayələrinə «müti» olmaqda görürdü. O, Bakıda başlanan mədəni tərəqqinin onun dərdlərinə şəfa verəcəyinə ümid bəsləyirdi. «Vətən» adlı başqa bir şeirdə şair konkret ünvanı naməlum olan bir vətəndən danışır. Bu vətən «əcdadımızın mədfənidir», «övladımızın məskənidir». Lakin onun nəinki hüdudları məlum deyil, şairin vətəndaşlar haqqında təsəvvürü də mücərrəddir. O, bütün müsəlman dünyasını vətən hesab etdiyi kimi, bütün müsəlmanları da qardaş sayır. Lakin o, C.Məmmədquluzadənin dediyi kimi, «camaatı cəhalət qaranlığında kar və kor görüb meydan sulayan» sultanları, şahları, müctəhid və şeyxülislamları, «xəlvət dərədə növ-növ tülkülərin bəyliyini» görmürdü.

Romantik sənətkarlardan nümunə üçün şeirlərini misal gətirib təhlil etdiyimiz Abbas Səhhətdən fərqli olaraq, tənqidi realistlər, o cümlədən M.Ə.Möcüz üçün vətən konkret məkandır. O, İran dövlətinin Şimal hissəsini təşkil edən Azərbaycandır. Şairin poetik təxəyyülünün predmetini «əhli-Azərbaycanın dərdi-hicranı» təşkil edir. Təsvir olunan vətəndaşların konkret ünvanı Güneyistan, Şəbüstər, Təbriz, Dilman, Sərab, Səlmas, Şahrud, Ərdəbil və s. Azərabycan vilayətləridir. Bu mənada M.Ə.Möcüz yaradıcılığında məkan, zaman, xalq məfhumları konkretdir. Cənubi Azərbaycan ədəbiyyatında satiraya və ümumiyyətlə, poeziyaya vətən, xalq və millət motivləri M.Ə.Möcüz yaradıcılığı ilə gəlmişdir.

M.Ə.Möcüzə görə vətən vətəndaşların şərəf və xoşbəxtlik mənbəyidir. Vətəni olmayan, yaxud istiqlalı əlindən alınan xalqın səadəti və istiqbalı haqqında danışmaq olmaz. Təbii və ictimai hüquqlarının təmin olunmasını və qorunmasını istəyənlər birinci növbədə vətənlərinin müstəqilliyi və iqtisadi dirçəlişi uğrunda mübarizə aparmalı, onun abadlığına nail olmalıdırlar.

Ey tirmə rəxti-xab içində quylanan dadaş!
Getsə vətən, vətənlə gedər istirahət.

Şair vətəni sevməyi, onun müstəqilliyi və xoşbəxtliyi yolunda can fəda etməyi hər bir vətəndaş üçün müqəddəs borc hesab edirdi. Çünki vətən onun, qoynunda doğulub böyüyən insanların məskənidir. O, hamının müştərək evidir. Hamının şərik olduğu məkanı mühafizə etmək bütün vətəndaşların vəzifəsidir. Möcüz vətən övladını bu amal ətrafında birləşməyə cağıraraq deyirdi:

Bizimdir vətən, həm sizin, dusitan!
Verək əl-ələ, edək onu busitan!
...Bizimdir vətən, həm sizin müştərək,
Vətən şəhrin abad edək biz gərək.

Lakin şairin Azərbaycan adlanan vətənində arzu və ideallarına uyğun fərəhləndirici şeylər azdır. Vətən başsız şahların və həramibaşılardan seçilməyən məmurların və ruhanilərin xəyanətləri üzündən viran olmuşdur. M.Ə.Möcüzü «növhəxanlığa» təhrik edən səbəb də növrağı pozulmuş, tarixi şöhrəti unudulmuş vətənin faciəsi və adi insani hüqüqlardan məhrum edilən xalq kütləsinin taleyidir.

Şairin vətən və xalq haqqında narahat düşüncələri əsərlərinin böyük əksəriyyətində, xüsusilə «Aşiqi-pərişan», «Gəl başım üstə», «Məmmədəli», «Kürd qardaşlarıma», «Güneyli», «İnqilab olacaq», «Yoxdur əlac söylədi cəhalətə», «Səni», «Olsun» və s. satiralarında son dərəcə konkret, açıq və qabarıq surətdə ifadə olunmuşdur. Bu şeirlərdə şair vətən və xalqın tuşlandığı müxtəlif fəlakətlərdən və müsibətlərdən danışır, onların doğurduğu faciələrə diqqət cəlb olunur. Şairə görə qayğısızlıq üzündən vətən zəlalətə düçar olmuşdur. Onun gülşənini «xəsü xaşak» basmış, gülləri saralıb solmuşdur. «Əyani-vətən»in xəyanəti üzündən o, düşmən tapdağına çevrilmiş, «dərü-divari» qana boyanmışdır. Vətən və xalqın ağır dəqiqələrində başını «balişi tazəyə» qoyan, üstünə «tirmə yorğanı» örtüb istirahət edən, lakin onun haqqında düşünüb narahat olmayanların biganəliyi bir şair vətəndaş kimi

Möcüzü qəzəbləndirir. O, vətənin dərdlərinə çarə axtarmaq məqsədilə tənəzzül və faciələrin səbəb və səbəbkarlarını tapıb göstərməyi zəruri sayır.

M.Ə.Möcüz vətənin novrağının pozulması, əhalinin səfil və sərgərdan hala salınmasının səbəbini istibdad üzərində qurulan monarxiyada, şahlıq üsul-idarəsində axtarırdı. O, belə hesab edirdi ki, despotizmə söykənən dövlət idarəçiliyi şah ailəsi və onlara yaxın olan bir ovuc iri məmurun əlində cəmlənmişdir. Hakim təbəqənin şəxsi rəyləri ölkədə qanunları əvəz edir. Belə kəsif bir siyasi muhitdə hakim dairələr özlərini tam sərbəst, xalqın canının və malının sahibi sayır, əhaliyə məxsus sərvəti sərbəst surətdə tarac edirlər. Demokratik qanunların qüvvədə olmadığı İranda dərin təbəqələşmə baş vermiş, əhali kəskin şəkildə hakimlərə və məhkumlara, varlılara və yoxsullara bölunmüşdür. Ölkənin idarəçiliyini qəsb edən bir qrup vətənin taleyinə, xalqın ağır güzəranına tam biganə münasibət bəsləyir. Bütün bunlar şairi belə qəti fikrə gətirmişdi ki, sarayla xalq arasında keçilməz uçurum və divar yaranmışdır. Bunlar məzlum kütlənin faciələrini görünməz, nalələrini eşidilməz etmişdir. Xalqın nalə və əfqanları günlərini eyş-işrətlə keçirən ölkə başçılarının qulağına çatmır. «Şah Firəngistandadır» şeirində İran siyasi kontraslarının tipik bir mənzərəsi nəqş olunmuşqdur. Bədii kontrastlar üzərində qurulan şeirdə xalq və şah bir-birinə zidd qütblərdə təsvir olunur. Şah günlərini Paris mehmanxanalarında, kef məclislərində keçirir. Onun qanı coşub, əti artdıqca millət arıqlayır. Çünki şahın əxlaqsız əməllərini təmin edən vəsait xalqın damarlarından çəkilmişdir. Məhəmmədəli şahın xalq taleyinə biganə münasibəti şairə görə onun el namusundan və qeyrətindən mərhum olmasının əlaməti idi.

Demokratik idarəçilik prinsiplərinin yoxluğu, şah və məmurların hər cür nəzarətdən kənarda qalması, İranda sərvətin qeyri-bərabər surətdə bölünməsi, daha doğrusu, hakim təbəqə tərəfindən qəsb olunması ilə nəticələnmiş, əliqabarlılardan ibarət milyonlarla xalq kütləsi aclığa, onun doğurduğu əzab-əziyyətə məhkum edilmişdir.

Sən haciyə veribsən, səd günə bar, ilahi,
Sibu gilasü alu, heyva və nar, ilahi!
Gərmək yedirdisən sən altundiş əğniyayə,
Dərvişi-binəvaya sarı xiyar, ilahi!
Varlı yeyər kəbabı, yoxsul çəkər əzabı,
Üzgörənlik edirsən, sən, aşikar, ilahi!

Şairə görə XX əsrin əvvəlində İran mühitində müşahidə edilən hadisələr bu vəziyyətdən yaranmışdır.

Cəmi səkkiz beytdən ibarət olan «Dedilər» adlanın satirik parçada mütiliyin törətdiyi istibdad və səfalətin qorxunc mənzərələri təsvir olunur. Mühacirətdən dönən şair vətəndə ürəyə fərəh gətirən işıqlı bir şey görmür. Onun vətəndaşı olduğu İranda hələ də insan azadlığını məhdudlaşdıran, şəxsiyyətini alçaldan və qula çevirən qanunlar qüvvədədir. M.Ə.Möcüz vətənin kəsif sosial-iqtisadi və mədəni durumu haqqında aydın təsəvvür yaratmaq üçün məişət detallarına müraciət edir. Onun Vətənə gəlişi «açma dəhanın», «dinmə, danışma və tərpənmə zəbanın» kimi qadağanla qarşılanır. Bu sadə əxlaq norması deyil, cəmiyyətin xaricdən gətirilən hər cür mütərəqqi fikrin qarşısında keçirdiyi vahimənin ifadəsidir. Ölkədə nəinki feodal-ruhani mühitin düşüncə tərzinə xilaf fikirlər söyləmək, hətta əbanın qolunu gey-

mək, «üz qürxmaq», «çəkmə dabanın» çəkmək küfr sayılır. İranda mühitin insanı qəbul etməsi üçün vətəndaşın onun zərərli adət-ənənəsinə, əxlaq normalarına tabe olması, boyun əyməsi lazım gəlir. Vətənə yetişən şairə anası «qoy beş-on tük çənövə, oxşat özün şiələrə», «məclisə daxil olan vəqtdə kürnüş eylə», «ver səlam, öpgilə dəstarın ağanın» kimi nəsihətlər verir. Ana bu boğucu mühitin yetirməsidir. O, uzun müddət xaricdə yaşamış və yeni fikirlərlə silahlanmış oğlunun həmvətənlərinin düşüncə tərzinə əks mövqe tutmasından və kafir elan edilməsindən qorxur:

Çün yetişdim vətənə, «Açma dəhanin» dedilər.
Dinmə, danışma, tərpətmə zəbanın dedilər.
Qoy beş-on tük çənövə, oxşat özün şiələrə,
Gədə, qırxdırma üzün, çəkmə dabanın dedilər,
Bir əba saldı anam çiynimə, geydim qolunu,
«Eybdir, burda qolun geymə əbanın» dedilər.

Şübhəsiz, bunlar M.Ə.Möcüz təsvirinin məqsədini təşkil etmir. Realist sənətkar kimi, o, zərərli məişət normalarının ictimai həyatda əmələ gətirdiyi ağır nəticələrini göstərməyə diqqət yetirir. Şairə görə müstəqil düşüncənin nəzarət altında saxlanması mütərəqqi ideyaların gəlişi qarşısında maneəyə çevrilmiş, yeniləşmə prosesinin getməməsi ölkənin iqtisadi süqutuna səbəb olmuşdur. Qılaflı mühit İran əhalisini «füqəraya» çevirmişdir. İşsizlik, xaricə mühacirət, zərərli adətlərin əsirinə çevrilmək ölkənin nəinki xroniki bəlasına çevrilmiş, hətta faciəsi olmuşdur. Burada hamı möhtacdır və hamı dilənir. Vətənin içində çabaladığı bu ictimai münasibətlər şairi narahat edib qəzəbləndirir. O, kədər və nifrət ifadə edən bir ahəngdə deyir:

Dedim: Ey vay, nə çoxdur füqərası bu yerin,
«Var Şəbüstərdə fabrikası gədanın» dedilər.

Şair vətəndaşları fikirlərinin həqiqliyinə inandırmaq üçün dəlillərə müraciət edir. O, mərkəzi hökumətin zəifləməsi üzündən hakimiyyət sevdasına düşən xanların ölkə daxilində törətdikləri təxribatlara diqqəti cəlb edir.. «Urmu tacirlərinin halinə bir eylə nəzər», «Qərədağ əhlinə bax, gör nə pərişan dolanır», «Huşiyar eyləmədi vəqeyi-Dilman səni», «Zülm əlindən qaçan övrətlərə yanmır ürəyin» misralarında vətəni çulğalamış fəlakət və təxribatların miqyası haqqında təsəvvür yaradır və bunlara biganə münasibət bəsləməyi, soyuqqanlılıqla tamaşa etməyi vətəndaşlıq normalarına sığmayan bir hal hesab edirdi.

Şair «Vətən əldən gedir»-deyib xalqa müraciət etməklə sanki haray qoparır, ona bəslənən biganəliklə barışa bilmir, qəflətə dalmışlara qarşı üsyan qaldırır. Xalqı qüvvələrini bir yerə toplayıb onun dərdlərinə çarə axtarmağa, ərazi bütövlüyünü qorumağa, milli müstəqilliyini təmin etməyə səsləyir.

İranda və Cənubi Azərbaycanda demokratik azadlıq mübarizəsi ideyasının xalqın təfəkküründə formalaşmasında M.Ə.Möcüzün böyük rolu olmuşdur. Onun yaşayıb-yaratdığı dövr xalqın azadlıq və demokratik hərəkatının gücləndiyi bir zaman kəsiyi ilə üst-üstə düşür. Cənubi Azərbaycanda Sabir ruhuna nəğmələr yazan Möcüz və tərəfdarları qəhrəmanlıq və mədəniyyət tariximizin əsil tərənnümçüləridir. Milli zülmün tüğyan etdiyi bir vaxtda Möcüz və digər yazıçı və şairlər mübarizə

meydanından çəkilməmiş, var gücləri ilə qələmə sarılaraq vətənin azadlığı və xalqın dini fanatizmdən uzaqlaşması uğrunda mübarizə aparmışlar. Səttarxanın rəhbərliyi ilə məşrutə inqilabı, Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə «Azadistan» dövlətinin yaranması Möcüzün və onun çağdaşları olan qələm sahiblərinin mənalı, təsirli, bədii cəhətdən kamil olan onlarla əsərlərində öz əksini tapmışdır.

Möcüz, İranda inqilab olacaq!
Köhnə kaşanələr xərab olacaq,
Köhnəlik qan ilə xəzab olacaq
Çünki xalq bu zəmanə maildir.

Yaradıcılığının və təfəkküründə dünyasını dəyişən Möcüz ideyaları onun davamçıları tərəfindən zaman-zaman tərənnüm olundu, xalqın mübarizəsi, kədəri, ehtiyacı, milli-azadlıq ideyalarının tərənnümü, şah istilası və imperializmə qarşı mübarizə onların əsərlərində hərtərəfli şəkildə öz əksini tapdı. M.Ə.Möcüz və M.Ə.Sabir məktəbinin ləyaqətli davamçıları Cənubi Azərbaycan ədəbiyyatında onlarcadır. 1905-1911-ci illərdə Səttarxanın rəhbərliyi ilə Məşrutə inqilabı, Xiyabaninin rəhbərliyi ilə demokratik hərəkatın yüksəliş dövrü, 1941-45-ci illərdə azadlıq mübarizəsinin 3-cü dövrü və Pişəvərinin fəaliyyəti, 1979-cu ildə İranda 2500 illik müstəbid şahlıq üsulunun darmadağın olunması uzun illər Cənubi Azərbaycan ədəbiyyatının əsas mövzusu oldu. Xalqa həqiqətdən xəbər verən gözəl ədəbi nümunələr yarandı. Bu nümunələrdə təmiz, saf insanlıq duyğuları, vətənpərvərlik hissləri, inqilabi yüksəlişlər dövrünün tərənnümü ürəkdən qopan od kimi işıq verməkdədir və uzun illər vətənimizi, dilimizi müdafiə edən dolğun nümunələrdir.

Möcüz satira məktəbinin davamçılarından olan İbrahim Zakirin ustadı kimi ömür yolu deyil, təkcə yaradıcılıq yolu 60 ildən artıq olmuşdur. Möcüz ehtiyac üzündən uzun illər qürbət həyatı keçirmiş, Zakir satirik şeirlərinə, eyni zamanda siyasi fəaliyyətinə görə sürgün olunmuşdur. O, yaratdığı bədii nümunələrin əksəriyyətində «aşiqi-sevgili»si olan vətənin hər qarışını tərənnüm edir, nəşr olunmuş kitablarına belə vətənpərvər və inqilabi ruhlu adlar verir: «Vətən nəğmələri», «Məni susdurmayacaq», «Mübariz gənclər» və s. Şair vətənsiz aləmi cəhənnəm hesab edir. Sürgün həyatında rəngi saralan, vətən fərağından yata bilməyən şair intizar çəkməkdənsə, onun qarlı dağlarında qana batmağı, qucağında can verməyi daha üstün sayır. Vaxtilə fədai başçısı olan bir şəxsin bu cür düşünməsi təbiidir.

Qüssədən əlimdə od tutub qələm,
Yandırar aləmi şərarı, vətən!
Tükənib qəlbimin qərarı, vətən!

Həm qələmi ilə, həm silahı ilə vətənə xidmət edən İbrahim Zakir qorxmaz azəri oğludur.

Mən tüfəng çiynimdə, qələm əlimdə
Hazıram firqədən verilsin fərman,
Qurtuluş, səadət sözü dilimdə,
Azadlıq yolunda olmağa qurban.

Zəhmətkeş xalqın nümayəndəsi olan Zakir hürriyyət aşiqidir, həqiqət əhlidir. Möcüz kimi behişti zahidlərə ərməğan edir, özü isə dünya evində günəşli laləzarı sevir. Əhaliyə cənnəti «rüşvət» verərək körpəsinin ağzından çörəyini alan zahidin əhli-əyalını atlas içində, biçarə camaatı küçədə üryan görən Zakir tutduğu mövqeyinə inanır. İnanır ki, bu, haqq yoludur və daima haqdan ilham alır:

Keçibdir ömr, Zakir bir də mövhumata aldanmaz,
Məramından götürməz əl, ona çox etibarım var.

Dardan, ölümdən, qaniçən şah və xanlardan qorxmayan Zakir üçün Vətən var, onun dili var, bir də azadlıq var. Tökülən qanların yerdə qalmayacağına qəlbən inanır:

Mənim vətənim var, şanlı elim var,
Nə türkəm, nə farsam, ana dilim var…
Gözüm tək sevirəm doğma Təbrizi,
Sinəsi üstündə bəsləyir bizi.
Təbrizi vermərəm yüz min Tehrana
Qurbanam vətənim Azərbaycana!

Qaniçən cəlladlar tərəfindən yuvası dağılan, gözəl təbiəti bərbad olan, özünü qərib, vətən xəstəsi hesab edən Fəxrəddin Məhzun yazırdı:

Əlimdən aldılar ana dilimi,
Zülm əliylə sındırdılar belimi
Kəsdilər dilimi, sındı qollarım,
Qələmimdən ayrı, dilimdən ayrı.

Azadlıq hərəkatı boğulduqdan sonra Təbrizdən Tehrana köçən Məhəmmədəli Fəxrəddin Məhzun özünü gülşənindən, gülündən ayıra düşmüş xəzan bülbülünə bənzədir. Qəlbən vətəninə bağlı olan, torpağını sevən şair bir inancla yaşayır: qəbirdə yatmış, soyumuş bir bədən vətəninə qovuşarsa, dirilər. Vaxtsız çöhrəsi saralan, beli bükülən, başı ağaran şairi qəriblikdə ölmək təhlükəsi qorxudur.

Fəryad edərəm ney kimi, Məhzun, qərib ölsəm,
Naləm eşidər, qəbrimin üstən keçən olsa!

Gözəl satirik şeirlər müəllifi olan Məhzun əsərlərində həyatda, məişətdə olan çatışmazlıqları gündəmə gətirir, dolayı yolla təsvirini verir, islahına çalışırdı.

Vaxtilə Möcüzün Sabirə nəzirə olaraq yazdığı «Əmoğlu» şeiri ilə tanışıq:

Beş gündü cahan, dövləti neylərsən, əmioğlu?
Elmi, hünəri, sənəti neylərsən, əmioğlu?
Möcüz danışar bal kimi, aç ağzuvu, dinlə,
Qəndi, rəbəti, şərbəti neylərsən, əmioğlu?

Neçə illər keçdikdən sonra təkrar olan həyat həqiqətləri Məhzun qələmi ilə bu və ya digər şəkildə təsvir obyektinə çevrilir. Səksən yaşa yetişmiş «əmioğlu»suna məsləhət verən şair ona həqiqəti dərk etməyi tövsiyə edir. Sinni keçmiş bir kişi qız axtarmaqdansa, öz babı olan birisi ilə evlənsə, daha uyğundur, – deyə düşünür.

Bəsdir sənə qırx yaşlı sənəm, öz babın olsun.
Ceyran kimi qara gözü neylirsən, əmioğlu!?

Şair bu arada layiqli bir xələf kimi ustadlarını da yada salır:

Bu şeirdən ustadı-büzürk! Olma dil əfkar,
Keçmişdə Vidadi də yazıb Vaqifə əşar.
Bu nəzmlə öz mehrimi qıldım sənə izhar.
Bir eşqli şair tap, əzizim! Ola qəmxar.
Eşqi az olan şairi neylirsən, əmioğlu!?

Doğma Azərbaycanını, torpağını sevən qüdrətli qələm sahibləri gah sələflərinə müraciət edərək sanki onlardan məsləhət, xeyr-dua alır, gah da daha iti qələmlə, daha şaqraq səslə öz düşündüklərini dilə gətirirdilər. «Səs salma, yatanlar ayılar, qoy hələ yatsın» misrası ilə xalqını oyanışa, azadlıq uğrunda, öz hüquqları uğrunda mübarizəyə çağıran dahi Sabirin ruhunu sakit olmağa səsləyirmiş kimi Mir Mehdi Etimad neçə illərin arxasından «Laylay demə, millət ayılıbdır, dəxi yatmaz» deyərək gördüklərini, yaşadıqlarını bəyan edir. O, doğma Azərbaycana aşiqdir, Səttarxan yurdu vətəni olduğu üçün ondan ilham alır:

Gər dürrü gövhər, Etimad, aləmləri tutsa,
O dürr yəqin Azərbaycana yetişməz.

Doğma xalqı, vətəni atəşlər içindədir. «Güllü gülüstana» yetişmək üçün fədailər mübarizə aparır. Etimad öz qələmi ilə heç də qanları tökülən fədailərdən geri qalmır:

Bir gün gələcək ədl ilə divan quracaqlar,
Divani-qəza bir belə dövrana yetişməz.
Xainlərə təyin olacaq qanlı mücazat,
Heç qan yer üzündə bu axan qana yetişməz.

Hüseyn Cavid o kəsləri dahi adlandırır ki, yer üzündə qanı, ölümü kəssin. Azərbaycan xalqının, Etimadın dili ilə desək, «bu quzu millətin» təqsiri nədir ki, «Bu milləti-biçarə fəlakətdə qalıb». Xainlərin yolunu saxlayanları oyanışa çağırır. Var-yoxu dağılan xalqın zəncirdən başqa itirəcəyi bir şey yoxdur. Şairin təbirincə, zəlalətdə qalan kəs getdiyi yolunu bilməlidir:

Səni avarə qoyan qorxulu Tehran özüdür,
Dağıdıb ölkələri, indi nədamətdə qalıb.
Neyləyib bu quzu millət sənə, təqsiri nədir
Ki, hüququndan uzaq bir belə müddətdə qalıb?

Rəşid eli, qəhrəman fədailəri olan şair inanır ki, vaxt gələcək fədailər hökmran olacaqlar. Xainlərin də bir axarı var. Etimad özünə, fikirlərinə toxtaqlıq üçün dahi Füzulini xatırlayır:

Zahid, məni aldatma, cəhənnəmdə od olmaz,
Hər kəs odunu yanmağa dünyadan aparır.
2-ci misra Etimadda aşağıdakı şəkildə verilir:
Onlar ki, yanırlar, odu burdan aparırlar.

Şair zamanın xoş gərdişinə inanır. Vətəninin dələcəyini parlaq görür:

Bir gün gələcək xalqımız insan olacaqdır,
Gülşən güləcək, gül güləcək, bağ güləcəkdir.
Torpaq güləcək, daş güləcək, dağ güləcəkdir.

Vətənləri üçün belə gözəl arzuları olan, ən ağır zəhmətə qatlaşan bu insanlar üsyankar şair kimi yetişdilər. Onların nəinki tək-tək şeirləri, bütün irsləri Azərbaycan ədəbiyyatı üçün çox qiymətlidir. Azərbaycanda şeirin, sənətin qiymətsiz olması, xalqı müdafiə edən insanların təzyiqə məruz qalması Həddad kimi sənətkarlara əzab verirdi. Həddad şeirlərində göstərir ki, xalqı müdafiə edirsən, xar olursan, kənardan baxırsan, od tutub yanırsan. Ömrü boyu dəmirçiliklə məşğul olan bu insan həyatın ən ağız zəhmətlərilə üz-üzə gəlmişdir. Ölənə qədər heç kəsə boyun əyməmiş, İran və Cənubi Azərbaycan həyatında olan bütün çatışmazlıqlara bu və ya digər şəkildə öz əsərlərində münasibətini bildirmişdir. Möcüz vaxtilə İranda istehsal müəssisələrinin olmamasından, xalqın adi bir şeydən ötrü əcnəbiyə möhtac olmasından, uzun illər xabi-qəflətdə yatan həmvətənlərinin hələ də oyana bilməməsindən çox şikayət etmişdi.

Həddad yaradıcılığına nəzər salanda həmin həyati ziddiyyətlərlə yenidən qarşılaşırsan. Aradan müəyyən zaman kəsiyi keçməsinə baxmayaraq, xalq qəflət yuxusundan ayılmayıb.

Xabi-qəflətdə yatan millət oyanmır yenə də,
Uca yerdən yıxılıb, sanki durammır yenə də.
Sapı yox, iynəsi yox, ya tikə öz şalvarını,
Gör nə biçarədir, öz halına yanmır yenə də.

Həddad mollanəsrəddinçilərin tərzində yazıb-yaradırdı. Dəmirçi Həddad gördüklərindən, yaşadıqlarından dəhşətə gəlir, aşağıdakı əsərində sanki Sabirin «Əkinçi»sini qovğaya çağırır:

Dərviş kimi hər yerdə durub mərəkə qurma,
Gahi başına, gah döşünə bixudə vurma.
Rədd ol, gözümün get qabağından belə, durma,
Ovqatımı təlx eyləmə, ey sadə dəmirçi!

Kasıbda elmi-ədəbin, varlıda insafın olmamasını görən şair məzəmmət eyləməyə də naçar qalır. Xeyir-şərini bilməyən avam kasıbın, müxtəlif yollarla cibini dolduran dindarın, eyş-işrətlə məşğul olan varlının dərdini çəkməkdən şairin dili yorulub, huşu qaçıb, hövsələsi çaşıb. Xalqdan kənar olmağı bacara bilməyən şairin əsl məramı budur:

Tamam xəlq çəkər öz qəmin, mən el qəmini,
Odur ki, öz qəmimi çəkməyə yoxumdu məcal.

Hilal Nasiri isə 1941-46-cı illərdə Cənubi Azərbaycanda demokratik hərəkat və xalq hakimiyyəti yarandığı dövrdə daha məhsuldar yazıb-yaratdığı üçün ədəbi yaradıcılığında bir növ ümid işığı, həvəs, coşqu, fədailərin qəhrəmanlığının vəsfi, Azərbaycanın qəhrəmanlıq və mədəniyyət tarixinin tərənnümü kimi hisslər, arzular üstünlük təşkil edir.

Vətəni-Möcüzə bax, gör nə gülüstan olmuş,
Kim ki, bu feyzə yetib sahibi-iman olmuş.

Möcüzün əsərlərini oxuyaraq ondan mənəvi qida alan Hilal Nasiri onun şeirlərini dürrü gövhərə bənzədir, xəzinələrlə dolu Möcüz əsərlərinin cümlə şairlər tərəfindən bəyənildiyini və ona heyran olduqlarını göstərir, hər sətrindən, hər kələmından xalqın həyatının görünməsini bəyan edirdi. O, Möcüzə müjdə verirmiş kimi vətəndə çoxlu qəzəlxan şairlərin formalaşmasından, şairlər məclisinin yaranmasından söhbət açır. Bu xoş günləri Möcüzün də görməsini istəyir:

Qəbirdən durgilən, ey Möcüz, şirin danışaq,
Görgilən dövrə necə əsr dərəxşan olmuş.

Uzun illərdir Möcüz yaradıcılığı Cənubi Azərbaycan ədibləri, yazarları tərəfindən tez-tez xatırlanır. Onun dəsti-xətti çox şairlərin əsərlərində görünməkdədir. Görkəmli sənətkarlar əsərlərində onun adını hörmətlə çəkir, onun ruhuna nəğmələr yazırlar.

Hüseyn Səhhaf Möcüzü Azərbaycanın fəxri adlandırır. Göstərir ki, onun vətən yoldaşları Möcüzün hicrindən fəqan edir, yüz minlərlə insan onun pərəstişkarıdır, dünya nə qədər var, Möcüzün adı dillər əzbəri olacaq:

Ruhun həmişə şad ola, ey Möcüzü-şirin-zəban.

Cənubi və Şimali Azərbaycanda adları hörmətlə çəkilən bir çox sənətkarlar: Mir Mehdi Çavuşi, Balaş Azəroğlu, Müzəffər Dirəfşi, Yəhya Şeyda, Əli Tudə, İsmayıl Səfərpur və s. öz yaradıcılıqlarında Möcüz dəsti-xətini davam etdirir, onu yad etməyi də unutmurlar.

Əli Tudə 1941-45-ci illər inqilabı dövründə bir çox qüdrətli sənətkarların əsərlərinin, dərs kitablarının yandırılmasına dözə bilmir, sanki həmin şəxsləri köməyə çağırır:

Bax, Möcüz alovlar içindən qalxır,
Sarı əbasına bürünən təki –

Gah şeir oxuyur, gah da ki baxır,
Qızıl bir kürsüdə görünən təki.

Biz inanırıq ki, nə vaxtsa insanlarda sağlam düşüncə formalaşacaq, xalqı bir-birindən, qardaşı bacıdan ayıranlar öz səhvlərini başa düşəcək, biz də günahsız Arazı bir daha qarğımayacağıq. Aşağıdakı el bayatısında olduğu kimi onun şəninə nəğmələr qoşacağıq.

Araz qırağı meşə,
Gətir dəsmalın döşə,
Arasına gül qoyum,
Dövrəsinə bənövşə.

Ədəbiyyat

1. Ömərova L. M.Ə.Möcüz. Bakı, 1958.
2. Ələsgərova Sakibə. Mirzə Əli Möcüz Şəbüstəri. Bakı, 2002.
3. Xəlilov F. Mirzə Əli Möcüz və kəndli həyatı. «Kənd həyatı» jurnalı. Bakı, 1982, №3.
4. Məmmədli Q. Mirzə Əli Möcüz. Müqəddimə. Bakı, 1954.
5. Məmmədov X. «Əkinçi»dən «Mola Nəsrəddin»ə qədər. Bakı, 1987.
6. Tərlan Novruzov. Sabir ədəbi məktəbi. Bakı, 1992.
7. Məmmədov K. XX əsr Azərbaycan gülüşü. Bakı, 1989.
8. Sərdariniya S. Molla Nəsrəddin və İran. «Ədəbiyyat və incəsənət» qəz., 1986, 5 dekabr.

С.Алескерова

Преемники Сабира в Южном Азербайджане или на пути к революционно-демократическому движению

Резюме

В статье исследуется творчество поэтов-преемников Мирза Алекпер Сабира в Южном Азербайджане. Мирза Али Моджуз, Али Туде, Мир Мехти Чавуши, балаш Азероглы, Музаффар Дирафши, Яхья Шейда, Исмаил Джафарпур и другие поэты Южного Азербайджана в своем поэтическом творчестве продолжают его путь, и с уважением относятся к нему и к его творчеству не забывая упоминать о нем. Эти поэты, у которых были высокие мечты и раздумья о Родине, формировались как поэты-революционеры.

Не только отдельные стихотворения этих поэтов, но и все поэтическое творчество очень ценно для истории Азербайджанской литературы.

S.Alasgarova

Sabir successors in South Azerbaijan or on the way
of a revolutionary-democratic movement
Summary

The article investigates the work of poet-successors Mirza Alekper Sabir in South Azerbaijan. Modzhuz Mirza Ali, Ali Tudeh, Mir Mehdi Chavushi, Balash Azerogli, Muzaffar Dirafshi, Yahya Sheyda, Ismail Jafarpur and other poets of South Azerbaijan in they poetry, continuing his journey, and with respect for him and in works do not forget to mention it. These poets who have high dreams and thoughts about the homeland, formed as a revolutionary poets.

Not only the individual poems of the poets, but all poetry is very valuable for the history of Azerbaijan literature.

Rəyçi: Teymur Əhmədov
filologiya elmləri doktoru, professor

FAMİL MƏDƏTOV
famil medetov@box.az

H.CAVİDİN İLK FACİƏLƏRİNDƏ AZADLIQ MOTİVLƏRİ

Açar sözlər: Qadın azadlığı, Donuz otarmaq, Şərq və Qərbin vəhdəti
Keywords: Woman illegality, Graze swine, The unity of east and west
Ключевье слова: Свобода женщина, Пасти свинья, Обединение запад и вастоκ.

H. Cavidin nəsrlə yazmış olduğu dörd pərdəli "Maral" faciəsi qadın azadlığına, varlı təbəqələrin hökmran olduğu dönəmdə qadın hüquqlarının qorunması probleminə həsr olunmuşdur. Bu elə bir zaman idi ki, həyatda hər şey, hətta mənəvi keyfiyyətlər belə pulla, altunla ölçülürdü. Dövrün tələblərini, mahiyyətini "yaxşı dərk edən" Turxan bəy həyatda yaxşı bir mövqe tutmağın, azad və firavan həyat sürməyin yolunu zəngin olmaqda görür. Belə bir fəlsəfənin sahibi ən məsuliyyətli, taleyüklü hadisə olan ailə qurmaq məsələsində də eyni fikirdədir. Oğlu Cəmilə seçdiyi qızı bu meyarlarla qiymətləndirir: "Həm gözəl, həm ana-babasının bir danəsi, həm də son dərəcə zəngin" [1, 65].

Ayıq düşüncəli, dövrünü öz mütərəqqi düşüncəsi ilə qabaqlamış Nadirin "sərvət isə, düşündüyünüz kimi, insanı çox da məsud edəməz",- fikrinə Turxan kəskinliklə etiraz edərək bildirir: "Nadir! Nadir! Heç bir hiss, heç bir qüvvət, heç bir yer yox ki, orada altun, qüvvət rol oynamasın. Əmin olunuz ki, dünyanın bütün izzətibütün səadəti ancaq para ilə əldə edilə bilər! [1, 65]. Turxanın hətta "fəzilət də paradır, insaniyyət də..."-deməsi o dövrün maddiyyata dayanan dünyasının, hər şeyin pul ilə alınıb-satıldığı bir zamanın ümumiləşmiş bir qənaətidir. Belə bir cəmiyyətdə insani hiss və duyğularının həyata keçməsi real görünmür. Maralın faciəsi onun tənha olmasında, hisslərinə cavab verəcək bir kimsənin tapılmamasında, tapılsa belə ona qovuşmağın qeyri-mümkunlüyündədir. Məhz buna görə o, "bəxtiyarlıq içində ölməyi" daha üstün tutur.

Azad sevgi o zaman reallaşır ki, ona mane olan köhnə əxlaq qaydaları, vaxtı keçmiş dəyərlər tamamilə aradan götürülsün. Necə ki, belə sədlər qırılmayıb, azad ruhlu, azad düşüncəli insanlar azlıq təşkil edir, bu cür şəraitdə nurlu, qabaqcıl fikirli gənclər olan marallar, cəmillər öz həyatlarını faciəvi şəkildə başa vuracaqlar. M. Əlioğlu əsərdə konfliktin, hər iki tərəfdən uçurumla üzləşən Maralın faciəsinin kökündə mövcud reallığın sərt qanunları dayandığı qənaətinə gəlir və bunların islah olunmasının mümkünlüyünü belə əsaslandırır: "Uçurum o zaman aradan qalxa biləcəkdir ki, romantik idealı yaşadan, rövnəqləndirən və doğruldan, büsbütün şeriyyətdən ibarət xoşbəxt bir cəmiyyətin özü yaranmış olacaqdır" [2, 73].

"Maral" faciəsində qadına, onun azadlığına, davranış və əxlaq normasına münasibətdə dramaturq orta mövqedə dayanır. İfrat dərəcədə sərbəstlik ilə köləliyi qəbul etməyən H. Cavid öz əxlaqi-estetik görüşlərini Nadir bəy obrazı vasitəsilə ifadə etmişdir. Mürtəce düşüncəli Turxan bəy oğlu Cəmilin sevgilisi Humayı heç cür qəbul edə bilmir, onu şəriətə müvafiq davranmamaqda, "üzü-gözü açıq" gəzməkdə günahlandırır. Bundan fərqli olaraq, Nadir şəriət qanunlarını qadın azadlığını məhdudlaşdırmaq vasitəsi yox, "onun nicat və səadəti üçün yapılmış bir qanun" adlandı-

rır. Nadir qadına münasibətdə Şərq və Qərb düşüncəsinin vəhdətindən çıxış edir, hər iki dəyərin yalnız məqbul tərəfini qəbul etməklə bu zərif məxluqun daha azad bir şəxsiyyət kimi özünü ifadə edəcəyinə inanır: " Lakin sağlam bir tərbiyəyə, sarsılmaz bir əxlaqa malik olan xanımların açıq gəzməsində heç bir məhzur görəmiyorum. Bununla bəabər, əcnəbilərdə olan mənasız sərbəstliyə də əsla tərəfdar deyilim. Hələ onun-bunun qoltuğunda rəqs edən, hər rast gəldiyi adamla qol-qola gəzən bir xanım, bəncə, qadınlıq namına böyük bir ləkədir" [1, 93].

Əsərdə digər cəhəti də göstərmək yerinə düşərdi. Ömrü boyu turançılıq və türkçülük ideyaları ilə yaşayan, türkün tarixi taleyinə və aqibətinə laqeyd qalmayan Cavidi müasir dövrdə onların düşdüyü acınacaqlı vəziyyət, bir çoxlarının əsarətdə, azadlıqdan məhrum olmuş bir şəkildə yaşaması çox narahat edirdi. Əsərin yazıldığı 1912-ci ildə bir sıra türk xalqları Çar Rusiyasının müstəmləkəsinə çevrilmişdi. Onların hüquqları, azadlıq diləkləri amansızcasına taptanırdı. Maralın vəziyyəti assosasia nəticəsində əsarətdə yaşayan türk xalqlarının taleyini xatırladır. Əsarəti, haqsızlığı qəbul edə bilməyən Maralın acı sonluqla bitən aqibəti ilə müstəmləkə şəraitində yaşayan türk xalqlarının, o cümlədən də Azərbaycanın vəziyyəti bir-birindən fərqlənmirdi. Çar Rusiyasının əsarətinə qarşı dönmədən vuruşan Şeyx Şamil azadlığın simvolu, carçısı kimi böyük nüfuza malik idi. Uzun illər vətənin azadlığı, istiqlalı uğrunda mübarizə aparan bir şəxsi "Maral" əsərində təsvir etmək, Dağıstan həyatını vəsf etmək həm də H. Cavidin azadlıq arzusunun, görmək istədiklərinin ifadəsi kimi maraqlıdır. Bəypoladın dağıstanlı olmasını biləndə Çingiz bəy ona xüsusi bir hörmət bəsləyir: "İştə Şeyx Şamil!.. baqınız, yalnız şu heykəli-cəladət, şu qoca qəhrəman, ilələbəd dağıstanlı adını yaşatmaq üçün kafidir! Ah, nədənsə bilməm, daima şu böyük simaya qarşı qəlbimdə dərin bir hörmət, böyük bir məhəbbət hiss edirəm" [1, 68].

Türkü sevən, onun tarixi keçmişi ilə qürur duyan və Aşıq Sultanın keçmiş türk xaqanlarına qarşı qərəzli mövqeyini tənqid edən Çingizin dilindən deyilən bu sözlər H. Cavidin mövqeyi ilə səsləşir. Çingizə görə, digər xalqlar öz qəhrəmanlarına "abidələr yapdırdığı, heykəllər tikdirdiyi" halda, bizlər onları kifayət qədər gördükləri işə görə qiymətləndirə bilmirik: " Fəqət bizlər!.. Bizlər isə Çingiz kibi cihangirlərə, Teymur kibi qəhrəmanlara xunxar, canavar deyə-ləkələmək istiyoruz!.." [1, 70].

Beləliklə, "Maral"da qadın azadlığı probleminə toxunulmuş, onun qarşısında dayanan bütün köhnə və vaxtı keçmiş dəyər normaları, düşüncə tərzləri inkar edilmişdir. Əsərdə həm də türklərin tarixi keçmişinə rəğbət bəslənilmiş, onların hünərlərinə, qəhrəmanlıqlarına həssas münasibət göstərilmişdir.

"Şeyx Sənan" faciəsində insanın dəyəri-qiyməti onun hansı dinə, millətə mənsub olmasında, nə kimi əxlaqi dəyərlərə, düşüncə sisteminə sahib olmasında deyil, onun özünün daxili aləminin, mənəviyyatının, həyata baxışının istiqamətindədir. Günəş öz nurunu paylayarkən insanlar arasında fərq qoymursa, heç kimə öz işığını əsirgəmirsə, bəs insanlar nə üçün mənəvi uçurumlar yaradaraq, insanlığın mahiyyətcə bir olan daxili bağlarını, əlaqələrini zəiflətsinlər? H. Cavid təbiət qanunlarını cəmiyyətə tətbiq edərkən öz fikirlərinin sərrast ifadəsinə çalışırdı:

Arqadaşlar! Şu parlayan günəşin,
Feyzi birdir cihanda hər kəs için.

Türk, hindu, ərəb, əcəm bilməz,
Nuru hər yanda artar əksilməz [1, 134].

Cavid kəskin təzadlar, ziddiyyətlər vasitəsilə öz ədəbi-estetik, fəlsəfi fikirlərini ifadə etmişdir. O, bir-birindən fərqli əks dinə, əqidəyə mənsub gənclərin sevgi macərasından sənətkarlıqla istifadə etmişdir. Şeyx Sənan islam dinini qəlbində, ruhunda yaşadan mütərəqqi və müasir düşüncəli bir gəncdir. Şeyx Kəbirin müridi olan Sənan sonradan mürşid səviyyəsinədək yüksəlir, ətrafındakı din xadimlərinin dərin hörmət və rəğbətini qazanır, müridləri ilə birlikdə islam dininin təbliğinə və inkişafına çalışır. Qərb mədəniyyətini təmsil edən gürcü qızı Xumarı sevəndən sonra onun eşqinin təsiri ilə dəyişməsi, öz təbiətinə, davranışlarına zidd hərəkətlər etməsini nə ilə izah etmək olar? Öz fərdi istəklərini reallaşdırmaq üçün dindar bir müsəlmanın xristian qızını sevməsi, bu yolda şərab içməsi, xaç asması və hətta, iki il donuz otarmasını necə qiymətləndirmək olar? Bu suallara müxtəlif aspektlərdən yanaşmaq lazımdır:

Əvvəla, Sənan kimi ali dini dəyərləri özündə ehtiva edən bir mürşidin xristian qızını sevməsi, eyni zamanda onun sevgisinin nə dərəcədə böyük, sarsılmaz olduğunu əsaslandırmaq üçün ən yaxşı bir vasitədir. Ədib reallığı ifadə etmək üçün belə bir addım atmışdır. Doğrudan da, "incəsənətdə gerçəklik birbaşa inikas olunmur, sənətkarın dünyaduyumunun, hisslərinin süzgəcindən keçir, nəticədə, bu və ya digər keyfiyyəti, xüsusiyyəti daha parlaq şəkildə nəzərə çarpdırmaq naminə əşya və hadisələrin özündə və onların arasındakı münasibətlərdə mövcud tənasübü pozmaq lazım gəlir". [3, 38].

Digər tərəfdən, Şeyx Sənan islam dininə kor-koranə inanan, onu adi şüur səviyyəsində qavrayan fanatik dindarlardan olmadığından, onu zahiri görüntü, üst qatda bəsit görünən tərəflər deyil, mahiyyət, əsas məğz daha çox maraqlandırırdı. Xaç asarkən Şeyx Sənanın dediyi:

İştə bir parçacıq gümüşdür bu,
Bunu asmaqla bir yüzük taxmaq
Bəncə birdir, bir... anladınmı bunağ! [1, 167].
Yaxud:
Hökmi-Quran ilələbəd ucalır,
Yaqılan həp kağız, mürəkkəbdir. [1, 168].

Biz burada Sənanı daha çox mahiyyət adamı kimi tanımış oluruq. Əslində, islamı sarsıdan, onun qüdrətinə kölgə salanlar qoyulmuş şərtləri fanatizmə uyaraq mexaniki şəkildə qəbul edənlərdir ki, dinin dərin mahiyyətindən xəbərsiz olduqları üçün onu layiqincə qoruya bilməmişlər. Lakin daxili mənasına bələd olmadan dini, onun təbliğ etdiyi bir sıra mənəvi dəyərləri lazımi səviyyədə qiymətləndirmək olmaz. Bu cəhətdən İslamı "mənəvi günəş" adlandıran Sənan onu dərk etməyən alimləri xəyanətkar adlandırır:

Bir çox alimnüma xəyanətkar,
Dini-islamə rəxnə salmışlar.
Bir yığın ictihadi-biməna
Qaldırır hər tərəfdə bir dəva [1, 163].

Böyük mütəfəkkir şair Cavidin yenilik təbliğ edən ideyaları əsər yazıldığı dövrdən xeyli sonra müasirlik adı ilə Türkiyə Cümhuriyyəti tərəfindən rəsmi şəkildə qəbul olundu, türkçülük və islamçılıqla vəhdət təşkil etdi.

Şeyx Sənan ilə korların söhbəti, Şeyxin onların dərdinə əlac kimi məsləhətlər verməsi əsərdə diqqəti çəkən məqamlardandır. Bu hissədə belə bir fikir təlqin olunur ki, cəmiyyətin mövcud durumu ilə şəxsiyyətin istəkləri arasındakı konflikt və uyğunsuzluqlar səngimək bilmir. Hər kəsin probleminə çözüm tapmaq istəyən, istənilən maneələrin həllində yardımçı əlini əsirgəməyən Sənandan korlar da imdad diləyir, gözlərinin açılmasında onlara yardımçı olmasını istəyirlər. Sənan isə onlara heç gözləmədikləri, ağıllarına belə gətirmədikləri cavab verir; görmək o zaman gərəkli ola bilər ki, ətrafda hər şey öz yerində olsun, haqq-ədalət, insani dəyərlər taptalanmasın, qüsurlu cəhətlər isə nəzərə çarpmasın. Lakin bu mümkün olmadıqda görməmək daha məqbuldur. Acınacaqlı, çarəsiz durumu görüb dərd çəkməkdənsə, belə situasiyanı heç görməyərək qəlb rahatlığı ilə yaşamaq, Sənana görə, ən uyğun variantdır:

Həm də görməkdə bir məziyyət yoq,
Kədər, işgəncə var; məsərrət yoq.
Gərçi görmək də başqa nemətdir,
Görməmək ən böyük səadətdir [1, 136].

Göstərilən parçalarda dramaturq hiperboladan məharətlə bəhrələnmiş, bu bədii vasitədən cəmiyyətdəki neqativ halların tənqidi üçün bir vasitə kimi istifadə etmişdir. Belə hallar Cavidi o qədər təsirləndirirdi ki, insan üçün ən gözəl nemət olan görmə duyğularının məhv olmasını belə eybəcərlikləri görməkdən daha üstün sayırdı:

Nəyi görmək dilərsiniz, bilməm?
Yanıyor zülm içində həp aləm!
Görməməkçin şu çirkin işləri siz,
Yalvarıb haqqa həmdü şükr ediniz [1, 138].

Ümumiyyətlə, faciə qəhrəmanının həmişə özündən qat-qat güclü olan mənfi qüvvələrə qarşı vuruşmada cismən məhv olması, lakin mənən qələbəsi labüddür. Uzaqgörən və zamanı qabaqlayan Cavidin bu ideyaları müasir dövrümüz üçün də aktualdır. Qlobal əhəmiyyətə malik olan bu qayə, bir region hadisəsi olmayıb, bütün Şərq və Qərbin fikir adamlarını həmişə düşündürmüşdür. Biz böyük bir fərəhlə deyə bilərik ki, bu qədər böyük və şərəfli bir işin-fərqli dəyərlər arasında əlaqələrin və uçurumların tədqiqi, təhlili və onun ortaq bir məxrəcə gəlməsi məsələsi ilə Cavidin vətənində daha müntəzəm və hərtərəfli məşğul olunur. Azərbaycanda böyük filosof Səlahəddin Xəlilov tərəfindən təsis olunan, mənəviyyatlar və mədəniyyətlər arasında körpü rolunu oynayan "Şərq və Qərb" tədqiqat mərkəzi bu ideyaları araşdırmaq işində müstəsna əhəmiyyətə malikdir. Bu həm Cavidin xatirəsinə, həm də azadlıq "aşiqi" olan bütün bəşəriyyətə bir töhvədir.

H. Cavidin yaradıcılığında mühüm əhəmiyyətə malik dram əsərlərindən biri də "Uçurum" (1917) faciəsidir. Əsərdə təsvir olunan dövrdə hələ Qərb təsiri, əxlaq tərzi Şərqə güclü təsir etməsə də, bu get-gedə artmaqda idi. Belə bir mənəvi təhlükəni vaxtında, məqamında dərk edən Cavid İstanbulun Qərbə meyl edən həyat tərzi

fonunda gələcək nəsilləri böyük bəladan xəbərdar etməklə kifayətlənmir, bunun səbəblərini və bəzi çıxış yollarını da göstərməyə çalışırdı. Əsərdə insan azadlığı probleminin meydana gəlməsinin səbəblərindən biri kimi Şərq və Qərb əxlaq tərzi, mənəvi özünəməxsusluqlar və onların arasında yaranmış uçurum, keçilməz sədlər göstərilmişdir. Rəssam Cəlalın Qərbə-Fransaya səyahəti onun faciəsinin başlanğıcına səbəb olur. Öz mənəvi keçmişinə, soy-kökünə yabançı və laqeyd münasibət bəsləyərək yad təsirlərə, dəyərlərə meyl etməsi onun timsalında ümumən türk gəncliyini addım-addım uçuruma aparır. Tarixi kökdən ayrılmaq ona görə acı nəticələr verir ki, qədim və zəngin ənənələrə, yüksək mədəniyyətə malik olan bir xalqın övladı birdən-birə keçmişdən üz döndərərək Avropa mədəniyyətinə qovuşmağa çalışır. H. Cavid buna etiraz etmir. Onu narahat edən budur ki, türk gəncləri getdiyi ölkələrdəki qabaqcıl elmi-texniki nailiyyətlər, mənəvi zənginliklərdən faydalanmaq əvəzinə, daha çox yüngül əyləncələrə üstünlük verirlər. Halbuki, hər iki mədəniyyətin sintezi xalqın yüksəlişinin əsas amillərindəndir. Unutmaq olmaz ki, Renessans dövrünü Avropa Şərqlə Qərb mədəniyyətini böyük məharətlə qovuşdurmaqla mümkün etmişdir. Deməli, sırf mənəvi köklərə bağlanmaq da, dünyada gedən dinamik dəyişmələrə, tərəqqiyə arxa çevirmək də məqbul deyildir. Cəlal bu deyilənlərə tamamilə biganədir və bu haqda heç düşünmək belə istəmir. Lakin dünya xali deyildir, Cəlal kimi adamların atdığı addımların cəmiyyət üçün böyük təhlükə mənbəyi olduğunu, onların xaricə səfərlərinin mənfi nəticələr verəcəyini əvvəlcədən duyan müdrik Uluğ bəy narahatdır. Üstəlik Cəlalın sənət adamı—istedadlı rəssam olması onun təşvişini daha da artırır. Onun bu barədəki fikirləri təqdirəlayiqdir. Avropanın həyat tərzini, buradakı prosesləri dənizə bənzədən Uluğ bəyə görə, burada həm faydalı, həm də zərərli çox şeylər var ki, bütün bunlaradan həssaslıqla istifadə etmək, tənqidi surətdə faydalanmaq əsas şərtlərdəndir:

Avropada işıq da var, zülmət də,
Orda səfahət də var, fəzilət də.
O bir əngin dəniz ki, pək qorquncdur.
İnsan gah inci bulur, gah boğulur;
Ayıq davranmalı, mətin olmalı,
Həp nurə qoşmalı, haqqı bulmalı [1, 286].

H. Cavidi təşvişə salan qəhrəmanının iradəsizliyi və prinsipiallıqdan uzaq olması idi. Əslində, iradəli, mənfi təsirlərə uymayan, öz amallarına sadiq qalan gənclər üçün xarici səfərlər, yad mədəniyyətlərlə tanışılq xalqın tərəqqisinə xidmət edə bilər. Cəlalın hissiyyatını idarə edəcək gücdə olmaması onu asanlıqla yolundan döndərir.

Cəlalın rəssam kimi də, bir ailə başçısı kimi də mənəvi süqutu onun özgələşməsində, türk xalqlarının şanlı tarixi keçmişinə göstərdiyi etinasız münasibətindədir. M. Əlioğlu Cəlalın həyatında baş verən tələtümlü, sonu görünməyən uçurumlu həyat tərzini belə izah edir: "Cəlal bir şəxsiyyət kimi öz elinə, ana yurduna arxa çevirmişdir; milli simasını itirmişdir. Vətənsiz, xalqsız və idealsız qalmışdır. Bu isə sənətkar üçün böyük faciədir. Hər hansı bir sənət və sənətkar mənsub olduğu xalq, üzərində boy atdığı torpaq və içərisində yetişdiyi cəmiyyət tərəfindən sevilmədikdə, başa düşülmədikdə heç kimə və heç kəsə lazım deyildir". [2, 90].

İstanbul Şərqin qapısı olduğundan onun vasitəsilə Qərbdən maddi və mənəvi sərvətlər, mənfi və pozucu təsirlər daha tez daxil ola bilər. Belə bir durumda düşüncəli addımlar atmaq, hər şeyi saf-çürük etmək vacib amilə çevrilməlidir.

Sədaqətsizlik, xəyanət, boş əyləncələrə meyl edərək əsas həyat amalından uzaqlaşmaq və. s. kimi nöqsanlı cəhətlər insanı bu həyatdan usandıran, onu gərəksiz bir məxluqa çevirən əsas faktorlardandır. Cəlalın faciəsinin dərinliyi ondadır ki, o düşdüyü uçurumu vaxtında dərk edib, "ziyanın yarısından" qayıda bilmir. Bu ona ailəsinin faciəvi aqibəti, yeganə övladı Mənəkşənin ölümü bahasına başa gəlir. Düzdür, bədbəxt olduğunu, düşdüyü durumu dərk etmək, yeganə arzusunun "Yalnız məsum Gövərçinin qəlbindən, Silinməz ləkəyi silmək istərim, Çox alçaldım da yüksəlmək istərim",- deyən Cəlal gec də olsa, öz həyatında baş vermiş mənəvi böhranı dərk etmişdir və buna görə oxucu tənqid etməkdən daha çox, belə bir durumda olmasına görə ona acıyır.

Anjelin sonrakı aqibəti də elə Cəlalın həyatını xatırladır: ondan bir qədər fərqli şəkildə faciə ilə sona çatır. Bu fəlakətin kökündə nə dayanır? İnsanlığın nəcib əxlaqi keyfiyyətlərindən uzaqlaşan, maddi sərvətlərə meyl edən, mənəvi zənginliyə arxa çevirən eyş-işrət düşkünlərinin ömür yolu labüd şəkildə məhvə məhkumdur. Yuxarıda qeyd etdiyimiz kimi, Anjel Qərbin mənəvi kasadlığını özündə əks etdirən bir obrazdır. "Əvvəl mələk olub yüksəklərdə uçan" Anjel maddi qüvvələrin təsiri ilə dəyişir, öz əksinə çevrilir. Yağlı vədləri, şirin dili, zahiri parıltı və gözəlliyi ilə neçə-neçə təmiz mənəviyyatlı insanı ələ keçirib ləkələməklə öz məqsədlərini icra edən Anjel obrazı ilə Şərqi öz müstəmləkəsinə, siyasi təsir dairəsinə tabe edərək onun varını, sərvətini, mənəviyyatını ayaq altına almağa çalışan Qərbin məkrli və müxtəlif yollarla maskalanmış siyasəti arasında necə də uyğunluq vardır. Gövərçinin dili ilə deyilən aşağıdakı sözlər bir növ buna işarədir:

Nə yapsa xoşdur, həm çıqmaz qüsurlu,
Çünki Fransa ərməğanıdır bu [1, 322].

H. Cavid Avropa və Türkiyədə baş verən hadisələrdən söz açsa da, Azərbaycan xalqının faciəli taleyini heç zaman unutmamış, bu fonda Rusiya imperiyası tərəfindən Azərbaycana vurulmuş maddi və mənəvi zərbələri nəzərə çarpdırmışdır.

Əsərin yazılma ili ilə bağlı bir sıra mübahisəli fikirlər olmuşdur: "...M. Quliyev məqalələrinin birində "Uçurum" əsərinin 1905-1906-cı illərdə qələmə alındığını söyləmişdir".(4, 76) Əli Sultanlının mülahizələri də göstərilənləri təsdiqləyir: "İstanbul ədəbi mühitində aldığı təəssürlər əsasında H. Cavid ilk dram əsəri olan "Uçurum"u yazmışdır"(4, 77). Hüseyn Cavid: "Uçurum"u 1917-ci ildə yazdığını və onun qeyri-mətbu faciə olduğunu qeyd etmişdir"[4, 77].

Bizə elə gəlir ki, əsər Sovet imperiyası dövründə qələmə alınmışdır. Çox ehtimal ki, H. Cavid əsərin yazılma tarixini bir neçə il arxaya çəkməklə Sovet imperiyasının amansız caynaqlarında məhv olmasını bir müddət ləngitdi. Çünki burada təsvir olunan uçurumlar həmin zamanı daha dolğun əhatə edir. Cavid 1922-ci ildə yazdığı "Peyğəmbər" əsərində də bu motivlər hiss olunur. Peyğəmbər səhraları dolaşarkən hər tərəfdə sıldırımlar və uçurumlar görür. Halbuki ətrafındakı adamlar bunu görə bilmirdilər. Sovet imperiyası müxtəlif xalqları öz müstəmləkəsinə çevirdikdən sonra müstəmləkəçilik siyasətini bütün varlığı ilə prdələməyə başladı

və məkrli siyasətini bütün xalqların xoşbəxtliyi, firavanlığ və azadlığı kimi qələmə verməyə başladı. Hətta bəzi qələm sahibləri də bu hiylələrə inanmağa başladılar. Təbii ki, ağıllı və uzaqgörən insanları, ziyalıları aldatmaq mümkün deyildi. Bu saxta vədlər onların gözündə qorxunc uçurumlar kimi görünməyə başladı.

Anjel bu cəlbedici, cazibədar ideologiyanın təmsilçisi kimi, Cəlal isə sənət adamlarının nümayəndəsi kimi diqqəti cəlb edir. Onun bədbəxtliyi burasındadır ki, o həyatı əks etdirmək üçün real hadisələri yox, Anjel kimi mənəviyyatsız adamların obrazını yaratmağı qarşısına məqsəd qoymuşdur. Bu həmin dövrdə sosializm realizmi təbliğatının təsirilə yazan sənət adamlarının xalqdan ayrı düşməsinə, ümümi mənafeyi unutmasına və faciəli həyatlarına işarə idi.

Ədəbiyyat

1.H. Cavid. Əsərləri. Beş cild. II cild, Bakı, Lider, 2005.
2.Əlioğlu M. Hüseyn Cavidin romantizmi, Bakı, Azərnəşr, 1975.
3.Quliyev Q. Dəlidən doğru xəbər, Bakı, Mütərcim, 1999.
4.Sadıqov Ş. Hüseyn Cavidin yaradıcılığında qəhrəman konsepsiyası, Bakı, Hədəf, 2011.

Famil Madatov

Freedom ideas in H. Javid`s first tragedies

Summary

In the article as an investigation objekt H. Javid`s “Deer”, “Sheikh Sanan” and “Precipice” tragedies are investigated. Though they were devoted to different subjects, their common peculiarity is that all are joined in man`s libertyproblem. In woman illegality and feudal term conditions humane valuesselling to money and gold are criticized in “Deer”. “Sheikh Sanan” has been devoted to the exposure of the religious discrimination. Some social, public and religious aspects of Sanan`s not being able to join with Khumar is being looked through. “Precipice” has been devoted to an urgent subject.

Фамил Мадатов

Мотивы свабоды в первичный трагедиях Г.Джавида

Резюме

В данной статье исследовало художественная произведения Г. Джавида «Мараль», «Шейх Санан», «Обрыв». В этих трагедиях отражено разных темах. Их объединяют общий идею: свобода человека. В «Мараль»е отражено без правы женщину во время феодальные отношения который продано человеческого достоинство. В трагедиях «Шейх Санан» критиковано религиозные пристрастие. Религия мешает Шейх Санан и Хумару соединится в одном душе. «Обрыв» был очень актуально во всех временах.

Rəyçi: Kamran Əliyev
filologiya elmləri doktoru, professor

СЕВИНДЖ АБЫШОВА
Преподаватель кафедры теории и практики перевода
Бакинского славянского университета
sevinc-abishova@mail.ru

ПРОБЛЕМЫ ПЕРЕДАЧИ СТИЛЯ АВТОРА ПРИ ПЕРЕВОДЕ
(на материале творчества А.Платонова)

Açar sözlər: Mətn, tərcümə, Platonov, ekvivalentlik, bədii
Ключевые слова: Текст, перевод, Платонов, эквивалентность, художественный
Key words: Text, translation, Platonov, equivalence, literary.

Изучение текстов оригинала и перевода в сопоставительном плане ориентировано на их содержательную и формальную стороны. Уровень интерпретации однозначно влияет на уровень получения информации. Кроме того, содержание текста выражено сложным информационным комплексом, поэтому, исключая некоторые тривиальные случаи, «содержание двух разных текстов (т.е. различающихся каким-либо значимыми компонентами) никогда не будет одинаковым». Таким образом, тождественность двух текстов исключается. Остается лишь выводить эквивалентность перевода оригинала из общности разных частей информативных комплексов. Причем не следует забывать при этом целевых отношений коммуникантов. Вместе с тем уровень эквивалентности при сопоставительном анализе оригинала и перевода измеряется описанием отдельных компонентов структуры содержания текстов.

Все теоретики и практики перевода единодушны в том, что основной задачей переводчика является полное воспроизведение содержания отдельных единиц текста, смыслового их единства и характера связей между ними. Это не просто передача суммы «кирпичиков смысла, из которых состоит содержание высказывания, а интерпретация определяющих их признаков, позволяющих описать типовую ситуацию общекоммуникативного значения, имеющую множество реальных вариантов.

Языковые высказывания в зависимости от выполняемой в тексте функции могут быть ориентированными на описание, на форму, на обращение. При выполнении первой функции основная задача направлена на передачу содержания информации. Второй ориентир передает также содержание, но определяющим в данном случае является языковая форма. Текст, ориентированный на обращение, передает информацию в определенной языковой форме. Здесь же доминирующим компонентом является обращение к слушателю или читателю текста, вызванное целью достижения экстралингвистического эффекта.

Многообразие текстов в рамках указанных типов может подразделяться на значительное число видов текста. Не преследуя цель останавливаться на этих деталях подробно, обратимся к компонентам интересующего нас объекта.

Дело в том, что в этой классификации ориентированность на содержание и на форму по различению текстов является условным. Иначе говоря, тексты, ориентированные на содержание, имеют языковую форму. А тексты, ориенти-

рованные на форму, имеют, безусловно, соответствующее содержание. Таким образом, если содержание и форма нераздельно связаны друг с другом, значит, для текста одинаково важны ее предметное содержание и способ выражения. «Теория перевода, как и всякая другая наука, должна заниматься двумя типами проблем: описательным (отвечая на вопросы *что?* и *как?*) и объяснительным (давая ответы на вопросы *почему?* и *с какой целью?*). Обычно в переводоведении больше внимание обращается на второй, более сложный, вопрос: ученые стремятся проанализировать факторы, которые ведут к разнообразным переводческим заменам, обусловливают выбор неэквивалентного варианта при переводе и т.п.

Если в текстах, ориентированных на содержание, форма выражения направлена на оказание необходимого воздействия, то в текстах, ориентированных на языковую форму, она направлена на эстетическое и художественно-творческое воздействие. Существует и некоторое незначительное отличие в анализе формальных отношений текстов и их перевода на другой язык. В анализе различительных текстов и их перевода на другой язык должны быть учтены стилистические, семантические и грамматические параметры. Лишь к ориентированным на форму текстам добавляется эстетический аспект. Вот этот-то аспект выражает главную характеристику произведений художественной литературы.

Известно, что литературное произведение многослойно: в тексте сосуществуют внесюжетные повествования с дополнительными смысловыми планами, выводимыми из основного содержания, которые эквивалентно должны быть воссозданы в переводе. Поэтому, нам кажется, необходимо еще раз внести ясность в понятие формы.

Под «формой» обобщенно понимается конкретный способ выражения данного содержания текста в отличие от других ситуаций. Однако такое определение в отношении художественных текстов является недостаточным.

Есть множество важных факторов, которые должны учитываться не только в поэзии, художественной прозе, но и в любом жанре художественной литературе. Порой даже единичный звук имеет главенствующее значение, как компонент формы. Более того, художественные намерения автора могут выражаться в синтаксической характеристике, в «темпе» стиля, в рифме, в эпитетах и сравнениях, поговорках и метафорах, вплоть до фоно-стилистических элементов.

Как видим, переводчик неминуемо сталкивается с различными элементами формы и ищет способы передачи их на другом языке. Для понятия соответствующего метода перевода однозначно отпадает механический перенос элементов исходного языка на переводящий язык. Такое невозможно даже на уровне фоно-стилистических элементов, потому что звуковая структура языков различна. Значит, переводчик обязан найти и воссоздать ту форму, которая произведет на читателя эквивалентное эстетическое воздействие. Это еще раз подтверждает тот факт, что тексты произведений литературы больше выражают, нежели сообщают. Нелишне здесь повториться в том, что в переводе текстов, ориентированных на содержание, инвариантность на уровне плана содержания уступает место аналогии формы. Лишь в этом случае можно

сказать, смог ли переводчик «сделать шаг от ступени лингвистических операций до ступени операций литературных, содержит ли перевод таким образом «второй качественный компонент» – эстетический компонент, литературное совершенство» [1, 181]. Например, при переводе стилистической фигуры необходимо найти соответствие, имеющее почти такую же художественную и эстетическую функцию.

Нередко бывают случаи, кстати, встречающиеся почти у всех писателей, когда автор оригинала позволяет себе отклониться от языковой нормы. Тогда переводчику необходимо поступить аналогичным образом, преследуя цель эквивалентного эстетического воздействия. Обоснование соответствующего приема мы находим у В.Е.Зюскинда: «Автор оригинала пользовался всем богатством своего родного языка и имеет, поэтому право требовать, чтобы и в нашем языке были использованы все имеющиеся возможности выражения, свойственные нашему и только нашему языку» [1, 25].

Наглядным примером сказанному, может служить творчество А.Платонова представляющее интерес как с точки зрения рассмотрения оригинального творчества, так и – переводов произведений на другие языки. Достаточно обратить внимание на выводы известных ученых о нем. Каждый из них по-своему воспринимает его уникальное творчество. Однако их объединяет то общее, которое можно обозначить словами «многогранный», «сложный», «разнопластовый».

Так, К.М.Кантор пишет: «Все видимое, событийное, выписанное иногда даже с натуралистической достоверностью, в прозе Платонова, если и имеет самостоятельное значение, то непременно наделено еще сверхсмыслом, ибо выступает как многогранный символ невидимой иерархии идей. Хотя сами идеи являются у него под собственными именами, и спор об идеях звучит, не умолкая, чуть ли не в каждом бытовом разговоре. Все преувеличенные эстетиками различных жанров, стилей, направлений, модусов изображения отвергнуты Платоновым за «вредность» их, так называемой миметической односторонности, все они – эпос и драма, лирика и сатира, реализм и абсурдизм, утопия и антиутопия – сплавлены в прозе Платонова, как в диалогах Платона, как в бытийственно непреложном слове Библии» [3, 15]. В рассуждениях ученого дается философская подоплека платоновского мироощущения, которая выражается в духовном облике «странных героев», в их специфической «обобщающей» речи, в целом – в уникальном собственно платоновском понимании жизни. Вместе с тем, доминирующий акцент падает на слова «сверхсмысл», «многогранный символ», «сплав» жанров и стилей, что доказывает сложность и многомерность платоновского текста.

А вот дополнительные штрихи к портрету писателя-мыслителя, данное С.Г.Семеновой: «Уникальность – качество художественного мира каждого выдающегося творца, но степень ее бывает разной. У Платонова – она высочайшая, как у немногих гениальных новаторов в мысли и искусстве. Он не просто писатель с философскими интересами, склонный заниматься вечными вопросами человеческого бытия. Андрей Платонович обладал редким по цельности и убежденности мировоззрением, прямо связанным с традицией активно-эволюционной, космической мысли, родоначальником которой в Рос-

сии был Николай Федеров. Творец предельно сознательный и аналитичный, Платонов сумел воплотить свои намерения, свои однообразные и «постоянные» идеалы в глубинно «клеточном» слое текста, не греша ни на йоту риторикой, даже самой утонченно-художественной. Можно сказать, что он мыслил в грамматике, передавая многомерный взгляд, парадоксальную, антонимичную логику, сверхумное видение неожиданным подбором и сочетанием слов, лексических и синтаксических конструкций, взрывающих норму, но разящих по смыслу (для подтверждения можно выписать всего Платонова подряд) [5, 26].

Кроме «штрихов», раскрывается суть философии, которую следует искать «в самой фразе, в определениях и сравнениях, в речах его персонажей, часто на первый взгляд полубредовых, в героях, сюжете и композиции, в упорно навязчивых мотивах. Причем именно эти мотивы концентрируют в себе философские заботы автора, его заветные убеждения во многом созидают особую, поражающую всех смутно разгадываемую атмосферу его творений» [5, 27]. Казалось бы, С.Г.Семенова охватила весь спектр платоновского текста, что тут нечего добавить и нет необходимости их комментировать. Однако наши сомнения снимаются существенными мыслями критика С.И.Пискунова: «Творчеству Платонова вполне присущи такие черты примитива, как сочетание «мистериальности» и «фарсовости», парсунности и карикатурности, назидательной эмблематичности и избыточной изобразительности, отказ от психологической разработки характеров героев и тяготение к канону... Укорененность Платонова в порубежной культуре во многом объясняет двойственность платоновского мировидения. С одной стороны, он тяготеет к архаичным космологическим схемам, к постижению мира как упорядоченного целого, имеющего свое начало и свой конец, но которое вместе с тем насквозь пропитано наивным сциентизмом, какой-то дон-кихотовской верой во всесилие науки и всемогущество человека, подчинившего себе электрическую и прочие виды энергии» [4, 33].

На самом деле, может быть, «двойственность» платоновского мировидения вызывает у критиков разносторонне-глубинные подходы? Или же – исчерпывается ли творчество Платонова его своеобразной философией? Оказывается, нет. Существуют и другие мнения относительно творческой манеры художника. Заслуживает внимания точка зрения В.И.Гусева, который выводит искусство русского писателя за пределы философского миропонимания.

«Платонов, прежде всего – художник-пластик; он не является представителем того рода художественного творчества, который условно называют философским» - пишет он. «Философично всякое искусство – иначе оно и не искусство; но бывают произведения, в которых напряжение духовной мысли определяет собою весь каркас и подробности художественного здания. Таков, например, «Фауст» Гете.

Платонов как повествователь выглядит иначе: для него важнее всего – жизнь, если можно так выразиться, в ее демократическом разнообразии, широте, полноте и живописной правдивости. Платонов питает недоверие к людям «чисто» философского, мыслительно-аналитического склада – это, кстати, порой заметно и по его статьям; он любит людей и всю вообще жизнь

совершенно объективную, «эпическую». Момент индивидуальности, редкости, духовного акцента он принимает на себя – на автора: это его неповторимая «сказовая» интонация, внутренне отрицающая самое сказовость; это его, ныне знаменитая, «несобственно-прямая речь», сгущающая в себе многоголосие быта и вбирающая, «утрирующая» речевые особенности переходной эпохи: единство «канцелярита» и фольклора, уникальную смесь новоофициального и старопровинциального жаргонов в народном сознании...» [2, 218].

Из рассуждения В.И.Гусева выпячиваются новые акценты типа «многоголосие», касающееся не только изображаемой действительности, но и выраженный в речевых особенностях героев.

Отметим, что все приведенные мысли критиков касаются только текста оригиналов произведений Платонова. Но они вместе с тем являются серьезным условием и ставят конкретные задачи перед переводами их на другие языки.

Для переводчика произведений Андрея Платонова необходимо верно прочесть и понять текст оригинала, который, является весьма сложным, многоплановым и многослойным.

Для Платонова творческая личность писателя непосредственно рождается из его общей концепции творческой сущности народной жизни. Но нас, прежде всего, интересует пределы читательской субъективности. Естественно, что мы допускаем субъективность любого читателя, но не читателя-переводчика. Поэтому мы считаем, что переводчику Платонова, впрочем, как и всякого другого писателя, необходимы знания критической литературы по его творчеству.

Литература

1. Вопросы теории перевода в зарубежной лингвистике. М, 1978, 223 с.
2. Гусев В.И. Практическая теория Андрея Платонова // Гусев В.И. Рождение стиля. М., 1984, с. 217-219.
3. Кантор К.М. Без истины стыдно жить // Вопросы философии, № 3, 1989, с. 10-15.
4. Пискунова С.И. Мудрость заброшенных книг // Вопросы философии, №3, 1989, с. 33.
5. Семенова С. Преодоление трагедии. М., 1989, 378 с.

S.Abışova

Tərcümədə müəllif üslubunun verilmə problemləri
(A.Platonovun yaradıcılığının materialı əsasında

Xülasə

Məqalədə orijinal mətnin öyrənilməsi və tərcümə zamanı onun forma və məzmununa fikir verilməsi əks olunmuşdur. Alınan informasiyanın səviyyəsi birmənalı olaraq tərcüməçinin interpretasiyasından asılıdır. Tərcüməçinin əsas məqsədi mətnin məzmununun ayrı-ayrı vahidlərinin tam şəkildə verilməsidir.

Məlum olduğu kimi bədii mətn çoxqatlıdır və tərcüməçi də mütləq şəkildə müxtəlif elementli formalarla rastlaşır və onların başqa dilə verilməsinin yollarını axtarır. Bu məqsədlə də yuxarıda sadalananların təsdiqi kimi A.Platonovun yaradıcılığından söhbət açılır. Görkəmli alimlərin fikirlərinə diqqət yetirilir. A.Platonovun yaradıcılığının həm orijinal, həm də tərcümələri maraq doğurur. A.Platonovun əsərlərinin düzgün oxuyub orijinal mətni düzgün anlamağın tərcüməçi üçün ən vacib şərtlərdən biri olduğu barədə söhbət açılır.

S.Abishova

The problems of transmission of author's style in translation
(on the basis of creativity A.Platonov)
Summary

The study of the original text and taking into account its form and content while translation is reflected in the article. The level of the received information clearly depends on the translators interpretation. The major purpose of the transnlator is to give the separate units of the text context in full .

As it is known the literary text is multi-layered and the translator is due to face a variety of element forms and looking for ways to give them in another language.

For this purpose, in support of above mentioned, Platonov's creativity is considered. An attention is paid to the views of remarkable scientists. Platonov's works, both original and translations are interesting. In the article it is talked about that, reading the Platonov's works and comprehending the original text correctly is the translators main purpose.

Rəyçi: Səbinə Tarverdiyeva
filologiya üzrə fəlsəfə doktoru, dosent

KÖNÜL NƏHMƏTOVA
Filologiya üzrə fəlsəfə doktoru
konul.nehmetova@mail.ru

HEKAYƏ JANRININ FORMA XARAKTERİNƏ GÖRƏ TİPOLOGİYASI

Açar sözlər: hekayə, Yusif Vəzir Çəmənzəminli, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, janrın tipologiyası
Ключевые слова: рассказ, Ю.В.Чяменземинли, Дж.Мамедгулузаде, Ф.Хагвердиев, типология жанра
Key words: narration, Y.V.Chamanzaminli, J.Mamedguluzadeh, F.Kocharli, the typology of genre

Janrın tarixən inkişafındakı ardıcıllığın, janrların tipologiyasının perspektivləri və prinsiplərinin öyrənilməsi ədəbiyyatşünaslığımızın qarşısında aktual bir məsələ kimi durmaqdadır. Tədqiqat işimizin predmeti olan hekayə janrının tipoloji xüsusiyyətləri forma və məzmun xarakterinə görə müəyyənləşdirilr. "Sənət əsərinin məzmunu – mənəvi mündəricatdır, bədii forma isə - onun təzahürünün maddi vasitələr sistemidir" (6.202). Hekayə janrının formasının onun yaranmasında həlledici rol oynayan təhkiyənin və bədii nitqin digər növlərinin (təsvir, sözləşmə, müəllif müdaxiləsi) qarşılıqlı əlaqəsi sayəsində qurulduğunu nəzərə alaraq bu anlayışları ayrı-ayrı nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik. "Əsərin təhkiyəvi mətni onun epikliyinin göstəricisi kimi, mətnin meditativliyi – onun lirikliyinin, əsərin dialojiliji – onun dramaturgiyaya məxsus olması kimi qəbul edilir. Bəzi böyük əsərlərdə, xüsusilə, romanda bədii təzahürün təhkiyəvi, dialoji və meditativ prinsiplərinin güclü inkişafı sayəsində bir sıra nəzəriyyəçilər üç növün sintezi kimi qəbul edərək yanılırlar. Epik əsərlər əsasən təhkiyəvidir: onun personajlarının mətnin təhkiyəvi hissəsi ilə növbələşən dialoqu – hərəkətləri və davranışları təhkiyədə təsvir olunan epik personajların dialoqudur. Eposda nə qədər çox dialoq olsa da, o, drama çevrilmir. Epik təhkiyəyə liriklik xüsusiyyətini qazandıran meditativlik nəinki onu lirikaya, hətta lirik-epik əsərə çevirmir. Digər tərəfdən, təhkiyəvi lirika da mövcuddur ki, onun personajları başqa bir deyim, simvolika xarakteri daşıyır. Və nəhayət, dramaturji əsərlərin dialoqu güclü emosianal çalara malik olsa da, o, lirik-dramaturji əsər adlanmır. Bundan ötrü başqa, əsərin daha dərin məzmun xüsusiyyətləri tələb olunur" (6.202-203).

Ədəbiyyatın epik növünün yaranmasında həlledici rolu bədii təhkiyə oynadığı üçün hekayə janrının səciyyəvi xüsusiyyətlərini öyrənərkən ilk növbədə bu termini özümüz üçün qəti müəyyənləşdirmək zərurətindən çıxış edirik. Azərbaycan ədəbiyyatşünaslığında "bədii təhkiyə"nin termin kimi hələ qəti bir anlayışı müəyyənləşdirilməmişdir. Buna görə də hekayə janrında bədii təhkiyənin təşəkkülünü daha dəqiq bir şəkildə araşdırmaq üçün bu istilahın dünya ədəbiyyatşünaslığında qəbul olunmuş tərifləri nəzərdın keçirmək ehtiyacı ilə də qarşılaşırıq. Türk ədəbiyyatı tarixinin və nəzəriyyəsinin görkəmli nümayəndələrindən biri olan Əhməd Kabaklı bədii nitq sistemində təhkiyənin mənasını və rolunu müəyyənləşdirmək üçün yazırdı. "Bir dilin öz zövq və qanunlarına ən uyğun bir şəkildə söylənməsinə anlatma (biz bu ifadəni "bədii nitq" adlandıracayıq – K.Nəhmətova) adı verilir. "...Nəsrdə və

nəzmdə dörd cür anlatma yolu görünür: 1)Təsvir, 2) Təhkiyə, 3)Xitab, 4)Söyləşmə. Bir təsvirdən təhkiyəyə , oradan da xitaba keçmək və yenə təsvirə dönmək çox yazıda görünən xüsuslardır. Bütün bir əsərdə tək anlatma yolu tutulmasına çox az rastlanır. Çox müraciət olunan anlatma yollarından biri də təhkiyədir. Ərəbcə olan bu kəlmə - "bir hadisəni anlatmaq" deməkdir. Qısaca, bir hadisənin hekayə edilişinə "təhkiyə" deyilir.

Hadisənin bir sıraya qoymaq, anladılan bir vaqeəni o birinə qarışdırmamaq, əsas və ayrıntıları yaxşıca hiss etdirmək, ilk oxunuşda anlaşılan olmaq yaxşı bir təhkiyənin xüsusiyyətləridir"(4.126). Göründüyü kimi, alimə görə, təhkiyə özəyində süjetin durduğu möhtəviyyatdır. V.E.Xalizeyev də epik təcəssümün ən başlıca vasitəsi olaraq təhkiyəni hadisəni danışma prosesi kim izah edir: " Ədəbiyyatın epik növündə həlledici rolu baş vermiş hadisələr haqqında "kənardan aparılan" hekayə - təhkiyə oynayır." Təhkiyə anlayışını daha açıq izah etmək üçün nəzəriyyəçi yazır: "Təhkiyə birbaşa, ciddi mənasında – bu, bir zaman baş vermişlərin söz vasitəsilə ifadəsidir. O, həyatın dinamikasının təcəssümüdür. Epik əsərin zəruri bədii başlanğıcı olmaqla təhkiyə burada ayrılıqda mövcud deyil". Nəzəriyyəçiyə görə, epopeya və romanlarda təhkiyəylə yanaşı təsvir, müəllif mühakiməsi və söhbətlər də bədii nitqin növləridir. Rus ədəbiyyatşünaslarından formalizm tərəfdarları təhkiyəni birbaşa, "bir dəfə baş vermiş hadisənin söz vasitəsilə ifadə edilişi" kimi izah edirlər. Təhkiyəçi üçün olmuşları xatırlayan insan mövqeyi xarakterikdir. Hadisə zamanı ilə təhkiyə zamanı arasında müəyyən məsafə mövcuddur. Təhkiyənin bu xüsusiyyətini onun personajlardan biri tərəfindən aparıldığı zaman da saxlayır. Çox zaman təhkiyə qrammatik keçmiş zamanda aparılır, lakin o, bəzən indiki zaman formasını da əxz edə bilir. A.P.Çudakov isə təhkiyənin mətnin bütün materiallarını əhatə etməsi fikri ilə çıxış edirdi: "Mətnin "təsvirçiyə" – təhkiyəçiyə və ya hekayəçiyə görə təşkili məhz təhkiyədir. Təhkiyəyə, birincisi, mətnin ədəbi təşkili, ikincisi, əşya-məkan baxımından təşkili, daha doğrusu, əsərin söz olmayan bütün realilərinin hekayəçiyə görə yerləşdirilməsi daxildir"(5.5). Arif Məmmədov da alimin fikri ilə razılaşaraq yazır: "Göründüyü kimi, təhkiyə bədii mətnin bütün materialını əhatə edir, naməlum təhkiyəçi isə bu materialı səliqəyə salır, bədii mətnin qanunauyğunluğu istiqamətində yerləşdirir"(1.73).

Nazif Qəhrəmanlı təhkiyəni epik əsərin digər təzahür vasitələri ilə yanaşı inkişaf etdirilən əsas bədii ifadə yolu olması fikrindədir: "Epik əsərlərin başlıca xüsusiyyəti onların təhkiyə xüsusiyyəti daşıması, yəni baş vermiş hadisənin, əhvalatın sərgüzəştin nağıletmə, təsvir yolu ilə oxucuya çatdırılmasıdır. Bu növ əsərlərdə təkcə təhkiyə və təsvir deyil, müəllif müdaxiləsi, monoloq və dioloqlar da iştirak edir" (3.105).

Azərbaycan ədəbiyyatşünaslığında hekayə janrının forma xarakterinə görə tipoloji xüsusiyyətləri ilk dəfə geniş şəkildə mərhum alimimiz Əflatun Məmmədovun "Azərbaycan bədii nəsri" adlı elmi monoqrafiyasında nəzərdən keçirilmiş, forma spesifikasına görə qruplaşdırılmışdır. Hekayənin lirik forması da məhz bu əsərdə ilk dəfə olaraq nəzəri təhlilə cəlb edilmişdir. Nəzəri aspektdən ədəbiyyatşünaslığımızın pionerlərindən olduğu üçün adı çəkilən elmi tədqiqat işinin terminologiya sistemində bir qədər dolaşıqlığa da təsadüf etməyimiz çox təbiidir. Əflatun Məmmədovun monoqrafiyasında romantik pafos ilə lirik hekayə analayışları qarışdırılır. Mükəmməl süjet xəttinə malik olan "Allah xofu", "Şeyx Şəban", "Poçt qutusu",

"Usta Zeynal", "Məktub yetişmədi" kimi bədii təhkiyə nümunələri öz romantik pafosuna görə lirik hekayə adlandırılır. Əflatun Məmmədovun araşdırmasında terminologiya sistemi çox qarışıq görünür, daha dəqiq ifadə etsək, sistemsizlik müşahidə olunur. Məsələn, alim yazırdı: "Lirik-psixoloji hekayələrin mövzuları kimi, janr şəkilləri də rəngarəngdir. O, Azərbaycanda əsasən, kiçik lirik-publisistik, lirik-dramatik, romantik hekayələr, realist uşaq hekayələri şəkillərində özünü göstərir" (2.103). Göründüyü kimi, pafos və metod anlayışları arasında heç bir fərq qoyulmadan yanlış bir tipologiya aparılmışdır. Və yaxud monoqrafiyanın "Lirik-psixoloji hekayənin inkişafı" fəslində müəllif yazırdı: "Lirik-psixoloji hekayələrin bəzilərində xarakter süjet fövqünə qaldırılır, müəllif onun xarici görünüşü ilə daxili aləmini, arzu və amalı ilə hiss, həyəcanlarını təmaslı təsvir edir. Xarici görünüşünün təsviri psixologiyasının açılmasına yönəldilir. S.M.Qənizadənin "Allah xofu" (1906) belə hekayədir. Bu hekayədə müxtəlif taleli xarakter hərtərəfli və canlı təsviri ilə portret dərəcəsinə qaldırılır. Hekayənin ideyası süjetlə yanaşı, portret-xarakterin təsvirində ifadə olunur. Yazıçı xarakterin portretində onun təkcə xarici görünüşünü yox, mühitini, əlaqə və münasibətlərini də göstərir (2.109). Bədii əsərin nitq sisteminin vasitələrinin (təsvir, təhkiyə, xitab, söhbət) kompleks şəkildə istifadəsi epik növün əsas xüsusiyətlərinə daxil olduğundan dördünün də qalın xətlə keçdiyi hekayələrdə tipologiyanı bədii təhkiyənin əsasında aparmağa məcburuq. Buna görə də mükəmməl süjet xəttinə malik təhkiyəvi hekayələri lirik hekayə kimi səciyyələndirməyə əsasımız yoxdur. Belə hekayələr hərəkətlərin sürətli dəyişməsi əsasında qurulduğu üçün onları şərti olaraq dramatik hekayə adlandıra bilərik.

Azərbaycan ədəbiyyatında ilk dəfə lirik hekayə janrının mükəmməl nümunələrini Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığında görürük. Yusif Vəzir realizmində sosial-siyasi amillərlə paralel olaraq emosional faktorlar da mühüm fəqərələr kimi çıxış etdiyi üçün ədibin hekayə yaradıcılığında çoxçalarlı lirik boyalar diqqəti çəkir: "Toy", "Ağ buxaqda qara xal", "Cavan", "İki çocuq", "İstirahət günü", "Beş dəqiqə", "Soyuq busə" və s. lirik hekayələri hamısı bir-birindən fərqli poetik nümunələrdir. Yusif Vəzir Çəmənzəminlinin "Ağ buxaqda qara xal" hekayəsi digər lirik hekayələrindən üslub və tematikasına görə kəskin fərqlənərək xüsusi maraq doğurur. Hekayədə realist üslubla romantik pafosun növbələşməsi prosesi adi bir məscidətrafı həyatın "tənha bir timçə"sindən uzanan yolların Qədim Şərq nağıllar aləmində -"Min bir gecə" səhifələrində bitməsi ilə yekunlaşır. Bütün təsvirlər klassikdir və poetikdir. Nağıllarda olduğu kimi, dəqiqələr illərə, illər qərinələrə qarışıb itir" və oxucunu da dərin qərinələrə aparıb çıxarır – "Min bir gecə" nağıllarına... Yusif Vəzirin "Mərsiyəxan" hekayəsi isə "Ağ buxaqda qara xal" əsərinə alternativ kimi səslənir. "Mərsiyəxan" realist üslubdadır. Çoxarvadlığın tənqidinə həsr olunmuş, haqqı tapdanan qadınlığın acınacaqlı vəziyyətinin ifadəsidir. Bu hekayədə də yenə din adı altında mövhumat, riyakarlıq tənqid olunur, incə məqamlarla dərin mətləblər anladılır. Hekayədə Ramazan ayı ilə Məhərrəmliyin eyni zamana düşdüyü bir günün təsviri yazıçıya mövhumatın, riyakarlığın simasını daha parlaq boyalarla işıqlandırmaq üçün geniş imkanlar vermişdir. Yusif Vəzirin "Toy" hekayəsi də xalq yaradıcığı ilə sıx bağlıdır. Hekayənin kompozisiyası mərasim nəğməsi, xalq oyunları, toy ənənələri üzərində qurulub, iki səhnədən ibarətdir. Birinci səhnə toyun kişi məclisini, ikinci səhnə isə qadın məclisini əks etdirir. Hekayənin ideyası, əsas məğzi isə epizodikdir. İkinci səhnə yalnız lirikdir, poetik dillə gəlinin məclisə girib

rəqs etməsinin təsvirini ifadə edir, eyni zamanda dastan dilini də xatırladır. Hekayənin ikinci hissəsi ayrıca mənsur şeir kimi də səslənir. Yusif Vəzirin lirik hekayələrini zəngin təsvir və tərənnüm boyaları ilə yanaşı xalq nəğmələrindən nümunələr onu daha da mənalandırır, poetik dəyərini artırır. "Toy" hekayəsində lirika bir çox poetik forma və fiqurları ilə çıxış edərək nəsrin şeiriyyətini yaradır. Lirik-publisistik hekayə janrına Yusif Vəzirin "Cavan" hekayəsi yaxşı nümunədir. Lirik-publisistik hekayələrin tematikası əksərən maarifçiliyin təbliğini , etika və estetika məsələlərini, fəlsəfi düşüncələri, sosial-siyasi problemləri əhatə edir. Yusif Vəzir Çəmənzəminlinin milli və dünya ədəbiyyatından bəhrələnərək yüksək sənətkarlıq məziyyətləri göstərməsini peyvənd olunmuş bar ağacına bənzədə bilərik. Ədib öz yaradıcılığı ilə yeni bir estetik sistem, ədəbiyyatşünaslıq konsepsiyası yaratmışdır, desək, yanılmarıq.

Azərbaycan nəsr tarixində lirik üslubun yüksələn xətt üzrə inkişaf etməsinin əsas səbəblərindən biri budur ki, elmi-fəlsəfi təfəkkürümüz öz ifadəsini klassik poeziyada tapmış, nəsr dilimiz isə dastan və nağıllarda inkişaf etdirilmişdir.

Azərbaycan realist ədəbiyyatında dramatik və lirik hekayə kimi səciyyələndirdiyimiz hekayə şəkillərindən başqa, hekayə-məktub (Y.V.Çəmənzəminli – "Kənddən şəhərə göndərilən bir kağız"), hekayə-münazirə (S.S.Axundovun "Qonaqlıq") , hekayə-dialoq (Y.V.Çəmənzəminli – "Doqquz ay keçmiş"), hekayə-monoloq (Y.V.Çəmənzəminli - "Müsəlman arvadının sərgüzəşti", "Vətən") kimi tiplərini müşahidə edirik. Y.V.Çəmənzəminli ədəbiyyatda ənənədən daha artıq yeniliyin tərəfdarı kimi çıxış edərək daim sənətkarlıq axtarışında olmuşdur. Bu axtarış onun hekayələrinin forma və məzmununa təsirsiz qalmamışdır. Yazıçı müasirlərindən fərqli olaraq epik növün kiçik janrının formalaşmasında yeni forma və yeni məzmun qayəsini daha qətiyyətlə izləmiş, keçmişə nəzər salmağı deyil, bu günün tələblərindən çıxış etməyə üstünlük vermişdir. Yeni məzmun isə özünü Y.V.Çəmənzəminli yaradıcılığında janr rəngarəngliyi şəklində göstərir. Məktub, dialoq şəklində hekayə formalarına məhz Çəmənzəminlinin yaradıcılığında təsadüf edirik. "Kənddən şəhərə göndərilən bir kağız", "Doqquz ay keçmiş", "Müsəlman arvadının sərgüzəşti", "Vətən" hekayələrində C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin, həmçinin yazıçının özünün digər hekayələrində qələmə aldığı problemlər təhkiyə yolu ilə deyil, bədii nitqin digər formlarında – dialoq və monoloqda qoyulmuşdur.

Ədəbiyyat

1. Arif Əmrahoğlu. Epik sözün bədii gücü. Bakı, 2000
2. Əflatun Məmmədov. Azərbaycan bədii nəsri. Bakı, 1983
3. Qəhrəmanlı Nazif. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 2008
4. Ahmet Kabaklı. Türk Edebiyatı. I c., İstanbul, 1994
5. Чудаков А.П. Поэтика Чехова. Москва, 1971
6. Г.Н.Поспелов. Вопросы методологии и поэтики. Москва, 1983

Кенуль Нахметова

Типология по характеристики формы жанра рассказа

Резюме

К.Нахметова на данной научной статье по характеристики формы проводит типологию реалистических рассказов написанные в начале XX века. В составлении формы жанра рассказ решающую роль играют две важные компоненты, такие как повествование и некоторые виды художественной речи (изображение, диалог и монолог, интервенция автора).Оценивая этих деталей как один из важнейших аспектов структур рассказа, эта статья была предназначена для научной исследовании.

Konul Nehmetova

The typology of narration genre in accordance with form characteristic

Summary

In the article The typology of narration genre in accordance with form characteristic (in base of creativity of J.Mammadguluzadeh, Y.V.Chamanzaminli, A.Haghverdiyev) written by K.Nehmetova the typology of the early 20th century realistic short stories according to form characteristic is shed lighted on. By considering the construction of story genre which is a complex of mutual connection of narration and different kinds of artistic speech as description, dialog and monolog, author appearance, these highlighted features are deserved to be explored.

Rəyçi: Güldəniz Qocayeva
filologiya üzrə fəlsəfə doktoru

TURAN TEYMUROV
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
e-mail: turanteymurov@mail.ru

EPİK NÖVDƏ DETAL, TƏFƏRRÜAT VƏ SƏNƏTKAR MÖVQEYİ

(M.Auezovun "Abay" romanı əsasında)

Açar sözlər: detal, roman, Abay
Key words: detalı, novel, Abai
Ключевые слова: деталь, роман, Абай

XX əsr qazax nəsrinin yaradıcılarından biri olan Muxtar Auezovun irsi sağlığında oxucular və peşəkar söz mütəxəssisləri tərəfindən nə qədər maraqla qarşılanırdısa, həmin maraq və ehtiram indinin özündə də qalmaqdadır. Uzunömürlülüyün səbəbi bir tərəfdən sənətkarın qələmindən çıxan əsərlərin, o cümlədən epik vüsətli «Abay» romanının dövrün, zamanın fövqünə qalxan problematikasında və ideyasındadırsa, digər tərəfdən də mətləbi kamil sənətkarlıq vasitələri ilə ifadə etməsindədir. Ədibin ən irihəcmli romanını mükəmməl sənət nümunəsinə çevirən poetik vasitələr sırasında bədii detal və təfərrüat mühüm bədii-estetik əhəmiyyət kəsb edir.

Nəsr əsərində, xüsusən də epik vüsətli povest və romanlarda təfərrüata xüsusi önəm verilməsi qaçılmazdır. Təbii ki, təfərrüat olan yerdə detalın iştirakı da sənətin əsas qanunlarından biridir. Detal və təfərrüatdan danışarkən onları əsərin bədii dünyasında mənalandırmağa çalışan sənətkarın mövqeyini nəzərə almamaq mümkün deyildir. Nə dərəcədə gizlədilməsindən, necə ifadə edilməsindən asılı olmayaraq, istənilən bədii əsərdə müəllif mövqeyi özünün ifadəsini tapır.

Ədəbiyyatşünas-alimlərin fikrinə əsasən deyə bilərik ki, «…bədii əsərdə birincisi, mövqe, baxım əsasdır; ikincisi, mövqe, baxım qiymətləndirmədir, yəni subyektin münasibətini ifadə edir. Mövqe (baxım, görüm bucağı və s. sinonim anlayışlar kimi işlədilir) «bədii strukturanın hiss olunacaq elementi» kimi ikili səciyyədə olur: birincisi, mövqe əsər miqyasında struktura müəyyənləşdirici vəzifə yerinə yetirir, daha doğrusu, yaradıcı şəxsiyyətini — subyektin sistem kimi bütövlükdə əsərə münasibətini ifadə edir; ikincisi, mövqe əsər daxilində bədii vasitə kimi çıxış edir. Birinci halda müəllif əsər, ikinci halda isə əsər-daxili münasibətlər ön plana keçir. Biz bədii mövqe və təhkiyə mövqeyini sinonim anlayışlar kimi nəzərdə tutaraq, ancaq mövqe anlayışını işlədəcəyik. Birinci halda mövqe hadisə və personajlarla birbaşa bağlanmır, daha doğrusu, belə mövqenin mövcudluğu personajlar tərəfindən yaşanmır, hadisənin təbii gedişində qeyri-adiliyə çevrilmir» (1,50-51).

Sənətkar mövqeyinin ifadəsinin vasitələri çox və zəngindir. Belə vasitələrdən biri də, heç şübhəsiz, detal və təfərrüatdır. Bədii əsərin bütövlüyünü təşkil edən və sözlə ifadə olunan bütün vasitələr bu və ya digər dərəcədə sənətkarın mövqeyini bildirir. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, bədii əsəri formalaşdıran sözlər tikinti materialı kimi sənətkarın əlində olsa da, əsərin qanunauyğunluqlarını və məntiqini (bünövrəsini) müəyyənləşdirəndən sonra o, bədii vasitələrdən istifadədə sərbəst deyil. Bu baxımdan təfərrüat və detal sənətkar mövqeyini yalnız əsərin ədəbi təşkilinin prinsipləri və qanunları daxilində ifadə edir.

Detalla təfərrüat həmişə bir-biri ilə ayrılmaz şəkildə bağlıdır və adətən təfərrüatın içərisindən seçilərək götürülür. «Lakonizmi və konkretliyi ilə» (2,290) seçilən detal təfərrüatın elə bir hissəsidir ki, onun vasitəsi ilə bədii təsvir daha da konkretləşir. Yaradıcılıq prosesində üstünlüyün detala və ya təfərrüata verilməsi bir çox amillərdən, o cümlədən əsərin ədəbi növündən, xüsusən də onun janrından çox asılıdır.

M.Auezovun «Abay» romanı çoxqatlı, müxtəlif və çoxsaylı süjet xəttinin əlaqələndirilməsindən ibarət epik vüsətli əsər deyil. Müəllifin qarşısına qoyduğu konkret məqsəd əsərin həcminə təsir göstərmişdir. Romanda məqsəd qazax xalqının tarixi taleyinin inkişafında mühüm rol oynamış Abayın həyat və yaradıcılığını, onun şair kimi formalaşaraq kamilləşməsini, maarifçiliyini… və xalqın həyat, düşüncə tərzini, dünyagörüşünü, adət-ənənəsini və s. təsvir etmək olmuşdur. Deməli, əsərdə bir-biri ilə qarşılıqlı əlaqədə olan və biri digərini tamamlayan iki obraz vardır: Abay və xalq. Romandakı bütün hadisələr bu iki obrazla əlaqəlidir və bunların dolğun, hərtərəfli və koloritli təsvirinə səfərbər edilmişdir.

Səciyyəvi digər cəhətlərdən biri də bundan ibarətdir ki, romandakı hər iki obraz müəllifin mövqeyinin öncədən, yəni yaradıcılıq aktına başlamamışdan əvvəl müəyyənləşdirilməsinə səbəb olmuşdur. Başqa sözlə desək, M.Auezov sənətkar kimi böyük sələfinin möhtəşəm obrazını yaratmağı və xalqının özünəməxsusluqlarını qabarıq şəkildə çatdırmağı qarşısına məqsəd qoymuşdur. Yazıçının konkret məqsədi əsərdə müəllif mövqeyini və əsərin epik vüsətinin səbəbini müəyyənləşdirməkdə mühüm rol oynamışdır.

Xalq-Abay və Abay-xalq cütlüyünün qarşılıqlı əlaqələrinin və şairin həyatının kiçik yaşlarından müdriklik çağlarına qədər təsviri istər-istəməz təfərrüatlara geniş yer verilməsini qaçılmazlaşdırmışdır. Yazıçı Abayın portretini yaradarkən, onun mənəvi dünyasındakı psixoloji yaşantıları təsvir edərkən detallara nə qədər üstünlük vermişdirsə, xalq obrazını canlandırarkən təfərrüatlara bir o qədər xüsusi meyil göstərmişdir. Çünki xalqın obrazını onun həyat tərzini, adət-ənənələrini və s. təsvir etmədən canlandırmaq mümkün deyildir.

Təfərrüatlar yazıçının sənətkarlıq məharətinin göstəricisi kimi diqqəti cəlb edir. Müəllif konkret bir epizodda bəzən təfərrüatdan elə sənətkarlıqla istifadə etmişdir ki, onun çoxfunksiyalılığı açıq-aşkar nəzərə çarpır və əsərin bədii dəyərini daha da artırır. «Kunanbayın alaçıqları qohumlarının alaçıqlarının yanında yerləşmişdi. Axşam çağı çöldə həyat canlanmışdı. İtlərin hürüşməsi, çobanların çığırışması, qoyun-quzuların mələşməsi, toz qaldıra-qaldıra suya tərəf qaçan atların ayaq tappıltısı, yenicə çatıdan açılmış və çöldə analarını tapmaq üçün vurnuxan dayçaların kişnəməsi bir-birinə qarışmışdı. Tonqallardan şəffaf axşam göylərinə qalxan tüstü alaçıqlar üstündə tünd boz bir pərdə kimi asılmışdı. Uşaq şəhərdə elə bunlar üçün darıxırmış. Onun qəlbini, oynaqlayan at kimi, şad bir həyəcanla döyündürən də elə bu imiş, onun bütün hisslərinə hakim olan da bu imiş!..»(3,17).

Epizoddakı təfərrüat bir tərəfdən Kunanbayın imkanlarının göstəricisi rolunda çıxış etmişdir. Yəni gələcək şairin atası varlıdır, ümumiyyətlə, ailəsi maddi cəhətdən tam təminatla yaşayır. Digər tərəfdən oxucu romanın ilk səhifəsindən başlayaraq qazax həyat tərzi ilə yaxından tanış olmağa başlayır. Təfərrüatın səciyyəvi funksiyalarından biri də obrazın iç dünyasının açılmasındakı roludur. Əsərdən bəlli olur ki, Abay molla yanında oxumaqdan qayıdıbdır və uzun müddət yad yerdə qal-

dığından ailəsi, yurdu üçün çox darıxıbdır. Təfərrüatlar onun baxımından verilir və yeniyetmənin həsrətini, niskilini təbii şəkildə ifadə edir.

Başqa bir epizodda aulun köçü təsvirini tapmışdır. Yazıçı köçün təsvirində də gələcək şairin mövqeyini əsas götürmüşdür. Təsvir prosesində yazıçı bir detalı daha qabarıq vermişdir. «Köçərilər araba nə olduğunu bilmirdilər. Aulda yalnız bir araba vardı ki, onda da nənə ilə Uljan gedərdi. Bu göy rəngli araba bütün Tobıktıda birinci və yeganə araba idi. Kunanbay ağa-sultan seçildiyi vaxt bu arabanı Karkaralinskdən almışdı. O, anasına demişdi: "Köç vaxtları səni bu arabada aparacaqlar" (3,62).

Epizodun təsvirindəki bu detal da yuxarıdakı təfərrüat nümunəsi kimi çox-funksiyalıdır. Detal həm Kunanbayın var-dövlət baxımından hamıdan fərqləndiyini göstərir, həm də köçəri həyat tərzi yaşayan qazaxların məişətindəki tədrici dəyişik-liklər nəzərə çarpdırılır. Hər iki halda müəllif mövqeyi təsvirçilik xarakterindən uzağa getmir, başqa sözlə desək, qiymətləndirmə xarakteri daşımır.

Romanda Abay-xalq cütlüyünə qarşı duran qüvvələr də təsvir olunmuşdur. Müəllif romanın heç bir epizodunda bu qüvvələrin hərəkətinə, əməlinə və ya düşüncələrinə müdaxilə etmir, onları yaxşı, yaxud pis mənada qiymətləndirmir. Əslində M.Auezov bu zaman sənətin qızıl qaydasına əməl edir: nəticə çıxarmaq məsuliyyəti oxucunun öhdəsinə buraxılır. Oxucunun isə düzgün, məhz yazıçının, nəzərdə tutduğu nəticənin çıxartması üçün sənətkar təfərrütın və bədii detalın təsir gücündən istifadə etmişdir. Rus yazıçısı S.Antonov demişkən, «detal ağıla və ürəyə daha çox şey verməyə qadirdir» çünki «detal oxucuya güclü təsir göstərən vasitədir. Yerində düzgün işlədilmiş detal oxucunun düşüncəsində bir çox assosiasiyalar oya-dır» (4).

Maraqlı bir cəhəti qeyd etmək yerinə düşər ki, yazıçı əsərdə bütün varlığı ilə bağlı olduğu və rəğbət bəslədiyi Abay və xalq obrazını, eləcə də bunlara qarşı duran qüvvələrin obrazını yaradarkən təfərrüat və detaldan yalnız müsbət tutumda yararlanmamışdır. Abay obrazının təsvirini çıxmaqla digər obrazların təsvirində yazıçı təfərrüat və detalı həm müsbət, həm də mənfi çalarda işlətmişdir.

Romanın qələmə alındığı illərdə ədəbi prosesdə siyasi, etnik-milli tabular mövcud idi. Sənətkarlar müəyyənləşdirilmiş siyasi qadağalar çərçivəsində yazıb yarada bilirdilər. Tabu və qadağaya məruz qalan sahələrdən biri də keçmiş SSRİ-nin tərkibində olan xalqların öz tarixi keçmişlərinin obyektiv təsviri ilə bağlı idi. Həmin dövrdə bəylərin, xanların müsbət obrazının (hətta tarixi gerçəkliyə uyğun olsa belə) yaradılmasına, etnik birlik və milli azadlıq, müstəqillik və s. ideyalarının tərənnü-münə imkan verilmirdi. Tarixi mövzuda əsər yazmaq istəyən sənətkarlar üçün əməl edilməsi məcburi olan kanonlar müəyyənləşdirilmişdi: xalqlar dostluğu əbədidir, rus xalqı digər xalqlara azadlıq bəxş edibdir, xalqlara səadəti, mədəniyyəti sovet quruluşu gətirib və s.

Yazıçı və şairlər istəməsələr də, buna əməl etmək zorunda qalırdılar, amma bir çox hallarda bədii sözün ifadə imkanlarından son dərəcə yararlanmaqla qadağan olunmuş mövzu ilə bağlı fərqli təsəvvür yaratmağa çalışırdılar. «Abay» romanında əsas qəhrəmanın atası Kunanbaydan da çox danışılır. Sosial mənşəyinə görə müəllif ona münasibətini gizlətməmiş və açıq-aşkar onun mənfi obrazını yaratmağa cəhd göstərmişdir. Bəzi epizodlarda Kunanbay obrazının mənfi təsvirinin süniliyində ifrata yol verilmişdir. Çünki onun əsas günahı bəy olması idi. Amma M.Auezov bir sıra

hallarda Kunanbay obrazının təsvirində obyektiv mövqe nümayiş etdirmişdir. Təfərrüat və detallar bu obyektivliyini təzahürü üçün zəmin hazırlamışdır.

«Kunanbaya kömək lazım olsa, heç kəs öz canını belə əsirgəməzdi. Onun hamını itaətə gətirən gücü, amiranə səsi və qüvvətli iradəsi hər kəsi öz arxasınca getməyə məcbur edirdi. Başqalarının torpağını tutmaq və ya itaət etməyən qəbilələri əzmək lazım gəldikdə, başçılardan hər biri Kunanbayın təkcə göz qapaqlarının azacıq hərəkətindən onu başa düşürdülər. Hətta qarşılıqlı münasibətlərin çox mürəkkəb olduğu, dalaşmaq üçün istənilən qədər bəhanə tapıldığı ailə həyatında da təkcə Kunanbayın adı bütün dedi-qodunun qarşısını dərhal alırdı. Hətta hər dəqiqə bir-birini didməyə hazır olan müxtəlif xasiyyətli rəqibə arvadlar da bərkdən dalaşmağa cürət etməzdilər, ərlərinin qardaşları və ya böyük qohumları cızığından çıxan cavan və qoca arvadların köpünü dərhal yatırdardılar. Sakitləşməyənləri isə yaxşıca kötəkləyərdilər»(3,75).

Özünün iştirak etmədiyi bu epizoddakı təfərrüatlar Kunanbay haqqında müəyyən təsəvvür yaradır. Zahirən onun əzazilliyinin təsviri əsas məqsəd olmuşdur. Amma Kunanbay qəddar və soyğunçu deyil, həm də ciddi, ağır və zəhmli bir insandır. Onun gücü, amiranə səsi, qüvvətli iradəsi var, başqalarını saymayan qadınlar onun xofundan bərkdən danışmağa ürək eləmirlər. Bu isə yalnız bir qəddar insandan qorxunun ifadəsi deyil, zəhmli, özünün və sözünün yerini bilən ağır və təmkinli insanı istər-istəməz saymağın nəticəsidir.

Kunanbay müqəddəs dini ziyarətə gedir, məscid tikdirir, oğluna mükəmməl təhsil vermək istəyir (doğrudur, əsərdə atanın Abayın rus dilini öyrənməsinə imkan yaratmaqda məqsədinin çar məmurları ilə daha yaxşı ünsiyyət qurmaq olduğu vurğulanmışdır. Amma bu, yuxarıda da qeyd etdiyimiz kanonlara zahirən əməl olunduğunu göstərmək cəhdi idi. Digər tərəfdən, hətta Kunanbayı bu məqsədə düşməsinin özündə də qeyri-adi, onu mənfi bir insan kimi səciyyələndirəcək heç nə yoxdur).

Əsərdə ən təsirli və tragik epizodlardan biri Kunanbayın düşmənçiliyi dayandırmaq məqsədi ilə kiçik bir qız uşağını (Kamşatı) başqa bir ailəyə verməsi səhnəsidir. Bu məsələyə ən sərt formada etiraz edən Abay olur. «-Eh, oğlum, ağla-kamala çatmamış oğlum! Qəlbən sən haqlısan, lakin xalqın adət ənənəsi ilə hesablaşmırsan! – deyə Kunanbay səsləndi… Kunanbay bir qədər susdu. Sonra yenə sözə başladı:

-Ulu babalarımızın adəti bunumu öyrədir? Dalaşanları barışdırarkən düşmən qəbilələr arasında nikah bağlamaq adətdir. Qızı qul kimi, girov kimi satırlar. Biz isə Kamşatı verdik ki, Bojey onu özünə qız etsin. Məgər biz onu əzab içərisinə atmışıq? Bütün günahlar Bojeyin özündədir. Əgər o, bir şey anlamaq qabiliyyətinə malikdirsə, nə üçün mənim balamı öz balası kimi qəbul etməyib? Axı, əgər o, mənim qızımla yad uşaq kimi rəftar edirsə, deməli, şərti pozur, bizim qarşımızda borclu qalır. Qoy o, mənə nifrət etsin. Məgər mənim balam, bələkdən çıxarılıb ona verilən uşaq onların qarşısında təqsirkardır? Əgər o, bu sadəcə bir məsələni öz ailəsinə qandıra bilməmişsə, deməli, bir kasa suda boğulmuşdur!» (3,175-176).

Qan düşmənçiliyindən Abay emosional, atası real danışır. Zahirən Abay bu zərərli adətin əleyhdarı, Kunanbay isə tərəfdarı kimi görünür. Əslində Kunanbay qan düşmənçiliyinin qarşısının alınmasına çalışır və bunun üçün həmin dövrdə mümkün olan ən təsirli və hamı tərəfindən qəbul edilmiş imkanı seçir. Maraqlı cəhətlərdən biri də budur ki, eyni bir hadisəni səciyyələndirən təfərrüat həm də üç obrazın: Abayın, Kunanbayın və Bojeyin mənəvi-əxlaqi siması haqqında təəssürat yaradır.

Əsərin sonrakı epizodları ilə tanışlıq göstərir ki, Bojey yurdun ən hörmətli və nüfuzlu ağsaqqallarından və rəhbərlərindən biridir. Onun ölümü və dəfn mərasimi romanda böyük sənətkarlıq məharəti ilə təsvirini tapmışdır. İndiki halında maraq doğuran hal bundan ibarətdir ki, müəllif tərəfindən qəddar və mənfi bir obraz kimi təqdim olunan Kunanbay qan düşmənçiliyinin qarşısının almağın yeganə yolunu seçərək bütün prinsiplərə əməl etdiyi halda, Bojey və onun ailəsi buna əməl etmir, bununla da xalqın adət-ənənəsini pozurlar.

Üç obrazın portreti xalq adətinin təfsilatlı təsviri ilə verilmişdir. M.Auezov dövrünün övladı kimi Abaya vurğunluğunu, Bojeyə hörmətini, Kunanbaya isə antipatiyasını zahirən gizlətmədiyini nümayiş etdirir. Təfərrütların təsviri və qarşılaşdırılaraq müqayisə olunması isə yazıçının roman dünyasındakı mövqeyini bədii şəkildə ifadə edir. Bu və bu tipli başqa epizodlardan məlum olur ki, mürəkkəb xarakteri, ziddiyyətli mənəvi aləmi, həm özünü, ailəsini, həm də rəhbərlik etdiyi eli-obanı fikirləşməsi ilə Kunanbay zəif və güclü tərəfləri olan təbii və canlı bir insandır. Müəllif onu ideallaşdırmamışdır, mənfi planda təsvirinin ifratını mövqeyinin bədii təfərrüatın və detalın səciyyəvi ifadəsi ilə anlaşılmasına üstünlük vermişdir. Romandakı bədii təfərrüat və detalların böyük əksəriyyəti müəllif mövqeyinin birbaşa, açıq deyil, bədii formada təzahürünü şərtləndirmişdir.

M.Auezov həm görkəmli filoloq-alim, həm də əvəzsiz sənət nümunələri yaradan sənətkar olubdur. Adətən eyni vaxtda bədii və elmi fəaliyyətlə məşğul olan şəxsiyyətlərin yaradıcılıq axtarışlarında bunlardan birinin uğuru digərinin itkisi hesabına başa gəlir. Amma hər iki sahədə uğurlar qazanan, xüsusən də alim kimi biliyini bədii yaradıcılığına daha uğurla tətbiq edən yaradıcı şəxsiyyətlər də az olmayıbdır və az deyil. Bunlardan biri də qazax xalqının görkəmli söz sahibi M.Auezovdur.

Ədəbiyyat

1. Məmmədov A. Nəsrin poetikası (XIX əsrin 2-ci yarısı). B., Elm, 1990
2. Чудаков А.П. Поэтика Чехова. М., Наука, 1971.
3. Auezov M. Abay. Azərnəşr, B., 1956
4. Джемилева А.А. Специфика жанра и функция художественной детали в рассказе**. www.nbuv.gov.ua/ Articles/KultNar**

T.Teymurov

The artistic details and creation of images in the novel "Abai" of M.Auezov

Summary

The artistic details and creation of images in the novel "Abai" of M.Auezov. The article examines the forms of appearance of the image creation process in the novel "Abai" of Kazakh writer Auezov. The main attention is focused on identifying the role of the artistic details in the formation of distinctive character of the images, basically Abay.

Туран Теймуров

Теймуров Т.Деталь, художественные подробности и позиция писателья
(на основе романе М.Ауэзова «Абай»)
Резюме

Теймуров Т.Деталь, художественные подробности и позиция писателья (на основе романе М.Ауэзова «Абай»). В статье анализируется проблема художественные подробности и деталья в романе «Абай» казахского писателя М.Ауэзова. Основное внимание удалено выявлению роли авторкого позиции при исползовании художественных подробностей и деталей при формировании самобытного характера образов, в основном Абайа.

Rəyçi: Arif Əmrahoğlu
filologiya üzrə fəlsəfə doktoru

MÜNDƏRICAT

DİLÇİLİK

Qəzənfər Kazımov
Erkən orta əsrlərdə Azərbaycan xalqının və ümumxalq Azərbaycan dilinin təşəkkülü 3
Nigar Veliyeva
The analysis of the phraseological units' peculiarities and their role in the process of foreign language teaching during the intercultural communication (on the material of modern english language) 26
Aqşin Məmmədov
Dilçilikdə ədəbi dil anlayışı: norma və üslublar 38
Светлана Кулиева
Замена предикативной конструкции масдаром 43
Ülviyyə Hacıyeva
Azərbaycan və ingilis dillərində atalar sözlərinin frazeologiya daxilində tədqiqatı 49
Pərvanə Mövsümova
Differences in translation of english idioms 57
Səidə Orucova
İngilis dilinin Amerika variantının yaranması mənbələri 62
Sevinc Bağırova
Şəxs adlarının ingilis Azərbaycan dillərində leksik və semantik xüsusiyyətləri 67
Layə Mustafayeva
Morfoloji və leksik təkrarlar və onların işlənmə xüsusiyyətləri 72
Tünzalə Baxşıyeva
Azərbaycanin qədim toponimləri 77
Məleykə Aslanova,
Samirə Qasımova
Azərbaycan və ingilis dillərində dialektik vahidlər 82
Şəbnəm Məmmədova
The role of body language in communication 87
Sevda Kazımova
Некоторые заметки об истории синхронного перевода 92
Sevər Orucova
Rus dilində konversiya hadisəsi 97
Эльмира Ахмедова
Упражнения, готовящие к монологической устной речи (самостоятельному высказыванию) 107
Aynurə Əmirova
İngilis dilində zoonimlərlə işlənən atalar sözlərinin təsirli vasitələri 113
Gülyaz Zeynallı
Müasir ingilis dilində nəticə əlaqəli mürəkkəb cümlələr 120

Kəmalə Yusifova
Müasir ingilis dilində əks-səda tələffüzünə dair 125
Aybəniz Rəfiyeva
Müasir fransiz və Azərbaycan dillərində sual cümləsinin oxşar və fərqli xüsusiyyətləri 130
Samirə Xudiyeva
Azərbaycan dilində mənsubiyyət kateqoriyasinin formalaşması və bu prosesdə əvəzliklərin rolu 137
Şəhla Şirəliyeva
Türk dilində hərəkət fellərinin funksional-semantik və struktur xüsusiyyətləri 144
Məryam Fazilzadə
The basic features of standard manuscript form 150
Gülnarə Səfərova,
Mehriban İbadullayeva
Cümlə intonasiyasının ümumi əsaslarina dair bəzi qeydlər (İngilis və Azərbaycan dillərinin materialları əsasında) 155
Səidə Hacıyeva
Azərbaycan dilində sait səsdən ibarət söz yuvaları və onların əmələ gəlmə yolları 160
Xanımbacı İbrahimova
Terminlərin ümumişlək sözlərə çevrilməsi 166
Şaban Hüseynov
Türk dillərində şəkilçi qovuşmaları məsələsi 172
Sevinc Qəmbərova
Azərbaycan dilinin qərb şivələrinin tədqiq tarixi 178
Рейхан Сафаралиева
Социолингвистика, социология языка и социология языковой коммуникации 185
Əsmər Hüseynova
Əlamət bildirən sözlərin müxtəlif nitq hissələrinə xidmət etməsi 192
Səidə Qəmərli,
Zamirə Əfəndiyeva
Some of the main problems of lexicology 197
Zahirə Kazımova
Characteristics of the word as the basic unit of language 202
Gülnar Babayeva
Keçən əsrin 20-ci illərində dialekt və şivələrimizin tədqiqi məsələləri 207
Ayəddin Əliyev
Dilimizin bəzi problem məsələləri 215
Айгюн Амирова
Методика работы по словообразованию в процессе обучения русскому языку как иностранному студентам экономистам 221
Sevinc Məmmədova
Müasir alman və Azərbaycan dillərində inkarlığın leksik-qrammatik ifadə vasitələri 226

Gülşən Kərimova
İnglis dilinin tədrisi zamanı kompüter və internet şəbəkəsindən istifadə 232
Зейнаб Гусейнова
Лингвистические аспекты обучения русскому речевому общению 237
Зенфира Оруджева,
Аля Мусаева
Виды упражнений при обучении русской устной речи
нерусскоязычных студентов 243
Maarifə Manafova
«Tibbnamə»nin morfologiyası 250
Jalə Salmanova
L'hétérogénéité en classe de fle 257
Elnarə Abbasova
İngilis dilində inversiya hadisəsi..... 262
Səbinə Orucova
Rəsul Rzanın şeir dilində dialekt leksikası 267
Rəhilə Hümmətova
Aşıq Mikayıl Azaflının poeziyasında işlənmiş omonimlər..... 272

ƏDƏBİYYATŞÜNASLIQ

Hüseyn Həşimli
"Şeypur" jurnalında erməni fitnəkarlığının ifşası 278
Nadir İsmayılov
Nəriman Həsənzadə və uşaq ədəbiyyatı 286
Намин Султанлы
Абдуррахман маджид ар- рубейи – представитель психологического
направления в современной иракской новеллистике 295
Əli Həşimov
Qaçaqçılıq hərəkatından bəhs edən tarixi nəsrdə Naxçıvan 303
Aybəniz Rəhimova
Teymur bəy Bayraməlibəyovun seçilmiş əsərlərinin ilk nəşri..... 310
Şəlalə Quliyeva
Radioda xəbər mətninin hazirlanması 317
Təranə Abdullayeva
Məhəmmədağa Şahtaxtlının milli tərəqqi konsepsiyası 325
Ataəmi Mirzəyev
Füzulinin bir qəzəli haqqında..... 331
Eşqanə Babayeva
Yaqub Qədri Qaraosmanoğlunun "Ankara" romanında
ictimai-siyasi konflikt 338
Səbinə Hacıyeva
XX əsr Amerika nəsri və Con Apdayk 343

Şahbaz Şamioğlu (Musayev)
M.F.Axundzadə və Q.Orbelianının yaradıcılıq əlaqələri və yaxud bir daha ədəbiyyatimizin aldadılmış ulduzunun faciəsi haqqında... 348
Ülkər Əliyeva
Məhəmmədəli Fərzanə və Təbrizdən toplanan bir mifoloji mətn barədə 358
Natiq Adilov
Paniyali Priskin "Bizans tarixi" kitabi ingilis-amerikan ədəbiyyatında hun mövzusunda yazılan əsərlərin əsas qaynağı kimi 367
Nüşabə Sadıxlı
İspan ədəbiyyatının möcüzəsi 372
Solmaz Daşdəmirova
XIX əsr cənubi Azərbaycan ədəbiyyatı 377
Rəna Əliyeva
Toy mərasiminin elementləri Mövlud Süleymanlı nəsrində 382
Təranə Rəhimli
İlyas Əfəndiyevin "Sarıköynəklə Valehın nağılı" romanı çağdaş ədəbi-nəzəri fikirdə 389
Sakibə Ələsgərova
Cənubi Azərbaycanda Sabirin davamçıları və ya inqilabi-demokratik hərəkata doğru 395
Famil Mədətov
H.Cavidin ilk faciələrində azadlıq motivləri 406
Севиндж Абышова
Проблемы передачи стиля автора при переводе (на материале творчества А.Платонова) 413
Könül Nəhmətova
Hekayə janrının forma xarakterinə görə tipologiyası 419
Turan Teymurov
Epik növdə detal, təfərrüat və sənətkar mövqeyi (M.Auezovun "Abay" romanı əsasında) 424

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ
Yığılmağa verilmiş **21.08.2013.**
Çapa imzalanmış **28.09.2013.**
Şərti çap vərəqi 108,5 Sifariş **№ 200.**
Kağız formatı 6**0x108 1/8.** Tiraj **500.**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.